AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ




# ELMİ ƏSƏRLƏR

## XÜSUSİ BURAXILIŞ

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

İSSN: 2224-5529
İSSN: 2224-0829
İSSN: 2223-5124

# ELMİ ƏSƏRLƏR

*Xüsusi buraxılış*

- ***TARİX***
- ***SOSİAL ELMLƏR VƏ HÜQUQ***
- ***İQTİSADİYYAT***
- ***DİLÇİLİK***
- ***ƏDƏBİYYATŞÜNASLIQ***
- ***PEDAQOGİKA, PSİXOLOGİYA, METODİKA***
- ***SƏNƏTŞÜNASLIQ***
- ***TƏBİƏT ELMLƏRİ***
- ***TİBB ELMLƏRİ***

**Naxçıvan – 2024**

**BAŞ REDAKTOR:** ***ELBRUS İSAYEV***
*Naxçıvan Dövlət Universitetinin rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent*

**BAŞ REDAKTOR MÜAVİNİ:** ***ELSEVƏR ƏSƏDOV***
*Naxçıvan Dövlət Universitetinin Elm və innovasiyalar üzrə prorektoru, biologiya üzrə fəlsəfə doktoru, dosent*

**REDAKTOR:** ***ƏLİ HƏŞİMOV***
*Naxçıvan Dövlət Universiteti nəşriyyatının direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent*

**REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:**

***Hacıfəxrəddin Səfərli*** *— tarix elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü*

***İsmayıl Muxtar oğlu Hacıyev*** *— tarix elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü*

***Musa Cəfər oğlu Qasımlı****- tarix elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü*

***Vüqar Gəncəli oğlu Rəhimzadə*** *— siyasi elmlər doktoru, professor*

***Şahin Fazil oğlu Fərzəliyev*** *— tarix elmləri doktoru, professor*

***İbrahim Ethem Atnur*** *— tarix elmləri doktoru, professor*

***Elman Yusif oğlu Cəfərli*** *— tarix üzrə fəlsəfə doktoru, dosent*

***Şamxal Şükür oğlu Məmmədov*** *— tarix üzrə fəlsəfə doktoru, dosent*

***Qəhrəman Novruz oğlu Behbudov*** *— hüquq üzrə fəlsəfə doktoru, dosent*

***Nazim Hidayət oğlu Əhmədov*** *— iqtisad elmləri doktoru, professor*

***Ağarza Ağahəsən oğlu Rüstəmov*** *— iqtisad elmləri doktoru, professor*

***Teymur Abbas oğlu Abbasov****-iqtisad elmləri doktoru, professor*

***Azər Xoşbəxt oğlu Mustafayev*** *— fəlsəfə elmləri doktoru, professor*

***Məmməd Hüseyn oğlu Rzayev*** *— fəlsəfə elmləri doktoru, professor*

***Qərib Vəli oğlu Allahverdiyev*** *— fəlsəfə elmləri doktoru, dosent*

***Yusif Hüseyn oğlu Hüseynov*** *— fəlsəfə elmləri doktoru, dosent*

***İsa Əkbər oğlu Həbibbəyli*** *— filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü*

***Möhsün Zellabdin oğlu Nağısoylu*** *— filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü*

***Mahirə Nağı qızı Hüseynova****-Filologiya elmləri doktoru, professor*

***Əbülfəz Aman oğlu Quliyev*** *— filologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü*

***Əsgər Nadir oğlu Qədimov*** *— filologiya elmləri doktoru, professor*

***Sədaqət Qurbanəli qızı Həsənova*** *— filologiya elmləri doktoru, professor*

***İman Zeynalabdın oğlu Cəfərov*** *— filologiya üzrə fəlsəfə doktoru, dosent*

***Bəxtiyar Həmzə oğlu Əliyev*** *— psixologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü*

***İsmayıl İsrafil oğlu Əliyev*** *— pedaqogika elmləri doktoru, professor*

***Fərrux Abbas oğlu Rüstəmov****- pedaqogika elmləri doktoru, professor*

***Müseyib İbrahim oğlu İlyasov*** *— pedaqogika elmləri doktoru, professor*

***Siyavuş Əşrəf oğlu Kərimi****- professor*

***Gülnaz Abutalıb qızı Abdullazadə****- fəlsəfə elmləri doktoru, professor*

***Taryel Aydın oğlu Məmmədov*** *— sənətşünaslıq doktoru, professor*

***İnara Eldar qızı Məhərrəmova*** *— sənətşünaslıq elmləri doktoru, dosent*

***Tariyel Hüseynəli oğlu Talıbov*** *— biologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü*

***Əlövsət Gülüş oğlu Quliyev*** *— aqrar elmləri elmlər doktoru, professor, AMEA-nın müxbir üzvü*

***İsa Əli oğlu Abdullayev*** *— tibb elmləri doktoru, professor*

***Lalə İsmayıl qızı Allahverdiyeva****-tibb elmləri doktoru, professor*

***Cabbar Niyətulla oğlu Hacıyev*** *— tibb elmləri doktoru, professor*

***Qalib Şolan oğlu Qarayev*** *— tibb elmləri doktoru, professor*

***Daşqın Şahbaz oğlu Qənbərov*** *— biologiya elmləri doktoru, dosent*

***Etibar Nəsrulla oğlu Məmmədov*** *— biologiya elmləri doktoru, professor*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

# MÜNDƏRİCAT

## TARİX

**Elbrus İsayev.** Ümummilli lider Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizlik siyasəti........ 6

**Hacıfəxrəddin Səfərli.** Ümummilli lider Heydər Əliyev və azərbaycanlıların deportasiyası və soyqırımı məsələsi........ 10

**Fəxrəddin Cəfərov.** Heydər Əliyev və Azərbaycanda milli arxiv quruculuğu........ 19

**Arzu Abdullayev.** Heydər Əliyev: tarixin axarını dəyişən şəxsiyyət........ 23

**Xəzər Hüseynov, Fəxriyyə Hüseynova.** Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı (1991-1995-ci illər)........ 26

**Rəsul Bağırov.** Naxçıvanda müdafiə və hərbi qulluqçuluq (1991-1993-cü illər)........ 31

**Ələkbər Cabbarlı.** Heydər Əliyev və milli dövlətçilik təfəkkürü........ 35

**Abdulla Mustafayev, Münəvvər Süleymanova.** Heydər Əliyev və türkdilli dövlət başçılarının zirvə görüşləri çərçivəsində əməkdaşlıq məsələləri........ 38

**Zamin Əliyev.** Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında Heydər Əliyev faktoru........ 44

**Yaşar Rəhimov.** 1969-1982-ci illərdə Şərur rayonunda sənaye və kənd təsərrüfatının inkişafı........ 48

**Ruhiyyə Rzayeva.** Heydər Əliyev və Azərbaycanda arxeologiya elminin inkişafı........ 54

## SOSİAL ELMLƏR VƏ HÜQUQ

**Məmməd Rzayev.** Heydər Əliyev və milli-mənəvi dəyərlərin inkişaf dialektikası........ 58

**Yusif Hüseynov.** Ümummilli lider: fenomenal şəxsiyyət və dahi siyasətçi........ 63

**Emin Şıxəliyev.** Heydər Əliyev strategiyasından zəfərə uzanan yol: mövcud vəziyyət və Cənubi Qafqazda yeni geosiyasi reallıqlar........ 69

**Qərib Allahverdiyev.** Tarixin və ictimai inkişafın gedişini dəyişən müasir siyasi zamanın böyük şəxsiyyəti........ 83

**Yunis Xəlilov.** Azərbaycan xalqının əbədiyaşar xilaskarı Heydər Əliyev müstəqil Azərbaycan Respublikasında hüquq islahatlarının banisidir........ 91

**İsmayıl Qəribli.** Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev və ölkəmizdə məhkəmə-hüquq islahatları........ 96

**Nazlı Yaqubova.** Azərbaycan diplomatiya tarixinin Heydər Əliyev mərhələsi........ 103

## İQTİSADİYYAT

**Ağarza Rüstəmov.** Heydər Əliyev və Azərbaycan dövlətinin, iqtisadiyyatının qurtuluşu........ 108

**Teymur Abbasov.** Aqrar islahatlar şəraitində resurs potensialının kənd təsərrüfatının inkişafında rolu........ 115

**Cavadxan Qasımov.** Heydər Əliyev və milli iqtisadi quruculuq prosesləri: sənaye təsisatlarından sənayeləşmə siyasətinə qədər........ 120

**Əbdülhüseyn Zamanov.** Ümummilli lider Heydər Əliyev: strateji düşüncələr və müasir Azərbaycan reallıqları........ 125

## DİLÇİLİK

**Sədaqət Həsənova.** Azərbaycan nitq mədəniyyətinin inkişafında Heydər Əliyevin rolu........ 129

**Arif Ağalarov.** Dilimizə Heydər Əliyev qayğısı........ 134

**Qənirə Əsgərova.** Heydər Əliyev çıxışlarının leksik-qrammatik xüsusiyyətləri........ 137

**Arifə Zeynalova.** Vaxtı zamana çevirən Ulu öndər Heydər Əliyevin ana dilimizə dövlət qayğısı, dil siyasəti........ 140

**Arzu Abbasova.** Heydər Əliyevin çıxışlarında tabeli mürəkkəb cümlənin işlənmə məqamları........ 145

## ƏDƏBİYYATŞÜNASLIQ

**Xanəli Kərimli.** Heydər Əliyev və müstəqillik illərinin elmi-ədəbi prosesi........ 148

**Nəzakət İsmayılova.** Heydər Əliyev və uşaq ədəbiyyatı: dilimizin inkişafında müstəsna xidmətləri........ 153

**Sədaqət Nemətova.** Folklorumuza Heydər Əliyev sevgisi........ 159

**Xumar Məmmədova.** Heydər Əliyev və dünya ədəbiyyatı məsələləri........ 163

**Səadət Əliyeva.** Heydər Əliyev və Azərbaycanda demokratik medianın inkişafı........ 167

## PEDAQOGİKA, PSİXOLOGİYA, METODİKA

**Məmmədəli Rəhimov.** Ümummilli lider Heydər Əliyevin idman haqqında söylədiyi fikirlər və Azərbaycan idmanının inkişafında Heydər Əliyevin rolu........173

**Çapay Quliyev.** Xalqın Ümummilli liderə inamının tarixi psixoloji əsasları........ 178

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

## SƏNƏTŞÜNASLIQ

**Gülxarə Əhmədova.** Heydər Əliyev və mədəniyyət siyasəti.................................................. 183

**Aypara Behbudova.** Azərbaycanda kitabxana işinin inkişafında Ümummilli lider Heydər Əliyevin rolu.................................................................................................................. 186

**Sevinc Babayeva.**Ümummilli lider Heydər Əliyevin vətəninə, incəsənət və mədəniyyətinə olan sevgisinin sonsuzluğu.............................................................................................. 191

## TƏBİƏT ELMLƏRİ

**Daşqın Qənbərov.** Heydər Əliyev və Naxçıvan təbiəti .......................................................... 199

## TİBB ELMLƏRİ

**İlhamə Mustafayeva.** Heydər Əliyev və Azərbaycan səhiyyəsi ............................................. 203

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

# TARİX

**Elbrus İSAYEV**
*Naxçıvan Dövlət Universiteti*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİ

Azərbaycanın milli inkişaf və təhlükəsizliyinin nəzəri və praktiki məsələlərinin geniş ictimai-siyasi və elmi müzakirəyə çıxarılması, onun konseptual əsaslarının müəyyən edilməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Bu siyasət müstəqil dövlət quruculuğu proseslərinin bütün sahələrini əhatə edərək, milli inkişafın və dövlət idarəçiliyinin əsas vasitələrindən birinə çevrildi. Müstəqil dövlət maraqlarını və beynəlxalq dəyərləri, ümumi təhlükəsizlik normalarını və milli postulatları özündə əks etdirən - şəxsiyyətin, cəmiyyətin, dövlətin təhlükəsizliyinin əsas vəzifələrini, istiqamətlərini və prioritetlərini ehtiva edən yeni milli inkişaf və təhlükəsizlik siyasəti formalaşdırıldı, sonrakı dövrdə müxtəlif inkişaf mərhələlərindən keçərək təkmilləşdirildi və həyata keçirilməyə başlandı.

Ulu öndər Heydər Əliyevin ilk azərbaycanlı olaraq Dövlət Təhlükəsizlik Komitəsində fəaliyyətə başlaması bu orqanın tarixində milli prioritetlərin müəyyənləşməsi kimi xarakterizə edilən yeni dövrün başlanğıcı olmuşdur. Tarixdən bəllidir ki, Azərbaycanda sovetlər dövründə Təhlükəsizlik Nazirliyinin başçısını yerli kadrlardan təyin etmək mümkün deyildi. Bu vəzifələrə yalnız mərkəzdən azərbaycanlı olmayanlar təyin olunmalı idi. 1967-ci ildə ilk dəfə Azərbaycanın Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə azərbaycanlının təyin edilməsi, demək olar ki, tarixi bir hadisə idi. Bundan sonra Heydər Əliyev xalqına qarşı törədilən haqsızlıqları, başlıcası isə gedən prosesləri, sovet reallıqlarını tam aydınlığı, olduğu kimi görmüş, həmin dövrdən də qarşısına yalnız Azərbaycan naminə çalışmaq kimi yüksək məqsəd qoymuş, möhkəm, mətin və sarsılmaz iradəli şəxsiyyət kimi formalaşmışdır.

1944-cü ildən dövlət təhlükəsizliyi orqanlarında işə başlayan Heydər Əliyev qısa bir zamanda mərkəzi aparatda bölmə rəisi vəzifəsinə təyin edilmiş, 1953-cü ildə əks-kəşfiyyat şöbəsinin rəisi vəzifəsinə irəli çəkilmişdir. 1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında DTK sədrinin birinci müavini, 1967-ci ildə isə sədri təyin edilmişdir. Bu illərdə Ümummilli Lider Heydər Əliyev milli ruhlu, vətənpərvər insanları repressiyalardan qorumuş, təhlükəsizlik orqanlarının milliləşdirilməsinə çalışmışdır.

Heydər Əliyev yeganə şəxsiyyətlərdən idi ki, o, hələ sovet dövründə repressiyaları kəskin tənqid etmiş, SSRİ Ali Sovetinin "20-30-cu illər repressiya qurbanlarına bəraət verilməsi haqqında" tarixi Fərmanının qəbul edilməsinin fəal təşəbbüsçülərindən biri olmuşdur. SSRİ üzrə, ümumilikdə 3.778.234 nəfər əsassız represiyalara məruz qalmışdır ki, onların da 79.852 nəfəri, həmin dövrdə cəmi 3 milyona yaxın əhalisi olan Azərbaycan SSR-nin payına düşmüşdür. Bunların da 5.152 nəfəri günahsız olmalarına baxmayaraq, güllələnmiş, qalanları isə Sibirə sürgün edilmişdir.Statistik faktlar göstərir ki, repressiyaların tüğyan etdiyi illərdə Azərbaycanın 52 rayonundan 31-nin təhlükəsizlik orqanlarının sədrləri erməni millətindən olan şəxslər idi. Azərbaycanın

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

xüsusi xidmət orqanlarında milli maraqların ön plana çəkilməsi, milli kadrların rəhbər vəzifələrə təyinatı, gənc işçilərin xüsusi ali təhsil almaq üçün Moskva, Leninqrad, Minsk və digər şəhərlərə göndərilməsi, ümumiyyətlə, orqanlarda milliləşmə prosesinin aparılması məhz ulu öndər Heydər Əliyevin adı ilə qırılmaz surətdə bağlıdır. Dahi şəxsiyyət Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə xüsusi xidmət orqanlarının inkişafını daim diqqət mərkəzində saxlayıb, dövrün ağır şərtlərinə baxmayaraq, bu orqanın formalaşmasına böyük əmək sərf edib. Heydər Əliyev təhlükəsizlik orqanlarında elə bir iz, elə bir irs qoymuşdur ki, bu, bütöv bir məktəbə çevrilmişdir. Bu məktəbin əsasını millilik, vətənpərvərlik, peşəkarlıq, prinsipiallıq və tələbkarlıq təşkil edir. Heç təsadüfi deyil ki, bu gün Dövlət Təhlükəsizlik orqanlarında çalışan hər bir şəxs Heydər Əliyevi özünün əbədi və fəxri rəhbəri sayır.

Ümummilli Liderin Azərbaycan qarşısında ən böyük xidmətlərindən biri də odur ki, siyasi tariximizdə ilk dəfə təhlükəsizlik orqanlarının milliləşdirilməsinə nail olmuş, sovet NKVD-sinin azərbaycanlıların yaddaşında həkk etdirdiyi antimilli cəza aparatı obrazını tədricən, praktiki addımlarla dağıdaraq təhlükəsizlik orqanlarını xalqı, milləti qoruyan və onun öz nümayəndələrindən təşəkkül tapan bir sistemə çevirmiş, əsl milli təhlükəsizlik sistemi nümunəsi yaratmışdır.

Heydər Əliyevin gəlişi ilə təhlükəsizlik sistemi milliləşdi, savadlı, peşəkar milli kadrlar irəli çəkildi, təhlükəsizlik xidməti milləti təhlükələrdən qoruyan, xalqın yetişməkdə olan milli-mədəni elitasını himayə edən bir orqan oldu. Heydər Əliyevin təhlükəsizlik orqanlarına rəhbərlik etdiyi 1960-cı illərdə və respublikaya rəhbərlik etdiyi 1970-80-ci illərdə milli azadlıq mübarizəsinə həsr edilmiş elmi və bədii əsərlər yazılmış, çap edilmiş, filmlər çəkilmişdir.

Dahi şəxsiyyət torpaqlarımızın Ermənistana verilməsinin qarşısının alınması, rəsmi tədbirlərdə Azərbaycan dilinin istifadəsinə şərait yaradılması, ziyalıların və gənclərin himayə edilməsi kimi mühüm məsələlərdə də xalqımızın maraqlarını qətiyyətlə müdafiə etmişdir. Bu, ilk növbədə Heydər Əliyevin bir zamanlar cəza aparatı kimi tanınan sistemin milli maraqlara uyğun transformasiyası naminə titanik əməyinin nəticəsidir.

Ümummilli Liderin milli dövlətçilik ənənələrinin bərpasında ən mühüm xidmətlərindən biri ideoloji birlik ideyasının gerçəkləşdirilməsindən ibarət olmuşdur. Bu baxımdan Azərbaycanın milli inkişaf və təhlükəsizliyinin təmin olunmasında və bu sahə üzrə dövlət siyasətinin müəyyənləşməsində vahid milli ideyanın - azərbaycançılığın formalaşdırılması və rəsmi dövlət siyasəti səviyyəsinə qaldırılması mühüm əhəmiyyətə malik olub. Xüsusən dövlət müstəqilliyinin bərpası və möhkəmləndirilməsi, ölkədə milli mənəvi dəyərlərin qorunub saxlanılması və inkişafı, dünya azərbaycanlılarının müstəqil dövlətçilik amalı ətrafında birləşdirilməsi sahələrində bu ideya ötən müddət ərzində əvəzsiz rol oynayıb.

Ümummilli Lider həm də Azərbaycanda əsl vətəndaşlıq, əsl siyasətçi, əsl dövlət xadimi nümunələrini bizə miras qoymuşdur. Onun xarizmatik liderliyi, möhkəm iradəsi, siyasi uzaqgörənliyi, idarəçilik istedadı, dövlətə rəhbərlik bacarığı, qlobal düşüncə tərzi Azərbaycanın müstəqilliyi və milli dövlətçiliyi uğrunda apardığı mübarizə dövründə - 1990-cı illərin əvvəllərində daha qabarıq tərzdə üzə çıxmışdır. Xalqımızın ciddi və taleyüklü problemlər qarşısında dayandığı

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

həmin dövrdə Heydər Əliyev Azərbaycanın müstəqil dövlətçiliyinin, milli birliyinin qorunub saxlanılmasında misilsiz tarixi xidmətlər göstərmiş, xalqı məhv olmaq təhlükəsindən xilas etmək missiyasını həyata keçirmişdir. Müstəqilliyimizin bərpası 18 oktyabr 1991-ci ildə baş tutsa da, onun əsası Naxçıvanda məhz Heydər Əliyevin Ali Məclisə sədr seçilməsi ilə başlanmış və Bakıda başa çatdırılmışdır. Naxçıvanda keçmiş SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin, o cümlədən, Sərhəd Xidmətinin təxribatçı, pozucu fəaliyyətinin qarşısını qətiyyətlə almaq üçün o, Naxçıvan Ali Məclisinin sədri olaraq, Muxtar Respublikada ilk dəfə olaraq Təhlükəsizlik Xidmətini ləğv etmişdir.

Müstəqil dövlətçilik maraqlarının təmin edilməsi tələbləri, yeni geosiyasi aktorlarla birbaşa ünsiyyətin yaranması, tamamilə fərqli bir təhlükəsizlik mühitinə daxil olması, iqtisadi, ictimai, siyasi münasibətlərin demokratiya, vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı yoluna çıxması və s. yeniliklər Azərbaycanda şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyinə dair yeni-yeni yanaşmaların, proqram və konsepsiyaların yaradılması zərurətini ortaya çıxardı. Bütün bunlar Azərbaycan hökumətini və onun müvafiq məsul şəxslərini ölkənin milli maraqlarının və təhlükəsizliyinin əsas vəzifə və tələblərinə uyğun gələn Milli Təhlükəsizlik Konsepsiyasını formalaşdırmağa məcbur etdi. Milli Təhlükəsizlik Konsepsiyası ölkənin milli təhlükəsizlik siyasətinin həyata keçirilməsində uzunmüddətli strateji vəzifə və prioritetləri özündə əks etdirən konseptual sənəd hesab olunur. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası Azərbaycan Prezidentinin 2007-ci il 23 may tarixli sərəncamı ilə təsdiq olunmuş və fəaliyyət üçün əsas götürülmüşdür.

Azərbaycan Prezidenti cənab İlham Əliyev ölkənin milli maraqlarla bağlı dövlət siyasətini formalaşdırarkən bir çox iqtisadi, siyasi, ideoloji, coğrafi, mədəni və digər amilləri, daxili siyasi maraqları, müxtəlif milli, etnik, sosial-siyasi və s. qüvvələrin mənafelərini, beynəlxalq aləmin mümkün reaksiyalarını, ulu öndər Heydər Əliyevin təhlükəsizliklə bağlı zəngin nəzəri irsini nəzərə alaraq, ölkə vətəndaşlarının milli iradəsini və dövlətin ali təhlükəsizlik maraqlarını rəhbər tutmuşdur.

Azərbaycan Respublikasının əsas inkişaf prioritetləri ilk növbədə onun milli maraqlarının formalaşması və təmin olunması ilə bağlıdır. Müasir dövrdə ölkələrin milli inkişaf tələbləri onların daxili və xarici siyasətini - sosial-iqtisadi və siyasi-hüquqi inkişafının vəzifələrini və səviyyəsini, respublikanın coğrafi və geosiyasi mövqeyini, milli-tarixi ənənələrinin qorunmasını və inkişaf etdirilməsini, dövlətin suverenliyinin və milli təhlükəsizliyinin təmin olunmasını və s. çoxsaylı vəzifələrin həyata keçirilməsini tələb edir. Bütün bunlar öz əksini geosiyasət elminin "milli maraq" kateqoriyasında tapır.

Milli maraqların və milli təhlükəsizliyin təmin olunması üçün dövlət öz sərəncamında olan bütün maddi və mənəvi vasitələrdən, daxili və xarici resurslardan - iqtisadi, siyasi, ideoloji, diplomatik və s. mexanizmlərdən istifadə edir.

Milli təhlükəsizliyin təmin olunması ölkənin sabit və davamlı inkişafında strateji əhəmiyyət daşıyır, ictimai həyatın bütün sahələrini əhatə edən dinamik dəyişikliklər prosesinə mühüm təsir göstərir.

Milli təhlükəsizliyinin təmin olunması üçün dövlət özünün həm daxili resurslarından, həm də xarici siyasət vasitələrindən - siyasi, iqtisadi, hərbi, təbliğat və

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

informasiya və s. istifadə edir. Xarici siyasi fəaliyyətin əsas vasitəsi ilk növbədə rəsmi diplomatiya qurumları hesab olunur. Diplomatiya xüsusi institutların timsalında və beynəlxalq hüquqa uyğun olan çoxsaylı metod və vasitələrin köməyi ilə dövlətin rəsmi xarici fəaliyyətini təşkil edir və ona rəhbərlik edir.

Milli təhlükəsizliyin təmin olunmasının daxili şərtləri sırasına dövlətin ali orqanlarının ölkədə demokratiyanı və hüquqi dövlət maraqlarını dönmədən təmin etməsi, milli-vətəndaş birliyinə nail olunması, tolerant mühit yaratması, elmin, təhsilin, sosial həyatın inkişaf etdirməsi, milli-mənəvi dəyərlərin qorunması, iqtisadi, mənəvi, sosial tərəqqiyə nail olması və sairdən ibarətdir.

Azərbaycanın təhlükəsizlik siyasətində daxili sabitlik və sərhəd təhlükəsizliyinin təmin olunması, ölkədaxili miqrasiya, enerji, nəqliyyat təhlükəsizliyi, fövqəladə idarəetmə, ətraf mühitin və əhalinin sağlamlığının mühafizəsi, informasiya təhlükəsizliyi məsələləri də daim diqqətdə saxlanılmışdır.

Bu gün Heydər Əliyevin siyasi kursunu inamla və uğurla davam etdirən, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan öz dövlətçilik ənənələrini daha da inkişaf etdirir. Məhz Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə mühüm təşkilati-əməli islahatların həyata keçirilməsi, zəruri hüquqi bazanın möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər planı işlənib hazırlanmışdır. «Milli təhlükəsizlik haqqında», «Kəşfiyyat və əks-kəşfiyyat haqqında», «Dövlət sirri haqqında» Azərbaycan Respublikası qanunlarının, «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası»nın və sair qanunvericilik aktların, normativ-hüquqi sənədlərin qəbulu təhlükəsizlik orqanlarının fəaliyyət istiqamətlərinin qanunvericilik bazasının təkmilləşdirilməsinin göstəriciləridir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, tarixdə heç vaxt Azərbaycan indiki qədər güclü, indiki qədər azad və müstəqil olmamışdır.
Ölkəmiz özünün inkişaf strategiyasının yeni mərhələsinə - postneft dövrünə daxil olmuşdur. İndi Azərbaycanda həyata keçirilən siyasi və iqtisadi islahatların əsas hədəfi çevik, operativ və effektli idarəçilik sistemi yaradaraq, mövcud daxili imkanlardan daha səmərəli və hərtərəfli istifadə etməklə respublikanın sosial-iqtisadi inkişafını davam etdirmək, Azərbaycanın dünya birliyində tutduğu öncül mövqelərini daha da möhkəmləndirmək və əhalinin artan maddi-mənəvi tələbatını gələcəkdə də dolğun şəkildə təmin etməkdən ibarətdir. Bu hədəflərə çatmaq üçün xalq- iqtidar birliyinin, sosial və siyasi sabitliyin qorunması çox vacib vəzifələrdəndir və əlbəttə ki, həmin vəzifələrin icrasında təhlükəsizlik xidməti əməkdaşlarının da xüsusi rolu var. Əminik ki, Heydər Əliyevin şah əsəri olan Azərbaycan dövlətçiliyinin qorunması və yeni hədəflərə doğru uğurlu inkişafı naminə milli təhlükəsizlik xidməti öz vəzifə və öhdəliklərini bundan sonra da layiqincə yerinə yetirəcək. Ulu öndər Heydər Əliyev təhlükəsizlik orqanı əməkdaşlarının fəaliyyətini yüksək qiymətləndirərək deyirdi: “Dövlətimizin, xalqımızın təhlükəsizliyini təmin etmək peşəsinə sahib olmaq hər bir vətəndaş üçün şərəfli vəzifədir. Çünki təhlükəsizlik təşkilatının əməkdaşları cəmiyyətdə yüksək etimada, eyni zamanda yüksək səlahiyyətə malikdirlər”.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

**HACIFƏXRƏDDİN SƏFƏRLİ**
*seferli949@mail.ru*
*Naxçıvan Dövlət Universiteti*

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANLILARIN DEPORTASİYASI VƏ SOYQIRIMI MƏSƏLƏSİ

Azərbaycan tarixinin hərtərəfli və obyektiv şəkildə tədqiq olunmasına böyük ehtiyac olan problemlərindən biri də XX yüzillik boyu ermənilər tərəfindən xalqımıza qarşı həyata keçirilən soyqırımı və deportasiya siyasətidir. Çünki keçən yüzillikdə, Sovet hakimiyyəti illərində dövrün tələblərinə uyğun olaraq, Azərbaycan sovet tarixşünaslığında bu problemin üstündən sükutla keçilmiş, tədqiq olunmamışdır. Problemlə əlaqədar işıq üzü görən tədqiqatlar isə dövrün tələblərinə uyğun olaraq, birtərəfli aparılmış, hadisələrin mahiyyəti təhrif olunmuş, əsl həqiqət açılmamış, xalqımıza qarşı törədilən soyqırım və deportasiya cinayətləri unutdurulmağa çalışılmışdır. Məhz buna görə də, tarixi ədəbiyyatda ermənilərin 1905-1907-ci və 1918-1920-ci illərdə xalqımıza qarşı törətdiyi soyqırımlar "vətəndaş müharibəsi", azərbaycanlıların 1948-1953-cu illərdə Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası, çoxlu insan tələfatına səbəb olan hadisələr isə "könüllülük prinsipləri" əsasında köçürülmə kimi qiymətləndirilmişdir. Ancaq hadisələrin şahidi olan insanlar bu vəhşilikləri və cinayətləri həmişə "erməni-müsəlman davası", deportasiya, qovulma kimi dəyərləndirmişdir.

Sovet hakimiyyəti illərində bu hadisələri xalqın yaddaşından silmək üçün hər cür vasitələrə əl atılmış, hətta həmin dövrdə yaşamış Azərbaycanın görkəmli şəxsiyyətləri tərəfindən yazılmış gündəliklər, kitablar xalqdan gizlədilmiş, onların oxunmasına icazə verilməmiş, bu sahədə ciddi qadağalar qoyulmuşdur. Məsələn, M.S.Ordubadinin "Qanlı illər" (28), M.M.Nəvvabın "1905-1906-cı illər erməni-müsəlman davası" (27), M.Muradzadənin "Mart hadiseyi-əliməsi" (23), M.B.Əliyevin "Qanlı günlərimiz" (9) və s. bu kimi əsərlər elmi dövriyyədən çıxarılmış, xalqdan gizli saxlanılmışdır. Bu qəbildən olan əsərlərin varlığından əhali yalnız Azərbaycan 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən sonra xəbər tutmuşdur.

Xalqımıza qarşı bu cür məhdudiyyətlər qoyulan Sovet hakimiyyəti illərində ermənilərə bu sahədə sərbəstlik verilmişdi. Ona görə də, sovet hakimiyyətinin 70 ili ərzində azərbaycanlılarla ermənilərin dost, qardaş olması ideyasının xalqımıza sırındığı bir vaxtda ermənilər Türkiyəyə və Azərbaycana qarşı ərazi iddiası irəli sürür, "Böyük Ermənistan" xülyasını gerçəkləşdirmək üçün təbliğat aparırdılar. Respublikamızda isə bu haqda nəinki yazmaq, hətta belə sözləri dilə gətirmək yasaq edilmişdi (29, s.6). Buna görə də, Ümümmilli lider Heydər Əliyev Azərbaycanın XIX-XX əsrlər tarixinin yenidən işlənməsinə xüsusi diqqət yetirərək Elmlər Akademiyasının həqiqi və müxbir üzvləri ilə 31 yanvar 1997-ci ildə keçirilən görüşündə Azərbaycanın XIX-XX əsrlər dövrü tarixinin olduğu kimi, obyektiv yazılmasını tarixçilər qarşısında təxirəsalınmaz və aktual bir vəzifə kimi qoyaraq demişdir ki, "indi akademiyanın qarşısında duran vəzifələrdən biri də Azərbaycan xalqının XIX-XX əsrlər tarixinin yazılmasıdır" (1, s.369).

Mənfur ermənilər tərəfindən Azərbaycan xalqına qarşı törədilən soyqırım və deportasiya problemlərinin

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

obyektiv tədqiq olunması, xalqa bu sahədə həqiqətlərin çatdırılması görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışından sonra mümkün oldu. Bu cəhətdən onun Prezident kimi 18 dekabr 1997-ci ildə imzaladığı “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” (2) və 26 mart 1998-ci ildə imzaladığı “Azərbaycanlıların soyqırımı haqqında” (3) Fərmanların böyük əhəmiyyəti oldu. Bu Fərmanlar problemin obyektiv həlli, tədqiqi, nəticələrin nəşri, təbliği, xalqımıza və beynəlxalq ictimaiyyətə çatdırılması ilə əlaqədar tədqiqatçılar qarşısında təxirəsalınmaz vəzifələr qoymaqla bərabər, ermənilərin xalqımıza qarşı uzun illərdən bəri apardığı soyqırım, etnik təmizləmə, deportasiya siyasətini ifşa edən siyasi-tarixi və beynəlxalq əhəmiyyətli dövlət sənədləri kimi diqqəti cəb edir.

Azərbaycanlıların Qərbi Azərbaycan torpaqlarından kütləvi surətdə deportasiyası ilə əlaqədar imzalanmış Fərmanın preambula hissəsində qeyd olunur ki, “son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir. SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında, 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar–totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar” (2).

Sovet dövlət aparatının əsas fiqurlarından biri, daşnak kimi doğulan, bolşevik kimi yaşayan və satqın kimi ölən (32, s.275), Azərbaycan xalqının qəddar düşməni A.Mikoyan İ.Stalini inandırmışdı ki, azərbaycanlılar satqındır. Ona görə də, İkinci Dünya müharibəsinin ən qızğın çağında, 7 dekabr 1942-ci ildə İ.Stalinin imzası ilə azərbaycanlıların tamamilə Orta Asiya və Qazaxıstana köçürülməsini nəzərdə tutan məxfi qərar qəbul edilmişdi. Ancaq Azərbaycan rəhbərliyinin apardığı işlər nəticəsində bu qərarın icrası baş tutmamışdı (12, s.99-100). Təəssüf ki, müharibə qurtardıqdan az sonra ermənilər bu arzularını gerçəkləşdirə bildilər və SSRİ Nazirlər Sovetinin azərbaycanlıların indiki Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından köçürülməsi ilə əlaqədar 2 qərarın qəbul edilməsinə nail oldular. Əslində bu qərarlarının verilməsinə sovet rəhbəri İ.Stalinin razılığı 1943-cü ildə İranda, Tehran konfransı zamanı alınmışdı. Həmin vaxt erməni diasporu yaranmış əlverişli məqamdan yararlanaraq SSRİ Xarici İşlər Naziri V.Molotovdan xahiş etmişdilər ki, İranda yaşayan ermənilərin SSRİ-yə köçməsinə icazə versinlər. V.Molotov isə elə oradaca İ.Stalinlə danışaraq bu məsələ ilə əlaqədar onun

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

razılığını almışdı (22, s.140). Ona görə də, İ.Stalin tərəfindən 23 dekabr 1947-ci ildə imzalanan "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 10 mart 1948-ci ildə imzalanan, köçürmə ilə əlaqədar tədbirlər planının ətraflı şərh olunduğu "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" qərarlara uyğun olaraq, azərbaycanlılar özlərinin ata-baba yurdlarından zorakılıqla kütləvi surətdə köçürüldülər. Azərbaycan rəhbərliyi bu qərarların icrasına mane olmaq üçün səylər göstərsə də, heç bir nəticəsi olmadı. Hətta Azərbaycan SSR Nazirlər Sovetinin sədri Teymur Quliyevin SSRİ Nazirlər Soveti sədrinin müavini V.Molotova 9 iyul 1948-ci ildə ünvanladığı məktubda köçürüləcək insanların qərarlarda nəzərdə tutduğu kimi Kür-Araz ovalığına deyil, daha əlverişli torpaqlara köçürülməsi təklifi də qəbul olunmadı.

Qəbul olunan bu antihumanist qərarda 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə 50 min nəfərin köçürülməsi nəzərdə tutulurdu. Beləliklə, 1948-1953-cü illərdə bu qərarlar icra olundu və 150 mindən artıq azərbaycanlı guya "könüllülük prinsipi", əslində isə zorakılıqla ata-baba yurdlarından Azərbaycana köçürüldülər. Yaşadıqları gözəl təbiətə, əlverişli iqlim şəraitinə malik torpaqlardan Kür-Araz ovalığının ilan mələyən ərazilərinə köçürülən bu insanların bir hissəsi şəraitə uyğunlaşa bilmədikləri üçün həyatını itirdi. Bu faciədə Ermənistandan köçürülən insanların Azərbaycanda yerləşdirilməsi ilə məşğul olmağın tapşırıldığı Azərbaycan SSR Nazirlər Sovetinin şöbə müdiri, 1988-ci ildə başlanan Dağlıq Qarabağ probleminin əsas təşkilatçılarından biri K.Brutensin atası N.Brutensin və Azərbaycan Nazirlər Sovetinin məsul işçisi R.Sevumyanın böyük rolu oldu.

Köçürülmədə əsas məqsəd indiki Ermənistanın azərbaycanlılardan təmizlənməsi olsa da, bu siyasət çox ustalıqla ört-basdır edilir və xaricdən gələn erməniləri yerləşdirməyə xidmət edən tədbir kimi qələmə verilirdi. Çünki hazırda Ermənistan ərazisində 1948-1953-cü illərdə köçürmə zamanı boşaldılan yüzlərlə kənd xaraba vəziyyətdə qalmaqdadır. Hətta Ermənistan KP MK-nin 1975-ci il yanvar plenumunda qeyd olunmuşdur ki, 476-dan çox kənd istifadəsiz qalmışdır. Erməni millətçilərinin 1990-cı ildə etiraf etdiyi kimi, həmin vaxt azərbaycanlıların köçürülməsi ilə əlaqədar boşaldılan torpaqlardan və mənzil fondundan xaricdən gələn erməni kəndlilərinin yerləşdirilməsi üçün istifadə edilməmişdir (22, s.141).

Köçürmə zamanı sovet təbliğatı belə bir fikir aşılayırdı ki, guya bu insanlar könüllülük prinsipi əsasında öz yurdlarını tərk edib köçürlər. Hətta onların yük qatarlarına mindirilib yola salınması mərasimi aidiyyatı dövlət orqanları tərəfindən zurna-balabanların çalğısı, müşaiyyəti ilə həyata keçirilirdi. Hətta "könüllülük prinsipləri" əsasında deportasiya olunan bu zavallı insanlar rəqs etməyə də məcbur edilirdilər. Bu hal köçürülənlərin Azərbaycanda qarşılanması zamanı təkrar olunurdu. Respublika Dövlət Kino-Foto sənədləri Arxivində Ermənistandan deportasiya olunanların Azərbaycanda "təntənəli qarşılanma" mərasimini əks etdirən çox nadir kino lenti qorunub saxlanır. Kino lentdə Ermənistandan deportasiya olunanları gətirən qatarı "intizarla" gözləyən, əllərində gül-çiçək dəstələri tutmuş insanlar, qatarın perronda dayanması, mal-qara və yük daşınması üçün nəzərdə

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

tutulmuş vaqonların kiçik pəncərələrindən baxan deportasiya olunan insanlar, vaqonlardan yorğun, üzgün və xəstə vəziyyətdə düşən qadınlar, uşaqlar, qocalar, bu zavallı insanlara gül dəstələri təqdim olunması, onların ardınca mal-qara və qoyunların çıxması əks olunmuşdur (29, s.179-180). Bu cür sənədli faktlarla yanaşı, günümüzədək gəlib çatan, həmçinin deportasiyanın ağır günlərini yaşayan insanların yaddaşında qalan deyimlər də həmin hadisələrə əhalinin münasibətini çox gözəl əks etdirir. Məsələn, Qulu Kəngərlinin yazdığına görə, həmin vaxt doğma yurdunu tərk etməyə məcbur edilən nənəsi belə bir bayatı çəkibmiş: "Dağlar başı ala qar, Ala yaylıq, ala qar, Nə qədər qar yağmışdı, Yağmamışdı belə qar" (18, s.231, 237).

"Nə qədər qar yağmışdı, Yağmamışdı belə qar" deyərkən 1905-1907-ci və 1918-1920-ci illərlə müqayisədə 1948-1953-cü illərdə həyata keçirilən zorakı tədbirlərin acısının, ağrısının daha dəhşətli olduğunu vurğulayan bu bayatı deportasiyaya məruz qalmış insanların köçürməyə münasibətini çox gözəl şəkildə ifadə edən şifahi xalq ədəbiyyatı nümunəsidir.

Ulu öndər Heydər Əliyev tərəfindən imzalanmış mühüm dövlət sənədi olan Fərmanda da qeyd olunduğu kimi "Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir" (2). Ona görə də, çox böyük tarixi əhəmiyyətə malik, tarixi yaddaşımızın bərpasına xidmət edən və ona qayıdış olan fərmanla azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq olunması, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə yaradılan komissiyaya Ümummilli liderin özünün sədr təyin edilməsi onun bu məsələyə nə qədər böyük önəm verdiyinin ən parlaq göstəricisidir. Fikrimizcə, ermənilər tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə və soyqırım siyasəti, bu zaman saysız-hesabsız insanların ağır məhrumiyyətlərə, didərginliyə, qaçqınlığa düçar olması, kütləvi qırğınlara məruz qalması və s. məsələlərin ilk dəfə açıqlandığı bu fərman XX əsr boyu azərbaycanlıların indiki Ermənistan ərazisindəki ata-baba yurdlarından zorakılıqla deportasiya olunması, bu işin 1988-1989-cu illərdə tamamilə başa çatdırılması və "türksüz Ermənistan" yaradılması faktına hüquqi-siaysi qiymət vermək məqsədi ilə dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar qarşısında məsələ qaldırmaq üçün zəmin rolunu oynaya bilər.

Ümummilli lider Heydər Əliyevin 26 mart 1998-ci ildə imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərman ermənilərin XX əsr boyu xalqımıza qarşı törətdiyi soyqırımlar, soyqırımların tarixi kökləri, mahiyyəti, onlara hüquqi-siyasi qiymət verilməsi baxımından çox mühüm dövlət sənədi kimi böyük əhəmiyyət kəsb edir. Bu fərman 200 il ərzində Azərbaycan xalqına qarşı törədilən haqsızlıqların indiki və gələcək nəsillərimizə, habelə bütün dünya ictimaiyyətinə çatdırılması baxımından xüsusi dövlət əhəmiyyəti, hətta beynəlxalq əhəmiyyət kəsb edən sənəddir. Özünün ruhu, məzmunu, ideya yönümü ilə bu sənəd yüz illərlə xalqımıza qarşı törədilən qəddar cinayətlərin, XX əsrin sonlarında Dağlıq Qarabağ problemi şəklində ortaya çıxmış erməni təcavüzünün həqiqi köklərinin öyrənilməsi və

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

dərk edilməsində əvəzsiz tarixi-siyasi mənbə əhəmiyyətinə malikdir" (19).

Fərmanın preambula hissəsində XIX yüzilliyin I qərinəsində imzalanmış Gülüstan və Türkmənçay müqavilələri, ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi soyqırımın Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrilməsi kimi xarakterizə edilir. 1826-1828-ci illər Rusiya-İran müharibəsinin yekunu olan Türkmənçay müqaviləsinin şərtlərinə uyğun olaraq, Azərbaycana 40.000 nəfər erməni köçürüldü, onlar əsasən keçmiş Qarabağ və Naxçıvan xanlıqlarının ərazisində yerləşdirildilər. Köçürmə zamanı Naxçıvan əyalətində 2557 erməni ailəsi yerləşdirilmişdi. Onlardan 416 ailə şəhərlərdə, qalanı isə kəndlərdə məskunlaşdırılmışdı. Yalnız Ordubad şəhərinə 266 ailə gətirilmişdi. Həmin vaxt Qarabağ xanlığı ərazisində 3000 ailə (15 min nəfər), İrəvan xanlığı ərazisində isə 1395 erməni ailəsi yerləşdirilmişdi (33, s.382). Köçürüləcək ermənilərə şirnikləndirici vədlər verilirdi. Məsələn, erməni əsilli polkovnik Lazarev 30 mart 1828-ci ildə Urmiyada ermənilərə "Bəyannamə" ilə müraciət etmiş, onlara köçdükləri yerlərdə rahat və xoşbəxt sığınacaq veriləcəyi vəd edilmişdi (31, s.202). Həmçinin 1828-1829-cu illər Rusiya-Osmanlı müharibəsinin nəticəsi olaraq imzalanan Ədirnə müqaviləsinin şərtlərinə əsasən Osmanlı imperiyasından köçürülən 84 min 600 nəfər erməni Azərbaycan torpaqlarında, əsasən İrəvan və Yelizavetpol quberniyalarının ən yaxşı xəzinə torpaqlarında məskunlaşdırıldı (34, s.55). Rus müəlliflərinin şəhadətinə görə bunlardan başqa köçürmə zamanı İrandan və Osmanlı imperiyasından Azərbaycana qeyri-rəsmi şəkildə də çoxlu erməni gəlmişdir. 1826-1828-ci illər Rusiya-Qacarlar və 1828-1829-cu illər Rusiya-Osmanlı müharibələrinin spesifik nəticələri ondan ibarət olmuşdur ki, sonda müharibənin getdiyi yerlər ciddi etnik dəyişmələrə, xüsusən də, müsəlmanların sayının azalmasına və coğrafiyada xristian amilinin fəallaşmasına gətirib çıxarmışdır (31, s.215).

Ermənilərin Azərbaycana köçürülməsi prosesi bütün XIX yüzillik boyu və XX yüzilliyin əvvəllərində də davam etdirilmiş və köçürüldükləri ərazilərdə onların sayı süni surətdə artırılmışdı. Belə ki, 1829-cu il Ədirnə müqaviləsindən sonra Şərqi Anadoludan Azərbaycana və Rusiyaya köçürülən ermənilərin sayı 150 min nəfərə çatdırılmışdı. 1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsindən sonra Osmanlı imperiyasından Azərbaycana və Rusiyaya 1878-ci ildə 85.000, 1894-cü ildə 90.000, 1897-ci ildə 10.000 nəfər erməni köçürülmüşdü. I Dünya müharibəsi illərində Şərqi Anadoludan Qafqaza 400.000 erməni gətirilmiş, onların yerinə Qafqazdan 400.000 azərbaycanlı köçürülmüşdü (31, s.219-221). Təsadüf deyildir ki, rus məmuru N.Şavrov deyirdi ki, XX yüzilliyin əvvələrində Cənubi Qafqazda yaşayan 1.300.000 ermənininin bir milyondan çoxu yerli əhali olmayıb bizim tərəfimizdən köçürülənlərdir (34, s.56). Faktlar sübut edir ki, ermənilərin Azərbaycana köçürülməsi və məskunlaşdırılması prosesi strateji cəhətdən uzaq hədəflərə və uzunmüddətli planlara hesablanmış siyasətin tərkib hissəsi olmuşdur. Çarizmin birbaşa Azərbaycana, onun yerli əhalisinə qarşı yönəlmiş müstəmləkəçi siyasəti ermənilərin xalqımıza qarşı məkrli planları ilə paralellik təşkil edirdi. Beləliklə, XIX əsrin II rübündən erməni köçürülmələri Azərbaycanda əhalinin etnik tərkibində və milli münasibətlərdə özünü bariz şəkildə göstərdi (7, s.262).

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

Ermənilər bu ərazilərdə yerləşdirilməyə başlandıqdan sonra erməni dövlətçiliyinin yaradılması istiqamətində ilk addım atıldı. 21 mart 1828-ci ildə Rusiya imperatorunun fərmanı ilə "Erməni vilayəti" deyilən qondarma bir qurum yaradıldı və Fərmanda vurğulandığı kimi, "belə süni ərazi bölgüsü ilə əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu" (3). "Erməni vilayəti"nin əhatə etdiyi ərazilərdə Türkmənçay müqaviləsinə qədər cəmi 22.500 nəfər erməni yaşayırdısa, köçürmələr nəticəsində sonrakı iki il ərzində onların sayı süni şəkildə az qala üç dəfə artırıldı və 64450 nəfərə çatdırıldı (33, s.382).

XIX yüzillik boyu tarixi Azərbaycan torpaqlarında məskunlaşan və möhkəmlənən ermənilər "Böyük Ermənistan" xülyasını gerçəkləşdirmək üçün fəaliyyətə başladılar, bu yolda çoxlu qanlar tökdülər, azərbaycanlılara qarşı soyqırımlar və deportasiyalar törətdilər. "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanda ermənilərin Azərbaycana təcavüzü, xalqımıza qarşı həyata keçirdiyi deportasiya və soyqırımların tarixi köklərinə toxunulur, törədilən soyqırım və terror siyasətinin mahiyyəti açılır. 1905-1907-ci illərdə azərbaycanlılara qarşı genişmiqyaslı aksiyalar keçirilməsinin vurğulandığı Fərmanda qeyd edilir ki, ermənilər Rusiyanın sovetləşməsindən sonra öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular və Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla kütləvi soyqırımlar həyata keçirdilər. Qeyd etmək lazımdır ki, hələ bu hadisələrə qədər, I Dünya müharibəsinin ilk dövrlərində, 1914-1916-cı illərdə ermənilər tarixi Azərbaycan torpaqlarında və Şərqi Anadoluda dəhşətli soyqırımlar törətmiş, Cənubi Azərbaycanda 150.000, Şərqi Anadoluda 200.000, 1918-1920-ci illərdə Azərbaycanda 200.000, Qərbi Azərbaycanda 132.000 (cəmi 732.000) azərbaycanlını vəhşicəsinə qətlə yetirmişdilər (12, s.98; 13, s.72). Həmçinin Fərmanda ermənilər tərəfindən Azərbaycanda törədilən soyqırımların tədqiqi məqsədi ilə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Fövqəladə İstintaq Komissiyasının yaradılması, bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurumun yaradılması, 1919-1920-ci illərdə mart ayının 31-nin iki dəfə ümummilli matəm günü kimi qeyd edilməsi vurğulanır. Bunun əslində Azərbaycana qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi olması kimi qiymətləndirilir.

Ulu öndərin imzaladığı Fərmanda ermənilərin İkinci Dünya müharibəsindən sonrakı illərdə xalqımıza qarşı başladığı və xüsusi mərhələ təşkil edən mənəvi təcavüz kompaniyası təhlil olunur və qeyd edilir ki, həmin vaxt nəşr olunan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin ən nəfis nümunələrinin ermənilərə mənsub olmasını sübut etməyə çalışırdılar. Həmin vaxtlar ermənilər Azərbaycan xalqına məxsus maddi-mədəniyyət nümunələrini, o cümlədən xalçaları, zərgərlik məmulatlarını, hətta qəbirüstü daş qoç və qoyun fiqurlarını və s. kütləvi surətdə oğurlayaraq Ermənistana aparır, onları muzeylərdə, şəhərlərin küçə və meydanlarında nümayiş etdirir, erməni mədəniyyəti nümunələri kimi qələmə verirdilər. Həmçinin o dövrdə ermənilər tərəfindən dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri güclənmiş,

əvəzində "yazıq, məzlum erməni xalqı"nın surəti yaradılaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırım törədənlər soyqırım qurbanları kimi qələmə verilirdi. Həmçinin Ermənistanda yaşayan azərbaycanlılar çox ustalıqla sıxışdırılır, təqib olunur, onların hüquqları pozulur, ana dilində təhsil almalarına əngəllər törədilir, yaşayış məskənlərinin adları kütləvi şəkildə dəyişdirilir, xalqımıza qarşı aparılan soyqırım siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunurdu. Beləliklə, ictimai fikir çaşdırılır, saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılırdı.

İri dövlətlər tərəfindən müdafiə edilən ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi deportasiya və soyqırım siyasətində 1988-ci ildə ortaya atılan Dağlıq Qarabağ problemi ilə başlanan sonuncu mərhələ azərbaycanlıların tarixi-etnik torpaqlarından son nəfərinədək qovulması, "türksüz Ermənistan" ideyasının gerçəkləşdirilməsi ilə nəticələndi. Bu hadisələr zamanı Ermənistan rəhbərliyinin, hüquq-mühafizə orqanlarının bilavasitə iştirakı ilə 50149 ailəni təşkil edən 243682 nəfər azərbaycanlı qısa müddət ərzində əsrlər boyu yaşadıqları dədə-baba yurdlarından vəhşicəsinə qovuldular. Bu zaman 21 min nəfər müsəlman- kürd də Ermənistandan qovuldu və Azərbaycana pəhah gətirdi. Beləliklə, Ermənistanda azərbaycanlıların yaşadıqları 23 rayon üzrə 171 kənd, soydaşlarımızın ermənilərlə qarışıq yaşadıqları 94 yaşayış məskəni boşaldıldı. 1991-ci il avqustun 8-də Nüvədi kəndindən son azərbaycanlının çıxarılması ilə Ermənistanda bir nəfər də olsun azərbaycanlı qalmadı. Bununla da, Ermənistan SSR Ali Sovetinin 22 noyabr 1988-ci il tarixli sessiyasının məxfi qərarı həyata keçirildi (8, s.89-90). Ermənistanın respublikamıza müdaxiləsi Dağlıq Qarabağın və ətrafdakı yeddi rayonun, ümumiyyətlə, Azərbaycan torpaqlarının 20 faizinin işğalı, çoxlu günahsız insanların qətlə yetirilməsi, bir milyondan artıq vətəndaşımızın öz ölkəsində qaçqına, didərginə çevrilməsi ilə nəticələndi. Çox təəssüflər olsun ki, Fərmanda da qeyd olunduğu kimi, bu hadisələrə respublikada düzgün siyasi qiymət verilmədi (3).

Fərmanda xüsusi olaraq vurğulanır ki, bu hadisələrdən yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmiş, ancaq Azərbaycan Xalq Cümhuriyyətinin süqutu səbəbindən bu iş baş tutmamışdı. Ona görə də, Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul etmiş, dövlətin başçısı, Ulu öndər Heydər Əliyevin imzaladığı Fərmanla 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan olunmuş, Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilmişdir ki, azərbaycanlıların soyqırımı ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiya keçirsin. Sərəncamın tələblərinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi belə bir sessiya keçirmiş, sessiyada azərbaycanlıların soyqırımı məsələsi ilə bağlı müzakirələr aparılmış, bununla əlaqədar bəyanat qəbul edilmiş, son iki yüz ildə ermənilərin və onları himayə edənlərin azərbaycanlılara qarşı törətdiyi soyqırımları tanımaq, gələcəkdə soyqırımı cinayətlərinin cəzasız qalmasının qarşısını almaqdan ötrü təsirli

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

beynəlxalq hüquq mexanizmlərinin yaradılması işinin tezliklə başa çatdırılması məqsədi ilə beynəlxalq təşkilatlara, dünya ölkələrinin parlamentlərinə, hökumətlərinə müraciət edilmişdir.

Təxminən 3 aylıq zaman çərçivəsində imzalanan bu Fərmanlar tədqiqatçılarımız qarşısında ən yeni tariximizin yeni səhifəsini açmaqla, ermənilərin XX yüzillik ərzində xalqımıza qarşı tətbiq etdiyi deportasiya və soyqırım siyasətini bütün təfərrüatı ilə öyrənməklə və beynəlxalq aləmə çatdırmaqla, xalqımızı başımıza gətirilən faciələri təhlil etməyə, bu hadisələrdən ibrət dərsi götürməyə, düşmənə qarşı yumruq kimi birləşməyə səsləyir. Bu Fərmanların imzalanması ilə ermənilərin XX əsr boyu azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımlar və deportasiya mövzusunun üstündən yasaq götürüldü, qeyd olunan istiqamətlərdə geniş miqyaslı tədqiqatlar aparılmağa, dissertasiyalar, məqalələr, kitablar və monoqrafiyalar yazılmağa başladı (4, 5, 6, 7, 10, 11, 13, 14, 15, 16, 17, 20, 21, 24, 25, 26, 30, 31, 33 və s.). Bu qəbildən olan işlər indi də uğurla davam etdirilməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 26 aprel 2011-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının illik ümumi yığıncağında çıxış edərkən bu istiqamətdə aparılan tədqiqatlara münasibət bildirmiş və demişdir: “Mən çox şadam ki, tarixçilərimiz çox sanballı və əsaslı əsərlər yaradırlar. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mövcudluğu bizə diktə edir ki, bu sahəyə daha da böyük diqqət göstərək”.

Bu gün qürurla və fəxrlə deyə bilərik ki, Ulu öndərin siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev 27 sentyabr 2020-ci ildə başlanan və 44 gün davam edən İkinci Qarabağ müharibəsi və 19-20 sentyabrda həyata keçirilən 23 saatlıq antiterror əməliyyatları ilə Azərbaycan xalqının ən böyük arzusunu həyata keçirdi. Azərbaycan torpaqlarını erməni işğalından azad etdi, Dağlıq Qarabağ probleminə son qoydu, ölkəmizin suverenliyi bərpa olundu.

## ƏDƏBİYYAT

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab. Bakı: Azərnəşr, 1998, 488 s.
2. “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi–etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı, “Azərbaycan” qəzeti, 19 dekabr 1997-ci il.
3. “Azərbaycanlıların soyqırımı haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı, “Azərbaycan” qəzeti, 27 mart 1998-ci il.
4. Abışov V. 1918-1920-ci illərdə Azərbaycanlıların soyqırımı. Sənədlər və materiallar. Bakı: Qartal, 2001, 176 s.
5. Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi. I cild. Bakı: 2012, 444 s.
6. Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi. II cild. Bakı: 2012, 422 s.
7. Cəfərli E. Naxçıvanda erməni – Azərbaycan münaqişəsi. Bakı: Nurlan, 2008, 280 s.
8. Cəfərov H., Mustafayev A. Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçıvan səhifələri (XX yüzilliyin 80-90-cı illəri). Bakı: Elm və təhsil, 2012, 172 s.
9. Əliyev M. Qanlı günlərimiz. Bakı: Azərnəşr, 1993, 142 s.
10. Əliyev N.A. 1917-1920-ci illərdə Azərbaycanda türk–müsəlman soyqırımları ilk mənbələrdə. Bakı: Nurlan, 2007, 204 s.
11. Əlizadə M.C. Azərbaycanda türk–müsəlman soyqırımını öyrənmək üçün mənbələr (1918-1920-ci illər). Tarix üzrə

fəlsəfə doktoru elmi dərəcə almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı: 2005, 27 s.
12. Hacıyev İ. Heydər Əliyev və milli–tarixi yaddaşın bərpası. Bakı: Elm, 2003, 164 s.
13. Hacıyev İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan: Əcəmi NPB, 2012, 192 s.
14. Hacıyev Q. Heydər Əliyevin Dağlıq Qarabağa erməni iddialarına qarşı mübarizəsi. Bakı: Təknur, 2014, 400 s.
15. Həsənoğlu H. Ermənilərin qanlı cinayəti. Bakı: Əbilov, Zeynalov və oğulları, 2003, 300 s.
16. İsgəndərov A. Azərbaycanda türk–müsəlman soyqırımı probleminin tarixşünaslığı. Bakı: Adiloğlu, 2006, 396 s.
17. Qasımov Ş. Xalq qəhrəmanı Sultan bəy. Bakı: Elm, 2011, 385 s.
18. Kəngərli Q. Gözü yaşlı Dərələyəz. Deportasiya. Toplu. Bakı: Azərbaycan Ensiklopediyası. NPB, 1998, s.231-237.
19. Mehdiyev R. Hər birimizdən böyük vətəndaş məsuliyyəti tələb edən tarixi sənəd. "Azərbaycan" qəzeti, 16 aprel 1998-ci il.
20. Mehdiyev R. Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri. Bakı: 2000, 203 s.
21. Məmmədova H. Azərbaycan Respublikasının xarici siyasətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. Bakı: Elm, 2009, 360 s.
22. Məmmədov İ., Əsədov F. "Ermənistan azərbaycanlıları və onların acı taleyi" kitabından. Deportasiya. Toplu. Bakı: Azərbaycan Ensklopediyası NPB, 1998, 440 s.
23. Muradzadə M. Mart hadiseyi - əliməsi. Bakı: Azərnəşr, 1996.
24. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917- 1921-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 1996, 328 s.
25. Musayev T. Ermənilər və faciələrimiz (XX əsrdə ermənilər tərəfindən xalqımızın başına gətirilmiş faciələr). Bakı: Nurlan, 2008, 320 s.
26. Mustafayev A.N. XX əsrdə Qərbi Azərbaycan ərazisindən azərbaycanlıların deportasiyası və Naxçıvan. Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Naxçıvan: 2005, 20 s.
27. Nəvvab M.M. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı: Azərbaycan, 1993, 128 s.
28. Ordubadi M.S. Qanlı illər. Bakı: 1991, 144 s.
29. Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı: Azərbaycan, 2004, 536 s.
30. Paşayev A. XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları və deportasiyalar (arxiv sənəd və materialları əsasında). Tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı: 2007, 54 s.
31. Sadıqov H. Erməni məsələsi: xəyanəti, deportasiyanı, soyqırımını və işğalı pərdələyən yalan. Bakı: Adiloğlu, 2012, 576 s.
32. Sərdarov Z. Ən böyük tarixi ədalətsizlik. Deportasiya. Toplu. Bakı: Azərbaycan Ensklopediyası NPB, 1998, s. 269-279.
33. Süleymanov M. Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən. Bakı: Hərbi nəşriyyat, 2008, 398 s.
34. Шавров Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. Санкт-Петербург: 1911 г., с. 59-61. Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1988, №3, s. 55-56

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

**FƏXRƏDDİN CƏFƏROV**
*ceferovf@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA MİLLİ ARXİV QURUCULUĞU

Hər bir millətin arxivi onun tarixinin, həyatının ayrılmaz hissəsidir. Əgər bir xalqın arxivi olmayıbsa, yoxdursa, demək o xalqın gələcəyindən də danışmaq əbəsdir. Yəni keçmişini unudan gələcəksiz yaşayır. Bu bir həyat aksiomasıdır. Azərbaycanda, eləcə də Naxçıvanda arxiv quruculuğu çox çətin bir yol keçmişdir. Tarixin müxtəlif dövrlərində Naxçıvan müxtəlif dövlətlərin döyüş meydanına çevrilmiş, nəticədə işğala məruz qalmış bu ərazidə qiymətli arxiv sənədləri ya məhv edilmiş, yaxud da işğalçılar tərəfindən talan edilərək başqa yerlərə daşınmışdır. Xanlıqlar dövründə istər İran, istərsə də Osmanlı dövlətinin Naxçıvan xanlığını ələ keçirmək üçün apardıqları döyüşlər, həmçinin Türkmənçay müqaviləsindən sonra rus müstəmləkəçiliyi, sonra Naxçıvan qəzasının Gürcüstan İmereti və İrəvan quberniyasına verilməsi buna əyani sübutdur. Bu isə öz növbəsində arxiv quruculuğuna böyük ziyan vurmuşdur. Bu gün İran İslam Respublikasının Təbriz, Tehran, Türkiyə Cümhuriyyətinin Ankara, İstanbul, Rusiyanın Moskva, Sankt-Peterburq, eləcə də Ermənistan, Gürcüstanın dövlət arxivlərində Naxçıvanın XVIII- XIX əsrlər tarixinə dair saxlanılan çoxsaylı qiymətli sənəd, nadir əlyazma vardır. Bunlar bizim milli sərvətlərimizdir ki, əldən çıxıb (1, v.1).

XX əsrin 20-ci illərinə qədər istər Azərbaycan, istərsə də Naxçıvanda dövlət idarəçiliyinin əsas atributlarından biri sayılan arxivlər olmamışdır. Ölkəmizdə arxiv işinin dövlət səviyyəsində təşkilinə 1920-ci ilin dekabrından başlanmışdır. Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanov "Vahid dövlət arxiv fondunun yaradılması və xalq maarif komissarlığı yanında mərkəzi dövlət arxivinin təşkili haqqında" dekret imzalamışdır. Həmin dekreti əldə rəhbər tutan Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsi 1925-ci il dekabr ayının 13-də Naxçıvan MSSR-də Mərkəzi Dövlət Arxivinin yaradılması haqqında qərar qəbul etmişdir (2, v. 38).

Azərbaycanda arxiv orqanlarının yenidən təşkili ilə əlaqədar olaraq 1930-cu ildə Naxçıvan MSSR Mərkəzi Dövlət Arxivi yenidən təşkil edilmişdir. Naxçıvan şəhərindəki dövlət arxivi onun tərkibində idi. Lakin 1960-cı ilə qədər, Arxiv İdarəsi və Mərkəzi Dövlət Arxivi Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığının tabeliyində olan dövrdə demək olar ki, arxivlər qapalı təşkilatlar idi. Bu da onlarda elmi-tədqiqat işlərinin aparılmasına və arxiv sənədlərindən istifadəyə əngəl törədirdi.

1930-cu illərdə Naxçıvanda Mərkəzi Arxiv İdarəsi yaranmış, onun tərkib hissəsi kimi Naxçıvan şəhərində Respublika Dövlət Arxivi olmuşdur. 1941-ci ildə Naxçıvan MR Mərkəzi Dövlət Arxivi adlanmışdır. Ötən əsrin 60-cı illərində ittifaqın başqa yerlərində olduğu kimi, Naxçıvanda da arxiv təşkilatı Daxili İşlər Nazirliyinin tabeliyindən çıxarılıb Naxçıvan MSSR Nazirlər Sovetinin tabeliyinə verildi. Bundan sonra arxiv işinə və arxiv sənədlərindən istifadəyə diqqət artırıldı.

1928-1930-cu illər arasında muxtar respublikanın rayonlarında da dövlət arxivlərinin yaradılmasına başlandı. İlk dəfə Şərur, Ordubad, Culfa və Şahbuz rayonlarında, 1979-cu ildə Babək

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

rayonunun yaranması ilə Babək rayonunda, 1990-cı ildə Sədərək rayonunda, 2004-cü ildə Kəngərli rayonunun yaranması ilə Kəngərli rayonunda Dövlət Arxivi təşkil olunmuş və xalqımıza xidmət etməyə başlamışdır. Hazırda Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsi tabeliyində bir Muxtar Respublika dövlət, bir şəhər və 7 rayon dövlət arxivi fəaliyyət göstərir.

Xalqımız öz mənəvi sərvəti olan arxivlərinə yalnız 1991-ci ildə, sovet rejimi dağılandan sonra sahib oldu. Müstəqil respublikamızın ərazisində olan bütün arxivlər Azərbaycan xalqının həqiqi mənəvi sərvətinə çevrildi. İllərlə "bağlı qapı" arxasında qalan bu sənədlərdən tariximizin tədqiqində geniş istifadə olunmağa başlandı.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında unudulmaz xidmətlərindən biri də onun xalqımızın tarixinə, mədəniyyətinə böyük övladlıq məhəbbəti idi. O, yaxşı başa düşürdü ki, bir xalqın həqiqi tarixi yalnız ilkin mənbələr olan arxiv sənədləri əsasında yazıldıqda daha dəyərli, dəqiq və inandırıcı olur. Böyük zəka sahibi olan Ümummilli liderimiz hansı sahəyə müraciət etmişsə, orada böyük müvəffəqiyyət qazanmışdır. Onun qarşısında fəth edə bilməyəcəyi bir zirvə, öhdəsindən gələ bilməyəcəyi iş yox idi. Çoxları bunun səbəbini bu dahi şəxsiyyətin nadir fitri istedadında görürlər. Bu həqiqətən də belədir və təkzib olunmaz faktdır. Lakin Heydər Əliyevin iş üslubuna yaxından bələd olanlar bu dahi şəxsiyyətin həyatda qazandığı müvəffəqiyyətlərin səbəbini onun ilahi tərəfindən verilmiş fitri istedadı ilə yanaşı, əməksevərliyində, özünə qarşı hədsiz tələbkarlığında və daima özü üzərində gərgin işləməsində görürlər. Hər hansı bir ümumdövlət əhəmiyyətli məsələ hazırlanarkən Ulu öndər həmin məsələyə aid müxtəlif mənbələrdən mümkün qədər çoxlu sənəd və materiallar toplatdırırdı. Əldə olunan materialları komputer dəqiqliyi ilə işləyir, fikir süzgəcindən keçirir və irəli sürdüyü fikirin məntiqi müqabilində alternativ söz deməyə yer qoymurdu.

Müstəqillik əldə etmiş respublikamızda başqa sahələrdə olduğu kimi, arxiv işi sahəsində də suveren dövlətə məxsus yeni qanunvericilik və normativ aktlar yaranmalı idi. Bütün bunların memarı Ümummilli lider Heydər Əliyev olmuşdur. "Milli arxiv fondu haqqında" Azərbaycab Respublikası Qanunu bu işin səmərəli həyata keçirilməsi üçün demək olar ki, təməl daşı rolunu oynadı. Qeyd edək ki, SSRİ məkanında arxiv işi sahəsində qanun qəbul edilməmiş, bu sahədə normativ aktlar yalnız SSRİ Nazirlər Sovetinin təsdiq etdiyi "SSRİ Dövlət Arxivi fondu haqqında Əsasnamə" ilə tənzimlənirdi.

"Milli arxiv fondu" qanunu üzərində uzun müddəti iş aparılmış, 1998-ci ildə Milli Məclisə təqdim edilmiş, 1999-cu ilin iyun ayında "Milli Arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və Ümummilli liderimiz Heydər Əliyev tərəfindən 1999-cu il iyul ayının 22-də təsdiqlənmişdir. Qanun arxiv işinin təkmilləşməsi və inkişafı yolunda çox gözəl perspektivlər açmışdır (6). Qanundan irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün Respublika Nazirlər Kabineti və digər icra hakimiyyəti strukturları qarşısında konkret vəzifələr qoyulmuşdur. 5 fəsil, 23 maddədən ibarət olan qanun Azərbaycan Respublikasında milli arxiv fondunun formalaşması, mühafizə və arxivlərin fəaliyyəti ilə bağlı münasibətləri tənzimləyir. Qanunda ilk fəsil ümumi müddəalar, ikinci fəsil Milli

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

Arxiv Fondunun tərkibi və təşkili, üçüncü fəsil Milli Arxiv Fondu sənədlərinin uçotu və mühafizəsi, dördüncü fəsil Arxiv işinin idarə olunması və sonuncu fəsil yekun müddəalardan ibarətdir.

Bu qanunun 2-ci maddəsində Milli arxiv fondunun qanunvericilik bazası göstərilmişdir. Milli arxiv fondunun qanunvericilik bazası, əsasən, bu qanundan, Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktlarından və Azərbaycan Respublikasının tərəfdaş çıxdığı dövlətlərarası müqavilələrdən ibarətdir. Azərbaycan Respublikasının digər müvafiq qanunvericilik aktları dedikdə ölkə ərazisində arxiv işi sahəsində qəbul olunan normativ-hüquqi aktlar nəzərdə tutulur. Əgər bu qanunla ölkəmizin tərəfdaş çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin dövlətlərarası müqavilə tətbiq olunur. Qanunun 3-cü maddəsində arxiv işi sahəsində dövlətin əsas vəzifələri göstərilmişdir.

“Milli arxiv fondu haqqında” Qanuna görə Azərbaycan Respublikasının bütün hüquqi və fiziki şəxsləri dövlət arxivində saxlanılan sənədlərdən istifadə etmək hüququna malikdir. Mühafizə müddətindən asılı olmayaraq dövlət arxiv fondu sənədlərindən istifadə qaydaları Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunur. Qeyri-dövlət arxiv fondlarının sənədlərindən isə onların mülkiyyətçilərinin razılığı ilə istifadə oluna bilər.

Tarix elmləri doktoru, professor Ataxan Paşayev xatirələrində yazır ki, “Ümummilli liderimizin sənədlərə münasibəti, onlara böyük əhəmiyyət verməsinə fakt ilə bir daha 1999-cu ilin iyulunda Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsinin 30 illiyi münasibətilə idman-konsert kompleksində təşkil olunmuş sərgidə rast gəldim. Bu illərdə əldə edilmiş müvəffəqiyyətləri əks etdirmək üçün hər respublika təşkilatına iki stend ayrılmışdı. O cümlədən Arxiv İdarəsinə də. Kompleksdə stendlər həddindən çox idi. Bizi əvvəlcədən xəbərdar etmişdilər ki, öz stendlərimiz barədə Prezidentə yarım, ən çoxu bir dəqiqə müddətində qısa məlumat verərsiniz. Əksər stendlər qarşısından ötəri keçən Cənab Prezident Arxiv İdarəsinin stendi qarşısında 6-7 dəqiqə dayandı. Burada göstərilən sənədlərlə maraqlandı. Stenddəki materiallar arasında başqa sənədlərlə yanaşı, 1983-cü ildə Moskvada siyasi büronun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi yüksək vəzifələrdə işləyərkən SSRİ Nazirlər Soveti yanında Baş Arxiv İdarəsinin yeni rəisinin təyini zamanı onu kollektivə təqdim edərkən Heydər Əliyevin çıxışının mətnini də qoymuşduq. Bu onun diqqətindən yayınmadı. Həmin çıxışı görən kimi orada baş verənləri yada saldı. SSRİ-nin arxiv orqanları üçün qısa bir vaxtda xeyli köməklik etdiyini qeyd etdi. Bu məsələ ilə bağlı onu da deyim ki, həmin təqdimatdan sonra Azərbaycandan Moskvaya Baş Arxiv İdarəsinə yolu düşən hər bir şəxsdən oranın əməkdaşları ilk olaraq Heydər Əliyevin arxiv işçisi olub olmamasını soruşurdular” (3, v.3). Qeyd edək ki, Ümummilli lider Heydər Əliyev hələ Naxçıvan Pedaqoji Texnikumunu 1939-cu ildə bitirdikdən sonra bir neçə ay Şahbuz rayonunda müəllim işləmiş, 1939-1941-ci illərdə Naxçıvan MSSR Mərkəzi Dövlət Arxivində baş elmi işçi, məxfi şöbənin müdiri işləmiş və arxivdən Milli Təhlükəsizlik orqanlarına aparılmışdır (4). Mənəvi sərvətlərimizin böyük hamisi olan Heydər Əliyev tərəfindən imzalanmış bu qanun və fərman ölkəmizdə arxiv işi və onun inkişafı ilə bağlı bütün məsələləri əhatə edir, onun strategiyasını, gələcək

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

işlərin başlıca istiqamətlərini müəyyənləşdirir.

Nəhayət qeyd edək ki, "Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 dekabr tarixli fərmanı arxiv işinə verilən ən böyük dəyərdir. Həmin fərmanda Arxiv İdarəsinin statusunun genişləndirilməsi ilə yanaşı, bu xidmət təşkilatının maddi-texniki bazasının təkmilləşdirilməsi və təchizatının yaxşılaşdırılması, arxivlərin lazımi binalarla təmin olunması, mövcud binalarda təmir və bərpa işlərinin aparılması, arxiv işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılması və sair kimi qarşıya çox mühüm vəzifələr qoyulmuşdur.

Heydər Əliyevin "Arxiv işinin təkmilləşdirilməsi haqqında" fərmanından sonra Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsi Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Arxiv İdarəsinin bazısında yenidən qurulmuşdur.

Dövlət arxivində elmin, mədəniyyətin və ictimai həyatın müxtəlif sahələrini özündə əks etdirən 1023 fondda 480 mindən çox kağız əsaslı idarəçilik işi, elm, mədəniyyət, ədəbiyyat və incəsənət, dövlət xadimlərinin 2 minə qədər işdən ibarət elmi və texniki sənədləri, 84 minə yaxın foto və 4 mindən çox kino sənədi mühafizə olunur.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının mənəvi, çox qiymətli, əvəzolunmaz tarixi sənədlərinin qorunub gələcək nəsillərə çatdırılması üçün arxiv sənədləri təşkilatı haqqında söylədiyi fikirlər bütün dövrlər üçün aktualdır: "Azərbaycan Respublikasının arxiv xidməti təşkilatları xalqımızın çoxəsrlik tarixini öyrənmək üçün qiymətli sənədlərin toplandığı və mühafizə olunduğu elmi-tədqiqat mərkəzidir". Ulu öndər Heydər Əliyevin dediyi bu sözlər isə daim yaddaşımızdadır: "Arxiv işinə gərək çox ciddi fikir verək. Bir tərəfdən ona görə ki, xalqımızın tarixini əks etdirən yeganə mənbədir. İkincisi də ona görə ki, tariximizi təhrif edənlərin qarşısını almaq üçün çox mühüm amildir".

## ƏDƏBİYYAT

1. Naxçıvan. MRDA. f. 299. s 4. iş 22. v. 1 -4
2. Naxçıvan. MRDA. f. 40. s. 1. iş 28. v. 38
3. Naxçıvan. MRDA. I. 314. s 2. iş 8, v.14
4. "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanunu. 22 iyun 1999.

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

**ARZU ABDULLAYEV**
*Naxçıvan Dövlət Universiteti*

## HEYDƏR ƏLİYEV: TARİXİN AXARINI DƏYİŞƏN ŞƏXSİYYƏT

Hər bir xalqın tarixdəki yeri və rolu uzaq və yaxın keçmişdə onun taleyinə həlledici təsir göstərmiş, ölkəsinin adını həm milli, həm də bəşər tarixinə şərəflə həkk etmiş, əsrlər boyu formalaşmış milli-mənəvi dəyərləri qorumaqla dövlətinin gələcəyini də uğurla müəyyənləşdirmiş dahi şəxsiyyətin fövqəladə missiyası ilə şərtlənir. Tanrının bəxş etdiyi belə seçilmiş şəxsiyyətlər zəkası, dühası və istedadı ilə dünyada tanınır, bütün ömrünü doğma xalqının xoşbəxt gələcəyi uğrunda mübarizəyə həsr edirlər. Dövlətçilik təfəkkürü, siyasi dünyagörüşü, milli dəyərləri əsasında dövlət modeli yaradırlar. XX əsr tariximizin parlaq siması, böyük şəxsiyyəti olan zamanın dahisi Heydər Əliyevin siyasi portreti də Azərbaycan xalqının dövlətçilik təfəkkürünün, tarixin sınağından şərəflə çıxmış müdrik idarəçilik məktəbinin canlı təcəssümüdür. Tarixşünaslıq Ulu öndər Heydər Əliyev şəxsiyyətini öyrəndikcə, əslində, müstəqil Azərbaycan dövlətinin tarixi keçmişini, bugününü, ölkəmizdə həyata keçirilən dövlət quruculuğu prosesini öyrənir. Məşhur amerikalı siyasi xadim və politoloq Zbiqnev Bjezinski demişdi: "Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət – bir sözlə, şəksiz liderdir" (2). Bəli, Azərbaycan xalqının şəksiz lideri onu addım-addım irəliyə aparıb qələbələrə çatdırdı. Dahi lider haqqında Böyük Britaniyanın sabiq Baş naziri Toni Bleyer yazırdı: "Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər" (3).

Xeyirxahlıq və alicənablıq, inam və etibar, təmkin və səmimiyyət, zəka, diqqət və başqa cəhətlər Ulu öndər Heydər Əliyevin fərdi keyfiyyətləri idi. Dahi lider böyük siyasət üçün yaranan, təkcə bir ölkə miqyasında yox, dünya əhəmiyyətli məsələlərin həllində qətiyyətli sözünü deyə bilən nadir siyasətçi idi. Onun bu sahədəki fitri istedadı və fövqəladə qabiliyyəti, hadisələrin və tarixin gedişini öncədən görmək məharəti siyasət aləminə qədəm qoyduğu ilk günlərdən özünü büruzə vermişdi.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan xalqının suverenlik arzusunu tarixi reallığa çevirmiş, böyük qurbanlar bahasına əldə olunmuş müstəqilliyi zamanın çətin sınaqlarından çıxararaq qoruyub saxlamışdır. Azərbaycan xalqı öz böyük oğlunu yalnız siyasi lider kimi deyil, həm də milli dövlətçilik ideologiyasının şəriksiz müəllifi kimi qəbul edir. Çünki Ulu öndər Heydər Əliyev siyasi kursundan kənarda müstəqil Azərbaycan dövlətçiliyi yoxdur. Dahi şəxsiyyət Azərbaycanda hamının eyni dərəcədə inandığı bir ideologiyanın müəllifidir. O, bütün vətəndaşların hüquqlarını qoruya bilən bir dövlətin əsasını qoydu və yalnız hüququn aliliyinə əsaslanan idarəetmə sistemi yaratdı. Ümummilli liderimizin gərgin səyləri ölkədə sabitliyin yaradılmasına və normal siyasi münasibətlər sisteminin formalaşmasına gətirib çıxardı ki, bu da ümumilikdə dövlətin siyasi əsaslarının möhkəmləndirilməsinə səbəb oldu.

Ümummilli lider bir şəxsiyyət kimi zamanın yaddaşında bir də ona görə əbədilik qazanıb ki, tükənməz istedadını, zəngin təcrübəsini azad və müstəqil dövlət qurmağa sərf edib və hər şeydən əvvəl, xalqın xilaskarı olub. Ulu öndər deyirdi ki, reallığı düzgün qiymətləndirən, keçmiş

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

təcrübədən yaradıcılıqla istifadə edən, sosial-siyasi və iqtisadi problemlərin bütün spektrini, mürəkkəbliyini nəzərə alan, qəbul olunan qərarların mümkün nəticəsini irəlicədən görməyə imkan verən siyasi xətt hökmən uğur qazanmalıdır. Belə siyasət cəmiyyətin sabitliyinə, irəliyə doğru hərəkətinə və tərəqqisinə xidmət edir.

Ümummilli liderin siyasəti milli maraqlar üzərində qurulmuşdu. Zamanın dahisi tariximizi tarixçidən, incəsənəti sənətşünasdan, iqtisadiyyatı iqtisadçıdan yaxşı bilirdi. Onun mülahizələri problemlərə dərindən bələdlik, hadisələrin məğzinə, səbəb-nəticə əlaqələrinə nüfuz etmək xüsusiyyəti ilə seçilirdi. Azərbaycanın daxili siyasətini istiqamətləndirən, xarici siyasətini beynəlxalq hüquq normalarına uyğun, məqsədyönlü və tarazlaşdırılmış şəkildə aparan qətiyyətli dövlət xadimi çox hallarda ən tanınmış siyasətçiləri belə təəccübləndirirdi.

Dünya siyasətçiləri, beynəlxalq ictimaiyyət və xalqımız bu dahi insanı vətən və dövlət qarşısında gördüyü böyük işlərə, dünyada təhlükəsizliyin qorunmasına, düzgün və davamlı inkişafa çalışdığına, siyasi və ictimai fəaliyyətinə görə yüksək dəyərləndirmişdir. Bu səbəbdəndir ki, dünyanın ən görkəmli siyasi xadimləri, dövlət rəhbərləri, tanınmış elm və mədəniyyət nümayəndələri dahi lider Heydər Əliyev şəxsiyyətini yüksək qiymətləndirmişdir.

Fransa Respublikasının sabiq Prezidenti Jak Şirak deyirdi: "Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəklənmə yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən, münaqişənin sülh yolu ilə həllində onun cəsarətini, müdrikliyini və qətiyyətini yüksək qiymətləndirdim". Amerika Birləşmiş Ştatlarının sabiq Prezidenti Corc Buş isə yazırdı: "Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Eyni zamanda, onun mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynamışdır. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırmış və Azərbaycanın iyirmi birinci əsrə müasir dövlət kimi daxil olmasına imkan yaratmışdır" (5).

Dahi şəxsiyyət Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin obyektiv təhlili göstərir ki, o, başqalarından fərqli olaraq qeyri-adi zəkaya, böyük enerjiyə, islahatçı və yüksək analitik təfəkkürə, yenilməz iradəyə malik siyasətçi idi. Ona görə də bir sıra hallarda Ulu öndər Heydər Əliyevi "siyasət nəhəngi", "siyasət qrosmeysteri" kimi xarakterizə edirlər (4).

Həyatımızın elə bir sahəsi yoxdur ki, orada Ümummilli liderimizin izi olmasın. Bu günkü Azərbaycanın sürətli inkişafının təməl daşları da məhz qüdrətli rəhbərin qüdrətli əlləri ilə hörülüb. Müstəqil Azərbaycan dövləti Ulu öndərin şah əsəridir. Ümummilli liderimiz bir azərbaycanlı, vətəndaş və rəhbər kimi yeganə amalının varlığı qədər sevdiyi Azərbaycan xalqına, dövlətinə, ölkənin iqtisadi-siyasi, mənəvi inkişafına xidmət etməkdən ibarət olduğunu söyləyirdi.

Zamanın dahisinin bizə ərməğan etdiyi zəngin irsi bu gün də, sabah da öyrənilməli, onun əsas mahiyyəti dərk edilməlidir. Bu zəngin irs müstəqil Azərbaycan dövlətinin sütunudur. Məhz bu qüdrətli sütunlar üzərində ucalan müasir Azərbaycan güclü ola bilib. İndiyədək əldə etdiyimiz bütün bu möhtəşəm nailiyyətlərin təməlində dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycanın nəinki bugünkü, hətta bir neçə əsr bundan sonrakı inkişafını da təmin etməyə qadir olan siyasi kursu, milli konsepsiyaları dayanır. Bu gün ölkəmiz bu siyasətin uğurlarını hiss edir,

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

onunla yaşayır və ondan faydalanır. Ulu öndərimizin layiqli siyasi varisi cənab İlham Əliyevin rəhbərliyi ilə bu siyasət yaşayır və uğurla davam etdirilir. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını daha da artırmışdır. Ulu öndər Heydər Əliyev siyasətinin Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini aydın görən xalqımız bu siyasəti yüksək dəyərləndirib və onun ətrafında daha sıx birləşib (7).

Əbədiyaşar liderin ən böyük arzusu tarixi torpaqlarımızın işğaldan azad edilməsi, bütün ömrü boyu sədaqətlə xidmət etdiyi doğma Azərbaycanımızın ərazi bütövlüyünün bərpası idi. Ümummilli lider illər öncə böyük uzaqgörənliklə deyirdi: “Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycanın torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun” (1).

Bəli, belə də oldu. Tarixi zaman baxımından çox qısa dövr keçdi. Ulu öndərimizin böyük arzusu-işğal altındakı torpaqlarımızın azad olunması gerçəkləşdi. Dahi şəxsiyyətin bu arzusunu, vəsiyyətini onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyevin rəhbərliyi və müdrikliyi ilə rəşadətli Azərbaycan Ordusu yerinə yetirdi. İldən-ilə güc toplayan Azərbaycan, onun rəşadətli Ordusu düşməni torpaqlarımızdan qovub çıxardı, üçrəngli bayrağımız yenidən Vətən torpaqlarında, Qarabağın döyünən ürəyi olan Şuşada qürurla dalğalanmağa başladı. Azərbaycanın Müzəffər Ordusu 30 illik işğala son qoydu. Beləliklə, düşmənin illərlə yaratdığı “məğlubedilməz ordu” mifi 44 gün ərzində bütün dünyanın gözü qarşısında iflasa uğradı, Ermənistan ordusu darmadağın edildi və “Dəmir yumruq” əməliyyatı Azərbaycanın Şanlı Qələbəsi ilə başa çatdı.

Bəli, bu gün hər bir Azərbaycan vətəndaşı çox yaxşı bilir ki, bu uğurlara Ölkə Prezidentinin vaxtilə dediyi: “Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərək mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm” (6) fikirlərinə sadiqliyinin nəticəsində nail olundu. Bu fikirlər bir daha bizdə əminlik yaratdı ki, nə qədər ki, Azərbaycan var, Ulu öndərin adı, əməlləri və siyasi kursu yaşayacaq, Azərbaycanın inkişafına yeni-yeni çalarlar bəxş edəcəkdir.

Bəli, illər, qərinələr ötəcək, dünyaya yeni nəsillər gələcək. Zamanın dahisi Heydər Əliyev ideyalarının sönməz şəfəqlərindən hər nəslə pay düşəcək.

## ƏDƏBİYYAT

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı: 1997.
2. Hacıyev İ.M. Heydər Əliyev siyasəti: tarixdə və günümüzdə. Naxçıvan: Əcəmi, 2013, 296 s.
3. Hüseynova İ.M. Müstəqilliyimizin təminatçısı. Bakı: 2004.
4. Qasımov Ə.Q. Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası (XX əsrin 70-80-ci illəri). Bakı: “Təhsil” nəşriyyatı, 2003, 320 s.
5. Mahmudov Y.M. Azərbaycan dövlətçiliyinin xilaskarı. Bakı: 1998.
6. https://files.preslib.az/projects/ toplu / v 2/f6_2_3.pdf
7. https://www.yeniazerbaycan.com/ Muellifler_e1708_az.html

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

**XƏZƏR HÜSEYNOV**
*xezerhuseynov@gmail.com*
**FƏXRİYYƏ HÜSEYNOVA**
*Naxçıvan Dövlət Universiteti*

# HEYDƏR ƏLİYEVİN RƏHBƏRLİYİ İLƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA TƏHSİLİN İNKİŞAFI (1991-1995-Cİ İLLƏR)

Təhsil hər bir millətin gələcəyini müəyyən edir. Millət təhsillə irəli gedir, milli şüuru artır, intellektual potensialı yüksəlir. Dünyanın inkişaf etmiş ölkələrinin tarixi təcrübəsi təsdiq edir ki, təhsilə böyük əhəmiyyət vermiş hər hansı millət daha çox inkişaf etmiş, irəli getmiş hesab olunur.

Xalqların və dövlətlərin sürətli inkişaf yolu təhsildən keçir. Təsadüfi deyildir ki, hələ vaxtı ilə Ulu öndər Heydər Əliyev cəmiyyət həyatında təhsilin rolunu yüksək qiymətləndirərək demişdir ki, təhsil millətin gələcəyidir. Ölkə Prezidenti Cənab İham Əliyev təhsilə "Azərbaycanın gələcəyini müəyyən edən prioritet sahə" kimi yüksək dəyər vermişdir (9, s.479).

1991-ci ildə Azərbaycan müstəqillik əldə etdikdən sonra digər keçmiş ittifaq respublikalarında olduğu kimi, Azərbaycanın və onun ayrılmaz hissəsi olan Naxçıvanın da elmində və təhsilində keçid dövrünün xüsusiyyətləri ilə əlaqədar gerilik müşahidə olunmağa başlamışdı.

Məlum olduğu kimi, keçid dövrü çox çətin, ağır və təzadlı olur. Bu baxımdan keçid dövrü respublikamız üçün də çox təzadlı olmuş, ölkəni acınacaqlı vəziyyətə salmışdır. Azərbaycanın dövlət müstəqilliyi qazandığı ilk illərdə ittifaq respublikaları ilə əlaqələr pozulmuş, elmin və təhsilin maddi bazası zəifləmişdi. Bütün bunlar da təbii olaraq muxtar respublikada elmin və təhsilin inkişafına öz mənfi təsirini göstərmişdir.

Qeyd etmək olar ki, Ermənistan Respublikasının silahlı qüvvələrinin təcavüzü nəticəsində Naxçıvan Muxtar Respublikası blokadaya alınmış, elektrik, qaz magistralları, digər kommunikasiya xətləri vəhşicəsinə dağıdılmış, Azərbaycanın digər bölgələri ilə əlaqələr kəsilmiş, bununla da muxtar respublikanın iqtisadi və sosial həyatında gərgin vəziyyət yaranmışdır. Belə bir vəziyyət həmin illərdə təhsildə də özünü göstərmişdir. Bunu aşağıda verilmiş cədvəldən görmək olar.

Ali təhsil müəssisələri (dərs ilinin əvvəlində) (8, s.73). 1991 1993 1995

| | 1991 | 1993 | 1995 |
|---|---|---|---|
| Ali təhsil müəssisələrinin sayı | 1 | 1 | 1 |
| Dövlət | 1 | 1 | 1 |
| Özəl | - | - | - |
| Ali təhsil müəssisələrində tələbələrin sayı, nəfər | 2466 | 2247 | 2254 |
| Dövlət | 2466 | 2247 | 2254 |
| Özəl | - | - | - |
| Əyani təhsil | 1563 | 1591 | 1662 |
| Qiyabi təhsil | 903 | 656 | 592 |
| Ali təhsil müəssisələrində hər 10000 nəfər əhaliyə düşən tələbələrin sayı | 78 | 69 | 66 |

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

| | | | |
|---|---|---|---|
| Ali təhsil müəssisələrində tələbələrin qəbulu (cəmi, nəfər) | 620 | 288 | 674 |
| Dövlət | 620 | 288 | 528 |
| Özəl | - | - | 146 |
| Ali məktəbləri bitirənlərin sayı (nəfərlə) | 447 | 369 | 405 |
| Dövlət | 447 | 369 | 405 |
| Özəl | - | - | - |
| Əyani təhsil | 251 | 156 | 308 |
| Qiyabi təhsil | 196 | 213 | 97 |
| Əhalinin hər 10000 nəfərinə düşən ali məktəbləri bitirənlərin sayı, nəfər | 14 | 11 | 12 |

Ümumiyyətlə, 1991-ci ildən başlayaraq 1995-ci ilə qədər olan bir dövrdə muxtar respublikada ali təhsil müəssisələrində tələbələrin sayında azalma müşahidə olunmuşdur.

1991-ci il sentyabrın 3-də Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin Sədri seçildikdən sonra elmin, təhsilin, mədəniyyətin inkişafına mühüm milli strateji məsələ kimi baxaraq, o dövrün mürəkkəb və çətin şəraitində muxtar respublikanın təhsil və mədəniyyət sistemini, ziyalı potensialını qoruyub saxlamaqla, təhsilin kəmiyyət və keyfiyyət göstəricilərinin aşağı düşməsinin qarşısını almağa, təhsil müəssisələrini siyasi proseslərdən kənarda saxlamağa çalışırdı (2, s.82).

Müstəqilliyimizin ilk illərindən başlayaraq blokadanın, iqtisadi böhranın ağır nəticələrinə baxmayaraq, muxtar respublikada təhsil, maarif məsələlərinə xüsusi diqqət yetirilirdi. Heydər Əliyevin göstərişi ilə Ali Məclisin işçi qrupu milli təhsil konsepsiyasını hazırlamağa başlamışdı. Onun maarif xadimləri və təhsil kollektivləri ilə keçirdiyi görüşlər muxtar respublikada təhsilin yenidən canlanmasına səbəb olmuşdur. Görkəmli siyasi xadim Ali Məclisin Sədri Türkiyə Cümhuriyyəti və İran İslam Respublikasının rəhbərləri ilə apardığı danışıqlarda, imzaladığı protokollarda elm və təhsil məsələlərinə xüsusi diqqət yetirmişdi.

1990-cı illərin əvvəllərindən başlayaraq muxtar respublikanın ümumtəhsil məktəbləri sistemində müəyyən dəyişikliklər baş verdi: liseylər, gimnaziyalar, kolleclər yaradıldı. Naxçıvan şəhərində “Xanım qızlar” Kolleci (1992), Ordubadda “Qız liseyi” (1993), Şərurda “İqtisad liseyi” (1994), Babək rayonunun Zeynəddin kəndində kənd təsərrufatı təmayüllü məktəb-müəssisə kompleksi fəaliyyətə başladı (1993) (3, s.160).

Naxçıvan Muxtar Respublikasında 1990-cı ildə 1 ali məktəb, 4 orta ixtisas təhsil müəssisəsi, 6 axşam ümumtəhsil məktəbi, 88 məktəbəqədər uşaq müəssisəsi, 217 ümumtəhsil məktəbi fəaliyyət göstərdiyi halda 1993-cü ildə muxtar respublikada 1 ali məktəb, 4 orta ixtisas təhsil müəssisəsi, 1 axşam ümumtəhsil məktəbi, 89 məktəbəqədər uşaq müəssisəsi, 225 ümumtəhsil məktəbi fəaliyyət göstərmişdir (7, s.63-66).

1992-ci il mart ayının 24-də Türkiyə ilə bağlanmış əməkdaşlıq protokolunun 12-ci bəndinə əsasən həmin il Naxçıvan Muxtar Respublikasından 100 nəfər gənc Türkiyə ali məktəblərində təhsil almaq hüququ qazanmışdır.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

Bu tələbələr Ali Məclis Sədrinin təşəbbüsü ilə Türkiyədən Naxçıvana gəlmiş Yüksək Öyrətim Seçim Kurumu tərəfindən seçilmişdi. Heydər Əliyev tələbələrin yolasalma mərasimində çıxış etmiş, onlara dəyərli məsləhətlər vermişdi. Ulu öndər qeyd etmişdi ki, bu, Türkiyənin bizə göstərdiyi yardımlardan ən qiymətlisidir. Bu, bizim xalqın gələcəyidir. Naxçıvanın gələcəyidir, onun intellektual potensialıdır. O ümid etdiyini bildirmişdi ki, Türkiyəyə oxumağa gedən gənclər Türkiyə ilə Azərbaycan, o cümlədən Naxçıvan arasında əlaqələrin daha da genişlənməsinə, inkişafına çalışacaqlar (6, s.67-68).

1992-ci ildə oktyabrın 5-də Naxçıvan Muxtar Respublikasının iclas salonunda Türkiyədə təhsil almağa gedən tələbələrlə Muxtar Respublika Ali Məclisi, Nazirlər Kabineti rəhbərlərinin və Naxçıvan şəhər icra hakimiyyəti nümayəndələrinin görüşü olmuşdur.

Yığıncaqda Heydər Əliyev çıxış etdi. O, burada toplanmış tələbələri, onların valideynlərini, təhsil aldıqları məktəblərin müəllim kollektivlərini və muxtar respublika ictimayyətinin nümayəndələrini təbrik edərək dedi ki, bu gün qədim Azərbaycan diyarı Naxçıvanda biz yeni əlamətdar bir hadisənin iştirakçısıyıq. Naxçıvan Muxtar Respublikasından ilk dəfə olaraq Türkiyə Respublikasının ali məktəblərinə, universitetlərinə 15 nəfər naxçıvanlı gənc qəbul olunmuşdur. Gəlin, Türkiyəyə yola düşən tələbələrə yaxşı yol, uğurlu təhsil, naxçıvanlı və azərbaycanlı adını yüksək tutmağı arzulayaq və əmin olduğumuzu bildirək ki, bu gün yaranan belə gözəl ənənə gələcəkdə də davam edəcək, naxçıvanlı gənclər bundan sonra Türkiyədə, Avropanın və dünyanın başqa ölkələrində təhsil almaq imkanları əldə edəcəklər (5, s.339).

Müstəqilliyin ilk illərində muxtar respublikada yeganə ali məktəb olan, 1967-ci ildən Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi yaranan, 1972-ci ildən müstəqil ali təhsil müəssisəsinə - Naxçıvan Dövlət Pedaqoji İnstitutuna çevrilən və 1990-cı ildən Naxçıvan Dövlət Universiteti adlandırılan bu təhsil ocağının inkişafı Ulu öndər Heydər Əliyevin qayğısı nəticəsində baş vermişdir (9, s.495).

1992-ci ilin noyabrında Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universiteti özünün 25 illik yubileyini qeyd etdi. Yubiley tədbirinə Bakıdan, Türkiyədən və İİR-dən nümayəndələr qatılmışdılar. Yubiley münasibəti ilə universitetdə Ali Məclis Sədri Heydər Əliyevin iştirakı ilə təntənəli yığıncaq keçirilmişdi. Heydər Əliyev universitetin professor-müəllim və tələbə kollektivi qarşısında çıxış etmiş, öz çıxışında universitetin keçdiyi yolun əsas nəticələrini ümumiləşdirmiş, bu təhsil ocağının fəaliyyətinə yüksək qiymət vermiş, qarşıda duran mühüm vəzifələrdən danışmışdı. Heydər Əliyevin tarixi çıxışı universitetin əsas fəaliyyət proqramına çevrilmişdi. Bu çıxışda Azərbaycan ali məktəblərinin yeni mərhələdəki vəzifələri və inkişaf istiqamətləri öz əksini tapmışdı (6, s.68).

Yubiley tədbirində Heydər Əliyev demişdir: "Azərbaycanda, o cümlədən onun tərkib hissəsi olan Naxçıvanda indi böyük ali təhsil potensialı var, ali təhsil məktəblərinin çox böyük professor-müəllim dəstəsi var, ordusu var. Demək olar ki, bu potensialdan səmərəli istifadə etmək lazımdır. Biz çox xoşbəxtik ki, Azərbaycan indi öz müstəqilliyini əldə etdiyi dövrdə Azərbaycanın minlərlə professoru var, bir neçə qat ondan artıq elmlər namizədi adı olan müəllimləri, ali məktəb müəllimləri var. Bunların bir çoxu dünya səviyyəsində olan alimlərdir, ali məktəb müəllimləridirlər. Bunların hamısından səmərəli istifadə olunması Azərbaycanın müstəqil dövlət kimi inkişaf etməsi üçün əsas

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

şərtlərdən biridir. Mən bu gün arzu edirəm ki, Naxçıvan Muxtar Respublikasının Dövlət Universitetinin professor-müəllim kollektivi bu baxımdan öz vəzifələrini daha da dəqiq müəyyən etsinlər və yeni mərhələdə daha fədakar çalışsınlar. Azərbaycanda ali təhsilli mütəxəssislərin hazırlanması üçün öz əməklərini sərf edənlər və Azərbaycanın müstəqil dövlət kimi inkişaf etməsi üçün yaxından iştirak etsinlər" (5, s.372).

Naxçıvan Dövlət Universitetinin keçdiyi yola nəzər salarkən belə bir qənaətə gəlmək olar ki, Naxçıvanımızın bu gününü, onun elmini, mədəniyyətini, mənəvi-psixoloji durumunu, bir sözlə bütövlükdə yaşadığımız ictimai mühiti bu təhsil ocağından ayrılıqda təsəvvür etmək olmaz. Təhsilə və elmə yiyələnməyin vacibliyini vurğulayan Heydər Əliyev göstərirdi ki, bizim gənclərimizin vəzifəsi təhsil almaq və müasir tələblərə uyğun olan səviyyəyə qalxmaqdır. Gənclərimizin qarşısında duran əsas vəzifələrdən birinin də mənəvi tərbiyə məsələsinin olduğunu qeyd edən Ümummilli lider gəncləri ümumbəşəri dəyərləri, Azərbaycan xalqının milli-mənəvi dəyərlərini dərindən mənimsəməyə çağırmış və göstərmişdi ki, milli dəyərlərimizi, dilimizi, dinimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz.

Ulu öndər öz çıxışında vətənpərvərlik məfhumunun mahiyyətini belə açıb göstərir: "Vətənpərvərlik çox geniş məna daşıyır. Vətənpərvərlik təkcə o deyil ki, gedib Vətəni silahla mühafizə edəsən. İnsan gərək həyatının hər bir dövründə, fəaliyyətinin bütün sahələrində öz Vətəninin, ölkəsinin qayğısı ilə yaşasın, onun həm iqtisadiyyatının, həm siyasətinin, həm də mədəniyyətinin qayğısı ilə yaşasın. Bunlar hamısı vətənpər-vərlikdən doğan bir şeydir. Vətənpərvər insan öz mədəniyyətinin də, iqtisadiyyatı-nın da, öz dilinin də, təhsilinin də inkişaf etməsini istəyir, xalqının rifah halının yüksəklərə qaldırılmasını istəyir. Bütün bunlar vətənpərvərlik məfhumuna daxil olan anlayışlardır..." (5). Ulu öndər Heydər Əliyev 1991-1993-cü illərdə Naxçıvanda siyasi hakimiyyətdə olarkən onun bu sahədəki fəaliyyəti təhsilin dirçəlməsinə müsbət təsir göstərmişdir. Lakin onun Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə əlaqədar Naxçıvanın təhsil müəssisələrində az da olsa, yenidən boşluq yaranmış, məktəblərdə ideya-siyasi iş xeyli geriləmişdir (10, s.89).

1993-cu ildə yenidən hakimiyyətə qayıdan Ümummilli lider Heydər Əliyev gənc, müstəqil Azərbaycan Respublikasının üzləşdiyi böyük çətinliklərə baxmayaraq, təhsil sahəsindəki mövqeyini xalq arasında belə bəyan etdi: "Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam. Hesab edirəm ki, cəmiyyət harada olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir" (9, s.480).

Naxçıvan Dövlət Universitetinin əsl inkişaf dövrü 1996-cı ildən sonra baş vermişdir. Bəhs edilən illərdə onlarla yeni tədris korpusları – 1600 yerlik əsas korpus, Tibb fakültəsinin yerləşdiyi korpus, Sosial-İdarəetmə və Hüquq fakültəsi, Olimpiya- İdman Kompleksi, Konservatoriya binası, Memarlıq və Mühəndislik fakültəsi, Beynəlxalq Münasibətlər və Xarici Dillər fakültəsi üçün binalar tikilmiş və ya yenidən qurularaq əsaslı təmir olunmuşdur. Universitetin maddi-texniki bazası möhkəmləndirilmiş, yeni kabinə və laboratoriyalar, ixtisaslaşdırılmış otaqlar yaradılmışdır (4, s.66).

1997-ci ildə Naxçıvan Dövlət Universitetinin 30 illik yubileyinin keçirildiyi zaman Ulu öndər Heydər Əliyev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

universitetin keçdiyi inkişaf yoluna qiymət verərək demişdi: "Naxçıvan Muxtar Respblikasının Dövlət Universiteti Azərbaycanın ən dəyərli, qabaqcıl ali məktəblərindən, ali təhsil ocaqlarından biridir… Mən bu gün böyük iftixar hissi keçirirəm ki, 30 il öncə əsasını qoyduğumuz bu gözəl təhsil ocağı indi böyük şöhrətə malikdir… Universitet tələbələrinə yüksək vətənpərvərlik, təhsil uğrunda daim mübarizə aparmaq üçün əzm arzulayıram… Naxçıvan gənclərinə arzu və tövsiyə edirəm ki, onlar indiki nəsillər kimi, bizim kimi Naxçıvanı qursunlar, yaratsınlar, inkişaf etdirsinlər, daha da yüksəltsinlər".

Muxtar respublikada fəaliyyət göstərən ali məktəblərdən biri də "Naxçıvan" Univerisitetidir. 1994-cü ildə Bakı Özəl Ali Kollecinin Naxçıvan Filialı kimi fəaliyyətə baslayan universitet, 11 sentyabr 1999-cu ildə müstəqil ali təhsil müəssisəsi kimi dövlət qeydiyyatına alınmışdır (9, s.499).

Butövlükdə, Naxçıvan Muxtar Respublikasında yeni ali məktəblərin yaranması və universitet quruculuğunun sürətlə inkişaf etdirilməsi burada yüksək ixtisaslı, milli və bəşəri dəyərləri vəhdətdə daşıyan, geniş dünyagörüşə malik mütəxəssislərin, yeni elmi nəsillərin yetişib formalaşmasına ciddi təkan verir.

Ümummilli lider Heydər Əliyev həm XX əsrin 70-80-ci illərində, həm də ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra həmişə respublikada ziyalıların rəğbətləndirilməsinə diqqət və qayğı göstərmişdir. Bu qayğını Naxçıvanın maarifçi ziyalıları və elm adamları daim hiss etmişlər.

Ümumiyyətlə, müstəqillik illərində muxtar respublikada elm və təhsil müəssisələrinin maddi texniki bazası yenidən qurulmuş və əsalı təmir edilmişdi. Bu da muxtar respublikada elmə və təhsilə göstərilən qayğının bariz nümunəsidir.

Bütün bu qeyd edilənlər göstərir ki, ölkə təhsili 1993-cü ildən bəri heç vaxt dövlətimizin diqqətindən kənarda qalmamışdır. Biz müəllimlərin də vətəndaşlıq borcu bu diqqət və qayğıya özümüzün layiqli işimizlə cavab verməkdir.

Dahi öndərin: "İstəyirəm ki, mənim arzum, istəklərim Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin" sözləri bu gün də quruculuq işlərinin əsas qayəsi olmaqla yanaşı, muxtar respublikamızı yeni uğurlara doğru aparır.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında Ümummilli liderimiz Heydər Əliyev tərəfindən həyata keçirilən təhsil siyasəti bu gün ölkə Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi: Yeddiclddə. VII c., Bakı: Elm, 2008, 608 s.
2. Cəfərov H.R. Naxçıvanda təhsil: İnkişaf yolu və imkanları. Bakı: Elm və təhsil, 2011, 343 s.
3. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan: "Əcəmi" NPB, 2011, 272 s.
4. Həbibbəyli İ., Hacıyev İ., İsmayılov B. İntibahın 15 ili. Naxçıvan: "Əcəmi" NPB, 2010, 279 s.
5. Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: "Azərbaycan" nəşriyyatı, 2008, 840 s.
6. M.Məmmədov. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: 2005, 208 s.
7. Naxçıvan Muxtar Respublikası - 75. Yubiley statistik məcmuə. Naxçıvan: 1999, 96 s.
8. Naxçıvan Muxtar Respublikası. 1991-2001-ci illər ərzində. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi 2001, 97 s.
9. Naxçıvan tarixi: Üç clddə. III c., Naxçıvan: "Əcəmi" NPB, 2015, 560 s.
10. Şahverdiyev Z.Ə., Zeynalov İ.Ə. Naxçıvan Muxtar Respublikası 1991-2001. Bakı: "Qismət" nəşriyyatı, 2002, 168 s.

**RƏSUL BAĞIROV**
*bagirovresul11@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

## NAXÇIVANDA MÜDAFİƏ VƏ HƏRBİ QULLUQÇULUQ
### *(1991-1993-cü illər)*

Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi muxtar respublikanın və Azərbaycanın mürəkkəb, eyni zamanda ağır dövrünə təsadüf edirdi. Muxtar respublikanın rəhbəri seçildikdən sonra Ulu öndər bölgənin erməni təcavüzündən müdafiəsi ilə bilavasitə məşğul olmağa başladı, bu məsələ onun əsas fəaliyyət istiqamətinə çevrildi.

Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasını Ermənistanın hərbi təcavüzündən qorumaq, əhalinin təhlükəsizliyini təmin etmək məqsədi ilə Ali Məclisin 7 sentyabr 1991-ci il tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsi yaradıldı (2, s.479-380). 1991-ci il oktyabrın 2-də Ali Məclisin sessiyasında Ali Məclis Sədrinin təşəbbüsü ilə müdafiə məsələləri qapalı iclasda müzakirə olunmuş və müvafiq qərar qəbul edilmişdir.

1991-ci il oktyabrın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında SSRİ Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən hissələrinin statusu haqqında məsələ müzakirə olundu. Bu məsələnin müzakirəsinin zəruriliyi ondan irəli gəlirdi ki, son vaxtlar hərbi hissələr yerli hakimiyyət orqanları ilə kifayət qədər əlaqə saxlamır, əhali ilə münaqişələrə gətirib çıxaran hərəkətlərə yol verirdilər. Hərbi hissələr tərəfindən hərbi texnikanın və silahların respublikadan kənara aparılması yerli əhali arasında böyük

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

narazılığa səbəb olmuşdu. Heydər Əliyevin qətiyyətli möqeyi sayəsində bu məsələ öz müsbət həllini tapmışdır.

26 oktybar 1991-ci il tarixli sessiyada "Naxçıvan Muxtar Respublikasında yerləşən silahlı qüvvələrin hissələrinin statusu haqqında" məsələ də müzakirə olunmuş və bu haqda qərar qəbul edilmişdir. Qəbul olunmuş həmin qərarla muxtar respublika ərazisində yerləşən SSRİ Silahlı Qüvvələrinin statusu ilə bağlı bütün məsələləri hərtərəfli öyrənmək və təhlil etmək, onlarla yerli hakimiyyət orqanlarının qarşılıqlı fəaliyyətini təkmilləşdirmək, hərbi qulluqçularla yerli əhali arasında münaqişəli halların qarşısını almaq məqsədilə birgə tədbirlər hazırlanması üçün xüsusi komissiya yaradılmışdır.

1991-ci ilin dekabr ayında SSRİ-nin dağılması vahid silahlı qüvvələrin bölünməsi məsələsini ortaya çıxardı. Azərbaycan Respublikası Ali Sovetinin "Azərbaycan Silahlı Qüvvələrinin yaradılması haqqında" 9 oktyabr 1991-ci il tarixli qərarı, Azərbaycan hökumətinin "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" 225 №-li sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə və yerli XDS İK-ə tapşırıldı ki, Azərbaycan ərazisində xüsusi icazə olmadan hərbi texnika, silah, avadanlıq və digər hərbi əmlakın öz bölgəsinin hüdudlarından kənara çıxarılmasını qadağan etsinlər.

Yaranmış yeni şərait Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən hərbi hissələrin statusunun dəqiqləşdirilməsini, həmin hissələrin Naxçıvan Muxtar Respublikasında qalmalarının məqsədəuyğunluğunu zəruri edirdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 14-16 dekabr 1991-ci il tarixli sessiyasında hərbi hissələrin statusu məsələsi bir daha müzakirəyə çıxarılmış, bu məsələlər ilə bağlı yaradılmış xüsusi komissiyaya hərbi hissələrin komandirləri ilə birgə on gün müddətinə konkret təkliflər hazırlayıb Naxçıvan Muxtar Respublikası Ali Məclisinə təqdim etmək tapşırılmışdır (2, s. 514-516).

1992-ci ilin may ayı Azərbaycanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının müasir tarixinin ən mürəkkəb və gərgin dövrünü təşkil edir. Ermənilər yaranmış şəraitdən istifadə edərək Naxçıvanı ələ keçirmək üçün mayın 1-də Naxçıvan Muxtar Respublikasına qarşı hərbi təcavüzə başladılar. Bu təcavüz bir neçə gün davam etmiş olsa da, belə mürəkkəb şəraitdə Heydər Əliyevin fenomenal siyasətçi və diplomat dühası Naxçıvanı real işğal təhlükəsindən xilas etdi.

Ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında hərbi quruculuq məsələlərinə xüsusi diqqət yetirirdi. Onun birbaşa rəhbərliyi və nəzarəti altında Rusiyanın Zaqafqaziya Sərhəd dairəsinin Naxçıvandakı hərbi hissələrinin komandanlıqları ilə aparılan danışıqlar nəticəsində 75-ci motoatıcı diviziyanın ləğv edilməsi və diviziyanın bütün hərbi və təsərrüfat əmlakının Azərbaycan Respublikasının sərəncamına verilməsi haqqında razılıq əldə edilmişdir.

1992-ci il iyulun 25-də Ali Məclisin Rəyasət Heyətinin iclasında Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə komitəsinin yenidən təşkil olunması və onun bazasında Azərbaycan Müdafiə Nazirliyinin tərkibində müvafiq hərbi strukturun yaradılması zəruri hesab edildi. İki gündən sonra, yəni iyulun 22-də 75-ci diviziyanın əmlakının, silah-sursatının Azərbaycan Milli Ordusuna təhvil verilməsi prosesinə başlanıldı və bu proses avqust ayının 15-də başa çatdırıldı. Azərbaycan Müdafiə Nazirliyinin

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

Naxçıvanda 5-ci əlahiddə motoatıcı briqadası yaradıldı.

1992-ci il avqustun 18-də keçmiş Sovet Ordusunun 75-ci diviziyasının şəxsi heyətinin son dəstəsi Naxçıvan Muxtar Respublikasını tərk etdi. Həmin gün diviziyanın əmlakının, silahlarının və sursatının Azərbaycan Milli Ordusunun 5-ci əlahiddə motoatıcı briqadasına təhvil verilməsi haqqında sənədlərin imzalanması və diviziyanın Naxçıvandan yola salınması mərasimi keçirilmiş, mərasimdə Ali Məclisin Sədri Heydər Əliyev çıxış etmişdir (3, s.84).

Milli Ordunun Naxçıvandakı 5-ci əlahiddə briqadasının zabit və əsgərləri qarşısında çıxış edən Heydər Əliyev əmin olduğunu bildirmişdi ki, Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvanda yerləşən hissəsi Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edəcək, briqadanın komandanlığı, bütün zabit və əsgər heyəti sərəncamlarına keçən hərbi əmlakın, texnikanın saxlanılmasına, ondan səmərəli istifadə edilməsinə böyük səy göstərəcəklər (1, s.5).

Aparılan danışıqlar nəticəsində Naxçıvan Muxtar Respublikası ərazisində İİR və Türkiyə ilə sərhədləri qoruyan 41-ci sərhəd qoşunları dəstəsinin ləğv olunması və onun sərəncamındakı bütün silahların, sursatların, texnikanın və mülki əmlakın Azərbaycan tərəfinə verilməsi haqqında da razılıq əldə edilmişdir.

1992-ci il iyulun 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin təklifi ilə Azərbaycan Respublikası Sərhəd Qoşunlarının Naxçıvan ərazisində 1-ci sərhəd qoşunları dəstəsi yaradılmışdır.

Bununla da, Azərbaycan Respublikası ilə qonşu dövlətlər – İran və Türkiyə arasında Naxçıvan Muxtar Respublikası ərazisindəki 215 km-lik dövlət sərhəddinin mühafizəsi Azərbaycan Respublikası Sərhəd Qoşunları tərəfindən həyata keçirilməyə başlanıldı.

Beləliklə, 1992-ci il sentyabrın 29-da Naxçıvan Muxtar Respublikası ərazisində digər dövlətin – Rusiyanın heç bir hərbi hissəsi və hərbi qulluqçusu qalmamışdı. Naxçıvan Muxtar Respublikasında təxminən iki əsr müddətində mövcud olmuş əcnəbi ölkənin hərbi iştirakına son qoyuldu.

Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkilində muxtar respublika Ali Məclisi Rəyasət Heyətinin 19 sentyabr 1992-ci il tarixli iclası və həmin iclasda qəbul edilmiş qərarlar mühüm rol oynadı.

Həmin qərarlara əsasən Naxçıvan Muxtar Respublikasının Dövlət Müdafiə Komitəsinin bazası əsasında Azərbaycan Müdafiə Nazirliyinin yeni hərbi hissəsinin təşkil edilməsi ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikasının Dövlət Müdafiə Komitəsi ləğv edildi (3, s.87).

Heydər Əliyev Naxçıvan torpağını cəsarətlə qorumuş bütün vətənpərvər Naxçıvan oğullarına, bütün könüllü dəstələrə minnətdarlıq hisslərini bildirərək onu da bəyan etmişdir ki, Naxçıvandakı Azərbaycan milli ordusunun hissələri lazımi gücə malikdir və Naxçıvan torpaqlarını müdafiə etməyə qadirdir.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1991-1993-cü illərdə Naxçıvanda müdafiə və hərbi qulluqçuluq sahəsində həyata keçirilmiş tədbirlər bölgənin düşmən əlinə keçməsinin qarşısını aldı, sabitlik və əmin-amanlığın möhkəm təməlini qoydu.

Müasir Azərbaycan dövlət müstəqilliyinə 1991-ci ildə nail olsa da, vahid komandanlığa əsaslanan nizami və mütəşəkkil, ən əsası müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yarana biləcək hər hansı təhdidin qarşısını almağa qadir

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

ordunun yaradılması Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra mümkün oldu. Başlanğıcını 1993-cü il noyabrın 2-də Ulu öndərin xalqa müraciətindən götürən və tarixə Heydər Əliyevin ordu quruculuğu kimi düşən bu dönəmin ilkin çağlarında yeni yaradılan və mərkəzi komandanlığa tabe olan hərbi birləşmələr nəinki Ermənistanın güclənən hücumlarının qarşısını böyük mətinliklə aldılar, 1993-cü ilin sonu, 1994-cü ilin əvvəllərində Füzuli istiqamətində, Murovda yüksək peşəkarlıqla uğurlu hərbi əməliyyatlar keçirərək çoxsaylı yaşayış məntəqələrini, strateji əhəmiyyət kəsb edən yüksəklikləri düşməndən azad etdilər.

Heydər Əliyevin 1994-cü il yanvarın 24-də cəbhəyə yola düşən yeni hərbi hissənin şəxsi heyətinə xitabən dediyi "Bilin ki, sizin hər birinizin arxasında böyük Azərbaycan ölkəsi durmuşdur. Bilin ki, hər biriniz öz doğma Vətəninizi, öz ananızı, atanızı, bacınızı, qardaşınızı müdafiə etmək üçün ordu sıralarına gəlmisiniz. Bilin ki, sizin hər bir uğurlu addımınız Azərbaycan Respublikasının müstəqilliyinə və ərazi bütövlüyünə kömək edəcəkdir. Bilin ki, ümumi qələbəmiz sizin hər birinizin fəaliyətindən, qəhrəmanlığından asılıdır", sözlərini unutmayan, Ulu öndərin bu xeyirduasından ruhlanan zabitlərimiz, əsgərlərimiz, gizirlərimiz və çavuşlarımız o dövrdə sinələrini düşmən pulemyotunun qarşısına verməklə, əldə qumbara düşmən tankının altına atılmaqla əsil qəhrəmanlıq nümunələri göstərdilər.

1994-cü il mayın 12-də atəşkəsin elan edilməsindən sonra ordu quruculuğu ilə bağlı genişmiqyaslı islahatlara start verildi. Tezliklə hərbi hissələrin ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırıldı. Orduya çağırış, fərarilik halları ilə bağlı bütün problemlər həll edildi. Dövlətçiliyi və hərbi andı hər şeydən uca tutan, hərbçi olmağı şərəf bilən, mənəvi baxımdan sağlam zabitlər hərbi hissələrin rəhbərliyinə cəlb olundular. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi.

Ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri olan qanunlar qəbul edildi, silahlı qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı. Silahlı Qüvvələrin döyüş hazırlığının səviyyəsi tək hərbi texnika ilə deyil, bu texnikanı idarə edə biləcək savadlı zabit korpusundan əhəmiyyətli dərəcədə asılıdır. Bu baxımdan Azərbaycanda beynəlxalq standartlara cavab verən hərbi təhsil sisteminin formalaşdırılması ordu quruculuğunda vacib və tarixi əhəmiyyətli bir mərhələdir (4, s.2).

Heydər Əliyevin təşəbbüsü və Türkiyə ilə imzalanmış protokola əsasən 1997-ci ildən Ulu öndərin adını daşıyan indiki Azərbaycan Ali Hərbi Məktəbi yaradılmış və burada hərb elminin dünyanın ən qabaqcıl standartları tətbiq edilməklə tədris olunmasına başlanılmışdır. 2001-ci ildən bu məktəb Azərbaycan Ordusunu müasir standartlara uyğun yeni proqram əsasında hazırlanmış zabitlərlə təmin edir. Silahlı Qüvvələrimizin strukturuna daxil olan müxtəlif qoşun növlərini peşəkar hərbi kadrlarla təmin etmək üçün Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi, Hərbi tibb fakültəsi də yaradılmışdır. Bu hərbi təhsil müəssisələri ordumuza ehtiyac duyulan

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

bütün hərbi mütəxəssisləri hazırlamaq imkanına malikdir. Hərbi təhsildən danışanda yada düşən məktəblərdən biri də əsası Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə qoyulmuş Cəmşid Naxçıvanski adına hərbi liseydir. Heydər Əliyevin səyi nəticəsində bu məktəbin yaradılması Azərbaycanın hərbi təhsil tarixində yeni bir səhifə açmışdır. İndi hərbi lisey kimi fəaliyyət göstərən bu məktəbin o zaman təsis edilməsi respublikamızda milli zabit kadrları hazırlığının yüksəlməsinə, azərbaycanlıların hərbi sənətinə marağının artmasına təkan vermişdir. Hazırda liseyin məzunları arasında yetişən generallar, onlarla yüksək rütbəli zabit respublikamızın Silahlı Qüvvələrində, Daxili Qoşunlarında, milli təhlükəsizlik orqanlarında vətənə xidmət edirlər.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin ordu quruculuğu, eləcə də milli təhlükəsizlik siyasəti ilə bağlı başladığı işlər onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan

Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

## ƏDƏBİYYAT

1. Qafarov T.B. Heydər Əliyevin Naxçıvandan Azərbaycan xalqının qurtuluş hərəkatına rəhbərliyi. Naxçıvan Muxtar Respublikası. Məqalələr toplusu. Azərbaycan EA-nın Tarix İnstitutu. Bakı: Elm, 1999.
2. Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996.
3. Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005.
4. "Şərq qapısı" qəzeti, 1991.

**ƏLƏKBƏR CABBARLI**
*Naxçıvan Dövlət Universiteti*

# HEYDƏR ƏLİYEV VƏ MİLLİ DÖVLƏTÇİLİK TƏFƏKKÜRÜ

Azərbaycan xalqının dövlətçilik ənənələri olduqca zəngin və dərin tarixi köklərə malikdir. XIX əsrin sonu, XX əsrin əvvəllərində milli özünüdərk Azərbaycan xalqının daxili ehtiyacı idi. Məhz həmin ehtiyacın təsiri ilə XX əsrin əvvəllərində - 1918-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyəti elan olundu. Çünki hər bir xalqın ən böyük əsəri onun müstəqil dövlətidir. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması milli dövlətçilik təfəkkürünü yenidən canlandırdı.

Beləcə, XX əsrin ortalarında ölkədə milli dövlətçilik təfəkkürünün çiçəklənməsi üçün yenidən tarixi şərait yetişməyə başladı. Heydər Əliyevin respublikada rəhbərliyə gəlməsi ilə Azərbaycan nəinki sovet dövlətinin - mərkəzin verdiyi imkanlar daxilində, hətta müəyyən maneələri dəf edərək müstəqil düşüncəyə meydan açdı. 70-80-ci illərdə Azərbaycanda gedən milli oyanış, siyasi-ideoloji dirçəliş prosesinin nəticələri özünü 80-ci illərin sonu, 90-cı illərin əvvəllərindəki xalq hərəkatında göstərdi. Heydər Əliyev xalqın enerjisinin, milli müstəqillik hissinin təzahürünə çalışır, onu dünyanın inkişaf etmiş xalqlarının səviyyəsinə çatdırmaq istəyirdi. Və bütün bunları böyük bir cəsarətlə, gördüyü işin düzgünlüyünə tarixi bir inamla edirdi. Əgər müqayisə aparsaq, etiraf etməli olarıq ki, Azərbaycanın dövlət rəhbərləri içərisində Heydər Əliyev qədər böyük idarəçilik təcrübəsinə malik ikinci bir şəxs olmamışdır. Onun imzasına 60-cı illərin sonu, 70-ci illərin əvvəllərindən Azərbaycanın hər yerində, iqtisadi,

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

ictimai-siyasi, mənəvi-ideoloji həyatın, demək olar ki, bütün sahələrində rast gəlmək mümkündür. 70-80-ci illərdə Azərbaycanı ən müxtəlif baxımlardan "Heydər Əliyevin Azərbaycanı" adlandırmaq üçün hər cür əsas vardır.

Xalq hərəkatının, müxtəlif xarakterli münaqişələrin təşkili ilə hakimiyyətə gələn qüvvələrin dövlət idarəçiliyi sahəsində təcrübəsizliyi ortaya çıxanda isə Azərbaycanın məhz "Heydər Əliyevin Azərbaycanı" olduğu bütün aydınlığı ilə təzahür etdi. Bir-birinin ardınca baş verən hadisələrin inersiyası, get-gedə güclənən xaos "ölkənin sahibi"ni tələb edirdi. Hüdudsuz "demokratiya"nın, müxtəlif mərkəzlərdən idarə olunan hərc-mərcliyin, hakimiyyət uğrunda mübarizənin mahiyyəti, iç üzü ortaya çıxdıqca və nəhayət, Heydər Əliyevin yaratdıqları xalqın gözləri qarşısında dağıldıqca böyük dövlət qurucusuna, ictimai harmoniya ustasına meyil də güclənirdi. O, Azərbaycan xalqına yalnız bilavasitə idarəedici, dövlət qurucusu kimi yox, tarix kimi də lazım idi.

Azərbaycan SSR tarixinin Heydər Əliyev dövrünün milli yüksəliş təcrübəsi kifayət qədər zəngindir. 1993-cü ilin ortalarında Azərbaycan cəmiyyəti artıq demokratiyanı hərc-mərclikdən xilas etmək uğrunda mübarizə aparmaq üçün özündə qüdrət tapdı. Bu isə birinci növbədə onda təzahür etdi ki, xalq uzun illər ərzində yetirmiş olduğu tarixi liderə inamını sonsuz bir enerji ilə ifadə etdi. Və həmin inam xırda "xalq qəhrəmanları"nın, heç bir tarixə söykənməyən siyasət fəallarının "obraz"ını ictimai təfəkkürdən bütünlüklə silib atdı (6, s.438).

Azərbaycanın qurtuluşu Heydər Əliyevin şəxsində təzahür edən böyük bir milli, ictimai-siyasi enerjinin fəaliyyəti nəticəsində mümkün ola bilərdi. Və belə də oldu. Heydər Əliyevin Azərbaycanın xilası üçün gördüyü işlərin miqyasını müəyyənləşdirmək yox, ancaq təsəvvür etmək mümkündür. Bu, epik bir miqyasdır - bu fəaliyyət xalqın yalnız bu gününü müəyyən etmir, onun gələcəyinə əhəmiyyətli təsir göstərir ki, bu mənada Azərbaycanın qurtuluşu bu günlə məhdudlaşmayan, gələcəyə getdikcə tarixi məzmunu daha yaxşı dəyərləndiriləcək bir hadisədir.

Azərbaycanın qurtuluşunun yekunu yaxud nəticəsi qurtuluşun Azərbaycandır. O Azərbaycan ki, müxtəlif nəsillərdən olan azərbaycanlılar onu arzulamış, onun qurulması uğrunda mübarizə aparmışlar. Azərbaycan Respublikası Milli Məclisinin 1993-cü il 15 iyun tarixli iclasındakı çıxışında Heydər Əliyev həmin mübarizənin tarixi mahiyyətini ifadə edərək demişdir: "Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm" Əlbəttə, dahi mütəfəkkir, dövlət qurucusu həqiqətən müstəqil Azərbaycan dövlətinin əsaslarını yaratmış, onun demokratik inkişaf yolunu istiqamətləndirmişdir.

Heydər Əliyevin zəkası öz nuru ilə yalnız bu gün deyil, sabah da müstəqil respublikanın gələcəyini işıqlandıracaq, ona müasir dünyanın üzvi tərkib hissəsi olmaq üçün hər cür stimul verəcəkdir. Çünki Heydər Əliyev müdrikliyi yalnız bir insanın fərdi qabiliyyətinin nəticəsi deyil, bütövlükdə mənsub olduğumuz xalqın tarixi iradəsinin ifadəsidir. Həmin iradə idi ki, milli dəyərlərin böyük daşıyıcısına

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

1993-cü il 15 iyun tarixli iclasda aşağıdakıları dedirtmişdi:

"Azərbaycan Respublikası, bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcəkdir".

Bununla belə, Heydər Əliyev bildirdi ki, Azərbaycanın müstəqilliyini sadəcə elan etmək nə qədər sevindirici hal olsa da, həlledici bir şey deyil. Müstəqillik uğrunda illər boyu, tədricən, həm tələsmədən, həm də gecikmədən mübarizə aparmaq, millətin daxilindəki "kimdənsə asılı olmaq" hissini öldürmək lazımdır. Çünki xalq bəzən müstəqillik uğrunda "mübarizə" prosesində məhz müstəqilliyini itirir.

Azərbaycan Respublikası yaşayır, dünyanın üzvi tərkib hissəsi olmaq uğrunda mübarizə aparır. Bu mübarizənin qalibiyyətini təmin edən əsas qüvvə isə heç şübhəsiz, Heydər Əliyevin şəxsiyyətində təzahür edən milli iradə, möhtəşəm xalq ruhu idi ki, Azərbaycanı hər cür iqtisadi, sosial-siyasi problemlərdən çıxararaq gələcəyə-əbədi müstəqilliyə doğru irəlilədi.

Müşahidələr göstərir ki, Heydər Əliyevin siyasi fəaliyyətində müstəqil Azərbaycan dövlətinin daxili möhkəmliyini, xarici (beynəlxalq) nüfuzunu qorumaq nə qədər möhtəşəm yer tutursa, Azərbaycan xalqının dünya azərbaycanlılarının milli birliyi, dünya xalqları içərisində özünə layiq mövqe qazanması uğrunda mübarizə də o qədər mühüm əhəmiyyət daşıyıb.

Heydər Əliyev dünya azərbaycanlılarının həmrəyliyi, milli birliyi uğrunda mübarizəyə respublikaya (Naxçıvana) qayıtdığı ilk aylardan başladı. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikasının Ali Məclisi hər il dekabr ayının 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunması barədə qərar qəbul etdi (5, s.271-274). Həmin qərarın qəbul edilməsi Ali Məclisin Sədri Heydər Əliyevin bilavasitə təşəbbüsü idi. Və 1991-ci ilin 31 dekabrı Naxçıvanda müxtəlif ölkələrdən, xüsusilə İrandan, Türkiyədən gəlmiş azərbaycanlıların iştirakı ilə bayram edildi. Naxçıvan MR Ali Məclisinin qərarı Azərbaycan Respublikası Ali Soveti tərəfindən rəsmən müdafiə edilsə də, Dünya Azərbaycanlılarının Həmrəyliyi günü Azərbaycan Respublikası miqyasında yalnız 1993-cü ildə qeyd edildi.

Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə gəlməsi ilə Azərbaycan öz müstəqilliyini əldə etdi. Müstəqil Azərbaycanın hər bir sahəsində geniş inkişaf üfüqləri açıldı. Dilimizin, ədəbiyyatımızın, mədəniyyətimizin inkişafı istiqamətində böyük işlər görüldü.

Heydər Əliyev milli mədəniyyətin böyük hamisi kimi bu sahəyə özünün xüsusi münasibəti ilə fərqlənirdi: "Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir" (4, s.20). Mədəniyyət milli ruhun yüksəlməsinə, milli ruhun yaşamasına xidmət edir. Milli ruhu yaşatmaq isə öz şərəfli keçmişi, şanlı tarixi ilə fəxr etmək, milli- mənəvi və maddi dəyərlərini qorumaq, hifz edərək gələcək nəsillərə çatdırmaq deməkdir.

Bir sözlə, Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini və milli inkişafını təmin etdi, respublikada demokratik dövlət quruculuğu, siyasi plüralizm, vətəndaş cəmiyyəti və bazar iqtisadiyyatı prinsiplərini dönməz hala gəldi. Ulu öndər ölkəni dinamik inkişaf yoluna çıxardı və öz adını xalqımızın dövlətçilik tarixinə müstəqil, demokratik Azərbaycan dövlətinin banisi və lideri kimi həkk etdi.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009, 68 s.
2. "Azərbaycan" qəzeti. 4, 7, 9, 11 noyabr, 1995-ci il
3. Cəfərov N. Azərbaycanşünaslığın əsasları. Bakı: Pedaqogika, 2005, 256 s.
4. Heydər Əliyev. Müstəqillik yollarında. 4 clddə, IV c., Bakı: 1997, s. 304
5. Qayıdış (1990-1993). Sənədlər toplusu. Təkmilləşdirilmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, 840 s.
6. Qətiyyətin təntənəsi (sənədli xronika). Tərtibçi Ş.Yaqubov. Bakı: Qorqud, 1995, 846 s.

**ABDULLA MUSTAFAYEV**
*abdullamustafayev78@gmail.com*

**MÜNƏVVƏR SÜLEYMANOVA**
*alexandra.tarverdiyeva@gmail.ru*
*Naxçıvan Dövlət Universiteti*

# HEYDƏR ƏLİYEV VƏ TÜRKDİLLİ DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞLƏRİ ÇƏRÇİVƏSİNDƏ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ

Üçüncü minillik tarixə qloballaşma əsri kimi düşüb. Bu minillikdə texnologiya sürətlə inkişaf etmiş, bazar iqtisadiyyatına keçilmiş, dünyada demokratik dəyişikliklər baş vermişdir. Elm və texnika inkişaf etdikcə xalqlar arasında olan siyasi, iqtisadi və mədəni münasibətlər də getdikcə dərinləşir və inkişaf edir.

Dünyada gedən qloballaşma prosesi bölgə ölkələri arasında olan əməkdaşlığın daha da genişlənməsinə səbəb olmuşdur. Belə ki, keçən əsrin sonlarında yaranan bir sıra beynəlxalq təşkilatlar strukturlaşmış, millətlərin təşkilatlanması önə çıxmış, bütün bunlar isə öz növbəsində tarixən zəngin keçmişə və soy birliyinə malik olan türkdilli xalqların da yaxınlaşmasına, birləşməsinə səbəb olmuşdur.

Keçən əsrin sonlarında SSRİ-nin dağılması ilə müstəqil türk dövlətləri yaranmış və nəticədə türkdilli dövlətlərin qarşılıqlı inteqrasiya məsələsi aktuallıq kəsb etmişdir. Məlumdur ki, 1920-ci ildə AXC-nin süqutundan sonra Osmanlı torpaqları üzərində yaranmış Türkiyə Cümhuriyyəti təxminən 70 il ərzində dünyada və beynəlxalq təşkilatlarda yeganə türk dövləti kimi çıxış etmişdir. 1991-ci ildə Azərbaycanın və Orta Asiyanın türk respublikalarının öz müstəqilliklərini elan etməsi ilə Türkiyə regional inteqrasiyanın təşəbbüskarı kimi

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

çıxış etməyə başlamışdı. Müstəqil türk dövlətləri qərbə inteqrasiyada Türkiyənin təcrübəsindən bəhrələnməyə başladılar.

Yeni yaranmış türkdilli respublikalar arasında çoxtərəfli əməkdaşlıq aktuallığını qorumaqdadır. Bu baxımdan, qardaş Türkiyə ilə Azərbaycan arasında həyata keçirilən beynəlxalq əhəmiyyətli layihələr yalnız iki dövlətin deyil, bütün türkdilli dövlətlərin maraqlarına xidmət etməkdədir.

Beynəlxalq və regional təşkilatlar çərçivəsində, o cümlədən türkdilli dövlət başçılarının zirvə görüşləri çərçivəsində Türkiyə ilə Azərbaycan arasında əməkdaşlıq çox mühüm yer tutur. Yuxarıda da qeyd etdiyimiz kimi, qloballaşmanın yaratdığı yeni şərait Osmanlı dövlətinin dağılması ilə bir-birindən ayrı düşmüş türkdilli xalqların bir-birləri ilə yenidən yaxınlaşmasına şərait yaratmışdır. Bu yeni şəraitə uyğun olaraq, Türkiyə bölgədə özünün siyasi varlığını artırmaq məqsədilə regional inteqrasiyada böyük rol oynayan Türkdilli Dövlətlər Birliyini yaratmışdır (7, s.127-131). Türkdilli Dövlətlər Birliyi qısa zaman kəsiyində türkdilli ölkələrin çoxtərəfli sahələr üzrə əməkdaşlıq etdiyi bir təşkilata çevrilmişdir. Bu birliyin ali orqanı isə türkdilli dövlət başçılarının zirvə toplantılarıdır.

Qeyd etdiyimiz kimi, sovetlər birliyinin dağılması ilə yaranmış türkdilli dövlətlər arasında istər iqtisadi, siyasi, istərsə də mədəni sahələrdə əməkdaşlıq yaranmağa başlamışdır. Türkdilli dövlətlər arasında qeyd etdiyimiz sahələr üzrə əməkdaşlığa nail olmaq üçün ilk növbədə siyasi əlaqələrin yaranması vacib və zəruri idi. Məhz bu amil türkdilli dövlətlər arasında münasibətlərin aparıcı istiqamətini təşkil etmişdi. Bu vacib və zəruri amili nəzərə alan Türkiyənin o zamankı Baş naziri Süleyman Dəmirəl Orta Asiyaya və Azərbaycana 1992-ci ilin may ayında etdiyi səfər zamanı yeni yaranmış türkdilli dövlət başçılarının zirvə görüşlərinin keçirilməsi təşəbbüsünü irəli sürmüş və bu ideya tez bir zamanda öz bəhrəsini vermişdir.

Təbii ki, uzun müddət sovetlər birliyinin tərkibində olmuş türkdilli respublikalar ilə Türkiyə arasında əlaqələrin kəsilməsinə və bu əlaqələrin yaranmasına qadağanın qoyulmasına görə birdən-birə bu əlaqələri yaratmaq heç də göründüyü qədər asan məsələ deyildi. Həm də bu əlaqələrin yaranması, zirvə görüşlərinin keçirilməsi ideyasının ortaya atılması elə bir dövrə təsadüf edirdi ki, bu zaman yenicə dağılmış sovetlər birliyinin yerində Müstəqil Dövlətlər Birliyinin təşkilatlanması prosesi gedirdi və Rusiya bu ideyaya çox qısqanclıqla yanaşırdı. Eyni zamanda, bu da bəllidir ki, Mərkəzi Asiyada daha çox təsir gücünə malik olan Rusiya heç bir halda Türkiyənin bölgəyə daxil olmasını istəmirdi. Bu isə, Türkiyənin burada fəal siyasət aparmasını çətinləşdirirdi.

İstər TÜRKSOY, istər türkdilli xalqların dostluq, qardaşlıq, əməkdaşlıq qurultayları, istərsə də türkdilli dövlət başçılarının zirvə görüşləri çərçivəsində əlaqələrin inkişafında Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Türkiyə və Orta Asiyanın türk respublikaları arasında birliyin yaranmasının əhəmiyyətindən bəhs edən Ulu öndər qeyd edirdi ki, "bu birlik lazımdır. Biz bu birliyi yaşatmalıyıq. Biz burada çox şeylərə nail olmuşuq. Birliyin əsas məqsədi odur ki, iqtisadi, mənəvi, elmi, mədəni sahələrdə, tarixi köklərimizin, dilimizin, dinimizin bir olduğuna və başqa məsələlərə görə biz bir-birimizlə daha da yaxınlaşaq, qovuşaq. Bu, təbiidir, ancaq kənardan buna başqa cür baxırlar. Ona görə də, bu birlik

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

yaşamalıdır. O, öz bəhrələrini, nəticələrini verəcəkdir" (2).

Qeyd edildiyi kimi, keçən əsrin sonlarından Türkiyə və keçmiş sovetlər birliyinin tərkibində olmuş türk respublikaları arasında çoxşaxəli əlaqələr yaranmış və getdikcə inkişaf etmişdir. Bu əlaqələrin yaranmasında və inkişafında zirvə görüşlərinin keçirilməsi mühüm əhəmiyyətə malikdir. Belə ki, bu zirvə toplantıları istər yeni yaranmış türk respublikalarının müstəqilliklərinin qorunub saxlanılmasında, hüquqi demokratik dövlətin yaradılmasında, istərsə də qarşılıqlı münasibətlərin möhkəmləndirilməsində çox böyük rol oynamışdır. Türk dövlətləri arasında qarşılıqlı əlaqələrə söykənən bu zirvə görüşlərinin keçirilməsində əsas məqsəd ortaq tarixə, soykökünə, mədəniyyətə malik olan dövlət başçılarını bir yerə toplamaqdır.

Yuxarıda da qeyd edildiyi kimi, bu zirvə görüşlərinin keçirilməsinin təşəbbüskarı kimi Türkiyənin o zamankı Baş naziri Süleyman Dəmirəl çıxış etmiş və 1992-ci ilin may ayında belə bir təklif irəli sürmüşdür. 1992-ci ilin oktyabr ayında türkdilli dövlətlərin başçıları Ankarada ilk dəfə toplanmışdılar (10, s.157). Beləliklə, ilk dəfə 1992-ci ildə reallaşan zirvə görüşündən başlayaraq türk dövlətlərinin rəhbərləri müxtəlif türk şəhərlərində zirvə görüşləri çərçivəsində bir araya gəlmiş və qarşılıqlı əlaqələrimizin əsas prioritet istiqamətlərini müzakirə edərək həllinə çalışmışlar. Türkdilli dövlətlərin başçılarının keçirilən görüşlərinin dövlətlərarası münasibətlərin inkişafında çox mühüm əhəmiyyəti vardır.

Türkiyənin paytaxt şəhəri olan Ankarada 1992 ilin oktyabrında keçirilən zirvə toplantısında çıxış edən mərhum prezident Turqut Özal türkdilli cümhuriyyətlərin dövlət başçılarının ilk toplantısı olduğuna görə bu görüşün əhəmiyyətini yüksək qiymətləndirmişdir (9, s.113-114).

Türkdilli dövlət başçılarının zirvə toplantılarının keçirilməsinin ən fəal iştirakçı dövlətlərindən biri Azərbaycandır. İlk zirvə görüşünün (1992, oktyabr 30-31) keçirilməsindən qısa müddət, yəni iki il keçdikdən sonra Ulu öndər Heydər Əliyevin də prezident kimi iştirak etdiyi ikinci zirvə görüşü 1994-cü il oktyabrın 18-19-da İstanbul şəhərində keçirilmişdir. (13). Bu zirvə görüşünün Bakı şəhərində keçirilməsi nəzərdə tutulsa da, həmin ərəfədə MDB dövlət başçıları şurasının da görüşünün keçiriləcəyi ilə bağlı olaraq bu mümkün olmamışdır. Görüşdə Heydər Əliyev ilə yanaşı, Süleyman Dəmirəl də çıxışlar edərək bu zirvə görüşlərinin əhəmiyyətindən danışmışdılar (12, s.357).

Azərbaycan nümayəndə heyətinə başçılıq edən prezident Heydər Əliyevin iştirak etdiyi bu zirvə görüşündə ilk dəfə olaraq Azərbaycanın məruz qaldığı təcavüz türkdilli dövlətlər tərəfindən bölgəsəl münaqişə kimi qarşılanmış, açıq şəkildə müzakirə obyektinə çevrilmiş və bu münaqişənin səbəb olduğu faciələrə obyektiv qiymət verilmişdi. Bu zirvə görüşünün nəticəsi olaraq prezidentlərin iştirakı ilə türkdilli xalqlar üçün, həmçinin ölkəmiz üçün xüsusi əhəmiyyətə malik olan 24 maddədən ibarət olan İstanbul Bəyannaməsi imzalanmışdı (7, s.128). Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev ikinci zirvə görüşünü bütün türkdilli xalqlar üçün, müstəqil türk respublikalarının bu günü və gələcəyi üçün çox böyük əhəmiyyətə malik bir tarixi hadisə kimi qiymətləndirmiş və eyni zamanda, türkmənşəli xalqların müstəqil dövlət kimi mövcud olmalarında, onlar arasındakı əlaqələrin inkişaf etdirilməsində, möhkəmləndirilməsində bu kimi görüşlərin keçirilməsinin vacibliyindən

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

bəhs etmişdir. Ulu öndər qapalı iclasda keçirilən görüşdə qeyd etmişdir ki, ölkəmizin müstəqillik əzmi sarsılmazdır, müstəqillikdən heç bir zaman imtina olunmayacaqdır (12, s.702). Heydər Əliyev xüsusilə vurğulayırdı ki, keçirilən görüşlərin sonunda hər hansı bəyannamənin, sənədin imzalanıb-imzalanmamasından asılı olmayaraq, bu görüşlərdə aparılan müzakirələr, müzakirə olunan məsələyə müxtəlif baxışlar və s. son nəticədə xalqlarımız, dövlətlərimiz arasında çoxşaxəli əlaqələrin yaranmasına, inkişaf etməsinə və genişlənməsinə şərait yaradır.

Heydər Əliyev çıxışında qeyd etmişdir ki, 1992-ci ildə keçirilmiş ilk zirvə görüşünün davamı olaraq ənənə halını almış ikinci zirvə görüşünün keçirilməsi eyni kökdən olan və eyni dinə mənsub olan türkdilli xalqlar arasında qarşılıqlı əlaqələrin yaranması və inkişaf etməsi baxımından xüsusi əhəmiyyətə malikdir, belə görüşlərin gələcəkdə də keçirilməsi vacibdir (5, s.141-142). İstər zirvə görüşləri çərçivəsində, istərsə də rəsmi və ya qeyri-rəsmi səfərlər çərçivəsində bu cür görüşlərin keçirilməsinə böyük əhəmiyyət verən Heydər Əliyev təkcə 1994-cü il ərzində 6 dəfə Türkiyəyə səfərə getmiş, bu müddət ərzində 10 dəfə Türkiyənin dövlət başçıları ilə görüşlər keçirmişdir.

Yuxarıda da qeyd etdiyimiz kimi, Heydər Əliyevin də iştirakı ilə keçirilmiş bu zirvə görüşündə ilk dəfə Ermənistan-Azərbaycan münaqişəsinə toxunulmuşdur. Belə ki, imzalanmış İstanbul Bəyannaməsinin 4-cü maddəsində göstərilmişdir ki, "Dövlət başçıları Ermənistan-Azərbaycan münaqişəsinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında sülh yolu ilə həllinin zəruriliyini vurğulamışdılar" (12, s.705).

İkinci zirvə görüşündə əldə olunmuş razılaşmaya əsasən türkdilli dövlət başçılarının üçüncü zirvə toplantısı 1995-ci ilin avqust ayında Bişkek şəhərində keçirildi. "Manas" dastanının 1000 illik yubiley şənliklərində iştirak etmək məqsədilə avqustun 27-də Bişkek şəhərinə yola düşən Heydər Əliyev avqustun 28-də üçüncü zirvə görüşündə iştirak etmişdir (4, s.77). KİV üçün mətbuat konfransı keçirən Heydər Əliyev türkdilli xalqlar arasında mədəni irsin qorunub saxlanılması, inkişaf etdirilməsi baxımından belə görüşlərin əhəmiyyətindən bəhs etmişdir (4, s.163-165).

Heydər Əliyev Bişkek görüşündə bildirmişdir ki, Azərbaycanın Türkiyə ilə müqayisədə Orta Asiyanın türk respublikaları ilə iqtisadi əlaqələri çox zəifdir, ona görə də ölkəmiz türkdilli ölkələrlə bütün sahələr üzrə, o cümlədən iqtisadi sahədə inteqrasiyaya qoşulmağa hazırdır (3).

Türkdilli dövlət başçılarının dördüncü zirvə görüşü ənənəyə uyğun olaraq, Teymur imperiyasının hökmdarı Əmir Teymurun 660 illik yubileyi ilə əlaqədar olaraq 1996-cı ilin oktyab ayının 21-də Daşkənd şəhərində keçirilmişdir (5, s.182). Görüşdə iştirak edən Heydər Əliyev türk respublikaları arasında qarşılıqlı münasibətlərin genişlənməsinə, zəngin tarixə malik olan mədəni irsin yayılmasına tərəfdar olduğunu bildirmiş və oktyabrın 22-də Daşkənd Bəyannaməsini imzalamışdır.

Bir məsələni nəzərdən qaçırmaq olmaz ki, zirvə görüşlərinin keçirilməsinə çox böyük önəm verən Ulu öndər digər dövlət başçılarından fərqli olaraq özü şəxsən bu zirvə görüşlərində iştirak və çıxışlar edirdi. Əgər bu zirvə görüşünə qədər keçirilən görüşlər "Türk zirvəsi" adlanırdısa, dördüncü zirvə görüşündə bu "Türk cümhuriyyətləri dövlət başçılarının zirvəsi" adlandırılmağa başlandı (14). Beşinci zirvə görüşündən sonra isə "Türk cümhuriyyətləri dövlət başçılarının

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

zirvəsi" "Türkdilli dövlətlərin dövlət başçılarının zirvəsi" adlanmağa başlandı.

Heydər Əliyev Qazaxıstanın paytaxtı Astanada 1998-ci il 9-10 iyun tarixlərində keçirilən beşinci zirvə toplantısında da iştirak və çıxış etmişdi. Bu görüşdə iştirak edən Heydər Əliyev həmçinin Astananın yeni paytaxt elan edilməsi ilə bağlı keçirilən bir sıra mərasimlərdə iştirak etmişdir (5, s.212).

Nəhayət, Türkdilli Ölkələrin Dövlət Başçılarının VI sammiti 2000-ci il aprelin 8-də Bakıda keçirildi. Azərbaycan Prezidenti Heydər Əliyev Zirvə toplantısında çıxış edərək bir daha vurğuladı ki, türk dövlətlərini birləşdirən bağ təkcə tarixi köklər deyil, həm də bugünkü şərtlərdir: "Sarsılmaz tarixi bağlarımızla yanaşı, məqsəd və vəzifələrimizin, üzləşdiyimiz problemlərin oxşarlığı ölkələrimizi və xalqlarımızı birləşdirən güclü amildir (6, s.151). Altıncı zirvə görüşündə Heydər Əliyev geniş məzmunlu çıxış etdi. Gülüstan sarayında keçirilən görüşün sonunda ənənəvi olaraq 17 maddədən ibarət Bakı Bəyannaməsi qəbul edildi (1, s.518-519). Bəyannamənin 12-ci maddəsində Ermənistan- Azərbaycan probleminə toxunulmuş, bu maddənin 1-ci bəndində dövlət başçıları təcavüzü və təcavüzkarın silahlandırılmasını pisləmişlər. 12-ci maddənin ikinci bəndində Ermənistan- Azərbaycan münaqişəsi ilə əlaqədar göstərilmişdir ki, "Dövlət başçıları Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamələri dəstəklədiklərini bildiriblər və ATƏT-in Lissabon Zirvə görüşündə müəyyən edilmiş üç əsas prinsip əsasında bu münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olduqlarını bir daha təsdiq edirlər" (6, s.160).

Bakı Bəyannaməsinin bütün maddələrində zirvə görüşünün yüksək səviyyədə keçirildiyi və qəbul edilmiş qərarların türkdilli xalqlar arasında birliyin möhkəmləndirilməsində böyük əhəmiyyətə malik olduğu öz əksini tapmışdır. Bakı zirvə görüşündə iştirak edən dövlət başçıları və hökumət nümayəndələri həmçinin, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinə həsr olunmuş tədbirlərdə iştirak etdilər.

Bakı zirvə görüşünün qəbul etdiyi mühüm qərarlardan biri Türkiyədə Türkdilli Ölkələrin Dövlət Başçılarının Zirvə Toplantısının Daimi Katibliyinin yaradılması və növbəti Zirvə Toplantısının 2001-ci ilin aprelində İstanbulda keçirilməsi barədə razılıq əldə olunması idi. Bu qərara əsasən 2001-ci il aprelin 26-da İstanbul şəhərində Ulu öndərin də iştirak etdiyi növbəti, yeddinci zirvə görüşü küçirilmişdir (11, s.41).

1995-ci il dekabr ayının 7-də Türkiyənin 9-cu prezidenti S.Dəmirəlin Azərbaycana baş tutan rəsmi səfəri zamanı Ulu öndər Heydər Əliyev Türkiyənin türkdilli xalqlar arasındakı əlaqələrin yaranması və inkişafındakı rolundan bəhs edərək qeyd etmişdir ki, "Biz arzu edirik ki, Türkiyə Cümhuriyyəti özünün bu mövqelərini həmişə qoruyub saxlasın və həmişə bizim üçün tərbiyə mənbəyi olsun. Bizim arzu və istəyimiz bundan ibarətdir: Türk dünyası, türkdilli xalqlar, bir kökdən, bir mənşədən olan millətlər daha da yaxınlaşsın, daha da birləşsin, bir-birinə kömək etsin, bir-biri ilə daha da mehriban olsun, bir-birinə yardımçı olsunlar. Biz nə qədər çətin və ağır vəziyyətdə olsaq da, Azərbaycanda bu hisslərlə yaşayırıq. Bu hisslərlə bütün qardaş ölkələrə öz münasibətimizi bildiririk" (8, s.68). Ulu öndərin bu sözlərinin arxasında gələcəkdə yekdil, sarsılmaz və vahid türk birliyini görmək istəyi dayanırdı.

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

Beləliklə, deyə bilərik ki, bəhs etdiyimiz dövr ərzində türkdilli xalqlar və dövlətlər arasında qardaşlıq və dostluq əlaqələri daima yüksələn xətt üzrə inkişaf yolu keçmişdir ki, bu da Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi uğurlu siyasi xəttin nəticəsində mümkün olmuşdur.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində:**

1. Abdullayev M. Beynəlxalq münasibətlər tarixi (XX əsr). Dərs vəsaiti. Bakı: ABU-nun "Beynəlxalq Universitet" nəşriyyat və poliqrafiya mərkəzi, 2003, 540 s.
2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Qazaxıstan Respublikasına rəsmi səfri. "Azərbaycan" qəzeti, 1997, 13 iyun, № 120 (1641).
3. Azərbaycan Prezidenti Heydər Əliyevin Qırğızıstana səfəri. "Azərbaycan" qəzeti, 31 avqust, 1995.
4. Azərbaycan-Türkiyə əlaqələri və Heydər Əliyev (1-ci kitab), 1991-2001. Bakı: Qafqaz Universiteti nəşri, 2002, 180 s.
5. Heydər Əliyev və Şərq, 6 cilddə, I kitab (Müəllif-tərtibçilər: Q. Allahverdiyev, V. Sultanzadə), Bakı: "Tural-Ə" NPM, 2002, 384 s.
6. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, cild 26, Bakı: Azərnəşr, 2008, 512 s.
7. Hüseynov Bəxtiyar. Regional inteqrasiyada dini-etnik amillərin rolu (1991-2013-cü illər). Tarix və onun problemləri, № 4, 2014, s. 127-131
8. Hüseynova Fərqanə. Müstəqillik dövründə Azərbaycan-Türkiyə əlaqələrinin kulturoloji aspektləri (elm, təhsil, mədəniyyət). Bakı: 2007, 302 s.
9. Məmmədli N. Mərkəzi Asiyanın türk dövlətləri və Türkiyə. Bakı: AzAtaM, 2005, 234 s.
10. Ruintən S. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri), Bakı: 2005, 236 s.
11. Vəliyev İ., Muxtarov K. Heydər Əliyev və türk dünyası. Bakı: 2003, 89 s.

**Türk dilində**

12. Bilal N. Şimşir. Azerbaycanın yeniden doğuş sürecinde Türkiye-Azerbaycan ilişkileri. Ankara: 2011, 768 s.
13. İnternet saytları https://azertag.az) https://www.shaidov.com

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

**ZAMİN ƏLİYEV**
*zaminalisoy@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

# AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİ BÜTÖVLÜYÜNÜN QORUNUB SAXLANILMASINDA HEYDƏR ƏLİYEV FAKTORU

Hər bir müstəqil ölkənin əsas prioritet məsələsi ərazi bütövlüyünün təmin edilməsidir. Tarixinin bütün mərhələlərində Azərbaycan ərazisində fərqli adlarla mövcud olmuş türk dövlətlərinin ərazi bütövlüyünə qəsdlər olmuşdur. XX əsrin əvvəllərində bu "missiyanı" ermənilər öz üzərlərinə götürdülər. Ermənilərin "Böyük Ermənistan" planları Şərqi Anadolu və Cənubi Qafqazda yaşayan türklərə bəla və göz yaşından başqa heç nə bəxş etməmişdir. Erməni caniləri XX əsrin əvvəllərində ruslara və digər hegemon güclərə arxalanaraq Şərqi Anadoluda türklərə soyqırım həyata keçirərək bölgədə özlərinin xəyallarındakı dövlətini yaratmaq istədilər, lakin ermənilərin bu xəyanəti onlara baha başa gəldi və bu xəyanətlərinin cəzası olaraq Mesopotamiyaya və Osmanlının digər bölgələrinə köçürüldülər. Bu planı həyata keçirə bilməyən ermənilər rusların dəstəyi ilə Cənubi Qafqazda fəallaşmağa başladılar. Azərbaycan torpaqlarında cəmləşən ermənilər (XIX əsrin 20-ci illərində və XX əsrin əvvəllərində ruslar tərəfindən köçürüldülər) Şərqi Anadoluda əldə edə bilmədiklərini burada, Cənubi Qafqazda (Qərbi Azərbaycanda) əldə etməyə cəhd göstərdilər. Qərbi Avropa ölkələrinin dəstəyi sayəsində onlar tarixi Azərbaycan torpağı olan İrəvan xanlığı ərazisində dövlət yarada bildilər. Lakin ermənilər bununla kifayətlənmək niyyətlərinin olmadıqlarını dəfələrlə göstərmişdilər. Cənubi Qafqaz ölkəsi kimi Sovetlərin tərkibinə qatılan Ermənistan bolşevik dəstəyinə arxalanaraq yeni torpaqlar ələ keçirməyə cəhd edirdi. Sovetlərin son dönəmlərində meydana gələn hakimiyyət boşluğundan istifadə edərək öz ərazilərini genişləndirməyə cəhd göstərdilər. Onlar bu çirkin planlarına Qorbaçov kimi türk-müsəlman düşmənini də cəlb etmişdilər. Lakin əvvəlki dövrlərdən fərqli olaraq XX əsrin axırlarında Azərbaycanın ərazi bütövlüyünün qorunmasında əvəzsiz xidmətləri olan Heydər Əliyev kimi siyasi dühа tarix səhnəsinə çıxmışdı.

Heydər Əliyevin fəaliyyəti bir-birinə zidd olan iki müxtəlif ictimai-siyasi sistemin qovuşuğundan keçmiş və bunların hər ikisindən o, bacarıqla istifadə edib ölkəmizin hərtərəfli inkişafını təmin etmişdir.

Azərbaycan xalqının XX yüzildəki tarixi Heydər Əliyevin şəxsiyyəti ilə, onun 30 ildən artıq bir müddət ərzində öz xalqının, doğma yurdunun gələcəyi naminə həyata keçirdiyi böyük quruculuq işləri ilə qırılmaz surətdə bağlı olmuşdur.

Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixindəki xidmətləri, ölkəmizin tərəqqisi naminə həyata keçirdiyi tarixi missiya eləcə də onun Azərbaycanın ərazi bötvlüyü uğrunda apardığı mübarizəni tədqiq etmək həm şərəfli həm də çox məsuliyyətli bir vəzifədir.

XX əsrin 70-ci illərində Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın milli oyanış və müstəqilliyə doğru dönüş mərhələsi başlanmışdır (7, s.14).

Azərbaycan xalqının tarixində də çətin dövrlərdə ölkəsini düşməndən qorumağı bacaran şəxsiyyətlər çox olmuşdur. Lakin bu şəxslərdən heç biri Ümummilli lider səviyyəsinə qalxa bilməmişdir ki, bu zirvəni Heydər Əliyev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

fəth etmişdir.

Heydər Əliyev hakimiyyətə gəldiyi andan etibarən bütün sahələrdə Azərbaycanın mənafeyini müdafiə etməyə başlamışdır. SSRİ kimi xalqların həbsxanası sayılan bir imperiyada öz ölkəsini müdafiə edənlərə millətçi damğası vurulan bir zamanda Heydər Əliyev Azərbaycanı bütün siyasi arenalarda müdafiə edə bilirdi. Hətta o, hakimiyyətdə olan dövrdə erməni separatçıları açıq çıxışlardan çəkinirdilər. Heydər Əliyev nəinki Azərbaycana, bütün SSRİ-yə rəhbərlik edə biləcək gücdə idi. Lakin şovinist rus millətçiliyi buna yol verə bilməzdi. SSRİ-nin görkəmli dövlət xadimi (xarici işlər naziri) Andrey Qromıkonun oğlu öz kitabında yazırdı ki, atam Heydər Əliyevi yüksək təşkilatçılıq bacarığı, insanları arxasınca aparmaq qabilyəti olan nüfuzlu şəxsiyyət kimi xarakterizə edib. Qromıko da etiraf edib ki, məhz müsəlman-azərbaycanlı olduğu üçün Heydər Əliyevin SSRİ-nin rəhbəri seçilməsi mümkün olmayıb. Heydər Əliyev qeyd edirdi ki, azərbaycanlılara, müsəlmanlara ölkədə dördüncü, beşinci təbəqə kimi baxırdılar. O göstərirdi ki, Qorbaçovun ən qabarıq xüsusiyyəti müsəlman, türk dünyasına qarşı olan düşmənçiliyi idi. Buna görə də müsəlmanlara, türklərə qarşı “Əhalinin köçürülməsi” adlı plan hazırlanmış və həyata keçirilməyə başlanılmışdı. Bu bədnam plan türk respublikalarındakı müsəlman əhalinin çoxunu Rusiyaya və başqa Slavyan respublikalarına köçürməyi və yerlərinə xristian əhali yerləşdirməyi nəzərdə tuturdu. Yenidənqurma və aşkarlıq prinsipləri elan edildikdən sonra Azərbaycan əhalisində, xüsusən də ziyalılar arasında yeni ümidlər doğurmuşdu. Azərbaycan xalqı içərisində müstəqillik meyillərinin artdığını görən Moskva “Parçala, hökm et” siyasətindən istifadə etməyə başladı. Azərbaycanın tarix boyu başına bəla olan erməni məsələsini yenidən gündəmə gətirib, “Dağlıq Qarabağ” problemini qızışdırmağa başladılar. Ermənilərdən yalnız Moskva deyil, bəla imperiyasını süqut etdirmək istəyən dövlətlər də istifadə etməyə başladılar. Arxalarındakı dəstəyi hiss edən ermənilər “Böyük Ermənistan” kimi sərsəm xülyaları yenidən reallaşdırmağa cəhd göstərdilər. Ermənilərin tələbi ilə 1984-cü ilin oktyabr ayında Azərbaycanın Qazax və Gədəbəy rayonlarından min hektarlarla ərazi Ermənistana verildi (bu barədə protokolu Moskvanın təzyiqi ilə Azərbaycan Ali Soveti hələ 1938-ci il mayın 2-də təsdiq etmişdi). Lakin yerli camaat müqavimət göstərir, torpaqlarını əldən vermirdi. Azərbaycanın qanunverici orqanı bu bədnam qərarı 1969-cu il mayın 7-də təsdiq etmişdi. Lakin az sonra hakimiyyətə gəlmiş Heydər Əliyev onun icrasına yol verməmişdi. Çünki bu dövrdə yalnız Heydər Əliyev Moskvanın təzyiqlərini dəf etmək iqtidarında idi. “60-70-ci illərdə erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdlərindən əl çəkməmişdilər. Onlar dəfələrlə çox qızğın fəaliyyətə başlamışdılar. Ancaq onların qarşısı alınmışdır. Mən bunların şəxsən şahidiyəm və bir çox hallarda həmin cəhdlərin qarşısının alınmasının təşkilatçısıyam” deyən Heydər Əliyevin bu sözləri onun vətən torpağının bütövlüyü uğrunda apardığı sarsılmaz mübarizəsini bir daha göstərir. Azərbaycan torpaqlarında soyqırım və işğallar həyata keçirmək istəyən ermənilərin qarşısıdakı yeganə maneə Heydər Əliyev idi. Məhz buna görə də onu hakimiyyətdən uzaqlaşdırmaq və gözdən salmaq üçün rus və erməni şovinistlər

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

bütün cəbhələrdən hücuma keçdilər.

1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq Heydər Əliyev tutduğu vəzifələrdən istefa vermişdir. Bundan sonra ermənilər tarix boyu tanındıqları təcavüzkarlıq siyasətində daha da fəallaşdılar. Daşnak partiyasının Afinada keçirilmiş qurultayı erməniləri "Böyük Ermənistan" uğrunda mübarizəni yenidən genişləndirmək üçün yaranmış şəraitdən istifadə etməyə, qüvvələri birləşdirməyə çağırdı (8).

Daşnakların antitürk siyasəti, bu sahədə təbliğatı və terrora səfərbərlik onları Azərbaycan türklərinə qarşı mübarizədə daha sıx birləşdirdi. Moskva rəsmilərində antitürk əhvali-ruhiyyənin formalaşmasına Qorbaçovun yaxın əhatəsində olan "şahnazaryanlar", "aqanbekyanlar" mühüm təsir göstərirdi. Bu zaman siyasi vəziyyətdən öz xeyirləri naminə istifadə etməyə çalışan ermənilər daha çox azğınlaşmışdılar. Ermənilər Heydər Əliyevin SSRİ rəhbərliyində tutduğu yüksək vəzifədən uzaqlaşmasından istifadə edərək öz mənfur niyyətlərini daha çox büruzə verməyə başladılar (3, s.193).

Kommunist-Daşnaklar Təhlükəsizlik xidməti əməkdaşlarının dəstəyinə arxalanaraq artıq beynəlxalq arenalarda Dağlıq Qarabağa dair açıq iddialar irəli sürməyə başladılar ki, bu məsələdə Avropa ölkələrinin ermənipərəst siyasəti də onarın həvəslənməsində az rol oynamadı.

Rəsmi Moskva 1987-ci ilin noyabrında Parisdə SSRİ-nin dövlət başçısının əsabələrindən biri olan akademik Abel Aqanbekyanın dili ilə Qarabağ hərəkatına müsbət münasibətini qeyri-rəsmi olsa da, bütün dünyaya bildirməkdən çəkinmədi. Bu hadisə göstərdi ki, XIX əsrdə Çar Rusiyasının həyata keçirdiyi erməniprəst siyasətini XX əsrin sonlarında SSRİ rəhbərləri davam etdirirlər. Artıq XVIII əsrdən etibarən ermənilərin ruslarla birlikdə hərəkət etməsi heç kim üçün sir deyildir. Onların Türk-müsəlman xalqlarına qarşı həyata keçirdiyi çirkin siyasətin bir örnəyini də 20 Yanvar hadisələri ərəfəsində Naxçıvana hücuma keçməkləri idi. Ermənilərin yanvarın 19-da ciddi cəhdlə bütün istiqamətlərdə muxtar respublikaya hücum etməsi isə onu göstərirdi ki, xain qonşularımız Bakıya qoşun yeridiləcəyindən və bununla da Naxçıvanın köməksiz qalacağından xəbərdar olublar. Bu isə SSRİ rəhbərliyinin çirkin planının tərkib hissəsi idi. Lakin onların Naxçıvanla bağlı planları alt-üst oldu. Çünki Ulu öndər Heydər Əliyev müstəqillik dövründə Azərbaycan xalqına ilk böyük xidmətini məhz Naxçıvanı qorumaqla göstərdi. 1990-1993-cü illərdə Naxçıvan faktiki olaraq siyasi mərkəzlərdən birinə çevrilmişdi. Təsadüfi deyildi ki, 1991-ci il dekabrın 7-də ABŞ-ın Moskvadakı səfirliyinin nümayəndələri Naxçıvana gəlmişdilər (11).

Heydər Əliyevin Naxçıvana və böyük siyasətə qayıdışı ilə ölkəmizdə başlanan milli dirçəliş prosesi dövlətçiliyimizin bərpasında, müstəqilliyin bərqərar edilməsi və möhkəmlənməsində böyük rol oynadı. Bu mənada Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü müstəqillik tariximizdə mühüm yer tutur. Qarşıda isə Ulu öndəri Azərbaycan dövlətçiliyi uğrunda daha böyük sınaqlar və siyasi uğurlar gözləyirdi

1991-ci il fevralın 5-də Azərbaycan Ali Sovetinin birinci sessiyasındakı çıxışında Heydər Əliyev özünəməxsus məntiqlə Dağlıq Qarabağ və onun ətrafında cərəyan edən hadisələrin obyektiv təhlilini verərək, orada yaranmış gərgin vəziyyətin

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

köklərini cəsarətlə açıb göstərərək onu “müttəfiq respublikanın hüquqlarının tapdanması, mərkəzin imperiya siyasətinin nəticəsi” kimi səciyyələndirdi. Sessiyanın stenoqramında göstərilmişdi: “Milli siyasət sahəsində buraxılmış böyük səhvlər ölkənin bir çox respublikalarında faciəvi vəziyyət yaratmışdı... Dağlıq Qarabağ məsələsini, süni surətdə yaranmış məsələni, Azərbaycan xalqının başına gəlmiş bu bəlanı biz üzərimizdən götürmək üçün gərək çox dərin, ətraflı təhlil edək”. Sessiyada Heydər Əliyev belə bir təklif də irəli sürdü ki, “Bir Dağlıq Qarabağ məsələsi yox, bütün 1920-ci ildən indiyədək Azərbaycan ərazisindən Ermənistana verilmiş torpaqların hamısının haqq-hesabı aparılsın, hansı dövrdə, hansı torpaq sahələri hansı qərarla verilib, onlar müəyyən olunsun və o torpaqları kim verib, hansı qərarlarla verib, qoy tarix üçün o adamlar da müəyyən olunsun. Bizim sessiyamız Ermənistanı təcavüzkar dövlət adlandırmalıdır”. Heydər Əliyevin sözlərindən anlaşılır ki, o nəinki ermənilərin Dağlıq Qarabağla bağlı planları ilə barışmır, hətta erməniləri rus dəstəyi ilə 1920-ci illərdən bu yana işğal etdiyi bütün Azərbaycan torpaqlarına münasibətdə ürək yanğısı ilə yanaşırdı. Heydər Əliyev bu çıxışı ilə bildirirdi ki, vaxtı ilə işğal edilmiş İrəvan, Zəngəzur və Göyçə mahalı Azərbaycan xalqının daim yaddaşında olacaqdır. Heydər Əliyevin 1991-ci ildə dediklərini onun layiqli davamçısı olan cənab İlham Əliyev 2018-ci ildəki nitqində bir daha təsdiq etdi. O qeyd edirdi ki, “… Əvvəlki çıxışlarımda qeyd etdiyim kimi, azərbaycanlılar nəinki işğal edilmiş torpaqlarda, bütün tarixi torpaqlarında yaşamalıdırlar. Bu, bizim suveren hüququmuzdur. Soydaşlarımız nəinki Dağlıq Qarabağdan, tarixi torpağımız olan İrəvandan, Zəngəzurdan, Göyçədən də zorla çıxarılıbdır, deportasiya edilibdir, 1940-1950-ci illərdə, ondan sonra, 1980-ci illərdə. Bu, böyük ədalətsizlikdir. Biz o torpaqlara da qayıdacağıq, mütləq qayıdacağıq. Gənc nəsil o arzularla, o fikirlərlə yaşamalıdır (8). Vaxt gələcək biz orada da yaşayacağıq. Ümumiyyətlə, xalqımıza məxsus olan bütün tarixi torpaqlarımızda azərbaycanlılar yaşayacaqlar, yaşamalıdırlar. Bunu etmək üçün biz indidən öz siyasətimizi aparırıq. Ona görə də regionda gedən proseslərdə güclənən Azərbaycan artıq beynəlxalq amilə çevrilibdir. Ümid edirəm ki, bu, Ermənistan rəhbərliyinə çox ciddi siqnal olacaqdır ki, münaqişənin tezliklə həlli, o cümlədən onların da xeyrinədir”.

Bu bəyanatla bütün Azərbaycan xalqının iradəsini əks etdirən İlham Əliyev bir daha göstərdi ki, Azərbacan xalqı işğal edilmiş torpaqlarını heç vaxt ermənilərə güzəştə getməyəcək və Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün əlindən gələni edəcəkdir.

Nəhayət, 2020-cil ildə Azərbaycan orudusu Ermənistana sarsıdıcı zərbə endirdi və ölkəmizin ərazi bütövlüyü bərpa edildi. Bu tarixi missiya Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi xəttin davamçısı Ali Baş Komandan İlham Əliyev Cənablarına müyəssər oldu.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

## ƏDƏBİYYAT

1. İ. Hacıyev. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan: Əcəmi, 2012, 191 s.
2. Hüseynova İ. Müstəqilliyimizin təminatçısı. Bakı: 2003, 514 s.
3. Azərbaycan tarixi VII cilddə. VII cild, Bakı: Elm, 2008, 570 s.
4. Emin Şıxəliyev. İngiltərənin geosiyasi maraqlarında "erməni məsələsi"nin yeri və Azərbaycana təsiri (1917-1920). (Böyük Britaniyanın arxiv materialları əsasında). Naxçıvan: Əcəmi, 2016, 144 s.
5. Azərbaycan tarixi. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1994, 688 s.
6. Z.Şahverdiyev. Azərbaycanın dövlət müstəqilliyinin əldə olunması və möhkəmləndirilməsində Naxçıvan Muxtar Respublikasının rolu. Naxçıvan: İctimai-siyasi, ədəbi-bədii, elmi publisistik jurnal, 2009, №19, s.98-105
7. M.Şabanov. Heydər Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması sahəsində fəaliyyəti. Avtoreferat, 2016, s.14
8. https://az.trend.az
9. http://www.anl.az
10. http : az.wikipedia.org.
11. https://science.gov.az

**YAŞAR RƏHİMOV**
*AMEA Naxçıvan Bölməsi*

# 1969-1982-Cİ İLLƏRDƏ ŞƏRUR RAYONUNDA SƏNAYE VƏ KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI

Azərbaycan KP MK-nın 14 iyul 1969-cu il plenumunda Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçildi. Həmin gündən az sonra 1969-cu il avqustun 5-də keçirilən Azərbaycan KP MK-nın plenumunda əvvəlki illərdəki nöqsanlar tənqid olundu və bu plenum dönüş plenumu kimi yaddaşlarda qaldı. Çox qısa bir müddətdə yeni inkişaf strategiyası üzrə proqramlar işlənib hazırlandı və onların yerinə yetirilməsi yolları müəyyənləşdirildi.

1970-1985-ci illərdə respublikanın sosial-iqtisadi inkişafını təmin etmək və daha da sürətləndirmək məqsədilə 2 mərhələdə həyata keçiriləcək tədbirlər planı qəbul edildi. İlk növbədə 1970-1975-ci illəri əhatə edən 1-ci mərhələdə iqtisadiyyatın bütün sahələrində mövcud potensialı hərəkətə gətirmək və bütövlükdə sosial-iqtisadi inkişafı sürətləndirmək vəzifəsi qarşıya qoyuldu. 1976-1985-ci illəri əhatə edən 2-ci mərhələdə iqtisadiyyatın bütün sahələrini səmərəli və kompleks inkişaf etdirmək, strukturunda Azərbaycanın ittifaq əmək bölgüsündə geniş iştirakını təmin edəcək sahələrin üstün inkişafı istiqamətində dəyişikliklər edilməsi, neft maşınqayırması və neft emalının yeni texniki baza üzərinə keçirilməsi və istehsal olunan məhsulun keyfiyyətinin yüksəlməsi strateji vəzifə olaraq qarşıya qoyuldu. Tezliklə bu tədbirlər öz bəhrəsini verdi və uğurlu nəticələr əldə edildi. O dövrün statistikasına nəzər salanda bunu aydın görmək olar. Az bir zamanda pambıq,

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

üzüm, taxıl, neft istehsalı sahəsində inkişafa doğru istiqamət götürüldü. Pambıq istehsalı 1981-ci ildə 1 mln. tona, üzüm istehsalı 1 mln. 616 min tona, taxıl istehsalı 1 mln. 150 min tona çatdı. 1971-ci ildə respublikanın neftçıxarma tarixində ilk dəfə olaraq milyardıncı ton neft çıxarılıb.

54 il öncə Ulu öndərimiz Heydər Əliyevin hakimiyyətə gəlməsilə respublika iqtisadiyyatında, ictimai-siyasi həyatda köklü dəyişikliklər baş verdi, ölkə öz inkişafında yeni mərhələyə qədəm qoydu. Azərbaycanın inkişafı üçün sovet dövrünün və dövlətinin verdiyi bütün imkanlardan istifadə edildi. Qısa bir müddətdə 10-12 ildə Azərbaycan kiçik xammal respublikasından böyük sənaye mərkəzinə çevrildi. Mill-mənəvi dəyərlər inkişaf etdi, Azərbaycan vətəndaşı bir şəxsiyyət kimi yetişdi. 1969-1982-ci illərdə Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərlikdə olduğu müddətdə ölkədə 250 yeni müəssisə yaradıldı. Bu isə milyonlarla yeni iş yeri demək idi. Həmin dövrdə Azərbaycanda mənzil fondu faktiki olaraq 2 dəfə artdı. Ulu öndərin həyata keçirdiyi məqsədyönlü inkişaf strategiyası nəticəsində milli düşüncə, təfəkkür gücləndi, xalqımızın siyasi və dövlətçilik şüuru yüksəldi. Bu dövrdə Azərbaycan rəhbəri Heydər Əliyevin təşəbbüsü və təkidi ilə SSRİ hökuməti respublika xalq təsərrüfatının bütövlükdə və onun ayrı-ayrı sahələrinin inkişafını nəzərdə tutan beş xüsusi qərar qəbul etmişdir. Eyni zamanda bu məsələlərin həlli üçün ittifaq hökuməti tərəfindən əlavə vəsait ayrılmışdır.

1970-1982-ci illərdə kənd təsərrüfatı məhsulu 2,6 dəfə, əmək məhsuldarlığı 2,2 dəfə artmışdır. Pambıq, meyvə, tərəvəz istehsalı 2 dəfədən çox, üzüm, tütün, barama istehsalı 2-5 dəfə artmışdı. Bütün bunlar milli gəlirin sürətlə artmasına səbəb oldu. 1970-1982-ci illərdə milli gəlir 2,5 dəfə, adambaşına isə 2 dəfə artmışdı.

Belə bir fakt maraqlıdır ki, 1985-ci ildə Naxçıvan MR-də sənayedə işləyənlərin 47,1 faizi, tikintidə işləyənlərin 71 faizi kənddə yaşayanlar idi. Bu vəziyyət kənd əhalisinin işlə təminatında və işçi qüvvəsinin şəhərlərə axıcılığının qarşısının alınmasında mühüm rol oynayırdı.

Ulu öndərin hakimiyyətə gəlişindən sonra Azərbaycanda xalq təsərrüfatının bütün sahələrində inkişaf başlandı. Sənayedə, kənd təsərrüfatında, mədəniyyət sahəsində, incəsənət, kino, teatr, rəssamlıq və b. sahələrdə də intibah dövrü başlandı. Bu, əlbəttə, Ulu öndərin şəxsiyyəti, işgüzarlığı, dərin məntiqi və yüksək intelektual sıviyyəsi ilə bağlı idi. Azərbaycan Ulu öndərin rəhbərlik etdiyi 1969-1982-ci ilərdə sovet respublikaları içərisində öncül yerə keçdi. Bu isə sovet dövrü üçün böyük bir hadisə idi. Heydər Əliyevin hakimiyyətə gəlməsilə rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə gücləndirildi. Azərbaycan qısa zaman kəsiyində ittifaq miqyasında sosial-iqtisadi baxımdan özünü tam təmin etməyə qadir olan respublikalar sırasına çıxdı. Məhz həmin illər ərzində respublikanın siyasi və mədəni həyatında böyük əhəmiyyəti olan neçə-neçə binalar tikilib istifadəyə verilmişdir. Heydər Əliyevin tariximizə, mədəniyyətimizə dərin ehtiramı və qayğısı sayəsində Azərbaycanda xalqımızın milli varlığının daşıyıcısı olan böyük insanların əzəmətli heykəlləri ucaldılmış, böyük tarixi şəxsiyyətlərin hər biri üçün mədəniyyət mərkəzinə çevrilən ev-muzeylər yaradılmışdır.

Azərbaycanın gələcəyini düşünən Heydər Əliyevin atdığı addımlardan biri də azərbaycanlı gənclərin gərəkli

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

ixtisaslara yiyələnmək üçün keçmiş Sovet İttifaqının nüfuzlu ali məktəblərinə göndərmək təcrübəsinin əsasını qoyması idi. Bu yolla Azərbaycanımızın elmi və kadr potensialı yüksəlidiyi kimi, xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinin təbliği də həyata keçirilirdi.

Heydər Əliyev bütün sahələrdə olduğu kimi, ordu sıralarında da milli kadrların yetişməsinə və yerləşməsinə çalışırdı. Ölkəyə 1-ci rəhbərliyi dövründə Ümummilli lider gənclərin hərbi peşəyə yiyələnməsinə çalışmışdır. O dövrkü Sovetlər Birliyi məkanında bu o qədər də asan məsələ deyildi. Üstəlik o dövrdə gənclərimiz hərbi peşələrə kifayət qədər maraq göstərmirdi. Çox keçmədən uzaqgörən siyasətçi Heydər Əliyevin təşəbbüsü və şəxsi himayəsi altında Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəb açıldı. Azərbaycanda milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayacaq məktəbin yaradılmasına o vaxtkı SSRİ rəhbərliyi laqeyd yanaşa bilməzdi. Həmin dövrdə bir-birinin ardınca Moskvadan Bakıya göndərilən komissiyalar Azərbaycanda belə bir hərbi məktəbə ehtiyac olmadığını əsaslandırmağa çalışsalar da, Heydər Əliyevin mahir diplomatiyası və uzaqgörən siyasəti bu cəhdlərin qarşısını almış, həmin məktəbin fəaliyyəti Azərbaycanda hərb sənətinə marağın güclənməsinə, azərbaycanlı zabit kadrların hazırlanmasına gətirib çıxarmışdır. Tezliklə bu məktəb böyük şöhrət qazandı. Bu məktəbi bitirən müdavimlər sonra təhsillərini keçmiş SSRİ-nin müxtəlif ali hərbi məktəblərində davam etdirirdilər.

1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə ölkəmizin hər yerində olduğu kimi, Şərur rayonunun xalq təsərrüfatının bütün sahələrində, o cümlədən kənd təsərrüfatında da əsaslı dönüş baş verdi. Rayonun tamamilə yenidən qurulan kənd təsərrüfatının maddi-texniki bazası möhkəmləndirildi. Bu sahələr üzrə ixtisaslı mütəxəssislərin sayı artırılmağa başladı. IX beşillik planı təsdiq edən Sov. İKP XXIV qurultayı ölkənin iqtisadi, siyasi tərəqqisi sahəsində qarşıya yeni vəzifələr qoydu (1, s.46). Respublikanın bütün sakinləri kimi, rayon zəhmətkeşləri də qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün ciddi şəkildə əmək fəaliyyətinə başladılar.

Kommunist rejiminin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə Azərbaycan xalqının böyük təəssübkeşi Heydər Əliyevin həyata keçirməyə başladığı geniş islahatlar proqramı Şərur rayonunu da əhatə etmişdi. Ötən əsrin 70-ci illərində Şərur rayonu iqtisadiyyatının inkişaf etdirilməsində vacib sahələrdən biri tütünçülük olmuşdur. Həmin illərdə burada tütün əkilən sahələr müəyyən qədər genişləndirilsə də, Şərur rayonunun tütünçülüklə məşğul olan təsərrüfatlarının pis işləmələri hesabına burada tütün istehsalı və dövlətə satışı planı 80% yerinə yetirilmiş, dövlətə nəzərdə tutulduğundan 1,387 ton az məhsul satılmışdır (1, s.52).

Doqquzuncu beşillikdə Şərur rayonunda kənd təsərrüfatının inkişafı öz tərəqqisi ilə diqqəti cəlb edir. Taxıl toplanmasında əldə edilən uğurlar diqqəti xüsusi cəlb edirdi. Həmin illərdəki mətbuat səhifələrində də bu barədə məlumatlar əks olunurdu. "Şərq qapısı" qəzeti yazırdı: "1971-1975-ci illərdə Naxçıvan və Şərur rayonlarının kənd əməkçiləri taxıl istehsalında və dövlətə satışında fərqlənmişdilər" (7). Rəqəmləri müqayisə etdikdə taxılçılıqda muxtar respublika üzrə taxılın hər hektarından məhsuldarlığın ən yüksək səviyyəsinin Şərur rayonunda əldə edildiyi məlum olur. 1980-ci ildə taxılın

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

hər hektarından məhsuldarlıq Şərur rayonu üzrə 30,7 sentner olmuşdur.

Məlum olduğu kimi, XXIV qurultayın qərarlarında qarşıya qoyulan mühüm vəzifələrdən biri də heyvandarlığın inkişaf etdirilməsi məsələsi idi. Süd istehsalının artırılması və heyvandarlğın inkişafı sahəsində Şərur rayonunun təsərrüfatları xüsusilə fəqrlənmişlər. Buna görə rayonun maldarlığın inkişafına dair planlarının artırılması nəzərdə tutulmuşdur. Şərur rayonunda hər inəkdən 1, 061 kq süd sağılmışdır ki, bu da 1973-cü ilin müvafiq dövrünə nisbətən Şərur rayonu üzrə 157 kq çoxdur (7, 1976, 29 aprel). Onuncu beşillik illərində rayonda süd istehsalı sahəsində yüksək göstəricilər əldə edən təsərrüfatlar və əmək adamları da olmuşdur. Rayondakı Şəhriyar kənd kolxozunun sağıcısı Qəmər Qasımovanın, Siyaqut kənd sovxozunun sağıcısı Balaxanım Əliyevanın, Yenkicə kənd kolxozunun sağıcısı Xatın Mirzəyevanın və b. adlarını böyük iftixarla çəkmək olar.

1970-1974-cü illərdə muxtar respublika əməkçilərinin qazandıqları nailiyyətlərdə Şərur rayonu zəhmətkeşlərinin də böyük payı olmuşdur. Doqquzuncu beşilliyin keçən 4 ilində rayon üçün müəyyən edilmiş tapşırıqların çox hissəsi artıqlaması ilə yerinə yetirilmişdir. Rayonun üzümçüləri 1974-cü ildə üzümçülük sahəsində daha parlaq qələbələr qazanaraq, dövlətə üzüm satışı planlarını artıqlaması ilə yerinə yetirmişdilər. Həmin il Şərur rayonunun kolxoz və sovxozları dövlətə 23624 ton üzüm satmışdılar. Şərur Rayon Partiya təşkilatının rəhbərliyi ilə rayonda üzüm-çülüyün ixisaslaşdırılması və intensivləşdirilməsi sahəsində geniş miqyasda işlər görülmüşdür. Qeyd edək ki, təkcə 1978-ci ildə Şərur rayonundakı Həzi Aslanov adına və Zeyvə-Düdəngə kolxozlarının bazasında üzümçülük sovxozları təşkil edilmişdir.

Onuncu beşillikdə muxtar respublikanın əksər bölgələrində, o cümlədən Şərur rayonunda da bağçılıq və meyvəçilik sahəsində məhsuldarlığı artırmaq, intensiv bağçılığı inkişaf etdirmək və ixtisaslaşdırmaq üçün 1979-cu ildə Şərur rayonundakı M.Qorki adına, Frunze və S.Vurğun adına kolxozların bazası əsasında 3 yeni meyvəçilik sovxozu təşkil olunmuşdu. Həmin sovxozlarda 725 hektar palmet bağları salınmışdı. Şərur rayonunda bağların hər hektarından 5,5 sentner məhsul əldə edilmişdir (2, s.167). Göründüyü kimi, 70-ci illərdə regionda bağçılıq və meyvəçilik sahələri genişləndirilmiş, məhsuldarlıq artırılmış və ixtisaslaşdırma həyata keçirilmişdir.

XX yüzilliyin 70-80-ci illərində ölkədə mühüm dəyişikliklər edilmiş, iri sənaye sahələri yaradılmış və istifadəyə verilmişdir. Həmin illərdə iri təsərrüfatlar yaranmış, əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmişdir (1, s.59). Bütün həyat sahələrini bürüyən bu inkişaf və tərəqqi Şərur rayonundan da yan keçməmişdir. Belə ki, 1978-ci ildə Şərur rayon istehsal damazlıq birlyi yaradılmışdır (6, v.116).

Onuncu beşillikdə Şərur rayonunda müxtəlif irriqasiya-meliorasiya işlərinin həyata keçirilməsi nəzərdə tutulmuşdu. Həmin illərdə Arpaçay su anbarı tikintisinin, onun sağ və sol sahil kanallarının başa çatdırılması planlaşdırılırdı.

1980-ci ilin mayında Heydər Əliyev növbəti dəfə Arpaçay dəryaçasının vəziyyəti ilə maraqlanmış, Sirab və Batabat dəryaçalarına getmişdir. O, muxtar respublikada kənd təsərrüfatı istehsalının yüksəlişinin həlledici amili olan su təsərrüfatının genişləndirilməsində nöqsanların olduğunu da göstərmiş, su obyektlərinin tikintisini sürətləndirməyi

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

və mühüm su mənbəyi kimi kəhrizlərin, artezianların, çeşmələrin imkanlarından istifadə etməyi tövsiyyə etmişdi (1, s.61).

Ötən əsrin 60-70-ci illərində muxtar respublikanın kolxozlarının torpaqları Şərur rayonu üzrə ümumi ərazinin 55,7%-ni təşkil edirdi. Həmin illərdə muxtar respublikada kənd təsərrüfatına yararlı olan 148149 hektar torpaq sahəsinin 37699 hektarı Şərurda yerləşmişdi (3, s.86). Regionun torpaq sahələri həm də öz münbitliyi və məhsuldarlığı ilə fərqlənirdi.

Rayonun kənd təsərrüfatının su ilə təhciz olunması məsələsini həll etmək məqsədilə Şərqi Arpaçay üzərində 30 milyon kub metr həcmində su tutan "Dəvə ölən" su anbarını inşa etmək, Fərhadarx baş kanalını uzatmaq, Arazdəyən kanalını çəkmək, Şərur rayonundakı Arxaşan kanalını bərpa etmək və yenidən qurmaq və digər su təsərrüfatı tədbirlərini yaxın gələcəkdə həyata keçirmək nəzərdə tutulmuşdu. Həmin tədbirlərin ən geci 10-12 il müddətində həyata keçirələrək reallaşdırılması planlaşdırılmışdı. Eyni zamanda nəzərdə tutulmuşdu ki, "Qıvraq", "Qarabağlar", "Şahtaxtı" və b. su anbarları tikilsin, tikintisi 1940-cı ildən başlanan Arazdəyən-Şərur kanalı təmir edilsin, Sədərək kəndində artezian quyusu qazılsın və s.

Həmin illərdə Şərur rayonunda da arx və kanalların çəkilişinə, torpaqların meliorasiya cəhətdən yaxşılaşdırılmasına dövlət tərəfindən yönəldilən vəsait yetərincə artırılmışdı. Bunun nəticəsində Şərur rayonunda Yuxarı Sovxoz kanalı çəkildi və bu kanalın suyu ilə yüzlərlə hektar xam torpaq suvarıldı. Sədərək kanalının çəkilməsi ümumililikdə muxtar respublikanın su ehtiyatının artmasını təmin etdi (4, s.58). Qeyd edək ki, Sədərək həmin illərdə Şərur rayonunun tərkibinə daxil idi.

1971-1975-ci illərdə suvarma və meliorasiya qurğularının tikintisinə ayrılmış vəsaitdən 14 milyon manata qədər xərclənmişdir. Bunun da 11,4 milyon manatdan çoxu Arpaçay su tikintisinin payına düşmüşdü (1, s.80). Bu tikintinin sürətləndirilməsi və tezliklə başa çatdırılması üçün müxtəlif tədbirlər həyata keçirilmiş, xeyli işçi qüvvəsi səfərbərliyə alınmışdı.

1974-cü ilin oktyabrında Naxçıvan MSSR-in 50 illiyi ilə əlaqədar muxtar respublikada olan Heydər Əliyev Arpaçay su qovşağının tikintisinə baş çəkmiş, tikintinin tezliklə başa çatdırılması üçün tapşırıqlar vermişdi. Araz su qovşağında da olan Heydər Əliyev Naxçıvançay üzərində Vayxır dəryaçasının yaradılması və Əlincəçay suvarma sisteminin qurulması haqqında da planların olduğunu nəzərə çatdırmışdı (7). Sonralar məlum olmuşdur ki, Şərur rayonunda arx və kanalların çəkilişi və suvarma sistemi ilə bağlı yaxın gələcəkdə daha geniş kompleks tədbirlər həyata keçirmək nəzərdə tutulmuşdur.

1978-ci ilin oktyabrında yenidən muxtar respublikaya gələn Ulu öndər Azərbaycanın müvafiq qurumları qarşısında 1979-cu ilin mayınadək Arpaçay kompleksinin tikintisində yarımçıq qalmış işlərin başa çatdırılması və kompleksin istifadəyə verilməsi, aşağı su buraxıcı qurğunun və sağ sahil kanalının çəkilişinə başlanması kimi yeni vəzifələr qoydu (7). Heydər Əliyev partiya təsərrüfat fəallarının yığıncağındakı çıxışı ilə kifayətlənməyərək yenidən Arpaçay dəryaçasında olmuş, kompleksin inkişafı ilə bağlı öz tövsiyyələrini vermişdi (1, s.81).

1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə ölkəmizin hər yerində olduğu kimi, Şərur rayonunun xalq təsərrüfatının bütün sahələrində, o cümlədən sənayedə də əsaslı dönüş baş verdi. Ötən əsrin 70-ci illərində

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

rayonun tamamilə yenidən qurulan sənayesinin maddi-texniki bazası möhkəmləndirildi. Həmin illərdə sənaye sahəsi üzrə ixtisaslı mütəxəssislərin sayı artırılmağa başladı. Naxçıvan Muxtar Respublikasında və onun ayrılmaz tərkib hissəsi olan Şərur rayonunda iqtisadi quruculuq fəaliyyəti 70-ci illərin ilk ilindən sürətlə başladı. Bu illərdə Şahtaxtı (Şahtaxtı da o illərdə Şərur rayonunun tərkibinə daxil idi-Y.R.) daş karxanası tikilib istifadəyə verilmiş, Şərur konserv zavodunun yeni dəmir-beton məmulatı müəssisələrinin tikintisinin başa çatdırılması həyata keçirilmişdi.

Şərur rayonunun Şahtaxtı (Şahtaxtı da o illərdə Şərur rayonunun tərkibinə daxil idi-Y.R) kəndində istehsal olunan yüksək keyfiyyətli travertin üzlük plitələri metro, kinoteatr, inzibati binaların tikintisində və s. yerlərdə işlədilir. Bu keyfiyyətli və qiymətli tikinti sənaye materialı təkcə Azərbaycanda deyil, həm də keçmiş SSRİ-nin başqa rayonlarında və xarici ölkələrdə yüksək qiymətləndirilmişdir. Misal üçün, təkcə 1983-cü ildə istehsal olunmuş 27,6 min kub metr travertinin, 10 min kub metri Moskva, Leninqrad, Minsk, Daşkənd və Soçi şəhərlərinə ixrac olunmuşdur. 1985-ci ildə 47,7 kub metr istehsal olunmaqla, həmin şəhərlərə travertin bloku ixracı daha da artmışdı (5, s.38). 80-ci illərin II yarısında bu tikinti materialının istehsalı daha artırılmışdır ki, bu da 70-ci illərdə həyata keçirilən tədbirlərin sayəsində mümkün olmuşdur.

Beləliklə, 1969-1982-ci illər bütün respublikada çox böyük quruculuq və tikinti abadlıq işləri aparılmışdır. Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə (1969-1982) həyata keçirdiyi əzəmətli quruculuq işlərinin çox böyük tarixi əhəmiyyəti bundan ibarət idi ki, xalqımızda milli qürur, milli mənlik şüuru oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı. Bu, əslində XX yüzilliyin 70-ci illərində Azərbaycan xalqının milli azadlıq hərəkatının yeni mərhələyə yüksəliş mərhələsinə daxil olması demək idi.

Ulu öndər Heydər Əliyevin siyasətdə, iqtisadiyyatda və mədəniyyətdə qoyduğu izlər heç vaxt silinməyəcək. Ümummilli liderimizin qurub-yaratdığı azad, müstəqil, demokratik Azərbaycan onun müəyyən etdiyi strateji xətlə inamla getməkdə, inkişafını davam etdirməkdədir. Bu xətti əzmlə, dəyanətlə irəli aparan isə Ulu öndərin layiqli varisi, praqmatik dövlət xadimi, bütün dünya miqyasında böyük hörmətə, nüfuza malik Prezidentimiz İlham Əliyevdir.

## ƏDƏBİYYAT

1. Hüseynov X. Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı (1924-2014-cü illər), Naxçıvan: Əcəmi NPB, 2016, 352 s.
2. Hüseynov X. Naxçıvan Muxtar Respublikasında sənayenin inkişafı (1950-2004-cü illər). Bakı: ADPU, 2012, 160 s.
3. Qəhrəmanov R. Naxçıvan MSSR-in kənd təsərrüfatının yerləşdirilməsi və ixtisaslaşdırılması. Bakı: Azərnəşr, 1967, 194 s.
4. Naxçıvan MSSR-50. Lenin milli siyasətinin yetirməsi. Bakı: Azərnəşr, 1974, s. 96 s.
5. Nadirov A., Nuriyev Ə., Muradov Ş. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı: Elm, 2000, 104 s.
6. NMRDA: f.1,s.10, iş 12, v. 116 “Şərq qapısı” qəzeti

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

**RUHİYYƏ RZAYEVA**
*ruhiya.rzayeva@mail.ru*
*Naxçıvan Dövlət Universiteti*

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA ARXEOLOGİYA ELMİNİN İNKİŞAFI

Aparılmış arxeoloji qazıntılar nəticəsində aşkarlanmış maddi-mədəniyyət abidələrinə əsasən müəyyən olunmuşdur ki, Azərbaycan ərazisində 2,5 milyon il bundan əvvəl məskunlaşma olmuşdur. Azıx mağarası, Qəbələ, Qobustan, Gəmiqaya və s. kimi yüzlərlə belə qədim insan məskənlərinin aşkar olunması Azərbaycan ərazisində qədim insan məskənlərinin olmaması barədə əsassız iddialar irəli sürən tədqiqatçıların fikirlərinin yanlış olduğunu sübuta yetirdi. Təbii ki, bu nailiyyətlərin əldə olunması Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlməsi ilə bilavasitə bağlı olmuşdur. Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra ölkəmizin ərazisində mövcud olan arxeoloji, tarixi və memarlıq abidələrinin öyrənilməsi, tədqiq edilməsi ilə bağlı mühüm qərarların qəbul edilməsindən sonra bu sahənin inkişafında dönüş yarandı. İlk növbədə Azərbaycan EA Tarix İnstitunun tərkibində Arxeologiya və Etnoqrafiya bölməsinin yaradılması ilə Azıx və Tağlar mağaralarında, digər abidələrdə aparılmış qazıntılar nəticəsində külli miqdarda maddi-mədəniyyət nümunələri aşkarlanmışdır (5).

1975-ci ildən etibarən Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə Azərbaycanın bir çox şəhərlərində, o cümlədən Naxçıvan, Qəbələ, Şəki, Şamaxı, Qobustanda və s. şəhərlərdə arxeoloji qazıntılara başlanılmış, 1981-ci ildə "Azərbaycan SSR-də memarlıq və arxeoloji abidələrin qorunması, bərpası və istifadəsinin yaxşılaşdırılması tədbirləri" haqqında qərar qəbul edilmiş, 2001-2002-ci illərdə Naxçıvan-Gəmiqaya ekspedisiyası təşkil edilmiş və s. Bütün bunların nəticəsində Azərbaycanın ən qədim dövr tarixini özündə əks etdirən abidələr aşkar edilərək elmi dövriyyəyə cəlb edilmişdir.

Azərbaycan xalqının Ümummili lideri Heydər Əliyev AMEA Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirədəki çıxışında demişdir:

"Azərbaycan elə bir ölkədir ki, onun çox qədim tarixi var. Bizim tarixçilər XX əsrdə çox işlər görüblər. Ancaq mən cəsarətlə deyə bilərəm ki, hələ ki, Azərbaycanın, xalqın, ümumiyyətlə, bu torpağın, ölkənin tarixi lazımi səviyyədə öyrənilməyib, tədqiq olunmayıbdır. Bu sahədə çox böyük işlər görülməlidir" (1, s. 108).

Azərbaycan və dünya tarixinin incəliklərini gözəl bilən Ulu öndər Heydər Əliyev ömrünün bütün anlarında Azərbaycan tarixi məsələlərini diqqət mərkəzində saxlayır, tarix elmimizin inkişafına diqqət yetirirdi.

Heydər Əliyev dövlətin idarə edilməsi ilə yanaşı, həm də Azərbaycanın içtimai, elmi-mədəni həyatını, bu sahələrin inkişafı məsələlərini daim diqqət mərkəzində saxlayırdı. Bununla bağlı olaraq çıxışlarının birində belə vurğulamışdır: "Azərbaycanın taleyi belə gətirmişdir ki, coğrafi-siyasi mövqeyinə görə o həmişə sivilizasiyaların qovuşuğunda olmuş və istər Qərbin, istərsə də Şərqin çox güclü təsirini öz üzərində hiss etmişdir. Məlumdur ki, Azərbaycan insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir. Burada həyat çox erkən yaranmışdır və Azıx mağarasında tapılmış Azıxantrop Azərbaycanın ən qədim insan məskən-

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

lərindən biri olmasını sübüt edir. Qobustandakı və Gəmiqayadakı qayaüstü təsvirlər və petroqliflər, Kür-Araz və Xocalı arxeoloji mədəniyyətlərinə dair maddi-mədəniyyət nümunələri, kurqan tapıntıları sübüt edir ki, hətta miladdan əvvəlki minilliklərdə də

Azərbaycanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur” ( 2, s. 290).

Azərbaycan dünyanın qədim və zəngin tarixə malik olan ölkələrindən biridir. Tariximizin sistemli şəkildə öyrənilməsi zəruri və aktual problem olaraq qalır. Çar Rusiyasının tərkibində olduğu dövrdə Azərbaycan ərazisindəki tarixi abidələr qeydə alınsa da, tarixi dövrün öyrənilməsi səthi olmuş, qazıntılar, əsasən, həvəskar araşdırmaçılar tərəfindən aparılmışdır. Buna baxmayaraq, əldə olunan nəticələr Azərbaycanın arxeoloji abidələrinə və qədim mədəniyyətlətinə marağı artırmışdır. Ölkədə sovet hakimiyyəti qurulduqdan sonra 1923-cü ildə Azərbaycan Tətqiq və Tətəbbö Cəmiyyətinin və Azərbaycan Arxeoloji Komitəsinin təşkili nəticəsində 1924-cü ildən başlayaraq Azərbaycan ərazisində arxeoloji qazıntıların və qədim abidələrin öyrənilməsinə başlanılmışdır. Araşdırmaların ən verimli illəri XX əsrin 50-ci illərindən sonraya aid edilir ki, dünyaca məşhur Azıx mağarasının aşkarlanması və öyrənilməsi bu dövrə təsadüf edir. Bununla belə, tariximizin öyrənilməsində saxtalaşdırmalara da yol verilmişdir.

Azərbaycanın müasir tarixinin təxminən 40 illik dövrü Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti ilə bilavasitə bağlıdır. 1969-ci ildə Azərbaycanda siyasi fəaliyyətə başladıqdan sonra ölkəni inkişaf yoluna çıxarmaq üçün fəaliyyətini daha da artırdı. XX əsrin 70-ci illərində Heydər Əliyevin Azərbaycanın qədim tarixinin qorunması üçün göstərdiyi qayğının ən bariz nümunəsi qədim Qəbələ şəhərinin qalıqlarını məhv olmaqdan xilas etməsi olmuşdur. Yüksək gərginlikli elektrik xəttinin və onun dayaq obyektlərinin tikintisinin Qəbələ şəhərinin Orta əsrlərə aid ərazisində, qalıqları günümüzə qədər saxlanmış giriş darvazalarının yaxınlığında planlaşdırılması Sovet imperiyasının Azərbaycan tarixinə və qədim abidələrinə görsətdiyi münasibətin əsas sübutlarından biridir. Qədim Azərbaycan dövləti Qafqaz Albaniyasının min ilə yaxın paytaxtı olmuş Qəbələ şəhəri qalıqlarının məhvi və burada arxeoloji tədqiqatların həmişəlik dayandırılması Albaniya tarixini saxtalaşdırmaq üçün əlindən gələni etməyə hazır olan ermənilər üçün mükəmməl bir fürsət idi. 1977-ci ildə erməni layihəçilərin planlarını həyata keçirmək üçün, həmin ilin noyabr ayında hərbçilər texnika vasitəsi ilə abidənin mədəni təbəqəsini dağıdaraq tikinti işlərinə başlamışdılar. Tikinti işlərini heç olmasa texnika vasitəsi ilə deyil, fəhlə qüvvəsi ilə aparılması barədə arxeoloqların xahişlərini hərbçilər diqqətə də almamışlar. “Qəbələ” arxeoloji ekspedisiyasının rəis müavini Firudin Qədirovun rəhbərliyi ilə Qəbələni tədqiq edən arxeoloq alimlər Elmlər Akademiyasına müraciət etmiş və bu məsələ respublika rəhbərliyinə çatdırılmışdır. Heydər Əliyev dərhal bu məsələni nəzarətə götürmüşdür. Belə ki, onun göstərişi ilə təcili olaraq Mərkəzi Komitənin Büro iclası çağırılmış və burada problem müzakirə olunmuşdur. Bundan sonra Heydər Əliyevin tapşırığı əsasında Qurban Xəlilovun sədrliyi ilə hökumət komissiyası yaradılmış və bu komissiya Qəbələyə gedərək məsələni yerindəcə araşdırmışdır. Nəticədə, 1978-ci ildə Qəbələ Tarix-Bədii Qoruğu yaradılımış və bütün tikinti işləri qədim

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

Qəbələ şəhərinin ərazisindən kənarlaşdırmışdır. Ulu öndərin bu addımı ilə dövlətçilik tariximizin ən möhtəşəm abidələrindən biri olan qədim Qəbələ şəhərinin qalıqları birdəfəlik məhv olmaqdan xilas edilmişdir.

O dövr üçün kiçik görünən bu məsələyə yalnız bir abidənin xilası kimi baxmaq düzgün olmaz. Bu, ölkə rəhbərinin respublika ərazisindəki tarixi abidələrə həssaslıqla yanaşmağın vacibliyi barədə müvafiq qurumlara bir xəbərdarlığı idi. Ulu öndərin bu fəaliyyəti ümumilikdə Azərbaycan abidələrinin dövlət tərəfindən mühafizə edildiyinin bariz nümunəsi idi.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin və Azərbaycan SSR Nazirlər sovetinin "Azərbaycan SSR-də şəhərsalma, memarlıq və arxeologiya abidələrinin qorunması, bərpası və istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında" 436 № li, 15 sentyabr 1981-ci il tarixli Qərarının qəbul edilməsi Heydər Əliyevin sovet hakimiyyəti illərində tarixi-arxeoloji abidələrin mühafizəsi və tədqiqatları ilə bağlı həyata keçirdiyi ən mühüm tədbirlərdən biri idi.

Təbii ki, bu cür misalları çox göstərmək olar. Məsələn, Naxçıvana aid olan misallardan birini Heydər Əliyev illər sonra özü Naxçıvanda olarkən xatırlayıb danışardı: "Xatirimdədir, mən Moskvada işləyəndə "Şərq Qapısı"(o zaman qəzet "Sovet Naxçıvanı" adlanırdı) qəzetində Gəmiqaya haqqında məqalə çıxmışdı. Məqalənin əsasında - Azərbaycanda millətçilik var deyə, onu böyük bir problemə çevirdilər. Moskva buna çox ciddi reaksiya verərək qəzet redaktorunun müavininə töhmət vermişdilər (3).

Heydər Əliyev 1990-cı illərdə ölkəmiz üçün mürəkkəb tarixi bir məqamda müstəqil Azərbaycanın siyasi rəhbərliyinə qayıtdıqdan sonra bir sıra problemlərlə, dövlət çevrilişləri cəhdi ilə qarşılaşmış, lakin onları qətiyyətlə dəf etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olduğu dövrdə də Azərbaycanın qədim tarixinin araşdırılmasını prioritet məsələlərdən birinə çevirmiş, mövcud abidələrə yeni ekspedisiyaların təşkil olunması və ərazidəki abidələrin arxeoloji cəhətdən öyrənilməsi, onlarin qorunması və təbliği üçün lazımi addımları atmışdır.

2002-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılması ilə muxtar respublikada tədqiqat işlərinin aparılması işi daha da genişlənmişdir. Heydər Əliyev "Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır" ifadəsi ilə Naxçıvan ərazisinin zəngin və qədim tarixə malik olduğunu vurğulamışdır.

Naxçıvana qayıtdığı vaxtlarda görüşdüyü ilk insanlardan biri də Kültəpədə qazıntı işləri aparan Vəli Əliyev olmuşdur. Məhz Heydər Əliyevin təşəbbüsü ilə sonrakı illərdə Kültəpə, Gəmiqaya və Şərurda qazıntı işləri daha da genişləndirilmiş, nəticədə Azərbaycanın qədim tarixinin müxtəlif dövrlərinə aid maddi-mədəniyyət nümunələri tapılmışdır.

Bu ənənənin davamı olaraq 2002-ci ildən etibarən Vəli Baxşəliyevin rəhbərliyi ilə Naxçıvanın müxtəlif rayonlarına arxeoloji ekspedisiyalar təşkil olunaraq qiymətli məlumatlar əldə edilir.

Muxtar Respublika ərazisində Qazma, Kilit və Əshabi-Kəhf mağaraları, Batabat yaylağı, Naxçıvançay və Əlincəçay vadiləri, Haçadağın ətəklərində aşkar olunan tarixi abidələr daş dövrü mədəniyyətinə aid dəyərli abidələrdəndir.

Azıx mağarasında aşkar edilən tapıntılara görə mağaranın "Avropanın ən qədim sakinləri" xəritəsinə salınması

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

Azərbaycan tarixini saxtalaşdırmağa çalışan erməni işğalçılarına ən gözəl cavabdır.

Müstəqillik dövründə 1993-cü ildə yaradılmış Arxeologiya və Etnoqrafiya İnstitutunun ilk qərarı Heydət Əliyevin ilk hakimiyyəti dövründə verilsə də, 1982-ci ildə Heydər Əliyevin Moskvaya göndərilməsi ilə yarımçıq qalmış, amma bu məsələ uzun dövrdən sonra yenə də Heydər Əliyevin siyasi hakimiyyət dövründə öz həllini tapmışdır.

Ulu öndər tərəfindən "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" 1998-ci il 10 aprel tarixli və "Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasına Azərbaycan Respublikasının qoşulması barədə 1999-cu il 20 oktyabr tarixli qanunların qəbul edilməsi tariximizə olan münasibətin ən bariz nümunələrindəndir.

Hər il Azərbaycan üzrə 40-a yaxın arxeoloji ekspedisiya müxtəlif yerlərdə tədqiqat işləri aparır və üst-üstə təqribən 6-7 min ədəd elm üçün nadir hesab olunan eksponatı qeydiyyata alaraq götürür. Bu, o deməkdir ki, yalnız müstəqillik illərində Azərbaycan arxeoloqları tərəfindən ümumilikdə on minlərlə nadir tarixi əhəmiyyəti olan eksponat aşkar edilərək qeydiyyata alınıb. Bu tapıntılar tariximizi daha dərindən və hərtərəfli öyrənmək üçün olduqca dəyərli mənbəəşünaslıq bazasını təşkil edir.

Müstəqillik illərində Heydər Əliyevin müdrik siyasəti sayəsində Azərbaycanın tarixi abidələrinin qorunması və elmi tədqiqatlarının hüquqi bazası yaradıldı. Bu qanunlarda abidələrin qorunmasının, tədqiqatlarının, istifadəsinin hüquqi əsasları şərh edilmiş və bütün bunların mühüm dövlət əhəmiyyətli işlər olması göstərilmişdir. Bu qanunlarda həm də işğal olunmuş bölgədəki abidələrin vəziyyəti barədə daxil edilmiş xüsusi maddələrdə həmin ərazilərdəki abidələrin mühafizəsinə nəzarət üçün beynəlxalq təşkilatların qarşısında məsələ qaldırılmasının zəruriliyi göstərilmişdir.

Tarixçilərimiz, tədqiqatçılarımız üçün lazımi şəraiti yaradan Heydər Əliyev bunun müqabilində Azərbaycan tarixini özündə dəqiq əks etdirən tədqiqat əsərlərinin yazılmasını və gələcək nəsillərə çatdırılmasını tələb edirdi. Bu məqsədlə Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla təşkil edilən görüşdə alimlər qarşısında Azərbaycanın qədim tarixinin təhrif edilmədən araşdırılmasını mühüm bir vəzifə kimi qoyan Ulu öndər bildirmişdir ki, "Mən o vaxtlar-Azərbaycanda işlədiyim dövrdə də deyirdim, indi də bu sözlərin üstündə dururam ki, tarixçilərimiz üçün bütün şəraiti yaratmağa hazıram. Bir şərtlə ki, bu şəraitin əvəzində biz tarixçilərimizdən Azərbaycan tarixini bu gün üçün, gələcək nəsillər üçün və bütün gələcək üçün yaxşı əks etdirən əsərlər ala bilək. Odur ki, bu baxımdan bir məsələyə də toxunmaq istəyirəm: tarixi təhrif etmək olmaz. Bu 70 illik sovet dövründə tarix, ümumiyyətlə, dünya tarixi, o cümlədən Azərbaycan tarixi, habelə keçmiş Sovetlər İttifaqının ərazisində yaşayan digər millətlərin tarixi təhrif edilib. Nə üçün təhrif edilib? Çünki o vaxt vəziyyət belə idi və bu, çox adi bir hal idi..." (6, s. 155).

## ƏDƏBİYYAT

1. Heydər Əliyev. Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları. Elektron sənədlər toplusu. Bakı: 2003, 184 s.www. heydaraliyev.preslib.az.
2. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

Azərbaycan xalqına müraciəti. Bakı şəhəri, 29 dekabr 2000-ci il. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 31-ci kitab. Çıxışlar, nitqlər, bəyanatlar, münasibətlər, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Bakı: Azərnəşr, 2010, 283 s.
3. Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin giriş nitqi. Bakı: 2002. Prezident kitabxanası. www.preslib.az
4. Hüseynova L. Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri (müstəqillik dövrü). Bakı: Təhsil, 2011, 216 s.
5. Cəfərov Əsədulla. Azərbaycanda arxeologiya elminin inkişafı. "Xalq" qəzeti, 29 aprel 2013-cü il
6. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab iyun 1993-may 1994. Bakı: Azərnəşr, 1997, 608 s.

# SOSİAL ELMLƏR VƏ HÜQUQ

**MƏMMƏD RZAYEV**
*mamedrazi@mail.ru*
*Naxçıvan Dövlət Universiteti*

## HEYDƏR ƏLİYEV VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN İNKİŞAF DİALEKTİKASI

Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin inkişafı və zənginləşməsində, eləcə də milli şüurun yüksəlişində xalqımızın Ümummilli lideri Heydər Əliyevin istər yaxın keçmişimiz olan sovet dövrü, istərsə də xalqın istəyi ilə onun ikinci dəfə hakimiyyətə qayıdışı dövründə misilsiz xidmətləri olmuşdur. Heydər Əliyev siyasi fəaliyyətin mənasını yalnız və yalnız Azərbaycanın tərəqqisini təmin etməkdə, Azərbaycan xalqının mədəni, mənəvi və intellektual yüksəlişinə nail olmaqda görürdü.

Müasir Azərbaycan cəmiyyəti üçün zəruri və mühüm amillərdən biri insanlarda milli şüurun tərbiyəsi və bu tərbiyə prosesində milli-mənəvi dəyərlərdən düzgün istifadə olunması məsələsidir. Bu məsələlərin həllinə isə yalnız sosial ədalət prinsipinin hökm sürdüyü demokratik cəmiyyətdə nail olunmasının mümkünlüyü heç kimdə şübhə doğura bilməz.

Yeni türk şerinin banisi Məmməd Əmin Yurdoğlu demişdir: Sizdə nə zaman öz şəxsi mənliyini unudub öz bədənləri özlərinə mənsub olmayan insanlar yetişərsə, o zaman qara günümüz ağ olacaq, düşdüyünüz yerdən qalxacaqsınız. Belə bir insan, kamil şəxsiyyət Heydər Əliyev oldu.

Siyasi fəaliyyətinin bütün dövrlərində

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

sosial ədalət prinsipinə sadiq qalan Heydər Əliyev bu prinsipin reallaşması yollarını göstərmiş, onun realizə olunmasının obyektiv və subyektiv amillərinə xüsusi diqqət yetirmişdir. Bu baxımdan elm, mədəniyyət və incəsənət məsələləri Heydər Əliyev siyasətində xüsusi əhəmiyyət kəsb etmişdir. Eyni zamanda sosial ədalət prinsiplərinin və mənəvi tərbiyə məsələlərinin aliliyinin təmin olunmasına çalışan Heydər Əliyev birinci növbədə cəmiyyətin tərəqqisinin vacibliyini vurğulayır, ictimai elmlərin, mədəniyyət və incəsənətin imkanlarından səmərəli istifadə olunmasının zəruriliyini təsdiqləyirdi. Milli-mənəvi dəyərlərin inkişafına səbəb-nəticə prinsipindən yanaşan Ümummilli lider cəmiyyət üzvləri arasında əxlaqi dəyərlərin, milli şüurun, milli qürur hissinin formalaşması və inkişaf etməsi ilə bağlı zərurətin yaranmasını obyektiv reallıq kimi qəbul edirdi. Deməli, milli-mənəvi dəyərlərin inkişafına əsas faktor kimi real həyat və həyatdan irəli gələn tələblər çıxış edir. Məhz, Heydər Əliyevin siyasi fəaliyyətində də milli mənəvi dəyərlərin inkişafı milli şüurun yüksəlişi baxımından və onunla bağlı məsələlər suveren Azərbaycanda gedən bu günkü proseslər baxımından mühüm əhəmiyyət kəsb edirdi. Heydər Əliyev deyirdi: “Bizim vətəndaşlıq borcumuz milli-mənəvi dəyərlərimizə, doğma torpağımıza, doğma ana dilimizə böyük və zəngin tariximizə, millətimizə sadiq olmaqdan ibarətdir”.

Müasir dövr mənəvi dəyərlərin milli və ümumbəşəri prizmadan qiymətləndirilməsi dövrüdür. Keçmiş sistemin mənəvi dəyərlərinin, mənəvi və ideoloji prinsiplərinin bir çoxundan yeni cəmiyyət imtina edir. Lakin hansısa dəyərlərdən, prinsiplərdən imtina etmək mənəvi sferada boşluq yaratmamalıdır. Çünki, nə təbiət, nə də cəmiyyət boşluğu sevmir. Bu məsələnin həllinə Heydər Əliyev kamil bir dialektik kimi yanaşırdı. O, bir tərəfdən keçmişdə milli-mənəvi sferanın zəif inkişaf etmiş sahələrinə xüsusi əhəmiyyət verir, digər tərəfdən insanların tərbiyəsinin sağlamlaşdırılması, onların mədəni səviyyəsinin yüksəldilməsində milli-mənəvi dəyərlərdən daha çox, daha səmərəli istifadə olunmasının vacibliyini müntəzəm olaraq vurğulayırdı. Bununla əlaqədar olaraq, o, keçmiş SSRİ dövründə “millətçi damğası” altında yasaq edilmiş milli-mənəvi dəyərlərə, adət-ənənələrə qayıdışın zəruriliyini və onlardan faydalanmağın əhəmiyyətini xüsusi olaraq qeyd edirdi.

Milli-mənəvi dəyərlərin inkişafının təmin olunmasında mənəvi dəyərlər sisteminə daxil olan elementlərin bəzilərinin xüsusi yeri, rolu və funksiyaları vardır. Bu baxımdan Heydər Əliyev Azərbaycan dilinin cəmiyyət həyatında oynadığı rolu xüsusi vurğulayaraq, ona ümumxalq səsverməsi-referendum yolu ilə yenidən dövlət dili statusu verilməsinə nail olmuşdur. Dövlət dilinin inkişafı isə xalqımızın, cəmiyyətimizin və bütövlükdə milli-mənəvi dəyərlərimizin inkişafı deməkdir. Ona görə də milli mənəvi dəyər kimi dilin özünün inkişafı və zənginləşməsi üçün Azərbaycan dilinin imkanlarından daha dolğun şəkildə istifadə edilməsinə xüsusi diqqət yetirilməlidir. Biz onu da unutmamalıyıq ki, dil şüurun, düşüncə tərzinin inkişafında xüsusi rol oynayır. Bu gün Azərbaycan xalqının milli şüurunun inkişafı Ümummilli liderimiz Heydər Əliyev tərəfindən ən mühüm nəzəri və ideoloji məsələ kimi irəli sürülmüşdür. Bu məsələnin həllində isə Azərbaycan dilinin mühüm rol oynaması danılmazdır.

Heydər Əliyev qeyd edirdi ki, “Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz dilimizlə, Azərbaycan dili ilə fəxr edirik. Hər bir xalq öz dili ilə yaranır. Ancaq

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

xalqının dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur".

Keçid dövründə milli-mənəvi dəyərlərin inkişafı bu və ya digər şəkildə mövcud ziddiyyətləri aradan qaldırmağı bacarmaqdan-keçmişin mənfi elementlərdən azad olunması və yeni, mütərəqqi prinsiplərin təsdiq edilməsindən asılıdır. Bu baxımdan tarixi "ağ ləkələrdən" azad etmək, saxtalaşdırılmış tarixi hadisələrə, tarixi keçmişə obyektiv qiymət vermək, unudulmuş mənəvi dəyərlər və tarixi hadisələri Azərbaycanın bu gününə və gələcəyinə xidmət etməyə yönəltmək əsas vəzifələrdən biridir. Bununla əlaqədar olaraq, Heydər Əliyev Azərbaycan xalqının ermənilər tərəfindən təcavüzə məruz qalmış tarix, mədəniyyət və incəsənət incilərinin xalqın özünə qaytarılması məsələsinin vacibliyini bir neçə rəsmi sənəddə, xüsusən "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli Fərmanında bəyan etmişdir. Milli-mənəvi dəyərlərin inkişafından danışarkən, əvvəllər onların inkişafına mane olan sədləri aradan götürməyi də unutmamalıyıq. Mənəvi dəyərlərin yenidən millətə qaytarılmasının mənası ondan ibarətdir ki, həmin dəyərlər Azərbaycan xalqının bu gün və gələcəkdə həll etməli olduğu böyük vəzifələrə xidmət etsinlər, xalqın mənəviyyatına müsbət təsir göstərsinlər və mənəvi həyatı bir sistem kimi daha da zənginləşdirsinlər. Deməli mənəvi dəyərlərin inkişafı daim mənəvi sferanın zənginləşməsi ilə müşahidə olunmalıdır. Bu gün Avropa ölkələrində "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi", eləcə də insan hüquqları və azadlıqları barədə müxtəlif paktlar, xartiyalar, konvensiyalar qəbul edilirsə də hüquqi dövlət və vətəndaş cəmiyyəti qurulursa, bu heç də avropalıların öz dinlərindən əl çəkməsi demək deyildir. Bu gün müstəqil Azərbaycan gerçəkliyində islam amili də danılmaz faktdır. Bu başqa məsələdir ki, bizdə fanatizm və ya dini ekstremizm yoxdur. Həmçinin nəzərə almaq lazımdır ki, islam başqa dinlərdən fərqli olaraq yalnız dini etiqad deyil, həm də həyat tərzi, əxlaq, mənəviyyatdır. Təsadüfi deyildir ki, Heydər Əliyev deyirdi:

"Hər xalqın öz adət-ənənəsi var. Öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli mənəvi dəyərlərimizlə fəxr edirik". Həm də dini dəyərlər bizim həyatımızda ötəri, keçici bir şey olmayıb, davamlı, dayanıqlı bir məqamdır. "Heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edib gələcəyimizi quracağı". Heydər Əliyev milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən yüksək formasını milli dövlətçilikdə görürdü. Bu gün milli dəyərlərimiz elliklə, bütün xalq tərəfindən, dövlətin öz himayəsi altında qorunur və daha da inkişaf etdirilir. Dövlətçiliklə milliliyin birləşməsi bütün xalqların ən böyük arzusu və idealı olmuşdur. Bu gün biz potensial milli birlik dövrümüzü yaşayırıq ki, bunun da əsasını Ümummilli lider Heydər Əliyev qoymuş, milli birlik ideyasının hər cür ambissiyalardan yüksəkdə durmalı olduğunu dəfələrlə qeyd etmişdir: "Siyasi baxışdan və cəmiyyətdə mövqeyindən asılı olmayaraq, gərək hər bir vətəndaş düşünsün ki, müxtəlif yerlərdə Azərbaycana qarşı bəzi xəbis niyyətlər və bəd münasibətlər vardır. Bunların qarşısını almaq üçün Azərbaycanın daxilində birlik, həmrəylik yaranmalıdır".

Heydər Əliyev hər bir kəsi öz mənafeyindən daha çox xalqın mənafeyini, dövlətin ümummilli siyasi və iqtisadi

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

mənafelərini qorumağa çağırırdı: "Hər bir vətəndaş gərək ölkəsinin böyük siyasəti haqqında düşünsün, kiçik mənfəətləri, maraqları haqqında düşünməsin". Heydər Əliyevin müstəqil Azərbaycan qarşısında ən böyük xidmətlərindən biri də milli dövlət qurulması, dövlətçilik ideyalarının həyata keçirilməsi və bu proseslərin dönməzliyinin təmin edilməsidir. Milli-mənəvi dəyərlərin müasir dövrdə inkişafını ümumbəşəri dəyərlərdən təcrid olunmuş vəziyyətdə təsəvvür etmək qeyri-mümkündür. Ona görə də Heydər Əliyev mənəvi tərbiyə sistemində milli və ümumbəşəri dəyərlərdən bəhrələnmə məsələsinə böyük əhəmiyyət verirdi. Onun fikrincə, milli-mənəvi dəyərlər milliliyini özündə saxlayaraq, məzmununu ümumbəşəri dəyərlərlə zənginləşdirməli, ümumdünya mədəniyyətinin nailiyyətlərindən bəhrələnib inkişaf etməlidir. Bu baxımdan, Heydər Əliyev dəfələrlə qeyd edirdi ki, Azərbaycan xalqının milli mədəniyyətinin və mənəvi dəyərlərinin gələcək inkişafı baxımından böyük perspektivləri vardır. Belə perspektivlərin mövcudluğu bir sıra səbəblərlə izah oluna bilər. Azərbaycan milli mədəniyyətində, mənəvi-əxlaqi dəyərlərində tarixiliklə müasirlik sistemli şəkildə əks olunur. Bu sistemli yanaşma milli mənəvi dəyərlərin inkişafına daim təkan verir, keçmişin nailiyyətlərindən bəhrələnib gələcəyə doğru irəliləmək prinsipinə xidmət edir.

Azərbaycan Avropa ilə Asiyanın, Qərb ilə Şərqin kəsişdiyi məkanda yerləşir. Məhz bunun nəticəsində də Azərbaycanın milli mədəniyyəti və mənəvi əxlaqi dəyərləri özündə həm Qərb, həm də Şərq mənəvi dəyərlərinin müsbət cəhətlərini əks etdirmişdir.

Heydər Əliyevin milli ideologiyanın ən mühüm istiqamətlərindən və komponentlərindən biri kimi qiymətləndirdiyi milli-mənəvi dəyərlər özü də mürəkkəb daxili struktura malikdir. Burada Heydər Əliyev milli mənəvi dəyərlərin üç tərkib hissəsini xüsusi qeyd edir, dil, din, adət-ənənə və milli mentalitetin rolunu xüsusi qiymətləndirirdi. Heydər Əliyev milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanılmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürür və göstərirdi ki, bunları qoruyub saxlayan xalq həmişə müstəqillik yolu ilə getmək və müstəqilliyini qorumaq əzmində olacaqdır. Çünki, milli dövlətçilik və milli-mənəvi dəyərlər arasında sıx bir daxili əlaqə vardır. O qeyd edirdi ki, milli müəyyənliyi olmayan və özünü bir millət kimi dərk etməyən xalqın milli dövlətə də ehtiyacı ola bilməz. Belə ki, milli dövlət, bir tərəfdən ərazinin və iqtisadi sərvətlərin qorunmasına xidmət edirsə, digər tərəfdən də milli-mənəvi dəyərlərin qorunması və müstəqil inkişafın təmin olunması məqsədi daşıyır.

Heç bir dövlət başçısı, heç bir siyasi lider quruculuğu və idarəçiliyi ilə yanaşı, milli ideologiyanın mühüm və əsas istiqamətlərinin müəyyənləşdirilməsi, bu sahədə yeni mükəmməl elmi konsepsiyanın yaradılması və onun həyata keçirilməsi sahəsində Heydər Əliyev qədər şəxsi əzmkarlıq göstərməmişdir.

Ziyalılarımızın mili tərəqqi prosesində rolunu azaltmadan qeyd etməliyik ki, dahi rəhbər milli dəyərlər uğrunda mübarizənin önündə həmişə özü gedir və milli ziyalılarımızı da bu istiqamətdəki fəaliyyətə səfərbər edirdi. Bu onunla bağlıdır ki, milli lider milləti sevməyin, millətə xidmətin yüksək ali nümunəsini, yollarını və üsullarını hamıdan yüksək mənimsədiyinə görə təşəbbüs ondan gəlirdi. O, hətta rəsmi sərəncamlarla, xüsusi qərarlarla böyük milli-mədəni abidələrimizin fiziki və mənəvi cəhətdən

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

bərpasına, milli yaddaşın, milli köklərə qayıdışın sürətləndirilməsinə istiqamət verirdi. Belə ki, Füzulinin 500 illik yubileyinin, "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin böyük təntənələrlə keçirilməsi məhz Heydər Əliyevin şəxsi təşəbbüsü idi.

Məlumdur ki, milli ideologiyamızın Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş ən mühüm istiqamətlərindən biri azərbaycançılıq xəttidir. Bu xətt, bir tərəfdən, Azərbaycanda vahid milli dövlətçilik hissiyatının formalaşmasını, milli yetkinləşmə və bütövləşməni nəzərdə tutursa, digər tərəfdən, Azərbaycan dilinin bir dövlət dili olaraq inkişafını və bütün ölkə miqyasında, bütün fəaliyyət sahələrində mövqeyinin möhkəmlənməsini əsas götürür. Heydər Əliyev milli ideologiyamızın əsas prinsiplərini müəyyənləşdirməklə bərabər, onların həyata keçirilməsinə şəxsən özü nəzarət edirdi ki, bu da onun dövlət başçısı olmaqdan əlavə, bir milli lider kimi üzərinə götürdüyü missiyaya necə böyük məsuliyyətlə yanaşdığını göstərir.

Heydər Əliyevdə siyasi liderliklə milli liderlik keyfiyyətləri dialektikcəsinə birləşmişdi. Məhz bu cəhət Azərbaycanda keçid dövrü üçün səciyyəvi olan siyasi və iqtisadi islahatlarla milli ənənəçilik arasında uyğunsuzluqlar və qarşıdurmalardan xilas olmağa, milli və ümumbəşəri dəyərlərin vəhdətinə nail olmağa imkan vermiş, müasir dövrdə şəxsiyyətin formalaşmasında milli-mənəvi dəyərlərin təsirini gücləndirmək işində keçmiş tarixi ənənələrə və mili dəyərlərə qayğı ilə yanaşmaq, eyni zamanda müasir dünyada gedən qloballaşma proseslərinin yaratdığı ümumbəşəri dəyərlərin müsbət tərəflərinin mənimsənilməsində mühüm rol oynamışdır. Bu gün Ümummilli liderimiz Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı, müasir Azərbaycan dövlətinin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımız müstəqil dövlət quruculuğu prosesində üzərinə düşən mühüm və son dərəcə şərəfli vəzifələrin öhdəsindən layiqincə gəlir. İlham Əliyevin yeritdiyi müdrik və uzaqgörən siyasət qısa müddətdə Azərbaycanı dünya birliyinin sayılıb-seçilən üzvünə, beynəlxalq tədbirlərin, qloballaşan dünyanın problemlərinin çözüldüyü məkana çevirmişdir. İnkişafın Azərbaycan modeli, multikulturalizm modelimiz dünyanın diqqətini özünə çəkmiş, bir çox ölkədə öyrənilməyə başlanmış və örnəyə çevrilmişdir. Azərbaycan kosmik dövlətlər ailəsinə daxil olmuş, müasir, modern dövlətə çevrilmişdir. Qarabağı "DƏMİR YUMRUQ" əməliyyatı ilə cəmi 44 günə düşməndən təmizləyən Müzəffər Ali Baş Komandan İlham Əliyev bu gün dəmir iradə ilə ölkəmizdə, eləcə də işğaldan azad olunmuş torpaqlarımızda böyük tikinti-quruculuq işlərinə istiqamət verir. Bəli, Heydər Əliyevin nurlu dühası xalqımızın böyük gələcəyə olan işıqlı yolunu daima işıqlandıracaqdır. Çünki bu Heydər Əliyev yoludur, bu inkişaf, tərəqqi və yüksəliş yoludur.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

## ƏDƏBİYYAT

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. I cild, Bakı: 2013, 632 s.
2. Heydər Əliyev. Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri. Bakı: 1979, 58 s.
3. Heydər Əliyev. İnkişaf məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər. 128-ci kitab: may 2023. Bakı: Azərnəşr, 2023, 400 s.
4. Hacıyev İ. Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası. Bakı: 2003, 164 s.
5. Hüseynova İ. Müstəqilliyimizin təminatçısı. Bakı: 2003, 504 s.
6. Yusifov M. Milli Lider və müstəqil dövlətçilik. Bakı: 2005, 210 s.
7. Əkbərov B. Heydər Əliyev mili konstitusiyamızın yaradıcısı və banisidir. Bakı: 1998, 96 s.
8. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı: 2002, 232 s.
9. Müraciətlər. 128-ci kitab: may 2023. Bakı: Azərnəşr, 2023, 400 s.

**YUSİF HÜSEYNOV**
*Naxçıvan Dövlət Universiteti*

# ÜMUMMİLLİ LİDER: FENOMENAL ŞƏXSİYYƏT VƏ DAHİ SİYASƏTÇİ

Dahi siyasətçi və görkəmli dövlət xadimi Heydər Əliyevin həyatı bütünlüklə öz ömrünü xalqının səadətinə və xoşbəxt gələcəyinə həsr edən sarsılmaz liderin təcəssümüdür. Mübaliğəsiz olaraq Heydər Əliyevi Azərbaycan xalqının xilaskarı, xalqın qələbələrə şərtlənən davamlı yüksəlişinin fundamental ideoloqu və milli sərvəti adlandırmaq olar.

Platon siyasi liderləri "həqiqəti dərk edənlər", Aristotel isə xüsusi insan tipləri hesab edirdi. Qustav Lebon və Ziqmund Reyd liderləri insan psixologiyasına dərindən bələd olan, Nikola Makiavelli isə "güclü hökmdar" hesab edirdi.

Nəsrəddin Tusi özünün "Əxlaqi Nasiri" əsərində qeyd edirdi ki, həqiqətdə liderlik (hökmdarlıq) o adama yaraşır ki, dünya xəstələnəndə onu sağalda bilsin, sağlam olduqda səhhətini qorusun. Müdrik filosof xəstəliyin də səbəbini ölkənin özbaşına buraxılmasında görürdü (2, s.210). Məhz Azərbaycan xalqının kimlərinsə mənafeyi üçün özbaşına buraxılıb ağır xəstələndiyi bir vaxta xalqının səsinə səs verib, xalqın Liderliyi missiyasını öz üzərinə götürən Heydər Əliyev onu sağaltdı, qorudu və xoşbəxt gələcəyini təmin etdi.

Sırf şəxsi maraqlarından çıxış edən separatçı qrupların və silahlı cinayətkar dəstələrin fəaliyyət göstərdiyi "Heydər Əliyevə qədərki Azərbaycanda" nəinki dövlətin ümumi siyasi kursu mövcud idi, heç milli maraq və məqsədlər də müəyyən deyildi. Heydər Əliyevin qayıdışından sonra Azərbaycan dünya birliyində öz layiqli yerini tutdu.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

Ümummilli lider Heydər Əliyev şəxsiyyətinin ucalığında görkəmli siyasi liderlərə məxsus keyfiyyət olan xalqın və dövlətin mənafeyini daim öz mənafeyindən yüksəkdə tutmaq başlıca prioritet olmuşdur. Onun zatən xalq və dövlətin mənafeyindən başqa şəxsi mənafeyi yox idi.

Ulu öndər çıxışlarında hər zaman xüsusi vurğulamışdır ki, müasir dünyada qloballaşma proseslərinin nəticəsi kimi ortaya çıxan sivilizasiyalararası toqquşma və ziddiyyətlər hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunması məsələsini çağdaş zamanın aktual məsələlərindən birinə çevirir. Problemi aktuallaşdıran başlıca amil budur ki, qloballaşma prosesinin və çoxqütblü inteqrasiyanın diktələri bir çox hallarda milli-mənəvi dəyərlərə, adət-ənənələrə, saf duyğulara qarşı yönəlir. Heydər Əliyevin Vətəninə, xalqına, milli irs və ənənələrə bağlılığı bu təhdidlərin önündə əzəmətli sipərə çevrilmiş, bütövlükdə xalqın milli özünəməxsusluğunu qorumuşdur. Bu dahi şəxsiyyət Azərbaycanın min illərin sınağından çıxmış mədəniyyətinə, tarixinə, ənənəsinə həddən artıq bağlı olmaqla yanaşı, onların olduğu kimi xalqa qaytarılması üçün əlindən gələni əsirgəməmişdir. Ulu öndər daim xatırladırdı ki, "Biz öz tarixi köklərimizlə, milli-mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik" (4, s.76).

Ulu öndər qeyd edirdi ki, "biz gərək bu siyasəti o qədər ağılla, o qədər məharətlə aparaq ki, Azərbaycanın milli mənafeləri müdafiə olunsun". Onun siyasəti milli maraqlar üzərində qurulmuşdu. Xalqımızın və dövlətimizin elə bir problemi olmamışdır ki, bu problemləri kimsə Heydər Əliyev kimi incəliklə dərk etmiş olsun. O, hər hansı problemə həsr olunmuş yığıncaqda məsələyə dərindən bələdliyi, verdiyi suallar, qaldırdığı problem məsələlərlə həmin sahənin mütəxəssislərini belə heyrətləndirirdi. Heydər Əliyevin mülahizələri problemlərə dərindən bələdlik, hadisələrin məğzinə, səbəb-nəticə əlaqələrinə nüfuz etmək xüsusiyyəti ilə seçilirdi. Azərbaycanın daxili siyasətini istiqamətləndirən, xarici siyasətini beynəlxalq hüquq normalarına uyğun, məqsədyönlü və tarazlaşdırılmış şəkildə aparan qətiyyətli dövlət xadimi çox hallarda ən tanınmış siyasətçiləri belə təəccübləndirirdi. Elə bu cəhətlərinə görədir ki, xalqımız onu əsrin böyük Azərbaycanlısı, xalqın xilaskarı, müstəqil Azərbaycan dövlətinin memarı və Azərbaycanı dünyaya tanıdan insan kimi qəbul edir, hörmət bəsləyir və ürəkdən sevirdi.

Ulu öndər haqqında danışarkən onu həm də Ümummilli lider kimi səciyyələndiririk. Lakin Heydər Əliyevin Ümummilli liderliyini milli çərçivə ilə məhdudlaşdıra bilmərik. Heydər Əliyev şəxsiyyəti və onun cahanşümul fəaliyyəti Sovet xalqları müstəvisində Şərqdə və Şərqi Avropadan tutmuş, dünyanın bir çox ölkələrinin tarixində rol oynamış və onların həyatına təsir edəcək proseslərə bağlı olmuşdur. Bu mənanın ifadəsini Rusiya Xalqlar Assambleyasının sədri, tanınmış siyasi xadim Ramazan Abdulatifovun aşağıdakı sözlərində görmək olar: "Heydər Əliyevin Qafqaz tarixindəki rolunu əlli ildən sonra anlamaq, dərk etmək mümkün olacaq. Heydər Əliyev tarixi şəxsiyyət və Qafqazın fəxridir. Sovet dövründə də fəxri olmuşdur. Belə nəhəng lider təkcə Azərbaycana deyil, bütün Qafqaza və onun hüdudlarından kənarda da lazımdır" (5, s.358-359).

Azərbaycanın müstəqilliyinin ilk illərində Heydər Əliyevin simasında

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

ölkəmiz xilaskar liderin olmasının nə qədər böyük əhəmiyyət kəsb etdiyini və əvəzolunmazlığını gördü. Heydər Əliyevin ölkəmizdəki digər idarəçilərdən əsas fərqi liderliyini təkcə siyasi müstəvi ilə sərhədləməməsi idi. O həm də iqtisadi, sosial, mədəni sahələrdə əsl liderlik keyfiyyətlərini nümayiş etdirirdi. Heydər Əliyev elə bir unikal lider idi ki, o öz daxili gücünü, özünə inamını intuitiv olaraq kütləyə hiss elətdirə bilirdi. Xalq qeyri-ixtiyari olaraq onun arxasınca gedir, onu özünə rəhbər etmək isdəyirdi. Heydər Əliyevin bu 10 illik prezidentlik fəaliyyəti bir liderlik institutu oldu. Onun gördüyü işlər bütünlüklə Azərbaycanın həyatında, bu günümüzdə və gələcəyimizdə öz nəticəsini verməkdədir.

Heydər Əliyev dünyanın nadir, unikal, seçilən siyasət adamı idi. O, dünya siyasətinə təsir etmək gücündə olan lider idi. Heydər Əliyev tək Azərbaycan səviyyəsində deyil, keçmiş ittifaq səviyyəsində, hətta Qərb miqyasında sözünün keçəri olan lider idi. O, beynəlxalq səviyyədə düşünməyi və təhlillər aparmağı bacarırdı. Bu dahi insan tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran nadir şəxsiyyətlərdən biri idi. O həm güclü yaradıcı, qurucu, həm də sözlərinin çəkisi və sanbalı olan, kütləni arxasınca aparmağı, auditoriyanı inandırmağı bacaran bir siyasi xadim idi. Buna görə də onun uzaqgörənliyi həmkarlarına nisbətən daha güclü idi. Təbiət bu keyfiyyəti yalnız seçilmiş adamlara - zəmanəsini çox-çox qabaqlayan görkəmli mütəfəkkirlərə verir. Görkəmli siyasətçi Heydər Əliyev analitik düşüncə tərzi ilə, çətin vəziyyətlərdə soyuqqanlılığını saxlamaq məharəti ilə, yüksək intellekti, dünya siyasətinə və mədəniyyətinə bələdliyi ilə ətrafdakıları heyrətləndirirdi.

Görkəmli dövlət xadimi Heydər Əliyev xalqının gələcəyini qabaqcadan görmək və ölkəsini həmin ideal gələcəyə doğru real surətdə aparmaq qabiliyyətinə malik olmuşdur. Sovet hakimiyyəti illərində kommunist ideologiyasının hakim olduğu şəraitdə Heydər Əliyevin azərbaycançılıq siyasətini addım-addım həyata keçirməsi, milli-mənəvi dəyərləri ön mövqeyə çəkməyi bacarması nəticə etibarilə xalqda müstəqil dövlətçilik şüurunun formalaşdırılmasında mühüm rol oynamışdır.

Doğma vətəni özünün qibləgahı hesab edən Heydər Əliyevə görə "Azərbaycanı sevmək-azərbaycançılıq hissiyyatını özündə cəm etmək deməkdir". Azərbaycançılıq isə Heydər Əliyev üçün ümummilli ideal və milli dövlətçilik ideologiyası mənasını daşımışdır.

Heydər Əliyevin milli dövlətçilik təlimində azərbaycançılıq ideologiyası xalqın tarixi keçmişi ilə müasir reallıqlarının və gələcəyinin vəhdətdə nəzərə alınması, milli-mənəvi dəyərlərin mövcud şəraitə uyğun olaraq, yaşadılması kimi prinsipləri özündə cəmləşdirir. Dahi rəhbərin ifadə etdiyi "milli ideologiyamız tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, milli xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bugünü və gələcəyi ilə bağlı olmalıdır" tezisi azərbaycançılığın düsturuna çevrilmişdir (6).

Heydər Əliyev güclü xarizmatik şəxsiyyət, fenomenal siyasətçi və dövlət xadimi idi. Onun ən böyük gücü dərin, həm də universal biliyində, qətiyyətində, işgüzarlığında, güclü iradəsində, qeyri-adi yaddaşında, tükənməz təmkin və səbrində, uzaqgörənliyində, qarşısına qoyduğu məsələni həyata keçirmək qabiliyyətində, müdrikliyində, ən böyük siyasətçi və mahir diplomat olmasında,

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

həmsöhbətinə təsir etmək gücünə malik olmasında idi. Xeyirxahlıq və alicənablıq, inam və etibar, səmimiyyət, zəka, diqqət və başqa bu kimi cəhətlər Heydər Əliyev şəxsiyyətinin ucalığının əlamətləri idi.

İstər Azərbaycana rəhbərlik etdiyi birinci dönəmdə, istər Moskvada SSRİ kimi böyük və hegemon bir ölkənin ən yüksək hakimiyyət təbəqəsində yüksək rəhbər vəzifələr daşıdığı vaxtlarda istərsə də müstəqil Azərbaycanın xilaskar Prezidenti olduğu zaman əlahiddə istedad və mükəmməl dühasına görə həmişə seçilmiçdir. Xalqı, kütləni müəyyən bir fikir ətrafında və məqsəd uğrunda cəmləşdirə, səfərbər edə bilmək və bu zaman qarşıya çıxacaq bütün mümkün problemləri qabaqcadan duymaq və onların həllinə əvvəlcədən hazır olmaq xüsusiyyəti müəyyən vəzifə tutub-tutmadığından asılı olmayaraq Heydər Əliyevin dəyişməz təbii xarakterik xüsusiyyəti idi.

Heydər Əliyevin lider kimi fenomenallığı onun həyata keçirdiyi məqsədlərə nail olmaq üçün özündə cəmləşdirdiyi bir çox zəruri keyfiyyətlərlə xarakterizə olunur. Liderin şəxsi "fərdi-insani" keyfiyyətləri onun liderlik fəaliyyətinin əsas leytmotividir. Buraya liderin psixoloji, ideoloji və digər keyfiyyət parametrləri aiddir. Ulu öndərin şəxsi "fərdi-insani" keyfiyyətləri klassik nümunə olaraq daim öyrənilməli və təşviq olunmalıdır.

Heydər Əliyevin liderlik fəaliyyətindəki əsas keyfiyyətlərdən biri də onun şəraitə uyğun ən optimal hərəkət konsepsiyasını düzgün müəyyənləşdirməsi idi, yəni onun siyasi liderlik fəlsəfəsi şəxsi keyfiyyətləri ilə yanaşı, xarici mühit və şərait amilləri ilə xarakterizə olunurdu.

Ulu öndərin - liderin digər bir xüsusiyyəti "özünə şərait yaratma" keyfiyyətidir. Bu liderin həm şəxsi, həm də şəraitdən asılı olan keyfiyyətlərinin birləşməsindən əmələ gəlir. Belə olan halda siyasətçilər şəxsi keyfiyyətlərindən üz döndərməyərək, onun öz təməl xüsusiyyətlərindən köklü fərqlənməyən, lakin mövcud şəraitə uyğun gələn modeli tapmaqla fəaliyyət göstərirlər.

Heydər Əliyevin liderlik keyfiyyətləri funksional olaraq ümumi dövlət idarəetməsi səviyyəsində tam aydınlığı ilə onun siyasi fəliyyətinin əsas məqsədinə çevrilmişdir. Bu fəaliyyət qərarların işlənməsi, hazırlanması qəbul və realizə olunmasını nəzərdə tutan çoxsaylı hərəkətləri, bu prosesdə iştirak edən strukturların fəaliyyətinin koordinaiyasını nəzərdə tutan geniş, əhatəli və sistemli təşkilati-idarəetmə funksiyalarının həyata keçirilməsi ilə şərtlənmişdir. Yəni bu idarəetmə və təşkilatçılıqda hər şeyi nəzərə almaq və heç nəyi nəzərdən qaçırmamaq qabliyyəti deməkdir.

Ulu öndərin siyasi liderliyinin özünəməxsus, xarakterik xüsusiyyətlərindən başlıcası problemlərin bütün təzahürlərinin minimuma qədər aşağı endirilməsidir. Yəni iqtidarın fəaliyyət və mövqeyinin möhkəmləndirilməsi, stabilliyin saxlanılması, konfliktlərin minimallaşdırılması, siyasi diskussiyaların məcrasını aşmaması, hakimiyyət uğrunda rəqabətin gərginliyinin azaldılması və s. bu kimi məsələlərin daim diqqətdə saxlanılması ilə nəticədə Siyasi liderliyi mövcud idarəçilik sisteminin stabillik amilinə çevirməsini təmin etməkdir.

Kommunikativlik istedadına sahib olan dahi lider kimi Heydər Əliyev əhali ilə xüsusi əxlaqi-etik münasibətlərin subyekti olaraq siyasi liderlik funksiyanı da qüsursuz olaraq yerinə yetirirdi. Bununla da, o, cəmiyyətin nəzərində əhalinin huquq və azadlıqlarının təminatçısı kimi

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

hakimiyyətin məcmu fəaliyyətini təcəssüm etdirirdi.

Heydər Əliyev böyük şəxsiyyət olmaqla bərabər, dövrünün böyük siyasətçisi, alimi, dahi mütəfəkkiri, habelə böyük ədəbiyyat və mədəniyyət hamisi olmuşdur. O həm qədim, həm də müasir tariximizə dərindən və hərtərəfli bələd olan bir lider kimi, həm də iqtisadiyyatımızın tarixini, mədəniyyətimizin tarixini, milli köklərimizi və milli-mənəvi dəyərlərimizi dərindən bilirdi. Şübhəsiz ki, onun dövlətçilik fəaliyyətində bu cəhət özünü aydın hiss etdirirdi.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə uzaqgörən daxili və xarici siyasəti ilə ölkənin nüfuzunu artırmış, hərtərəfli inkişafına nail olmuş, müstəqilliyini əbədi və dönməz etmişdir. Kiçik bir ölkə Heydər Əliyevin uğurlu siyasəti sayəsində dünyada tanınan nüfuzlu bir dövlətə çevrilmişdi.

Liderlik keyfiyyətinin şərtlərindən biri də özündən sonra Lider ola biləcək layiqli varisini yetişdirməkdir. Hazırda Ulu öndər Heydər Əliyevin miras qoyduğu Liderlik missiyasını Heydər Əliyev siyasi mühitində böyümüş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev davam etdirir. İlham Əliyev hakimiyyətə gəldiyi ilk gündən bu missiyanı layiq olduğundan da yüksək səviyyədə yerinə yetirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 44 günlük Vətən müharibəsində və 23 saatlıq antiterror əməliyyatı zamanı özünün ağıllı və uzaqgörən siyasəti ilə Qarabağ həsrətini sonlandırdı. Xalqımızın ən ağrılı yeri olan Qarabağ həsrəti Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı, Azərbaycan ordusunun mərdliyi, əzmliliyi ilə Azərbaycana qələbə gətirdi. Prezidentimiz yeni reallıqlar yaradaraq düşməni "dəmir yumruq"la əzib məhv etdi. Bütün bunlar Ulu öndər Heydər Əliyevin daim arzusunda olduğu və bu gün gerçəkləşən amallarıdır (7).

1993-cü ildə xalqın təkid və tələbi ilə ölkəyə rəhbərliyə başlayan Heydər Əliyev siyasət aləmində çox güclü, səriştəli və təcrübəli müdrik dövlət xadimi kimi qısa bir müddət ərzində xarici siyasət sahəsində böyük dönüş yaratdı. Dünyanın aparıcı dövlətləri, inkişaf etmiş ölkələri, beynəlxalq təşkilatlar Azərbaycana ciddi diqqət yetirməyə başladılar. O, Qərbə inteqrasiya yolunu tutdu. Ən çətin anlarda belə Heydər Əliyev yenilməz siyasi iradə nümayiş etdirdi, milli dövlətçiliyin, milli mənafelərin ifadəçisi kimi antiazərbaycan, antimilli qüvvələrin qarşısında sipərə çevrildi. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişi məhz bu böyük insanın qətiyyətli mövqeyinin, uzaqgörənliyinin nəticəsi kimi reallığa çevrildi.

Lakin Heydər Əliyevin liderlik fəlsəfəsi təkcə onun müdrik ideyaları, dahi uzaqgörənliyi, müdrik siyasi gedişləri ilə məhdudlaşmır. Onun hələ hərtərəfli tədqiqatını gözləyən bütöv fəlsəfi sistemi vardır. Heydər Əliyevin çox müxtəlif sahələrə dair söylədiyi fikirlər əslində dərin qatlardakı vahid konsepsiyanın ayrı-ayrı təzahürləridir. Bu konsepsiya Azərbaycanın milli ideologiyasıdır, milli-fəlsəfi dünyagörüşüdür, Azərbaycan gerçəkliyini, onun ictimai-siyasi və mədəni-mənəvi həyatının bütün sahələrini əks etdirən mükəmməl elmi-nəzəri bir sistemdir.

Təsadüfi deyildir ki, onun atdığı addımlar, irəli sürdüyü problemlər, qəbul etdiyi qərarlar, söylədiyi fikirlər öz aktuallığı, düzgünlüyü hərtərəfliliyi və obyektivliyi ilə heyrətə səbəb olmuşdur. Hətta dünyanın ən görkəmli siyasət və dövlət xadimləri Heydər Əliyevlə

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

məsləhətləşdiklərini, ondan öyrəndiklərini dönə-dönə etiraf etmişlər. Siyasətçilər bu dahi insanı "LİDERLƏRİN LİDERİ" adlandırırdılar. Bu baxımdan tanınmış dünya liderləri və siyasətçilənin Ulu öndər haqqında söylədiklər bir neçə fikri xatırlatmaq istərdim:

"Heydər Əliyev təkcə Azərbaycanı, Amerikanı yox, bütün dünyanı idarə etməyi bacaran bir siyasi xadimdir" (Bill Klinton -ABŞ-ın keçmiş prezidenti).

"Mən Heydər Əliyevə böyük hörmət və ehtiram bəsləyirəm, onun siyasi fəaliyyətini və uzaqgörənliyini yüksək qiymətləndirirəm" (Butros-Butros Qali-BMT-nin keçmiş Baş katibi).

"Heydər Əliyevin çox müdrik təşkilatçılıq qabliyyəti var, ona görə də ölkədə hər şey maşın mexanizmi kimi işləyir" (Bənəzir Bhutto- Pakistanın keçmiş Baş naziri).

"Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınan və seçilən lider idi" (Rəcəb Tayyib Ərdoğan-Türkiyə Respublikasının Prezidenti).

"Mübaliğəsiz demək olar ki, Heydər Əliyev siyasət nəhəngi idi" (Vladimir Putin-Rusiya Federasiyasının Prezidenti).

"Azərbaycanın bəxti onda gətirib ki, bu ölkəyə Heydər Əliyev kimi böyük siyasi iradəyə, zəngin dövlətçilik təcrübəsinə malik, uzaqgörən və nüfuzlu dövlət xadimi rəhbərlik edir" (Jak Şirak-Fransanın keçmiş Prezidenti).

"Heydər Əliyev çətin bir şəraitdə ölkəsinə rəhbərlik edərək, onu azadlıq və siyasi-iqtisadi inkişaf yolu ilə aparmışdır" (Helmut Kol-Almaniyanın keçmiş federal kansleri).

"Heydər Əliyev zəmanəmizin görkəmli dövlət xadimidir" (Ryutaro Haşimito-Yaponiyanın keçmiş Baş naziri).

"Heydər Əliyev tarixi, hətta əfsanəvi şəxsiyyətdir" (Çingiz Aytmatov- görkəmli qırğız yazıçısı).

"Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyətdir - bir sözlə, şəksiz liderdir" (Zbiqnev Bjezinski-ABŞ siyasətçisi).

## ƏDƏBİYYAT

1. Heydər Əliyev. (1997). Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Bakı: Azərnəşr, 1997.
2. Xacə Nəsirəddin Tusi. Əxlaqi Nasiri. Bakı: ELM, 1989, 210 s.
3. Babaoğlu H. Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu. Bakı: 2009, 226 s.
4. Heydər Əliyev irsini araşdırma mərkəzi. Bakı-Brüssel (Azərbaycan-Avropa İttifaqı münasibətləri). Bakı: CBC Polygraphic Production, 2011, 76 s.
5. Hüseynova İ. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı: Çaşıoğlu, 2008.
6. "Azərbaycan" qəzeti, 12 dekabr 2019-cu il.
7. "Xalq qəzeti", 2011, 7.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

**EMİN ŞIXƏLİYEV**
*emin.amea@yahoo.com*
*Naxçıvan Dövlət Universiteti*

# HEYDƏR ƏLİYEV STRATEGİYASINDAN ZƏFƏRƏ UZANAN YOL: MÖVCUD VƏZİYYƏT VƏ CƏNUBİ QAFQAZDA YENİ GEOSİYASİ REALLIQLAR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" adlandırılması Ulu öndərin çoxşaxəli irsinin öyrənilməsi baxımından olduqca önəmlidir. Bu ilin "Heydər Əliyev İli" kimi keçirilməsi respublikamızda müstəqil dövlətçilik düşüncəsinin, azərbaycançılıq ideallarının, vətənpərvərlik tərbiyəsinin daha da möhkəmləndirilməsinə özünün sanballı töhfələrini verəcəkdir. Məlum olduğu kimi, Heydər Əliyev Azərbaycan dövlətçilik tarixinin tamamilə yeni bir mərhələsini yaratmış böyük siyasətçi və tarixi şəxsiyyət olmaqla yanaşı, eyni zamanda Azərbaycanın ümummilli ideologiyası kimi səciyyələndirilə biləcək azərbaycançılıq ideologiyasının da müəllifidir. Bu mənada "Heydər Əliyev İli"ndə Böyük Öndər Heydər Əliyevin miras qoyduğu bütün digər dəyərlərlə bərabər həyat və fəaliyyətinin bütün istiqamətlərinin öyrənilməsi və təbliğ edilməsi aktual olacaq. Bu məqalədə Heydər Əliyevin xarici siyasət fəaliyyətində Qarabağ probleminin nizamlanması məsələsi, ortaya çıxan maneələr, bütün maneələrə baxmayaraq, dahi öndərin uğurlu strategiyası, bu strategiyadan tarixi zəfərə uzanan yol, eyni zamanda Ulu öndərin siyasi kursunu uğurla davam etdirən, Azərbaycanın həyatında yeni səhifə açan, bölgədə yeni reallıqların yaranmasının əsasını qoyan, "ata vəsiyyəti"ni yerinə yetirən qalib ölkənin lideri İlham Əliyevin fəaliyyəti, Cənubi Qafqazda yeni geosiyasi reallıqlar araşdırılmışdır.

Qarabağ probleminin dinc vasitələrlə nizama salınması Ümummilli lider Heydər Əliyevin xarici siyasət fəaliyyətində başlıca yer tutmuşdur. Bu münaqişənin Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində tənzimlənməsi istiqamətində böyük öndərin misilsiz fəaliyyətinin görünən və görünməyən, bizə məlum olan və olmayan tərəflərini işıqlandırmaq, təhlil etmək üçün xüsusi bir tədqiqat məktəbinin yaradılmasına hələ də ehtiyac vardır. Müxtəlif dövlətlərin toqquşan maraqları arasında manevr edərək ölkənin işğal altında olan ərazilərinin anneksiyasının qarşısını almaq üçün yüksək iradə, əzmkarlıq və stabillik tələb olunurdu. Dağlıq Qarabağın hüquqi mənsubiyyətinin dəyişdirilərək, Ermənistana birləşdirilməsi prosesinin qarşısını almaq iqtidarında olan siyasi iradə və əzmkarlıq məhz yalnız Heydər Əliyev kimi liderə xas ola bilərdi.

1993-cü ilin yayında Azərbaycanda baş verən hakimiyyət dəyişikliyi onun xarici siyasət fəaliyyətinin də yeniləşməsinə və ölkənin strateji maraqları əsasında yenidən qurulmasına şərait yaratdı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilk növbədə Azərbaycan ətrafında formalaşmış son dərəcə gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq, ölkənin strateji maraqlarını əks etdirən yetkin xarici siyasət konsepsiyası hazırlamaq zərurəti ilə üzləşdi.

Azərbaycan dövlətinin strateji maraqlarını beynəlxalq güc mərkəzlərinin, region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

ilə uzlaşdırmaq üçün silsilə tədbirlər düşünülüb həyata keçirilməli, ölkənin mənafelərini qorumaq və reallaşdırmaq üçün hərtərəfli ölçülüb-biçilmiş addımlar atılmalı idi. Bu işin ən çətin tərəfi müxtəlif dövlətlərin bütövlükdə Qafqaz regionu və bilavasitə Azərbaycan Respublikası üzərində köklənmiş imperiya ambisiyaları, ərazi iddiaları, iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizəsinin reallıqlarını, onların kəsişən və toqquşan maraqlarını dəqiq müəyyənləşdirmək, çevik manevrlər və xüsusi faktiki gedişlərlə Azərbaycanın dövlətçilik mənafelərini maksimum qorumaq idi.

Heydər Əliyev Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsini birmənalı olaraq ölkənin xarici siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirdi. Münaqişənin aradan qaldırılması istiqamətində ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli və eləcə də çoxtərəfli görüşlərdə, beynəlxalq forumlarda, ATƏT-in zirvə toplantılarında, Minsk Qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə göstərdiyi ardıcıl səylər hər zaman Azərbaycan xalqının və dövlətinin maraqlarını hər şeydən uca tutması Heydər Əliyevin siyasətinin mühüm hissəsini təşkil edirdi.

Heydər Əliyevin təşəbbüsü ilə, onun qətiyyəti, əzmkarlığı və uzaqgörənliyi nəticəsində 1994-cü il may ayının 12-də Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında razılaşma imzalandı (19, s. 114-115). Həqiqətən də Ermənistanla Azərbaycan arasında davam edən qanlı müharibənin dayandırılması Heydər Əliyevin böyük siyasi nailiyyətlərindən biri kimi xarakterizə oluna bilər. Bu tarixdə bütün cəbhələrdə elan olunmuş atəşkəs minlərlə azərbaycanlı gəncin həyatını ölümün pəncəsindən xilas etdi. Əldə olunmuş atəşkəs rejimi dinc şəraitdə həm quruculuq işini sürətləndirmək, həm də minlərlə günahsız insanın qarşısını almaqla münaqişəni diplomatik yolla həll etmək üçün əlverişli şərait yaratdı (17, s. 118).

Atəşkəs rejiminin tətbiq edilməsi “Bişkek protokolu”nda öz əksini tapmışdır. Yenə də Heydər Əliyevin iradəsi ilə tərəflərə təqdim edilən “Bişkek protokolu”nda Azərbaycanın xeyrinə bir sıra düzəlişlər edildi. Belə ki, Rusiyanın nəzarəti altında hazırlanan protokolda Azərbaycanın işğal edilmiş əraziləri sadəcə “tutulmuş ərazilər” kimi ifadə olunurdu. Azərbaycan tərəfi buna qarşı çıxaraq protokolun 5-ci abzasında “Tutulmuş ərazilər” sözünün “İşğal olunmuş ərazilər”lə əvəzlənməsinə nail oldu (19, s.115). Düzdür, bu ifadələr yaxın mənalı sözlər olsa da, torpaqlarımızın məhz zorakılıqla işğal olunduğunu sübuta yetirmək üçün “işğal olunmuş ərazilər” ifadəsi sənəddə öz əksini tapmışdır (6, s.80). Azərbaycan diplomatiyasının qələbəsi kimi qiymətləndirilə biləcək bu addım diplomatik yazışmalarda Azərbaycan tərəfinin sözünün qüdrətinə dəlalət edirdi.

Heydər Əliyev münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində dinc vasitələrlə həll edilməsi üçün diplomatik gücə malik olmağı ən vacib şərt hesab edirdi. Eyni zamanda bu münaqişənin Rusiyanın inhisarından çıxarılmasını da vacib hesab edən Ulu öndərin gərgin əməyi nəticəsində 1994-cü il dekabrın 5-6-da ATƏM-in (bu sammitdən sonra ATƏT) Budapeştdə keçirilən zirvə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq səviyyədə müzakirə olundu. Budapeşt sammitinin birinci mərhələsində Heydər Əliyev Avropanın və dünyanın nüfuzlu dövlət xadimləri ilə görüşərək, Ermənistanın Azərbaycana qarşı təcavüzünün

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

mahiyyətini açıqlamış, ölkəmizin ərazi bütövlüyünü pozmaq hesabına Ermənistan dövlətinin xülyalarını beynəlxalq hüquq normalarına zidd siyasət saymışdır (17, s. 119).

Məlum olduğu kimi, problemin dinc vasitələrlə aradan qaldırılması məqsədi ilə 1992-ci ildə yaradılmış Minsk Qrupunun həmsədr institutu təsis edilmiş və Rusiya ilə bərabər Finlandiya da vasitəçi qismində münaqişənin tənzimlənməsi prosesinə cəlb edilmişdi. Heydər Əliyev diplomatik əzmkarlıq və siyasi iradə nümayiş etdirərək, Budapeşt zirvə toplantısında açıq bəyan etdi ki, Minsk Qrupuna bir sədrin rəhbərlik etməsi çətinlik yaradır. Bu baxımdan ona daha çox sədrin rəhbərlik etməsinə ehtiyac vardır (19, s. 115-116).

Beləliklə, məhz Azərbaycanın xarici siyasət konsepsiyasının banisi Heydər Əliyevin Budapeşt sammitindəki gərgin fəaliyyəti nəticəsində Dağlıq Qarabağ probleminin Rusiyanın müəyyən mənada inhisarından çıxarılması mümkün oldu. 1996-cı il dekabrın 2-3-də Lissabonda ATƏT dövlət və hökumət başçılarının zirvə toplantısı həm Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi baxımından, həm də Heydər Əliyevin diplomatik fəaliyyətinin qiymətləndirilməsi baxımından əhəmiyyətlidir. Lissabon sammitinin əhəmiyyəti həm də ondan ibarət idi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də daxil olmaqla, ümumilikdə Qafqazdakı vəziyyət yüksək səviyyədə geniş müzakirə olunmuşdur.

Lissabon sammitindən əvvəl Prezident Heydər Əliyev ATƏT-in üzvü olan dövlət başçılarına Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ATƏT prinsipləri, BMT nizamnaməsi və beynəlxalq hüququn qaydalarına uyğun həll prinsipləri haq-qında məktublar göndərmiş, cavab məktublarında isə üzv dövlətlərin rəhbərləri Azərbaycanın mövqeyini dəstəklədiklərini bildirmişdilər.

Ümumiyyətlə, Ulu öndər keçirilən hər bir rəsmi görüşdə və zirvə toplantılarında Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına heç vaxt yol verilməyəcəyini bəyan etmişdir. Yuxarıda da qeyd edildiyi kimi, Azərbaycan tərəfi konflik¬tin həllində “vasitəçilik inhisarı”nın bir dövlətin konkret halda Rusiyanın əlində cəmləşməsini məqbul hesab etmirdi. Ona görə də qarşıda ilk növbədə ATƏT-də həmsədrlik məsələsi dururdu. Birinci həmsədr Fransa təyin olunmuşdur, lakin Heydər Əliyev bu namizədin Azərbaycan tərəfi ilə razılaşdırılmadığını əsas götürərək, haqlı olaraq buna qarşı çıxmışdı. Respublikanın Xarici İşlər Nazirliyi təşəbbüs göstərərək, Azərbaycan tərəfi üçün ABŞ-ın dövlət katibinin birinci müavini Strob Talbotun namizədliyinə üstünlük verdiyini bildirmişdir. Ermənistan tərəfindən olduqca soyuq qarşılanan üç sədrlik ideyası məhz belə yarandı. Son nəticədə 1997-ci il fevralın 10-da üç həmsədrlik real fakta çevrildikdən sonra konfliktin həlli yolunda diplomatik cəhdlər və səylər yeni vüsət aldı (16, s. 87-88).

Beləliklə, Rusiya, ABŞ və Fransadan ibarət həmsədr dövlətlərin hər biri öz regional maraqlarını rəhbər tutaraq, konfliktin həllinə kömək edəcəklərini bildirdilər. Qarabağ münaqişəsinin həlli məsələsinin böyük dövlətlərin Qafqazda qlobal mənafelərinin ziddiyyətlər yaratdığı şəraitdə maraqlar sistemində önəmli yer tutması regionda diplomatik mübarizənin müəyyən mənada hərəkətverici qüvvəsi kimi çıxış etməyə başladı.

24 oktyabr 1992-ci ildə qəbul edilən 907 saylı qərarın ləğvi məsələsi də Heydər

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

Əliyevin xarici siyasətinin ən böyük qayğısına çevrilmişdi. Məlum olduğu kimi, 24 oktyabr 1992-ci ildə erməni lobbisinin də təsiri altında ABŞ Konqresi tərəfindən 907 saylı qərarla Azərbaycan guya Ermənistanı embarqoya məruz qoyması və hücum məqsədli güc istifadə etməsi ilə ittiham və bütün yardımlardan məhrum edilmişdi. Aparılan səylərə baxmayaraq, qəti bir nəticənin əldə edilməsi xeyli çətin idi. Lakin 2001-ci ilin aprel ayında Qarabağ probleminin həlli barəsində ABŞ-da gerçəkləşdirilən Ki-Uest görüşlərində Azərbaycan və ABŞ dövlət başçıları arasındakı danışıqlarda 907 saylı qərarın ləğvi ilə bağlı müzakirələr aparıldı. 11 sentyabr 2001-ci ildə ABŞ-da baş verən terror hadisəsindən sonra cərəyan edən hadisələr ABŞ administrasiyasına uzun müddətdən bəri adı çəkilən qərarla bağlı bəzi addımlar atmaq üçün fürsət yaratdı. "Beynəlxalq terrorizmə qarşı mübarizə" hərəkatını Azərbaycanın tam olaraq dəstəkləməsi ilə ABŞ terrorizmə qarşı əməliyyatlar çərçivəsində Azərbaycanla əməkdaşlıq edəcəyini bildirdi. Bu aspektdə Azərbaycana rəsmi kanallarla yardım edilməsi üçün 907 saylı qərarın ləğvi istiqamətində fəaliyyətlər aparıldı. Buş administrasiyası Konqresə məktubla müraciət edərək, bu qərarın ləğvi barəsində Prezidentə səlahiyyət verilməsini tələb etdi. 24 oktyabr 2001-ci ildə Senat, 14 noyabrda Konqresin iki qolu arasındakı Uzlaşma Komissiyası, 19 dekabrda isə Nümayəndələr Palatası ABŞ Prezidentinə səlahiyyət verilməsi ilə bağlı qərarı təsdiq etdi. Azərbaycan və ABŞ-ın dövlət başçıları arasında gerçəkləşən telefon danışıqlarında qəbul edilən qərarla bağlı məmnuniyyət və hər iki ölkənin sıx əməkdaşlıq içərisində ola biləcəkləri qeyd edildi (bu barədə ətraflı bax: 22, s. 207-211).

Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə, ölkənin beynəlxalq münasibətlər sistemində ciddi mövqe tutmasına, milli maraqlarının təmin olunmasına və ərazi bütövlüyünün bərpa edilməsinə hesablanmış Heydər Əliyev strategiyası günümüzdə onun davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Seçildiyi ilk günlərdən etibarən İlham Əliyev Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqların gedişində daim Azərbaycan xalqının mənafeyini üstün tutmuşdur. 2003-cü il dekabrın 5-də ATƏT-in Minsk Qrupu həmsədrlərinin regiona səfəri zamanı ölkə prezidenti İlham Əliyev həmsədrlər Y.Merzlyakov, R.Perinani və A.Jakalma bildirmişdi ki, ATƏT öz fəaliyyətini intensivləşdirməlidir (13, s. 15).

2004-cü il fevralın 4-də ATƏT-in PA sədrinin Dağlıq Qarabağ üzrə nümayəndəsi Qoran Lenmarkerin Azərbaycana səfəri zamanı dövlət başçısı İlham Əliyev, münaqişənin nizama salınması prosesində əsas vasitəçi olan ATƏT-in Minsk Qrupu ilə yanaşı, digər beynəlxalq qurumlar ATƏT PA, Avropa Şurası və Avropa İttifaqının da fəaliyyətinin gücləndirilməsinin böyük əhəmiyyətə malik olduğunu bildirmişdir.

2004-cü il martın 16-da ATƏT-in o zamankı sədri, Bolqarıstanın Xarici İşlər naziri Solomon Passi ilə görüşündə isə İlham Əliyev ATƏT-in Minsk Qrupunun fəaliyyətini kəskin tənqid etdi (13, s. 16). Məlum olduğu kimi, danışıqlar prosesinə ATƏT-n Minsk Qrupunun həmsədrləri olan Rusiya, ABŞ və Fransa nəzarət edirdi. Lakin münaqişənin həlli ilə bağlı onların hər birinin öz mövqeyi var idi ki, bu da danışıqlarda uğur əldə edilməsini çətinləşdirirdi.

Minsk Qrupunun həmsədr ölkələri istər əvvəllər, istərsə də günümüzdə qlobal

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

güc mərkəzlərini təmsil edirlər. Həmin ölkələr istənilən təcavüzkara təzyiq etmək üçün geosiyasi nüfuza malikdirlər. Məsələ burasındadır ki, problem böyük dövlətlərin münaqişəni həll etmək bacarıqlarında yox, onların siyasi iradələrində idi. Minsk Qrupunda Dağlıq Qarabağ münaqişəsinin həllinə ciddi marağın olmamasının nəticəsi idi ki, qurum öz öhdəliklərini yerinə yetirmirdi. Bu da münaqişənin sülh yolu ilə həlli prosesində Minsk Qrupunun fəaliyyətinə mane olurdu.

Siyasi tarixdə "güclü dövlət" və onun təmsil etdiyi "böyük siyasət" reallığı vardır. Məhz bu amili əsas götürərək qeyd etmək olar ki, tarixən dövlətlər arasında sülhü qorumağı rəhbər tutan nizam və prinsiplər geosiyasət qarşısında həmişə məğlubiyyətə düçar olublar. Tarixin müəyyən dövrlərində güclü dövlətlərin müəyyənləşdirdiyi böyük siyasətlərlə geosiyasi maraqlar hər dəfə ön planda tutulmuş, dünya güc mərkəzləri arasında bölüşdürülməyə çalışılmış, yeni sərhədlər cızılmışdır. Beynəlxalq münasibətləri tənzimləyən sistem olmadığına görə, maraqlar yenidən toqquşmuş, hər bir dövlət öz üstünlüyünü nümayiş etdirməyə çalışmışdır. Günümüzdə də vəziyyət əvvəlkindən heç də fərqli deyil, əksinə, daha şiddətli və daha təhlükəlidir.

Günümüzdə beynəlxalq münasibətlər tarixində ilk dəfə bütün dünya xalqlarının bərabərliyi, dövlətlərin daxili işlərinə müdaxilənin yolverilməzliyi, münaqişəli məsələlərin dinc yolla həll edilməsi və s. prinsiplərə əsaslanaraq yaradılan bir qurum kimi BMT fəaliyyət göstərsə də, Təhlükəsizlik Şurasının daimi üzvü olan dövlətlərin özləri belə dünyanın istənilən ölkəsinə bu təşkilatın icazəsi olmadan belə istədiyi miqdarda hərbi qüvvə göndərə və orada müharibə çıxarmaq iqtidarında olduğunu nümayiş etdirə bilirlər. Əlbəttə ki, böyük güclərin bu istiqamətdə atdıqları addımlar liberal dəyərlərə uyğun olmayıb, əksinə, ölkələrin daxili işlərinə qarışılıb, insan haqları və dövlətlərin ərazi bütövlüyü kobud surətdə pozulub. Dünyanın bir çox ölkəsində ajitasiyaların, oyunların, iğtişaşların və müharibələrin sonu görünmür. Eyni vəziyyəti Cənubi Qafqazda da müşahidə etmək mümkündür. Heç təsadüfi deyildir ki, Gürcüstanın ərazi bütövlüyü pozulmuş, Ermənistan ilə Azərbaycan arasında problemlər yaşanmışdır. Ermənistan kimi bir dövlət bilavasitə özünü liberal və demokratik adlandıran böyük dövlətlərin aktiv dəstəyi və iştirakı ilə özündən qat-qat güclü olan Azərbaycan torpaqlarının 20%-ni işğal etmişdi.

BMT Təhlükəsizlik Şurasının Ermənistanın işğal etdiyi torpaqlardan qeyd-şərtsiz çıxarılması ilə bağlı 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrə baxmayaraq, Ermənistanın bu qətnamələrin heç birinə məhəl qoymadığı da qeyd olunmalıdır. Bu, BMT-nin nüfuzuna xələl gətirən ən böyük amillərdən biri kimi xarakterizə oluna bilər. Şübhəsiz ki, bu işğalda Rusiyanın böyük rol oynadığı hər kəs tərəfindən bilinməkdədir. Bununla yanaşı, Gürcüstan və Ukraynanın ərazi bütövlüyünün pozulmasında da Rusiyanın geosiyasi maraqları xüsusilə qeyd olunmalıdır.

Ümumiyyətlə, dünya siyasətindəki real vəziyyəti təhlil edərkən belə bir məqam ortaya çıxır: hansısa davranış supergüclərin xeyrinə və ya zərərinədirsə, onun beynəlxalq hüquqa uyğun olub-olmaması arxa plana keçir və həmin güclər özlərinə sərf edən müvafiq addımı atırlar. Yəni böyük güclər özlərini "istisna faktor" kimi görürlər. Təbii ki, belə yanaşma

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

davam etdikcə, beynəlxalq ədalət və hüqudan, dünya nizamından bəhs etmək mümkün görünmür. Məsələ burasındadır ki, reallıqda dünya nizamını beynəlxalq hüquq və institutlar deyil, əsas geosiyasi oyunçuların güc potensiallarının nisbəti müəyyənləşdirir. Geosiyasi maraqlara uyğun olaraq, hazırlanan ssenarilər və ikili standartlar çərçivəsində belə bir nəticə hasil olur ki, BMT Təhlkəsizlik Şurası münaqişələrin həllindən özünü uzaqlaşdırıb. Təşkilat qəbul etdiyi qətnamələrin icra mexanizminə malik olmadığına görə, münaqişəli məsələlərdə onun aparıcı rol oynamasının da qarşısı kəsilir. Özü də bu, məhz həmin təşkilatda həlledici rol oynayan böyük dövlətlər tərəfindən edilir. Nəticədə, BMT-nin missiyasına şübhələr meydana gəlir, onun səmərəsiz təşkilat olması barədə əsaslı fikirlər yaranır. Həqiqətən də BMT TŞ-nin daimi üzvlərinin başı dünya liderliyi uğrunda amansız mübarizəyə qarışıb. Bir sıra hallarda bu rəqabət və yarış beynəlxalq hüququn bütün çərçivələrini aşaraq, əsl savaş məzmunu kəsb edir. ABŞ, Rusiya, Böyük Britaniya, Fransa və Çin beynəlxalq hüquqa əməl etməkdə başqalarına nümunə olmaq əvəzinə, özləri onu pozurlar.

Belə çıxır ki, dünyada elə bir beynəlxalq təşkilat mövcud deyildir ki, beynəlxalq hüquq normaları çərçivəsində supergüclərə təsir edə bilsin. Bu vəziyyətdə başda BMT olmaqla, beynəlxalq təşkilatların fəaliyyəti və mövcudiyyəti ilə bağlı haqlı olaraq fikir formalaşır: Beynəlxalq təşkilatlar böyük güclərə öz maraqlarını pərdələmək və törətdikləri cinayətləri ört-basdır etmək, imkan olanda ona hüquqi don geyindirmək üçün lazımdır.

Ümumiyyətlə, dünyada cərəyan edən hadisələr dərindən təhlil olunarsa, proseslərin qlobal güclərin birbaşa diqqəti və nəzarəti altında gerçəkləşdiyi ortaya çıxır. Dünyanın bir çox ölkəsində baş verən ajitasiyalar, iğtişaşlar, müharibələr və böhranlarla silahlanma və silah ticarəti arasında əslində böyük mütənasibliyin olduğu görünür. Cənubi Qafqaz da daxil, dünyanın bir çox qaynar bölgələrində baş verən hadisələrdə və bəzi dövlətlərarası qarşıdurmalarda ikili standartlar siyasəti müşahidə olunur. Bunların səbəbləri müxtəlif amillərlə izah edilsə də, Böyük Güclərin maraqlarından kənarda qalmadığı, əksinə, baş verənlərin bilavasitə bu güclərin maraqlarına xidmət etdiyi qeyd olunmalıdır. Əvvəla, iqtisadi böhran və müharibələrlə silahlanma arasında dərin bir uyğunluq vardır. Dünya təcrübəsində artıq sınaqdan çıxmış silahlanma metodu işə salınıb. Sadalanan faktorların yaşandığı ölkələr silah şirkətləri üçün əsas bazarlardır. Qeyd etmək lazımdır ki, əsas silah sənayesi və ixracatçıları isə məhz böyük güclərdir. İşin ən maraqlı və diqqət çəkən tərəfi isə bundan ibarətdir ki, silah satıcıları beynəlxalq miqyasda “sülh” tərəfdarı kimi çıxış edirlər. Hərbi xərclərin artması və silahlanma ehtiyacı geosiyasi ambisiyalarla və dünyada qaynar nöqtələrlə, eyni zamanda dondurulmuş münaqişələrlə şərtlənir. Yəni silahlanma tələbi rəqabət mühiti və müharibə riski ilə müəyyən olunur. Aydın məsələdir ki, qlobal miqyaslı silah ixracatçıları üçün bu riskin yüksək olması arzu ediləndir (12, s. 345).

Tarix göstərir ki, qlobal xarakterli iqtisadi böhranlar hər zaman hərbi xərclərin artmasına təkan vermişdir. Dünyanın bir çox bölgəsində baş verən hadisələrdə Böyük Güclər öz silah arsenalından kifayət qədər istifadə etmiş və etməkdədir. Bu isə silah istehsal edən şirkətlər üçün yeni sifarişlər deməkdir.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

Bundan başqa, rejim dəyişikliyi baş verən ölkələr də silah şirkətləri üçün əsas bazarlardır. Ölkələr arasında mövcud olan münaqişələrin dondurulmuş vəziyyətdə qalması da silah satıcıları üçün daimi bazar və gəlir mənbəyidir. Bu cür münaqişələrin uzanması əlbəttə ki, silah istehsal edən şirkətlərin maraqlarına uyğun gəlir.

Dünyanın bir çox ölkəsində olduğu kimi, Cənubi Qafqaz regionunda Qarabağ probleminin və Gürcüstandakı münaqişələrin də həll olunmasında qlobal güclər maraqlı olmayıb. Silah sənayesi ilə məşğul olan şirkətlərin öz ölkələrinin xarici siyasətinə təsir etmə imkanlarını nəzərə aldıqda isə maraqlı bir mənzərə yaranır. Bu şirkətlər böyük gücləri təmsil etdiyindən onların təsir dairəsi beynəlxalq orbiti əhatə edir. Yəni bu ölkələr dünyada baş verən bütün proseslərə təsir etmək imkanlarına sahibdirlər, eyni zamanda planetdəki bütün münaqişələrdə hər hansı formada söz sahibidirlər. Belə bir vəziyyətdə bu şirkətlərin dünyanın qaynar nöqtələrində maraqları təmin olunur. Bu baxımdan Cənubi Qafqazda sabitliyin bərpa olunması və regional təhlükəsizliyin qorunması dövlətlərin maraqları ilə uzlaşmır. Ermənistan isə bu missiyanı layiqincə yerinə yetirməkdə, Cənubi Qafqazda sabitliyi pozmaqda və regional təhlükəsizliyi təhdid etməkdədir. Ermənistan kimi bir dövlətin mövcud olması əlbəttə ki, geosiyasi həmlələrin edilməsi baxımından əldə tutulan əlverişli faktordur.

Yuxarıda da qeyd olunduğu kimi, təxminən 30 ilə yaxın idi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz siyasi, hüquqi həllini tapmır və ya buna mane olunurdu. Tərəflər anlaşa bilmədiklərinə görə, problemin həlli ATƏT-in Minsk Qrupuna həvalə edilmiş, lakin bu qurumun cəhdləri uğursuz alınmışdır. Bu qurumun ümumi və qeyri-müəyyən bəyanatlar verməsi, bir-birinə zidd olan fikirlər səsləndirməsi, digər bir ifadəylə, məkik diplomatiyasının iflasa uğraması Azərbaycanda haqlı olaraq ATƏT-in Minsk Qrupunun fəaliyyətinə inamsızlıq yaratdı. Çünki açıq idi ki, Minsk Qrupunun həmsədr ölkələri sırf münaqişənin gərginləşməsinin qarşısını almaq üçün regiona səfərlər ediblər. Beləliklə də onlar daha çox “münaqişənin həlli mexanizmləri”nin icrası ilə deyil, “münaqişənin idarə edilməsi” ilə məşğul olublar. Azərbaycan ictimaiyyətində də həmsədrlərin dəfələrlə regiona səfərləri haqlı olaraq “Turistik ekskursiya” kimi qiymətləndirilib. Həm beynəlxalq təşkilatların, həm ATƏT-in Minsk Qrubu üzvlərinin, həm də digər dövlətlərin yeritdikləri ikili standartlar siyasətinin nəticəsi idi ki, Ermənistan tərəfi problemin öz real həllinə yanaşmaq istəməmiş, üstəlik, atəşkəs rejimini də sıx-sıx pozmuşdur. Nəticədə, 2-5 aprel 2016-cı il tarixində baş vermiş müharibə Qarabağ münaqişəsinin əslində dondurulmuş olmadığını ortaya qoydu. Düzdür, müəyyən səbəblərdən dövlətlərin, xüsusilə də Rusiyanın müdaxilə etməsiylə vəziyyət əvvəlki məcrasına qayıtdı. Lakin Ermənistan vəziyyətin həmişə bu cür davam edəcəyini hesablayaraq, növbəti dəfə təxribatlara əl atmaqda davam etdi. Heç təsadüfi deyildir ki, Ermənistan yenə də havadarlarından ilham alaraq 2020-ci ilin iyul ayında da növbəti təxribata əl atdı. Əlbəttə, bunun müəyyən səbəbləri var idi:

Əvvəla, Ermənistanın Tovuz istiqamətində sərhəddə təxribat törətməkdə əsas məqsədi ilk olaraq Baş nazir N.Paşinyanın təmas xəttindən diqqəti yayındırmağa çalışması olmuşdur.

İkincisi, həmin ərazilərdən

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

Azərbaycanın beynəlxalq layihələri olan Bakı-Tiflis-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tiflis-Ərzurum-Qars, Bakı-Tiflis-Qars və Böyük İpək yolu keçir. Ermənistan yüksəklikləri ələ keçirib öz istəyinə nail olmaq məqsədində idi.

Üçüncüsü, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvlərinin diqqətini tamamilə fərqli istiqamətə yönəltmək istəyirdi, amma bunların heç biri alınmadı.

Bu hücumların Rusiya və Fransa tərəfindən təhrik edildiyinə dair iddialar mövcuddur (18; 21). Amma bunu da nəzərdən qaçırmaq olmaz ki, Paşinyan hökuməti mütləq şəkildə böyük dövlətlərin dəstəyini hesaba qataraq və buna inanaraq "yeni müharibə və yeni torpaqlar" şüarından yola çıxmış və belə bir hücum reallaşdırmışdır. Daim böyük dövlətlər tərəfindən dəstəklənəcəyini ümid edən Ermənistan təmas xəttini pozmağa davam edir, psixoloji baxımdan Azərbaycana zərbə vurmağa çalışır və qıcıqlandırma metodlarından istifadə edirdi. Ermənistanın Baş naziri Nikol Paşinyanın "Qarabağ Ermənistandır. Nöqtə" kimi özündən razı və beynəlxalq hüquqa zidd olan daha sərt bəyanatlar səsləndirməsi və yeni bir macəra həvəsiylə atdığı yanlış addımlar yeni müharibənin xəbərçisinə çevrildi. Halbuki Paşinyana qədərki Ermənistanın dövlət başçıları və rəsmiləri həmişə münaqişənin əsas tərəfləri kimi Azərbaycan və Dağlıq Qarabağ olaraq dünyaya çatdırmaq istəyir və müharibənin Azərbaycanla Dağlıq Qarabağ arasında olduğunu irəli sürürdülər. Onlar guya Ermənistan tərəfinin danışıqlar prosesində konstruktiv olmaq istədiklərini bildirir, hətta dünya birliyinə Dağlıq Qarabağ ermənilərinin öz milli müqəddəratını təyin etməsini istədiklərini, heç bir ərazi iddialarının olmadığı kimi təqdim edirdilər. Lakin Baş nazir Nikol Paşinyanın "Qarabağ Ermənistandır. Nöqtə" bəyanatı, belə demək mümkündürsə, Ermənistanın Qarabağ münaqişəsi ilə bağlı etiraf xarakterli işğalçı siyasətini ortaya qoydu. Ermənistan artıq bütün dünyaya özünün necə bir dövlət olduğunu tanıtdı.

27 sentyabr 2020-ci il tarixində Ermənistan tərəfindən atəşkəsin pozularaq Azərbaycan torpaqlarına gerçəkləşdirdiyi hücum "ani müharibə"nin başlanmasının işarəsi oldu. Qeyd etmək lazımdır ki, Azərbaycanda həm rəsmi səviyyədə, həm də xalqda artan torpaqların qaytarılması arzusu da bu işarənin xəbərçisi idi. Nəticədə Azərbaycan tərəfi əks-hücum gerçəkləşdirərək işğal altındakı mühüm yerləri, tarixi torpaqları, strateji əraziləri və yüksəklikləri ələ keçirdi. Müharibədə Rusiya və Qərb dövlətlərinin, beynəlxalq təşkilatların müharibənin dayandırılması və dərhal müzakirələrə başlanmasının vacib olduğunun bildirilməsinə baxmayaraq, Türkiyə, Pakistan, Şimali Kipr, Ukrayna, İsrail və s. dövlətlər hər zaman Azərbaycanın yanında olduqlarını göstərdilər.

"Qarabağ Ermənistandır!" deyən, Şuşada yallı oynayıb andiçmə mərasimlərində iştirak edən, işğal altındakı torpaqlarda məskunlaşma aparan və oraya terrorist qruplar yerləşdirən, danışıqlarda əldə olunmuş razılıqları alt-üst edən Nikol Paşinyanın məzlum vəziyyətə düşərək dünya liderlərindən imdad dilədiyini bütün dünya gördü. Bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, Ermənistan düşdüyü vəziyyət qarşısında ənənəvi psixologiyasından çıxış edərək, Azərbaycanda guya Suriyadan gətirilən muzdlu döyüşçülərin, xüsusilə cihadçı qrupların olması ilə bağlı saxta məlumatlar yaydılar. Əsas məqsəd

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

dünyanın xristian ölkələrinin, xüsusilə də böyük güclərin diqqətini özünə çəkmək və xristian dövlətlərin Azərbaycana qarşı səlib yürüşlərini formalaşdırmaq idi. Heç təsadüi deyildir ki, Fransa Prezidenti Emmanuel Makron “Dağlıq Qarabağda suriyalı cihadçılar məsələsi ‘oyunu dəyişdirən’ çox ciddi reallıqdır” deyərək, şantaj mahiyyətli bu məsələnin Avropa Şurasının müzakirəsinə çıxarılmasının vacibliyi ilə bağlı ənənəvi ermənipərəst mövqeyini ortaya qoydu (11). Halbuki İraq, Suriya və Livandan PKK və digər terrorçuların Ermənistana gətirilməsi və daha sonra Ermənistan tərəfindən işğal olunmuş Qarabağdakı Azərbaycan torpaqlarına yerləşdirilməsi, eyni zamanda muzdlu döyüşçülərin bölgədəki fəaliyyəti barədə kifayət qədər məlumatlar mövcud idi (9; 14). Ancaq Fransa və onun kimi düşünən dövlətlər və dövlət rəsmiləri nədənsə Ermənistanın özünün terrorist təşkilatlarla sıx əlaqə içərisində olduğunu görməzdən gəldilər. Bu məsələdə ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi Fransanın tərəfsiz mövqe nümayiş etdirməli olduğu xüsusilə qeyd edilməlidir.

Bundan başqa, Ermənistan Türkiyə Silahlı Qüvvələrinin də müharibədə iştirakını yalandan qabardaraq saxta xəbərləri dünyanın ayrı-ayrı ölkələrinin media resurslarında tirajladı. Lakin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çox tutarlı cavablar və arqumentlərlə həm cihadçılar məsələsi ilə bağlı, həm də Türkiyə Silahlı Qüvvələrinin müharibədə iştirakı ilə bağlı çox sayda ölkələrin dövlət telekanallarına da Ermənistan tərəfinin bütün yalanlarını ifşa etdi və bu kimi iddiaları ortaya atanları da ciddi şəkildə tənqid etdi.

Bütün bunlarla yanaşı, olduqca vacib bir məqama da diqqət çəkməyi məqsədəuyğun hesab edirik ki, bu da atəşkəslə bağlı məsələdir. 26 illik atəşkəs anlaşmasından sonra siyasi konyunkturanın yaranması ilə Azərbaycanın Ermənistanın işğalı altında olan torpaqlarında irəliləməsi və nəzarəti ələ keçirdiyi bir zamanda regionda kilid önəmə sahib olan Rusiyanın mövqeyinin necə olacağı hər kəs tərəfindən düşündürücü idi. Heç təsadüfi deyildir ki, müəyyən vaxtlarda cərəyan edən toqquşmalarda və ya qısamüddətli müharibələrdə bir tərəfin üstünlüyü Rusiyanın ümumi siyasətinin xaricinə çıxmazsa, rəsmi Moskva bu cür toqquşmaya müvəqqəti olaraq səssiz qala bilir və ya öz varlığının əhəmiyyətini hiss etdirmək istəyərsə, buna icazə verirdi (1). 2016-cı ilin aprel ayında gerçəkləşən “Dördgünlük müharibə”də də bunu göstərdi. 27 sentyabrda başlayan şiddətli müharibənin 13-cü günündə isə Rusiya təkrar müdaxilə etməyə çalışaraq, Ermənistan və Azərbaycanın Xarici İşlər nazirlərini Moskvaya dəvət etdi və tərəfləri atəşkəs barəsində uzlaşdırdı. Oktyabrın 10-da humanitar məqsədlərlə hərbi əsirlər, digər saxlanılan şəxslər və ölənlərin meyitlərinin dəyişdirilməsi ilə bağlı humanitar atəşkəs elan olundu (4). Cənubi Qafqazı öz “arxa baxça”sı olaraq dəyərləndirən Rusiya baxımından atəşkəsin təmin edilməsi olduqca vacib idi. Öz nüfuzunu ortaya qoyması və müharibədə kilid önəmə sahib olduğunu bir daha dünyaya göstərməsi lazım gəlirdi. Lakin atəşkəsin müvəqqəti xarakter daşıdığı onsuz da bəlli idi. Toplantının ardından 24 saat (və ya daha az) belə keçmədən Gəncə, Mingəçevir, Bərdə, Goranboy, Tərtər və s. şəhər, rayon və kəndlərə Ermənistan ərazisindən raketlər atıldı. Xüsusilə mülki əhalinin hədəf alındığı, çox sayda insanın öldüyü və yaralandığı ikinci böyük şəhər

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

olan Gəncənin vurulması həm erməni terrorunun yeni bir təzahürü oldu, həm də Rusiyanın xarizmasını cızma məqsədli bir akt olduğunu ortaya qoydu. Bu hal Ermənistanın sivillərə terror cinayətləri törədəcək qədər zavallı bir vəziyyətə düşməsi şəklində də xarakterizə oluna bilər.

Atəşkəsin pozulması məsələsi Ermənistanın amerikanpərəst mövqeyini ortaya qoydu. Heç təsadüfi deyildir ki, Rusiyanın müttəfiqi olan Ermənistan rəsmi Moskvanın rəqiblərinin dəstəklədiyi bir sima olan Qərb və Soros tərəfindən dəstəklənən Nikol Paşinyan tərəfindən idarə olunsa da, Rusiyanın Qafqazdakı ən önəmli müttəfiqi olan Ermənistandan əl çəkməsi də mümkün görünmürdü. Sadəcə olaraq Paşinyanın iqtidardan uzaqlaşdırılması planlaşdırılırdı.

Azərbaycan da 1990-cı illərdəki vəziyyətdə deyil, olduqca güclü bir orduya və silahlara sahib idi. Eyni zamanda Qarabağ müharibəsi Xarici İşlər nazirləri çərçivəsində həll oluna biləcək bir problem olmayıb, daha geniş mahiyyətli bir məsələ idi. Zatən Azərbaycan Ermənistanın atəşkəsi pozacağını hesab edərək masaya əyləşdi. Bu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də ifadəsi ilə desək, Azərbaycan tərəfindən Ermənistana verilən şans idi. Lakin buna baxmayaraq, Ermənistan atəşkəsi pozaraq sivillərə hücum etdi və danışıqlar yolu ilə işğal etdiyi torpaqları geri qaytarmayacağını göstərmiş oldu. ATƏT-in Minsk Qrupunun müdaxilə etməsi, xüsusilə də Fransanın vasitəçiliyi ilə tərəflər arasında 18 oktyabrda bir daha müvəqqəti atəşkəs elan edildi, lakin üstündən 2 dəqiqə belə keçmədən Ermənistan ordusu tərəfindən pozuldu (5). Gərginliyin artmasından sonra bu dəfə ABŞ-ın dövlət katibi Mayk Pompeo da hər iki ölkənin Xarici İşlər nazirlərini öz ölkəsinə dəvət etdi və 23 oktyabrda nazirlərlə ayrı-ayrılıqda görüş keçirdi (20). Əlbəttə ki, ABŞ-ın da məsələyə müdaxilə edəcəyi əslində gözlənilən bir vəziyyət idi. Lakin bu görüşmədən sonra 26 oktyabrda üçüncü dəfə atəşkəsin elan edilməsindən sonra üstündən 5 dəqiqə keçmədən Ermənistan tərəfindən bir daha pozuldu (8). Döyüş meydanında Azərbaycan Ordusu qarşısında müqavimət göstərə bilməyən Ermənistan yenə də mülki əhalini hədəf seçdi. Oktyabrın 28-də Ermənistan silahlı qüvvələrinin Bərdədə dinc əhaliyə qarşı "Smerç" tipli yaylım atəşli reaktiv sistemləri ilə raket zərbələri nəticəsində 21 nəfər həlak oldu, 70-dən çox mülki vətəndaş ağır yaralandı. Atəşkəsi dəfələrlə pozmasına baxmayaraq, ballistik raketlərlə sivillərə hücum edən, aralarında uşaqların da olduğu çox sayda insanları qətlə yetirən Ermənistanın törətdiyi cinayətlər ATƏT-in Minsk Qrupunun həmsədrləri, aparıcı dövlətlər və nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən qınanmadı. Heç təsadüfi deyildir ki, münaqişənin həll olunmamış olaraq qalmasında ən böyük məsuliyyət məhz Minsk Qrupunun həmsədrlərinin üzərinə düşürdü. Vasitəçilərin işğalçı dövlət ilə işğala məruz qalan dövlət arasında ədalətli seçim etməmələri və işğalçı dövləti dəstəkləyən addımları Ermənistanın təcavüzkar siyasətinin daha da şiddətlənməsi ilə nəticələndi. Ermənistanda iqtidara gələn hökumətlərin hansı meyilli olmaları (istər anti-Rusiya, istərsə də antiqərb) və yeritdikləri siyasətə baxmayaraq, ATƏT-in Minsk Qrupunun həmsədrləri olan Rusiya, Fransa və ABŞ-ın Ermənistandan vaz keçmələrindən söhbət gedə bilməzdi. Bu dövlətlərin fərqli coğrafi məkanlarda maraqları toqquşa bilər, lakin erməni məsələsi və türk düşmənçiliyi onları

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

birləşdirən əsas amildir. Heç təsadüfi deyildir ki, hər üç vasitəçi dövlət bu məsələdə öz real münasibətlərini 19 oktyabr 2020-ci il tarixli BMT TŞ-nın münaqişə ilə bağlı gerçəkləşdirilən qapalı iclasında nümayiş etdirdi. Bu iclasdan sonra ATƏT-in Minsk qrupunun həmsədr ölkələri olan Rusiya və Fransa tərəfindən bəyanatın layihəsi hazırlandı və razılaşdırılması üçün üzv ölkələr arasında yayıldı, lakin bəyanat layihəsində Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinə istinad öz əksini tapmadı. Bu bəyanat beynəlxalq hüququn ən önəmli sütunlarından olan ərazi bütövlüyü prinsipinin və BMT TŞ-nın qərarlarının heçə sayılması mənasına gəlir. Əsl məqsəd 822, 853, 874 ve 884 saylı qərarları tarixə gömməklə unutdurmaq, Ermənistan lehinə yeni qərarlar qəbul etmək və Azərbaycanın işğal altında olan torpaqlarını qurtarmaq təşəbbüsünə mane olmaq idi. Lakin Təhlükəsizlik Şurasında təmsil olunan Qoşulmama Hərəkatına üzv olan 7 dövlət – İndoneziya, Niger, Vyetnam, Tunis, Cənubi Afrika,

Dominikan Respublikası, Sent Vinsent və Qrenadin – layihəyə Təhlükəsizlik Şurasının məlum qətnamələrinə istinadın daxil edilməsininin vacibliyini təklif etdilər. Həmsədr ölkələr bunun qəbul edilməz olduğunu bildirsələr də, Qoşulmama Hərəkatına üzv olan dövlətlərin təkidli və prinsipial mövqeyi nəticəsində bu bəyanat geri götürüldü (7).

Göründüyü kimi, BMT TŞ daimi üzvlərinin sabit qalması bu qurumun yalnız siyasi maraqlara xidmət etdiyini, beynəlxalq hüququn icraçısı deyil, pozucusu olduğunu göstərir. Həmsədr ölkələr tərəfsizliyi bir tərəfə ataraq, əvvəllər olduğu kimi, yenidən tərəf tutmağa davam etdilər və Ermənistanı açıq şəkildə dəstəklədilər. Qoşulmama Hərəkatına üzv olan dövlətlər isə beynəlxalq hüququ dəstəkləyərək hərəkatın prinsip və dəyərlərinə sadiq qaldıqlarını bütün dünyaya nümayiş etdirdilər. Bu, eyni zamanda Qoşulmama Hərəkatının beynəlxalq münasibətlər sistemində ciddi bir faktor olduğunun da bariz nümunəsidir.

Azərbaycan müharibədə və diplomatiyada sonuna qədər öz haqlı mübarizəsinə davam etdi və ortaya çıxan fürsətləri öz lehinə çevirməyə çalışdı. Bu yolda uğurlu addımlar da atıldı. Prezident İlham Əliyevin tələbi istiqamətində müəyyənləşdirilən təqvim çərçivəsində Ermənistan 10 noyabr tarixinə qədər işğal etdiyi torpaqlardan çıxmamaqda müqavimət göstərdi və hər dəfə ağır itkilərə məruz qaldı. Noyabrın 8-də isə 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Şuşa azad edildikdən dərhal sonra noyabrın 9-da Prezident İlham Əliyev 71 kəndin, bir qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad edildiyi barədə ölkə ictimaiyyətini məlumatlandırdı. Şuşanın işğaldan azad edilməsi Ermənistanı tamamilə tərk-silah etdi, onun bütün manevr imkanları çökdü, ölkə və dünya ictimaiyyətini aldatmaq taktikası mənasını itirdi. Ermənistanın kapitulyasiya etməkdən başqa çıxış yolu qalmadı. Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın Baş naziri birgə bəyanat imzaladılar. Ermənistan 2020-ci ilin noyabr ayından dekabrın 1-nə qədər mərhələli şəkildə Azərbaycanın işğal altında olan Ağdam, Kəlbəcər və Laçın rayonlarından qoşunlarını çıxaracağı barədə öhdəlik götürdü. Bəyanatda Rusiya Silahlı Qüvvələri sülhməramlı statusda məhdud kontingentlə əraziyə yerləşdirilməsi nəzərdə tutulurdu. Anlaşmadan

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

sonra Rusiya silahlı qüvvələri sülhməramlı statusda Qarabağa yerləşdirildi. Əlbəttə ki, hadisələrin bundan sonra necə inkişaf edəcəyini "zaman" özü göstərəcək. Lakin Azərbaycan qəti şəkildə sülhməramlılarının müddətinin 2025-ci ildə başa çatacağını hər fürsətdə bəyan edir.

Qeyd etmək lazımdır ki, Türkiyə hərbi əməliyyatların başlandığı ilk günlərdən etibarən Azərbaycanı haqlı müharibəsində dəstəkləmiş, ona siyasi, diplomatik və mənəvi dəstək vermişdir. 44 günlük Vətən Müharibəsi nəticəsində Azərbaycan Ermənistanı ağır kapitulyasiyaya məcbur edərək Cənubi Qafqaz regionunda yeni geosiyasi reallıqlar formalaşdırdı. Artıq regionun siyasi mənzərəsi dəyişir, Yeni Dünya Nizamının qurulması kontekstində bölgədə təsir gücü ola biləcək çox aktual və maraqlı məqamlar müşahidə olunur, Cənubi Qafqazın geosiyasi mənzərəsinə əməkdaşlıq və təhlükəsizlik aspektlərində yeni ruh verilir. Məhz bu baxımdan Türkiyə ilə Azərbaycan arasında dünyada heç bir dövlətdə rast gəlinməyən qardaşlıq, sıx əməkdaşlıq və yaxınlığın nəticəsi olaraq ortaya çıxan, yeni müttəfiqlik formatına yol açan tarixi sənəd kimi imzalanan Şuşa Bəyannaməsi də həmin aktual məqamlardan biridir. Bu bir həqiqətdir ki, Azərbaycanla Türkiyə arasındakı münasibətlərin dünyada analoqu yoxdur. Siyasi liderlər dəfələrlə bu faktı təsdiq ediblər. İkinci Qarabağ müharibəsindən sonra iki qardaş ölkənin münasibətlərinin inkişaf xarakteri və dinamikası göstərir ki, yeni tarixi şəraitdə onlar daha dərin və əhatəli əlaqələr səviyyəsinə keçməkdə qətiyyətlidirlər. Bu baxımdan Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının və birliyinin yeni təsdiqi sayılan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi hər iki ölkə ilə yanaşı, region və dünya üçün də son dərəcə böyük əhəmiyyət kəsb edir.

Türk tarixinə ən əlamətdar gün kimi düşən 15 iyun 2021-ci il tarixində Şuşa şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında bəyannamənin imzalanması heç də təsadüfi deyildir. "Şuşa Bəyannaməsi"ndə müştərək maraqlara əsaslanan regional və beynəlxalq strateji mövzulardakı fəaliyyətlərin qarşılıqlı koordinasiyasının vacibliyi vurğulanmış, tərəflərin bütün önəmli məsələlərdə beynəlxalq və regional təşkilatlar çərçivəsində müxtəlif platformlarda bir-birilərini tam dəstəkləyəcəklərinə dair niyyət bəyanı ilə bir millət iki dövlət ruhu həmin tarixi sənəddə öz əksini tapmışdır. Bu bəyannamənin əsas mahiyyəti ondan ibarətdir ki, Türkiyə və Azərbaycan öz aralarında ilk dəfə olaraq adında "müttəfiqlik" ifadəsinin olduğu bir sənəd imzalayıblar. Vaxtilə imzalanan anlaşmalar və atılan addımlarla strateji ortaqlıq səviyyəsinə yüksələn əlaqələr Şuşa bəyannaməsi ilə bu dəfə müttəfiqlik səviyyəsinə qalxmış oldu. Qeyd edilməsi son dərəcə vacib olan məsələ budur ki, müttəfiqliyin dar çərçivədə xarakterizə olunmayıb, daha geniş mənada bütün regionu əhatə etməsi, xüsusilə türk dünyası ifadəsinin vurğulanması bu bəyannamənin gələcəyə işıq tutan olduqca strateji bir sənəd olduğunu ortaya qoyur (2; 3).

Heç təsadüfi deyildir ki, Şuşa Bəyannaməsi tarixi sənəd kimi rəsmi surətdə 1 fevral 2022-ci ildə Azərbaycan Respublikasının Milli Məclisində, fevralın 3-də isə Türkiyə Böyük Millət Məclisində ratifikasiya edildi.

Bu bəyannamə şübhəsiz ki, iki ölkənin bugünkü və gələcək vəziyyətinə ciddi töhfələr verəcəkdir. Dünyada gedən proseslər Azərbaycan və Türkiyənin daha

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

yaxın, rəsmi surətdə müttəfiq olmasını zəruri edir. Çünki böyük təşkilatlar, qurumlar ölkələrin suverenliyinin qorunmasında, insanların hüquqlarının təmin olunmasında səmərəli addım atmırlar. Çox vaxt da ikili standartlara əsaslanan siyasət yürüdərək öz mənfəətlərinə uyğun hərəkət edirlər. Bu da həmin təşkilatların öz prinsiplərini pozması anlamına gəlir. Buna görə də Azərbaycan və Türkiyə təhlükəsizliyini, suverenliyini təmin etmək üçün öz aralarında yeni formatlar yaratmağa başlayıblar. Məsələn, türkdilli ölkələr Türk Dövlətləri Təşkilatı ətrafında birləşərək bu ittifaqı daha səmərəli etməyə çalışırlar.

Bu bəyannamənin təsdiq olunması ilə bundan sonra iki qardaş ölkə aktual xarakter kəsb edən, beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək yaxın və ya üst-üstə düşən mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığı daha da dərinləşdirəcəklər. Tərəflər BMT, ATƏT, Avropa Şurası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı da daxil olmaqla, bundan sonra da beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərəcəklər.

Bəyannamənin ən diqqətçəkən məqamı da odur ki, tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq olaraq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın qədəri və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək, birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaq (10).

Bundan başqa, Azərbaycanın Türkiyə ilə yanaşı, Pakistanla da strateji əməkdaşlığı var. Heç təsadüfi deyildir ki, 27 iyul 2021-ci il tarixdə hər üç dövlət arasında imzalanan "Bakı Bəyannaməsi" tərəf ölkələrinin hər birinin "milli təhlükəsizlik" maraqlarına uyğundur və burada söhbət təkcə bir ölkənin ərazi bütövlüyündən getmir. Bu bəyannamə hər üç dövlətin gələcəkdə də həm parlament, qanunvericilik səviyyəsində, diplomatik münasibətlərdə, həm də ölkələrin iqtisadiyyatının inkişafında, əhalinin yaşayış tərzinin yaxşılaşdırılmasında imkanların birləşdirməsini və strateji tərəfdaşlığın daha da sürətlə inkişaf etdirilməsini nəzərdə tutur. Bu, eyni zamanda işğalçı dövlətlərə qarşı regional sülhün qorunmasını özündə ehtiva edən mesaj xarakteri daşıyır.

Beləliklə, aparılan araşdırmalar və müqayisəli təhlillər onu deməyə əsas verir ki, Azərbaycan tərəfi Ermənistan qarşısında güc və qətiyyət nümayiş etdirərək özünün "dəmir yumruq" əməliyyatını reallaşdırıb bu dövləti ağır məğlubiyyətə uğratdı. 44 günlük Vətən müharibəsindən ötən 3 il ərzində Azərbaycanın mövqeyi daha da möhkəmləndi. 2023-cü ilin sentyabrın 19-da isə həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycan öz suverenliyini tam təmin etdi. Cəmi 24 saatdan da az müddətdə həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış erməni silahlı birləşmələri təslim olaraq bütün şərtləri qəbul etdilər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Xocalıda, Xocavənddə, Ağdərədə, Xankəndi şəhərində Azərbaycan bayrağını ucaltması həm imperialist dairələrin yüz illər boyunca ölçüb-biçərək addım-addım həyata keçirdiyi planlarını, həm də erməni mifini birdəfəlik iflasa uğratdı. Bununla rəsmi Bakı bütün suveren əraziləri üzərində öz hakimiyyətini de-fakto və de-yure bərpa etdiyini, Azərbaycan ərazilərində separatizmin perspektivinin olmadığını bütün dünyaya nümayiş etdirdi. Nəticə etibarilə, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə, ölkənin beynəlxalq münasibətlər sistemində ciddi mövqe tutmasına, milli maraqlarının təmin olunmasına və ərazi bütövlüyünün bərpa edilməsinə hesablanmış Heydər Əliyev strategiyası günümüzdə onun davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

## ƏDƏBİYYAT


1. Aslanlı A. Karabağ'da hiç kesilmeyen ateş ve Rusya. http:// aljazeera. com. tr/gorus/karabagda-hic-kesilmeyen-ates-ve-rusya).
2. Aslanlı A. "Moskva görüşünün nəticəsi: rahatlıq da var, narahatlıq da". https://ayna.az/news/23152
3. Azərbaycan və Türkiyə Prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər. https://president.az/az/articles/view/52116.
4. Azərbaycan, Rusiya və Ermənistanın XİN başçıları bəyanat qəbul ediblər. https://report.az/dagliq-qarabag-munaqishesi/azerbaycan-ve-ermenistan-xin-bascilarinin-uctrefli-gorusu-basa-catdi/
5. Azərbaycan və Ermənistan humanitar atəşkəs barədə razılığa gəldi. https://modern.az/az/news/260857
6. Cəfərov V. Diplomatik yazışma. Bakı: Elm, 1997, 106 s.
7. Əhmədov E. Azərbaycanın diplomatik, hərbi uğurları və böyük güclərin ermənipərəst siyasəti. http://newtimes.az/az/organisations/6883/
8. Ermənistan-Azərbaycan arasında daimi atəşkəs yalnız BMT qətnamələrinin şərtləri daxilində mümkündür. https://fed.az/az/qarabag/turkiye-xin-ermenistan-azerbaycan-arasinda-daimi-ateskes-yalniz-bmt-qetnamelerinin-sertleri-daxilinde-mumkundur-91600
9. Ermenistan PKK'lı teröristleri Azerbaycan cephe hattında kullanıyor.
10. https://www.trthaber.com/haber/dunya/ermenistan-pkkli-teroristleri-azerbaycan-cephe-hattinda-kullaniyor-518306.html
11. Əliyev A. Şuşa Bəyannaməsi-müttəfiqliyimizi rəsmiləşdirən tarixi sənəd. Xalq qəzeti, 2021, 3 fevral.
12. Fransa Cumhurbaşkanı Macron: cihatçılar Gaziantep üzerinden Karabağ'a gitti, elimizde kanıtlar var. https://tr.euronews.com/2020/10/01/fransa-cumhurbaskan-macron-cihatc-lar-gaziantep-uzerinden-karabag-a-gitti-elimizde-kan-tla
13. Həbibbəyli Ə. Yeni çağırışların işığında. Bakı: Elm və təhsil, 2014, 352 s.
14. Həsənov Rauf. Ermənistan Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində İlham Əliyevin fəaliyyəti // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2009, №3, s. 15-20.
15. Gazeta.ru: Зачем Ереван затеял интриги на Ближнем Востоке, начав игру "не своей лиге"?

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

https://1news.az/news/gazeta-ru-zachem-erevan-zateyal-intrigi-na-blizhnem-vostoke-nachav-igru-ne-v-svoey-lige
16. İlham Əliyev xalqa müraciət edib. https://president.az/articles/45924
17. İsmayılov F. Qarabağ konflikti ABŞ-ın qlobal siyasəti kontekstində. Bakı: Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı, 2001, 152 s.
18. İsmayılov F., Həsənov S. Məqsədyönlü diplomatiya Azərbaycanın gələcəyi naminə // Dirçəliş – XXI əsr, 2004, № 76-77, s. 117-125.
19. Mehmet Koçak. Ermeni saldırılarının arkasında kimler var? https:/hyetert.org/2020/07/29/ermeni-saldirilarinin-arkasinda-kimler-var/.
20. Mirbəşiroğlu Elşad. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində Heydər Əliyevin fəaliyyəti // Tarix və onun problemləri, 2009, №1-2, s. 114-119.
21. Pompeo Azərbaycan ve Ermənistan
22. Xarici İşlər Nazirləri ilə görüşdü. www.amerikaninsesi.org/a/pompeo-azərbaycan-və-ermənistan-xarici-işlər-nazirləri-ilə-görüşüb/5633126.html
23. Suyundikov Suinbay. "Ermeni Saldırılarının Arka Planı ve Türk Dünyası".https://www.21yyte.org/tr/fikir-tanki/ermeni-saldirisinin-arka-plani-ve-turk-dunyasi
24. Şıxəliyev E. Geosiyasi maraqların toqquşması kontekstində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. Naxçıvan: Əcəmi, 2018, 384 s.

**QƏRİB ALLAHVERDİYEV**
*Naxçıvan Dövlət Universiteti*

# TARİXİN VƏ İCTİMAİ İNKİŞAFIN GEDİŞİNİ DƏYİŞƏN MÜASİR SİYASİ ZAMANIN BÖYÜK ŞƏXSİYYƏTİ

Dünyanın klassik mənzərəsində siyasi zaman aydın keyfiyyət xüsusiyyətlərinə malik olmuşdur. Onların arasında zaman vektoru, onun surəti, şkalası və sosiomədəni xüsusiyyət mühüm əhəmiyyətə malikdir. Siyasi zamanın keyfiyyətcə dərk edilməsi artıq Antik dövrdə özünün interpretasiyasını tapmışdı. Qədim yunan filosofları zamanı xronos-formal zamana və kayros-məzmun və məna ilə dolan əsil zamana bölürdülər. Alman-amerikan ilahiyyatçısı, filosofu Paul Tillix (1866-1965) kayros anlayışı üzərində düşünərkən yazırdı: "Ancaq mücərrəd, kənarlaşdırılmış düşüncə üçün zaman istənilən məzmunu özündə əks etdirməyə qadir olan boş formadır: Ancaq həyatın dinamik yaradıcı xarakterini başa düşən gözlənilməz nəticələr doğura biləcək gərginliklə dolu olan zaman keyfiyyət xarakterinə və mənaya malikdir. Hər cür zamanda hər şey mümkün deyil, hər zamanda hər şey həqiqət deyil, hər cür zamanda hər şey tələb olunmur" (4, s.217).

Siyasi zaman tarixin epoxalı anını qoruyan zaman kayrosudur. Onun döyüntüsünü xırda siyasi dərnəklərdə, mənəvi həyəcan ifadə edən çoxminli mitinqlərdə, müharibələrdə, inqilablarda hiss etmək olar.

Ümummilli lider Heydər Əliyev bir tərəfdən siyasi zamanın yuxarıda göstərilən məzmununa söykənən, digər tərəfdən ənənəvi siyasi sistemlərin dağıldığı, bəşəriyyət sivilizasiyanın ciddi böhranla üzləşdiyi, dövrün onun əlində çox güclü dağıdıcı qüvvələrin toplandığı

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

və bu dağıdıcı qüvvələrin tətbiq olunması üzərində sosial və mənəvi nəzarət mexanizmi lazimi qədər işləmədiyi dövrün, dünyada qüvvələr nisbəti tarazlığının pozulmasına gətirən, dünyanın super dövləti SSRİ-nin dağılması dövrünün, bir sözlə, rahat dövrün deyil, dövləti və siyasi prosesləri idarə etmək üçün yüksək təfəkkür, böyük iradə, cəsarət və uzaqgörənlik tələb edən dövrün böyük təkrarolunmaz siyasi lideridir.

Heydər Əliyevin siyasi liderliyi tək siyasi zamanın yuxarıdakı məzmunu ilə deyil eyni zamanda, onun hakimiyyətə ikinci dəfə gəldiyi dövr Azərbaycanın astanasında dayanan müasir dünya cəmiyyətlərindəki əsas antropoloji problemlərlə üzləşmişdi. Bu antropoloji problemlər ondan ibarət idi ki, indi demokratik vətəndaş konsepsiyası bu cəmiyyətlərdə yoxdur, onu yerinə insan-istehlakçı konsepsiyası gəlmişdir. Fransız yazıçısı, humanist Fransua Rablenin təsvir etdiyi Telem abbatlığının sakinləri kimi, istehlak cəmiyyətinin insanı özünün yeganə borcunu xoş həyat sürməkdə görür.

Statistik məlumatlara görə Qərb ölkələrinin sakinləri hər gün orta hesabla 4000 reklam və elanlara qulaq asır.

Böyük mal reklamları prospektləri, evlərin divarlarını, avtobus dayanacaqlarını, tramvayları və yolları, taksiləri və yük maşınlarını, metroları bəzəyir. Bu ölkələrdə sakitçilik yoxa çıxmaq həddindədir. Tranzistorların, televizorların, maqintafonların, telefonların səsindən xilas olmaq mümkün deyil. Bütün kütləvi informasiya vasitələri bir şeyə çağırır fəal istehlaka.

F.Beqbeder "99 frank" romanında hər şeyin satıldığı və alındığı, Əlahəzrət Reklamın idarə etdyi sərsəm, fani dünyanı ifşa edərək yazır: "İnsan Platonun mağarasına daxil olub. Yunan filosofu qayaya zəncirlənmiş və zindanın divarlarında reallığın kölgəsini seyr edən insanları təsvir edir. Platonun mağarası öz təcəssümünü bizim reallığımızda tapdı indi o televizor adlanır. Bu reallığa bənzəyirdi, reallıq rənginə malikdir, ancaq əsil reallıq deyil" (2, s.80).

Əlbəttə, antropolji mənada Vətəndaşın yoxa çıxması və onun istehlakçı ilə əvəz olunması müasir siyasi zaman üçün böyük fəlakətdir. Lakin xalqın tələbi təkidi ilə ikinci dəfə siyasi hakimiyyətə gələn Ümummilli lider Heydər Əliyev cəmiyyətin inteqrasiyasına nail omaqla, kütlələri birləşdirməklə, Azərbaycan vətəndaşlarını ümumi məqsədlər və dəyərlər ətrafında toplamaqla Qərbdən gələn Azərbaycanın müstəqilliyinin ilk illərində özünə geniş yer tapan insan-istehlakçı konsepsiyasının ölkəmizdə kök salmasının qarşısını aldı, cəmiyyətdə demokratik vətəndaş konsepsiyasının təşəkkülünə təkan verdi. Nəticədə vətəndaş siyasi insan kimi dünya ilə güclü emosional əlaqələrlə bağlandı. İnsani xüsusiyyətə can atdı, özünü hansısa qrupun və ya kollektivin bir hissəsi kimi deyil, xalqın bir hissəsi kimi gördü, özünü onunla eyni hesab etdi, ağır şəraitdən çıxıb yaşadı, öz həyatını qurdu və sözün əsl mənasında vətəndaş oldu. Heydər Əliyevin böyüklüyü bundadır.

Yuxarıda deyilənləri nəzərə almaqla deyə bilərik ki, Heydər Əliyev siyasi zaman hissinə malik olan, tarixi yaradan, siyasi tarixin gedişini dayandıra və dəyişə bilən dünya miqyaslı Ümummilli liderdir.

Siyasi təlimdə liderliyin müəyyən sosial şəraitdən asılılığı ideyası vardır ki, bu ideyaya görə lider müəyən şəraitdə fərdin funksiyasıdır. Liderlik hansısa sosial situasiyada adamlar arasında əlaqədir və bir situasiyada lider olan adamlar digər situasiyada lider olmaya,

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

bir sıra hallarda isə hətta şəraitin əsirinə çevrilə bilərlər.

Heydər Əliyevin dahiliyi və müəyyən tarixi şəraitin, situasiyanın liderlərindən fərqli olaraq, onun özünəməxsusluğu, bənzərsizliyi ondan ibarət idi ki, bir tarixi şəxsiyyət kimi o, həm sovet dövrünün, həm də müasir siyasi zamanın qəhrəmanıdır, lideridir. Bu mənada Qazaxıstanın prezidenti olmuş Nursultan Nazarbayev yazır: "O, Sovet İttifaqında forlaşmış, sosialist ideyaları ilə tərbiyə olunmuş, ancaq taleyin hökmü ilə tamam yeni şəraitə düşmüş insan, sanki birləşməsi mümkün olmayanı birləşdirməyi bacardı. Heydər Əliyev keçmiş həyatdan aydın məqsədliyi, xalqın gücünə və idrakının məhv edilməzliyinə inamı, ictimai borca sadiqliyi tapşırılmış işə yüksək dərəcədə məsuliyyətlə yanaşmağı götürdü və gənclik enerjisi ilə prinsipial cəhətdən yeni ictimai və iqtisadi münasibətləri qurmağa başladı. O, buna nail ola bildi" (1, s.474). Beləliklə, Heydər Əliyev situasiyadan asılı olmayan, situasiyanı hiss edən və istifadə edəcək ana qədər onun inkişafına necə yol verməyi bilən, situasiyanı öz aktivinə çevirmək bacarığına malik olan siyasi lider idi.

Fövqəltəbii xüsusiyyətlərə və hakimiyyətin köməyi olmadan kütləni öz ardınca aparmaq, yüksək təşkilatçılıq və gələcəyi qabaqcadan görmək və geniş xalq kütlələrini ümumi məqsədlər ətrafında birləşdirmək qabiliyyətinə, onun dahi vəziyyətinə gətirən intellektual istedada, böyük siyasi mədəniyyətə, iti ağıla, möhkəm iradəyə, aydın məqsədə və qaynar enerjiyə malik olan, keçid dövründə ictimai orqanizmin bütövlüyünü qoruyub saxlayan, cəmiyyəti yeni inkişaf yoluna çıxaran Heydər Əliyev hakimiyyətdə olan siyasi lider kimi sosiosentrist nümunəyə aiddir. Sosiosentrist tipli lider öz fəaliyyətinin əsas mənasını ictimai borcu yerinə yetirməkdə görür. Bu cür oriyentasiyanı liderin bu və ya digər bəyanatı ilə müəyyənləşdirmək mümkün deyil. Burada qiyməti tarix özü yerbəyer edir. Bəli, tarix göstərdi ki, Heydər Əliyev ictimai mənafeni şəxsi mənafedən uca tutaraq bütün həyatını doğma, canı, varlığı qədər sevdiyi Azərbaycana həsr etmişdir.

Liderlərin müxtəlif tipli olması bir çox hallarda onların fəaliyyət istiqamətlərinin zəngin olmasındadır. Siyasi liderlərin bu tərəfinin xarakteristikası onun yerinə yetirdiyi funksiyalar ilə ayrılmaz tellərlə bağlıdır. Beləliklə, Ümummilli lider Heydər Əliyev siyasi lider kimi hakimiyyətdə olarkən aşağıdakı mühüm funksiyaları yerinə yetirmişdir.

**Analitik funksiyası.** Azərbaycanın müstəqilliyinin ilk illərində cəmiyyətdə yaranmış mürəkkəb şəraiti dərin və hərtərəfli təhlil etmiş, siyasi həyatın obyektiv və subyektiv amillərinin məcmusunu öyrənmiş, fəaliyyət proqramını işləyib hazırlamış, strateji prioritetləri və onlara nail olmağın üsullarını əsaslandırmışdır.

**Təşkilatçılıq funksiyası.** Siyasi proqram və məqsədləri realizə etmək üçün kütlələri səfərbərliyə almış, silahdaşlarını sıx birləşdirmiş, köməkçilər komandasını formalaşdırmış, siyasi fəaliyyətini panlaşdırmış, yeniləşmənin gedişini nizamlamış və nəzarət etmişdir.

**İnteqrativ funksiyası.** Ümumi məqsədlər, dəyərlər və ideyalar əsasında müxtəlif sosial maraqları birləşdirmiş və razılaşdırmış, müxtəlif tərkibli ictimai və siyasi qüvvələrin birliyini təmin etmişdir. Bu mənada Heydər Əliyev müxtəlif siyasi problemlərin konstruktiv həlli üçün koalisiya yaratmağın ustası idi.

**Novator funksiyası.** Yeni, konstruktiv ideyalar irəli sürmüş, bütün yeniləşmələrin təşəbbüskarı olmuşdur.

**Kommunikativ funksiyası.** Bu gün Azərbaycan cəmiyyəti üçün aktual olan hakimiyyət və müxtəlif sosial qruplar arasında davamlı əlaqəni təmin etmişdir. Onu da qeyd edək ki, kommunikativ funksiyanın realizə edilməsinin klassik nümunəsinə misal XX əsrin 30-cu illərində F.D.Ruzvelt tərəfindən Amerika vətəndaşlarına hər həftə radio müraciətini göstərmək olar. Ruzvelt bu müraciətlərində böhranı aradan qaldırmaq üçün həyata keçirdiyi "Yeni kurs" un mahiyyətini izah edirdi. Bununla o, təkbaşına amerikalılarla əlaqə yaratdı, onlarda gələcəyə ümid oyatdı, seçicilərin etimadını saxladı, eyni zamanda, əhalinin ən geniş təbəqəsinin köməyini qazandı və təkrar prezident seçildi.

Bu mənada Heydər Əliyev vaxtaşırı Azərbaycanın regionlarına gedir, əhalinin müxtəlif təbəqələri arasında çıxış edir, ölkənin inkişafı üçün həyata keçirilən islahatların mahiyyətini aydınlaşdırır, regionlardakı problemlərlə bilavasitə məhz özü tanış olur və onların həlli üçün yerindəcə göstərişlər verirdi. Əlbəttə ki, bu da kütlələrlə onun əlaqələrini möhkəmləndirirdi və ictimai şüurda onun əvəzsiz lider olduğunu təsdiq edirdi.

Heydər Əliyev ümummilli siyasi lider kimi ədalətin, qanunçuluğun, nizam-intizamın qarantı funksiyasını çox ləyaqətlə yerinə yetirirdi. Heydər Əliyevin bu sahədəki böyük fəaliyyəti Azərbaycanda vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı, oktyabr 1994-cü il və mart 1995-ci il dövlət çevrilişlərinin qarşısını aldı, Azərbaycanı xaosdan, dövlətçiliyini itirməkdən xilas etdi, qanunsuz silahlı dəstələri, terrorçu, təxribatçı qrupları zərərsizləşdirdi, hərc-mərcliyə son qoydu.

Ümummilli lider, böyük strateq Heydər Əliyev Azərbaycanın taleyüklü məslələrində həmişə əlverişli qərarlar tapmış və qəbul etmişdir. Belə qərarlardan birini-ölkədə siyasi qarşıdurma və qeyri-sabitlikdən istifadə edən Ermənistan silahlı qüvvələrinin bütün sərhəd boyu hücuma keçib Azərbaycanın yeni-yeni torpaqlarını zəbt etdiyi və burada yaşayan yerli əhalini qaçqın və köçkün halına saldığı bir dövrdə uzaqgörənlik edib atəşin dayandırılması qərarına gəlməsini və 1994-cü ilin mayında atəşkəs haqqında saziş imzalamasını göstərmək olar. Heydər Əliyev bu sazişin köməyi ilə yaranmış əlverişli vəziyyətdən istifadə edərək Azərbaycanı parçalanmaqdan, məhv olmaqdan xilas etdi, ökəni inkişaf yoluna çıxartdı.

"Yolumuz demokratiya yoludur" - deyən Heydər Əliyev demokratik ideyalara sadiq olmaqla bərabər, praktikada respublikanın ictimai həyatının demokratikləşməsi, demokratik cəmiyyətə xas olan mülki cəmiyyətin formalaşması, hüquqi, sosial dövlətin qurulması üçün həm nəzəri və həm də praktiki iş aparırdı. Nəticədə ölkəmizdə demokratik cəmiyyətin formalaşması üçün hər cür şərait yaradılmışdır. Belə ki, Azərbaycanda dünya standartlarına cavab verən, bütün insan hüquqlarını və azadlıqlarını özündə əks etdirən müstəqil Azərbaycanın konstitusiyası ümumxalq səsvermə yolu ilə qəbul edilmiş, demokratik yolla parlament seçilmiş, siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipləri bərqərar olmuşdur.

Ardıcıl həyata keçirilmiş demokratik islahatlar nəticəsində iqtisadi tənəzzül və infilyasiyanın qarşısı alınmış, iqtisadi inkişafda yeni mərhələnin möhkəm təməli qoyulmuş, özəlləşdirmə proqramı, aqrar

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

islahatlar və torpaqların xüsusi mülkiyyətə verilməsi prosesi ardıcıl sürətdə davam etdirilmişdir. Azərbaycanda "açıq qapı" siyasətinin həyata keçirilməsi iqtisadiyyatımızda xarici investisiyaların həcminin artmasına və ölkəmizin dünya iqtisadi sisteminə inteqrasiyasını sürətləndirməklə bərabər xalqın maddi rifahının yaxşılaşdırılmasına, vətəndaşların iqtisadi və sosisal hüquqlarının müdafiəsinə zəmin yaratmışdır.

Heydər Əliyevin siyasi fəaliyyətində mühüm yer tutan məsələlərdən biri də odur ki, SSRİ dağılandan sonra Azərbaycanda AXC hakimiyyəti dövründə yeni ictimai-siyasi quruluş hətta tarixi ənənənlərdə və millətçilikdə özünün bəraətini qazanmadığı halda, Heydər Əliyev öz hakimiyyəti dövründə qeyri-adi şəxsi qabiliyyətilə bu quruluşu legitimləşdirdi. Bu isə müasir Azərbaycanın siyasi tarixində çox əhəmiyyətli hadisədir.

Heydər Əliyev böyük mənəviyyat, intelekt və iradə sahibi idi. O da məlumdur ki, insanda nə qədər intellekt-mənəviyyat və iradə keyfiyyətləri aydın ifadə olunursa, bir o qədər də çox, onun həyatı oriyentasiyası ümumbəşəri dəyərlərlə üst-üstə düşür, nə qədər çox dərəcədə o, bu dəyərin inkişafına və təsdiqinə müsbət təsir edir, bir o qədər də şəxsiyyətin özü işıqlı və görkəmli olur. Bu halda şəxsiyyət onun ruh yüksəkliyi, azadlığı, yaradıcılığı və xeyirxahlığı tərəfindən xarakterizə olunur. Bu baxımdan Heydər Əliyev şəxsiyyəti özünün təbii əsasından uca durur.

Məlumdur ki, şəxsiyyətin formalaşmasına və davranışına coğrafi faktorun böyük təsiri vardır. Hələ bizim eradan əvvəl V əsrdə bu ideya haqqında Herodot və Aristotel fikir söyləmişlər. Və sonrakı əsrlərdə də şəxsiyyətin formalaşmasına və davranışına coğrafi faktorun təsiri məsələsi digər mütəfəkkirlər tərəfindən, xüsusən XVII əsrdə Jan Boden, XVIII əsrdə isə Monteskiye tərəfindən inkişaf etdirilmişdir.

Bu fikirlə bağlı Heydər Əliyevin bioqrafiyasının bir anına toxunmaq istəyirik.

Heydər Əliyev Naxçıvanda dünyaya gəlmişdir. Azərbaycan Respublikası Milli Məclisinin üzvü, professor Nizami Cəfərovun müstəqilliyimizin ilk günlərində dediyi kimi: "Naxçıvan kasıb yerdir, qışı soyuq, yayı istidir. Və naxçıvanlıların çörəyi, özləri demişkən, daşdan çıxır... Görünür, sərt həyat tərzi bu yerlərin əhalisinin, xarakterinin formalaşmasında az rol oynamamışdır".

Heydər Əliyevin Naxçıvanda doğulması, boya-başa çatması faktı onun möhkəm, mətin, iradə, cəsarət sahibi olmasına, onda çətinliyə sinə gərmək qabiliyyətinin formalaşmasına böyük təsir etmişdir.

Heydər Əliyev öz millətini böyük istəklə sevirdi. O, öz milləti, öz xalqı kimidir. Bizimlə eyni məqsədə və marağa, inama və prinsipə malikdir. O, nəinki ağlı ilə, eləcə də qəlbi ilə öz millətinin xüsusi bütövlük kimi başqa millətlərdən fərqlənməsini dərk edirdi. Onun milli şüuru ilə milli hissləri qarşılıqlı əlaqədə idi. Bu hisslərin qarşılıqlı əlaqəsininin siyasi liderlər üçün çox böyük əhəmiyyəti vardır. Hələ vaxtı ilə Avstriya filosofu Otto Bauer öz timsalında milli şüurla milli hissin qarşılıqlı əlaqəsini belə xarakterizə etmişdir: "Mən millətlə xarakterin ümumiliyi ilə möhkəm bağlıyam, onun taleyi, onun mədniyyəti mənə təsir etmiş, onun özü mənim xarakterimdə yaşayır və fəaliyyət göstərir. O, "mən" im hissəmdir. Beləliklə, millət haqqında təsəvvürlər şəxsi "Mən" təsəvvürləri ilə bağlıdır. Kim mənim millətimi pisləyir onunla da məni pisləyir, əgər mənim millətimi tərifləyirsə, onda bu tərif mənə də aitdir. Çünki millət mənim və mənim kimilərin daxilindədir" (3, s.38).

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

Dünya şöhrətli lider Heydər Əliyev millətin taleyi, tarixi, mədəniyyəti və xarakteri ilə bağlıdır. Millət onun hissəsidir. Millətin dərdi-səri onun dərdi-səri, millətin xoşbəxtliyi onun xoşbəxtliyidir. Çünki, millət onun daxilində, qəlbində idi. Buna görə o deyirdi: "Mən həmişə fəxr etmişəm, bu gündə fəxr edirəm ki, mən azərbaycanlıyam".

Dediklərimizi ümumiləşdirərək böyük inamla deyə bilərik ki, Heydər Əliyev ictimai inkişafın və siyasi tarixin gedişini dayandıran və dəyişən Böyük şəxsiyyətdir.

Onu da qeyd edək ki, bu fikirə əlavə aydınlıq gətirmək ehtiyacı vardır.

Biz uzun müddət marksizm ideologiyasının təsiri altında yaşamış adamlarıq. Bəzi insanlar hələ də tarixdə şəxsiyyətin rolu məsələsinin marksizmdə qoyuluşuna üstünlük verirlər. Tarix isə bu məsələni marksizmdə olduğu kimi iqrar etmir.

Marksizmə görə: "Böyük insan ictimai inkişafın gedişini ləğv və dəyişdirə bilməz, onun fəaliyyəti ancaq tarixi hadisələrə iz qoymaqla onlara əlavə özünəməxsusluq verir". Rusiyada ilk marksistlərdən biri olan Plexanov yazırdı: "Böyük adam qəhrəmandır. O mənada yox ki, guya o, işlərin təbii gedişini dayandıra və ya dəyişdirə bilər, bu mənada ki, onun fəaliyyəti həmin zəruri və şüursuz gedişin şüurlu və azad ifadəsidir. Onun bütün əhəmiyyəti bundadır, onun bütün gücü bundadır".

F.Engelsin böyük adamların, siyasi liderlərin tarixi inkişafın taleyində rolu məsələsinin aydınlaşdırılması üçün çox maraqlı məlum mühakiməsi vardır. Bu, onun 25 yanvar 1894-cü ildə B.Borgiusa yazdığı məktubda ifadə olunmuşdur: "İnsanlar özləri öz tarixini yardırlar, lakin indiyədək onlar bunu ümumi iradəli rəhbər tutmadan yaradırlar və hətta müəyyən tərzdə məhdud və müəyyən cəmiyyət çərçivəsində də yaratmırlar" (5, s.577-578).

Deyilənlə həmrəy olduğumuzu bildirmək üçün sitatı kəsək. Ancaq, bax sonra tarixi prosesin obyektivliyinin həddindən artıq böyüdülməsi, subyektiv faktorun rolunun kiçildilməsi və şəxsiyyət faktorunun rolunun "İqtisadi zərurətə" tam tabe olunması başlanır: "Adamların səyləri çarpazlaşır, buna görə də bu kimi cəmiyyətlərdə zərurət hökm sürür, bu zərurətin əlavəsi və təzahür forması təsadüfüdür. Burada bütün təsadüflər arasından özünə yol açan zərurət son nəticədə yenə də iqtisadi zərurətdir. Biz burada böyük Sima adlanan adamlar məsələsinə gəlib çıxırıq" (5, s.577-578).

"İqtisadi zərurətin" cəmiyyətdə hökmranlığı haqqında fikirə keçidin açıqlığına diqqət yetirmək üçün sitatı yenə də kəsək. Burada hətta böyük simaların tarixi proseslərdə rolu haqqında yox, sadəcə böyük simalar haqqında, necə və nə üçün onlar meydana gəlir haqqında söhbət gedir.

"Məhz filan böyük simanın müəyyən ölkədə, müəyən zamanda meydana çıxması halı, əlbəttə, xalis bir təsadüfdür. Lakin bu Adam kənar edilsə, onda onun əvəzinə başqa birisinə tələb meydana çıxır və belə əvəz tapılır... Müharibə nəticəsində taqətdən düşmüş Fransa republikasına lazım olan hərbi diktatorun məhz korsikalı Napoleon olmasaydı belə, onun rolunun başqa biri ifadə edərdi. Bunun sübutu odur ki, hər zaman belə bir adam lazım olanda tapılmışdır: Sezar, Avqust, Kromvel və i. a." (5, s.578).

Gəlin bu sitat ətrafında mühakimə yürüdək. Əvvəl "əgər böyük Sima kənar edilsə onda onun əvəzinə başqa bir tələb meydana çıxır və belə əvəz tapılır, fikiri üzərində dayanaq. Əlbəttə keçmişi təsvir edən nəzərlə tarixə baxmaqla görərik ki, Sezar olub, Avqust olub, Kromvel olub, onda bu fikri o planda izah etmək olar ki,

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

böyük sima həmişəmi tapılmışdır, hər vaxtmı böyük hökmdarın tapılması həyata keçmişdir?

I Pyotr Rusiyanın böyük islahatçısı, müasirləşdiricisi idi. O, epoxaya onun tələblərinə aid olmadan adi insan kimi meydana gəlmişdir. Ancaq, ondan sonrakı nəslin o epoxanı dönüş epoxası adlandırması üçün çox şey etmişdir. O, Rusiyanı yenicə dəyişdirməyə başlamışdı, ancaq çox şey etməyə macal tapmadı. Bir halda epoxa tələb edir, deməli onun əvəzi trapılmalı idi. Yox, böyük Pyotru əvəz edən tapılmadı, ondan sonra islahat prosesi uzun müddət dayandırıldı.

Milyonların qanı hesabına dünyanın ən qüdrətli dövləti olan SSRİ-nin, sonra isə "dünya sosializmi lagerinin" yaradıcısı Sitalin öləndən sonra SSRİ-yə böyük rəhbərlər çox lazım idi. Ancaq onlar olmadı.

O ki, qaldı tarixi arenaya böyük simaların meydana gəlməsində iqtisadi zərurətə, bu da özünü həmişə doğrultmadı.

İndi isə Napoleon haqında: biz tarixi ekskursiya etsək görərik ki, o, Korsikanın Genuya tərəfindən Fransaya verilməsindən bir il sonra 1769-cu ildə anadan olmuşdur. İngilis filosofu, ictimai xadimi Bertran Rassel bu münasibətlə qeyd etmişdir ki, Napoleon bir il əvvəl anadan olsaydı onda o İtalyalı olardı. Və Fransanın imperatoru ola bilməzdi. Ümumiyyətlə, "Napoleon olmasaydı belə, onun rolunu başqa biri ifadə edərdi" nə deməkdir? Əgər Napoleon olmasaydı, onda belə hesab etmək olar ki, "başqa biri" Misirə yürüyüş etməzdi, İtalyalılar üzərində çoxsaylı qələbələr qazanmazdı, İngiltərəni kontinental blokadaya almazdı, Rusiyaya hücum etməzdi və ordan məğlubiyyətlə geri çəkilməzdi, "100 günü" yaşamazdı. Heç də güman etmək olmaz ki, "başqa biri" Napoleon qədər şöhrətpərəst qeyr-məhdud hakimiyyət, şöhrət hərisi və onun qədər dünyanı öz istədiyi kimi yenidən düzəlmək arzusuna məxsus olsun, həmişəlik dərsliklərə Napoleon kimi daxil olsun. Bütün bunlar onu göstərir ki, "Əgər Napoleon olmasaydı, onda o dövrdə Fransanın və Avropanınn siyasi tarixi başqa cür olardı".

1917-ci il Oktyabr inqilabı ərəfəsində Rusiya tarixinə nəzər salaq. L.Trotskiy belə bir fikir söyləmişdir ki, əgər Lenin olmasaydı Oktyabr inqilabı olmazdı.

Bu cür təsdiqin hər cür əsası vardır. Leninin 3 aprel 1917-ci ildə Petroqradda onu qarşılayan kütlələr qarşısındakı çıxışında 4 aprel 1917-ci ildə dərc olunan "aprel tezisləri"ndə kütləəri sosisalist inqilabına kurs götürmək çağırışı inqilabı partiyalarda əsgərlərdə, matroslarda fəhlələrdə böyük təəsürat oyatmışdır.

Ənənəvi bolşevik proqramına görə Rusiyada və Avropada sosisal-demokratik inqilabından sonra uzun dövr kapitalist inkişafı zəruridir. Bu dövrdə sosializmə keçid üçün obyektiv və subyektiv şərait yetişir. Leninin "Aprel tezisləri" bu təsəvvürləri kənara atırdı. Lenin öz haqlılığında dərin inamı bu məsələdə başqalarını inandırmaqda ağıla gəlməz qabiliyyəti, onun idarəsi, enerjisi nəticəsində aprel 1917-ci ildə bolşeviklərin konfransı tamamilə Leninin sosialist inqilabına yubanmadan keçilməsinin təşkili və hazırlığı göstərişini qəbul etdi, bununla da Lenin Rusiyanın siyasi tarixini dəyişdi.

Cəsarətlə təsdiq etmək olar ki, o dövrün bolşevik liderlərindən heç kim, Leninin etdiyini edə bilməzdi, onu nə Trotskiy, nə Zinovyev, nə Kamenyev, nə Stalin, nə də digər bolşevik liderləri edə bilməzdi.

İndi isə bir daha Ümummilli lider Heydər Əliyev haqqında.

Azərbaycanın 1970-ci ildən başlamış siyasi tarixinin təhlili göstərir ki, əgər Heydər Əliyev olmasaydı 1970-1982-ci

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

illərdə Azərbaycanın gələcək müstəqilliyi üçün həm iqtisadi, həm siyasi, həm mədəni zəmin yaradılması mümkün olmazdı. Heydər Əliyev olmasaydı SSRİ süqut edəndən sonra Azərbaycan xaos, özbaşınalıq, hərc-mərclik girdabında boğulardı. Əgər Heydər Əliyev olmasaydı, 1990-cı illərin əvvələrində Azərbaycanı vətəndaş müharibəsi alovu bürüyərdi. Əgər Heydər Əliyev olmasaydı xalqımızın rifah halını yüksəldəcək Azərbaycana beynəlxalq aləmdə gedən siyasi, iqtisadi proseslərə təsir etmək imkanı verəcək Bakı-Ceyhan neft kəməri olmazdı. Heydər Əliyev olmasaydı Azərbaycanın dünya birliyində ləyaqətli yeri olmazdı. Nəhayət, böyük inamla demək olar ki, Heydər Əliyev olmasaydı, müstəqil Azərbaycan Respublikası deyilən məmləkət olmazdı. Ona görə də Heydər Əliyev əvəzedilməz tarixi şəxsiyyətdir. Heydər Əliyev siyasi tarixin gedişini dayandıran və dəyişən böyük şəxsiyyətdir, görkəmli dövlət xadimidir.

Yekun olaraq qeyd edək ki, Azərbaycan xalqının fərqləndirici əlamətlərindən biri onun yıxılandan sonra ayaq üstə dura bilmək qabiliyyətidir. Müxtəlif zaman kəsiklərində xalqımızın alçaldılması nə qədər ağır olsa da, müəyyən edilmiş zaman gəldi, xalq itirilmiş mənəvi qüvvəsini ələ aldı və onu Ümummilli lider Heydər Əliyevin layiqli davamçısında - Prezident İlham Əliyev şəxsiyyətində təcəssüm etdirdi.

## ƏDƏBİYYAT

1. Андриянов В.И., Мираламов Г.Ф. Гейдар Алиев. М.: 2005.
2. Бегбедер Ф. 99 франков. М.: 2020.
3. Краснов Б.И. Политология. М.: 1991.
4. Тиллих П. Избранное. Теология культуры. М.: 1995.
5. K.Marks və F.Engels. Seçilmiş əsərləri, 3 clddə. Cild 3. Bakı: 1983.

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

**YUNİS XƏLİLOV**
***Naxçıvan Dövlət Universiteti***

# AZƏRBAYCAN XALQININ ƏBƏDİYAŞAR XİLASKARI HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASINDA HÜQUQ İSLAHATLARININ BANİSİDİR

*"Mən mənalı həyatımın düz altmış ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub"*

*Heydər Əliyev Azərbaycan xalqının Ümummilli lideri*

*Məqalədə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasında həyata keçirdiyi hüquqi islahatlardan söhbət açılır. Dahi rəhbərin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda yeni müstəqil dövlət quruculuğu islahatlarının bünövrəsini qoymasından, ölkəmizdə 1995-ci ildə əfv komissiyasının bərpasından, 1998-ci ildə ölüm cəzasının tam ləğvindən, ilk milli konstitusiyamızın qəbulu və xüsusiyyətlərindən, Respublikamızın tarixində ilk dəfə olaraq 1998-ci ildə Konstitusiya Məhkəməsinin yaradılmasından, 2004-cü ildə məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurasının təsis edilməsindən və milli qanunvericilik sisteminin formalaşması istiqamətində görülmüş işlərdən və qəbul edilən hüquqi aktlardan bəhs olunur.*

*Məqalədə həmçinin Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında ölkəmizin beynəlxalq aləmə inteqrasiyasını labüd edən hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu siyasətinə və dövlətimizin bir sıra beynəlxalq hüquqi sənədləri ratifikasiya etməsinə toxunulur.*

***Açar sözlər:*** *Heydər Əliyev, Ulu öndər, hüquqi islahatlar, məhkəmə*

Milli dövlətçilik ənənələrinə sadiq olan müstəqil və suveren bir dövlətin qurulması, hər şeydən əvvəl ömrünü xalqına həsr edən fədakar bir lider amili ilə, xüsusilə də onun yaradıcı təfəkkürü, siyasi əzmkarlığı, yüksək intellekti, qətiyyətli təşəbbüskarlığı və uzaqgörən dövlətçilik səriştəsi sayəsində mümkündür.

Əsl siyasi rəhbər öz xalqının taleyində tarixi dönüşə zəmin yaradan taleyüklü həssas anlarda öz sarsılmaz cəsarəti, çevik və prinsipial qərarları, hətta ən çıxılmaz vəziyyətlərdə belə çıxış yolu tapmaq məharəti ilə fərqlənən fitri istedada malik olan fenomenal şəxsiyyətlərdəndir.

Dövlətçilik tariximizə öz adını qızıl hərflərlə əbədi olaraq həkk etmiş Azərbaycan xalqının əbədiyaşar xilaskarı Heydər Əliyev məhz belə şəxsiyyətlərdəndir. Bu böyük şəxsiyyət XX əsrin sonunda xalqımızı əsrlər boyu can atdığı həqiqi müstəqillik missiyasına qovuşdurmuş, mütərəqqi ideyaları ilə zəngin olan yeni dövlətçilik konsepsiyasını işləyib hazırlamış, onun dayanıqlı inkişafı üçün etibarlı sosial-iqtisadi və siyasi-hüquqi baza hazırlamışdır.

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanı çox çətin sınaqlardan müvəffəqiyyətlə çıxarmış, ölkənin tarixi ənənələri ilə müasirliyin uğurlu vəhdəti əsasında demokratik dəyərlərə söykənən yeni inkişaf strategiyasının özülünü qoymuşdur. Təsadüfi deyil ki, Ulu öndərin Azərbaycan tarixində böyük missiyası ağır şəraitdə müstəqilliyimizə nail olmağa, hüquqa, qanunçuluğa, ədalətə, demokratik inkişafa əsaslanan

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

güclü dövlətçiliyin əsasını qoymağa xidmət etdi və onun 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda yeni müstəqil dövlət quruculuğu səhifəsi açıldı. Dahi rəhbər Heydər Əliyevin xilaskarlıq missiyası Azərbaycanı üzləşdiyi təhlükələrdən qurtarmaqla qalmadı, onun bilavasitə rəhbərliyi ilə ölkədə siyasi, iqtisadi, hüquqi, mədəni, sosial sahələrdə çoxşaxəli islahatlar həyata keçirildi, ən dəyərli milli sərvət hesab olunan müstəqilliyin əbədiliyi, dönməzliyi, sarsılmazlığı təmin edildi. Ümummilli lider həmin illərdə Azərbaycanı yalnız parçalanmaqdan, dövlət çevrilişlərindən, özbaşınalıqlardan xilas etmədi, həm də xalqımıza yeni, firavan, ildən-ilə gözəlləşən müstəqil Azərbaycan dövlətini bəxş etdi. Əldə olunan nailiyyətlərin qazanılması isə məhz mürəkkəb tarixi prosesləri düzgün qiymətləndirən Heydər Əliyevin fitri istedadı, qətiyyətli addımları sayəsində mümkün oldu. Belə ki, müstəqilliyin yenicə qazanıldığı və təhlükə altında olduğu illərdə onu qoruyub saxla¬maq, müasir demokratik dövlət qurmaq, böyük idarəçilik təcrübəsi, diplomatik məharət, siyasi iradə tələb edirdi. Ümummilli lider Azərbaycanı düşdüyü böhranlardan qurtarmaq və onu dünyanın sivil ölkələri səviyyəsinə çıxarmaq üçün öz nadir intellektindən və tükənməz enerjisindən məharətlə istifadə etdi.

İctimai həyatın müxtəlif sahələrində haqq-ədalət prinsipinin qorunmasına səy göstərən, bunu xalq-dövlət münasibətlərinin əsas amilinə çevirən Heydər Əliyev yalnız bu yolla dövlətlə xalq arasında möhkəm mənəvi, siyasi və hüquqi bağlantıya, qarşılıqlı etimada nail olmağı mümkün hesab etmişdir. Müasir tarixi keçmişimizə nəzər salsaq görərik ki, məhz fenomenal şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti bu istiqamətdə zəngin hüquqi islahatlar yolu keçmiş, nəticədə keçmiş Sovet İttifaqından miras qalmış hüquq sistemi demokratik prinsiplər əsasında tamamilə yenidən qurulmuşdur.

Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasını labüd edən hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu siyasətini diqqət mərkəzində saxlayan Ulu öndər Heydər Əliyev bu istiqamətdə mühüm islahatların həyata keçirilməsini təmin etmiş, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü nitqlərində dəfələrlə vurğulamış, vətəndaşlara göstərilən hüquqi yardımın keyfiyyətinin və səviyyəsinin artırılmasının əsas təşəbbüsçüsü olmuşdur.

Ölkədə cərəyan edən hadisələri dərindən təhlil edən Ümummilli lider Heydər Əliyev yaxşı bilirdi ki, Azərbaycanın müstəqilliyini təmin etmək, onu möhkəmləndirmək, ölkədə demokratik, hüquqi dövlət qurmaq, köklü islahatlar aparmaq üçün, ilk növbədə, ictimai-siyasi sabitlik, qanunçuluq, hüquq qaydası təmin edilməlidir. "Dövlət - dövlətçiliyi qorumalıdır" fikrini dönə-dönə vurğulayan Ulu öndər çox qəti və prinsipial mövqedən çıxış edərək ciddi intizam, tələbkarlıq və dövlət mənafeyi kimi amilləri ön plana çəkmiş, ölkədə geniş vüsət almış cinayətkarlığın bütün ünsürlərinə qarşı qəti mübarizə aparmaq üçün imzaladığı "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsi tədbirləri haqqında" 1994-cü il 9 avqust tarixli fərman bu sahədə əsaslı dönüş yaratmışdır.

Ulu öndərin rəhbərliyi altında Azərbaycanda hüquqi islahatların başlanmasına təkan verən ən əlamətdar

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

hadisələr 1993-cü ildə ölüm cəzası üzərində moratoriumun qoyulması, 1995-ci ildə əfv komissiyasının bərpası, 10 fevral 1998-ci il tarixdə ölüm cəzasının tam ləğvi olmuşdur.

Hüquqi sahədə görülən işlərdən, həyata keçirilən islahatlardan söhbət açarkən Heydər Əliyevin müəllifi olduğu müstəqil Azərbaycanın ilk milli Konstitusiyası barədə xüsusi danışmaq lazımdır. Konstitusiyanın qəbul edilməsi xalqımızın həyatında və dövlətçiliyimizin qurulmasında yeni bir mərhələnin başlanğıcını qoydu, respublikada dövlət quruculuğu sahəsində yeni imkanlar açdı. Azərbaycanda yeni Konstitusiyanın hazırlanması, qəbul edilməsi, konstitusion quruluşun bərqərar edilməsi böyük uğur idi. 1995-ci ilin iyulunda Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının Konstitusiyasını hazırlayan Dövlət Komissiyası təşkil edil-dikdən sonra bu istiqamətdə işlər fəallaşdı.

Ölkənin təcrübəli, səriştəli və yüksək təhsilli hüquqşünaslarının, alimlərinin iştirak etdiyi komissiyanın ilk iclasında Ulu öndər Konstitusiyanı son dərəcə mükəmməl, gələcəyə hesablanmış, sanballı bir sənəd kimi hazırlamağı tövsiyə edərək demişdir: “Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir konstitusiya qəbul etməliyik ki, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun”. Ümummilli lider Heydər Əliyev Əsas Qanun hazırlanarkən ənənəvi hüquqi dövlət ideyaları ilə yanaşı, bu ideyaların inkişaf meyillərinin də nəzərə alınmasına, onların milli dəyərlər və artıq təsdiq olunmuş müasir beynəlxalq yanaşmalarla zənginləşdirilməsinə xüsusi diqqət yetirmişdir.

Ulu öndərin rəhbərliyi altında hazırlanmış 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyri-şərtsiz təmin olunmasının bünövrəsini qoydu. Azərbaycan müstəqil dövlət kimi demokratiklik, hüquqilik, dünyəvilik prinsiplərinə əsaslanaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçdi və bununla da Konstitusiya respublikamızın gələcək inkişaf konsepsiyasını müəyyən etməklə hüquqi islahatların bazisinə çevrildi. Bu ali sənədin ən üstün və fərqli cəhətlərindən biri onun müddəalarında bütün hüquqların, azadlıqların və vəzifələrin bütöv və vəhdət halında öz əksini taparaq bir-birini tamamlamasıdır. Təsadüfi deyil ki, keçmiş sovet konstitusiyalarından fərqli olaraq müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilmə¬sini dövlətin ali məqsədi kimi bəyan etdi. Konstitusiya 12-ci maddədə təsbit olunan bu deklarativ norma ilə kifayətlənməyərək 71-ci maddədə insan və vətəndaş hüquq və azadlıqlarını gözləməyi və qorumağı qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının üzərinə vəzifə olaraq qoydu.

Üçdə bir hissəsi insan və vətəndaş hüquq və azadlıqlarına həsr olunan Əsas Qanunun III fəslində bütün növ şəxsi, siyasi, sosial-iqtisadi, mədəni və prosessual insan haqları öz əksini tapmışdır.

Konstitusiyanın qəbulundan sonra hüquq mühafizə orqanlarının fəaliyyəti-

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

nin müasir dövrün tələblərinə inteqrasiyası məqsədilə Ulu öndər Heydər Əliyev bir sıra mühüm qanunvericilik aktlarının qəbulunu təmin etmişdir. Bu məqsədlə 21 fevral 1996-cı il tarixdə Hüquq İslahat Komissiyası yaradılmış, komissiyanın hazırladığı "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış tədbirləri haqqında", "Notariat haqqında" və s. qanunlar qəbul olundu.

Qanunvericilik sahəsində həyata keçirilən islahatların məntiqi davamı kimi ölkəmizdə Azərbaycan Respublikasının Konstitusiyasından qaynaqlanan bir sıra məcəllələr Azərbaycan Respublikasının cinayət, cinayət-prosessual, mülki, mülki-prosessual, inzibati xətalar, ailə, əmək və s. məcəllələr qəbul edildi.

Böyük öndər ədalətli idarəçilik sistemi yaratmadan cəmiyyətin dövlətə etimad və inamının formalaşdırılmasını qeyri-mümkün hesab etmiş, bunun üçün ilk növbədə məhkəmə hüquq sistemində dövrün tələblərinə cavab verən əsaslı mütərəqqi islahatların aparılmasına başlamışdır. Təsadüfi deyil ki, Ümummilli lider Heydər Əliyevin 1 dekabr 1998-ci il tarixli "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər haqqında imzaladığı Fərman əsasında ölkəmizdə məhkəmə quruluşunun və məhkəmə icraatının mahiyyətcə yeni modelinin bərqərar edilməsi prosesinə başlanıldı.

Qeyd edək ki, Konstitusiyanın qəbulundan sonra 1998-ci ildə respublikada ilk dəfə olaraq Konstitusiya Məhkəməsi yaradıldı, 2004-cü ildə məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası təsis edildi.

Ardıcıl olaraq aparılan məhkəmə-hüquq islahatlarının başlıca məqsədi Azərbaycanda qanunun aliliyinin təmin edilməsi, məhkəmə orqanları sisteminin dövlət idarəçilik mexanizmində nüfuzlu və müstəqil təsisat kimi təşəkkül tapması, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təşkil olunması, cinayət və mülki mühakimədə ədalətlilik, qanunçuluq prinsiplərin qorunması, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edilməsi olmuşdur.

Humanizm prinsiplərinə hər zaman sadiq qalan Ulu öndər Heydər Əliyev hələ 1995-ci ildə Azərbaycanda əfv və amnistiya institutunu təsis etdi. Təkcə 1995-2003-cü illərdə 7 amnistiya aktı və 32 əfv fərmanın qəbul edilmə faktına nəzər salsaq görərik ki, bu amnistiya aktları 77 mindən çox insana şamil edilib. Ulu öndər tərəfindən imzalanan əfv fərmanı ilə 3 mindən artıq şəxs bağışlanaraq cəzadan azad edilib. Bütün bunlar Ümummilli liderin insan amilinə verdiyi qiymətin ən bariz nümunəsidir.

1998-ci il fevralın 22-də "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərmanın imzalanması, Azərbaycanın bir sıra beynəlxalq hüquqi sənədlərə qoşulması, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatının yaradılması Azərbaycanın hüquqi müstəvidə demokratik dəyərlərə, insan hüquqlarına sadiq olan ölkə kimi dünya miqyasında nüfuzunu daha da artırmış, respublikamızın hüquqi dövlət quruculuğu yolunda inamla irəlilədiyini bir daha sübuta yetirmişdir.

"Biz Azərbaycan dövlətçiliyini qorumağa qadirik və bundan sonra da

qoru-yacağıq” deyən Ümummilli liderimiz Heydər Əliyev dövlət quruculuğu, demokratiyanın inkişafı, ölkədə əmin-amanlıq, asayiş və sabitliyin sarsılmaz təməllər üzərində daimi dayanıqlığına nail olmaqdan ötrü qanunçuluğun möhkəmləndirilməsi, dövlətçilik, milli-mənəvi dəyərlərin qorunması, elm, mədəniyyət və iqtisadiyyatın daha sürətli, səmərəli və məqsədli inkişafı, ölkə əhalisinin maddi rifah halının daha da yaxşılaşdırılması, bir sözlə, bütün məsələləri bizim üçün əlçatmaz olan zirvədən böyük müdriklik və uzaqgörənliklə həll etmişdir.

Bütün həyatını öz xalqına və vətəninə bəxş edən əbədiyaşar xilaskar Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyətinin ən böyük nəticəsi bu gün müstəqil Azərbaycan dövlətinin mövcud olmasıdır. Hazırda Azərbaycanda hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin inkişafı, ictimai həyatın bütün sahələrini əhatə edən de-mokratikləşmə, dövlətin əbədi yaşaması, rifahı naminə Ulu öndər Heydər Əliyevin üzərinə götürdüyü missiyanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev uğurla davam etdirərək qanunun aliliyinin təmini, humanist, bəşəri dəyərlərin bərqərar olması naminə misilsiz işlər görməkdədir. Təkcə bir fakta nəzər salmaq kifayətdir ki, əsası Ulu öndərimiz tərəfindən qoyulan ədalət, insanpərvərlik, insan haqlarının aliliyi kimi bəşəri prinsiplərin ən bariz təcəssümü olaraq bu günlərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xalqımızın Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə əfv sərəncamı imzalamış, ən böyük humanizm aktı olan bu sərəncamla 801 məhkum əfv olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin və onun layiqli davamçısı Prezident cənab İlham Əliyevin səylə həyata keçirdikləri islahatların sayəsində Azərbaycan qloballaşan dünyanın tərkib hissəsi kimi bu inteqrasiya magistralında uğurla və sürətlə irəliləyir, demokratik dəyərləri mənimsəyir və bu gün hərtərəfli inkişaf edərək siyasi-hüquqi və iqtisadi baxımdan qüdrətli dövlətə çevrilir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq Yayın Evi, 2023.
2. Heydər Əliyev. İki cilddə. II cild. (Müstəqillik illəri dövrü) / layihə rəhbəri, elmi red., giriş məqaləsi və son sözün müəllifi:
3. Mahmudov Y. AMEA A.A.Bakıxanov ad. Tarix İnstitutu.
4. Bakı: Turxan NPB, 2013.
5. Həbibbəyli İ. Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr. Naxçıvan: Əcəmi, 2013.
6. Hacıyev İ. Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası. Bakı: 2003.
7. Hacıyev İ. Heydər Əliyev siyasəti: tarixdə və günümüzdə. Naxçıvan: 2013.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

**İSMAYIL QƏRİBLİ**
*Naxçıvan Dövlət Universiteti*
*ismayilgaribli@ndu.edu.az*

# AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEV VƏ ÖLKƏMİZDƏ MƏHKƏMƏ-HÜQUQ İSLAHATLARI

Bu il müasir Azərbaycan dövlətçiliyinin qurucusu və memarı, xalqımızın Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi qeyd olunur. Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədilə Prezident İlham Əliyev tərəfindən imzalanan 2022-ci il 29 sentyabr tarixli Sərəncamla Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilib. Sərəncamda qeyd edilir: "Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir".

Dövlətçilik tariximizin böyük bir mərhələsi birbaşa Ulu öndərimizin adı ilə bağlıdır. Onun ölkəmizə rəhbərlik etdiyi hər iki dövrdə Azərbaycan bütün sahələrdə böyük məsafə qət etmiş, yerləşdiyi regionda söz sahibinə çevrilmişdir. Xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gəlişindən sonra Ümummilli lider Heydər Əliyev ictimai həyatın bütün sahələrində genişmiqyaslı islahatlara başlamışdır. Belə ki, Azərbaycanın siyasi sisteminin və dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi və daha effektiv fəaliyyəti üçün dəyişikliklər aparılmış, siyasi partiyaların və demokratik proseslərin inkişafına yardım edilmiş, energetika, neft və qaz sahələrində islahatlar aparılmış, investisiyaların cəlb edilməsi və ölkə iqtisadiyyatının diversifikasiya edilməsi üçün qanunvericilikdə dəyişikliklər aparılmış, xarici investisiyalar cəlb edilmiş, ölkənin iqtisadi əməkdaşlığı genişləndirilmiş, regional iqtisadi inkişafı təmin etmək üçün bölgələrin səhiyyə, təhsil və mədəniyyət infrastrukturu inkişaf etdirilmiş, xüsusilə də avtomobil yolları, dəmir yolu və hava limanı infrastrukturunun inkişafı üçün geniş tədbirlər həyata keçirilmişdir.

1993-cü ildə Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan əsl müstəqilliyini əldə etmiş, siyasi sabitlik təmin edilmiş, dövlət idarəçiliyində demokratik prinsiplərin tətbiqi və hüquqi dövlətin qurulması istiqamətində böyük uğurlara nail olunmuşdur. İnsan hüquqlarının müdafiəsi sahəsində mühüm nailiyyətlərə imza atılmış, söz, fikir və mətbuat azadlığı etibarlı şəkildə təmin edilmiş, demokratik prinsiplərin təşəkkül tapması dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmiş və müasir tələblərə cavab verən normativ hüquqi baza yaradılmışdır.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev ölkəmizdə digər sahələrdə olduğu kimi, məhkəmə-hüquq sahəsində də islahatların banisidir. Ulu öndərin həyata keçirdiyi məhkəmə-hüquq islahatlarının ilk mərhələsində demokratik-hüquqi dövlət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına və müstəqil ədalət mühakiməsinin yaradılmasına yönəlmiş hüquqi islahatların konsepsiyası işlənib hazırlanmışdı.Hüquq sahəsində fundamental islahatların həyata

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

keçirilməsini, demokratik dəyərlərə əsaslanan milli qanunvericilik bazasının formalaşdırılmasını təmin etmək üçün Konstitusiya layihəsinin hazırlanması zərurətə çevrilmişdi. Milli Məclisin 1995-ci il 2 may tarixli qərarı ilə Ulu öndər Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın tərkibi təsdiq olunmuşdur. Konstitusiya Komissiyasının tərkibinə qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının nümayəndələri ilə yanaşı, tanınmış ictimai-siyasi və elm xadimləri, görkəmli hüquqşünaslar, tarixçilər, dilçilər daxil edilmişdi.

Ümummilli lider Heydər Əliyev Komissiyanın fəaliyyəti zamanı Əsas Qanunun layihəsinə dair öz dəyərli tövsiyələrini vermiş, Konstitusiyanın hər bir müddəasını şəxsən nəzərdən keçirmiş, Konstitusiya layihəsinin açıq müzakirələrini təşkil etməklə onun ən yetkin formada qəbulunu təmin etmək üçün gərgin əmək sərf etmişdi. Konstitusiya layihəsini hazırlayan Komissiyanın 1995-ci il oktyabrın 3-də keçirilən iclasında Komissiyanın sədri Heydər Əliyev bildirmişdi: “Bizim yeni Konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir. Bir sözlə, biz elan etmişik və mən bir daha bəyan edirəm ki, Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı, dünyəvi dövlət qururuq”.

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə ilk milli Konstitusiyamız qəbul edildi. Referendum ərəfəsində Ulu öndər Heydər Əliyev demişdi: “Komissiyanın sədri kimi mən bu böyük tarixi sənədin hazırlanmasında öz şəxsi məsuliyyətimi daim dərk etmişəm, bu gün də dərk edirəm. Ona görə də bu sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Haqqım var deyəm ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bu gün bəyan edirəm. Hesab edirəm ki, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd - siyasi, hüquqi sənəd yaratmışıq”. Həqiqətən də, konstitusiyamızda demokratik hüquqi dövlətin təşəkküllü və inkişafı üçün bütün dəyərlər qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, hakimiyyətlərin bölgüsü, konstitusiya nəzarəti prinsipləri təsbit olunmuş, insan hüquqlarının təmini dövlətin ali məqsədi kimi bəyan edilmişdir.

Beləliklə, Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi - referendum yolu ilə qəbul edilən Əsas Qanun müstəqil Azərbaycanın ilk Konstitusiyası dövlətçilik tariximizin ən mühüm tarixi hadisələrindən biri olmaqla yanaşı, hüquqi islahatların əsası və normativ bazası rolunu oynamışdı.

Ümumxalq səsverməsi ilə qəbul edilmiş yeni Konstitusiyamıza əsaslanaraq mütərəqqi hüquq sistemi formalaşdırmaq üçün qabaqcıl beynəlxalq təcrübəni, ümumbəşəri demokratik prinsipləri rəhbər tutmaqla, Azərbaycan xalqının dövlətçilik tarixi və ənənələri əsasında

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

islahatlar aparılması üçün Ümummilli liderin 1996-cı il 21 fevral tarixli sərəncamı ilə Hüquqi İslahat Komissiyası yaradıldı. Hüquqi dövlət quruculuğuna və hüquq sisteminin islahatına müstəsna əhəmiyyət verən Ümummilli lider Hüquqi İslahat Komissiyasına rəhbərliyi bilavasitə öz üzərinə götürmüş və islahatlara şəxsən rəhbərlik etmişdi.

Komissiyanın 4 may 1996-cı ildə keçirilmiş iclasında Ümummilli lider Heydər Əliyev demişdir: "Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının həyata keçirilməsi prosesi hər birimizin əsas vəzifələrindən biridir. Bu baxımdan məhkəmə, hüquq-mühafizə orqanlarının islahatı ilə əlaqədar qanunların hazırlanması, qəbul olunması çox mühüm əhəmiyyət kəsb edir. İndi qarşımızda Konstitusiya əsasında qanunların qəbul olunması kimi çox böyük vəzifələr var. Hər sahədə qanunlar qəbul edilməlidir. İndi mən vaxt deyə bilmərəm, bir il, iki il, hər halda müəyyən bir zaman ərzində nail olmalıyıq ki, bütün sahələr üzrə müstəqil Azərbaycan dövlətinin qanunları olsun".

Komissiyanın hərtərəfli və gərgin fəaliyyəti nəticəsində "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Notariat haqqında", "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında", "Təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən məhkəməyə şikayət edilməsi haqqında" qanunların, hüquq sisteminin mahiyyətini müəyyən edən Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki Prosessual, Əmək, Ailə, İnzibati Xətalar, Gömrük, Vergi və digər məcəllə və normativ hüquqi aktların layihələri hazırlanmış və nüfuzlu beynəlxalq qurumların ekspertizasından sonra qəbul edilmişdi.

Dövlətimizin Əsas Qanunu qəbul edildikdən sonra 1998-ci il iyulun 14-də Milli Məclisin qərarı və Ulu öndər Heydər Əliyevin həmin orqanın müstəqilliyini və hakimlərin hüquqi statusunu təmin etmək məqsədilə imzaladığı fərmanla konstitusiya nəzarəti orqanı - Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi fəaliyyətə başlamış, bu təsisatın dövlət hakimiyyəti sistemində yeri və rolu müəyyənləşdirilmişdir. Ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə yaradılmış Konstitusiya Məhkəməsinin əsas məqsədləri Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etməkdən, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə etməkdən ibarətdir. Ali konstitusiya ədalət mühakiməsi orqanı olan Konstitusiya Məhkəməsi Əsas Qanunun ona verdiyi səlahiyyətlər çərçivəsində sorğu, müraciət və şikayətlər əsasında qəbul etdiyi məhkəmə aktları ilə bu məqsədləri həyata keçirir və bununla milli hüquq sisteminin inkişafına, hüquq tətbiqetmə təcrübəsinin istiqamətlən-dirilməsinə öz töhfəsini verir. Konstitusiya Məhkəməsinin qərarlarında əksini tapan hüquqi mövqelər Konstitusiyanın əsasları, Azərbaycan Respublikasının tərəfdaş çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalar, habelə insan hüquq və azadlıqlarının prioriteti prinsipi nəzərə alınmaqla formalaşdırılır. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə keçirilən 2002-ci il 24 avqust tarixli referendumda Əsas Qanunun bir sıra maddələrində əlavə və dəyişikliklərin edilməsi məhz həmin dövr üçün ictimai münasibətlərin daha səmərəli tənzimlənməsi məqsədilə aparılan

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

konstitusiya islahatlarının tərkib hissəsi olmuşdur. İslahatlardan sonra Konstitusiya Məhkəməsinə müraciət etmək hüququna malik subyektlərin dairəsi də əhəmiyyətli dərəcədə genişləndirilmiş, Azərbaycanda ilk dəfə olaraq konstitusiya şikayəti institutunun tətbiqinə başlanılmış, eləcə də Ombudsmana və məhkəmələrə Konstitusiya Məhkəməsinə bilavasitə müraciət etmək imkanları verilmişdir.

Konstitusiyamızın müəyyənləşdirdiyi mühüm yeniliklərdən biri də hüquqi dövlətin göstəricisi olan müstəqil məhkəmə hakimiyyətinin yaradılması olmuşdur. Əsas Qanunda məhkəmə hakimiyyətinin və ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtlərinin öz əksini tapması ölkəmizdə məhkəmə-hüquq islahatları, məhkəmə hakimiyyəti orqanlarının bir sıra yeni funksiyalar əldə etməsinə geniş imkanlar yaratmışdır. Azərbaycanda ədalət mühakiməsinin həyata keçirilməsini təmin etmək məqsədilə müstəqil məhkəmə hakimiyyətinin yaradılmasına yönəlmiş qanunvericilik bazası formalaşdırılmışdır. Ümummilli liderin təşəbbüsü ilə hələ 1997-ci ildə qabaqcıl dövlətlərin təcrübəsinə əsaslanan “Məhkəmələr və hakimlər haqqında” yeni qanun qəbul olunmuş, 1998-ci ildə isə məhkəmə islahatlarına dair proqram xarakterli “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə” Fərman imzalanmışdır. Ümummilli liderin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatları nəticəsində 2000-ci ildən etibarən yeni, insan hüquqlarının daha etibarlı müdafiəsinə təminat verən üçpilləli məhkəmə sistemi fəaliyyətə başlamışdır. Yəni ölkəmizdə birinci, apellyasiya və kassasiya instansiyalarından ibarət məhkəmə sistemi formalaşmışdır. Yeni məhkəmə quruluşu işlərə birinci instansiya məhkəmələrində baxılmasına, onların baxdıqları hüquqi və faktiki məsələlərə apellyasiya qaydasında yenidən baxılmasına, daha sonra isə hüquqi məsələlərin kassasiya qaydasında yoxlanılmasına imkan verir. Bu da birinci instansiya məhkəmələrinin yol verdikləri səhvlərin yuxarı instansiya məhkəmələri tərəfindən aradan qaldırılmasına, işlərin obyektiv və düzgün həll edilməsinə zəmin yaratmışdır. Məhkəmə-hüquq islahatları çərçivəsində həyata keçirilən ən əhəmiyyətli tədbirlərdən biri də 2000-ci ildə ilk dəfə olaraq şəffaf müsabiqə əsasında, o cümlədən test üsulu ilə hakimlərin seçkisinin aparılması olmuşdur. Heydər Əliyev həmin il Vaşinqtonda keçirilən beynəlxalq konfransda demişdir: “Biz Azərbaycanın məhkəmə sistemini tamamilə müasir səviyyəyə qaldırdıq və demokratik prinsiplər əsasında yaratdıq. Bütün hakimlər test üsulu ilə imtahandan, yarışdan keçdilər və kim qalib gəldi, o da hakim təyin olundu”. Hazırda hakim korpusunun 60 faizi keçirilən imtahanlarda uğur qazanmış, zəruri peşə biliklərinə malik olan şəxslərdən ibarətdir.

İslahatların nəticəsi olaraq ölkəmizdə ilk dəfə ikinci instansiya kimi apellyasiya məhkəmələri fəaliyyətə başlamışdır. Apellyasiya Azərbaycanın hüquq sistemində yeni institutdur. Belə ki, Sovet hüquq sistemi apellyasiyanı burjua-hüquq institutu hesab edir və onu qəbul etmirdi. Apellyasiya icraatının əhəmiyyəti ondan ibarətdir ki, apellyasiya instansiyası məhkəmələri işə mahiyyəti üzrə yenidən baxarkən məhkəmə qərarlarının yoxlanılması nəticəsində aşağı məhkəmələrdə ayrı-ayrı işlər üzrə yol verilmiş məhkəmə səhvlərini aradan qaldırırlar ki, bu da birinci instansiya məhkəmələri tərəfindən

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

qanunların düzgün şərh edilməsinə və tətbiqinə, habelə ədalətli qərarların çıxarılmasına kömək edir. Apellyasiya instansiyası məhkəmələri oxşar işlərə baxılarkən bu cür səhvlərin təkrarlanmasının mümkün-lüyünün qarşısını alırlar.

Azərbaycan 2001-ci il yanvarın 25-də Avropa Şurasına üzv olmuş, Avropa insan hüquqları Konvensiyasına qoşulmuş və Avropa İnsan hüquqları Məhkəməsinin yurisdiksiyasını qəbul etmişdir. Bununla da milli qanunvericiliyin təkmilləşməsi, Avropa standartlarına cavab verən yeni qanunların qəbul edilməsi prosesi daha da sürətləndirilmişdir. Qəbul olunmuş qanunlar məhkəmə sistemində əsaslı dəyişikliklərin aparılmasına, bu sistemin daha mütərəqqi olmasına, təkmilləşməsinə və müstəqil fəaliyyət göstərməsinə imkan yaratmışdır.

Ümummilli lider Heydər Əliyev tərəfindən həyata keçirilən islahatlar prokurorluq orqanlarını da əhatə etmişdir. Konstitusiya ilə prokurorluq orqanları məhkəmə hakimiyyəti sisteminə daxil edilmişdir. 1999-cu ildə qəbul edilən "Prokurorluq haqqında" Qanunla prokurorluğun məhkəmələr üzərində nəzarəti və bazar iqtisadiyyatı münasibətlərinin inkişafına mane olan ümumi nəzarət funksiyaları ləğv olunmuş, onun mülki və kommersiya işlərinə müdaxilə etməsi məhdudlaşdırılmışdır. İnsan hüquq və azadlıqlarını məhdudlaşdıran prosessual hərəkətlərin prokurorluq tərəfindən həyata keçirilməsinə qanunla müəyyən edilmiş hallarda və qaydada yalnız məhkəmənin qərarına əsasən yol verilmişdir. Prokurorluğun cəzaçəkmə müəssisələrində və nəqliyyatda qanunların icrasına nəzarət funksiyaları aradan qaldırılmışdır.

Prokurorluğun yenidən formalaşmasında Ulu öndər Heydər Əliyevin respublika prokurorluq orqanlarının rəhbər işçiləri ilə 26 aprel 2000-ci il tarixdə keçirdiyi məşhur müşavirənin müstəsna əhəmiyyəti olmuşdur. Məhz həmin müşavirədən sonra prokurorluq orqanlarında əsl islahatlara başlanılmış, Ümummilli liderin müşavirədəki proqram xarakterli çıxışından irəli gələn tələblər və göstərişlər bu orqanda həyata keçirilən islahatların əsasını təşkil etmişdir.

"Prokurorluq haqqında" Qanuna görə hazırda prokurorluğun fəaliyyət istiqamətləri aşağıdakı kimi müəyyən edilmişdir: cinayət işi başlamaq və ibtidai istintaq aparmaq, habelə korrupsiya ilə bağlı cinayətlər üzrə cinayət işinin başlanmasını və ya istintaqın aparılmasını təmin etmək məqsədilə əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək; cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik etmək və qanunlara riayət edilməsini təmin etmək; təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarət etmək; məhkəmədə iddia qaldırmaq (ərizə vermək), mülki və kommersiya mübahisələrinə dair işlərə baxılmasında iddiaçı kimi iştirak etmək; məhkəmədə cinayət işlərinə baxılmasında tərəf kimi iştirak etmək, dövlət ittihamını müdafiə etmək; məhkəmə qərarlarından və səlahiyyətli orqanın (vəzifəli şəxsin) inzibati xəta haqqında iş üzrə qərarlarından protest vermək; İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq, inzibati xəta haqqında iş üzrə icraata başlama haqqında qərar qəbul etmək; məhkəmələr tərəfindən təyin edilmiş cəzaların məqsədinə nail olunmasında iştirak etmək.

Hüquq mühafizə orqanları içində mühüm yer tutan polis orqanlarının fəaliyyətini tənzim etmək məqsədilə "Polis haqqında" Qanun qəbul edilmişdir. Qanuna əsasən polis ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

edilməsi, cinayətlərin və digər hüquq-pozmaların qarşısının alınması və onların açılması, habelə yol hərəkətinin təhlükə-sizliyinin təmin edilməsi istiqamətlərində fəaliyyət göstərir. Həmin qanunla polisin səlahiyyətləri, hüquqları və vəzifələri, habelə polisin fəaliyyəti üzərində nəzarət mexanizmləri müəyyən edilmiş, polis əməkdaşlarının qanunsuz hərəkətlərindən və qərarlarından məhkəməyə müraciət etmək hüququ təsbit olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ədliyyə orqanlarında əsaslı islahatlar aparılmış, ədliyyə sisteminin hərtərəfli inkişafı üçün əhəmiyyətli qərarlar qəbul olunmuşdur. Məhkəmə qərarlarının icrası sistemini təkmilləşdir-mək, cəza- islah işini humanistləşdirmək, insan hüquqlarının, azadlıqlarının gözlə-nilməsini təmin etmək məqsədilə penitensiar müəssisələr Daxili İşlər Nazirliyindən Ədliyyə Nazirliyinin tabeliyinə verilmişdir. Məhkəmə qərarları-nın icrası işinin müstəsna əhəmiyyəti nəzərə alınaraq nazirliyin tərkibində icra xidməti institutu təsis edilmiş, istintaq idarəsi yaradılaraq ədalət mühakiməsi əleyhinə olan və bir sıra digər cinayətlərin ibtidai istintaqının aparılması Ədliyyə Nazirliyinə həvalə olunmuşdur. Həmçinin bələdiyyələrə metodoloji yardımın gös-tərilməsi, eləcə də inzibati nəzarətin həyata keçirilməsi Ədliyyə Nazirliyinə tapşırıl-mışdır.

Ulu öndər Heydər Əliyev tərəfindən humanist cəza-icra siyasəti həyata keçirilmişdir. Heydər Əliyevin 1993-cü ildən tətbiqinə moratorium qoyduğu ölüm hökmü 1998-ci il fevralın 10-da tamamilə ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərarı verən ilk ölkə olmuşdur. Əfvetmə institutunun bərpası və Azərbaycan Respublikası Prezidenti yanında Əfv Komissiyasının yaradılması bu istiqamətdə atılmış mühüm addım olmuşdur. 1995-2003-cü illərdə Ümummilli lider Heydər Əliyev tərəfindən 3104 məhkuma şamil edilən 32 əfv fərmanı imzalanmışdır.

Ölkəmizdə aparılan hüquq islahatla-rının mühüm tərkib hissəsi olaraq 2001-ci ildə dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi məqsədilə qeyri-məhkəmə müdafiə mexa-nizmi olan yeni institut -Azərbaycan Res-publikasının İnsan hüquqları üzrə Müvək-kili (Ombudsman) institutu yaradılmışdır.

Bu gün qürur hissi ilə deyə bilərik ki, Ümummilli liderin əsasını qoyduğu məhkəmə-hüquq islahatları da onun layiqli davamçısı, ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə məhkəmə hakimiyyətinin inkişafına xidmət edən genişmiqyaslı islahatlar aparılmış, bu sahədə yeni iş metodlarının, qabaqcıl informasiya-kommunikasiya texnologiyalarının və elektron xidmətlərin geniş tətbiqi təmin edilmiş, ən müasir infrastrukturun yaradılması üzrə tədbirlər görülmüşdür. Məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası və həmçinin Hakimlərin Seçki Komitəsinin yaradılmış, hakimliyə namizədlərin mütərəqqi və şəffaf seçilməsi qaydaları müəyyən olunmuşdur. İlham Əliyevin “Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2006-cı il 19 yanvar tarixli Fərmanı ilə respublika apellyasiya və kommersiya məhkəmələrinin əvəzinə 6 regional apellyasiya, habelə əlavə 3 yerli

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

kommersiya məhkəməsi yaradılmışdır. İlk dəfə olaraq 2011-ci ildən dövlət orqanları tərəfindən insan haqlarının pozulmasının qarşısının alınmasında mühüm rol oynayan inzibati məhkəmələr fəaliyyətə başlamışdır.

Azərbaycan Prezidentinin 2014-cü il 13 fevral tarixli "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" Sərəncamı isə bu sahədə ötən illərdən başlanmış islahatların uğurlu davamına etibarlı zəmin yaradır. "Elektron məhkəmə" sistemi müasir texnologiyaların məhkəmələrin fəaliyyətində tətbiqi məhkəməyə müraciət imkanlarının genişlənməsinə, ədalət mühakiməsinin həyata keçirilməsində süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına, aşkarlıq və operativliyin təmin edilməsinə, məhkəmə qərarlarının icrasına nəzarətin effektivliyinin artırılmasına, elektron kargüzarlığın və elektron sənəd dövriyyəsinin təmin edilməsinə xidmət edir.

Dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixdə imzaladığı, məhkəmə-hüquq sistemi üçün "Yol xəritəsi" olan Fərmanı hüquqi islahatların aparılmasının mühüm mərhələlərindən biri olmuşdur. Belə ki, bu fərmanla məhkəmə islahatları müasir çağırışlara uyğun olaraq, yeni mərhələyə keçmiş, fərmanın icrası üzrə bölgələrdə ayrıca inzibati və kommersiya məhkəmələri yaradılmış, özəl ekspertiza təsbit olunmuş, mediasiya institutu fəaliyyətə başlamışdır. Fərmanla həmçinin, hakimlərin sayı 200 vahid artırılmış, mütəmadi olaraq hakimlərin təyinatı üçün müsabiqələr elan edilərək keçirilmişdir.

Əminliklə deyə bilərik ki, məhkəmə-hüquq sistemində aparılan islahatlar məhkəmə hakimiyyəti orqanlarının fəaliyyəti daha da müasirləşdirilməsinə, ədalət mühakiməsinin daha çevik, işlək və obyektiv mexanizmlər əsasında həyata keçirilməsinə zəmin yaradıb.

Öz ömrünü xalqına xidmətə həsr etmiş Ulu öndərin böyüklüyü və həyata keçirdiyi genişmiqyaslı islahatların xarakteri zaman keçdikcə daha da dərindən dərk edilir. Azərbaycan xalqı Heydər Əliyevin irsinə həmişə böyük fəxr və qürur hissi ilə yanaşır. Ümummilli liderin irsinin öyrənilməsi və təbliği qarşımızda duran əsas vəzifələrdən biridir. Ölkə Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Heydər Əliyevin xatirəsinə ən böyük hörmətimiz onun yoluna sədaqətimizdir. Biz bu yolla gedirik və bu gün Azərbaycan reallıqları, uğurlar, qələbələr, bax, bu yolun təməlində dayanıb".

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

**NAZLI YAQUBOVA**
*Naxçıvan Dövlət Universiteti*

Müstəqillik hər bir xalqın ən əziz nemətidir. Əsrlər boyu tarixin şahidlik etdiyi müharibələr və mübarizələrin əsası dünya xalqlarının müstəqillik istəyindən qaynaqlanmışdır. Lakin müstəqilliklə yanaşı, onu qoruyub saxlamaq da bir o qədər çətin prosesdir. Bu müqəddəs yolda xalqımız olum ya ölüm mübarizəsi aparıb. Bu çətin prosesdə xalqının fədaisi Ümummilli lider Heydər Əliyev canı bahasına xilaskarlıq missiyasını üzərinə götürmüşdür. Bir əsrdə iki dəfə müstəqillik əldə edən mübariz xalqımız müstəqilliyin qorunub saxlanması kimi müqəddəs missiyada Heydər Əliyev dühası ilə tarix yazdı.

Xalqın xilaskar olaraq gördüyü Heydər Əliyev hələ SSRİ vaxtında mühüm dövlət vəzifələrində çalışmışdır. Heydər Əliyev 1969-ci ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci Katibi seçilir. Xalqına xidmət etməkdən bir an belə yorulmayan dahi lider ölkənin inkişafı yolunda əvəzsiz addımlar atır. Baxmayaraq ki, SSRİ qurulduğu andan etibarən xüsusilə Azərbaycanda milli kadr potensialını hədəf alır, Azərbaycan xalqının qaymaq təbəqəsini soyqırım və deportasiyalara məruz qoyurdu. Vətən oğulları ordu sıralarına çağırılmır, xalqın sosial və siyasi inkişafı müxtəlif yollarla süni şəkildə dayandırılırdı.

SSRİ–nin ölkəmizə yönəlmiş mənfi kadr siyasətinin kəskin vaxtında Heydər Əliyev kimi bir şəxsiyyətin vəzifəyə gəlməsi dahi siyasətçinin böyük əzmkarlığı və uzaqgörənliyinin bir daha sübutudur. Siyasi hakimiyyətinin başladığı ilk vaxtlardan o, açıq və ya gizli şəkildə Azərbaycan xalqının maariflənməsi, inkişafı yolunda misilsiz addımlar atmışdır.

1991-ci ildə SSRİ-nin dağılması ilə Azərbaycan azad bazar iqtisadiyyatına keçid etdi. Lakin yenicə müstəqilliyinə qovuşan Azərbaycan dövləti istər daxili, istərsə də xarici siyasətdə istiqrarsızlıq və xaos yaşayırdı. Bir tərəfdən cəzasızlıq mühitindən istifadə edən erməni birləşmələrinin Qarabağdakı özbaşınalıqları, digər tərəfdən səriştəsiz və təkistiqamətli hakimiyyət ölkəni anarxiyaya sürükləyirdi. Bu xaosun əsas səbəbi isə Rusiyanın Cənubi Qafqazdakı varlığını qorumaq təlaşından qaynaqlanırdı. Təbii ki, Rusiyanın isterikaya qapılması əbəs deyildi. İstər “meydan” hərəkatı, istərsə də “sərhəd” hərəkatı Azərbaycan xalqının polad iradəsini, sarsılmaz qətiyyətini, müstəqillik üçün can atan ruhunu nəinki Rusiyaya, eləcə də bütün dünyaya nümayiş etdirdi (1).

1990-cı ildə dahi siyasətçi qanlı yanvar hadisələrinə görə SSRİ hakimiyyətinə kəskin etirazını bildirir və iyul ayında Azərbaycana qayıdır, siyasi fəaliyyətini Naxçıvanda davam etdirir. Xalqın israrlı təkidi və tələbi ilə 1993-cü il 9 iyununda Bakıya qayıdır. Bu tarix sadəcə təqvim deyil, Azərbaycan xalqının qurtuluşunun tarixçəsidir. 15 iyunda Azərbaycan Ali Sovetinin Sədri Seçilir (1).

Heydər Əliyev hakimiyyətə gəldiyi ilk gündən Azərbaycanın yerləşdiyi geostrateji ərazini nəzərə alaraq özünəməxsus siyasi dəsti xətt seçmişdir. Heydər Əliyevdən əvvəlki hakimiyyətlər xarici siyasətdə daha radikal mövqede duraraq diplomatik təfəkkürdən uzaq olan emosional və təkyönlü siyasət seçmişdilər. Bu siyasət 1990-1993-cü illərdə yaşanmış qarışıqlıqların, siyasi istiqrarsızlıqların əsas səbəblərindəndir. Rusiyanın Cənubi Qafqaza qarşı “arxa bağça” siyasətini həmin ərəfədə göz ardı etmək mümkün deyildi. Həmçinin də İranın türk dünyası

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

ilə bağlı qorxuları, "Turançılıq" ideologiyası bu ölkəni Azərbaycana qarşı əks siyasət yürütməyə sövq edirdi. Hər iki dövlətlə üst-üstə düşməyən milli maraqlar Azərbaycanın daxilində yeni çaxnaşmalar yaradır, hakimiyyət uğrunda mübarizələr daha da qızışırdı. Bütün bu siyasi xaos və anarxiyanı görən ziyalılar və xalq xilaskarını hakimiyyətə dəvət edir. Xalqın təkidi və tələbi ilə dahi şəxsiyyət öz millətinə və dövlətinə sahib çıxır. Çünki xalq çox yaxşı bilirdi ki, bu siyasi qarışıqlığın öhdəsindən yalnız Heydər Əliyev kimi düha gələ bilər (1).

Uzaqgörən siyasətçi 1993-cü il oktyabrın 3-də Prezident seçilir. Beləliklə 1990-1993-cü illər ölkədə baş verən siyasi hərc-mərclik və anarxiya Heydər Əliyevin səyləri ilə səngidi. Heydər Əliyev iqtidara gəldiyi gündən çoxşaxəli diplomatiya həyata keçirdi, eyni zamanda ölkə daxilində qarışıqlığa son verərək mərkəzləşdirilmiş dövlət yaratmağa müvəffəq oldu.

1993-cü ilin ikinci yarısında ölkənin siyasi fəaliyyətində və xarici siyasətində köklü dəyişikliklər yaşanmağa başladı. Dahi siyasətçi dövrün ən düşünülmüş siyasətini balans siyasətini həyata keçirirdi. Nəzərə alaq ki, Cənubi Qafqazda Qərbin və Rusiyanın maraqları hər zaman toqquşur. Azərbaycan Rusiyanın bölgəyə təsir gücünü hər zaman azaltmağa çalışıb. Bunun üçün qərb ölkələri ilə iqtisadi və siyasi əlaqələri qoruyub möhkəmləndirməyə və inkişaf etdirməyə üstünlük verib.

Heydər Əliyev hakimiyyətinin qarşısında duran ən ümdə vəzifələrdən biri Azərbaycanın Beynəlxalq münasibətlər sisteminə inteqrasiyası və Qarabağ problemi idi. Azərbaycan tarixi həqiqətlərini dünya ictimaiyyətinə çatdırmağı və beynəlxalq sistemin dəstəyini qazanmağı əsas məqsədlərindən biri hesab edirdi. Çünki Azərbaycanın ərazi bütövlüyünə qəsd olunmuş, ərazilərinin 20%-i işğal edilmiş, insan hüquqları ciddi şəkildə pozulmuşdu. Həm də dövlətimizin suveren hüquqları tapdalanmış və müstəqilliyimizə qarşı təhdidlər, risqlər yaranmışdı.

Heydər Əliyev bütün bu faktları nəzərə alaraq qətiyyətli siyasi dəsti xətt seçdi. Enerji amilindən də istifadə etməklə dünyanın aparıcı ölkələri ilə siyasi, iqtisadi və mədəni əməkdaşlıq platforması yaratmağı vacib şərt hesab edirdi. Nefti vasitə olaraq istifadə etməklə dünyanın böyük dövlətlərinin, beynəlxalq təşkilatların, iri kommersiya şirkətlərinin diqqətini regiona çəkməklə, eyni zamanda Ermənistan üzərində təsir mexanizməsı formalaşdıracaqdı. Avropanın alternativ enerji axtarışı onu Azərbaycanla əməkdaşlığa sövq edəcək və nəticədə böyük dövlətlər Azərbaycanın təhlükəsizliyində maraqlı olacaqlardı (6. S 88).

Ümummilli liderimizin siyasi səriştəsi nəticəsində BMT Təhlükəsizlik Şurası Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı ilə bağlı 822, 853, 874, 884 saylı qətnamələr qəbul edib. 822 nömrəli qətnamə Kəlbəcərin işğalından sonra qəbul edilmişdir. Qətnamə bölgədəki hərbi əməliyyatlara son verməyə, erməni qoşunlarının Kəlbəcərdən və son dövrlərdə işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməsini tələb edirdi. 853 nömrəli qətnamə bölgədəki hərbi əməliyyatlara son verməyi, erməni qoşunlarının Ağdamı və son dövrlərdə işğal etdiyi Azərbaycan torpaqlarınından geri çəkilməsini tələb edirdi. Qətnamə, həmçinin 822 saylı qətnaməyə də əməl edilməsini tələb edirdi. 874 nömrəli qətnamə atəşkəs imzalanmasını, hərbi əməliyyatları dayandıraraq erməni qoşunlarının son dövrlərdə işğal etdiyi Füzuli (23 avqust 1993), Cəbrayıl (26 avqust 1993), Qubadlı (31 avqust) və digər

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

ərazlərdən geri çəkilməsini tələb edirdi. Qətnamədə həmçinin əvvəlki 822 və 853 saylı qətnamələrə əməl edilməsi tələbi də öz əksini tapmışdı. 884 nömrəli qətnamə ilə tərəflər arasında yenidən hərbi əməliyyatların bərpası ilə nəticələnən atəşkəs pozulmaları qınanılır, Ermənistan Respublikasından ermənilərin qondarma respublika üzərindəki bütün təsir vasitələrindən istifadə etməsi istənilirdi. Qətnamədə hərbi əməliyyatların dərhal dayandırılması tələb edilir, son dövrdə işğal edilmiş Zəngilan rayonu da daxil olmaqla, digər rayonlardan erməni silahlı dəstələrinin çıxması tələb edilirdi. Sonda isə əvvəl qəbul edilmiş 822, 853, 874 saylı qətnamələrə əməl edilməsi tələb edilirdi.

Bu qətnamələrin icrası böyük güclərin ikili standartlarla yanaşması nəticəsində 2020-ci ilin sentyabrına qədər kağız üzərində qaldı. Qüdrətli Azərbaycan dövlətinin müzəffər ordusu və dahi diplomat Heydər Əliyevin siyasi dəstixəttinin davamçısı Cənab prezidentimiz İlham Əliyevin çevik və uzaqgörən siyasəti nəticəsində “Vətən müharibəsində” qətnamələr icra olundu.

Dahi diplomat Heydər Əliyevin misilsiz səyləri nəticəsində qəbul edilmiş bu qətnamələr həyati əhəmiyyət kəsb edir. BMT Təhlükəsizlik Şurasının daimi üzvlərini nəzərə alsaq, xüsusilə Fransanın tarix boyu ermənipərəst mövqedə olması, islamafobiyanın, antitürk siyasətinin açıq və qabarıq şəkildə həyata keçirilməsi qəbul edilmiş qətnamələrin əhəmiyyətini bir daha sübut edir. 2020-ci ildə İkinci Qarabağ müharibəsi ərəfəsində Rusiya və Fransanın bu qətnamələri qüvvədən salacaq yeni qətnamənin qəbulu ilə bağlı səyləri Cənab prezident İlham Əliyevin düşünülmüş, uzaqgörən siyasəti nəticəsində uğursuzluqla nəticələnir.

Hər nə qədər dünya dövlətləri regional sülh və təhlükəsizlik məsələsinin önəmini vurğulasalar da Ermənistanın təxribatlarını, Azərbaycanın suverenliyinə olan təhdidlərini görməzdən gəlirdilər. 1997-ci ildə dəyəri 1 milyard ABŞ dolarından çox olan müasir silah və sursatın qeyri-qanuni yollarla Rusiya tərəfindən Ermənistana verilməsi məsələsi ortaya çıxmışdır. Hətta Azərbaycan ərazilərinin işğalında bu silahlardan istifadə edilməsi Beynəxalq hüququn kobud şəkildə pozulduğuna nümunədir (4, s.218).

1994-cü il 12 may tarixində Bişkekdə Azərbaycan və Ermənistan arasında atəşkəs sazişi imzalanır. Bundan sonra isə Qarabağ probleminin diplomatik qaydada, beynəlxalq hüquqa uyğun həlli istiqamətində aramsız danışıqlar başlayır.

Ardınca isə 1994-cü il 20 sentyabr tarixində Bakıda Gülüstan sarayında “Əsrin müqaviləsi” adlı meqa lahiyə imzalanır. Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Azəri, Çıraq və Günəşli yataqlarının ortaq işlənməsi və pay bölgüsü ilə bağlı bu lahiyəni ABŞ “Əsrin müqaviləsi” olaraq adlandırmışdır. Bu məlumat Ümummilli liderimizin ABŞ prezidenti Bill Klintona yazdığı məktubunda da öz əksini tapmışdır.

Ümumi dəyəri 8 milyard dollar olan bu meqa layihə Heydər Əliyevin enerji diplomatiyasının əsasını qoydu. 1994-2003 cü illərdə Şahdəniz yatağının da aid olduğu daha 22 müqavilə imzalanmışdır. Şahdəniz yatağını digər yataqlardan fərqləndirən əsas məsələ 400 m2 milyard qaz ehtiyatı ilə Azərbaycanın bölgədə Rusiya və İrana rəqib olması idi. Dahi şəxsiyyət Heydər Əliyevin diplomatik səriştəsi nəticəsində imzalanan bu müqavilələr Azərbaycan üçün həyati əhəmiyyət kəsb edirdi. Ölkəmiz həm iqtisadi cəhətdən güclənir, həm də dünya ölkələri arasına söz sahibi

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

olurdu.

Azərbaycanın enerji siyasətinə öz töhfəsini verən Heydər Əliyevin daha bir uğuru "21-ci əsrin layihəsi " adlandırılan Bakı-Tbilisi-Ceyhandır. 1998-ci ilin 29 oktyabr tarixində Azərbaycan, Türkiyə, Gürcüstan və Qazaxıstan belə bir layihənin önəmini vurğulayan Ankara bəyan-naməsini imzalayırlar. 1999-cu ilin 18 noyabr tarixində Azərbaycan, Türkiyə və Gürcüstan arasında ATƏT-in İstanbul sammitində ilkin razılaşmalar əldə olunur. 2002-ci ilin 18 sentyabr tarixində Bakıda, Səngəçal terminalında təməl atma mərasimi olur. Açılış mərasimində Ümum-milli lider Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru xətti haqında belə deyir: "2005-ci ildə hamımız Ceyhana gedəcəyik. Bu xəyal deyil, bir həqiqətdir"

Dahi siyasətçi xarici siyasətdə region ölkələri ilə yanaşı, dünyanın aparıcı dövlətləri ilə münasibətlərə xüsusi diqqət etmişdir. Hələ Naxçıvanda Ali Məclisin Sədri olarkən ABŞ prezident seçkilərində qalib gələn Bill Klintona təbrik məktubu göndərmişdir. Məktubda Azərbaycan-ABŞ münasibətlərinin normallaşacağından, həmçinin də Naxçıvanın Ermənistan tərəfindən blokadaya alınmasına ABŞ-ın icazə verməyəcəyinə dair dərin inancını bildirmişdir(2). Heydər Əliyev malik olduğu böyük idarəçilik qabiliyyəti, siyasi təcrübəsi harda olmasından asılı olmayaraq lazımı və düzgün qərarlar verməsinə imkan yaradırdı. Hər zaman bu uzaqgörənlik xalqımızın və dövlətimizin təhlükəsizliyinə hesablanırdı. 4 fevral 1993-cü ildə isə ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Richard Miles Naxçıvana səfər etmiş, Heydər Əliyev ilə görüşündə ABŞ dövlət başçısı Bill Klintonun yaşanan bu hadisələrdən məyus olduğunu bildirmişdir. Eyni zamanda Azərbaycan-Ermənistan məsələlərindən, Naxçıvanın blokadaya alınmasından, bu blokadanın yaratdığı çətinliklərdən geniş söz açılmışdır. Səfir Bill Klintonun Naxçıvana humanitar yardımla bağlı məktubunu Heydər Əliyevə təqdim etmişdir(2). ABŞ-ın Azərbaycana qarşı hər cür yardımı yasaxlayan 907-ci maddəyə (1992-ci ildə ABŞ-dakı erməni lobbisinin konqresdəki aktiv fəalliyyətindən Azərbay-cana qarşı qəbul edilmiş Azadlığı müdafiə aktının 907-ci maddəsi) baxmayaraq tezliklə Naxçıvana humanitar yadım göndərilmişdir. Dahi siyasətçinin bu addımı Azərbaycan-ABŞ münasibətlərində yeni dövrün başlanğıcı sayılır.(3, s.125-126)

1997-ci il 27 iyul- 7 avqust tarixlərində ABŞ dövlət başçısı Bill Klintonun dəvəti ilə Heydər Əliyev ABŞ-a rəsmi ziyarətə getmişdir. Bu ziyarət Heydər Əliyev diplomatiyasının ən böyük uğurların-dandır. Bu ziyarəti bütün dünya medyası yaxından izləmişdir. Bu tarixi ziyarət Azərbaycanın beynəlxalq sistemə inteqrasi-yasını daha da sürətləndirmiş, həmçinin də tarixi səfər nəinki Qafqazda, eləcə də Orta Asiyada mövcud situasiyanı dəyişdirmiş-dir. Heydər Əliyevin tarixi səfəri ABŞ-ın ikili münasibətlərə, eləcə də Qarabağ məsələsinə mövqeyini də dəyişdirmişdir. Hətta ABŞ Qarabağı Azərbaycanın suveren ərazisi kimi tanımağa başlamışdır. Heydər Əliyevin aramsız diplomatik təmasları nəticəsində 2002-ci ilin yanvarında Azadlığı müdafiə aktının 907-ci maddəsi dayandırılmışdır.

Bu gün Ümummilli liderimiz Heydər Əliyevin misilsiz, analoqu olmayan diplomatiyasını, liderlik və qərar qəbul-etmə qabiliyyətini Azərbaycanın müzəffər oğlu, Ali baş komandanı İlham Əliyev qətiyyətlə həyata keçirir. Dövlət idarəçiliyi, ordu quruculuğu diplomatik səriştə və qloballaşan dünya siyasətinə sürətli inteq-rasiya nəticəsində Azərbaycan Beynəlxalq

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

münasibətlərin əsas aktorları sırasındadır. Ölkəmiz müasir dövrün dəyişən qüvvələr balansında özünəlayiq mövqe qazanmışdır.

Azərbaycan 2020-ci ilin 27 sentyabr tarixində dünya hərb tarixini yenidən, qızıl hərflərlə yazdı. Dünya dövlətlərinə müasir müharibənin qaydalarını göstərdi. Heydər Əliyevin mirasını Azərbaycanın mərd oğulları canları bahasına qorudular. Şanlı qələbə təkcə döyüş meydanında deyil, müzəffər Ali baş komandanın dəmir iradəsi ilə informasiya müharibəsində, diplomatiya sahəsində də yaşandı. Xalq dəmir yumruq olub liderinin ətrafında birləşdi.

8 Noyabr 2020-ci ildə Azərbaycanın mədəniyyət beşiyi sayılan Şuşa şəhərinin işğaldan azad olunması münasibəti ilə Ölkə başçısı İlham Əliyev Ulu öndər Heydər Əliyevin məzarını ziyarət edərkən hislərini belə ifadə etmişdir: xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!

## ƏDƏBİYYAT

1. “Azərbaycanın Ümummilli lideri Heydər Əlirza oğlu Əliyev”, http://www.haydar-aliyev.org/s01_biografia/_biografia_a.html, 24.10.2006
2. Bill Clinton’a Müraciət”, Xalq , 22 Yanvar 1993
3. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, c. I, Bakı: Azərnəşr, , 1997, s. 125-126.
4. Cabbarlı H. “Ermənistan Beynəlxalq Təhlükəsizlik Anlayışının Xarici Siyasətə Yansımaları”, Azerbaycanlı Gənç alimlər konqresi , s. 218.
5. İbrahimov N., Şükürov İ. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Bakı: Azərbaycan, 1994, s. 23.
6. Bölükbaşı S. “Azerbaycan’da Ulusun İnşası: Sovyet Mirası ve Karabağ Sorununun Etkileri”, Orta Asya ve İslam Dünyasında Kimlik Politikaları, İstanbul, İletişim, 2004, s. 88.
7. http//www.525ci.com
8. http//www.president.am
9. http://www.yeniazerbaycan.com
10. http//www.yap.org.az
11. http//www.mehriban-aliyeva.org
12. http://www.heydar
13. aliyev.org/index_1024.html
14. http://www.rferl.org/featuresarticle/2007/4/
15. 4DC0B7E-C4A4-402A-962B

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

# İQTİSADİYYAT

**AĞARZA RÜSTƏMOV**
*Naxçıvan Dövlət Universiteti*

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DÖVLƏTİNİN, İQTİSADİYYATININ QURTULUŞU

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra qısa zaman kəsiyində milli dövlətçilik sahəsində mühüm nailiyyətlər əldə etmiş, özünün hüquqi-siyasi və sosial-iqtisadi dayaqlarını möhkəmləndirərək beynəlxalq aləmdə tutduğu mövqeyə görə regionun lider dövlətinə çevrilmişdir. Əldə edilmiş nailiyyətlər ölkə daxilində milli birliyin təmin olunmasına və dünya azərbaycanlıları arasında həmrəyliyin güclənməsinə səbəb olmuşdur. Bu isə öz növbəsində, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı daha da ruhlandıraraq onların ölkəmizin milli maraqları ətrafında sıx birləşmələri üçün ciddi zəmin yaratmışdır.

Təbii ki, ölkəmizin inkişafında harada yaşamalarından asılı olmayaraq bütün həmvətənlərimizin xüsusi rolu var. Bu gün onlar Azərbaycanla fəxr edir, ölkəmizin uğurlarından qürur duyur və fərəh hissi keçirirlər. Məhz bu milli birliyə və dünya azərbaycanlılarının həmrəyliyinə nail olduğumuz üçün türk dünyasının dahi şəxsiyyəti, Ümummilli liderimiz Heydər Əliyevə borcluyuq.

Məlumdur ki, azadlıq, müstəqillik həm ayrıca bir vətəndaş üçün, həm də bütöv xalqlar, millətlər üçün ən müqəddəs, ən şirin nemətdir. Biz azadlığımızın, müstəqilliyimizin yolunu illərlə gözləmişik, mübarizə aparmışıq, bu yolda minlərlə şəhid vermişik. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir. Başqa sözlə desək, qüdrətli və möhkəm dövlət olmadan azadlıq və müstəqillik də yoxdur.

Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü ilin 15 iyun günü onu qiymətləndirənlər, dərindən dərk edənlər üçün çox əzizdir. Vətənini, xalqını sevən, həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş tarixi, Azərbaycanda ölüm-dirim mübarizəsinin tarixidir. Bu tarixi yaradan isə yenə də Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa olan bir insan - Heydər Əliyev olmuşdur.

Ümummilli liderin saf ideyaları hər zaman bizimlədir və bu dahi insan haqqında keçmiş zamanda danışmaq çox çətindir. Təəssüf ki, bəzən bu həyatın reallıqları ilə barışmağa məcburuq. Bütün bunlarla yanaşı, danılmaz həqiqətdir ki, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev zəmanəmizin böyük filosofu və mütəfəkkiri, öz dövrünün dahi siyasətçisi, dünya siyasətinin tanınmış siması olub. Məhz bunun nəticəsidir ki, Ümummilli liderin formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanı dünyaya tanıtdı, onun müasir dünyada xüsusi yerini müəyyən etdi, milli dövlətçiliyimizin bünövrəsini təşkil edərək bütün dünya azərbaycanlılarının vahid azərbaycançılıq ideyası ətrafında birləşməsi üçün möhkəm zəmin yaratdı.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

Azərbaycan ziyalısını son yüzilliklərdə ən ciddi bir şəkildə düşündürən milli dirçəliş problemləri bütöv şəkildə ulu öndər Heydər Əliyevin həmin illərdəki fəaliyyəti ilə strateji dövlət siyasətinə, elmdən, sosiologiyadan və fəlsəfədən əməli siyasət müstəvisinə keçdi. Xalqımızın dahi oğlu Heydər Əliyev öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratdı və gələcəyə aparan uzunmüddətli uğurlu strategiyanı müəyyən etdi.

Heydər Əliyevin dövlətçilik proqramında azərbaycançılıq məfkurəsi ilə bağlı diqqəti bir də məhz belə bir cəhət çəkir ki, burada mənəvi, bədii, habelə iqtisadiyyat, sənaye, tikinti və təsərrüfatdakı böyük nailiyyətlərlə güzərandakı elliklə yaxşılaşma və kütləvi ruh yüksəkliyi birləşərək vahid axarda gerçəkləşib.

Xalqımızın son otuz illik tarixi məhz Heydər Əliyev kimi böyük bir şəxsiyyətin adı ilə bağlı olmuşdur. Hələ 1969-cu ildə Azərbaycan Kommunist Partiyasının I katibi vəzifəsinə təyin olunmuş Heydər Əliyev tez bir zamanda öz gərgin əməyi sayəsində Azərbaycan Respublikasını digər SSRİ respublikaları arasında önə çıxarmışdır. Hakimiyyətinin ilk illərindən etibarən daim öz qayğısını xalqdan əsirgəməmiş, istər I katib işləyərkən, istərsə də ondan sonra İttifaq səviyyəli vəzifələrdə çalışarkən hər zaman Azərbaycan xalqını, onun maraq və mənafeyini bütün maraqlardan üstün tutan Heydər Əliyev dəfələrlə öz sinəsini sipər kimi qabağa verərək xalqımızın və dövlətimizin əleyhinə qərar qəbul edilməsinə mane olmuş, mötəbər tribunalardan dəyərli, tutarlı və kəskin fikirləri ilə düşmənləri yerində oturtmuşdur. Başqa sözlə desək, Azərbaycan xalqının keçmişi, bu günü və gələcəyi, məhz Ümummilli lider Heydər Əliyevin Azərbaycanın xoş gələcəyini düşünərək uzaqgörənliklə atdığı addımlarla bağlıdır. Bu addımlar həm müxtəlif dövrləri, həm də ayrı-ayrı istiqamətləri əhatə edirdi.

Onlardan biri də azərbaycanlı gəncləri gələcəyin müstəqil ölkəsi üçün gərəkli ixtisaslara yiyələnməkdən ötrü keçmiş Sovetlər İttifaqının nüfuzlu ali məktəblərinə göndərmək təcrübəsi kimi dəyərli təhsil ənənəsinin əsasının qoyulması idi. Bu yolla Azərbaycanımızın elmi və kadr potensialı yüksəldiyi kimi, xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinin təbliği də həyata keçirilirdi. Hakimiyyətə gəldiyi ilk günlərdən ulu öndər Heydər Əliyevin gələcəyə hesablanaraq milli dövlət quruculuğunun əsasını təşkil edən strateji proqramında Azərbaycan dilinə qayğı xüsusi olaraq diqqət mərkəzində idi. Ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə Azərbaycan dilinə həqiqi dövlət dili statusu qazandırmağa yönəlmiş fəaliyyətinin bəhrəsidir ki, 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu təsbit olundu. Dövr baxımından sözün əsl mənasında qəhrəmanlığa bərabər belə bir addım məhz gələcək müstəqil Azərbaycan dövləti naminə atılmışdı. Azərbaycan dilinin idarəçilikdə geniş tətbiqi, bütün böyük klassiklərin ittifaq miqyasında yubileylərinin keçirilməsi, Azərbaycan mədəniyyətinin ümumittifaq miqyasda ön mövqelərə çıxması, elmi, ədəbi, mədəni abidələrin planlı tədqiqi və nəşri -bütün bunlar ulu öndər Heydər

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

Əliyevin gələcək milli dövlətçiliyimizin ideya təməlində dayanan siyasətinin əməli nəticələridir.

Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını da məhz ulu öndər Heydər Əliyev yaratmışdır. Son illərin sosial-iqtisadi, siyasi, mədəni və s. sahələrdə əldə edilən uğurları isə uzaqgörən xalqımızın öz inamında həqiqətən də yanılmadığını göstərir. Əgər dönüb arxaya, müstəqillik tariximizə, təlatümlərlə dolu illərə nəzər salsaq bir daha Ümummilli liderin ucalığının şahidi olarıq.

Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra nail olduğu bütün uğurlar dahi Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ildə xalqın təkidli tələbləri ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev zəngin dövlətçilik təcrübəsindən yararlanaraq uçuruma yuvarlanan, böhranlar içində çabalayan, gələcəyini heç kimin aydın təsəvvür etmədiyi bir ölkəni xilas etdi. Azərbaycanın dünya birliyinin müstəqil bir subyekti olmaq hüququnu özünə qaytardı. 1993-cü ildən sonra dahi Heydər Əliyevin qətiyyəti sayəsində çətinliklə də olsa, müstəqilliyin ilk illərində obyektiv və ya subyektiv səbəblərdən ölkəyə vurulan yaralar sağalmağa başladı, Azərbaycan dinamik inkişaf yoluna qədəm qoydu.

Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz sosial-iqtisadi, siyasi və mənəvi tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmağa başlandı, digər tərəfdən, bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin may ayında həyati əhəmiyyət kəsb edən atəşkəs əldə edildi. Atəşkəsin həyati əhəmiyyəti onda idi ki, məhz bu müqavilədən sonra ölkəmizin dünya birliyinə inteqrasiyası, öz iqtisadi potensialından səmərəli istifadə edərək dünya bazarına daxil olmağa şərait yaradan beynəlxalq müqavilələr bağlandı. Ölkə daxilində yaranmış nisbi sabitlikdən, həmçinin, beynəlxalq aləmdə Azərbaycana münasibətdə artan inam və maraqdan istifadə edərək 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması və onun gerçəkləşdirilməsi də məhz ulu öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanan və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Ulu öndər Heydər Əliyev Azərbaycanı qüdrətli, nüfuzlu, demokratik dövlət kimi görmək istəyirdi, onun hər addım və hərəkətləri məhz buna yönəlmiş və köklənmişdir. Məhz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən Konstitusiya qəbul olundu. Beləliklə də, ölkədə daha geniş miqyaslı islahatların aparılması üçün normativ-hüquqi baza formalaşdırılmasına başlandı.

15 iyun - Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi qızıl hərflərlə həkk olunan bu tarix təkcə dövlətçiliyimizin xilası deyildi. 15 iyun həm də Azərbaycanın bu gününü, sabahını müəyyənləşdirdi. Amma çox təəssüf ki, bu

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

gün sözügedən tarixi hadisəyə yanaşmanın özündə qüsurlar ortaya çıxır. Bəs əslində o dövrdə nələr baş verirdi? 15 iyunda Azərbaycan xalqı nədən qurtulmuşdu? Bu suallara cavab tapmaq üçün həmin dövrə qısa bir ekskursiya edib bu tarixi hadisənin əsil mahiyyətini, onun siyasi, iqtisadi, mənəvi aspektlərini müəyyənləşdirmək lazımdır.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası SSRİ-nin tərkibindən çıxıb müstəqilliyini elan etdi. Bir əsrdə ikinci dəfə idi ki, Azərbaycan xalqı bu xoşbəxtliyi yaşayırdı. Əsrin əvvəlindən fərqli olaraq, bu dəfə müstəqilliyin ömrü əbədi olmalı idi. Bunun üçün isə çalışmaq, sözün həqiqi mənasında çox çalışmaq, lazım gələrsə vuruşmaq, ölmək lazım idi. Çünki bu müstəqillik ölüm, qan bahasına başa gəlmişdi və çox qurbanlar verilmişdi. Həmin dövrdə ölkədə vəziyyət get-gedə pisləşir, iqtisadiyyatın bütün sahələri sıradan çıxır, siyasi gərginlik artır, mənəvi aşınma baş verirdi. Siyasi fəaliyyətin mürəkkəbliyindən xəbərsiz, dövlətçiliyin, dövləti yaşatmağın nə qədər çətin olduğunu düzgün dərk etməyən səriştəsiz, bacarıqsız siyasətçilərin cəhdlərinin uğursuz olacağı elə ilk aylardan bəlli idi. Hakimiyyətə gəldikləri ilk gündən hər addımları nöqsanlı, hər çıxışları qüsurlu olan hakimiyyət komandası həm özlərini, həm də Azərbaycanı fəlakətə sürükləyirdi. Sovetlərin dağılmasından sonra düzəni pozulmuş dövlətin yeni düzəndə irəliləməsi üçün proqram, layihə və hər şeydən önəmlisi, düşünən beyinlərə ehtiyacı var idi. Amma bu beyinlər dövlət üçün düşünmürdü. Prezident Aparatı dövlətin idarə olunduğu ünvan olmaqdan çıxıb, şəxsi mübahisələrin, dava-dalaşların qaynar nöqtəsinə çevrilmişdi. Bunun fonunda ölkədə bütün istiqamətləri əhatə edən dərin böhran davam edirdi. İnfilyasiya 1800 faizə çatmış, dövlət büdcəsinin kəsiri 100 dəfəyə qədər artmışdı. Ölkənin borcları durmadan artır, vətəndaşların əmək haqlarının və pensiyalarının dəyəri düşür, bahalaşma, aclıq baş alıb gedirdi. Ölkə vətəndaş müharibəsinin astanasında idi. Belə bir şəraitdə hakimiyyətdə olanlar dahi Heydər Əliyevlə məsləhətləşməyə ehtiyac duyaraq onu Bakıya dəvət etdilər. Düzdür, ulu öndər Heydər Əliyev hakimiyyət tərəfindən Bakıya dəvət edilsə də, bu təkcə o zamankı hakimiyyətin seçimi deyildi. Azərbaycan xalqının iradəsi bunu tələb edirdi, tarixi şərait hakimiyyəti buna məcbur edirdi.

Beləliklə, 1993-cü il 9 iyun tarixində Azərbaycan xalqının xilaskarı Bakıya qayıtdı. Ümummilli lider Heydər Əliyev məhz belə ağır şəraitdə gəldi. 1969-cu ildə olduğu kimi yenə çiyinlərini çox çətin və şərəfli bir vəzifənin altına verdi. Amma indi 69-cu il deyildi. Ulu öndər Heydər Əliyev ilk növbədə Gəncəyə, Surət Hüseynovla görüşməyə, qiyamı yatırmağa getdi. Dahi siyasətçi öz siyasi bacarığını ortaya qoyaraq başladığı işi tamamlamağı bacardı. Bu isə həm inkişafa mane olan, müstəqillik üçün təhlükə yaradan hallara son qoymaq, həm də sürətli və dinamik inkişafa nail olmağın başlanğıcı idi.

Qeyd olunduğu kimi, Azərbaycan dövlətini və ölkə iqtisadiyyatını labüd fəlakətdən, hərci-mərcilikdən xilas edən dahi rəhbər ölkənin iqtisadi yüksəlişi üçün təcili tədbirlər görməyə başladı. İttifaq

səviyyəsində mövcud olan iqtisadi əlaqələr dağıldıqdan sonra milli iqtisadiyyatın dirçəldilməsi üçün ölkənin malik olduğu təbii resurslardan istifadə edilməsi və milli məhsulların xarici bazarlara çıxışının təmin olunması mühüm əhəmiyyət kəsb edirdi. Məhz belə bir dövrdə Azərbaycanın zəngin neft ehtiyatlarının mövcudluğunu nəzərə alan Ümummilli lider Heydər Əliyev ilk vaxtlardan başlayaraq danışıqlar prosesinə ARDNŞ-in vitse-prezidenti, millət vəkili İlham Əliyevi də cəlb etdi. Beləliklə də cənab İlham Əliyev yeni neft strategiyasının hazırlanmasının və uğurla həyata keçirilməsinin ən fəal iştirakçılarından oldu. Onun bütün fəaliyyətinin mərkəzində özünün dəfələrlə vurğuladığı bir ideya dururdu: "Bizim məqsədimiz təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əldə etməkdən ibarət deyildir. Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir".

Hamımıza məlumdur ki, 20 sentyabr 1994-cü ildə Bakı şəhərində Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə istismarı ilə bağlı neft hasilatı üzrə ixtisaslaşmış, yüksək nüfuza malik dünya dövlətlərini təmsil edən 12 iri neft şirkəti arasında beynəlxalq müqavilə imzalanmışdır ki, bununla da "Yeni neft strategiyası" uğurla həyata keçirilməyə başlandı. Bağlanmış müqavilələr Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildi və 12 dekabr 1994-cü ildə qüvvəyə mindi.

Ölkəmizin iqtisadi inkişafında əvəzsiz rol oynayan və sonradan "Əsrin müqaviləsi" adlandırılan bu iri layihə üzrə ilkin neft 12 noyabr 1997-ci ildə hasil edilməyə başlandı. Təqribən 730 milyon ton neft və 200 milyard kubmetrə yaxın təbii qaz ehtiyatına malik olan yataqlarda görüləcək işlərə 12-14 milyard ABŞ dollarına yaxın investisiya qoyuluşu nəzərdə tutulurdu ki, bu da müstəqilliyini yenicə əldə etmiş Azərbaycan Respublikası üçün çox vacib məsələ idi. Təkcə bir faktı qeyd edək ki, 1995-ci ildən başlayaraq ölkə iqtisadiyyatında sabitlik yarandıqdan sonra ölkəmizə xarici investisiya qoyuluşu sürətlə artaraq 10 milyard dollara çatmışdı ki, bunun da 60 faizdən çoxu (6,1 milyard dollar) xarici kapitalın payına düşür. 1996-2001-ci illərdə ölkədə fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin sayı 717-dən 1974-ə, müəssisələrdə çalışanların sayı təxminən 15 min nəfərdən 25 min nəfərə çatmışdır. Göstərilən müddətdə, eyni zamanda, xarici investisiyalı müəssisələrin ödədiyi vergilərin payı, cəmi vergi daxilolmalarında 9,3 faizdən 19,7 faizə yüksəlmişdir. Ümumilikdə isə 1996-2001-ci illərdə həmin müəssisələr vergi və sosial ayırmalar şəklində büdcəyə təqribən 600 milyon dollar, sosial fondlara isə 400 milyon dollara yaxın vəsait ödəmişlər.

"Əsrin müqaviləsi" üzrə hasil edilən Azərbaycan neftinin dünya bazarlarına ixracı üçün ilkin dövrlərdə buraxıcılıq qabiliyyətləri ildə 5 milyon ton olan Bakı-Novorossiysk və Bakı-Supsa neft boru kəmərlərindən istifadə olunurdu. Lakin yaxın illərdə müqaviləyə daxil olan yataqlar üzrə illik hasilatın 50 milyon tona çatdırılacağını nəzərə alan Ümummilli

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

lider Heydər Əliyevin təşəbbüsü ilə daha böyük nəqletmə imkanına malik ixrac marşrutları araşdırıldı və optimal variant kimi Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri seçildi. Məhz buna görə də layihənin həyata keçirilməsində fenomen siyasətçi Heydər Əliyevin əvəzsiz xidmətlərini nəzərə alan layihə iştirakçıları 2004-cü ildə BTC əsas ixrac boru kəmərinə Heydər Əliyevin adının verilməsi barədə qərar qəbul etdilər. Beləliklə də "Üç dənizin əfsanəsi" adlanan BTC layihəsi reallığa çevrilərək xalqımızın maddi rifah halının yaxşılaşdırılması və doğma Azərbaycanımızın qüdrətlənməsinə öz töhfəsini verməkdədir.

Ümumilikdə neft strategiyası ilə sürət götürən inkişaf dinamikası sonrakı illərdə daha geniş formada davam etdirildi. Ümummilli lider Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işlədiyi dövrdə islahatların aparılması ilə əlaqədar bir sıra ciddi addımlar atmışdır. O cümlədən "Naxçıvan Muxtar Respublikasında Zərərlə işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi haqda" Culfa rayonunun Şurut və Gal kəndləri, 1995-1998-ci illər əsasən müvafiq normativ hüquqi bazanın yaradılması ilə yadda qalsa da, bu dövr həm də dövlət mülkiyyətinin özəlləşdirilməsi, kiçik və orta sahibkarlığın dəstəklənməsi və s. istiqamətlərdə dövlət proqramları da qəbul edilmişdir. Bazar iqtisadiyyatı şəraitində iqtisadi inkişafın əsas amilinin özəl mülkiyyət və sahibkarlığın müxtəlif formalarının təşəkkül tapması olduğunu çox düzgün qiymətləndirən dahi şəxsiyyət Heydər Əliyev ölkədə stabilliyə nail olunan kimi sahibkarlığın inkişaf etdirilməsinə yönələn qərarlar qəbul etdi. Bu sahədə görülən işlərin əsl mahiyyətini qiymətləndirmək üçün Ümummilli lider Heydər Əliyevin hələ 1996-cı ildə söylədiyi bir fikri yada salmaq məqsədəuyğun olardı: "Bir Prezident kimi mən iqtisadiyyatda dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara bərabərlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılması zəruridir. Bu, dövlət siyasətimizin əsas prinsipləridir". Məhz bu diqqət və qayğının nəticəsidir ki, ölkədə yerli sahibkarlıq fəaliyyəti ilbəil genişlənir, möhkəmlənir və dövlət büdcəsinin əsas gəlir mənbələrindən birinə çevrilir. Artıq başlıca məqsəd bu mühüm sahənin inkişafını genişləndirməklə ölkənin sosial-iqtisadi inkişafında əhəmiyyətini artırmaqdan ibarətdir. Bu məqsədə nail olmaq üçün, dövlət başçısı möhtərəm Heydər Əliyev təkcə 2002-ci ilin avqust-sentyabr aylarında altı mühüm fərman imzalamışdır. Bu tarixi fərmanların qəbul edilməsi mahiyyət etibarı ilə ilk növbədə, ölkəmizin sosial-iqtisadi durumunun keyfiyyətcə yeni inkişaf mərhələsinə qalxmasında böyük potensiala malik milli sahibkarlığın qarşısında konkret vəzifələr qoyaraq onun həlledici rolunu daha da gücləndirdi. Məhz həmin dövrdə məqsədyönlü formada həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir ki, artıq sahibkarlıq iqtisadiyyatın aparıcı sahələrindən birinə çevrilərək istər məşğulluğun təmin olunması, istərsə də büdcə

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

gəlirlərinin artırılması istiqamətində öz bəhrəsini verməkdədir.

Etiraf edilməlidir ki, Ümummilli liderin titanik səyləri nəticəsində yaradılan bünövrə və müəyyənləşdirilən siyasət indiki dinamik yüksəlişin ilkin əsası rolunu oynamaqdadır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, ulu öndər Heydər Əliyevin siyasəti Azərbaycanın hərtərəfli inkişafına indi də xidmət etməkdədir. Bu gün gerçəyə çevrilənlərin əsası Ümummilli lider tərəfindən qoyulan ideyalardır. Ona görə də gündən-günə yüksələn inkişaf dinamikası hər şeydən əvvəl ulu öndər Heydər Əliyevin siyasətinin və ideyalarının təntənəsi sayılmalıdır.

Lakin göstərilənlərlə yanaşı, Ümummilli liderimiz Heydər Əliyev siyasətinin davamçısı Prezident İlham Əliyevin liderlik xüsusiyyətlərini nəzərə almadan, onun rəhbərlik manevrlərinin özünəməxsusluğunu və ən başlıcası, müasir dövrün tələblərinə uyğunluğunu lazımınca dəyərləndirmədən, Azərbaycanın müasir inkişafının amillərini bütün tamlığı ilə qavramaq qeyri-mümkündür. 2003-cü il prezident seçkisi ərəfəsində böyük öndər xalqa müraciətində sükanın İlham Əliyevə etibar olunmasını məsləhət bilirdi: "Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin firavanlığı yolunda çoxlu işlər görəcəkdir... İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümid bəsləyirəm".

Ulu öndərin layiqli davamçısı, Prezident İlham Əliyev Ümummilli liderin müəyyənləşdirdiyi kursu yaradıcılıqla inkişaf etdirən siyasi xadimdir. Ulu öndər Heydər Əliyev siyasi kursunun Azərbaycan xalqına xoşbəxtlik gətirəcəyinə millətimizdə böyük inam hissi var. Azərbaycan Ümummilli lider Heydər Əliyevin yolu ilə əbədiyyətə qədər inamla irəliləyəcək. Bu gün Prezident İlham Əliyevin xarici siyasətdə əldə etdiyi bütün uğurlar onun şəxsi müdrikliyi və diplomatiya bacarığı ilə bərabər, eyni zamanda Ümummilli lider Heydər Əliyevin vaxtilə yaratdığı inkişaf strategiyasına söykənir. Ən böyük uğur isə ondadır ki, məhz son bir neçə ildə Azərbaycan dövləti regionun liderinə çevrilib. Prezident İlham Əliyevin ölkənin və ayrı-ayrılıqda regionların iqtisadi inkişafının sürətləndirilməsi üçün imzaladığı dövlət proqramları, bu proqramların icrasına şəxsən nəzarət etmək üçün bölgələrə səfərlər etməsi, xalqın içində olması onun yalnız ölkənin rifahı üçün bütün səylərini ortaya qoymasından xəbər verir. Bir sözlə, məhz Ümummilli liderimizin görmək istədiyi Azərbaycan bu günün reallığına çevrilib və böyük Heydər Əliyev yolu ilə inamla daha yüksək inkişafa doğru addımlayır. Bütün mənalı həyatını öz xalqına bəxş etmiş ulu öndər Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilib. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Ümummilli lider Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

inkişafı, xalqımızın rifahı naminə faydalanacaq.

Nəhayət, 1993-cü ilin 15 iyununda Azərbaycan Respublikası Ali Sovetində keçirilən səsvermədə Ümummilli lider Heydər Əliyev sədr seçildi. Bununla da Azərbaycanda yeni eranın başlanğıcı qoyuldu. Ulu öndər Heydər Əliyev dövlətçiliyi xilas etməli, möhkəmləndirməli, onu inkişaf etdirməli idi. Şərait çox mürəkkəb, görüləcək işlər isə çox idi. Zəngin idarəçilik təcrübəsi olan ulu öndər Heydər Əliyev çox gözəl bilirdi ki, hər şeyin kökündə sabitlik dayanır. Sabitlik olmayan yerdə qarşıya qoyulan heç bir məqsədə çatmaq mümkün deyil. Buna görə də dövlətin parçalanmasının qarşısını almaq qarşıda duran ən əsas məsələ idi. Ümummilli lider buna nail oldu, bütün qiyamlar yatırıldı, atəşkəs əldə edildi, güclü dövlət yaratmaq məqsədilə iqtisadiyyatı inkişaf etdirməyə şərait yarandı. Heydər Əliyev öz gücünə, təcrübəsinə güvənən dahi siyasətçi kimi dəfələrlə söylədiyi məşhur kəlamına - "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir" kəlamına sadiq qaldı.

Heydər Əliyev dağılmaqda olan, parçalanan, yox olmaq təhlükəsinin bir addımlığında dayanan Azərbaycandan iqtisadi və siyasi müstəqilliyini təmin etmiş, dünyada söz və nüfuz sahibi, stabil, inkişaf edən Azərbaycan yaratdı.

**TEYMUR ABBASOV**
*prof.teymurabbasov56@mail.ru*
*Naxçıvan Dövlət Universiteti*

# AQRAR İSLAHATLAR ŞƏRAİTİNDƏ RESURS POTENSİALININ KƏND TƏSƏRRÜFATININ İNKİŞAFINDA ROLU

Kənd təsərrüfatı əhalinin ərzaq məhsullarına artmaqda olan tələbatını və bir sıra sənaye sahələrinin xammala olan ehtiyaclarını ödəyir. Onun inkişaf səviyyəsindən xalq təsərrüfatının bir çox sahələrinin inkişafı və bəzən də istiqaməti müəyyən dərəcədə asılı olur. Respublikanın məcmu ictimai məhsulunun 15,6%-i bu sahənin payına düşür. Kənd təsərrüfatı mənşəli məhsullara tələbat artdıqca onların istehsalı və emalı, saxlanması və daşınması, satış və s. ilə məşğul olan iqtisadiyyatın sahələri genişlənir və təkmilləşir.

Kənd təsərrüfatı xalq təsərrüfatının digər sahələri kimi məhsuldar qüvvələr ilə istehsal münasibətlərinin vəhdətindən ibarətdir. Burada istehsal vasitələri üzərində müxtəlif mülkiyyət formalarına yer verilməsi kənddə ictimai-iqtisadi münasibətlərinin əsaslı dəyişilməsinə səbəb olur. Bu da kəndlilərin istehsal vasitələrinin əsl sahibləri olmasını təmin etməklə bərabər, onların maddi nemətlərdən əməklərinin keyfiyyət və kəmiyyət müqabilində istifadəsi üçün obyektiv zəruri şərait yaradır.

Hazırda iqtisad elmi potensial anlayışını, onun iqtisadi məzmununu nəzəri cəhətdən tam öyrənməmişdir. Elə buna görə də praktikada resurs potensialının müəyyənləşdirilməsi metodikası, dəyər ifadəsində qiymətləndirilməsi, inkişaf etdirilməsi və istifadəsi məsələləri öz həllini tam tapmamışdır.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

Məsələn, iqtisadi ədəbiy-yatlarda "istehsal" və "resurs" imkanları, "istehsalın obyektiv imkanları", "istehsalın iqtisadi imkanları", "istehsal imkanları", "potensial resurslar" və s. terminlər daha tez-tez işlədilir. Bazar münasibətlərinə keçid şəraitində elmi-texniki tərəqqi inkişaf etdikcə kənd təsərrüfatında inteqrasiya prosesi daha da güclənir. Odur ki, əksər iqtisadçılar ona çalışırlar ki, təsərrüfatın, regionun, konkret sahənin və s. resurslarla təmini inteqral baxımdan qiymətləndirsin və onun yeni təsərrüfatçılıq şəraitində kənd təsərrüfatı istehsalının son nəticəsinə təsirini göstərsin.

İqtisadçılar bir qayda olaraq, "potensial" anlayışını "qabiliyyət" anlayışı baxımından qiymətləndirir və tədqiq edirlər.

İstehsal qabiliyyəti istehsal prosesində müəyyən nəticə əldə edilməsi üçün istifadə edilən resursun kəmiyyət və keyfiyyətinin cəm şəklində ifadəsidir. Bu o deməkdir ki, bazar iqtisadiyyatı şəraitində qabiliyyətə resurs potensialının başlıca nişanəsi kimi baxmaq lazımdır.

Bəzən potensial anlayışına "vasitə", "ehtiyat", "mənbə", "əldə edilmiş resursun cəmi", "resursun texnoloji komplekti" və ya "məhsul istehsalının normativ imkanları" və s. kimi baxılır. Əksər hallarda "potensialın tədqiqinə məhsul istehsalı prosesində iştirak edən resursları iki böyük qrupa bölməklə başlamaq təklif edilir. Bəzən iqtisadi ədəbiyyatda da istehsal potensialı əsas istehsal resursları kimi ifadə olunur. Aqrar-iqtisadçı alimlər arasında istehsal potensialının iqtisadi məzmunu barədə hələlik güclü diskusiya gedir. Bir sıra iqtisadçılar "istehsal potensialı" ilə "istehsal resurslarını" iqtisadi məzmun, məna və mahiyyətinə görə eyniləşdirirlər.

Qeyd etmək istərdik ki, "resurs" potensialı ümumi iqtisadi anlayışdır. "İstehsal resursları" isə "resurs potensialı"na nisbətən daha konkret iqtisadi anlayışdır. Bəzən bir sıra iqtisadçı alimlər bunu nəzərə almayıb onları eyniləşdirirlər.

Canlı əmək dedikdə - kənd təsərrüfatında əmək ehtiyatları başa düşülür. Buraya qanunçuluqla qəbul edilmiş yaş səviyyələri nəzərə alınmaqla əmək qabiliyyətli işçilər təqaüd yaşlı olub, lakin istehsalatda çalışanlar (kişilər və qadınlar) və yeniyetmələr daxildir.

Keçmiş əmək dedikdə məhsul istehsalı prosesində iştirak edən əsas və dövriyyə istehsal fondları başa düşülür. Bununla belə, əsas və dövriyyə istehsal fondlarının özü də çox müəkkəb tərkib və quruluşa malik olur. Belə ki, əsas istehsal fondları tərkib etibarı ilə binalardan, tikililərdən və qurğulardan, iş və güc maşınlarından, nəqliyyat vasitələrindən, çoxillik əkmələrdən, məhsuldar mal-qaradan və sair əsas istehsal fondlarından ibarətdir. Dövriyyə istehsal fondlarının tərkibinə isə toxum, yem, ehtiyat hissələri, yanacaq və yağlama mateialları, kimyəvi maddələr, mineral kübrə və sair daxildir.

Göründüyü kimi, kənd təsərrüfatında resurs potensialının və yaxud əsas istehsal resursları çox müəkkəb tərkib və quruluşa malikdir. Şübhəsiz ki, belə bir halda resurs potensialının iqtisadi məzmunu və anlayışı barədə yeganə fikrə gəlmək bir o qədər də asan iqtisadi məsələ deyil. Çünki mövcud nəzəriyyəyə görə uzun müddət iqtisadçılar belə hesab etmişlər ki, ictimai mülkiyyətin hökmranlıq şəraitində əmək ehtiyatlarının və torpağın dəyərə malik olması inkar edilmiş, sosializmə yad bir məsələ kimi baxılmışdır. Lakin buna baxmayaraq, torpaqların iqtisadi və kadastr qiymətləndirilməsindən, tarif dərəcələrindən və

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

tarif stavkalarından istifadə edilmişdir.

Beləliklə, torpaqların və əmək ehtiyatlarının dəyərə malik ola bilməməsi ideyası demək olar ki, son vaxtlar tamamilə tənqid edildi və aradan çıxarıldı.

Kənd təsərrüfatında resurs potensialının qiymətləndirilməsi texniki-iqtisadi baxımdan bir sıra iqtisadçılar tərəfindən daim tənqid edilmişdir. Belə fikir irəli sürülürdü ki, resurs potensialı çox mürəkkəb tərkib və quruluşa malikdir və onların hər birinin qiymətləndirilməsində nöqsanlara yol verilir, ona görə də resurs istehsalının dəyəri düzgün müəyyənləşdirilmir.

Şübhəsiz ki, resurs potensialı çox mürəkkəb tərkib və quruluşa malikdir. Xüsusilə kənd təsərrüfatında məlum olduğu kimi, məhsul istehsalı çox müəkkəb təbii-iqtisadi, texniki-texnoloji, təşkilati və sosial amillər kompleksi şəraitində baş verir. Belə bir şəraitdə geniş təkrar istehsal daha ciddi və müəkkəb xarakterə malik olur.

Lakin bütün bunlar heç də o demək deyil ki, resurs potensialının həcmi, tərkibi və quruluşu müəyyənləşdirilməsin. Çox ehtimal var ki, kənd təsərrüfatının zəif inkişaf etməsi, bu sahədə, islahatlar aparılan şəraitdə, iqtisadi böhran vəziyyətinin güclənməsi, əhalinin, xüsusilə ərzaq məhsullarına olan tələbatının ödənilməsinin səbəblərindən biri də kolxozlarda uzun müddət dəyər qanununun tələblərinə əməl edilməməsi olmuşdur. Bununla belə, bütünlükdə kənd təsərrüfatında əmtəə- pul münasibətlərindən, qiymət, dəyər, vergi, kredit, rentabellik və sair iqtisadi göstəricilərdən pis istifadə edilməsinin nəticəsi olaraq kənd təsərrüfatının dinamik inkişafı təmin olunmayıb, əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi günü-gündən pisləşmişdir.

Kənd təsərrüfatında mülkiyyətin müxtəlif formalarının inkişaf etdirilməməsi, azad rəqabət üçün şərait yaradılmaması, ən başlıcası isə kənd təsərrüfatının resurs potensialının qiymətləndirilməməsi, əldə edilən məhsulla həmin məhsulun istehsalına yönəldilən maddi-texniki resursların dəyəri, həcmi, onların ayrı-ayrı şərait ünsürlərinin müqayisə edilməməsinin nəticəsi olaraq artırılmasında əsas rol oynayır. Əgər nəzərə alsaq ki, kənd təsərrüfatında torpaq başlıca istehsal vasitəsidir, deməli, xüsusilə kənd təsərrüfatında resurs potensialının tərkibində istehsal vasitələri yüksək çəkiyə malik olub, istehsalın səmərəliliyinin yüksəldilməsində mühüm əhəmiyyət kəsb edir.

Əmək vasitəsi olaraq işləyən bir şey yalnız həmin vaxtdan etibarən əsas kapital olur. Əgər bu şey öz maddi xassələrinə görə əmək vasitəsi funksiyalarından qeyri funksiyalarda da xidmət edə bilərsə, onda o öz funksiyalarının fərqindən asılı olaraq, əsas kapital olur, ya da olmur. Heyvan işi heyvani rolunda əsas kapitaldır, ətliyə vermək üçün bəslənən heyvan xam mateialdır və nəticə etibarı ilə məhsul olaraq tədavülə daxil olur. Deməli, o əsas kapital deyil, dövriyyə kapitalıdır.

Yuxarıda qeyd edilənlərdən aydın olur ki, istehsal vasitələrinin əsas və dövriyyə fondlarına ayrılması obyektiv bir zərurətdir. Eyni zamanda istehsal vasitələrinin əsas və dövriyyə fondlarına bölünməsi onların istehsal prosesindəki dövr sürətindən, öz dəyərini məhsulun maya dəyərinə keçirmə qaydasından irəli gəlir. Bu xüsusiyyətləri nəzərə alaraq əsas və dövriyyə fondlarını eyniləşdirmək olmaz, onların kənd təsərrüfatı məhsullarında istehsalının artımındakı və səmərəliliyinin yüksəldilməsindəki rolu və əhəmiyyəti də müxtəlifdir.

Yeni təsərrüfatçılıq şəraitində kənd

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

təsərrüfatı məhsullarının istehsalını artırmağının və səmərəliliyini yüksəltməyin istiqamətlərindən biri əsas və dövriyyə fondlarının həcminin, tərkibinin və quruluşunun düzgün müəyyənləşdirilməsidir.

Bu problemin həlli bazar münasibətlərinə keçidlə əlaqədar mülkiyyətin və təsərrüfatçılığın müxtəlif formalarının inkişafı şəraitində xüsusilə vacibdir. Bu zərurət ondan irəli gəlir ki, əsas istehsal resurslarının qiyməti sürətlə artır, regionlararası, təsərrüfatlararası, sahələrarası istehsal – iqtisadi əlaqələr pozulub. Mövcud təsərrüfatların əksəriyyətinin isə maliyyə vəziyyəti əsas istehsal resursları əldə etməyə imkan vermir. Belə bir şəraitdə mövcud resurs potensialından səmərəli istifadə etmək və bu sahədə daxili ehtiyat mənbələrini aşkara çıxarmaq tələb olunur. Məhz bu baxımdan, kənd təsərrüfatında, müəssisə və təşkilatlarda resurs potensialının hər bir ünsüründən, o cümlədən əsas və dövriyyə fondlarından səmərəli istifadə üçün kompleks tədbirlərin həyata keçirilməsi tələb olunur.

Kənd təsərrüfatında istehsal potensialının tərkib ünsürlərindən biri olan dövriyyə fondlarının da istehsalın ARTIMINDA və səmərəliliyinin yüksəldilməsində rol və əhəmiyyəti böyükdür. Kənd təsərrüfatında toxum, yem, yanacaq, ehtiyat hissələri, kübrə və sair dövriyyə fondlarının tərkib hissələridir. Dövriyyə fondları bilavasitə məhsul istehsalına təsir göstərir, əsas fondların normal işini təmin edir, əmək məhsuldarlığının artmasına böyük təsir göstərir. Məsələn, taxılyığan kombayn əsas fonda daxildir. Taxıl kombaynının ehtiyat hissələri, yanacaq və yağlama materialı isə dövriyyə fondunun tərkib ünsürləridir.

Şübhəsiz ki, yanacaq olmazsa, taxılyığan kombayn işləməz və yaxud taxılyığan kombayn istehsal prosesində sınarsa, ehtiyat hissəsi olmadan onun iş qabiliyyətini bərpa etmək olmaz. Deməli, istehsal prosesinin baş tutması üçün əsas fond kimi dövriyyə fondu da eyni əhəmiyyətə malikdir. Odur ki, onlar arasında əlverişli nisbət yaratmadan istehsalı artırmaq və səmərəliliyini yüksəltmək qeyri-mümkündür.

Belə misalların sayın artırmaq mümkündür. Lakin qeyd edək ki, kənd təsərrüfatı istehsalını artırmaq və səmərəliliyini yüksəltmək o vaxt təmin olunur ki, təsərrüfatçılığın formasından asılı olmayaraq əsas fondla dövriyyə fondları arasında əlverişli nisbət gözlənilir.

Şübhəsiz ki, torpaqların qiymətləndirilməsi və onun resurs potensialının tərkibində dəyər ifadəsində uçota alınması bizim fikrimizcə zəruridir. Son vaxtlar əksər iqtisadçı alimlər tərəfindən torpaqların qiymətləndirilməsi məsələsi müdafiə edilir və elmi araşdırmalarda nəzərə alınır. Məsələnin bu cür qoyuluşuna baxmayaraq təsərrüfat təcrübəsində torpaqlar qiymətləndirilmir və onun dəyəri barədə statistikada da uçotu aparılmır. Bu da nəticə etibarı ilə köhnə təsərrüfatçılıq şəraitində torpaqlardan səmərəsiz istifadəyə səbəb olmuşdur.

Qeyd etmək lazımdır ki, müstəqil Azərbaycan Respublikasının yeni torpaq məcəlləsində torpaqların qiymətləndirilməsi və onun uçotunun dəqiq aparılması qeyd edilmişdir. Respublikada torpaq islahatının düzgün həyata keçirilməsində torpaqlardan istifadənin yaxşılaşdırılmasında, torpaq sahəsinin hər hektarı hesabı ilə əldə edilən son nəticənin artırılmasında torpaqların qiymətləndirilib resurs potensialının tərkibində uçota alınması, şübhə yoxdur ki, respublikada ərzaq məhsulları istehsalının artırılmasına və əhalinin həmin məhsullara

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

tələbatının ödənilməsinə səbəb olacaqdır.

Kənd təsərrüfatının resurs potensialının ən mühüm tərkib ünsürlərindən biri də əmək ehtiyatlarıdır. Kənd təsərrüfatında, hər hansı başqa sahədə olduğu kimi, istehsal prosesi iş qüvvəsi istehsal vasitələri ilə birləşdikdə baş verir. Bununla kənd təsərrüfatı istehsalı iqtisadiyyatın başqa sahələrinə nisbətən bir sıra xüsusiyyətləri ilə fərqləndiyinə görə, həmin xüsusiyyətlər resurs potensialının ayrı-ayrı ünsürlərində, o cümlədən kənd təsərrüfatı əməyində də öz ifadəsini tapır.

Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, kənd təsərrüfatı istehsalı mövsümüdür. Belə ki, kənd təsərrüfatında sənayedən fərqli olaraq iş dövrü ilə məhsul istehsalı dövrü eyni vaxta düşmür. Bundan başqa, kənd təsərrüfatı istehsalı bioloji xüsusiyyətlərə malikdir. Bir sıra istehsal vasitələri natural formada kənd təsərrüfatının özündə istehsal edilir (məsələn, mal-qara, toxum, yem, bəzi əmək alətləri və s.). Kənd təsərrüfatının ayrı-ayrı sahələrində bütün istehsal prosesləri üzrə işləri eyni vaxtda həyata keçirmək mümkün deyil. Bütün bunlar kənd təsərrüfatı və bütün il boyu istehsal vasitələrinin mövcudluğunu və funksional fəaliyyət göstərməsini tələb edir.

Lakin kənd təsərrüfatında resurs potensialının əsas hissəsindən konkret təsərrüfat ilinin yalnız bir neçə müddətində istifadə edilir. Məsələn, taxılyığan kombayndan yalnız məhsul yığılan bir ay müddətində istifadə edilir. Eyni fikri başqa növ əsas istehsal vasitələri barədə də demək olar. Ona görə də hər bir təsərrüfat resurs potensialı ilə - torpaq, əsas və dövriyyə fondları, eləcə də, əmək ehtiyatları ilə elə səviyyədə təmin olunmalıdır ki, əvvəla nəzərdə tutulmuş məhsulu istehsal etmək mümkün olsun, eyni zamanda təsərrüfatda onlaın artımına və çatışmamazlığına yol verilməsin.

Bu obyektiv zərurət ondan irəli gəlir ki, istehsal resursları tələbatdan artıq olduqda onların istehsal gücündən səmərli istifadə edilmir, əksinə onlar çatışmadıqda isə kənd təsərrüfatı işləri aqrotexniki müddətdə yerinə yetirilmədiyindən məhsul istehsalının həcmi azalır, əlavə xərclərə yol verilir, istehsalın iqtisadi səmərəliliyinin artımı təmin edilmir. Bütün bunlar nəticə etibarı ilə iqtisadi şəraitin daha da gərginləşməsində, əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatının daha da çətinləşməsinə, muxtar respublika əhalisinin bütün üzvlərinin yaşayış şəraitinin pisləşməsinə səbəb olur.

Kənd təsərrüfatı məhsullarının özünəməxsus xüsusiyyətləri ilə əlaqədar olaraq əsas istehsal resursları arasındakı proporsiyalarda da müəyyən xarakteik xüsusiyyətlər formalaşır. Belə ki, təsərrüfatçılığın formalarından asılı olmayraq əsas və dövriyyə fondları, əmək ehtiyatları arasında elə proporsiyalar yaradılmalıdır ki, kənd təsərrüfatı istehsalı gözlənilən nəticəni versin.

Əgər sənayedə əsas və dövriyyə fondları, eləcə də əmək ehtiyatları arasında uyğunsuzluq olarsa, bu nəticə etibarı ilə işin müvəqqəti olaraq dayanmasına və yaxud müəssisənin tam gücü ilə işləməməsinə səbəb olur.

Bütün bunları nəzərə alıb, belə qənaətə gəlirik ki, kənd təsərrüfatında sənayeyə nisbətən istehsal resurslarının tərkib hissələri arasında düzgün proporsiyalar yaradılması daha vacibdir. Buna baxmayaraq, tədqiqatdan aydın olur ki, respublikada kənd təsərrüfatının resurs potensialının tərkib ünsürləri arasında düzgün proporsiyalar yaradılmasına heç də hər yerdə əməl olunmur.

Bazar münasibətlərinə keçid şəraitində, yəni mülkiyyətin və təsərrüfatçılığın

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

müxtəlif formalarının inkişafı şəraitində, xüsusilə kəndli (fermer) təsərrüfatlarının yaradıldığı və inkişaf etdirildiyi müasir mərhələdə resurs potensialının həcmini, tərkibi və quruluşu arasında, həmçinin ayrı-ayrı istehsal resursları arasında düzgün proporsiyalar yaradılması çox böyük nəzəri və praktiki əhəmiyyətə malikdir.

Araşdırmalardan aydın olur ki, kənd təsərrüfatının resurs potensialının həcmi, tərkibi və quruluşu bir sıra amillərdən asılıdır. Onlardan: təsərrüfatın istehsal istiqaməti; istehsalın ixtisaslaşdırma səviyyəsi; istehsalın intensivləşdirmə dərəcəsi; təsərrüfatın və onun istehsal bölmələrinin həcmi; təsərrüfat təbii-iqtisadi şəraiti və başqa amilləri göstərmək olar. Göründüyü kimi, resurs potensialının islahat şəraitində formalaşdırılması bir sıra amillərdən və konkret şəraitdən asılıdır. Odur ki, kənd təsərrüfatında təsərrüfatçılığın formalarından asılı olmayaraq resurs potensialının həcmi, tərkibi və quruluşu müəyyənləşdirilərkən resurs potensialına təsir edən amillər nəzərə alınmalıdır.

Belə bir şəraitdə resurs potensialını müəyyənləşdirmək, onun əlverişli həcmi və quruluşunu yaratmaq olduqca böyük əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT

1. Əlirzayev Ə.Q. İqtisadiyyat: düşüncələr, baxışlar. Bakı: 2002, 465 s.
2. Abbasov T.A. Naxçıvan: aqrar sektorun resurs potensialı, aqrar bazar və iqtisadi və iqtisadi inkişaf. Bakı: 2018, 584 s.
3. Salahov S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı: 2004, 564 s.
4. İbrahimov İ.H. Aqrar iqtisadiyyatın aktual problemləri. Bakı: 2004, 232 s.
5. Verdiyev Ə.C., Qarayev İ.Ş. Aqrar bazarın formalaşmasının iqtisadi problemləri. Bakı: 2002, 256 s.

**CAVADXAN QASIMOV**
*Naxçıvan Dövlət Universiteti*

# HEYDƏR ƏLİYEV VƏ MİLLİ İQTİSADİ QURUCULUQ PROSESLƏRİ: SƏNAYE TƏSİSATLARINDAN SƏNAYELƏŞMƏ SİYASƏTİNƏ QƏDƏR

Ölkəmizdə bazar münasibətlərinə xas olan iqtisadi idarəetmə proseslərinin təşkili və idarə olunması sahəsində məqsədyönlü tədbirlər həyata keçirilməkdədir. Həmin tədbirlər içərisində iqtisadiyyatın sahə strukturunun düzgün əlaqələndirilməsi, aparıcı sahələrin hüquqi tənzimlənməsinin diqqətdə saxlanılması, yeni prioritetlər üzrə əlverişli zəminlərin nəzərə alınması, iqtisadi resurslardan məqsədyönlü istifadə olunmasının müəyyən olunması və bəhs olunanlardan milli iqtisadiyyatın uzunmüddətli perspektivləri naminə faydalı yararlanması zəruriliyi ilə seçilməkdə idi. Təbii olaraq, bu istiqamətlərin səmərəli təminatı məqsədilə, iqtisadiyyatın aparıcı sahələri olaraq, kənd təsərrüfatının və sənayenin istər əlaqəli, istərsə də, ayrı-ayrılıqda inkişaf perspektivlərinin nəzərə alınması dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilmişdir. Bu bir həqiqətdir ki, hələ XX yüzilliyin 90-cı illərinin əvvəllərində bütövlükdə, ölkəmiz miqyasında iqtisadiyyatın inkişaf perspektivlərinin müəyyən olunması sahəsində həyata keçirilmiş olan tədbirlər öz başlanğıcını Naxçıvan Muxtar Respublikasından götürdü ki, bununla da, mahiyyət və nəticə etibarı ilə kənd təsərrüfatının müasir iqtisadi münasibətlərə xas təşəkkülü mümkün oldu. Təbii olaraq, yaradılmış əhəmiyyətli mühitlə, iqtisadiyyatın digər aparıcı sahəsi olan sənayenin davamlı perspektivlərinə zəmin açılmış oldu. Həmin dövrlər ərzində muxtar respublikada sənaye əhəmiyyətli

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

tədbirlərin, xüsusilə də, onun xammal bazası olaraq, çıxış edəcək olan kənd təsərrüfatının davamlı inkişafı məqsədilə islahatlara start verildi. Bu islahatlar, ilkin olaraq, əkinçilik və heyvandarlıq sahələri üçün xarakterik oldu.

Təbii ki, bu amil güvənilir başlanğıc olmaqla, sonrakı mərhələlər üzrə sənaye təsisatlarının yaradılması ilə daha mütərəqqi mahiyyət kəsb etməyə başladı. Kənd təsərrüfatının inkişafı yeni təsərrüfatçılıq imkanlarının yaradılması ilə aqrar bölmənin sənaye inteqrasiyası fonunda milli iqtisadiyyata şaxələnmə və müqavimətlilik gətirməkdə idi. Tam və təkmil olaraq, Aqrar Sənaye İnteqrasiyası təmin olunurdu. Bununla da, sənayenin özü müstəqil və aparıcı sahəyə çevrilirdi. Eyni zamanda, bu, sənayenin sahə strukturunda çoxistiqamətli fəaliyyət mühitinin güclü əsaslarının yaradılmasına təkan olmaqda idi. Ardıcıl sosial və iqtisadi proseslər müstəvisində sənayenin inkişaf perspektivlərinin müəyyən olunması daha mütərəqqi inkişaf layihələrinin təməllərini yaratmaqda idi.

Hər şeydən əvvəl, onu qeyd etmək yerinə düşmüş olar ki, Sənaye – işçilərinin əməyi əsas etibarı ilə təbiətdə mövcud olan və süni sürətdə təkrar olunmayan maddi nemətlərin əldə olunmasına, bu nemətlərin emalına, həmçinin kənd və meşə təsərrüfatı məhsullarının emalına yönəldilmiş maddi istehsal sahəsidir (4, s. 79). Məhz bu mənada da sənayenin inkişaf perspektivlərinin müəyyən olunması, milli iqtisadiyyat üçün, sosial dayanıqlılıq və etibarlılıq üçün olduqca zəruriliyinə görə seçilmiş olurdu.

Bu dövrlərdən başlayaraq, milli iqtisadiyyat üçün strateji mahiyyət kəsb etmiş olan neft sənayesinin uzunmüddətli perspektivləri müəyyən olundu. 1994-cü ildə tarixə Heydər Əliyevin neft strategiyası olaraq düşən “Əsrin Müqaviləsi” imzalandı. Yəni sənaye artıq müasir müstəqilliyimizin ilk illərindən etibarən makroiqtisadi əhəmiyyətliliyinə görə aktuallıq kəsb etməyə başlamışdı. Məhz bu dövrlər çoxnövlü mülkiyyət münasibətlərinə xas olan idarəetmə əsasında sənaye üçün də müqavimətli potensialın yaradılmasına təminat yaranmış oldu. Bununla da neftlə yanaşı, eyni zamanda sənayenin nəqliyyat, tikinti, turizm, hərbi və digər çoxistiqamətli sferaları ilə bağlı şaxələndirilməsi üzrə perspektivlər təmin olundu. Təbii olaraq, bunlar, hər şeydən əvvəl, kapitalın tətbiq olunduğu ölkədəki mövcud şərait nəzərdə tutulur. Bu şəraitə siyasi, iqtisadi, maliyyə, sosial, təşkilati-inzibati və s. amillər təsir etmiş olan, investisiya mühitinin də (3, s. 36) təşəkkülünə zəmin yaratmaqda, onu ifadə etməkdə idi.

Geridə qalan illər Ümummilli lider Heydər Əliyevin müasir iqtisadi idarəetmənin ən təkmil metod və mexanizmlərinin işləkliyi üçün, eyni zamanda, bazar münasibətlərinin inkişafı məqsədilə həyata keçirdiyi tədbirlərin olduqca zəruri tərəflərini ifadə etməkdədir. Bu mənada da, dahi Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin başçısı olaraq, işlədiyi 1993-2003-cü illər milli iqtisadi və dövlət quruculuğu prosesləri üçün çox zəruri nəticələrinə görə yadda qalmışdır. Belə ki, 1993-cü ildə ikinci dəfə dövlətimizin rəhbəri olaraq fəaliyyətini xalqımıza xidmət üzərində quran dahi rəhbərimiz, 1994-cü ildən etibarən milli iqtisadiyyat üçün yeni keyfiyyət mərhələsinin əsaslarını da müəyyən etmiş oldu. Bunu bəhs olunan illər üzrə ölkədə istehsal olunan sənaye məhsulunun həcmi də göstərməkdədir.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)




*Şəkil 1*

*1994-2003-cü illər ərzində ölkə iqtisadiyyatında istehsal olunan sənaye məhsulunun həcmi (milyon manat)*

Təhlillər nəticəsində aydın olur ki, təkcə 1994-1995-ci illər ərzində istehsal olunan sənaye məhsulunun həcmi 8 dəfə artmışdır. Bu göstərici, bir çox tərəflərinə görə əlamətdar nəticədir. Hər şeydən əvvəl, bu, milli liderin uzaqgörən siyasi və dövlətçilik təcrübəsi əsasında təşəkkül tapan müasir iqtisadi siyasətin güclü dayaqlarının ifadəsini təqdim edirdi. Eyni zamanda, məhz bu əsasda yaradılmış olan siyasi sabitlik özü ilə birlikdə davamlı iqtisadi inkişaf üçün etibarlı istinad nöqtəsinə çevrildi və artıq 1995-ci ildən etibarən başlanmış olan iqtisadi islahatlar, o cümlədən dövlət mülkiyyətinin özəlləşdirilməsi prosesləri müstəvisində daha perspektivli bir mərhələnin əsasları qoyuldu. Sonrakı illər ərzində də bu artım dinamikası qorunmuş və müasir milli iqtisadi prioritetlərin təməl prinsipləri olaraq çıxış etmişdir. Diqqət etdikdə aydın olur ki, bütövlükdə, 1994-2003-cü illər ərzində yaradılmış olan sənaye məhsulunun həcmində 22 dəfəlik artım qeydə alınmışdır. Bu dinamika, istinad olunan hər bir il üzrə də özünü göstərmişdir.




*Şəkil 2.*

*1994-2003-cü illər ərzində ölkə iqtisadiyyatında istehsal olunan sənaye məhsulunun artım vəziyyəti (dəfə)*

Təbii olaraq, 1994-2003-cü illər ərzində yaradılmış sənaye məhsulu sonrakı dövrlər üzrə daha mütərəqqi nəticələr üçün bazaya çevrilmiş oldu. Bununla da həmin baza əsasında iqtisadi inkişafın yeni mərhələsi üçün hədəflər müəyyən olunmuşdur. Təbii olaraq, burada 2004-cü ildən etibarən regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının təsdiq olunması, milli iqtisadiyyatın uzunmüddətli perspektivlərinin təşəkkülü, sosiallaşmaya və sənayeləşməyə əsaslanmış olan iqtisadiyyatın möhkəmləndirilməsinə stimul yaranmışdır. Bu isə, öz-özlüyündə əhalinin ümumən ayrı-ayrı təbəqələrinin həyat fəaliyyətinin kompleks xarakteristikası olub, cəmiyyətin struktur hissələrinin mövcudluğunun və inkişafının ictimai şəraitini təşkil edən mühüm amillər (səbəblər) sisteminin təsirinin nəticəsi kimi

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

formalaşmış olan sosial siyasətin (2, s. 74) səmərəliliyini təmin etməkdədir.

Bunun da nəticəsində, ölkənin iqtisadi rayonlarında Sənaye Parkları və Məhəllələrinin yaradılması proseslərinə uğurla başlanılmış və bu proseslər, makoiqtisadi inkişafın hərəkətverici qüvvəsinə çevrilmişdir. İndiki iqtisadi inkişaf mərhələsində ölkənin milli iqtisadiyyatında 7 sənaye Parkı və 5 Sənaye Məhəlləsinin rolunu da görməkdəyik (5). Olduqca sevindirici hal həm də, ondan ibarətdir ki, yaradılmış olan Sənaye Parklarının 2-si işğaldan azad olunan ərazilərimizin payına düşməkdədir. Təbii olaraq, hər iki iqtisadi idarəetmə qurumunun təsis olunmasında mühüm məqsəd sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən ibarət olmaqdadır. Bu məqsədlə, ilk olaraq, zəruri infrastruktura və idarəetmə qurumlarına malik olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalı və xidmət göstərilməsi məqsədləri üçün istifadə olunan, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazilərin ayrılması təmin olunmuşdur. Eyni zamanda, həmin potensial üzrə səmərəli idarəetməyə malik olmaqla, kiçik və orta sahibkarlar tərəfindən məhsul istehsalı və xidmət göstərilməsi üçün istifadə olunan ərazilərin müəyyən olunması mümkün olmuşdur. İstehsal prosesi üçün yardımçı xarakter daşıyan istehsal və qeyri-istehsal sahələrinin kompleksi olan infrasturktur anlayışına təhsil, səhiyyə, yollar və s. aid olunur (1, s. 150).

Bu qeyd olunan amillər Ulu öndərin həmişəyaşar siyasəti və ideyaları əsasında reallaşmaqdadır. Sənayenin bu əsaslar üzərində qərarlaşması 2003-cü ildən başlayaraq, yeni keyfiyyət mərhələsi müstəvisində milli iqtisadiyyat üzrə perspektivlər müəyyən olundu və sənayenin inkişaf göstəriciləri artan dinamikada davam etdi. Bunlarla yanaşı, 2004-cü ildən başlayaraq, ölkəmizdə regional inkişaf üzrə Dövlət proqramlarının icra mexanizmlərinin müəyyən olunması sənayenin inkişafı istiqamətində mühüm bir mərhələ oldu. 2004-cü ildən etibarən icrasına başlanan Dövlət proqramları artıq dördüncü mərhələsinin də tamamlanması üzrədir. Aşağıdakı şəklin məlumatlarında Dövlət Statistika Komitəsinin məlumatları əsasında 2004-2021-cü illəri əhatə etməklə istehsal olunan sənaye məhsulunun həcmi təqdim olunur.




*Şəkil 3*

*2004-2021-ci illər ərzində ölkə iqtisadiyyatında istehsal olunan sənaye məhsulunun həcmi (milyon manat)*

Təhlillər nəticəsində aydın olur ki, 2004-2021-ci illər ərzində istehsal olunan sənaye məhsullarının həcmi 9,3 dəfə artmışdır. Şəklin məlumatlarına diqqət edərkən regional inkişaf üzrə Dövlət proqramlarının icrasına başlanıldığı hər il üzrə dinamik artım diqqəti çəkməkdədir. Həmin təhlilləri davam etdirdikdə, aydın olur ki, sənaye məhsulunun həcmi 2004-2009-cu illərdə 4, 2009-2014-cü illərdə 1,4 dəfədən artıq, 2014-2019-cu illərdə 1,5, 2019-2021-ci illərdə isə 1,2 dəfə artmışdır. Bunu şəkil 4-ün məlumatlarında da görmək olar.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)




*Şəkil 4.*
*2004-2021-ci illər ərzində ölkə iqtisadiyyatında istehsal olunan sənaye məhsulunun artım vəziyyəti (dəfə)*

Buradan da aydın olur ki, Azərbaycan Respublikasında milli iqtisadiyyat üzrə uzunmüddətli perspektivlərin müəyyən olunmasında sənayenin rolu olduqca böyükdür. Bu potensial, xalqımızın Ümummilli lideri Heydər Əliyevin müəyyən etmiş olduğu davamlı iqtisadi inkişaf strategiyasının əsasında müəyyən olunmaqdadır. Təbii olaraq, bütün bunlar, müasir dünya iqtisadiyyatının çağırışları ilə səsləşməkdədir.

Beləliklə, ölkəmiz milli liderimiz böyük Heydər Əliyevin anadan olmasının 100-cü ilində daha mütərəqqi və qürurverici inkişaf yolunu keçməkdədir. Dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü iqtisadi inkişaf siyasəti qarşıdakı mərhələlər üzrə uzunmüddətli hədəfləri daha da əlçatan edəcəkdir. Bunu ölkəmizin regional və beynəlxalq layihələrin həm də müəllifi olaraq, əldə etmiş olduğu uğurlar da göstərməkdədir.

## ƏDƏBİYYAT

1. Ağayev A.Q. Maliyyə terminlərinin izahlı və tərcümə lüğəti. Bakı: Ziya, 2005, 421 s.
2. Əliyev A. Ə., Quliyev A.S. Sosial sferanın iqtisadi və metodoloji əsasları. Bakı: Adiloğlu, 2005, 304 s.
3. Məmmədli O. Q., İsmayılov F. İ. Bazar iqtisadiyyatının dövlət tənzimlənməsi. Bakı: MBM, 2006, 432 s.
4. Qasımov C.Y. İqtisadi terminologiya: aqrar sektor, məşğulluq, sosial sfera. Naxçıvan: Əcəmi, 2017, 104 s.
5.https://president.az/az/articles/view/7910

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

**ƏBDÜLHÜSEYN ZAMANOV**
*0ebdul@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV: STRATEJİ DÜŞÜNCƏLƏR VƏ MÜASİR AZƏRBAYCAN REALLIQLARI

XX əsrin sonu Azərbaycan Respublikası ikinci dəfə öz tarixi müstəqilliyini əldə etdi. Lakin tarixi təcrübə göstərir ki, zəngin təbii sərvətlərə və iqtisadi resurslara, xüsusən də əlverişli coğrafi mövqedə yerləşən ölkələrdə bu müstəqilliyi qoruyub saxlamaq, onu əldə etməkdən çətin və daha mürəkkəb bir prosesdir. Bu baxımdan Azərbaycan dövlətinin Rus və Ermənistan birliyinin təcavüzünə məruz qalması, eyni zamanda, həmin dövrdə hakimiyyətdə olan rəhbər şəxslərin siyasi səriştəsizliyi, ölkəmizi daxildən parçalanmaq və dövlət müstəqilliyini yenidən itirmək təhlükəsi ilə üz-üzə qoymuşdu. Yaranmış belə bir çətin şəraitdə xalqımız öz təkidli tələbi ilə Heydər Əliyevi ölkə rəhbərliyinə dəvət etdi. Zəngin təcrübə və unikal idarəetmə qabiliyyətinə malik olan Heydər Əliyevin gələcəyə hesablanmış uzunmüddətli strateji kursu ölkəni bürümüş xoşagəlməz meyllərdən xilas etdi, sabitlik, ictimai asayiş bərqərar olundu. Azərbaycanın müstəqilliyin əbədi yolu ilə inamla irəliləməsi üçün Heydər Əliyev bugünkü gerçəklikləri yaratmış və uğurlu gələcəyə aparan yolları müəyyən etmişdir.

Müşahidələr göstərir ki, Ulu öndər Heydər Əliyev həmin dövrdə, yəni müstəqilliyin ilk illərində həllini gözləyən çoxsaylı problemlərin cəmiyyət tərəfindən yaxşı qəbul olunmadığını, həmçinin müstəqilliyini yenicə qazanmış milli dövlətimiz üçün həm daxili, həm də xarici təhlükələrin mövcudluğunu yaxşı bilərək, keçmiş totalitar düşüncə səviyyəsinin mənfi təsirlərindən yaxa qurtarmayan cəmiyyətin liberal-demokratik islahatlara birdən-birə deyil, tədricən hazırlanmasını mühüm hesab edirdi. Ümummilli lider dayanıqlı və modern iqtisadi inkişafa etibarlı zəmin hazırlayan, dövlət idarəetmə sistemində institusional xarakterli islahatların həyata keçirilməsinə təkan verən, qanunçuluğu, hüquq qaydalarını möhkəmləndirən demokratiyanı qiymətləndirərkən göstərirdi ki, "..keçid dövrünün vəzifəsi – mövcud olan iqtisadiyyatı əldə saxlamaq və sərbəst iqtisadiyyat prinsipləri əsasında yeni iqtisadi sistem qurmaqdır ki, həmin sistem bizə daha artıq səmərə versin". Müstəqil Azərbaycanımızın dünyada sınanmış və artıq öz müsbət nəticələrini verən sistemlə irəliləyəcəyini bəyan edərək bildirirdi ki, "bizim tutduğumuz strateji yol Azərbaycan xalqının mənafeyinə uyğundur və xalqımızı, respublikamızı dünya birliyinə, dünya iqtisadiyyatına bağlayan yoldur" [2].

Tarix böyük öndərin nə qədər haqlı olduğunu sübut etdi. Düzgün seçilmiş strategiya əsasında Azərbaycan Respublikası qısa vaxtda böyük sosial-iqtisadi uğurlara imza atdı. Məhz bunun nəticəsidir ki, ölkə iqtisadiyyatı bir çox dövlətlərin uzunmüddətli zaman kəsimində reallaşdırdığı keçid prosesini qısa zaman kəsiyində başa vurdu.

Təhlillər onu göstərir ki, sabitləşmə və iqtisadi inkişaf sahəsində əldə edilmiş uğurlar cəmiyyəti labüd şəkildə modernləşməyə istiqamətləndirir. İqtisadiyyatın modernləşməsi kəmiyyət baxımdan deyil, keyfiyyətcə təkmilləşdirməni, həmçinin ölkə iqtisadiyyatının yeni məzmun baxımından dəyişdirilməsini əhatə edir. Bu isə, ilk növbədə, mövcud və qeyri-sağlam iqtisadiyyatı

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

tarixən sınanılmış və səmərəli bazar prinsiplərinə keçirmək, onu sərt bürokratik nəzarət və süründürməçilikdən xilas etmək, iqtisadiyyatın müxtəlif sahələrində investisiya imkanlarını yaxşılaşdırmaq və sair tədbirlər sistemli və kompleks şəkildə həyata keçirməkdir [1].

Keçən əsrin sonlarında mövcud qapalı iqtisadi sistemlərin açıq iqtisadi inkişaf modelinə keçməsi və dünya bazarı ilə yeni prinsiplər əsasında inteqrasiya proseslərinin sürətlənməsi nəticəsində insan cəmiyyəti keyfiyyət baxımından yeni mərhələyə qloballaşma mərhələsinə qədəm qoymuşdur. Qeyd edək ki, qlobal proseslər dünya ölkələrinin və müxtəlif xalqların bir-birindən asılılığını getdikcə artırmaqdadır. Xalqların və bütövlükdə yaşadığımız dünyanın taleyini həmin proseslər müəyyən edir.

Qloballaşma yaranmış vəziyyətin mahiyyətinə uyğun şəkildə təkmilləşdirilməsinə doğru istiqamətlənmiş zəruri və dönməz bir proses olaraq, əsasən insan iradəsi və təfəkkürünün müdaxiləsinin təsiri ilə baş verir və bu zaman yaranmış şəraitə uyğun proseslərdə səmərəli iştirak etmək zərurəti meydana çıxır.

Bu gün qloballaşmanın müxtəlif inkişaf səviyyəsində olan ölkələr üçün onun doğurduğu fərqli nəticələr bəşəriyyətin diqqət mərkəzindədir. Müasir beynəlxalq iqtisadi sistemdə əsasən inkişaf etmiş sənaye ölkələri və onların transmilli şirkətləri aparıcı rol oynayırlar. Qlobal iqtisadiyyatın ənənəvi subyekti olan milli dövlətlər isə, əslində müəyyən baxımdan sıxışdırılmış, qlobal sənaye ölkələri və müəyyən dərəcədə orta inkişaf səviyyəli ölkələr üçün yeni imkanlar daha çox yaradılmışdır.

Bir faktı qeyd edək ki, qloballaşmanın müasir meyarları inkişaf etmiş ölkələrin iqtisadiyyatlarının rəqabət qabiliyyətliliyini artırmaqda davam edir. Azərbaycanın dünya arenasında iqtisadi artım göstəricilərinə görə yüksək uğurlara nail olaraq aparıcı mövqedə qərar tutması, Cənubi Qafqaz və Qara dəniz hövzəsi iqtisadi zonasının aparıcı dövləti olaraq önə çıxması ən vacib amil kimi bu irəliləyişə şərait yaradır. Bu irəliləyişin başlıca səbəbi son illər həyata keçirilən uğurlu neft və investisiya qoyuluşu siyasəti, o cümlədən xarici iqtisadi təhlükəsizliyin təmin olunmasında beynəlxalq müqavilələrlə möhkəmləndirilmiş "Bakı-Tiflis-Ceyhan" neft kəməri, "Bakı-Tbilisi-Ərzurum" qaz kəməri, "Bakı-Tiflis-Qars" dəmir yolu xətti və s. irihəcmli layihələridir.

Milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin artırılması suverenliyə mane ola biləcək amillərin aradan qaldırılmasına zəruri şərait yaradır. Ölkənin iqtisadi təhlükəsizliyinə təhlükə yaranmaması üçün ölkənin qeyri-neft sahələrinin davamlı inkişaf etdirilməsinə diqqət yetirilir. Bunun üçün artıq xarici ölkələrin investisiyasına deyil, daxili resurslara söykənən investisiyalara daha çox üstünlük verilir. Xaricdə toplanmış milli investisiyaların ölkəyə cəlb edilməsi prosesi gücəndirilməkdədir. Belə investisiya qoyuluşlarının ümumi həcmində milli investisiyaların payı 50%-dən çox artmışdır [4].

Müasir dövrdə Azərbaycan dövlətinin həyata keçirdiyi uğurlu siyasət və əldə olunan yüksək nailiyyətlər elmi-tədqiqat mərkəzləri, tədqiqatçı alimlər, iqtisadçılar, beynəlxalq maliyyə institutları tərəfindən tədqiq olun-maqdadır. Tədqiqatdan bəlli olur ki, müasir şəraitdə sürətlə inkişaf edən Azərbaycan Respublikasının daxili siyasəti modernləşməyə əsaslanan iqtisadiyyat, sivil, sosialyönümlü vətəndaş cəmiyyəti və özünəməxsus

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

milli dəyərlərin, həm də liberal ənənələrin qorunmasına yönələn ölkə quyuçuluğuna istiqamətləndirlmişdir. Bunu, eyni zamanda, yeni məzmunlu informasiya cəmiyyətinə keçid dövrü kimi də dəyərləndirmək mümkündür.

Beynəlxalq iqtisadi əlaqələrin daha da dərinləşdiyi və genişləndiyi bir şəraitdə həyata keçirilən modernləşmə prosesi bazar subyektlərinin inkişafının əsas amili kimi çıxış edir. Bununla yanaşı, həmin proses həm milli, həm də transmilli müstəvidə çağdaş bazar münasibətlərinin təkmilləşməsinə təkan verir və elmi-texniki tərəqqi meyllərinin sürətlə artmasında əks olunur. Bu proses, eyni zamanda, klasterial inkişafın zəruri atributudur. Belə ki, əlaqəli iqtisadi fəaliyyətlərin coğrafi yaxınlığı məhsuldarlığın artırılması və innovasiyalı inkişafı təmin edir. Klasterlər - son istehsalçılar, təchizatçılar, tədqiqat laboratoriyaları, tədris müəssisələri və iqtisadiyyatın müəyyən sahəsi üzrə digər təsisatlar iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsidir. O, qarşılıqlı əlaqədə olan iqtisadi subyektlərin müəyyən və bəlirli bir ərazidə cəmlənməsidir [4].

Təhlillər onu göstərir ki, Ümummilli lider Heydər Əliyevin uzaqgörən müdrikliklə həyata keçirdiyi daxili və xarici siyasət kursu ölkə prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Hədəflərə hesablanmış düzgün sosial-iqtisadi strategiya nəticəsində, Azərbaycan beynəlxalq təşkilatların hesablamalarına görə ən dinamik inkişaf edən dövlətlər sırasındadır.

Effektiv şəkildə həyata keçirilən regional inkişaf siyasəti iqtisadi islahatların dərinləşdirilməsi, mövcud potensialdan istifadə istiqamətində tədbirlərin gücləndirilməsi və ondan istifadənin səmərəliliyinin yüksəldilməsi əsasında ölkədə iqtisadi və sosial inkişaf strategiyası bu hədəflərin gerçəkləşməsinə, bu sahədə artıq əldə olunmuş nailiyyətlərin daha da möhkəmləndirilməsi və artırılmasına xidmət etmişdir.

Aparılan uğurlu siyasət nəticəsində Azərbaycan dövlət müstəqilliyini daha da möhkəmləndirmiş, ölkədə tarazlı və dayanıqlı inkişafın təmin edilməsi istiqamətində mühüm addımlar atılmışdır. Düzgün və məqsədyönlü strategiya nəticəsində əldə edilən iqtisadi uğurlar dövlətimizi beynəlxalq aləmdə nüfuzlu söz sahiblərindən birinə çevirmiş, BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü, “Qoşulmama hərəkatı” ölkələrinin isə sədri vəzifəsinə seçilməsinə səbəb olmuşdur.

Beynəlxalq birliyə inteqrasiya olunan müstəqil Azərbaycan Respub-likasındakı bütün proseslər xalqın və millətin maraqlarını ifadə edən dövlətçilik prinsiplərinə uyğun olaraq, bu birliyin, nüfuzlu beynəlxalq təşkilatlarının təklifləri nəzərə alınmaqla qloballaşma dövrünün tələbləri səviyyəsində qurulmaqdadır.

Təhlillər göstərir ki, ölkə başçısının öz müdrik, qətiyyətli və cəsarətli addımları, Azərbaycanın təbii ehtiyatları və onlardan səmərəli istifadə olunması, investisiya potensialının cəlbediciliyinin artırılması və digər konseptual əhəmiyyətli tədbirlərin nəticəsi olaraq, ölkə iqtisadiyyatı təkcə sürətli inkişafla deyil, eyni zamanda, yeni keyfiyyət parametrləri ilə də özünü təsdiqləmişdi.

Uğurlu strategiyanın nəticəsi olaraq beynəlxalq standartlara cavab verən texnologiyalar əsasında istehsal, sosial və bazar infrastruktur şəbəkəsinin yaradılması, həmçinin səmərəli təsərrüfatçılıq və müasir idarəçilik üsullarından və mütərəqqi maliyyə mexanizmlərindən istifadə hallarının genişləndirilməsi mühüm

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

əhəmiyyət kəsb edir.

Bu baxımdan ölkəmizdə nəzərdə tutulan işlərin vahid proqram əsasında həyata keçirilməsi məqsədi ilə "Azərspace-1" telekommunikasiya peyki orbitə buraxılmış, irimiqyaslı mütərəqqi yenilikləri özündə əks etdirən yol, nəqliyyat, informasiya-kommunikasiya texnologiyaları, humanitar-mədəni, sosial-iqtisadi və digər sahələri əhatə edən nəhəng infrastruktur layihələr reallaşdırılmış, enerji təhlükəsizliyi təmin edilmiş, ərzaq təhlükəsizliyinin tam şəkildə təmini istiqamətində işlər davam etdirilmişdir.

Son olaraq qeyd edək ki, Ulu öndər Heydər Əliyevin böyük müdrikliklə irəli sürdüyü mütərəqqi ideyalar bugünkü uğurların başlıca səbəbidir və onun uzunmüddətli perspektivə hesablanmış gedişləri Azərbaycan dövlətinin ideoloji-siyasi və iqtisadi əsaslarını formalaşdıraraq optimal dövlət modelinin təşəkkülünə zəmin yaratmışdır. Fikrimizi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözləri ilə tamamlayaraq qeyd edək ki, "Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir".

## ƏDƏBİYYAT

1. Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011)— Naxçıvan: 2011.
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 7-ci kitab.
3. Hüseynova İ. Heydər Əliyev və Azərbaycanda demokratik dövlət quruculuğu. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. s. 182
4. Qayıdış: (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s.140-141, s. 607-609, s. 658-665.
5. Alıyev İ., Soltanlı İ. Aqrar sahənin modernləşməsi dönəmində rəqabət-qabiliyyətliliyinin təmin olunması problemləri. Bakı: 2015.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

# DİLÇİLİK

**SƏDAQƏT HƏSƏNOVA**
*Naxçıvan Dövlət Universiteti*

## AZƏRBAYCAN NİTQ MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

Bəşəriyyətin təməl daşı kimi dəyərləndirilən söz, həm də böyük şəxsiyyətləri tarixdə yaşadan qüvvədir. İnsanlığın tarixini sözün tarixi kimi qəbul etmək çox düzgündür. Bütün tarixi zamanlarda sözün şərəfinə sözlər qoşulmuş, əsərlər yazılmış, nəğmələr bəstələnmişdir. Sözü sevənlər, onun gücünə inananlar yeni sözlər yaratmış, sözün gizli anlamlarına nüfuz etmiş və beləliklə də, təsir etməyi, heyrətləndirməyi bacarmışlar.

“Mədəniyyət” teminini ilk dəfə 1767-ci ildə Şotlandiya filosofu A.Fergüson işlətmişdir. Bu anlayış geniş anlamda xalq və millətlərin maddi-mənəvi inkişaf səviyyəsini, həyat və fəaliyyətinin xüsusi sahəsini bildirir. Mədəniyyət örnəklərinin tarixi bir-birindən fərqlənir. Elə mədəniyyət nümunələri var ki, onların yaranması son dövrlərə aiddir. Elələri də var ki, xalqımızın ulu tarixi ilə səsləşir. Hər bir dövrün və xalqın öz mədəniyyəti vardır və o, cəmiyyətin inkişafı ilə dəyişilib zənginləşir. Xalqımızın milli mədəniyyəti qədim olduğu kimi, onun xüsusi tərkib hissəsi olan dil-nitq mədəniyyəti də tarixin qədim kökləri ilə bağlıdır. Hətta Azərbaycan xalqının nitq məharətini, dil mədəniyyətini təsdiq edən bir sıra örnəklərin tarixi ibtidai icma quruluşu ilə səsləşir. Müxtəlif zamanlarda nitq mədəniyyətinin inkişafını göstərən faktlar xalqımızın mənəvi baxımdan dərinlik və yüksəkliyini özündə yaşadır. Onun inkişafında bir sıra böyük simaların müstəsna rolu vardır. Bu baxımdan, Ümummilli liderimiz Heydər Əliyev seçilib-sayılan böyük şəxsiyyətlərdən biri kimi xalqımızın natiqlik sənətinin forma və məzmunca zənginləşməsində fərqli və zəngin fəaliyyəti ilə böyük bir məktəb yaratmış, fərqli bir natiq kimi yaddaşlarda qalmışdır.

Natiqlər dilin keşiyində dayanan böyük şəxsiyyətlərdir. Ümummilli liderimiz Heydər Əliyev professor Ağamusa Axundov ilə söhbətində demişdir: “...Nitq mədəniyyəti ilə bağlı nələr etmisiniz? Siz bu sahəyə daha çox fikir verməlisiniz ki, xalq öz dilində sərbəst danışa bilsin” (1, 24).

Heydər Əliyev ana dilinə “Azərbaycan xalqının dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir” münasibəti ilə yanaşmışdır. O, 31 oktyabr 1995-ci il tarixdə Azərbaycan Respublikası Milli Elmlər Akademiyasında “Azərbaycan dilinin müzakirəsinə həsr olunmuş müşavirə”də Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olduğunu bir daha bəyan etmişdir. Bu sitatlar onun nitqinə məxsusdur:

Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir (6, 39);

Ana dilini bilməmək, ana dilini qiymətləndirməmək, şübhəsiz ki, xalq arasında böyük qəbahətdir (6, 40);

– Azərbaycan dili bizi keçmişdə də, indi də, gələcəkdə də birləşdirəcəkdir;

Öz ana dilini bilməyən adamlar şikəst adamlardır (6, 39);

Azərbaycan dilini yüksək kürsülərdən səsləndirən, onun dövlət dili olmaq statusunu dərk və qəbul etdirən bu böyük şəxsiyyət məzmunlu və mənalı nitqləri ilə cəmiyyətdə bir çox məsələlərin həyata

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

keçməsinə təkan vermişdir. Bu, onunla bağlıdır ki, Azərbaycan nitq mədəniyyətinin layiqli daşıyıcılarından olan Heydər Əliyevdə siyasi mədəniyyət çox yüksək olmuşdur. Bu böyük sima öz çıxışları ilə göstərdi ki, siyasi nitqin müəllifində həm nitq mədəniyyəti, həm də siyasi mədəniyyət vəhdət təşkil etdikdə onun nitqi böyük bir hərəkatın proqramına çevrilə bilir. Heydər Əliyevin nitqləri ona görə uğur qazanmışdır ki, bu nitqlərin müəllifi xalqın mənafeyini, fikirlərini düzgün və bütün dolğunluğu ilə ifadə edirdi. "Heydər Əliyev sözün semantikasına xüsusi əhəmiyyət verir, dilçilik baxımından məqbul sayılan qaydalara əməl edir. Onun hər bir sözə yanaşması göstərir ki, o, sözə söz xatirinə deyil, konkret mənanı çatdırmaq vasitəsi kimi baxır və qiymətləndirir" (3, 31-32).

Azərbaycanda 2003-cü ilin prezident seçkilərində prezidentliyə namizədlər efirdə siyasi nitq söyləyərək öz platformalarını elan edirdilər. Onlar arasında natiq kimi özünü göstərən, lakin siyasi mədəniyyətə malik olmayanları xalq yaxşı qarşılamır və onlara inanmırdı. Əsl siyasi natiq xalqı inandırmağı və onu öz arxasınca aparmağı bacarmalıdır. Belə bir keyfiyyəti Azərbaycan xalqı öz Ümummilli liderində gördü. Heydər Əliyev öz nitq mədəniyyəti və bacarığı ilə təsdiq etdi ki, siyasi nitqin müəllifi yalnız xalqı irəli aparan qüvvə kimi çıxış etməlidir.

Heydər Əliyevin dilimiz haqqındakı fikirlərindən birində deyilir: "Azərbaycan xalqının dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir" (4, 15). Bu, doğrudan da, belədir. Dil hər bir xalqın mənəvi kimliyidir, varlığını təsdiq edən əsas göstəricidir. Heydər Əliyev bu həqiqəti həmişə dərk etdirmiş və xalqın diqqətinə çatdırmışdır.

Heydər Əliyevin çıxış və nitqlərində diqqəti çəkən başqa bir keyfiyyət də vardır. Bu nitqlər öz müasirliyi ilə seçilir ki, bu da onların təsir gücünü, maraqlılığını, yüksək səviyyəsini təmin edən cəhətlərdən biridir. Bundan başqa, mədəni nitqin əsas əlamətlərindən olan yığcamlıq keyfiyyəti, məntiqlilik, aydınlıq, ifadəlilik, inandırıcılıq, düzgünlük və dəqiqlik Heydər Əliyevin bütün nitqlərində özünü göstərir.

Məlumdur ki, nitqin təsirli olması onun əsas keyfiyyətlərindən biridir. Bu cəhət nitqin insanlara təsirini gücləndirən əlamətlərdəndir. Nitqin təsirli olmasında natiqin şəxsi nümunəsi də əsas rol oynayır. Bu anlamda, Heydər Əliyev geyim mədəniyyəti, davranışı, söz demək qabiliyyəti ilə dinləyicilərə və ümumiyyətlə, xalqımıza örnək olmuşdur.

Heydər Əliyevin nitq mədəniyyətində çox mühüm olan bir keyfiyyəti xüsusi olaraq vurğulamaq lazım gəlir. Belə ki, sanballı və seçilən bir natiq kimi o, dinləyicilərin diqqətini çəkməyi bacarır və bu xüsusiyyət onun nitqlərinin mərkəzində dayanır. Bunun üçün o, yeri gəldikcə bir qədər susmaq, bəzən səs tonunu yüksəltmək, bəzən auditoriyaya sürəkli nəzər salmaq, ifadə etdiyi fikrin mahiyyətini nəzərə çatdırmaq üçün əlavə söz və ifadələrdən istifadə üsullarından son dərəcə bacarıq və məharətlə istifadə edirdi. Onun nitqlərindəki məntiqi vurğu, intonasiya özünə xas idi, qeyri- adiliyi ilə fərqlənirdi. Məntiqi vurğunun yeri yazılı nitqdə sabit olsa da, şifahi nitqdə sərbəstdir. Həmin vurğunun bu xüsusiyyətindən istifadə edən natiq onu lazım bildiyi cümlə üzvünün üstünə salırdı ki, dinləyicilərin diqqətini fikrin əsas informasiya yükünü daşıyan söz və ya ifadəyə cəlb etsin.

Azərbaycan ədəbi dili tarixində Heydər Əliyevin çıxış, nitq, bəyanat,

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

məktub, müsahibə, məruzə, müraciət, fərman və s.-dən ibarət zəngin bir irsi vardır. Onların hamısı, birinci növbədə, mövzu aktuallığı, məzmun mükəmməlliyi, ortaya qoyduğu zəruri və maraqlı problemləri ilə səciyyəvidir. Heydər Əliyevin nitqləri cəlbediciliyi, sadəliyi, gözəl üslubu ilə yaddaqalandır. Onların dəyəri həm də ondadır ki, müəllif təkrar fikirlərdən çox istifadə etmir. O, fikirlərini elə əsaslandırır ki, təkrara ehtiyac hiss olunmur. Çünki fikri təkrar etməkdənsə, dinləyiciləri ona inandırmaq daha çox zəruridir. Sözsüz ki, burada fikir təkrarından danışılır, söz, ifadə təkrarından söhbət getmir. Söz və ifadələrin təkrarı üslub keyfiyyətlərinə müsbət təsir edən faktlardandır və bunu Ümummilli liderimizin çıxış və nitqlərində aydın şəkildə görürük. Məsələn, onun nitqlərində təsiredicilik baxımından bir sıra təkrar söz və ifadələr işlənmişdir ki, bu, hər hansı bir fikri təbliğ etmək, dərindən anlatmaq, ictimai-siyasi üslub baxımından ifadə etmək məqsədi daşıdığından ağırlıq yaratmır, əksinə, irəli sürülən fikirlərin təntənəli şəkildə ifadəsini əsaslandırır. Bu anlamda, Heydər Əliyevin 2 fevral 1996-cı ildə Azərbaycan gənclərinin Birinci forumundakı “Müstəqil Azərbaycanın gələcəyi gənclərdir” adlı çıxışı diqqəti çəkir: “Hər bir gənc Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün vətəni sevməlidir, torpağı sevməlidir, xalqımızı sevməlidir, dilimizi sevməlidir, milli ənənələrimizi sevməlidir. Bunları sevə bilməyən adam, onları özü üçün mənəvi əsas hesab edə bilməyən gənc həyatda özünə yer tapa bilməyəcəkdir və şübhəsiz ki, bizim ictimai-siyasi prosesdə, müstəqil Azərbaycanın inkişafında lazımi qədər iştirak edə bilməyəcəkdir” (4, 358).

Sözügedən nitqin bir parçasından alınmış bu örnəkdə bir mürəkkəb cümlənin daxilində beş ədəd “sevməlidir” sözü işlənmişdir. Bu sözün tez-tez işlənməsi yoruculuq əmələ gətirmir, nitq ahəngi, ritmik təkrar yaradır ki, bu da mədəni və təsirli nitqin əsas məsələlərindəndir, ona səmimilik və bədiilik gətirən xüsusiyyətlərdəndir. Nitqdəki təkrar sözlər auditoriyanın diqqətini çəkməyə, nitqin təsirini qüvvətləndirməyə, xalqı inandırmağa xidmət edir. Heydər Əliyev sözün semantikasına xüsusi əhəmiyyət verir, dilçilik baxımından məqbul sayılan qaydalara əməl edirdi. Onun hər bir sözə yanaşması göstərir ki, o, sözə söz xatirinə deyil, konkret mənanı çatdırmaq vasitəsi kimi baxır və qiymətləndirirdi.

Heydər Əliyevin bütün nitqlərinin mərkəzində vətən məhəbbəti, ana dilinə yüksək münasibət dayanır. Ana dilini sevən, sevdirən, bu dilin incəliklərinə hərtərəfli və dərindən bələd olan Heydər Əliyevin bütün nitqləri Azərbaycan nitq mədəniyyəti elminə və natiqlik sənətinə layiqli bir töhfədir.

Heydər Əliyevin dilimizə məhəbbəti onun bu mövzuda imzaladığı rəsmi dövlət sənədlərində də ifadə olunub. Onlardan 3-ü fərman, 1-i sərəncam, 1-i də qanundur. Həmin rəsmi sənədlər aşağıdakılardır:

1) 18 iyun 2001-ci ildə “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı;

2) 4 iyul 2001-ci il tarixdə Heydər Əliyev “Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının Tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı;

3) 9 avqust 2001-ci ildə “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı;

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

4) 30 sentyabr 2002-ci il tarixdə “Azərbaycan Respublikasında Dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanunu;

5) 2 yanvar 2003-cü il tarixdə “Azərbaycan Respublikasında Dövlət dili haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.

18 iyun 2001-ci ildə “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı öz həcm və məzmunu ilə fərqlənir. Belə ki, orada Azərbaycan dili tarixinin qısa icmalı, müxtəlif tarixi dövrlərdə onun inkişaf xüsusiyyətləri verilmişdir. Fərmanda deyilir: “Azərbaycan dili bu gün dərin fikirləri incə çalarınadək olduqca aydın bir şəkildə ifadə etmək qüdrətinə malik dillərdəndir. Düşüncələrdəki dərinliyi, hisslərdəki incəlikləri bütünlüklə ifadə etmək kamilliyinə yetişə bilməsi üçün hər hansı bir xalqa bir neçə minillik tarix yaşaması lazım gəlir. Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi göstərir ki, Azərbaycan xalqı dünyanın ən qədim xalqlarındandır”. Sənəddə XVI yüzillikdə Azərbaycan dilinin mövqelərinin möhkəmlənməsi, XVII yüzillikdə xalq şeirində gedən proseslər və bu proseslərin XVIII yüzillikdə şifahi xalq ədəbiyyatının bədii dilə təsiri kimi özünü göstərməsi, həmin dövrdə elmi üslubun təşəkkülü üçün yaranan imkanlar, XIX yüzillikdə Azərbaycanın ikiyə bölünməsinin dilə təsiri, həmin dövrdə yaranan milli dərsliklər, o zamanın görkəmli maarifçiləri, milli mətbuat və s. haqqında fikirlər öz əksini tapmış və XIX yüzillik Azərbaycan ədəbi dilinin ən sürətli tərəqqisi və çiçəklənməsi dövrü kimi dəyərləndirilmişdir.

Fərmanda 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə Azərbaycan dilinin geniş tətbiq olunması yolunda böyük imkanlar açılması, 1922-ci ildə yaradılmış Əlifba Komitəsi, 1926-cı ildə çağırılan I Türkoloji Qurultay, 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının tərkibində Dilçilik İnstitutunun yaranması, XX yüzilin dilçi alimləri, Azərbaycanda qəbul edilmiş Konstitusiyalarda dövlət dilinin necə əks etdirilməsi və s. haqqında da maraqlı fikirlər vardır.

Sözügedən sənədlər Ümummilli liderimizin dilimizi nə qədər sevməsini, saflığı, qorunması və inkişafına göstərdiyi qayğını təcəssüm etdirir. O deyirdi:

“Ana dilimiz Müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir”.

Çıxışları, nitqləri, imzaladığı rəsmi sənədlər bir daha göstərir ki, Heydər Əliyev Azərbaycan dilinin, Azərbaycan nitq mədəniyyətinin inkişafında müstəsna rolu olan çox böyük şəxsiyyətdir.

Heydər Əliyevin cəmiyyətin bütün sahələrinə aid mükəmməl fikirləri Azərbaycanın çoxşaxəli inkişafına əhəmiyyətli dərəcədə təsir etmişdir. Bu baxımdan, onun Azərbaycan dilinin, nitq mədəniyyətimizin inkişafına verdiyi töhfələr əbədi və unudulmazdır. Heydər Əliyevin dilimiz haqqındakı çoxsaylı fikirlərindən biri belədir: “Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir” (3, 6). Bu zəngin dildən məqsədyönlü şəkildə istifadə etmək, üslub baxımından ən uğurlu dil vahidlərini seçib işlətmək, fikrin düzgün ifadəsi üçün lazım olan sözlərdən faydalanmaq nitq mədəniyyətinin əsas məsələlərindəndir. Bu, bir həqiqətdir ki, xalqımız dünya xalqları içərisində mədəni bir xalq kimi tanınır və bu mədəniyyət, ilk növbədə, onun dilinə, nitqinə aiddir. Bunu həm

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

hazırkı mədəni nitqimiz, həm də qədim nitq mədəniyyəti örnəklərimiz sübut edir.

Çıxış, nitq, bəyanat, məktub, müsahibə, məruzə və müraciətləri, həm də rəsmi sənədləri – sərəncam və fərmanları ilə Azərbaycan ədəbi dilinin üslublarına zənginlik gətirən, inkişafında əsaslı rol oynayan Heydər Əliyev çağdaş dövrümüzdə ana dilimizin xüsusi tərəqqisinə səbəb olmuşdur. Onun imzaladığı rəsmi sənədlərin sayı və sanbalı da bu fikri təsdiq edir. Heydər Əliyev bütün fəaliyyəti ilə Azərbaycan dilinin dövlətimizin dilini təmsil edən bir dil kimi tanınmasına, işlənməsinə çalışmış və bununla da ədəbi dilimizin tarixində özünəməxsus bir iz qoymuşdur.

Heydər Əliyevin simasında iki böyük şəxsiyyətin – dilini sevən, xalqına bağlı bir vətəndaş və milli-müstəqil dövlətini təmsil edən ictimai xadimin vəhdəti özünü göstərir. Sözsüz ki, dilin bütün dünyada tanınmasında, beynəlxalq nüfuzunun yaranıb yüksək inkişaf zirvəsinə çatmasında böyük adamları rolu əvəzsizdir. Bu anlamda da, Heydər Əliyev xalqımızın seçkin övladlarındandır.

Daha çox Azərbaycan ədəbi dilinin publisistik və rəsmi-işgüzar üslub kimi funksional üslublarına müraciət edən Heydər Əliyevin bu üslubların dəyərli örnəkləri olan, ana dilinə məhəbbətlə Azərbaycan dövlətinə sədaqəti özündə əks etdirən nitqlərində irəli sürülən dəyərli və həmişəyaşar fikirlər xalqımızın, həm də təfəkkür mədəniyyətinin yüksəkliyini təsdiq edən faktik materiallardır. "Tarixi təcrübə göstərir ki, dilin inkişafında milli müstəqillik ideyaları və dövlətçilik ənənələrinin, həmin ideya və ənənələri öz fəaliyyətində gerçəkləşdirən və həyata keçirən qüdrətli dövlət başçılarının, xalqının tarixində şərəfli yer tutan böyük siyasi xadimlərin böyük rolu olur" (2, 5).

Heydər Əliyevin nitqləri müəllifinin yüksək intellekt, dərin mənəviyyat, milli mədəniyyət, hərtərəfli bilik və məlumatını göstərən ədəbi dil örnəkləridir. Hansı tədbir və auditoriyada olursa, olsun, o, möhtəşəm nitqləri ilə dinləyiciləri heyran etmiş və onun çıxışlarında elə məsələlər qoyulmuşdur, elə fikirlərdən danışılmışdır ki, onlar həm də səsləndirildiyi salonun sanbalını, məqsədini, dəyərini, mahiyyətini nəzərə çatdırmışdır.

Heydər Əliyevin bütün çıxışlarında, nitqlərində yığcam və aydın mənalı fikirlər ifadə edən dil vahidləri əsas yer tutur. Natiqin ifasındakı sadalama intonasiyası, yerinə və məqsədinə görə sürətli və ya sürətsiz deyiliş, pauzalardan düzgün istifadə məqamları da diqqəti çəkən amillərdəndir. Heydər Əliyev Azərbaycan dilinin leksik-qrammatik vahidlərindən əsl dilçi bacarığı ilə istifadə etmişdir. "Əlbəttə, Heydər Əliyev dilçi-filoloq deyil, lakin siyasi-ictimai fəaliyyətinin tərkib hissəsi kimi dil məsələlərinə, cəsarətlə demək olar ki, yalnız siyasət xadimi, ictimai xadim olaraq deyil, həm də bir dilçi-filoloq professionallığı ilə yanaşmışdır" (5, 9).

Heydər Əliyevin nitqlərinin maraqlı xüsusiyyətlərindən biri də onların məzmun və forma vəhdətidir. Hər bir nitqin məzmunu öz adına uyğun olaraq, tərtib edilmiş, adda ifadə olunan məsələ məzmun materialında aydın izah və münasibətlə təqdim edilmişdir.

Heydər Əliyevin nitqlərinin mətni göstərir ki, onların müəllifi Azərbaycan dilçiliyi elminin bütün sahələrinə aid mükəmməl biliklərə malikdir, söz və ifadələrin bütün məna və məna çalarlıqlarına dərindən yiyələnmişdir. O, nitq və çıxışlarında milli sözlərimizə üstünlük verir, ümumişlək sözlərdən daha çox istifadə edərək ədəbi dil ilə xalq

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

danışıq dili arasındakı fərqlərin aradan qalxmasına kömək etmişdir.

Məlumdur ki, Heydər Əliyevin nitq və çıxışları publisistik səciyyəsi daşımışdır. Bu üslubda ən önəmli cəhət dilin kütləviliyidir ki, bu cəhətə xüsusi fikir verilmişdir.

Heydər Əliyevin dil siyasətində birinci yerdə Azərbaycan dilinin təmizliyi, onun hamı tərəfindən yüksək münasibətlə əhatə olunması, inkişafı, beynəlxalq nüfuz qazanması üçün bir sıra rəsmi sənədlər imzalanması məsələləri diqqət mərkəzində olmuşdur. Heydər Əliyevin nitqləri, imzaladığı sənədlər, çıxışlarında, məruzələrində ifadə etdiyi fikirlər maraqlı və aktualdır. Bu nitqlərə yalnız bir natiqin dilindən çıxan material kimi qiymət vermək olmur. Onlar bütövlükdə xalqın mənəviyyat və problemlərini ifadə edən dəyərli örnəklər olaraq tarixi materiallar toplusudur ki, vətən, xalq, millət sevgisindən təzahür edib.

## ƏDƏBİYYAT

1. Abdullayev N., Məmmədov Z. Nitq mədəniyyətinin əsasları. Bakı: ADPU, 2008.
2. Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı: Ozan, 1999.
3. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, 35-ci cild. Bakı: Azərnəşr, 2011.
4. Heydər Əliyev. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002.
5. İbrahimov M. Ana dili – hikmət xəzinəsi. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1991.
6. Sadıqlı A. Ümummilli liderimiz Heydər Əliyev və Azərbaycan dili. Bakı: Mütərcim, 2011.

**ARİF AĞALAROV**
*Naxçıvan Dövlət Universiteti*

# DİLİMİZƏ HEYDƏR ƏLİYEV QAYĞISI

Azərbaycan dövlətinin tarixində və millətimizin taleyində digər sahələr kimi, dilimizin nüfuzunun yüksədilməsi və inkişaf etdirilməsi sahəsində də Ümummilli liderimiz Heydər Əliyev qədər sistemli və ardıcıl iş aparanlar yoxdur. Bu dahi rəhbərin vətən, millət və dil sevgisinin bariz örnəklərindən biridir. Heydər Əliyevin milli varlıq və kimliyimizi təsdiq edən Azərbaycan dilinə həsas yanaşması Ulu öndərin xalqımızın və onun mənsub olduğu dilin keçdiyi tarixi yolunu, dilin keçmişi ilə bu gününün təhlilini hər kəsdən daha yaxşı bilməsindən qaynaqlanırdı. Azərbaycan dilinin dövlət dili 1995–ci il Konstitusiyasında əks olunması ilə əlaqədar keçirilən müzakirədə Heydər Əliyev demişdir: "Heç kəs deyə bilməz ki, XII əsrdə kim nə deyibsə, o bu gün bizim üçün ehkamdır. Heç kəs deyə bilməz ki, XV əsrdə kim nə deyibsə, o da bizim üçün ehkamdır. Bunu nəzərə almaq lazımdır və bunu unutmaq lazım deyil. Bu gün biz dövlət dilimiz haqqında məsələni müzakirə edərkən heç bir konyuktura yol verməməliyik. Hansısa bir qərarı qəbul edəcəyiksə, - bu kimin xoşuna gələcəksə, ya gəlməyəcək, - bu bizi narahat etməməlidir. Biz onu həqiqət əsasında qəbul etməliyik və kimdənsə üzrxahlıq da etməməliyik: Bağışlayın, biz sizinlə qardaşıq, amma biz dilimizi belə etmək istəyirik. Mən bununla da razı deyləm". Bu fikirlərlə fenomen şəxsiyyət olan Heydər Əliyev dövlət siyasətinin tərkib hissəsi sayılan dilimizin keçdiyi tarixi dönəmlərin hər incə məqamının nəzərə alaraq adının və hüquqlarnın bərpa

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

olunmasının tərəfdarı kimi bir çox mübahisəli məsələlərə aydınlıq gətirmiş oldu.

O deyirdi ki, Azərbaycanda, İranda, Türkiyənin şərq hissəsində yaşayan və eyni dilə mənsub olan insanlar əsrlərlə yadelli şahlıqların, sultanların, xəlifələrin, dövlətlərin əlinə keçirdiyi vaxtlarda da dilini itirməyib, yaşadıb, böyük şəxsiyyətlər yetirib və keçmişdə də, elə XX əsrdə də biz danışdığımız dildə danışıblar, ona görə öz əcdadlarımıza daim minnətdar olmalıyıq. Dilimizin dövlət dili statusu alması yalnız 1978– ci ildə qəbul edilmiş Konstitusiyada təsbit olunubdur. Məhz bu dövrdə biz Nizami Gəncəvini dünyaya tanıda bilmişik. Məhəmməd Füzulini də, Nəsimini də, Mirzə Fətəli Axundzadəni də, Sabiri də, Seyid Əzim Şirvanini də, Abbasqulu Ağa Bakıxanovu da tanıtmışıq və bütün bunların hamısını o dövrdə etmişik. Bu şəxsiyyətlər keçən əsrlərdə, dövrlərdə dünyada məgər bu qədər məşhur olublarmı? Yox, heç vaxt.

Bu bizim dövrümüzün bəhrəsidir və bunların hamısı da Azərbaycan adı ilə, dili ilə bağlı olubdur.

Real tarixi gerçəklik və həqiqətə söykənərək dilimizin adı ilə bağlı onun söylədikləri bəzi "milli" konteksdən çıxış edən ziyalılarımızı daha düzgün düşünməyə məcbur etdi. Bütün dünya bizi azərbaycanlı kimi tanıyır və dilimizin adı da Azərbaycan dilidir. Belə olan halda, dilimizin adını dəyişməklə biz dünya ictimaiyyətini çaşdırsa bilərik və birdən – birə dünyanı bu istiqamətdə maarifləndirmək heç cür mümkün ola bilməz. Bizim ərazimizdə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul olunmuş hüdudlar çərçivəsində Azərbaycan Respublikasında yaşayanlar azərbaycanlılardır... Biz öz dilimizi gedib heç bir başqa dilə nə qarışdırmalıyıq, nə də ona yapışdırmalı, qoşmalıyıq. Bizim özümüzün dilimiz var. Bu da bizim dilimizdir.

Bütün dünya dillərinə hörmətlə yanaşan Heydər Əliyevin dilimizlə bağlı söylədiyi bu fikirlər dilimizin ifadəlilik imkanları və işlənmə arealının coğrafiyasını, həmçinin qürur mənbəyimiz olmasını gələcək nəsillər üçün tam şəkildə müəyyənləşdirir. "Mən hər bir dilə hörmət və ehtiramımı bildirirəm. Amma hesab edirəm ki, öz dilimizlə, Azərbaycan dili ilə hər birimiz fəxr edə bilərik. Çünki bu, zəngin dildir, artıq dünyada tanınmış dildir. Xalqımızın adı da tanınıb, respublikamızın adı da tanınıb, dilimizin adı da tanınıb. Bu reallıqdır".

Azərbaycan dilinin nüfuzunun yüksəldilməsi ilə bağlı işlər dahi rəhbərin təşəbbüsü və iradəsi ilə 21 aprel 1978-ci il tarixdə qəbul olunmuş konstitusiyada ana dilimizə dövlət dili statusu verilməsi ilə başlamışdır. Həmin dövrdən ictimai-siyasi həyatdan sıxışdırılmaqda olan Azərbaycan dilinin zaman-zaman işləklik qazanması, nüfuz və arealının genişlənməsi prosesi sürətlənmiş oldu. Nəticədə Azərbaycan dili cəmiyyət həyatında hakim dil səviyyəsinə yüksəldi. Dünyanın birçox yerində yaşayan 50 milyonluq xalqımızın milli-mənəvi dünyasının əsas göstəricisi və ünsiyyət vasitəsi olan bəzi dünyada tanıdan və yaşadan, min illərdən bəri formalaşan ana dilimizin konstitusion hüquqları bərpa olundu.

Heydər Əliyev Azərbaycan rəhbərliyinə gəldikdən sonra Azərbaycan dilinin inkişafı üçün Azərbaycan Respublikasının dövlət dili haqqında qanunda dəyişikliklər etmişdir. Ulu öndər dilimizlə bağlı çıxışlarının birində demişdir: "Azərbaycan dili türk dili deyil, türk soylu bir dildir. Bizim Azərbaycan kimi dövlətimiz və onun öz dövlət dili var". Azərbaycan Respublikası müstəqillik qazandıqdan

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

sonra Heydər Əliyev qeyd edirdi ki, indi biz dilimizdə sərbəst danışırıq və hər bir mürəkkəb fikri ifadə etməyə qadirik. Bu, böyük nailiyyətdir. Bu, iqtisadi və başqa nailiyyətlərin üstün bir nailiyyətlərdir ki, bizim bir millət kimi özünəməxsus dilimiz var. O da o qədər zəngindir ki, dünyanın hər bir hadisəsini biz öz dilimizdə ifadə edə bilərik.

Azərbaycan dilinin həm ümumxalq dili, həm də dövlət dili kimi inkişafında fenomen şəxsiyyət Heydər Əliyevin xidmətləri əvəzsizdir. O, Azərbaycan dilinə yalnız ünsiyyət vasitəsi kimi deyil, qədim və zəngin tarixə malik xalqımızın milli sərvəti kimi yanaşırdı. Ölkəmizdə ana dilinin hərtərəfli inkişafında, onun saflığının qorunmasında, işlənmə arealının genişlənərək işlək dilə çevrilməsində, beynəlxalq münasibətlər sisteminə yol tapmasında, konstitusiyada (1995) Azərbaycan dili milli dövlətçiliyimizin rəmzlərindən biri kimi təsbit olunmasında, dilimizin siyasi hüquqi statusunun möhkəmləndirilməsində atılan addımlar Ulu öndərin adı ilə bağlıdır.

Milli kimliyimiz və sərvətimiz olan ana dilimizin inkişafına yönəlmiş qərar, fərman və sərəncamlar Ümummilli liderin tarixi xidmətlərindən biridir. Bu vacib qərarlardan ən ümdəsi 2002-ci il sentyabrın 30-da imzalanmış "Azərbaycan Respublikasının dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunudur. Bu tarixi qərar doğma Azərbaycan dilinin hərtərəfli inkişaf və qayğısını, saflığının qorunmasını təmin etməklə bərabər, dilçilik elminin nəzəri və praktik sahələrinin inkişaf etdirilməsi üçün əlverişli şərait yaratmış oldu.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən gəlişi Azərbaycan Respublikasında dil siyasətinin möhkəm zəminlər üzərində formalaşdırılması, dilimizin dövlət dili olaraq tətbiqi işinin təkmilləşdirilməsi və beynəlxalq aləmdə nüfuzunun artmasına səbəb olmuşdur.

Azərbaycan dilinin zənginliyini, ifadə imkanlarının genişliyi, axıcılığı, şirinliyi və orjinallığı Heydər Əliyevin nitqində daha aydın hiss olunmaqdadır. Bu dahi şəxsiyyətin nitqindəki sistemlilik, qrdıcıllıq və mətiqilik, xalq danışıq dilindən gələn ifadələri yerindən məharətlə işlətmək onun doğma dilimizin bütün incəliklərinə yüksək şəkildə bələd olduğunu, bu dili bütün varlığı ilə sevdiyini və sevdirə bildiyini göstərir.

"Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm..." Bu müdrik sözlər Azərbaycan xalqının dahi rəhbəri Heydər Əliyevə məxsusdur. Hər zaman Azərbaycan dilinə layiqincə diqqət yetirən, rəhbər uzaqgörənliyi ilə hələ sovet dövründə, imperiya qadağalarına baxmayaraq, dilimizin dövlət dili statusu alması, Azərbaycan dilçi alimlərinin yüksək dövlət mükafatlarına layiq görülərək ruhlandırılması, nəticədə Azərbaycan dilçiliyinin inkişaf etdirilməsi, eləcə də dahiyanə nitq mədəniyyəti ilə hamıya nümunə göstərməsi Heydər Əliyevin əvəzsiz xidmətlərindədir.

Hər bir Azərbaycan vətəndaşı müqəddəs sərvətimiz olan dilimizi sevməyi, bu dildə danışmaqdan qürur duymağı Heydər Əliyevdən öyrənməlidir.

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

**QƏNİRƏ ƏSGƏROVA**
*aganire@yahoo.com*
*Naxçıvan Dövlət Universiteti*

# HEYDƏR ƏLİYEV ÇIXIŞLARININ LEKSİK-QRAMMATİK XÜSUSİYYƏTLƏRİ

Azərbaycan dilinin inkişafında həm çıxış, nitq, bəyanat, məktub, müsahibə, məruzə və müraciətləri, həm də rəsmi sənədləri – sərəncam və fərmanları ilə mühüm rol oynayan Ümummilli liderimiz Heydər Əliyev bu dilin çağdaş dövrümüzdə xeyli dərəcədə yüksək tərəqqisinə səbəb olmuşdur. Azərbaycan ədəbi dili tarixinin heç bir dövründə onun imzaladığı rəsmi sənədlərin sayı qədər örnək olmamışdır. Heydər Əliyev Azərbaycan dilinin dövlətimizin dilini təmsil edən bir dil kimi tanınmasını əsaslandıran fəaliyyəti ilə ədəbi dilimizdə özünəməxsus bir iz qoymuşdur. Onun bu sahədəki fəaliyyətində iki böyük təəssüb özünü göstərir:

Vətənini, dilini sevən bir vətəndaş təəssübü;

Milli-müstəqil dövlətini təmsil edən ictimai xadim təəssübü.

Xalqın qeyrətli, qüdrətli, bacarıqlı və layiqli övladı olan Heydər Əliyev ana dilini yaşatmağa, qorumağa yanar isti ürəklə səy göstərən böyük şəxsiyyət idi. "Dilin hərtərəfli inkişafı, zənginləşməsi, yüksək zirvələrə qalxaraq beynəlxalq nüfuz qazanması xalqın böyük övladlarının adı ilə bağlıdır" (1,5).

Dil məsələsini çox önəmli bir məsələ kimi tez-tez vurğulayan Heydər Əliyev Azərbaycan xalqının mənəvi-əxlaqi problemlərinin həllində dilin roluna xüsusi əhəmiyyət verir, onun imkanlarını yüksək qiymətləndirirdi. Azərbaycan dilinin müxtəlif funksional üslublarına, xüsusilə də publisistik və rəsmi-işgüzar üslublarına müraciət edən, bu üslublarda dəyərli, həmişəyaşar nitqlər söyləyən, çıxışlar edən, sənədlər imzalayan Ümummilli liderimizin ana dilinə məhəbbəti dövlətçilik ideyalarına sədaqəti ilə birləşirdi. "Tarixi təcrübə göstərir ki, dilin inkişafında milli müstəqillik ideyaları və dövlətçilik ənənələrinin, həmin ideya və ənənələri öz fəaliyyətində gerçəkləşdirən və həyata keçirən qüdrətli dövlət başçılarının, xalqının tarixində şərəfli yer tutan böyük siyasi xadimlərin böyük rolu olur" (1, 5).

Heydər Əliyevin nitqlərində yüksək intellekt, dərin mənəviyyat, milli mədəniyyət, hərtərəfli bilik və məlumat özünü göstərir. Onun çıxışlarında diqqəti çəkən göstəricilər çoxdur. Onlardan biri də bütün auditoriya nümayəndələrini əhatə edən geniş xitablar, xüsusi müraciət forması və faktik materiallara əsaslanmaqdır. Heydər Əliyevin nitqlərində bir yox, bir çox xitablara müraciət edilmişdir ki, bu, diqqəti əsas məsələyə yönəltməyin yollarından biridir. Onun 11 fevral 2000-ci il tarixdə Bakı Dövlət Universitetinin 80 illiyi münasibətilə BDU-nun və bir sıra xarici ölkə universitetlərinin rəhbərləri ilə görüşdə "Xalqımızın tarixində ilk universitet" adlı, 15 dekabr 2000-ci il tarixdə Azərbaycan Dövlət Neft Akademiyasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimindəki "Dünya şöhrətli ali təhsil ocağı" adlı nitqlərində belə diqqətədəyər linqvistik xüsusiyyətlərlə qarşılaşırıq. Onlardan birincisində iki, digərində isə üç müraciət obyekti verilmişdir. Doğrudur, müraciətlə bağlı olan söz və birləşmələr cümlə üzvləri ilə heç bir qrammatik əlaqədə ola bilmir. Lakin nitq prosesində onların böyük əhəmiyyəti vardır. Heydər Əliyev nitqlərinin özəl xüsusiyyətlərindən biri budur ki, onların məzmununda sadə

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

və bəsit xitablara rast gəlmək olmur, bu mənada, əsas yeri tutan geniş, yəni müxtəlif söz birləşmələri ilə ifadə olunan xitablardır. Və həmin xitabların xas cəhəti budur ki, onlar nida intonasiyası ilə ifadə olunduğundan xalqa olan yüksək ehtiram və münasibəti reallaşdıra bilir. Heydər Əliyev hansı auditoriya ilə təmasda olursa, həmin auditoriyanı təmsil edənlərin hamısına eyni zamanda müraciət edərək çıxışa başlayır. Məsələn, 25 sentyabr 1998-ci il tarixdə Azərbaycan müəllimlərinin XI qurultayında "Xalqımızın təhsilinin daha da təkmilləşdirilməsi və yüksəklərə qaldırılması müqəddəs vəzifəmizdir" adlı nitqində deyir:

"Əziz müəllimlər, qurultay nümayəndələri! Hörmətli xanımlar və cənablar! Mən sizi, müstəqil Azərbaycanın ilk müəllimlər qurultayını, bu qurultayın nümayəndələrini və bu möhtəşəm salona toplaşanların hamısını səmimi-qəlbdən salamlayıram, sizə cansağlığı, səadət arzulayıram" (4, 414).

Bu kiçik nitq parçasında həm kimlərə müraciətlə danışılması bəlli olur, həm qurultayın müstəqil Azərbaycanın ilk müəllimlər qurultayı olması diqqətə çatdırılır, həm də salonun möhtəşəmliyi vurğulanır. Heydər Əliyevin bütün çıxışlarında bunun şahidi oluruq. Onun nitqlərində yığcam və aydın mənalı sadə cümlələrdən təşkil olunmuş tabesiz mürəkkəb cümlələr, həmcins üzvlü cümlələr əsas yer tutur: "Beləliklə, xalqımızın maariflənməsi, təhsillənməsi üçün o dövr çox əhəmiyyətli bir dövr olmuşdur. Biz bunu qiymətləndirməliyik, heç vaxt unutmamalıyıq. Biz tariximizə doğru, ədalətli qiymət verməliyik. Heç bir konyunkturaya, hansısa yalançı məlumatlara uyaraq öz tariximizi qaralamamalıyıq. Tariximizin qara səhifələri də, amma çox parlaq, gözəl səhifələri də vardır" (4, 418). Beş cümlədən ibarət olan bu mətndə bütün cümlələrdə həmcins üzvlərdən istifadə olunub. Həmcins üzvlər sadalama intonasiyası ilə deyildiyindən, nitqin ifadə sürətində özünəxas rol oynayır. Bundan başqa, həmcins üzvlü cümlələr fikrin düzgün və dəqiq ifadə olunmasına və çatdırılmasına kömək edir.

Heydər Əliyev Azərbaycan dilinin leksik-qrammatik vahidlərindən əsl dilçi bacarığı ilə istifadə etmişdir. "Əlbəttə, Heydər Əliyev dilçi-filoloq deyil, lakin siyasi-ictimai fəaliyyətinin tərkib hissəsi kimi dil məsələlərinə, cəsarətlə demək olar ki, yalnız siyasət xadimi, ictimai xadim olaraq deyil, həm də bir dilçi-filoloq professionallığı ilə yanaşmışdır" (6, 9).

Heydər Əliyevin nitqlərinin maraqlı linqvistik xüsusiyyətlərindən biri də onların adı ilə bağlıdır. Belə ki, bu çıxış və nitqlər cəlbedici adı ilə diqqəti çəkir. "Ad əsərin yarısıdır" deyən alimlər yanılmamışlar. Doğrudan da, bəzən adi bir ad böyük bir əsərin taleyini həll edir. Bu anlamda, Heydər Əliyevin çıxış və nitqləri çox səciyyəvidir. Onların çoxunun adı cümlə şəklində olub fikir bitkinliyi ilə diqqəti çəkir: "Biliklərə mükəmməl və dərindən yiyələnmək Azərbaycan elçilərinin əsas vəzifəsidir", "Azərbaycanda ali təhsilli mütəxəssis hazırlığının üfüqləri genişlənir", "Tələbə olmaq yüksək şərəf, vətən və dövlət qarşısında böyük vətəndaşlıq borcudur", "Azərbaycan ali məktəblərinin işini yüksək tələblər səviyyəsinə qaldıraq", "Tələbə qəbulunun coğrafiyası genişlənir" və s.

Heydər Əliyevin nitqlərinin mətni göstərir ki, onların müəllifi Azərbaycan leksikasının bütün laylarına dərindən bələd olmuş, sözlərin semasioloji imkanlarından yetərincə istifadə etmişdir. Nitqlərin məzmununda əsas yeri milli sözlərimiz tutur. Alınmalar isə uzun yüzillərdən bəri dilimizdə vətəndaşlıq hüququ

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

qazanmış leksik vahidlərdir ki, onlar ümumişlək səviyyə qazanmışdır və xalq üçün anlaşıqlıdır.

Nitq və çıxışlar publisistik məzmun daşıdığından onların dil kütləviliyi əsas şərtdir. Heydər Əliyevin bütün nitqlərində bu cəhət nəzərə alınmış, ümumxalq dilinə üstünlük verilmişdir. Heydər Əliyevin dil siyasətində ana dilinin saflığı, onun qorunması, inkişafı, milli dil kimi işləkliyi, beynəlxalq arenaya çıxarılması problemləri əsas məsələlərdəndir. O, ziyalılarla, xaricə oxumağa göndərilən gənclərlə görüşlərində bu məsələlərə xüsusi diqqət yetirmişdir. Heydər Əliyev Azərbaycan xalqı ilə yalnız mərkəzdə oturub əlaqə saxlamırdı, ölkəni addım-addım gəzir, xalqın müxtəlif nümayəndələri ilə ana dili vasitəsilə əlaqə saxlayır, dilimizi yaşadır, sevir və sevdirirdi.

Heydər Əliyevdə dilimizə yüksək məhəbbətdən başqa, yaradıcı münasibət də var idi. Belə ki, o, sözləri yeniləşdirir, onları o vaxta qədər həmin sözlə işlədilməyən şəkilçilərlə işlədərək təzə leksik vahidlərin yaranmasına səbəb olurdu. Məsələn, yuxarıda qeyd edilən "təhsillənmək" sözü belələrindəndir. Bu söz, əslində, alınma mənşəlidir, lakin o, milli mənşəli feil düzəldən şəkilçi qəbul edərək tamamilə yeni forma və məzmunda işlədilmişdir.

Heydər Əliyevin nitqlərində, ifadə etdiyi fikirlərində xalqımızın mənəviyyatı əks olunur. Bu haqda Ümummilli liderimiz deyirdi: "Mənim üçün hər şeydən üstün milli mənliyimdir. Milli mənliyim məni həmişə bütün vəziyyətlərdən çıxarıb" (5, 23). Heydər Əliyev milli mənliyi, ana dilinə sevgisi, vətəninə məhəbbəti, xalqına ehtiramı ilə bütün nəsillərə ən parlaq örnəkdir.

Heydər Əliyevin dil siyasətində ilk növbədə ana dili dayanır, ona yüksək münasibət formalaşdırılır, onun gələcəyinə inam yaradılır. Çıxışlarının birində deyir: "Mən arzu edirəm ki, Azərbaycan gənci Şekspiri ingilis dilində oxusun, Nizamini, Füzulini, Nəsimini isə Azərbaycan dilində oxusun...Dil barəsində danışarkən, mədəniyyət, milli ənənələr haqqında danışarkən, eyni zamanda mən onu qeyd etmək istəyirəm ki, Azərbaycanda bütün vətəndaşlar eyni hüquqa malikdir və bütün dillərdən sərbəst istifadə olunur, olunmalıdır və gələcəkdə də istifadə olunacaqdır. Azərbaycan Azərbaycanda yaşayan bütün millətlərin doğma vətənidir. Azərbaycan vətəndaşları, Azərbaycan xalqı deyəndə biz Azərbaycanda yaşayan bütün millətlərin birliyini dərk edirik" (5, 30-31).

Sözügedən çıxışın məzmunundan da görünür ki, Heydər Əliyev başqa dilləri öyrənməyi savad və bilik nümunəsi hesab edir, lakin ana dilini öyrənmək birinci yerdə dayanır. Heydər Əliyevin dil siyasəti Azərbaycan ədəbi dil tarixinin əbədiyaşar səhifələrindəndir.

## ƏDƏBİYYAT

1. Axundov A. Bir neçə söz / Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili. Bakı: Təhsil, 1997, s. 5-7.
2. Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı: Ozan, 1999.
1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, 35-ci cild. Bakı: Azərnəşr, 2011.
2. Heydər Əliyev. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002.
3. Əliyev V. Heydər Əliyevin dil siyasəti. Bakı: Nurlan, 2003
4. Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili. Bakı: Təhsil, 1997.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

**ARİFƏ ZEYNALOVA**
*arifezeynalova9@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

# VAXTI ZAMANA ÇEVİRƏN ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ANA DİLİMİZƏ DÖVLƏT QAYĞISI, DİL SİYASƏTİ

Heydər Əliyev nadir insanlardan biri idi ki, vaxtı zamana çevirirdi və zamanı da millətinin, xalqının, ölkəsinin tələblərinə cavab verməyə sövq edirdi. O, tarixin sınaqlarından keçən, hər sınaqda da itirdiyindən çox qazanan millətin gerçək Lideri idi. Heydər Əliyevin müdrik həyat fəlsəfəsi daim böyük işləri ilə təsdiqləndi. Mübaliğəsiz desək, tək bir şəxsin, bir şəxsiyyətin - dünya siyasətçilərinin korifeyi, türk dünyasının nəhəng, görkəmli dövlət xadimi, Ümummilli liderimiz Heydər Əliyevin prinsipial mövqeyi, dönməz iradəsi, nəzəri və əməli fəaliyyəti nəticəsində ana dilimiz dövlət dili səviyyəsinə qalxdı, beynəlxalq aləmdə tanındı, xalq dilindən dövlət dilinə çevrildi, sadələşdi, zənginləşdi, saflaşdı. Bu proses Heydər Əliyevin bütün fəaliyyəti dövründə ardı-arası kəsilmədən davam etmiş və davam etməkdədir.

Hər bir dili yaşadan, inkişaf etdirib gələcək nəsillərə miras verən onun mənsub olduğu xalqıdır. Dilin hərtərəfli inkişafı, onun zənginləşməsi, yüksək zirvələrə qalxaraq beynəlxalq nüfuz qazanması xalqın böyük övladlarının adı ilə bağlıdır. Belə övladlardan biri də Azərbaycan xalqının Ulu öndəri, Azərbaycanımızın memarı Heydər Əliyevdir. Bu böyük şəxsiyyət, Azərbaycan xalqının ləyaqətli oğlu Azərbaycan dilinin hərtərəfli inkişaf etməsi, zənginləşib beynəlxalq aləmdə nüfuz qazanması, dünyanın mötəbər kürsülərindən eşidilməsi naminə yorulmadan çalışmış və uğurla bütün bunlara nail olmuşdur.

1960-70-ci illərdən başlayaraq bu günə kimi Azərbaycan dilinin dövlət dili olması naminə Heydər Əliyev böyük işlər görmüş və bu arzusuna, amalına uğurla çatmışdır.

Milli mədəniyyətimizin, maarifimizin inkişafında Azərbaycanın qurucusu, memarı, Ulu öndər Heydər Əliyevin xidmətləri əvəzsizdir. Ölkəmizə rəhbərlik etdiyi dövrlərdə ədəbiyyatımıza, dilimizə, mədəniyyətimizə qayğısı onun ictimai və siyasi fəaliyyətinin tərkib hissələrindən biri olmuşdur.

Azərbaycan cəmiyyətinin mənəvi-əxlaqi sağlamlığına həmişə xüsusi diqqət yetirən Ulu öndərimiz Heydər Əliyev 70-ci illərdən başlayaraq bu vacib məsələni həmişə ön plana çəkmişdir. Onun üçün dil məsələləri daima əhəmiyyətli, vacib məsələ olmuşdur. Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərliyinin birinci dövründə, daha doğrusu, ittifaq dövründə qorxmadan, çəkinmədən müxtəlif iclaslarda, yazıçılar qurultayında doğma dildə məruzələr, çıxışlar etmiş, Azərbaycan dilini konstitusiyada dövlət dili kimi qeyd etdirmiş və bu sahədə mübarizəni davam etdirmişdir. O dövrdə Heydər Əliyev məsələni məhz bu şəkildə qoymuşdur: "Hər şeydən əvvəl ana dilinin ən müxtəlif funksional üslubu sferalarda inkişafına şərait yaradılmalı, onun tədrisi yaxşılaşdırılmalı, elmi qrammatikası yaradılması sahəsində tədqiqatlar genişləndirilməlidir, çünki "ana dili hər bir xalqın milli varlığının əsas şərtidir".

Müəyyən fasilədən sonra yenidən Azərbaycana - doğma vətəninə qayıdan, ikinci dəfə hakimiyyətə başlayan bu müdrik insan bu dəfə xalqın xoşbəxtliyi, əmin-amanlığı, səadəti, doğma dilimizin zənginləşməsi, saflaşması, nüfuzunun

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

qaldırılması uğrunda mübarizəni daha kəskin davam etdirməyə başladı və buna nail oldu. Nəhayət, 12 noyabr 1995-ci ildə referendium nəticəsində qəbul olunmuş konstitusiyamızda Azərbaycan dilinin dövlət dili olmasına qərar verildi.

Ulu öndərimiz Heydər Əliyevin çıxışları, məruzələri sayəsində Azərbaycan dili dünyanın nəhəng dövlətlərinin xitabət kürsülərində səslənirdi. Artıq dilimiz şöhrət tapdı, tanındı. Məhz Heydər Əliyev dühası sayəsində beynəlxalq aləmdə xalqımız da tanındı, dilimiz də, millətimiz də, yenilməz dövlətimiz də. 18 iyun 2001-ci il tarixdə “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikasının Prezidenti çox mühüm bir fərman imzaladı. Bu fərman sözün həqiqi mənasında tarixi hadisədir, milli qələbədir. Bu fərman milli özünəqayıdış, milli dilə son və uca zirvə münasibətidir. Bütün xalq, xüsusən ziyalılar bu fərmanı alqışlayır, təqdir edir. Fərmanda dil məsələlərinə bir çox aspektdən yanaşılmış, doğma dilimizin tarixi inkişaf mərhələləri geniş şəkildə işıqlandırılmış, yeni əlifbaya - latın qrafikası əsasında yaranmış əlifbaya birdəfəlik keçmək məsələsi konkretləşmişdir. Bu zərurət idi. Belə zərurəti görkəmli dövlət xadimi bütün rəhbərlik fəaliyyəti dövründə görmüş və hər şeyi öz vaxtında, öz məqamında həll etməyi bacarmışdır. Ulu öndərimiz Heydər Əliyevin öz təbirincə desək, “heç kəsin ikinci anası olmadığı kimi heç kəsin ikinci ana dili də olmur”. Başqa sözlə desək, nə ana nömrələnir, nə də ana dili.

Azərbaycan dili Azərbaycan Respublikasının dövlət dilidir. Azərbaycan dili genealoji cəhətdən Türk dilləri ailəsinə daxil olub Qərbi Hun budağının oğuz, yaxud cənub-qərb qrupunun oğuz-səlcuq yarımqrupuna daxildir. Tipoloji (morfoloji) cəhətdən iltisaqi dillər qrupuna aiddir. Bildiyimiz kimi, iltisaqi dillərə söz kökünün dəyişməzliyi, söz kökündən sonra şəkilçinin gəlməyi, iki kökün birləşib bir mürəkkəb kök yaratmağı aiddir.

Müasir dünyamızın siyasi xadimləri, dövlət qurucuları, ölkə başçıları arasında çox az şəxsiyyətlər tapmaq olar ki, mənsub olduğu xalqın elmi, mədəniyyəti, ədəbiyyatı və ən əsası dili ilə bu qədər məhsuldar, səriştəli, ardıcıl məşğul olsun. Fəaliyyətinin 30 ilə yaxın bir dövründə Azərbaycan dilinin, mədəniyyətinin, elminin, incəsənətinin inkişafında Ümummilli lider Heydər Əliyev dayanmadan çalışmışdır.

Ulu öndər ixtisasca dilçi-filoloq deyildi. Lakin onun siyasi-ictimai fəaliyyətinin tərkib hissəsi kimi dil məsələlərinə bir dilçi-filoloq professionallığı ilə yanaşması bu sahəni necə dərindən bilməsinin sübutudur.

70-ci illərdə Respublikamızda rus dilinin mövqeyi güclü idi. Azərbaycanın demək olar bütün sahələrində rus dili əsas rol oynayırdı. Lakin, Heydər Əliyev olduğu bütün təşkilatlarda, sənaye sahələrində, kənd zəhmətkeşləri ilə görüşündə öz ana dilində - Azərbaycan dilində danışır. Həmçinin Heydər Əliyev xalq danışıq dilində danışırdı. O, bunu etməklə xalq arasında mövcud olan maneələri aradan qaldırmağa çalışırdı. Heydər Əliyev ölkədə gedən ruslaşdırma siyasətini görürdü. Bu səbəbdən də o, doğma Azərbaycan dilini daha ucalara qaldırmaq, bir azərbaycanlı kimi bu dili yaşatmaq istəyirdi. Bununla böyük siyasət xadimi rus dilini, onu öyrənməyi pisləmirdi, dil öyrənməyi müsbət hal hesab edirdi, lakin, doğma Azərbaycan dilinin cazibəsindən heç zaman qopmamağı, bu dilə hər zaman hörmətlə yanaşmağın vacib olduğunu söyləyirdi. 70-ci illərdən etibarən Azərbaycanın müxtəlif ali

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

məktəblərində "Ana dili və ədəbiyyat" ixtisası üzrə tələbə qəbulunun həcmi artırıldı. Qəbulda ana dilindən yazılı imtahan ən müxtəlif ixtisaslar üzrə vacib hesab edildi.

1990-cı ildən başlayaraq orta məktəblərdə rus dili dərslərinin saatları azaldılmış, yerini Azərbaycan dili dərslərinin tədrisinə vermişdir. Rus dilində olan məktəblərdə Azərbaycan dili fənni fakültətiv fənn səviyyəsinə endirilmişdir.1980-90-cı illərdə Azərbaycan dilinin adı ilə bağlı 3 mövqe formalaşmışdı:

Azərbaycan dili;

Türk dili;

Azərbaycan türkcəsi.

1992-ci ildə Azərbaycan dilinin "Türk dili" olmasını ARMM qəbul etdi. Lakin bu, yaranan problemləri həll etmədi.

Bu zaman Heydər Əliyev Naxçıvanda idi. 1993-cü ilin iyun ayında Milli Məclisin sədri vəzifəsinə Heydər Əlirza oğlu Əliyev seçildi. Prezident seçkilərinədək həmin vəzifədə çalışdı. 1995-ci ildə (oktyabrın 31) Azərbaycan Respublikası prezidenti Heydər Əliyev Yazıçılar Birliyinin bütün üzvlərini, o cümlədən Qabil, Y.Seyidov, A.Axundov, T.Hacıyev, Musa Adilov, N.Xudiyev, K.Vəliyev, Q.Kazımov, H.Mirzəyev, Anar akademik F.Maqsudov və başqalarını bir yerə topladı. Müzakirələrdə aşağıdakı variantda Konstitusiyanın müvafiq maddəsinin yazılması təklif edildi;

Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir;

Azərbaycan Respublikası dövlət dili Azərbaycan türk dilidir (Azərbaycan türkcəsidir);

Azərbaycan Respublikasının dövlət dili Azərbaycan türkcəsidir.

Bu məsələlər müzakirəyə verilir. Daha sonra Azərbaycan dili dövlət dili qəbul edilir. Qəbul olunan konstitusiyada Azərbaycan dili dövlət dili kimi təsbit olundu. Daha sonra əlifba ilə bağlı 1993-cü il iyulun 15-də bu məsələyə baxıldı. 18 iyun 2001-ci ildə Azərbaycan dilinin latın qrafikalı əlifbaya keçirilməsi, Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi, Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsdiq olunması haqqında fərmanlar imzalandı.

Ümummilli lider Heydər Əliyev görkəmli və əməli fəaliyyəti milliliklə yoğrulmuş dahi şəxsiyyətdir. Həmçinin mükəmməl fikirləri, nitqləri canlı ensiklopediya olan Ulu öndər Azərbaycan xalqının milli sərvətidir. Azərbaycanın ən öndə gedən natiqlərindən bəlkə də birincisi idi. O, Azərbaycan ədəbi dilinin bütün qayda – qanunlarına əməl edərək çıxışlar edir, bütün cümlələri yerli-yerində işlədirdi.

Möhkəm yaddaşlı, məntiqli çıxışları ilə elə mükəmməl nitq söyləyirdi ki, bu sözlərə nə əlavə etmək, nə də hər hansı bir sözü ixtisar etmək mümkün deyil. Elə buna görə də dahilik zirvəsini fəth etmiş Heydər Əliyevin nitqi dilçilik baxımından tədqiq edilməsi və araşdırması vacib olan məsələlərdəndir. Heydər Əliyevin dili ayrıca araşdırılmalı, yeni tədqiqat işləri yazılmalı, Ulu öndərimizin xidmətlərinin gələcək nəsillərə ötürülməsi üçün əlimizdən gələni etməliyik.

Müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz ibrət məktəbidir. Ötən illərə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazanmış olduğu mühüm tarixi nailiyyətlərin bir daha şahidi oluruq. İntibah və milli şüurun oyanışı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlamış, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter almışdır.

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

Ölkəmiz dünyada layiq olduğu mərtəbəyə Ulu öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilmişdir.

Vətəni, xalqı qarşısında misilsiz xidmətlərinə görədir ki, bu gün Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ölkəmizin və onun hüdudlarından kənarda hər bir azərbaycanlının yüksək ehtiramı və dərin minnətdarlıq hissi ilə geniş qeyd olunur.

Heydər Əliyev keçdiyi böyük, mənalı və şərəfli həyat yolu zaman və məkan anlayışına sığmır. Ümummilli lider Heydər Əliyevin xarakterində və fəaliyyətində doğma xalqına bağlılıq və təəssübkeşlik hələ gənc yaşlarından özünü göstərirdi. Naxçıvanda sadə, zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan bu böyük insan hələ gəncliyindən yüksək vəzifələr tutmuş, çiyinlərində böyük bir ölkənin yükünü daşımışdır.

Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişi keçmiş SSRİ-nin geridə qalmış Respublikalarından biri sayılan Azərbaycanda həyat ritmini büsbütün dəyişdi, ölkədə görünməmiş canlanma və yüksəliş, tikinti-quruculuq işləri başlandı. Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində iqtisadiyyat, sənaye və kənd təsərrüfatında, mədəniyyət və təhsil sahəsində böyük uğurlar əldə edildi, çoxsaylı sənaye müəssisələri, mədəniyyət və təhsil ocaqları, tibb müəssisələri inşa edildi, yeni yaşayış massivləri salındı, yollar tikildi, ucqar rayonlara qaz xətləri çəkildi.

Respublikamızın siyasi və mədəni həyatında böyük əhəmiyyəti olan saraylar, özünün görkəmi ilə şəhərə gözəllik verən neçə-neçə yaraşıqlı binalar, xalqımızın tarixində mühüm rol oynamış şəxslərə, ədəbiyyat və incəsənət xadimlərinə əzəmətli heykəllər ucaldıldı. Məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi o illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı, kadr korpusunun milliləşdirilməsi istiqamətində qətiyyətli addımlar atıldı, hər il yüzlərlə gənc müxtəlif mühüm, o cümlədən hərbi ixtisaslara yiyələnmək üçün SSRİ-nin ən qabaqcıl ali məktəblərinə göndərildi, azərbaycanlılar mühüm dövlət vəzifələrinə irəli çəkildilər.

Özünün təkmil dövlətçilik konsepsiyasında ədalət, qanunçuluq və hüquq qaydalarının təminatına hər zaman üstünlük verən Ümummilli lider Heydər Əliyev "ədaləti ədalətsizliklə bərpa etmək olmaz" - deyərək dövlət idarəçiliyində qanunun aliliyini, ədaləti əsas meyar kimi müəyyənləşdirdi, vəzifə səlahiyyətləri ilə bağlı cinayətlərə, rüşvətxorluğa qarşı barışmaz münasibət nümayiş etdirirdi.

Totalitar sovet rejiminin hökm sürdüyü o dövrdə respublikanın ali qanununda xalqın mənəvi sərvətlərinin, xüsusən dilinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün hüquqi əsasların müəyyən edilməsi olduqca cəsarətli addım kimi dəyərləndirilir. Sovet milli siyasətinin tələbləri ilə tam bir ziddiyyət təşkil edən bu çətin vəzifənin öhdəsindən məhz Heydər Əliyev gələ bilmişdir. "Qoy ədalət zəfər çalsın!" – o zaman Heydər Əliyevin söylədiyi və bütün işlərinin mahiyyətini təşkil edən bu sözlər xalqın dilində şüara çevrildi.

Ulu öndərin başqa böyük keyfiyyətlərindən biri də onun böyük müəllim, dahi təbliğatçı və mükəmməl natiq olmasında idi. Heydər Əliyev "ideya, ideologiya və təbliğat" universal üçlük formulasından çox məharətlə istifadə etməyi bacarırdı. O, ideyanı verir, onu ideologiyaya çevirir və həmin ideologiyanın kütlə tərəfindən mənimsənilməsini təmin edirdi. Elə

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

Azərbaycanı birləşdirəcək universal formula olan azərbaycançılıq ideologiyasının da müəllifi, təbliğatçısı və icraedicisi, məhz, Ulu öndərimiz olub. Əslində, bir xalqın vahid ideologiya ətrafında təşkilatlanması üçün illər keçir. Yəni hər hansı bir ideologiyanın mənimsənilməsi, öyrənilməsi və xalqın həmin ideologiyanın daşıyıcısına çevrilmə prosesi uzun illər, bəlkə də qərinələr, yüzillər aparır. Amma Ulu öndər özünəxas xüsusi çevik üsul və metodlarla bu prosesi elə etdi ki, qısa müddətdə azərbaycançılıq ideologiyası Azərbaycanın başlıca milli-siyasi ideologiyasına çevrildi. Bir qədər sonra isə bu öz müsbət bəhrəsini verdi. Azərbaycanda bu ideologiyanın bərqərar olması və mənimsənilməsi ilə ölkəmizdə etnik separatçılığa son qoyuldu.

Ulu öndərimiz 2001-ci ilin 9 avqustunda yeni bir sərəncam (hər il avqust ayının biri ana dili və əlifba günü kimi qeyd olunmağı barədə) imzaladı.

Bunun davamı olaraq 2003-cü il yanvar ayının 2-də “Ana dili haqqında Qanun” adlı sərəncama imza atdı. Bütün bu silsilə sərəncamlar və digər əməli işlər doğma dilimizə dövlət qayğısının bariz ifadəsidir. Bu dil siyasətinin davamı olaraq ölkə prezidenti Cənab İlham Əliyev 2004-cü ilin yanvar ayının 22-də yeni orfoqrafiya lüğətinin çap olunması, daha sonra bütün bədii və elmi əsərlərin yeni əlifba ilə çap olunması və 2013-cü ildə qloballaşma dövründə Azərbaycan dilinin zənginləşməsi, saflaşdırılması barədə yeni bir sərəncam imzaladı. Göründüyü kimi, Ulu öndərimizin uzun illər apardığı daxili və xarici siyasətinin tərkib hissəsi olan dil siyasəti də Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bizlər də: dilçilər, ədəbiyyatçılar, şair və yazıçılar, jurnalistlər, bir sözlə, bütün dil təəssübkeşləri, dövlətimizin apardığı dil siyasətinə dəstək verməli, əlimizdən gələni əsirgəməməliyik.

Xalq şairi Bəxtiyar Vahabzadə dilimizi tərənnüm edərək yazırdı:

Dil açanda ilk dəfə “ana” söyləyirik biz.
Ana dili adlanır bizim ilk dərsliyimiz.
İlk mahnımız laylanı anamız öz südüylə,
İçirir ruhumuza bu dildə gilə-gilə.
Bu dil bizim ruhumuz, eşqimiz,
canımızdı,
Bu dil bir-birimizlə əhd-peymanımızdı.
Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,
Bu dil əcdadımızın bizə miras verdiyi
qiymətli xəzinədir.
Onu gözlərimiz tək
Qoruyub nəsillərə
Biz də hədiyyə verək.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

**ARZU ABBASOVA**
*Naxçıvan Dövlət Universiteti*

# HEYDƏR ƏLİYEVİN ÇIXIŞLARINDA TABELİ MÜRƏKKƏB CÜMLƏNİN İŞLƏNMƏ MƏQAMLARI

Bəşəriyyətin böyük dahilərindən biri, müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyev keçən əsrin 70-ci illərindən başlayaraq Azərbaycan dövlət quruculuğunda misilsiz nailiyyətlər əldə etmişdir. Qüdrətli dövlət başçısı Heydər Əliyev Azərbaycanın inkişafında , iqtisadi-siyasi, sosial-mədəni tərəqqisində elə işlər görmüşdür ki, mübaliğəsiz desək, heç bir yazıçı qələmi onu izhar edə bilməz.

Danılmaz həqiqətdir ki, 1969-cu ildən üzü bəri, Azərbaycana rəhbərlik etdiyi dövrlərdə dövlət quruculuğu siyasətinin tərkib hissəsi olan dil siyasətini də uğurla həyata keçirmiş, Azərbaycan dilinin hər tərəfli inkişafını, saflaşmasını, zənginləşməsini də təmin etmişdir. Ruhunda, qanında azərbaycançılıq ideyalarını daşımış bu bənzərsiz rəhbər ana dilinin inkişafını təkcə sözdə deyil, gündəlik təcrübədə də, şəxsi nümunəsində də, çıxışlarında da qoruyub saxlamış, ümumiişlək dilə kökləmiş, ədəbi dilimizin incəlikləri ilə dünya dövlətlərinin xitabət kürsüsündə səsləndirmişdir.

Görkəmli dövlət başçısı Heydər Əliyevin müdrik, uzaq görən dil siyasəti, zəngin təcrübəsi, yüksək intellekti milli mədəniyyətimizə dəyərli töhfələr vermişdir. Onun xalq qarşısında, ziyalılar arasında, həkimlər, müəllimlər, jurnalistlər və siyasətçilər əhatəsindəki məruzə və çıxışların mətnlərinə diqqətlə baxsaq, Azərbaycan dilinin bütün incəliklərini orada görə bilərik və bu qənaətə gələrik ki, o, əsl dilçidir. Qeyd etdiyimiz və edə bilmədiyimiz parametrlər onun çıxışlarının mətninə diqqətlə fikir versək, dilçi müəllim gözlüyü ilə baxsaq, açıq-aydın dərk edərik ki, Azərbaycan dilinin bütün fonetik-leksik, morfoloji, sintaksis və üslubi xüsusiyyətləri orada əks olunmuşdur. Bu kiçik yazıda biz onun nitqinin bəzi materiallarında işlənmiş tabeli mürəkkəb cümlələri təşkil edən sadə cümlələrin, yəni budaq cümlələrin müxtəlif növlərinin işlənmə məqamlarına diqqət çəkmək istəyirik. Nümunələrə diqqət yetirək:

“Eşitdiklərimdən, bildiklərimdən belə hiss etdim ki, bu qərar respublikada birmənalı qarşılanmayıbdır”

(“Azərbaycan” qəzeti, 2 noyabr 1995-ci il).

“Dedilər ki, gəlin buna yenidən baxaq. Mən buna imkan vermədim...” (“Azərbaycan” qəzeti, 2 noyabr 1995-ci il).

Birinci cümlədə işlənmiş “Eşitdiklərimdən, bildiklərimdən hiss etdim ki” tabeli mürəkkəb cümlənin baş cümləsində (nəyi?) sualına cavab olan bu baş cümlə bütövlükdə baş cümlənin vasitəsiz tamamlığı yerində işlənib.

İkinci cümlədə “dedim ki,” baş cümlənin nəyi sualına cavab verən budaq cümləsi bütövlükdə baş cümlənin vasitəsiz tamamlığı yerində işlənib. Əgər bu cümləni sadə cümləyə çevirsək, həmin budaq cümlə vasitəsiz tamamlıq vəzifəsində çıxış edəcək.

“Heç kəs hesab etməsin ki, onun bildiyi elə ruslar demişkən, “obsalyutnaya stina”, yəni mütləq həqiqətdir”.

Bu cümlə də tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlədir. Baş cümlədə iştirak etməyən tamamlığa sual qoysaq (nəyi hesab etmirəm?) onda budaq cümlə bütövlükdə vasitəsiz tamamlıq vəzifəsində olduğu açıq-aşkar görünərdi.

“Mən keçən dəfə də (1995-ci il oktyabrın 31-də keçirilən yığıncaqda)

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

demişəm, bu gün də deyirəm, xalq türk Azərbaycan dili əvəzinə Türk dilini dövlət dili olmasını qəbul etmir " ("Azərbaycan" qəzeti, 2 noyabr 1995-ci il).

Bu cümlədə də budaq cümlə bütövlükdə baş cümlənin vasitəsiz tamamlığı yerində işlənib.

Ulu öndərin nitqində işlənmiş başqa bir məqama nəzər yetirək.

" Əgər buna kimsə başqa ad versə, bu bizim xalqımıza, millətimizə xəyanət ola bilər" (2, 105).

Nümunədəki tabeli mürəkkəb cümlənin baş cümləsi ikinçi cümlədir, budaq cümlə baş cümlədən əvvəl gəlib. Budaq cümlə baş cümləyə -sə bağlayıcısı ilə bağlanmasına və şərt məzmunu ifadə etməsinə baxmayaraq, zaman budaq cümləli tabeli mürəkkəb cüməldir. Çünki bu cümləni sadə cümləyə çevirəndə budaq cümlə bütövlükdə zaman zərfliyinə çevrilir. Deməli, bu zaman budaq cümləli tabeli mürəkkəb cümlədir. Onu da qeyd edək ki, -sa, -sə bağlayıcısı təkcə şərt və qarşılaşdırma budaq cümlələrində işlənmir. –sa, -sə həm də mübtəda, tamamlıq, səbəb budaq cümlələrində də əlaqə yaradır.

Digər nümunələrə nəzər salaq:

" 1992-ci ilin dekabrında Azərbaycan Milli Məclisində dövlət dili haqqında məsələ müzakirə edilmişdir. Bu müzakirə nəticəsində qərar qəbul olunub ki, Azərbaycan dövlət dili Türk dilidir. O vaxt mən Bakıda yaşamırdım, Naxçıvanda idim" (2, 55).

İkinci cümlə mübtəda budaq cümləli tabeli mürəkkəb cümlədir. Bu cümləni sadə cümləyə çevirsək, belə bir cümlə alınar. Müzakirədə Azərbaycan dövlət dilinin Türk dili olması qərara alındı.

Başqa bir nümunə:

"Dedilər ki, gəlin buna yenidən baxaq. Mən buna imkan vermədim, çünki əgər bir səhv buraxılıbsa, o vaxt buna cürbəcür münasibət olubdur və müəyyən gərginlik yaranıbdır" (1, 57).

Bu cümlə mürəkkəb tipli tabeli mürəkkəb cümlədir. "Yəni, dedilər ki" baş cümlə, "gəlin buna yenidən baxaq" budaq cümlədir. Nə dedilər? nəyi dedilər? sualına cavab olduğu üçün tamamlıq budaq cümləsidir. Onun ardınca gələn "Mən buna imkan vermədim, çünki..." səbəb budaq cümləsidir.

Başqa bir nümunə:

"Nəhayət, XX əsrin axırında biz bu məsələləri tam aydınlaşdırmalıyıq və bu məsələyə nöqtə qoymalıyıq ki, bütün söz-söhbətə son qoyulsun" (2, 61).

"Kim nə qədər bilirsə, bir o qədər də bilmir".

"Müstəqil Azərbaycan Respublikası deyəndə, biz Azərbaycan Respublikası deyirik, buna başqa ad vermək olmaz. Əgər buna kimsə başqa ad verərsə, bu bizim xalqımıza, millətimizə xəyanət ola bilər" ("Azərbaycan" qəzeti, 11 noyabr 1995-ci il).

Nümunədə birinci cümlə səbəb-məqsəd budaq cümləli tabeli mürəkkəb cümlədir. Həmin cümləni sadə cümləyə çevirsək, belə bir sadə cümlə alınar: Bütün söz-söhbətə son qoymaq üçün bu məsələyə nöqtə qoyulmalıdır.

İkinci cümlə (Kim nə qədər bilirsə, bir o qədər də bilmir) kəmiyyət budaq cümləli tabeli mürəkkəb cümlədir. Bu cümləni sadə cümləyə çevirsək, belə bir sadə cümlə alınar:" İnsan bildiyi qədər də bilmir" formasına düşər. Bu sadə cümlənin xəbəri bilmir, mübtədası insan, kəmiyyət zərfliyi bilmədiyi qədər birləşməsidir.

Üçüncü cümlə (Əgər buna kimsə başqa ad verərsə, bu bizim xalqımıza, millətimizə xəyanət ola bilər) şərt budaq cümləsidir. Qeyd etmək lazımdır ki, dilçilik ədəbiyyatlarında şərt budaq cümləsi sadə cümləyə çevrilmir fikri var.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

Lakin Ulu öndərin işlətdiyi şərt budaq cümləli tabeli mürəkkəb cümləsi sadə cümləyə çevrilir. Bu da onun dil təfəkkürü ilə bağlı maraqlı faktlardan biridir.

Fakt: buna başqa ad verəndə xalqımıza, millətimizə xəyanət olar. Bu sadə cümlədə buna başqa ad verəndə feili bağlama tərkibi cümlənin zaman zərfliyi vəzifəsində çıxış edir.

Başqa bir nümunə:

"Sadəcə mən yaşlı nəslə müraciət edib deyirəm ki, bir balaca özünüzü əziyyətə salın və tezliklə bu kril əlifbasından xilas olun" ("Azərbaycan müəllimi" qəzeti, 4 sentyabr 1997-ci il).

"Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, mənim fikrimcə, Azərbaycan Respublikası bundan sonra onun başına nə gəlirsə gəlsin, müstəqilliyini itirməyəcək, yenidən bir dövlətin əsarəti altına düşməyəcək" (1, 9).

"Yəqin ki, bu sahədə gələcəkdə daha da güclü tədbirlər görünməlidir ki, Azərbaycan Respublikası bütün ərazisinin sahibi olsun və bizim xalqımız müharibə şəraitindən çıxa bilsin" (1, 9-10).

Yuxarıda verilmiş nümunələrdəki birinci cümlə tamamlıq budaq cümləli, ikinci cümlə də, həmçinin tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlədir. Üçüncü cümlə əvvəlkilərdən fərqli olaraq, səbəb budaq cümləli tabeli mürəkkəb cümlədir.

Nümunələrin sayını istənilən qədər artıqmaq olar, lakin buna ehtiyac duymadıq, çünki Ulu öndərin bütün çıxışlarının, məruzə məntlərinin mətni hansı prizmadan baxırsan bax Azərbaycan dili, azərbaycançılıq notları üzərində köklənmişdir. Təkrar da olsa, vurğulamaq istəyirəm ki, milli dövlətçiliyin, təkcə bu sahədə deyil, bütün parametrlərlə inkişaf konsepsiyasını dəryalar mürəkkəb, meşələr qələm olsa belə, yazmaqla qurtarmaq olmaz.

Nəticə etibarı ilə onuda qeyd edək ki, Ulu öndərin çıxışlarının mətnində təktərkibli və cüttərkibli sadə cümlələrin, tabeli və tabesiz merəkkəb cümlənin, habelə budaq cümlələrin, bütün növlərinə rast gəldik. Lakin yazının həcmi bunları qeyd etməyə imkan vermədi.

## ƏDƏBİYYAT

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı: 1997.
2. Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili. Bakı: 1997.
3. Yusifov M. Dahi şəxsiyyətin nitq fenomenliyi. Bakı: 1997.
4. "Azərbaycan" qəzeti, 2 noyabr 1995.
5. "Azərbaycan müəllimi" qəzeti. 11 noyabr 1995.
6. "Azərbaycan müəllimi" qəzeti. 4 sentyabr 1997.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

# ƏDƏBİYYATŞÜNASLIQ

**XANƏLİ KƏRİMLİ**
*xanelikerimli@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

## HEYDƏR ƏLİYEV VƏ MÜSTƏQİLLİK İLLƏRİNİN ELMİ-ƏDƏBİ PROSESİ

Azərbaycan XX əsrdə ikinci dəfə müstəqillik əldə edəndən sonra ictimai, siyasi və elmi-ədəbi mühit də yeni bir dövrə - eraya qədəm qoydu. Keçmiş sovet totalitar rejiminin dağılması, yeni azad düşüncənin, azad milli şüurun formalaşması prosesi zamanın bir nömrəli məsələsi kimi gündəmə gəldi. Əslində müstəqillik uğrunda mübarizə ideyası Azərbaycanda 50-ci illərin ortalarından başlamışdır. Bu illərdə bütün sovetlər birliyində olduğu kimi, Azərbaycanda da özünəqayıdış, öz milli dərkinə sahiblik hissləri yavaş-yavaş baş qaldırmaqda idi. Xüsusilə Azərbaycanın xalq yazıçısı, milli düşüncə adamı olan və 1956-1958-ci illərdə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsində çalışan Mirzə İbrahimovun 1956-cı ilin avqustunda xüsusi olaraq "Dövlət dili haqqında" qanun qəbul etməsi Azərbaycan ictimai şüurunda böyük canlanmaya səbəb oldu. O dövr ədəbi prosesində xalqı özünə, milli dəyərlərinə sahib çıxmağa çağıran bir sıra qələm sahibləri – xüsusilə Bəxtiyar Vahabzadə və yaradıcılığının ilk addımlarını atan Məmməd Araz, Xəlil Rza kimi şairlərin yaradıcılığında, yaradıcılığa 30-cu illərdən başlayan Rəsul Rza ədəbi fenomeninin 60-cı illər poeziyasında müstəqil düşüncə, müstəqil ideologiya meyilləri güclənməyə başladı. B.Vahabzadə məşhur "Gülüstan" poemasını, X.Rza "Afrikanın səsi", M.Arazın "Məndən ötdü qardaşıma dəydi", R.Rzanın "Rənglər" silsiləsi və s. kimi onlarla poetik nümunələr yeni dövr ədəbiyyatının, müstəqillik duyğusunun təzahürləri idi. X.Rza "Ədəbiyyat və incəsənət" qəzetinin 24 dekabr 1960-cı il sayında dərc etdirdiyi "Afrikanın səsi" şeirində sanki 90-cı illərin müstəqillik platformasını bəyan etmişdir.

Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram
Qolumdakı zəncirləri qıram gərək,
Qıram !
Qıram !
Azadlığı istəmirəm bir həb kimi, dərman kimi,
İstəyirəm Günəş kimi !
Səma kimi !
Cahan kimi !
Çəkil, çəkil, ey qəsbkar ! Mən bu əsrin gur səsiyəm.
Gərək deyil sısqa bulaq! Mən ümmanlar təşnəsiyəm.

B.Vahabzadə isə hələ 1954-cü ildə yazdığı "Ana dili", sonralar – 60-cı illərdə qələmə aldığı və bu gün də poetik təravətini, siyasi durumunu itirməyən "Latın dili" şeirlərində xalqı dolayısı ilə dilinə, Vətəninə sahiblənməyə çağırırdı. M.Araz da B.Vahabzadəyə ünvanladığı "Məndən ötdü qardaşıma dəydi" şeirində

...Dibək oldun öz duzunla,
öz daşınla,
Ögey oldun doğma ekiz qardaşınla –
yazmaqla sonda
... Səndən ötən mənə dəydi.
Məndən ötən sənə dəydi,
Səndən, məndən, ötən zərbə
Vətən, vətən, sənə dəydi – (6.147)

vətəndaş narahatlığını dilə gətirirdi.

Təbii ki, poeziyamızda başlamış belə uğurlu irəliləyişlər M.İbrahimovun "Böyük dayaq", İ.Şıxlının "Dəli Kür", F.Kərimzadənin "Qarlı aşırımlar ",

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

"Xudafərin körpüsü", "Çaldıran döyüşü", "Təbriz namusu" kimi nəsr əsərlərində də geniş planda öz əksini tapmaqda idi.

Xüsusilə Ümummilli liderimiz Heydər Əliyevin 1969-cu ilin iyul ayının 14-də Azərbaycanda siyasi hakimiyyətə gəlişindən sonra ədəbi-ictimai, siyasi həyatımızda müstəqil düşüncəyə, milli dövlətçilik hisslərinə sahiblənmək yolunda çox mühüm addımlar atıldı. Azərbaycan sovet Yazıçılar Birliyinin mütəşəkkil şəkildə qurultayları keçirildi, milli düşüncəsi, məslək və əxlaqı olan qələm adamları totalitar rejimin qadağalarından qorundu, onların hər cür maddi və mənəvi təminatı ön plana çəkildi. Bu uzaqgörən siyasətçi, dövrün və zamanın bütün kəsişən və kəsişməyən nöqtələrini vaxtında və gərəyincə qiymətləndirən Heydər Əliyev yaxşı bilirdi ki, gec-tez Azərbaycan öz müstəqil-liyinə qovuşacaq, xalq öz vətəninin, sərvətinin sahibi olacaq. Xalqın vətəninə, geniş mənada özünə sahib çıxması üçün birinci növbədə xalqda milli oyanış yaratmaq, keçmişinə sahib çıxmaq amirliyi əldə etmək lazımdır ki, bunun da yolu yalnız bədii təfəkkürdən keçir. Ona görə də Heydər Əliyev hələ 1981-ci il iyun ayının 12-də keçirilən yazıçıların VII qurultayındakı məruzəsində təkcə Azərbaycan yazıçılarına yox, Azərbaycan yazıçılar birliyinin sırasında çiyin-çiyinə fəaliyyət göstərən Cənubi Azərbaycandan gəlmiş qələmdaş qardaşların taleyi ilə də maraqlanması, onlara kömək əlinin uzadılmasını bir vəzifə olaraq qarşıya qoyurdu. "Respublika Yazıçılar İttifaqının tərkibində Cənubi Azərbaycandan olan ədəbiyyatçılar da məhsuldar işləyirlər. Yaradıcılıq ittifaqının rəhbərliyi onlara daima diqqət yetirməli, onların əsərlərinin respublikada və respublika hüdudların-dan kənarda geniş təbliğ etməlidir. Ümumiyyətlə, bizdə toplanmış zəngin bədii estetik təcrübəni qələm yoldaşlarına vermək barəsində düşünmək lazımdır (3). 50-ci illərin ortalarında ədəbi mühitdə və ictimai-siyasi şüurda səpilmiş müstəqillik toxumları 80-cı illərin axırı, 90-cı illərin əvvəllərində nəinki cücərməyə, hətta bar verməyə başladı. Və bu düşüncənin nəticəsi olaraq ədəbi prosesin yeni yön və istiqaməti müəyyənləşdi. Baş memarı Heydər Əliyev olan Azərbaycançılıq məfkurəsi meydana gəlib ideologiya səviyyəsində formalaşdı. İllərlə dalğalan-ması yasaq olmuş və müstəqilliyimizin rəmzi Azərbaycan bayrağı poeziyamızın, bədii nəsrimizin baş mövzusuna çevrildi, Azərbaycan Dövlət Himni yenidən xalqımızın dili əzbəri oldu.

Böyük şəxsiyyət və zəka sahibi olan Heydər Əliyevin xalqın tələbi ilə 15 iyun 1993-cü ildə ikinci dəfə hakimiyyətə gəlişi və bu günün sonradan xalq tərəfindən Milli Qurtuluş Günü kimi əbədiləşdiril-məsi bütün sahələrdə olduğu kimi, ədəbi prosesdə də yeni bir canlanma yaratdı. Azərbaycanın bir sıra bölgələrində yazıçılar birliyinin filialı, şöbə və birlikləri yaradıldı, yaşlı nəsil qələm sahiblərinə prezident təqaüdü, istedadlı gənc müəlliflərə isə prezident mükafatları verildi və müdrik şəxsiyyətin ədəbi mühitə diqqəti və qayğısı sayəsində həyata keçirilən bu mütərəqqi ideyalar bu gün də dönmədən Cənab Prezident İlham Əliyev tərəfindən həyata keçirilir ki, bu da ədəbi prosesin inkişafı üçün öz töhfəsini verməkdədir.

Ümummilli liderimiz 21 sentyabr 1993-cü ildə Azərbaycan Elmlər Akademiyasında ziyalılarla görüşü zamanı etdiyi məruzəsində dünənimizə işıq salmaqla yanaşı, müstəqillik əldə etməyimizin tarixi nailiyyətlərindən danışarkən deyirdi. "Müstəqil dövlət

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

olmaq üçün xalqın gərək müstəqil mentalitet səviyyəsi olsun. Xalqın mentalitetini qaldırmaq üçün isə bir-iki günün işi deyil. Bir çox nəsillərin işidir, bununla məşğul olmaq lazımdır. Xalqımızın böyük şəxslərinin həm yaradıcılığı, həm də Azərbaycan xalqı qarşısındakı xidmətlərini daim tədqiq etmək, şübhəsiz ki, mühüm vəzifələrdən biridir" (1.185). Və natiq fikrinə davam edərək ədəbiyyat tariximizdə şərəfli yer tutan bir sıra tarixi, ədəbi simaların yaradıcılıqlarına toxunaraq onların xalq təfəkkürünün formalaşdırılmasındakı müstəsna rolunu yüksək qiymətləndirir: "İndi Hüseyn Cavidin əsərləri xalqa havasu kimi lazımdır. Təkcə ədəbi baxımdan deyil, həm də fəlsəfi, elmi baxımından lazımdır. Lakin bu əsərlər lazımi səviyyədə nəşr olunmuşdurmu? Hüseyn Cavidi Şərqin Şekspiri adlandırırlar. Ancaq onu Höte ilə müqayisə etmək düzgün olardı. Əsərlərindəki fəlsəfi fikirlərinə görə, ola bilsin, Cavidin "İblis" əsəri heç də "Faust"undan geri qalmır Ancaq biz belə inciləri lazımı qədər qiymətləndirə bilmirik" (1.128).

Daima ədəbi simalara hörmət və qayğı ilə yanaşan Heydər Əliyev xalq şairi Məmməd Arazın 60, xalq yazıçıları İlyas Əfəndiyevin 80, Hüseyn İbrahimovun 75, İsmayıl Şıxlının 75, Hüseyn Abbaszadənin 75, Anarın 60 illikləri ilə əlaqədar təbriklərində hər birinin yaradıcılığına zərgər dəqiqliyi ilə qiymət verir. Onların ədəbiyyatda və ədəbi prosesdəki rol və xidmətlərini müəyyənləşdirir. Məsələn, Məmməd Araza ünvanlanmış təbrik məktubunda "Qırx ildən çoxdur ki, dərin fəlsəfi lirikanız çağdaş Azərbaycan poeziyasını zənginləşdirməkdədir. Məmməd Araz istedadının, təfəkkürünün məhsulu olan yüzlərlə şeiriniz milyonların qəlbinə yol taparaq özünə və sizə əbədi yaşamaq hüququ qazandırıb" (1.194) deyirdisə, xalq yazıçısı Anara təbrikində isə "Siz 60-cı illərdə ədəbiyyatımıza yeni ab-hava gətirmiş yazıçılar nəslinin görkəmli nümayəndələrindən birisiniz. Müasirlərimizin zəngin mənəvi aləmini, qayğı və problemlərini yüksək bədii səviyyədə əks etdirən əsərləriniz daim ədəbiyyat həvəskarlarının diqqət mərkəzində olmuşdur. Bəşəriliniklə milliliyin üzvi vəhdətini təşkil edən çoxcəhətli yaradıcılığınız cəmiyyətimizdə milli şüurun aşılanmasına və xalqımızın bir çox ölkələrdə tanınmasına xidmət etmişdir" (1.454) kimi dəqiq nüanslarla şərtləndirirdi.

Ömrünü məşəl kimi xalqının yolunda yandıran bu dahi fikir və düşüncə adamının xalq şairləri Nəbi Xəzriyə, Mirvarid Dilbaziyə, Xəlil Rzaya, Zəlimxan Yaquba, xalq yazıçısı Yusif Səmədoğluna ünvanladığı ürək sözlərində də çağdaş ədəbi prosesin inkişafından və bu inkişafda onların oynadığı əvəzsiz rol və xidmətləri yüksək qiymətləndirir.

1993-cü illərin əvvəllərindən başlayaraq Azərbaycanda siyasi hakimiyyət dəyişikliyi nəticəsində birbaşa Heydər Əliyevin rəhbərliyi ilə keçirilən bir sıra yazıçıların yubiley və anım tədbirləri bütöv Azərbaycan elmi və bədii düşüncəsinin parlaq göstəriciləri idi. M.Füzulinin, H.Cavidin, C.Məmmədquluzadənin, İ.Şıxlının, M.Arazın, X.Rzanın, B.Vahabzadənin, M.H.Şəhriyarın, Z.Yaqubun və başqa qələm sahiblərinin adı ilə bağlı olan tədbir və mərasimlərdə bu dahi şəxsiyyətin hər bir çıxışı ayrıca bir tədqiqat əsəri idi.

Beş yüz ilə yaxındır ki, böyük Füzuli türk və müsəlman dünyası ədəbiyyatı tarixində əvəzolunmaz bir söz mülkünün sultanıdır. Bu illər ərzində M.Füzuli ilə bağlı istər Azərbaycan, istərsə də dünya ədəbiyyatşünaslığında müxtəlif dəyər və

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

elmi miqyasına görə seçilən araşdırmalar, tədqiqatlar aparılıb. Lakin 1994-cü ildən başlayaraq bu böyük sənətkarın Azərbaycanda, Türkiyədə, Moskvada keçirilən yubiley tədbirlərində Ulu öndərimizin etdiyi təkrarsız və bənzərsiz çıxışları onun öz xalqının ədəbiyyatına, mədəniyyətinə nə qədər qırılmaz tellərlə bağlı olduğundan xəbər verir.

Ulu öndərin Füzuliyə verdiyi qiymət əbədi və bəşəri düşüncənin təzahürüdür. Heydər Əliyevə görə M.Füzuli "Türk dünyasının, Azərbaycan xalqının, türk xalqlarının böyük şairi, mütəfəkkiri, filosofudur" (1.216). "Füzuli irsinin qiyməti əvəzsizdir" deyən siyasi mütəfəkkir onun yaradıcılığının təsir gücündən danışarkən deyir: "...Bəli Füzulinin 500 il öncə yazdığı "Leyli və Məcnun" poeması əsasında Azərbaycanın böyük bəstəkarı, dahi insanı Üzeyir Hacıbəyov Şərq aləmində, türk dünyasında ilk professional opera yaratmışdır. Füzulinin əsərlərinin təsiri altında Azərbaycan yazıçıları, alimləri, bəstəkarları, rəssamları böyük-böyük əsərlər yaratmış, respublikamızın mədəniyyətini inkişaf etdirmiş, dünya mədəniyyətinə böyük töhfələr vermişlər. Bunların hamısı Məhəmməd Füzulinin bizə bəxş etdiyi böyük irsdir, Azərbaycan xalqının, türk dünyasının, türk xalqlarının bu günü və gələcəyi üçün böyük örnəkdir" (1.217).

Milliliyin və bəşəriliyin ecazkar nümayəndəsi olan Heydər Əliyev üçün Vətənin bir çınqılı, kuru otu əziz və əvəz olunmaz olduğu kimi, bir qeyrətli misra, cümlə yazan fikir və düşüncə adamları da əziz və əvəzolunmazdır. Heydər Əliyev üçün əvəz olunmaz böyük yazıçı və şəxsiyyətlərdən biri də Cəlil Məmmədquluzadədir. Vaxtilə Ulu öndərə verilən 21 sualın içərisindən ikisi bilavasitə Mirzə Cəlil yaradıcılığı ilə bağlı idi ki, bu da onun Mirzə Cəlil şəxsiyyətinə, yaradıcılığına olan böyük sevgidən, məhəbbətdən irəli gəlirdi.

"- Ən çox sevdiyiniz pyes" ?

Cəlil Məmmədquluzadənin "Ölülər" pyesi.

Ən çox sevdiyiniz jurnal ?

"Mola Nəsrəddin" (5.7).

Bir həqiqətdir ki, Azərbaycan müstəqillik qazanandan sonra dünənimizə, uzaq keçmişinizə daha aydın, məntiqli və mənalı şəkildə bir qayıdış oldu. Keçmiş totalitar rejimin qarşıya qoyduğu bir sıra qadağaların doğurduğu streotiplər aradan qaldırılmağa, hər bir sənətkara, tarixi hadisəyə yenidən qiymət verilməyə başlandı ki, belə sənətkarlardan biri də yuxarıda adını çəkdiyimiz və 100 ilə yaxın elmi-ədəbi fikrin diqqətində olan C.Məmmədquluzadədir.

C.Məmmədquluzadənin 125 illik yubileyində Ümummilli liderimizin etdiyi nitq istisnasız demək olar ki, cəlilşünasliğin çağdaş dövrümüzdə daha geniş miqyaslı tədqiqat istiqamətlərini müəyyənləşdirdi. C.Məmmədquluzadə yaradıcılığını böyük mütəxəssis alim, fikir və düşüncə adamı kimi təhlil və təbliğ edən Heydər Əliyev C.Məmmədquluzadə yaradıcılığında daha çox önəm verdiyi dil məsələsinə toxunaraq deyirdi: "C.Məmmədquluzadənin fəaliyyətində ən dəyərli cəhətlərdən biri də Azərbaycan xalqının dilinin inkişafı üçün göstərdiyi xidmətlərdir. Onun daim işlətdiyi "Vətən, Vətən,Vətən! Millət, millət, millət! Dil, dil, dil!" sözləri xalqımızın, millətimizin fikirlərini, arzularını ifadə edir. Ədibin ana dilinə - Azərbaycan dilinə böyük diqqəti, ana dilini təbliğ etməsi insanların hamısını ana dilini bilməyə səsləməsi və ana dilinin, Azərbaycan dilinin hər yerdə hökm sürməsinin zəruriliyinə dair fikirləri,

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

yazıları o vaxt üçün vacib idi, bu gün üçün də çox aktualdır" (1.243).

Daima tarixi, gerçəkliyi dəqiq qiymətləndirən Ulu öndər 16 aprel 1995-ci ildə İstiqlal şairi Məmməd Arazın yaradıcılıq gecəsi çıxışında M.Arazın yaradıcılığı simasında çağdaş ədəbi ictimai fikrimizin inkişafına münasibət bildirərək M.Araza xitabən deyirdi: "Doğrudur, bəzən bu yazdıqlarınıza görə siz sıxılmısınız da, təqib olunmusunuz da, sizi incidilər də, sizə kəm baxıblar da, sizi açıq və ya gizli tənqid də eləyiblər. Ancaq mənə belə gəlir ki, Məmməd Arazın, Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın qəhrəmanlığı (mən bu sözü tam cəsarətlə deyirəm) elə ondan ibarətdir ki, onları heç bir şey qorxutmayıbdır. Onların qarşısını heç bir şey kəsməyibdir. Onlar öz işlərini görüblər.Xırda-xırda çox incə, çox zəif görüblər və məhz bu incəliyə, zəifliyə, nazikliyə görə də sizin bu fikirləriniz bizim vətənpərvər insanlarımızın, xalqımızın ürəyinə yol tapıbdır" (1.252).

Ümummilli liderimiz milli varlığımızla, tariximizlə bağlı yazılmış hər bir bədii əsəri xalqımızın əvəzsiz incisi, milli sərvəti hesab edirdi. Çünki ədəbiyyat, bədii təfəkkür xalqın minillik tarixi yaddaşından süzülüb gələn elə bir mənəvi, əxlaqi dəyərdir ki, onu heç bir şeylə əvəz etməmək olmaz. Xüsusilə, xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılığına tarixilik baxımından münasibət daha çox diqqəti cəlb edir. 12 aprel 1998-ci ildə Azərbaycan Akademik Milli Dram Teatrında şairin "Özümüzü kəsən qılınc" (Göytürklər") pyesinin uğurlu tamaşasından sonra ədəbiyyatın və sənətin böyük hamisi Heydər Əliyev çıxış edərək tamaşaya yüksək qiymət vermişdir.

"Biz yeni bir əsər almışıq. Ədəbiyyatımızın tarixinə yeni, dəyərli əsər daxil olubdur. Bu, böyük hadisədir. Mən bunu birinci növbədə, xüsusi qiymətləndirmək istəyirəm. İkincisi, əsərin mövzusu, məzmunu və mənası da çox böyük əhəmiyyət kəsb edir. Şübhəsiz ki, hər bir ədəbiyyat əsəri, o cümlədən səhnə əsəri bizim üçün əzizdir. Çünki mədəniyyətimiz, incəsənətimiz indiyə qədər, güman edirəm, gələcəkdə də məhz bu əsərlərlə yaşayacaqdır" (1.464)

6 avqust 1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti Cənab Heydər Əliyev "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman imzaladı. Bu fərmanda deyilirdi: "Ölkəmizdə demokratik cəmiyyətlərə xas olan inistitutların formalaşdırılması və azad siyasi fəaliyyət üçün hər cür şərait yaradılmışdır. İlk dəfə çoxpartiyalılıq əsasında demokratik parlement seçkiləri keçirilmiş, ümumxalq səsverməsi ilə siyasi plüralizm söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsiplərini təsbit edən konstitusiya qəbul edilmişdir" (4.)

Bu tarixi fərmandan sonra elmi-ədəbi fikirdən, geniş mənada, mətbuatdan senzura götürüldü, müstəqil və mütərəqqi düşüncənin, azad fikrin inkişaf və formalaşması üçün geniş üfüqlər açıldı ki, bunun da uğurlu bəhrəsini çağdaş elmi-ədəbi prosesin inkişafında aydın şəkildə görmək olar.

Təbii ki, böyük bir tədqiqat işi tələb edən bu mövzunu bir məqalə daxilində əhatə etmək imkansızdır. Lakin nəticə olaraq onu deməliyik ki, müstəqilliyimizin yaratdığı sağlam şərait bir çox maddi-mənəvi dəyərlərimiz kimi elmi-ədəbi dəyərlərimizin də yeni forma və məzmunda inkişafına geniş şərait yaratdı. Ədəbi-elmi düşüncəmizin ideya müəllifi olan Heydər Əliyev zəkası bundan sonra da həyatımızın ayrılmaz parçası olan elmi-

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

ədəbi mühitimizin inkişafında mühüm rol oynayacaqdır. Bu gün elə bir ciddi elm və ədəbi əsər tapmaq olmur ki, o bütün məziyyətləri ilə Azərbaycançılıq ruhunda yazılmamış olsun. Çünki dönməz və əbədi yaşamaq haqqı qazanmış müstəqilliyimiz kimi, elmi-ədəbi düşüncəmiz də Heydər Əliyev ideyaları ilə əbədi yaşamaq haqqı qazanmaqdadır.

## ƏDƏBİYYAT

1.Heydər Əliyev: Ədəbiyyatın yüksək borcu və amalı, Bakı: 1999
2."Ədəbiyyat və incəsənət" qəzeti. 24 dekabr 1960-cı il
3."Ədəbiyyat və incəsənət" qəzeti. 19 iyun 1981-cı il
4. "Ədəbiyyat qəzeti" 21 avqust 1998-cı il
5."21" gənclik dərgisi. 1998, № 1
6. Məmməd Araz. Yol ayrıcında söhbət. Bakı: 1997

**NƏZAKƏT İSMAYILOVA**
*nezaket.ismayılova@yahoo.com*
*Naxçıvan Dövlət Universiteti*

## HEYDƏR ƏLİYEV VƏ UŞAQ ƏDƏBİYYATI: DİLİMİZİN İNKİŞAFINDA MÜSTƏSNA XİDMƏTLƏRİ

Minilliklər boyu formalaşan və bu günümüzə gəlib çatan Azərbaycan dili xalqımızın qədimliyinin simvolu, qürur mənbəyidir. Bu gün müstəqil bir dövlətimizin mövcudluğu dilimizin qorunması, dünya dilləri içərisində layiqli yer tutması baxımından vacib tarixi imkandır. Məhz Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dil siyasəti bu sahədə əldə etdiyimizi uğurların əsasını təşkil edir. Tarixin dolanbaclarından, sərt sınaqlarından üzüağ çıxan dilimiz bu gün dünyanın ən inkişaf etmiş, zəngin dillərindən biridir. Azərbaycan dili ulu babalarımızdan bizə miras qalan milli sərvətimizdir. Ulu öndərimiz Heydər Əliyev öz ana dilini bilməyən insanları şikəst insanlar adlandırırdı.

Uşaqlara yüksək diqqət və qayğı ilə yanaşan Azərbaycan Prezidenti demişdir: "Uşaqlar cəmiyyətimizin sabahıdır. Onların qayğısız böyüməsi, yüksək standartlara cavab verən təlim-tərbiyə və tibbi xidmətlərlə təmin edilməsi, əlverişli sosial mühitdə fiziki və mənəvi baxımdan sağlam yetişməsi, habelə öz istedadlarını nümayiş etdirmələri üçün zəruri şəraitin yaradılması bizim əsas məqsədlərimizdəndir. Uşaqlarımızın hərtərəfli şəxsiyyət və ölkəmizin layiqli vətəndaşı olaraq formalaşmaları müstəqil Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin aparıcı istiqamətini təşkil edir".

Tədqiqat sahəsi:

Ümummilli lider Heydər Əliyevin

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

həyata keçirdiyi dil siyasətini bu gün Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirir. Ana dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır. Azərbaycan ədəbiyyatını, azərbaycanlı düşüncəsini əks etdirən sanballı əsərlərin latın qrafikasında yenidən nəşr edilməsi məhz dövlət başçısının təşəbbüsü ilə baş tutdu. Prezidentin 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncam, həm də, əlifba ilə bağlı problemləri tamamilə həll etdi. Bunun da nəticəsində kütləvi nəşrlərin latın qrafikasına keçirilməsi təmin olundu. Dövlət başçısının sonrakı sərəncamları əsasında isə 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyasından olan yeni nəşrlər respublika kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirdi.

Ana dili hər bir xalqın milli sərvəti, həmin xalqın varlığının təsdiqidir. Bu gün dünyada 50 milyondan çox azərbaycanlı bu dildə danışır, öz milli mədəniyyəti, tarixi ilə haqlı olaraq qürur hissi keçirir, millətinin sabahı, gələcəyi barədə düşünür, müstəqil Azərbaycanla fəxr edir, qürur duyur. Xalqımız laylalarını, nəğmələrini, nağıllarını, dastanlarını bu dillə qəlbinə hopdurur. Belə bir ifadə var: "Ana dili, ana südü kimi ləzzətlidir insana". Ana dilimizdə güldüyümüz, ağladığımız, danışdığımızdan aldığımız dadı, ləzzəti heç bir başqa dildən ala bilmərik. Ana dilini bilmək tarixdən gələn bir zərurətdir Bütün bunları toplayıb, araşdırıb uşaq ədəbiyyatında əks etditmək isə biz tədqiqatçıların işidir. Bizim min illər boyu həyat sürmüş xalqımız bu gün Azərbaycanın gənclərinə bir irs qoyub getmişdir.

İnsanın öz ana dilinə olan ehtiyacı torpağa, çörəyə, havaya, suya olan ehtiyacı qədər zəruri və müqəddəsdir. Ana dili hər bir millətin, xalqın satılıb alınmayan ən qüdrətli, ən qiymətli sərvətidir. Vətənimiz, dövlətimiz, sərvətimiz talan edilsə də, əlifbamız dəfələrlə dəyişdirilsə də, xalqın dilini, söz yaddaşını ondan almağa heç bir qüvvə qadir olmamışdır. Bu əvəzsiz nemətdən istifadə edən ulu əcdadımız onun vasitəsi ilə ucalmış, ucalaraq xalq olmuş, millətə çevrilmişdir. İnsanı kamil bir varlıq kimi digər canlılardan ayıran və onu dünyanın əşrəfi mərtəbəsinə qaldıran Yaradanın ona bəxş etdiyi dildir – nitqdir. Tarixin ağrılı-acılı sınaqlarından uğurla çıxan ana dilimiz ən dəyərli milli mənəvi sərvətimizdir. Hər bir dili yaşadan, inkişaf etdirən xalqdır. Lakin dilin zənginləşməsi, saflaşması, beynəlxalq nüfuz qazanması, dünya dilləri arasında özünəməxsus yer tutması xalqın dəyərli övladları tərəfindən həyata keçirilir.

Heydər Əliyev milli dövlət quruculuğunda dil siyasətini ön plana çəkdi və bununla da ana dili – Azərbaycan dili ən yüksək inkişaf mərhələsinə çatdı. Onun öz sözlərindən sitat gətirmək yerinə düşər: "Milli varlıq və birliyin möhkəmlənməsində mühüm rol oynayan dil, eyni zamanda mənəvi və mədəni zənginləşmə, elmi-texniki inkişaf üçün zəruri olan ünsiyyət vasitəsidir. Ana dili hər bir xalqın, hər bir millətin mənəvi sərvəti, mənəviyyatının güzgüsüdür." Bu baxımdan hər millətin inkişafında ən mühüm varlıq və yaşanma amili olan dilin müstəsna rolu vardır.

Ana dilində dərsliklərin və kitabların nəşrinin genişləndirilməsi, dilçi alimlərə qayğı göstərilməsi belə tədbirlərdən idi.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

Bütün bunlara baxmayaraq, Ümummilli lider Heydər Əliyev ana dilinin inkişafına qətiyyətlə çalışırdı. Ulu öndər Sovet rejiminin tüğyan etdiyi bir vaxtda deyirdi ki, Konstitusiya vətəndaşlara təhsil hüququ vermişdir. Bu hüquq ana dilində oxumaq imkanı ilə təmin olunur. Ana dilimizin şərəfinə ölkəmizin böyük şəhərlərindən olan Naxçıvan Muxtar Respublikasında "Ana dili" abidəsi ucaldıldı. Azərbaycan dövlət müstəqilliyinin rəmzlərindən sayılan Azərbaycan dili Ulu öndər Heydər Əliyevin əvəzsiz xidmətləri sayəsində xalqın milli mənəvi sərvətinə çevrilərək kamillik zirvəsini yaşamaqdadır.

Azərbaycan Respublikası təhsil sistemində, təhsilin forma və məzmununda köklü dəyişikliklər etmək üçün Ümummilli lider Heydər Əliyevin 15 iyun 1999-cu il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı" təsdiq edildi. Bu proqramın mahiyyət və məzmunundan və ümumiyyətlə, təhsilin dövlət həyatında oynadığı əvəzsiz rolundan danışarkən Ümummilli liderimiz demişdir. "Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini mədəniyyətini dünya standartlarına çatdırsın, o millət hər şeydən çox təhsilə fikir verməli, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır. Biz bu yolda gedirik. Əmin ola bilərsiniz ki, bu yolla gedəcəyik" (1.). Uşaqlar üçün yazılmış əsərlərin süjeti sadə, dili aydın və xəlqi olmalıdır ki, bağça və məktəb yaşlı uşaqların nitqlərinin, bədii zövqlərinin və dünyagörüşlərinin inkişafına kömək edə bilsin. Təkcə ana dilində yazılan dərsliklərin deyil eyni zamanda sinifdənxaric oxu üçün yazılan kitabların da qayğısına qalmalıyıq. Biz pedaqoq alimlər bu sahədə olan ziyalılar şairlər, yazıçılar necə yazmaqla yanaşı, həm də nə yazmaq, hansı janrda yazmaq barədə düşünməli eyni zamanda uşaq ədəbiyyatının bütün əhatə və çalarlığı ilə inkişaf etdirməliyik. Ana dilimizdə yazılmış dərs vəsaitlərinə baxsaq görərik ki, daha primitiv nüanslara uşaqlar maraq göstərmir. Çünki uşaqlar dövr zamanla ayaqlaşaraq çox irəlidədirlər. Bu gün uşaq dərsliklərinə baxsaq görərik ki, uşaq nəyi öyrənir? Və biz nəyi veririk uşağa?

Uşaq ədəbiyyatında yeni dil, yeni estetika, yeni baxış və ifadə qatına adlama prosesi müstəqillik dönəminin payına düşür. Uşaqlarımızda milli müəyyənlik, milli düşüncə və eyni zamanda ana dilimizə sevgi formalaşdırmaq istəyi, üçrəngli bayrağımız, himnimizlə öyünmək, Vətən, hürr, azadlıq duyğulu mətnlərin daha çox üstünlük təşkil etməsi, çağdaş uşaq ədəbiyyatının aparıcı istiqaməti olmalıdır.

Uşaq ədəbiyyatı uşaq şüuruna nitqlər yolu ilə daxil olur. Uşaqlar üçün yazılan bədii əsərlər ana dilində qələmə alınmalı, azyaşlı və yeniyetmə oxucuların yaş səviyyələri, milli xüsusiyyətləri və anlama qabiliyyətləri nəzərə alınmalıdır. Uşağın daxili duyğularını, sevincini, əzablarını, psixoloji-ruhi yaşantılarını bütöv şəkildə ortaya qoyan əsərlərə ehtiyacımız böyükdür. Bu problem bütün dövrlərdə olduğu kimi, bu gün də aktual olaraq qalmaqdadır. Uşaq ədəbiyyatının keçdiyi yol, inkişaf qanunauyğunluğu, mövzu və problem dairəsi haqqında çox bəhs edilib. Bəs bu gün çağdaş uşaq ədəbiyyatının problemləri, mövzu dairəsi nədir, hansılardır? Hazırda Azərbaycan uşaq ədəbiyyatımız özünəməxsus inkişaf yolu keçməkdədir. Uşaq ədəbiyyatı dünyası öz mövzuları və süjetləri, fərqli qəhrəmanları, dili və üslubu olan bir

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

ədəbiyyat kimi inkişaf edir.

Müstəqillik dövründə Azərbaycan uşaq ədəbiyyatının bir neçə yaradıcı nəsli böyük ədəbiyyat meydanında öz sözünü deməkdədir. Qarabağ faciəsi, işğal olunmuş yurd yerlərimizin, şəhid olan oğullarımızın obrazı, onların vəsfi, tərənnümü. Bu gün isə 28 il işğal altında qalmış Qarabağımızın azad olunması 44 günlük qələbəmiz, zəfər tariximizi yazan şəhid oğullarımız bütün bunlar yazılmalıdır. İkinci Qarabağ müharibəsində uşaqların acı həyat hekayələri, müharibələrin törətdiyi fəlakətlər, sülhün əmin-amanlığın tərənümü və s. mövzular qələmə alınmalıdır. Bir də dünyanı bürüyən texnoloji sivilizasiyanın uşaq baxışlarından dərki. Diqqət eləsək, görərik ki, elə bizim müstəqillik dövrü Azərbaycan ədəbiyyatını qapsayan mövzulardır. Xalqın və millətin taleyində elə taleyüklü məqamların ifadə, vəsf, tərənnüm anı gəlir ki, bütün ədəbiyyatın ruhu, ovqatı eyni amala, eyni mərama qulluq etmiş olur.

XX əsrin əvvəllərində maarifpərvər ziyalıları - müəllim və yazıçıları uşaq mətnləri yazmağa təhrik edən səbəblərdən biri də məktəblərdə şagirdlərin mütaliəsi üçün qiraət kitablarının yoxluğu idi(8,s.70). Ona görə maarifpərvər yazıçılar ana dilində yalnız dərsliklər deyil, sinifdənxaric oxu üçün kitabların yazılması qayğısına da qalırdılar. Bu gün də ziyalıları uşaq ədəbiyyatının bütün əhatə və çalarlığında inkişafı düşündürməli dövrün tələbinə uyğun əsərlər yazmalıdırlar. Yəni necə yazmaqla yanaşı, həm də nə yazmaq, hansı janrda mövzu meydana qoymaq barədə düşünməlidirlər. Yalnız uşaq şeirləri, təmsillər, nağıllar deyil, həm də güclü hekayələrin yazılması onları düşündürən səbəblər olmalıdır. Çağdaş dövrdə yeni tipli məktəblərin, kolleclərin, litseylərin meydana gəlməsi bu kimi yeniliklər zamanın tələbinə uyğun olaraq, ana dilində dərslik və dərs vəsaitlərinə diqqətin artırılmasını tələb edir. Maarifçilik dalğasının geniş intişarı, mətbuat şəbəkəsinin genişlənməsi, xüsusilə uşaqlar üçün jurnalların nəşri genişlənməli yeniliklərlə təzahür etməlidir. Bütün bunlar uşaq ədəbiyyatının inkişafına təkan verən amillərdir (3,s.11). Bütöv bir ziyalı zümrəsinin milli təəssübkeşliyi sayəsində yaradılmalı, uşaq ədəbiyyatı məhz, sağlam və təməlli başlanğıcdan nəşət tapdığı üçün bu gün də yaşama və var olma gücündədir. Bütün sahələrdə olduğu kimi, uşaq ədəbiyyatına münasibətdə də kəmiyyət dərəcəsi keyfiyyətə nisbətən qat-qat artıq olan bir durumda yaşayırıq.

Heydər Əliyev demişdir: "Uşaq ədəbiyyatı uşaqları zəngin mənəvi və estetik zövqə malik, zəmanəsinin ən humanist biliklərinə yiyələnən yetkin bir in¬san kimi tərbiyə etməlidir." Ana dilini qoruyub saxlamaq və uşaqlara sevdirmək Azərbaycan uşaq ədəbiyyatının ən böyük tarixi nailiyyətidir. Əsl uşaq ədəbiyyatı - ən yaxşı ana dili dərsliyidir. Vətənpərvərlik - uşaq ədəbiyyatının canı və ruhudur. Uşaq ədəbiyyatı Azərbaycan ədəbiyyatının əbədi Vətəniyyəsidir. Sadə və aydın ana dilində yazılmış və vətənpərvərlik üstündə köklənmiş Azərbaycan uşaq ədəbiyyatı xalqımızın müstəqil dövlətçilik uğrunda mübarizəyə hazırlanmasına şərəflə xidmət etmişdir. Uşaqların böyük həyata hazırlanmasını uşaq ədəbiyyatı olmadan təsəvvür etmək mümkün deyildir. Bu məqamda uşaq ədəbiyyatı övladlarını yaşdan-yaşa, addım-addım irəli aparmaq, düşündürmək, tərbiyə etmək vəzifələrini yerinə yetirən valideynlərin də işini həyata keçirir. Uşaq ədəbiyyatı uşaqlığın bütün mərhələlərinin bələdçisi və sükançısıdır.

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

Bir sözlə, uşaq ədəbiyyatı əsl məktəb, uşaq yazıçısı isə ən yaxşı müəllimdir. Ən kamil uşaq əsərləri ən çox yadda qalan dərslərdir. Uşaqların ətraf aləm haqqındakı ilkin təəssüratları ailə mühitində formalaşmaqda olan tərbiyəvi keyfiyyətlərin üstünə gəlir və onu daha da zənginləşdirir. Bağça dövrü- məktəbəqədər tərbiyə isə uşaqların ailədə və ətraf aləm vasitəsilə əxz etdikləri məlumatları, ilkin bilgiləri, öyüdləri cəmləşdirməklə bərabər həm də onlara bədii əsərlər, mahnı və musiqi ilə əlaqədar əlavə biliklər verərək onları məktəbə hazırlayır. Bağçalar uşaqların ilk şeir, hekayə və mahnı məktəbləri funksiyalarını həyata keçirir. Ona görə də bağça tərbiyəsi uşaq aləminin formalaşdırılmasında mühüm mərhələdir (7.s,53). Nə qədər çətin olsa da, sovet dövründə də uşaq ədəbiyyatımız ciddi bir inkişaf yolu keçmişdir. Sovet ideologiyasının təsiri ilə yaranan uşaq ədəbiyyatı nümunələri ilə bir sırada, bu dövrdə Azərbaycan uşaq ədəbiyyatının xəzinəsinə əbədi olaraq daxil olmuş şeir və hekayələr yazılıb nəşr edilmişdir.

Təbii ki, belə bir şəraitdə hər kəs öz öhdəsinə düşəni etməlidir ki, inkişaf və tərəqqi yolunu tuta bilək. Burada əsas məqsəd məhz bundan ibarətdir. Bildiyimiz kimi, uşaqlar üçün yazılan əsərlər həcmcə azlıq təşkil etsə də, ümumilikdə uşaq psixologiyasını düzgün anlayan, onu istədiyi məcraya yönəltməyi bacaran, saf uşaq şüurunda mütərəqqi, pedaqoji tərbiyənin əsasını anlatmaq baxımından dəyərli nümunəvi əsərlər yazılmalı, müfəssəl təhlil olunmalı, oxucularına çatdırılmalıdır. Belə ki yeniyetmələrin, gənclərin dünya görüşünün inkişafında maraq dairəsinin genişlənməsində əxlaq və mənəviyyatının formalaşmasında, bədii zövqün cilalanmasında ana dilinin zənginlikləri uşaq ədəbiyyatının köməyi ilə öyrənilir.

Azərbaycanda uşaqların sağlam və gümrah böyümələri, onların Vətənə layiqli övlad kimi yetişməsi, mükəmməl təhsil almaları dövlətin daim diqqət mərkəzində saxladığı prioritet məsələlərdəndir. Ümummilli lider Heydər Əliyev Azərbaycan uşaqlarını ən əzizi, doğması hesab edərək demişdir: “Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən bu gün haqqında yox, Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi də Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır ”.

Müasir dövrdə qlobal problemlərin bir-birini əvəz etməsi, sivilizasiyalar və mədəniyyətlərin qarşıdurması, qlobal iqlim dəyişiklikləri və digər hadisələr ictimaiyyəti ciddi narahat etsə də, uşaqların taleyinə aid məsələlər gündəmdən düşməmiş, daim diqqət mərkəzində olmuşdur. Müxtəlif həyat hadisələrinə, ətraf aləmə böyük maraq göstərən, hər şeyin mahiyyətinə varmağa çalışan bugünkü uşaq əqli intellektual qabiliyyəti ilə 30-40 il bundan əvvəlki yaşıdlarından xeyli fərqlənir. Orta ümumtəhsil məktəblərinin ilk pillələrindən başlayaraq uşaqlara həyat, ətraf aləm, özündən böyüklərin işi-peşəsi haqqında məlumat vermək, onlarda müəyyən anlayışlar formalaşdırmaq, mənəvi hisslərini, milli-vətənpərvərlik tərbiyəsini qüvvətləndirmək indi dövrün ən başlıca məsələlərindəndir. Lakin problem xarakterli bu məsələlərin, qarşıda duran vəzifələrin həllini təkcə ümumtəhsil məktəblərinin, digər təlim-tərbiyə ocaqlarının üzərinə atmaq bu günün tələbləri ilə həmahəng səslənmir. Bu da məlumdur ki, hər bir məktəbin, ailənin, hər bir uşağın ana dilimizə məhəbbət, zənginliklərini

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

öyrətmək biz böyüklərin müəllimlərin tərbiyəcilərin borcudur.

Müasir dövrün indiki mərhələsində xalqımıza kamil, şüurca yetkin insanlar daha çox lazımdır. Belə insanların yetişməsində uşaq ədəbiyyatının misilsiz əhəmiyyəti vardır. Məhz elə buna görə uşaq ədəbiyyatının ideya-bədii səviyyəsinin yüksəldilməsinə dövlət qayğı göstərir. Uşaq ədəbiyyatı uşaqların vətənpərvərlik ruhunda böyüməsində, milli dəyərlərimizi mənimsəməsində və dünyagörüşlərinin formalaşmasında əsas vasitələrdəndir. Buna görə də muxtar respublikada uşaqların mütaliəsinə diqqət artırılır, onların zövqünə uyğun, asanlıqla qavraya biləcəkləri kitablar nəşr olunur, müxtəlif səpkili müsabiqələr keçirilir.

Uşaq ədəbiyyatı böyüməkdə olan nəslin tərbiyəsində böyük əhəmiyyətə malikdir. Balacaları vətənpərvərlik, humanizm, düşmənə nifrət, beynəlmiləlçilik ruhunda tərbiyə etmək üçün yüksək səviyyəli uşaq əsərlərinin yazılmasına həmişə böyük ehtiyac olub. Və bu baxımdan da uşaqlar üçün yazılan əsərlərdə ana dilimizin qayğısına qalaraq uşaqlara sevdirərək öyrətməli, müasir dövrün nəbzi tutulmalı, coşqun və qaynar həyatımız öz bədii inikasını tapmalıdır. Bu uşaq yazıçılarını düşündürən ən aktual problemlərdən biridir.

**Nəticə**

Yekun olaraq belə bir nəticəyə gəlmək olar ki, uşaq ədəbiyyatı məqsədinə görə yox, xarakter xüsusiyyətinə görə, yəni forma və məzmun sadəliyinə, dil və üslub səlisliyinə görə ümumi ədəbiyyatdan ayrılır. Lakin bu gözəl nümunələr ümumi ədəbiyyatımızın kontekstində dəryada damlalara bənzəyir. Bütövlükdə uşaq ədəbiyyatımız çətin döyüşlərdə, zamanın sınaqlarından çıxmış və azərbaycancılıq məfkurəsində ana dilimizin qorunmasında uşaqların mənəvi dünyasının zənginləşməsində əhəmiyyətli rol oynayır. Uşaqların bədii zövqünün dərəcəsi, əməyə münasibəti, vətənpərvərlik, humanist duyğularının inkişafı da buraya daxildir. Uşaq ədəbiyyatı, həmçinin balalarımıza həyatı öyrədir, onlara bilik və məlumatlar verir. Uşaq ədəbiyyatı oxucularına həyatı daha dərindən dərk etməkdə kömək edir, dünyagörüşlərini genişləndirir, bədii zövqlərini inkişaf etdirir.

Beləliklə, bütün sahələrdə olduğu kimi, Azərbaycan dilinin inkişafı və onun dövlət səviyyəsində işlədilməsi, məhz Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan xalqı, Azərbaycan dili var olduqca Heydər Əliyev də var olacaq, bizimlə, qəlbimizdə yaşayacaqdır. Yekun olaraq deyə bilərik ki, bu gün ana dilimizin qayğısına qalaraq uşaq ədəbiyyatının inkişafı, problemi, vəziyyəti, ümumiyyətlə, əldə olunan son nailiyyətlər də araşdırılıb tədqiq edilməli, üzə çıxarılmalı yeni nəsilə çatdırılmalıdır.

## ƏDƏBİYYAT


1. Respublikanın təhsil işçiləri və 1999-cu ildə ali məktəblərə daxil olmuş tələbələrlə görüşündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqindən. “Azərbaycan məktəbi” jurnalı, 1999-cu il, №5, s.8
2. Azərbaycan Respublikasının Dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir”. (Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: 1996, s.10).
3. Həsənli B. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Müəllim, 2015, s. 524.
4. İsmayılova N. Azərbaycan uşaq

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

ədəbiyyatının tədrisi prosesində Cənub mövzusunun öyrədilməsi. (Metodik vəsait) Məktəb, 2006, s. 56
5. İsmayılova N. Naxçıvan ədəbi mühiti: uşaq ədəbiyyatının inkişaf istiqamətləri və problemləri (dərs vəsaiti). Bakı: Elm və təhsil, 2016, s.180
6. İsmayılova N. Ali məktəblərdə uşaq ədəbiyyatı fənninin tədrisinin yeni aspektdə qurulması yolları. //Müasir təlim metodları və yeni pedaqoji texnologiyanın təlim-tərbiyə prosesində tətbiqi mövzusunda keçirilən elmi-praktik konfransın materialları. NMİ, Məktəb, 2004, s. 138- 140
7. İsmayılova N. Müasir uşaq şeirində folklor nümunələri. //Müasir təlim metodları və yeni pedaqoji texnologiyanın təlim-tərbiyə prosesində tətbiqi mövzusunda keçirilən elmi-praktik konfransın materialları (26 may 2005), NMİ, Məktəb, 2005, s. 25- 29
8. İsmayılova N. Naxçıvan ədəbi mühiti və uşaq ədəbiyyatı. Naxçıvan bu gün:// islahatlar, perspektivlər. 5-6 oktyabr 2007. Beynəlxalq simpoziumun materialları. AMEA Naxçıvan Bölməsi, NDU, Bakı: Nurlan, 2008, 7 s.
9. İsmayılova N. Uşaq nitqinin formalaşmasında oyunların əhəmiyyəti. // III Beynəlxalq uşaq ədəbiyyatı simpoziumu 21-23 aprel, 2016-cı il. Qafqaz Universiteti.
10. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: 2007, s.444
11. Yusifoğlu R. Uşaq ədəbiyyatı. Bakı: 2002.
12. Xəlil Z., Əsgərli F. Uşaq ədəbiyyatı. Bakı: 2007, s. 490

**SƏDAQƏT NEMƏTOVA**
***sedaqetnemet@gmail.com***
***Naxçıvan Dövlət Univesiteti***

## FOLKLORUMUZA HEYDƏR ƏLİYEV SEVGİSİ

*Ömrü boyu Azərbaycan ziyalılarının qayğısını çəkən, ədəbiyyatımızı, mədəniyyətimizi, incəsənətimizi böyük övlad sevgisi ilə yorulmadan təbliğ edən Ümummilli liderimiz Heydər Əliyev xalqını, vətənini daha çox sevən, onun hər uğuruna ürəkdən sevinən ən böyük azərbaycanlı idi. O, Azərbaycanın bütün sahələrdə böyük uğur qazanmasında misilsiz xidmətlər göstərən dahi şəxsiyyət idi.*

1969-cu ildə Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi bütün sahələrdə olduğu kimi ədəbiyyatımızda, mədəniyyətimizdə, folklorumuzda böyük uğurların qazanılmasına gətirib çıxardı. Ədəbiyyatımızla yanaşı, memarlıq, xalçaçılıq, xalq musiqisi, folklor və etnoqrafiya kimi müxtəlif istiqamətləri birləşdirən milli-mənəvi dəyərlərimiz də özünün çiçəklənmə dövrünü yaşamağa başladı.

Heydər Əliyev ədəbiyyatımızı milli sərvətimiz kimi dəyərləndirərək demişdir: "Ədəbiyyatımız bizim böyük milli sərvətimizdən biridir. Biz bununla fəxr etməliyik. Şəxsən mən həmişə belə hesab etmişəm. Bu gün də belə hesab edirəm, daim belə düşünəcəyəm".

Ötən əsrin 70-80 illəri, eləcə də müstəqillik illəri Azərbaycan ədəbiyyatının və mədəniyyətinin, iqtisadiyyatının, təhsil və səhiyyəsinin, bir sözlə, Azərbaycanın sürətli inkişaf dövrü kimi tarixin yaddaşına həkk olunub. Akademik İsa Həbibbəylinin dediyi kimi: "Böyük dövlətçilik təcrübəsinə, yüksək liderlik qabiliyyətinə malik olan bu qüdrətli dövlət xadiminin yenidən siyasi cəbhəyə qayıdışını təkcə xalq deyil, həm də zaman

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

tələb edirdi. Çətin sınaqlarda möhkəmlənmiş zəngin siyasi təcrübəyə malik Heydər Əliyev Azərbaycan xalqı qarşısında həmin məsuliyyətli tarixi vəzifəni qəbul etmiş, böyük xilaskarlıq missiyasını dönmədən, qətiyyətlə həyata keçirmişdir" (4, s.21). Xalqımızın keçdiyi çətin, lakin şərəfli dövrü Ulu öndərimiz Heydər Əliyev 1994-cü ildə noyabr ayının 2-də dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibətilə Türkiyə Böyük Millət Məclisindəki tarixi çıxışında belə səciyyələndirmişdir: "Füzuli təkcə Şərqdə yox, müsəlman aləmində, türk dünyasında deyil, bütün dünyada, o cümlədən inkişaf etmiş Qərb ölkələrində də çox məşhur olmuşdur. Azərbaycan xalqının həyatı böyük, çətin mərhələlərdən keçmişdir. Ancaq bütün çətinlikləri keçməkdə Azərbaycan xalqına onun böyük insanlarının, böyük şəxsiyyətlərinin yaratdıqları sənət əsərləri kömək etmişdir. Füzuli bunların arasında görkəmli yer tutur".

Heydər Əliyev dövründə klassik şairlərimizin əsərlərinin çapı, təbliği ilə yanaşı, şifahi xalq ədəbiyyatı nümunələrimiz də unudulmadı. Folklor nümunələrinə göstərilən diqqət və qayğı həm də xalqımızın özünü tanıması, özünə qayıdışı kimi dəyərləndirilməlidir. Dilimizdə yasağa çevrilən "Dədə Qorqud", "Oğuz", "Oğuz yurdu", "Ozan", "Türk mədəniyyəti", "Qan yaddaşı" anlayışları geniş surətdə işlənməyə başladı. Tarix-diyarşünaslıq muzeylərimizin bütün rayonlarda fəaliyyətə başlaması, folklor qruplarının yaradılması, "Aşıq Pəri Məclisi"nin, "İrs", "Gülüstan", "Yallı" və sair xalq kollektivlərinin yaradılması, "Bulaq", "Ozan" verilişlərinin açılması, saz bayramlarının, folklor festivallarının keçirilməsi milli kökə, milli dəyərlərə qayıdışın bariz ifadəsinə çevrildi.

Klassik şair və yazıçılarımızın yubileylərinin keçirilməsi ilə yanaşı, folklor tədqiqatçısı olan alimlərimizin, qüdrətli aşıqlarımızın yubileylərinin keçirilməsi də yaddan çıxmadı, unudulmadı. Milli varlığımızın tərcümanı "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin YUNESKO tərəfindən dünya miqyasında keçirilməsi təşəbbüsünü də Azərbaycan Respublikası adından Heydər Əliyev qaldırdı. YUNESKO yubileylə bağlı təklifi qəbul etdi. Yubileylə bağlı hazırlıq işləri görüldü. Dastanla bağlı elmi kitablar yazıldı. Xatırladaq ki, elə 70-ci illərdə xalq yazıçısı Anarın ssenarisi əsasında çəkilən "Dədə Qorqud" filminin xeyir-duasını da Heydər Əliyev vermişdir. Ulu öndər dastana yüksək qiymət verərək demişdir: "Oğuz türklərinin tarixini əks etdirən "Kitabi-Dədə Qorqud" dastanı yüksək bəşəri ideyalar tərənnümçüsü kimi dünya xalqlarının mənəvi sərvətlər xəzinəsinə daxil olmuşdur (5, s.8). 2000-ci il aprel ayının 10-da "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi Bakı şəhərində təntənə ilə qeyd olundu. Həmin zirvə toplantısında Heydər Əliyev demişdir: "Azərbaycanda "Kitabi-Dədə Qorqud" irsinin öyrənilməsi, tədqiq edilməsi, təbliğ olunması sahəsində böyük işlər görülmüş və bunlar dastanı bizim xalqımıza, bütün türk dünyasına, türkdilli xalqlara yenidən tanıtmış və onun nə qədər zəngin sərvət olduğunu bütün dünyaya nümayiş etdirmişdir".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də bu ənənəni əzmlə davam etdirməkdədir. Dövlət başçısı 2007-ci ildə "Dədə Qorqud heykəli və Dədə Qorqud dünyası" tarixi-etnoqrafik kompleksinin yaradılması ilə bağlı müvafiq tədbirlərin görülməsi məqsədi ilə Sərəncam imzalayıb. 2013-cü

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

ildə Dədə Qorqud parkı salınıb və “Kitabi-Dədə Qorqud” abidəsi ucaldılıb. Abidənin açılış mərasimində Prezident İlham Əliyev dastanı Azərbaycan xalqının milli sərvəti adlandıraraq qeyd edib ki, hər bir azərbaycanlı üçün əziz olan bu əsərdə xalqımızın keçmiş həyat tərzi, məişəti, psixologiyası əks olunub. Həmin il Prezident İlham Əliyev “Dədə Qorqud” dastanı əsasında çoxseriyalı bədii televiziya filminin çəkilməsi ilə bağlı Sərəncam imzalayıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Kitabi-Dədə Qorqud”un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında” 20 fevral 2015-ci il tarixli Sərəncamı bu dastanın xalqımız üçün nə qədər böyük əhəmiyyət kəsb etdiyini bir daha dünyaya bəyan etməklə yanaşı, Heydər Əliyev ideyalarına sədaqətini də bir daha nümayiş etdirdi.

“ Kitabi-Dədə Qorqud” dastanları ilə bağlı böyük tədqiqat aparan xalq yazıçısı Anarın bir fikri olduqca maraqlıdır. Anar yazır: “Hər hansı xalq ədəbi irsi nə qədər zəngin olsa da bir, ya iki əsas kitaba, təməl kitaba, Ana kitaba malikdir. Belə baş kitab xalqın varlığını ən dolğun və bitkin şəkildə əks etdirir... Xalqımızın şah əsəri, Ana kitabı Dədə Qorqud dastanıdır” (1, s.11-12). Akademik İsa Həbibbəyli bu dastanı “Ata kitabı”mız adlandıraraq yazır: “Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin “Kitabi - Dədə Qorqud” dastanlarının 1300 illiyi haqqında imzaladığı fərman ulu Ata kitabımızın yenidən araşdırılması, beynəlxalq səviyyədə məqsədyönlü şəkildə təbliği, dünya dillərinə tərcümə olunması, yeni nəşrlərin meydana çıxması baxımından geniş imkanlar açır (3, s.9).

Ulu öndərin qayğısı sayəsində folklor kitablarının, klassik ədəbiyyat nümunələrinin nəşrləri onu göstərdi ki, Azərbaycanda bu sahədə çox böyük işlər görülüb. Hələ ötən əsrin 70-ci illərindən başlayaraq Aşıq Ələsgərin 150 illik (1972), Aşıq Alının 180 illik (1981) yubileyləri böyük təntənə ilə qeyd olunmuşdur. Aşıq Ələsgərin 1972-ci ildə 150 illik yubileyi Bakı ilə yanaşı, Moskvada da qeyd olunmuşdur.

El içərisindən çıxmış bir aşığın yubileyinin Moskvada keçirilməsi həmin dövr üçün böyük nailiyyət idi. Həmin tədbirə Sovetlər Birliyinin bütün respublikalarından söz-sənət adamlarının Kremlin Qurultaylar Sarayına toplaşması əslində Azərbaycan saz-söz sənətinin qüdrətini göstərirdi. 1996-cı ildə Heydər Əliyev Aşıq Ələsgərin 175 illik yubileyinin keçirilməsi ilə bağlı yeni sərəncam imzaladı. Aşıq Ələsgərin əsərləri yenidən nəşr olundu. 2001-ci ildə isə Aşıq Ələsgərin 180 illik yubileyi qeyd olundu.

1981-ci ildə Aşıq Alının 180 illiyi Heydər Əliyevin təşəbbüsü ilə qeyd olundu, Aşıq Alının şeirləri ayrıca kitab şəklində oxuculara çatdırıldı. Ötən əsrin 70-80 ci illərində aşıqlardan Abbas Tufarqanlının, Sarı Aşığın, Dilqəmin, Xəstə Qasımın, Hüseyn Bozalqanlının, Aşıq Hüseyn Cavanın və başqalarının şeirləri toplandı, kitabları çap olundu.

Ötən əsrin yetmiş-səksəninci illərində istedadlı el sənətkarlarının yaradıcılıq və ifaçılıq sahəsində qazandığı böyük uğurlar da məhz Heydər Əliyevin adı ilə bağlıdır. Aşıq Hüseyn Cavan, Aşıq Şəmşir Qocayev, Aşıq Şakir Hacıyev, Aşıq Əkbər Cəfərov, Aşıq Ədalət Nəsibov, Aşıq Pənah Pənahov və Aşıq İmran Həsənov “Əməkdar incəsənət xadimi”, musiqi folklorunun bənzərsiz ifaçıları olan İzzətalı Zülfüqarov, Ələsgər Şəkili və Əli Kərimov isə “Azərbaycanın əməkdar mədəniyyət işçisi” fəxri adına layiq görüldülər. Müstəqillik illərində də bu

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

ənənə davam etdirildi. Ədalət Nəsibov, İsfəndiyar Rüstəmov kimi qocaman ustadlara fəxri Prezident təqaüdünün verilməsi, Aşıq Əhliman Rəhimov və Ədalət Dəlidağlının "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülməsi dediklərimizə əyani sübutdur.

Bu gün Azərbaycanın ayrı-ayrı rayonlarında musiqi məktəblərində saz dərnəklərinin fəaliyyət göstərməsi ənənəsi də müstəqillik illərində Ulu öndərin saza-sözə dəyərinin nəticəsi kimi qiymətləndirilməlidir. Saz-söz bayramlarının keçirilməsi, dünyanın müxtəlif ölkələrində keçirilən beynəlxalq tədbirlərdə Azərbaycan aşıqlarının, folklor qruplarının çıxışları bir daha sübut edir ki, bu gün Azərbaycan folkloru dünya səhnələrinə də yol tapa bilib. Professor Məhərrəm Qasımlı "Heydər Əliyev və Azərbaycan folkloru" adlı geniş məqaləsində Ulu öndərin folklorumuza sonsuz sevgisini dolğun çalarlarla oxuculara təqdim edib. Məhərrəm Qasımlı adı çəkilən məqaləsində yazır: "Dilimizin, ruhumuzun incəliklərinə, tariximizin dərin qatlarına, ədəbi, mədəni abidələrimizə müdrik meyarlar və dəqiq elmi-nəzəri ölçülərlə qiymət verən Heydər Əliyev təkcə Azərbaycan hüdudlarında dəyərləndirmələr aparmırdı. Onun mülahizə və düşüncələri Azərbaycan mənəvi-mədəni gerçəkliklərini Şərq mədəniyyəti kompleksi, ümumtürk konteksti daxilində təqdim və təhlil edirdi" (2, s.88).

Ümummilli liderimiz Heydər Əliyev təkcə Azərbaycan folklorunu deyil, eləcə də türk xalqlarının qədim dastanlarını, klassik şairlərini, el sənətkarlarını böyük məhəbbətlə sevir və onların yubiley tədbirlərində də iştirak edirdi. Heydər Əliyev böyük fəxrlə qeyd edirdi ki, qədim dövrlərdə "Dədə Qorqud", "Manas", "Alpamış", "Koroğlu" dastanları, xalqımızın hamısına mənsub olan şairlərimiz, yazıçılarımız- Nizami, Yunis Əmrə, Əlişir Nəvai, Füzuli, Nəsimi, Məhdimqulu, Abay və digərləri xalqlarımızın tarixini, mənəvi dəyərlərini əks etdirən, onu dünyada tanıdan ölməz əsərlər yaratmışlar və bunlar nəsillərdən-nəsillərə xalqımızı özünəməxsus milli-mənəvi dəyərlər, o cümlədən ümumbəşəri dəyərlər əsasında tərbiyə etmiş, hazırlamış, vətənpərvərlik, vətənə sədaqət hisslərini daim gücləndirmişdir.

Heydər Əliyev böyük şəxsiyyət kimi elə arxalanmış, ana dilimizi ən güclü silah saymış, ədəbiyyatımızı, folklorumuzu sevə-sevə təbliğ etmiş, xalqın gücünə arxalanaraq zirvələr fəth etmişdir. Tarixdə xalqa, onun milli dəyərlərinə, ədəbiyyatına bağlı Heydər Əliyev kimi ikinci bir düha, şəxsiyyət tapmaq qeyri-mümkündür. Bu dahi şəxsiyyət xalqımızın fəxri olmaqla yanaşı, həm də dilimizin, folklorumuzun ən böyük qoruyucusu kimi tarixdə bundan sonra da yaşayacaqdır.

## ƏDƏBİYYAT

1. Anar. Sizsiz. Bakı: 1992, 412 s.
2. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı: Şərq-Qərb, 2009, 248 s.
3. Həbibbəyli İ. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007, 696 s.
4. Həbibbəyli İ. Nuhçıxandan – Naxçıvana . Bakı: Elm və Təhsil, 2015, 846 s.
5. Məmmədov V. Qalib gəldi, qalib getdi. İstanbul: 2013, 100 s.

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

**XUMAR MƏMMƏDOVA**
*Naxçıvan Dövlət Universiteti*

## HEYDƏR ƏLİYEV VƏ DÜNYA ƏDƏBİYYATI MƏSƏLƏLƏRİ

Hamıya məlumdur ki, Azərbaycan öz mədəniyyəti, ədəbiyyatı, incəsənəti, eyni zamanda milli-mənəvi dəyərləri ilə bütün dünyada tanınmışdır. Xalqımızın milli-mənəvi dəyərlərinin kökləri çox-çox qədim zamanlara gedib çıxır. XX əsr isə xalqımızın həyatına həm ictimai-siyasi, həm də sosial hadisələrin dəyişkənliyi baxımından yeni bir mərhələ kimi özünü göstərmişdir. Bu dövr dünyaşöhrətli siyasətçi, Ümummilli lider, Ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan dövrdür. Ümummilli liderimiz, türk dünyasının Atatürkü Heydər Əliyev deyirdi ki, "Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərindən ən yüksəyi, ən böyüyü mədəniyyətdir". Məhz bu səbəbdən Ulu öndər hakimiyyətdə olduğu bütün dövrlərdə xalqın mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin inkişafını həmişə diqqət mərkəzində saxlamışdır. Bu gün böyük fəxr hissi ilə deyə bilərik ki, ədəbiyyatımız da, musiqimiz də, teatrımız da, kino sənətimiz də, ümumilikdə xalqımızı inkişafa doğru aparan bütün sahələr Ulu öndərin çox dəyərli ideyalarından bəhrələnib. Ulu öndər Heydər Əliyevin bir fikrini xatırlatmaq yerinə düşər: "Şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur" (1; 195-196).

Xalqımızın əvəzedilməz öndəri, fenomenal intellektə malik olan Heydər Əliyev mənsub olduğu xalqın – Türk xalqlarının tarixini, ədəbiyyatını, mədəniyyətini dərindən bildiyi kimi, eyni səviyyədə dünya xalqlarının ədəbiyyatına, mədəniyyətinə və incəsənətinə də dərindən bələd olmuşdur. Bu dahi şəxsiyyət keçmiş sovet imperiyasında yaşayan xalqların ədəbiyyatlarını, sosialist sistemində yaşayan Polşa, Çexoslavakiya, Rumıniya, Bolqarıstan, Almaniya Demokratik Respublikası, Albaniya, Kuba, Monqolustan, Çin Xalq Respublikası, Vyetnam, Koreya xalqlarının ədəbiyyat və mədəniyyətini, dünyanın ən qabaqcıl ölkələrinin təfəkkür potensialını da yaxından izləmişdir. Ümummilli liderimiz Heydər Əliyev böyük bir dövlətin (keçmiş SSRİ-nin – X.M.) yüksək vəzifəli rəhbərlərindən biri kimi xarici ölkələrə rəsmi səfərlərində, siyasi-ictimai şəxsiyyətlərlə görüşlərində, ədəbiyyat və mədəniyyət işçiləri ilə söhbətlərində yüksək erudisiya, ədəbi – mədəni zövq nümayiş etdirmiş, öz intellektual səviyyəsi, yüksək qabiliyyəti, qeyri-adi heyranedici biliyi ilə hamıda dərin heyrət yaratmışdır.

Görkəmli şəxsiyyət Heydər Əliyev dünya ədəbiyyatını yüksək dəyərləndirərək ədəbiyyatı, mədəniyyəti "Xalqların dostluq və qardaşlıq himni", "Xalqların dostluğu - ədəbiyyatların dostluğudur" prinsipini isə ədəbi-estetik prinsip səviyyəsində dərk etmişdir. Ulu öndər ədəbiyyatın başlıca vəzifələrindən birini də xalqlar dostluğunu tərənnüm etməkdə görmüşdür. O, öz çıxışlarında daima qeyd etmişdir ki, yeni dünya quruculuğunda, dünya xalqlarının, eləcə də insanların tərbiyə edilməsində, millətlər arasında problemlərin, düşmənçiliyin aradan qaldırılmasında, dostluq körpülərinin yaradılmasında ədəbiyyatçıların rolu siyasətçilərdən daha çox ola bilər. Ədəbiyyat bilavasitə bu sahədə mühüm rol oynayır.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

Bu gün hər bir azərbaycanlı qətiyyətlə təsdiqləyə bilər ki, dahi şəxsiyyət Heydər Əliyev dövlət strukturlarında fəaliyyətə başladığı ilk illərdən etibarən əlində olan bütün imkanlarından bəhrələnərək Azərbaycan ədəbiyyatını, mədəniyyətini, incəsənətini istək və məhəbbətlə təbliğ etmiş, sinəsində millətinə bağlı böyük bir vətəndaş ürəyi çırpınmışdır. Bu məhəbbət xalqımızın mənəvi atası Heydər Əliyevin aşağıdakı sözlərindən də aydın duyulur: "Azərbaycan xalqının hətta ən böyük nailiyyətləri haqqında danışmaq çox mürəkkəb vəzifədir. Azərbaycan neftçilərinin qəhrəmanlığı, əfsanəvi Neft Daşları, Xəzər sahilindəki Komsomolsk-Sumqayıt, Azərbaycan pambığı və neft avadanlığı, kimya məhsulları, xalçaları, ipəyi və meyvəsi ilə yanaşı, alimlərimizin kəşfləri, yazıçılarımızın, bəstəkarlarımızın, rəssamlarımızın böyük istedadla yaradılmış əsərləri respublikamızın hüdudlarından uzaqlarda şöhrət qazanmış bu kəşflər və əsərlər xalqımızın nailiyyətlərinin yalnız qısa siyahısıdır: Mən həmin nailiyyətlərdən hamımız üçün fərəh və iftixar hissi ilə danışıram" (1; 197 - 198).

Millətimizə, xalqımıza məxsus ədəbiyyat və mədəniyyətin nailiyyətlərindən həmişə fərəh və iftixarla danışmaq, bundan qürur hissləri keçirmək bütün həyatı boyu əvəzedilməz öndərimizi tərk etməmişdir. Milləti tanıtmanın ən böyük və səmərəli yolunun ədəbiyyatdan keçdiyini bildiyindən, Ümummilli liderimiz Heydər Əliyev öz vəzifə imkanlarından yetərincə bəhrələnərək həmişə ədəbiyyat və mədəniyyətimizi keçmiş SSRİ və həmçinin dünya miqyasında təbliğ edən ədəbiyyat və mədəniyyət tədbirləri keçirmişdir. Onun təşəbbüsü, çox zaman təşkilatçılığı və rəhbərliyi ilə Azərbaycanda Rusiya, Ukrayna, Belorusiya, Pribaltika, Orta Asiya respublikaları ədəbiyyatı və mədəniyyəti ongünlükləri, ədəbi konfranslar, yubiley tədbirləri keçirilmişdir. Və ya əksinə olaraq həmin ölkələrdə Azərbaycan ədəbiyyatı və mədəniyyəti günləri keçirilməsi ənənə halını almışdı.

1972-ci ilin oktyabr ayında məhz dahi şəxsiyyət Heydər Əliyevin ciddi səyi nəticəsində Azərbaycanda RSFSR Ədəbiyyatı və İncəsənəti Günlərinin keçirilməsi çox əlamətdar hadisə, ədəbiyyat və mədəniyyət tariximizdə ilk sözü gedən tədbirlər siyahısına düşmüşdür. Bu tədbirdə Ulu öndər Heydər Əliyevin məşhur nitqi onun dünya ədəbiyyatına və eyni zamanda dünya ədəbiyyatının bir qolu olan çoxmillətli rus ədəbiyyatına və mədəniyyətinə bələdliyini də açıq şəkildə nümayiş etdirmişdir. Bu möhtəşəm tədbiri "xalqların dostluq və əməkdaşlıq salnaməsinin parlaq səhifəsi" hesab edən Heydər Əliyev qeyd etmişdir: "Rusiyanın görkəmli yaradıcılıq kollektivləri Azərbaycanda dəfələrlə böyük müvəffəqiyyətlə çıxış etmişlər. Lakin öz miqyasına görə belə əzəmətli bayram şənliyi bizdə ilk dəfə keçirilir" (2).

Tədbirin əsas əhəmiyyəti ondan ibarət idi ki, görkəmli rus ədəbiyyatı və mədəniyyəti xadimləri Azərbaycanda olmuş, xalqımızı, millətimizi, vətənimizi yaxından tanımaq imkanı əldə etmiş, Azərbaycanın zəngin ədəbiyyatı və mədəniyyəti, adət-ənənələri ilə yaxından tanış olmuşlar. Bütün bunlar məhz Ümummilli liderimiz Heydər Əliyevin ədəbiyyatımız, mədəniyyətimizin inkişafı naminə atdığı addımlar nəticəsində ərsəyə gəlmişdir.

Görkəmli şəxsiyyət Heydər Əliyev keçmiş SSRİ-nin dünya şöhrətli ədəbiyyat və incəsənət xadimlərindən G. Markov, K. Simonov, O. Şestinski, L. Leonov, R. Həmzətov, R. Rojdestvenski və onlarla digər məşhur yazıçılar, şairlər, istedadlı

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

sənətkatlarla bağlı çıxışlar etmiş, belə müəlliflərin məhz ədəbi və mədəni əlaqələr zəminində respublikamızda tanınmasını vurğulamışdır. Ümummilli lider Heydər Əliyev deyirdi: “Məlum olduğu kimi ölkədə (keçmiş SSRİ nəzərdə tutulur) 77 milli ədəbiyyat yaranmışdır və müvəffəqiyyətlə inkişaf edir. 1979 – cu ildə SSRİ-də 63 xalqın dilində ədəbiyyat nəşr edilmişdir”. Dünya şöhrətli siyasətçi Heydər Əliyev xalqların və millətlərin yaxınlaşmasında ədəbiyyatı xalqların mənəvi ünsiyyət vasitəsi hesab edir, və ədəbiyyatların qarşılıqlı təsiri problemini elmi-nəzəri səviyyədə belə aydınlaşdırmişdir: “Ədəbiyyatların qarşılıqlı təsiri yeni bir şey deyildir, ən əvvəl onların məhz tarixi qarşılıqlı təsir və qarşılıqlı nüfuz prosesində yaranan müəyyən vəhdətdir. Heç bir xalq başqa xalqların nailiyyətlərindən istifadə etmədən inkişaf edə bilməz. Demək olar ki, bədii ədəbiyyat xalqların mənəvi ünsiyyətinin, onların bir-birini başa düşməsinin, sərvət və nailiyyətlər mübadiləsinin ən geniş, səmərəli, dərin nüfuz edən vasitəsidir” (2).

Ümummilli liderimiz Heydər Əliyev bütün tədbirlərdəki çıxış və nitqlərində yüksək elmi-nəzəri hazırlıq, dünya ədəbiyyatına yaxından bələdlilik nümayiş etdirmişdir. Dahi şəxsiyyət Azərbaycan torpağında dünya ədəbiyyatı sahəsində keçirilən bütün tədbirlərin əhəmiyyətini sanki bugünkü gəncliyə və gələcək nəsillərə xüsusi nəzərə çarpdırmaq üçün bir daha vurğulamışdır: “Azərbaycan torpağında Rusiya Federasiyası, Ukrayna, Özbəkistan, Belarusiya mədəniyyəti günlərinin, Ukraynada, Özbəkistanda, Zaqafqaziya respublikalarında Azərbaycan mədəniyyət ustalarının yaradıcılıq hesabatlarının böyük əhəmiyyəti olmuşdur” (3). Bu əhəmiyyət ondan ibarət idi ki, belə tədbirlərdə əlaqələr yaranırdı, bir xalq digər xalqın ədəbiyyatına, mədəniyyətinə bələd olur, yazıçılar bir-birini tanıyır, bir-birindən öyrənir, tərcümə ilə məşğul olurdular. Bu qəbildən olan tədbirlərin vacib əhəmiyyətini qeyd edən Azərbaycan xalqının mənəvi atası Heydər Əliyev fikrini belə ifadə edirdi: “Bu cür tədbirlərdə çoxdilli və əlvan dünya ədəbiyyatının ustaları, öz adları ilə bu ədəbiyyatın şanlı tarixinə zinət verən sənətkarlar burada yenidən görüşurdülər” (3). Təbii ki, bu kimi tədbirlər və görüşlər ədəbiyyatlara, mədəniyyətlərə böyük təsir göstərir, onların inkişafını, yayılmasını, tanınmasını stimullaşdırır, Azərbaycan şairlərinin, nasirlərinin və dramaturqlarının əsərlərinin məşhurlaşmasında böyük rol oynamışdır.

Dahi şəxsiyyət Heydər Əliyev eyni zamanda ədəbi əlaqələrin yaranmasında tərcümə işinin böyük əhəmiyyətini vurğulamış, sovet ədəbiyyatı kontekstində Azərbaycan ədəbiyyatının nüfuzundan və və rolundan böyük fərəh hissi ilə söz açmışdır: “Meydana gəldiyi ilk günlərdən Azərbaycan sovet ədəbiyyatının nümayəndələrinin diqqətəlayiq xidmətlərindən xüsusi minnətdarlıqla danışırıq. Onların əməyi sayəsində Azərbaycan klassikasının və müasir ədəbiyyatının ən yaxşı nümunələri ümumiittifaq oxucularına verilmiş, ölkəmizin hüdudlarından kənara çıxmışdır. Həmçinin Azərbaycan tərcüməçiləri, Azərbaycan yazıçılarının və şairlərinin böyük dəstəsi Azərbaycan oxucusunu rus və dünya klassiklərinin ən yaxşı əsərləri ilə tanış etmişlər” (2).

Dünya ədəbiyyatı korifeylərinin yaradıcılığını çox dərindən bilən Heydər Əliyev ədəbi prosesin birtərəfli getmədiyini, Azərbaycan ədəbiyyatının Nizami Gəncəvi, Məhəmməd Füzuli, Nəsimi, M.P Vaqif, M.Ş.Vazeh, M.F.Axundov, M.Ə.Sabir, C.Məmmədquluzadə,M.S.Ordubadi,

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

C.Cabbarlı, S.Vurğun, İ.Əfəndiyev, N.Xəzri və onlarla digər istedadlı sənət adamlarının əsərlərinin, eləcə də "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Qaçaq Nəbi" kimi dastanlarımızın, aşıq yaradıcılığının və bir sıra folklor nümunələrinin dünya ədəbiyyatı xəzinəsinə qovuşduğunu tarixi-ədəbi fakt kimi qeyd edərək yüksək qiymətləndirmişdir.

XII əsrdə böyük Nizami tərəfindən əsası qoyulan Azərbaycan gözəlini tərənnüm kimi yaradıcılıq meyarının XIX əsrdə A.S.Puşkin yaradıcılığnda ortaya çıxması faktını görkəmli şəxsiyyət Heydər Əliyev belə izah edir: "Azərbaycan qadınının Şamaxı gözəlinin şairanə obrazı Rusiya poeziyasında rus torpağının böyük oğlu A.S.Puşkinin şeirlərində əbədiləşdirmişdir. Öz xalqlarının yaradıcılıq dühasını ən dərin və parlaq surətdə təcəssüm etdirən iki gözəl sənətkarın poetik estafeti sanki əsərlərdən keçərək görüşmüşdür" (4). Heydər Əliyev M.F.Axundovun A.S.Puşkinin ölümünə həsr etdiyi "Şərq poeması"nın iki xalqın ədəbi əlaqələrinin inkişafındakı rolunu açıqlamış, S.Ə.Şirvaninin rus dilinə münasibətini yüksək qiymətləndirmiş, əsərlərindən misallar gətirmişdir. Bütün bunlar həmçinin dahi şəxsiyyətin hər iki xalqın ədəbiyyatını mükəmməl bildiyinə sübutdur. Ümumiyyətlə, böyük fəxr hissi ilə qeyd etmək lazımdır ki, gətirdiyimiz nümunələr və Heydər Əliyevin çıxışlarında, nitqlərində, yazılarında tez-tez dünya və Azərbaycan ədəbiyyatına, klassiklərinə müraciət etməsi onun bu ədəbiyyatlara dərindən bələd olmasını bir daha təsdiqləyir.

Müdrik ağsaqqalımız Heydər Əliyev müxtəlif dünya dillərini öyrənməyin vacibliyinin müasir gənclik üçün nə qədər əhəmiyyətli olduğunu çıxışlarında dəfələrlə qeyd etmişdir. Dahi şəxsiyyət daim dünya ədəbiyyatı ilə Azərbaycan ədəbiyyatı arasındakı əlaqələrin tarixi köklərini xatırladaraq bildirmişdir ki, bu gün də, gələcəkdə də bu əlaqələr davam edəcək, arasıkəsilməz bir ədəbi proses kimi özünü göstərəcək. Bu baxımdan Ümummilli liderin 1994-cü ildə (müstəqillik dövründə) Moskvada etdiyi "Rusiya və Azərbaycan xalqlarını birləşdirən dostluq telləri möhkəm və pozulmazdır" (4) adlı çıxışı olduqca əhəmiyyətlidir. Dahi şəxsiyyət Heydər Əliyev bir daha təsdiqləmişdir ki, ictimai-siyasi formasiyaların dəyişməsinə baxmayaraq, ədəbi əlaqələr daim inkişaf edir, xalqların mənəvi inkişafı həmişə irəli gedir.

Mədəniyyət və ədəbiyyatın bütün imperiyalardan, qüvvətli və sarsılmaz olduğunu yaxşı bilən müdrik şəxsiyyət Heydər Əliyev çox düzgün olaraq qeyd edir: "Elə bunun özü ona dəlalətdir ki, Azərbaycan və rus xalqlarını, Rusiya və Azərbaycan xalqlarını birləşdirən dostluq telləri möhkəm və pozulmazdır, bu telləri heç nə qıra bilməz. Bu tellər əbədi olacaq və gündən-günə möhkəmlənəcəkdir" (2).

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev görkəmli rus şairi A.S.Puşkinlə bağlı qeyd edir: "Puşkin, bir daha deyirəm, Azərbaycana yad bir anlayış deyil. Amma indiki zamanda Azərbaycan müstəqil bir dövlət olduğu zamanda Puşkinin yaradıcılığının öyrənilməsi, mənimsənilməsi Rusiya ilə müstəqil Azərbaycan əlaqələrinin bütün sahələrdə daha da inkişaf etməsinə xidmət edir və edəcəkdir. Puşkin elə bir şəxsiyyətdir ki, o hansı ictimai-siyasi sistemə mənsub olmasından asılı olmayaraq böyük yaradıcılığı ilə bütün xalqlara öz təsirini göstərir" (5).

Maraqlı məqamlardan biri də budur ki, dahi şəxsiyyət Heydər Əliyev İttifaq ədəbiyyatından danışarkən Abay Kunanbayev, Oljas Süleymenov kimi Rusiya

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

imperiyasının təsir dairəsi altında yaşayan türkdilli xalqların onlarla ədəbiyyat xadimlərini də unutmamış, onlardan öz nitqlərində geniş söhbət açmışdır.

Ümummilli lider Heydər Əliyev dünya ədəbiyyatını, xüsusən Avropa və Amerika, Yaponiya və Çin, Hindistan, Vyetnam və Cənubi Amerika ədəbiyyatlarını, antik yunan və Roma ədəbiyyatını, Misir mədəniyyətini mükəmməl şəkildə bilmişdir. Dahi şəxsiyyətin dünya ədəbiyyatı kontekstində tamaşaya qoyulmuş Şekspirin "Hamlet" tamaşasına münasibəti və bu haqda nitqi dünyaşöhrətli siyasətçi, xalqımızın mənəvi atası Heydər Əliyevin dünya ədəbiyyatı ilə heyranedici şəkildə tanışlığını bir daha sübuta yetirir.

Bütün bunlar bir daha təsdiqləyir ki, bu il 90 illik yubileyi qeyd olunan dahi şəxsiyyət, dünya şöhrətli siyasətçi, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev mədəniyyətimizin, ədəbiyyatımızın inkişafı və bütün dövrlərdə yazıb-yaratmış şair və yazıçılarımızın dünya ədəbiyyatı qalereyasına daxil olması naminə misilsiz xidmətlər göstərmişdir.

## ƏDƏBİYYAT

1. Novruzov T. Heydər Əliyev və ədəbiyyat məsələləri. Bakı: 2007
2. http://www.anl.az/down/meqale/xalqqazeti/2010/may/118120.htm
3. http://www.anl.az/el/alf7/he&medeniyyet1.pdf
4. http://az.wikipedia.org/wiki/Heyd%C9%99r_%C6%8Fliyev
5. http://library.aliyev-heritage.org/az/79222.html

**SƏADƏT ƏLİYEVA**
*eliyevaseadet@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA DEMOKRATİK MEDİANIN İNKİŞAFI

Azərbaycan xalqının və Azərbaycan dövlətinin müstəqilliyi haqqında görkəmli yazıçı və diplomat "Rusiyada ilk qəzeti nəşr edən Qafqaz türkləri olmuşdur" sözlərinin müəllifi Yusif Vəzir Çəmənzəminli hələ 1919-cu ildə "Azərbaycan" qəzetində yazmışdı:

"Dünyada hər bir dövləti təşkil edən 3 amildir: Torpaq, Millət və hakimiyyət. Bu gün Azərbaycanda bu üç amil mövcud olduğu üçün Azərbaycan müstəqil bir məmləkətdir".

Müstəqil bir məmləkətdə isə informasiya funksiyası dövlət funksiyaları içərisində özünə layiqli, önəmli yerlərdən birini tutmalıdır.

Ulu öndər demişdir: "Keçmişdə, Sovet hakimiyyəti dövründə, Sovet İttifaqı Kommunist Partiyasının liderləri içərisində başqalarına nisbətən mətbuatla ən yaxın olan adam mən olmuşam. Ən dost olan adam mən olmuşam. Bu mənim xarakterimdədir, xasiyyətimdədir. Mən həmişə mətbuatla maraqlanmışam, qəzet-jurnalları oxumuşam, radio-televiziyada verilən məlumatlara həmişə diqqətlə yanaşmışam. Ona görə də jurnalistika sənəti mənə çox yaxın olubdur"

Sovet dönəminin mətbuatı faktiki olaraq 4 yerə bölünürdü: ümumittifaq, respublika, rayon, sahə qəzet və jurnalları. Mətbuat orqanlarının 90 faizi demək olar ki, paytaxtda cəmləşmişdi. İdeoloji sistem "müstəqil" ifadəsini artıq arxa plana cəmləşdirmişdi. Təsisçilik hüququ partiya və sovet orqanlarına, onların yaxud

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

dövlətin maraqlarını təmsil edən qurumlara verilirdi. Senzura tələbləri hansısa respublika üçün güzəştləri, imtiyazları, xüsusilə seçilməyi nəzərdə tutmurdu.

Müttəfiq respublikalara gəldikdə isə sovet ideoloji sisteminin qadağaları Baltikyanı ölkələrdən də yan keçməmişdi. Ukrayna, Belarus, Gürcüstan mediasında sərbəstliyə meyl artırdı. Azərbaycan KİV-lərini isə acınacaqlı durumda olan Orta Asiya respublikalarının mediasının gününə sala biləcək qədər pis proseslər gedirdi. Heydər Əliyev fəaliyyətə Azərbaycanda mənfi halların tənqidi ilə başlamaqla, məruzələr etməklə mətbuatın, jurnalistlərin üzərindən xofu götürdü.

1994-1995-ci illərdə Azərbaycanın ictimai-siyasi həyatında mürəkkəb dövrlərin yaşandığı zamanlar siyasi mətbuat orqanları çox aktiv fəaliyyət göstərmişdir.

"Azərbaycan", "Xalq qəzeti", "Respublika", "Bakinskiy raboçi", "Yeni Azərbaycan", "Səs", "Aydınlıq", "Şərq qapısı", "Naxçıvan", "İki sahil" qəzetləri, habelə Respublika Televiziyası və Radiosu, "AzərTAc" cəmiyyətimizdə demokratiyanın, aşkarlığın və sosial ədalətin təmin olunmasında mühüm rol oynayırdılar.

Azərbaycan Respublikasında çoxpartiyalı sistemin yaranması XX əsrin əvvəllərinə gedib çıxsa da, bu tarixi ənənənin təzədən dirçəlib inkişaf etməsi, əsasən, Azərbaycanın ikinci dəfə öz müstəqilliyinə sahib olduğu zamanla əlaqədar olmuşdur.

Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyinə qovuşandan sonra təkpartiyalılıq sisteminə son qoyuldu. Obyektiv tarixi tələbatın ifadəsi olaraq yeni siyasi sistemin yaranması prosesinə başlanıldı. 1990-1992-ci illər ərzində kəmiyyət və siyasi keyfiyyət cəhətdən zəif olduqları üçün bu partiyalar hakimiyyət uğrunda mübarizəyə qoşulmaq üçün xalq tərəfindən dəstək ala bilmir, kütləviləşməyi bacarmırdılar. AXC-Müsavat rejimi cəmiyyətdə dağıdıcı mənəvi-psixoloji mühit yaratmış, fiziki və mənəvi terrorlar ayaq açıb yeriyirdi. Azərbaycanın dövlət müstəqilliyi təhlükə ilə üz-üzə dayanmışdı. Xalqı, vətəni xaosdan xilas etmək üçün avanqard bir partiya, qətiyyətli rəhbər lazım idi. Yeni Azərbaycan Partiyası məhz belə bir dövrdə tarixi zərurət şəraitində xalqın qədirbilən ziyalılarının inadlı təkid və xahişləri ilə Heydər Əliyev tərəfindən yaradıldı.

Görkəmli Azərbaycan ziyalılarından ibarət olan məşhur "91-lər"in Heydər Əliyevə olan müraciətində deyilirdi:

"Mövcud iqtidar ictimai-siyasi gedişatlara tam nəzarət edə bilmir. Cəmiyyət obyektiv qanunauyğunluqlardan daha çox subyektiv mülahizələrə əsasən idarə olunur.

Möhtərəm Heydər Əliyev! İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz öhdəsinə götürməyə qadir yeganə şəxs Sizsiniz!

Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına yeganə mütləq lider Siz ola bilərsiniz!"

Sözün əsl mənasında xalqın müraciəti, tələbi ilə yaranan Yeni Azərbaycan Partiyası (YAP) Heydər Əliyevin liderliyi ilə vətənin, xalqın xilası missiyasına başladı. Az müddət içində yüz minlərlə Azərbaycan vətəndaşını ətrafında birləşdirdi.

Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişinə qədər əgər çoxpartiyalı sistemdə sükançı anarxiya qüvvələri idisə, 1993-cü ildən başlayaraq idarəetmə

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

mexanizmində baş verən fəaliyyətə stimul yaratmaq üçün sabitlik bərqərar olurdu.

Bunun üçün zəruri qanunvericilik mühiti formalaşdırmışdı. İlk növbədə onun müəllifi olduğu 1995-ci il Konstitusiyasına diqqət yetirmək lazımdır. Konstitusiyanın müvafiq maddələri ilə söz, məlumat və ifadə azadlıqları insan təməl hüquq və azadlıqlarının müstəsna göstəriciləri olaraq öz əksini tapdı. Heydər Əliyev ardınca müharibə təhlükəsinin sovuşmadığı bir ölkə üçün son dərəcə inqilabi sayılacaq addım atdı - böyük qətiyyət və prinsipiallıq nümayiş etdirərək 1998-ci ildə senzuranı aradan qaldırdı. 1999-cu ildə "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu isə bu istiqamətdəki islahatlarının bir növ kuliminasiya nöqtəsi kimi dəyərləndirilə bilər. Qətiyyətlə bildirmək olar ki, həm bu qanun, həm də senzuranın aradan qaldırılması mediaya tamamilə yeni düzən gətirdi. Bəli, tam şəkildə demək olmaz ki, o zaman üçün istər cəmiyyət, istər mətbuat, istərsə də məmur kontingenti bu düzənə hazır idi. Heydər Əliyev vəziyyəti hər kəsdən gözəl duyurdu. İndi də bu sahədə problemlər qalmaqdadır. Ancaq Ulu öndər prinsipcə gedilməli olan yolu müəyyənləşdirmişdi".

1998-ci ildə prezident Heydər Əliyev tərəfindən imzalanmış Fərman –"İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında" qüvvəyə minən qanun nəinki ölkə daxilində demokratik irəliləyişlərə təkan verdi, həmçinin Azərbaycan Respublikasının dünyaya, Avropaya inteqrasiya prosesinin sürətlənməsinə də geniş imkanlar yaratdı.

Siyasi partiyalar çoxalmağa başladı, kütləvi informasiya vasitələrində siyasi plüralizm açıq, geniş yola çıxdı. Cəmiyyətin bütün sahələrində gedən köklü islahatlar müstəqil ölkəmizi hüquqi dövlət və vətəndaş cəmiyyətinə daha da yaxınlaşdırdı.

Belə bir dövrdə Yeni Azərbaycan Partiyasını çox yüksək qiymətləndirən Heydər Əliyev başqa siyasi partiya və siyasi qəzetlərin XX əsrin görkəmli şəxsiyyətlərindən olmuş Böyük Azərbaycanlı Heydər Əliyevin həyatı, ictimai-siyasi, dövlətçilik fəaliyyəti həm də mətbuatla, xüsusilə Azərbaycan Respublikası ikinci dəfə müstəqillik uğrunda çarpışdığı illərdə daha sıx surətdə bağlı olmuşdur. Baxmayaraq ki, o dövrün ilk çağlarında Heydər Əliyev pensiyada idi, M.S. Qorbaçov rejimi tərəfindən haqsızlığa məruz qalmışdı, ürək ağrısından əziyyət çəkirdi. Bütün bunlar onun Azərbaycanın inkişaf və tərəqqisi üçün döyünən qəlbini həvəsdən sala bilmirdi, Heydər Əliyev mübarizəmizin öncül sıralarında idi.

Xalqımızı imperiya caynağından xilas edib özü öz taleyinə sahib olmaq uğrundakı mübarizəsinə hələ ki, nəzəri cəhətdən rəhbərlik edən uzaqgörən siyasət xadimi Heydər Əliyev inqilabımızın ilk günlərində demokratiyanın və hakimiyyətin mənbəyi olan xalq haqqında, onun gələcək taleyi haqqında siyasətin ayrılmaz tərkib hissəsi olan kütləvi informasiya vasitələrində yazırdı: "Xalqı müdafiə etmək, xalqın mövqeyini müəyyənləşdirmək vaxtıdır. Qarabağ problemi isə xalqı parçalayan imperiya siyasətinin təzahürüdür".

Yeni Azərbaycanın siyasi mətbuatında Heydər Əliyev mərhələsi

Azərbaycan xalqının tarixində 1991-1993-cü illər xüsusilə mühüm mərhələ təşkil edir. "Azadlıq uğrunda xalqının mübarizəsinə qoşulmağa" gələn Heydər Əliyevin Azərbaycana qayıtması, Azərbaycan Respublikası Ali Sovetinin və Naxçıvan Muxtar Respublikasının xalq deputatı kimi ona etimad göstərilməsi,

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

daha sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri seçilməsi ölkəmizin və xalqımızın taleyində, qlobal milli məsələlərin həllində başlıca problemlərin həllinə bizi yaxınlaşdırırdı.

Heydər Əliyev yaxşı dərk edirdi ki, müstəqilliyin əldə edilməsi ölkəmizi böyük inkişaf perspektivlərinə aparacaq, bu taleyüklü tarixi hadisə nəticəsində Azərbaycan xalqı öncə öz azad və müstəqil həyatını quracaq.

Müstəqil, suveren dövlət uğrunda mübarizənin genişlənməsi üçün Heydər Əliyev ilk inqilabi istiqamətverici tövsiyələrində yazırdı:

"Azərbaycanda hüquqi dövlət qurulması, demokratik sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlıqlarının, söz, vicdan azadlığının, siyasi plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olması dövrün tələb etdiyi prinsiplərdir və bu prinsipləri biz ardıcıl olaraq həyata keçirməliyik"

Söz azadlığı, siyasi plüralizmin baş qaldırdığı bir zamanda Bakıda "Naxçıvan" həftəlik qəzetinin ilk nömrəsi (10 oktyabr 1992-ci il) çapdan çıxmışdı. Bu münasibətlə Heydər Əliyev təbrik məktubunda yazırdı:

"Bu gün Naxçıvan Muxtar Respublikası çox böyük çətinliklərlə üz-üzə dayanıb. Bu çətinlikləri aradan qaldırmaq üçün biz çox iş görməliyik. İndi Naxçıvanın çox şeyə ehtiyacı var, ancaq bu gün naxçıvanlılar çörəkdən, ətdən, yağdan, elektrik işığından qabaq xeyirxah sözə, həqiqəti və ancaq həqiqəti deyən jurnalist qələminə möhtacdır"

Həqiqət yolunu tapmaq, "həqiqət və haqq tanrıdan ucadır" deyən Heydər Əliyev böhtan, yalan yazan jurnalistlərə həmişə düzgün və doğru yol göstərirdi.

Heydər Əliyevin blokadada olan Naxçıvanın ağır qış günlərində 15 nəfər jurnalistlə keçirdiyi geniş mətbuat konfransının iştirakçısı olan müxbirlər özləri bir müddət keçəndən sonra konfrans materiallarından ibarət çap etdirdikləri kitaba belə bir başlıq seçmişdilər: "Prezident Heydər Əliyevin jurnalistika dərsi".

XX əsri milli tariximizin möhtəşəm yüzilliyi olaraq səciyyələndirmək, Ümummilli lider Heydər Əliyev şəxsiyyətini isə şah zirvə saymaq mümkündür. Xalq yazıçısı Anar rəhbərin tarixdəki rolunu əbəs yerə idealizə etmir: "Heydər Əliyev hər xalqa, bəlkə də əsrdə bir dəfə qismət olan qənimət, nadir şəxsiyyət idi". Heydər Əliyev mətbuatın gücünü çox gözəl anlayan və jurnalistlərlə işin əhəmiyyətini qəbul edən siyasətçi idi.

"Mən iqtidarın nümayəndəsi kimi - mən Prezidentəm - hər bir jurnalistə çox minnətdar olacağam ki, iqtidara, Prezident kimi mənə bəlli olmayan hansısa səhvi, yəni hansısa pis görülən işi, bizə zərər verən halları üzə çıxarasınız və biz də bundan istifadə edib o nöqsanların aradan qaldırılması ilə məşğul olaq. Qısası, mən istəyirəm ki, siz iqtidara kömək edəsiniz" (2 "Heydər Əliyev və mətbuat" IV cild, səh.475. Bakı: Nurlar, 2003. Redaktoru və ön sözün müəllifi f.e.d., AMEA-nın akademiki, professor Ramiz Mehdiyev ).

Kütləvi informasiya vasitələri ilə hakimiyyət strukturları arasında qarşılıqlı əlaqələrin vəhdətini möhkəmləndirən Heydər Əliyev mütərəqqi fikirli jurnalistlər ordusunun əksəriyyətinin təşəbbüsü ilə açıq söz, azad düşüncə üçün əsl münbit şərait yaratdığına görə "Ruh" Jurnalistləri Müdafiə Komitəsinin təsis etdiyi ilk mükafata -"Jurnalistlərin dostu" fəxri mükafatına layiq görüldü.

Heydər Əliyev siyasətinin əsas tərkib hissəsi sayılan demokratiya, siyasi plüralizm

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

Prezident İlham Əliyevin də dövlətçilik fəaliyyətində hüquqi, demokratik cəmiyyət quruculuğunda fəal rol oynayan Azərbaycan mətbuatının inkişafına dövlət qayğısı açıq-aşkar görünür.

Ulu öndərimiz ölkəmizdə fəaliyyət göstərən kütləvi informasiya vasitələri rəhbərlərini 18 dekabr 2001-ci ildə Prezident Sarayına dəvət etdi. Ölkə başçısı Azərbaycanda mətbuatın, orada çalışan insanların, media təmsilçilərinin yəni, jurnalistliyinin bütün peşələrdən daha hörmətli olduğunu, görüşün onun təşəbbüsü ilə keçirildiyini bildirdi: "Mən çalışdım, yəni xahiş etdim ki, müstəqil mətbuat, müxalifət mövqeyində olan mətbuat nümayəndələri çox gəlsin. Çünki dövlət orqanlarının mətbuat nümayəndələri ilə bizim aramızda həll olunmayan məsələ yoxdur".

Ulu öndərin verdiyi məsləhətlərdə jurnalistlə ədalətli mövqeyə dəvət olunurdu: "ədalətdən kənar uydurma, yalan, başqa şeylər, əlbəttə ki, insanı incidir, insanı narahat edir. Bu da müəyyən qədər əks reaksiya doğurur. İndi məndə buna qarşı immunitet yaranıbdır. Mən sizə açıq deyirəm, mən heç bir şeyə fikir vermirəm, heç oxumuram da. Kim nə yazır, yazsın" .

Heydər Əliyev istəyirdi ki, mediamız cılızlaşmasın, ikinci-üçüncü dərəcəli məsələlərlə özünü yükləməsin, dövlətçiliyin, milli maraqların keşikçisi, təbliğçisi funksiyasının fəaliyyətində əsas götürsün.

22 mart 2002-ci il "Hyatt Regency Naxçıvan" hotelindəki təntənəli mərasimdə "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin "Jurnalistlərin dostu" mükafatının laureatanın adı açıqlanır. Qalib Prezident Heydər Əliyevdir. Dövlət başçısı bu ad üçün namizədliyinin hətta onu tənqid edənlər tərəfindən də dəstəklənməsindən məmnundur. Çünki o, seçimin Azərbaycanın media cameəsinin mövqeyini əks etdirən, bütövlükdə cəmiyyətin iradəsinə uyğun seçim kimi qəbul olunduğunu bilir.

"Mən sizi bir daha əmin etmək istəyirəm ki, bu günkü mükafatı yüksək qiymətləndirirəm və çalışacağam ki, həmişə jurnalistlərin dostu olam".

2005-ci il iyunun 21-də "Gülüstan" sarayında Azərbaycan milli mətbuatının 130 illiyinə həsr olunmuş yubiley mərasimində dövlət başçısı İlham Əliyev mətbuat təəssübkeşi, "Jurnalistlərin dostu" olan Heydər Əliyevin "mətbuata daim böyük diqqətlə yanaşdığını, mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsinə, ümumiyyətlə, mətbuata daim qayğı göstərdiyini" qürur hissi ilə vurğulamışdır.

"Bu gün Azərbaycanda sözün əsl mənasında müstəqil mətbuata böyük ehtiyac var. Azərbaycan mətbuatının müstəqilliyi cəmiyyətin sifarişidir. Mən hesab edirəm ki, mətbu orqanlar bəzi siyasi dairələrin təsirindən çıxmalıdır və sözün əsl mənasında müstəqil olmalıdır. Bu gün Azərbaycanda mətbuat azadlığı, söz azadlığı var. Azərbaycanda senzura 1998-ci ildə aradan götürülmüşdür. 1992-ci ildə tətbiq olunan senzura 1998-ci ildə Heydər Əliyev tərəfindən ləğv edildi" (1).

Prezident Heydər Əliyevin mətbuat katibliyinin jurnalistlərlə bağlı qırmızı çizgisi vardı: təhrif olunmuş məlumatın hazırlanması jurnalistin akkreditasiyasının ləğvinə səbəb olur və heç bir halda güzəşt edilmirdi.

Belə bir hadisə olmuşdu: MDB-yə üzv ölkələrin səhiyyə nazirləri Heydər Əliyev tərəfindən qəbul olunacaqdı. Bu qəbul Təhlükəsizlik Şurası iclasının uzanması səbəbindən bir qədər gec başlamışdı. Yeni akkreditasiya olunmuş jurnalistlərdən biri səhərisi gün səhiyyə nazirlərinin prezidentlə görüşündən hazırladığı reportajda, bu görüşlə Təhlükəsizlik Şurasının iclası arasında bir

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

əlaqə olduğundan bəhs etmişdi.

Bundan sonra həmin jurnalistin akkreditasiyasi ləğv edilmiş və sonralar çalışdığı digər qəzetlərdən də akkreditasiya müraciətinə mənfi cavab verilmişdi.

**Nəticə**

"Mətbuat cəmiyyətin güzgüsüdür" çağırışı Ulu öndərin ən çox dəyər verdiyi ifadələrdən idi. Ümummilli liderin əsl, peşəkar jurnalistlərdən əsas tələbi də bu idi ki, heç vaxt, heç bir ləkə bu güzgünün təmizliyinə, saflığına xələl gətirməsin. Humanist olduğu qədər də ədalətsizliyə, əsası olmayan saxta informasiyalara, böhtan və yalanlara qarşı barışmaz olan Ümummilli lider Heydər Əliyevin mübarizliyi bu sahədə də özünü büruzə verirdi. Ümummilli lider söz, mətbuat azadlığının inkişafına əngəl olan süni maneələrin aradan qaldırılması üçün qanunvericilik bazasının təkmilləşdirilməsini təmin etmiş, vətəndaş cəmiyyəti quruculuğunu özünün inkişaf modeli seçən Azərbaycanda KİV-lərin rolunun artırılmasını başlıca məqsəd kimi qarşıya qoymuşdur. Mətbuat və söz azadlığı, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. Müstəqillik dövründə Azərbaycan mətbuatı ilə bağlı ilk Fərmanı Ulu öndər Heydər Əliyev imzalayıb. Milli mətbuatın yubileylərinin ölkədə geniş qeyd olunması, KİV-lərə birdəfəlik yardımların göstərilməsi, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri, həmçinin milli mətbuatın inkişafındakı xidmətlərinə görə jurnalistlərin fəxri adlarla təltif edilməsi haqqında sərəncamlar da mətbuata, mətbuat işçilərinə qayğının tərkib hissəsidir. Bu gün müstəqil mətbuatın formalaşması və inkişafına xidmət edən siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə söz və mətbuat azadlığına, kütləvi informasiya vasitələrinə ən yüksək səviyyədə diqqət və qayğı göstərilir. Azərbaycanın artan iqtisadi imkanları mətbuatın inkişafı yolundakı çətinliklərin aradan qaldırılmasına, onun aktual problemlərinin həllinə şərait yaradır. Bu gün media ictimaiyyəti Ulu öndər Heydər Əliyevin ölkə mətbuatının inkişafı üçün göstərdiyi tarixi xidmətləri unutmur və hər zaman əziz xatirəsini dərin hörmətlə anır.

Ümummilli liderin siyasətini müasir dövrün tələblərinə uyğun davam etdirən Prezident İlham Əliyevin bu istiqamətdə gördüyü işlərə diqqəti yönəltdi. Belə bir reallığı diqqətə çatdırdı ki, medianın inkişaf səviyyəsi hər bir ölkənin inkişaf səviyyəsini göstərir. Hər dövrün öz tələbləri vardır. Tarixi Zəfərimizin reallıqları bütün sahələrdə, o cümlədən mətbuatda təkmilləşməni, yeniləşməni bir tələbə çevirdi. Dövlət başçısı İlham Əliyevin "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı da bu təkmilləşmənin, yeniləşmənin bariz nümunəsidir. Fərmana uyğun olaraq, "Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradıldı. MEDİA Agentliyi qısa müddətdə ölkəmizdə mətbuat sahəsində islahatların daha da dərinləşdirilməsində öz sözünü deyir. Yeni dövr milli mətbuatımızın inkişafı ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsini də zərurətə çevirdi. Bu məqsədlə cari ildə "Media haqqında" yeni Qanun qəbul edildi. Qanun media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

## ƏDƏBİYYAT

1. Prezident Heydər Əliyevin jurnalistika dərsi. Azərnəşr, 2001-ci il, s.30
2. Heydər Əliyev və mətbuat. III cild. s.312. Bakı: "Nurlan" nəşriyyatı, 2003-cü il
3. "Azərbaycan" qəzeti, 23 iyun 2000-ci il
4. Azərbaycan mühacirət mətbuatı
5. "Şərq qapısı" qəzeti. 26 iyul 1990-cı il
6. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Azərnəşr, 1995-ci il, s.9
7. "Respublika" qəzeti, 25 avqust 1990-cı il
8. "Kommunist" qəzeti, 30 noyabr 1990
9. "Səs" qəzeti, 16 oktyabr 1992-ci il
10. "Naxçıvan" qəzeti, 25 noyabr 1992-ci il
11. "Yeni Azərbaycan" qəzeti, 22 noyabr 1994
12. İlham Heydər oğlu Əliyev. Moskva: "İzvestiya" qəzeti, 19 may 2001
13. İlham Əliyev böyük siyasətdə: reallıqlar və perspektivlər. Bakı: 1999, s.16
14. https://www.bbc.com/azeri/azerbaijan-46536222

# PEDAQOGİKA, PSİXOLOGİYA, METODİKA

**MƏMMƏDƏLİ RƏHİMOV**
***rmehemmedeli0@gmail.com***
***Naxçıvan Dövlət Universiteti***

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN İDMAN HAQQINDA SÖYLƏDİYİ FİKİRLƏR VƏ AZƏRBAYCAN İDMANININ İNKİŞAFINDA HEYDƏR ƏLİYREVİN ROLU

*Məqalədə Ümummilli lider Heydər Əliyevin fiziki tərbiyə və idman haqqındakı müxtəlif vaxtlarda söylədiyi fikirlər toplanmış və sistemləşdirilmişdir. Onun hakimiyyətinin birinci dövründə Azərbaycan SSRİ-nin tərkibində olanda da, respublikada fiziki tərbiyənin və idmanın inkişafı sahəsində görülən işlər məqalədə öz əksini tapmışdır. Eyni zamanda məqalədə göstərilmişdir ki, Heydər Əliyev müxtəlif vaxtlarda respublikada idmanın inkişafından danışarkən öz nitqində idmanın sağlamlıq əhəmiyyətini, ölkənin müdafiəsində vətəndaşların fiziki cəhətcə və mənəvi hazırlığında əhəmiyyətini, idmanın ökəni dünya miqyasında tanıtmasındakı rolunu necə dəqiqliklə təhlil etmişdir. Eyni zamanda Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında respublikada idmanın inkişaf etdirilməsi məsələlərinə aydınlıq gətirilmişdir. İdman infrastrukturunun yaradılmasında, ixtisaslı kadrların hazırlanmasında, idmançıların müxtəlif miqyaslı yarışlara hazırlanmasında və beynəlxalq miqyaslı yarışlarda Azərbaycan idmançılarının iştirakının təmin edilməsində Heydər Əliyevin rolu məqalədə öz əksini tapmışdır.*

***Açar sözlər:*** *idman, fiziki tərbiyə, idman infrastrukturu, ixtisaslı kadrlar, Olimpiya oyunları*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

Bütün mütərəqqi dünya dövlətlərində olduğu kimi ölkəmizdə də fiziki tərbiyə və idman işi həmişə diqqət mərkəzində olmuşdur. Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin həm birinci dövründə, həm də ikinci dövründə gənclərin və ümumilikdə əhalinin fiziki sağlamlığına və respublikada idmanın inkişafına ciddi fikir vermişdir. O, demişdir: "İdman, bədən tərbiyəsi, hər bir sivilizasiyalı xalqda, ölkədə olduğu kimi, Azərbaycan xalqının da, Azərbaycan vətəndaşlarının da həyat tərzinin mühüm bir hissəsidir."

Heydər Əliyev hələ Azərbaycan KP MK-nın birinci katibi olarkən respublikanın bədən tərbiyəsi və idmançılarının hazırlığının yaxşılaşdırılması işində respublika fəallarının bədən tərbiyəsi və idmana həsr olunmuş 21 iyun 1974-cü il tarixli yığıncağında fiziki tərbiyə və idmanın respublikada inkişaf etdirilməsində, idmanın əhali arasında kütləvi xarakter almasında təşkilatçıların üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edərək demişdir: "Kütləvi idman işinin inkişafına rəhbərlik böyük siyasi əhəmiyyətə malik işdir. Çünki, xalqın sağlamlığına bizim dövlət həmişə böyük əhəmiyyət vermişdir və indi də verir. Ona görə də, bədən tərbiyəsi və idman həmişə bütün təşkilatların diqqət mərkəzində olmuşdur".

Heydər Əliyev Respublikada idmanın kütləviliyinə nail olmaq üçün bu işdə respublikanın bütün təşkilatlarının-dövlət təşkilatlarının, ictimai təşkilatların, ümumilikdə cəmiyyətin bütün təbəqələrinin iştirakının vacibliyini vurğulayırdı. O, idmanın kütləvi olaraq yayılmasının cəmiyyətin bütün təbəqələri üçün əhəmiyyətli olduğunu və bu yolla bir neçə önəmli məqsədin həyata keçirilə biləcəyini qeyd edirdi. Heydər Əliyev kütləvi idmanın ictimai sağlamlığın qorunmasında və sosial fərqliliklərin azaldılmasında əhəmiyyətli rol oynadığını qeyd edirdi. O, kütləvi idmanın insanlara sağlam həyat tərzi və sosial əlaqələr təmin etdiyini və idman sayəsində cəmiyyətin ümumilikdə daha sağlam və birləşmiş olduğunu vurğulayırdı. Heydər Əliyev, idmanın kütləvi olaraq inkişafını təbliğ etmənin böyük əhəmiyyət kəsb etdyini ön plana çəkirdi. O, ölkədə fiziki tərbiyənin və idmanın yüksək səviyyədə təşkilinin idmanın kütləviliyindən, daha çox insanın idmanla müntəzəm məşğul olmasından asılılığını nəzərə alaraq qeyd edirdi ki, inanıram ki, idman, bədən tərbiyəsi Azərbaycanda getdikcə kütləvi xarakter alacaq.

Baxmayaraq ki, Azərbaycan SSRİ-nin tərkibində olarkən respublikamız müstəqil deyildi, hər şey mərkəzi hakimiyyətdən asılı idi. Heydər Əliyevin müdrik siyasəti nəticəsində mərkəzi hakimiyyətdən respublikada idmanın inkişafı üçün maddi texniki bazanın yaradılmasına, ixtisaslı kadrların hazırlanması işinə, məşqlərin aparılmasına, yarışların keçirilməsinə xeyli vəsait ayrılmasına nail olunmuşdur. Respublikada idmanın inkişafı üçün xeyli maddi texniki baza yaradılmışdır. 1970-1980-cı illər ərzində respublikada 36 stadion, 2600 futbol və voleybol meydançası, 6400 basketbol və tennis meydançası fəaliyyət göstərirdi. Bu dövrdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun əsas binası, Bakı İdman Sarayı, örtülü avarçəkmə hovuzu, idmanın atıcılıq növləri üçün idman qurğuları kompleksi, Bakı şəhərində örtülü atletika meydanı, üzgüçülük hovuzu, idman kompleksi, Gəncə şəhərində üzgüçülük hovuzu olan idman kompleksi, Nabranda idman

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

kompleksləri tikilib istifadəyə verildi. Azərbaycanın bir sıra rayon və şəhərlərində, o cümlədən Bakı şəhərində idman komplekslərinin təməli qoyuldu. T.Bəhramov adına Respublika Stadionu yenidən qurularaq idmançıların və tamaşaçıların istifadəsinə verildi.

Haliyədə Azərbaycanda 54 idman kompleksi inşa edilərək əhalinin istifadəsinə verilmişdir. Bunlardan Bakı İdman Sarayı, Respublika Velotreki, Respublika Olimpiya Mərkəzi, Heydər Əliyev adına İdman Konsert Kom pleksi, Bakı Olimpiya İdman Kompleksi, Maştağa Olimpiya İdman Kompleksi, Paralimpiya İdman Kompleksi, Bakı Tennis Akademiyası, “Sərhədçi” İdman Olimpiya Mərkəzi, Hövsan Olimpiya İdman Kompleksi, Bakı Olimpiya Stadionu, Bakı Kristal Zalı, Milli Gimnastika Arenası, Bakı Atıcılıq Mərkəzi, Bakı “Su İdman Sarayı”, Bakı Avropa Oyunları Parkı, Velopark olmaqla 18 kompleks Bakı şəhərində, qalan 36-sı isə Naxçıvan Olimpiya İdman Kompleksi, Şəki Olimpiya İdman Kompleksi, Bərdə Olimpiya İdman Kompleksi, Lənkəran Olimpiya İdman Kompleksi, Quba Olimpiya İdman Kompleksi, Şamaxı Olimpiya İdman Kompleksi, Zaqatala Olimpiya İdman Kompleksi, Masallı Olimpiya İdman Kompleksi, Qazax Olimpiya İdman Kompleksi, Ağdam Olimpiya İdman Kompleksi, Salyan Olimpiya İdman Kompleksi, Qusar Olimpiya İdman Kompleksi və s. olmaqla Azərbaycanın müxtəlif rayon və şəhərlərində yerləşir.

Heydər Əliyev idmanın insan orqanizminə göstərdiyi müsbət nəticələri hər bir vətəndaşın dərk edə bilməsi və idmanı düzgün qiymətləndirərək idmanla məşğul olmağa həvəs göstərməsini nəzərə alaraq demişdir: “İdman insanları həm fiziki, həm də mənəvi cəhətdən yüksəldən bir vasitədir”.

Heydər Əliyev idmanın insan sağlamlığının əsas təminatlarından biri olduğuna inanırdı. Ulu öndər idmanın sağlamlığa təsiri ilə bağlı çoxtərəfli düşüncələrə malik idi. O, müntəzəm idmanın insanların fiziki və psixoloji sağlamlığını dəstəklədiyini və bu yolla bir çox xəstəliklərin qarşısını almağın mümkün olduğunu qeyd edirdi. O, idmanın ölkənin dünya miqyasında tanınmasında rolundan danışarkən qeyd edirdi: “İdman sahəsində hər birinizin fəaliyyəti, gördüyünüz işlər və əldə etdiyiniz nailiyyətlər Azərbaycan idmanının adını, şanını-şöhrətini yüksəldir”. Heydər Əliyev idmanın vətənin müdafiəsində oynadığı strateji rolu vurğulayaraq, bu sahədə geniş təbliğat və təşviqatların əhəmiyyətini yüksək qiymətləndirirdi. O, vətəndaşları fiziki cəhətcə hazırlaşdırmağın, birlikdə fəaliyyət göstərməyin və vətəndaşların müstəqil müdafiə bacarığını artırmağın bir hissəsi olaraq idmanın əhəmiyyətini qeyd edirdi. O, idmanın vətənin müdafiəsində strateji rolunu göstərərək milli komandaların, idman federasiyalarının və idman klublarının vətəndaşlar arasında birlik və əməkdaşlığı gücləndirdiyini və bu sayədə dövlətin müstəqil müdafiə qabiliyyətini artırdığını vurğulayardı. Heydər Əliyev vətənin müdafiəsində idman təşkilatları və idman məktəbləri ilə birgə əməkdaşlığın əhəmiyyətini vurğulayaraq, bu sahədə dövlətin qarşıya qoyulmuş hədəflərinə nail olmağında idmanın strateji rolunu göstərirdi. Azərbaycan müstəqillik qazandıqdan sonra Ümummilli lider Heydər Əliyevin bu fikri öz təsdiqini tapdı. Ölkəmizdə idmanın inkişafı əvvəlki illərə nisbətən dəfələrlə artdı. Azərbaycan müstəqillik

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

qazandıqdan sonara ölkədə idmanın inkişafını dünyanın ən mötəbər idman tədbiri olan Olimpiya oyunlarında iştirakçıların sayına və qazanılmış medalların sayına əsasən əvvəlki illərlə müqayisə etsək bunu aydın şəkildə görmək olar.

Azərbaycan idmançıları 1952-ci ildən Olimpiya oyunlarında birinci dəfə SSRİ komandasının tərkibində iştirak etməyə başlamışdır. 1952-ci ildən 1992-ci ilə qədərki 9 Yay Olimpiya oyunlarında iştirak edən Azərbaycan idmançılarının sayı və qazanılan medalların sayı ilə 1996-cı ildən bu günə qədərki 7 Yay Olimpiya oyunlarında müstəqil Azərbaycan bayrağı altında iştirak edən Azərbaycan idmçılarının sayı və qazanılan medalların sayını müqayisə etsək, müstəqillik dövründəki inkişaf sürətini açıq şəkildə görə bilərik. Azərbaycan keçmiş SSRİ-nin tərkibində olanda bizim idmançılar müxtəlif vasitələrlə sıxışdırılır, beynəlxalq yarışlara, o cümlədən Olimpiya oyunlarına buraxılmırdı. Azərbaycan adından Olimpiya oyunlarında iştirak edən idmançıların demək olar ki, böyük əksəriyyəti isə digər millətlərin nümayəndələri olurdu. Azərbaycandan o idmançılar Olimpiya oyunlarına buraxılırdı ki, onlar əvəzolunmaz idilər. Azərbaycan SSRİ-nin tərkibində olanda 36 il ərzində Azərbaycandan cəmi 46 idmançı Olimpiya oyunlarında iştirak etmiş və ümumilikdə 26 olimpiya medalı qazanmışdır. 1992-ci ildə idmançılarımız Müstəqil Dövlətlər Birliyinin komandasının tərkibində Beynəlxalq Olimpiya bayrağı altında çıxış etmiş, 2 qızıl, 1 bürünc medal qazanmışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra idmançılarımız 7 Yay Olimpiya oyunlarında Azərbaycan bayrağı altında 288 idmançı ilə təmsil olunmuş və ümumilikdə 49 Olimpiya medal qazanmışdır.

Göstərilən müqayisə müstəqillik qazandıqdan sonra Heydər Əliyevin təməlini qoyduğu idman siyasətinin nə qədər düzgün olduğunun bariz nümunəsidir. Heydər Əliyev Azərbaycan Respublikasına Prezident seçildikdən sonra Azərbaycanda idmanın inkişafı yeni bir mərhələyə qədəm qoydu. O, İdmanın inkişafının əsas meyarı kimi idmançılarımızın Olimpiya oyunlarındakı nəticələrini görürdü. Olimpiya oyunları Heydər Əliyev üçün yalnız idman mübarizəsinin bir platforması deyil, həm də ölkələrarası münasibətlərin və dostluğun simvolu idi. Heydər Əliyev Olimpiya ideallarının sülh, dostluq və birgə əmək prinsiplərinə uyğun şəkildə təbliğ edilməsini vurğulayaraq bu oyunların ölkələrarası əlaqələri gücləndirməsi və dünya cəmiyyətinin birləşdirilməsində bir vasitə olaraq rolu olduğunu qeyd edirdi. O, idmanın insanların bir-biri ilə daha da yaxınlaşmasını və münasibətlərini gücləndirməsini təşviq etmək üçün böyük bir potensiala malik olduğuna inanırdı. Azərbaycanın müstəqil dövlət kimi beynəlxalq arenada təmsil edilməsi Heydər Əliyev üçün önəmli bir məsələ idi. O, ölkəsinin idman və Olimpiya oyunları vasitəsilə dünya miqyasında yaxşı tanına biləcəyinə inanırdı.

Ona görə də idmançıların Olimpiya oyunlarına hazırlığı zamanı və Olimpiya oyunlarına yola salma zamanı idmançılarımızla və idman xadimləri ilə çoxsaylı görüşlər keçirmiş və onlara çoxlu tövsiyələr vermişdir. Heydər Əliyevin apardığı düzgün idman siyasəti nəticəsində Azərbaycan tez bir zamanda idman sahəsində əsas beynəlxalq konvensiyalara qoşulmuşdur. Ölkəmizdə

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

qısa bir zamanda idmanın sürətli inkişafını görən beynəlxalq idman təşkilatlarının nümayəndələri idmanın inkişafına yüksək qiymət vermişlər.

1994-cü ilin aprelində Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Xuan Antonio Samaranç, Milli Olimpiya Komitələri Assosiasiyasının prezidenti Mario Vaskes Rana, Avropa Olimpiya Komitəsinin prezidenti Cak Roq Azərbaycanı ziyarət etdilər.

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Jak Roqqun Azərbaycanda tikilib istifadəyə verilən ilk Olimpiya idman kompleksinin açılışında iştirak edərkən: “Məndən bu regionda idmanın inkişafını soruşduqda, böyük məmnuniyyətlə sizin ölkənizi nümunə göstərirəm” – demişdir.

Azərbaycanda idmana bu cür yüksək qiymət ona görə verilirdi ki, Heydər Əliyevin özü respublikada idmanın inkişafına çox yüksək qiymət verir, idmanın inkişafını respublikanın inkişafının tərkib hissəsi kimi qiymətləndirirdi. Ulu öndər Heydər Əliyevin 2000-ci ildə Olimpiyaçıları yolasalma mərasimindəki nitqində bu fikirlər açıq şəkildə ifadə olunur. O, ölkənin dünya miqyasında tanınmasında idmanın müstəsna əhəmiyyətini belə ifadə etmişdir: “İdman elə bir sahədir ki, idmançılarımız müxtəlif ölkələrdə yarışlarda iştirak edir, qələbələr qazanırlar və hər dəfə müstəqil Azərbaycanın adını ucaldırlar. Müstəqil Azərbaycanın himni çalınır, müstəqil Azərbaycanın bayrağı qaldırılır və müstəqil Azərbaycan dünyanın müxtəlif ölkələrində tanınır. Demək olar ki, idman kimi Azərbaycanın müstəqilliyinin rəmzlərini nümayiş etdirən ikinci bir vasitə yoxdur”. Heydər Əliyev fikrini davam etdirərək qeyd edirdi ki, Olimpiya oyunlarında Azərbaycanın bilavasitə, müstəqil olaraq iştirak etməsi xalqımızın azadlığının və ölkəmizin müstəqilliyinin bəhrəsidir və müstəqil Azərbaycan dövlətinin son illərdə əldə etdiyi nailiyyətlərin böyük bir hissəsidir.

Azərbaycan müstəqillik qazandıqdan sonra Heydər Əliyevin müdrik idman siyasətinin nəticəsi olaraq respublikada bədən tərbiyəsi və idmanın hüquqi əsası yaradılmış, “Bədən Tərbiyəsi və İdman Haqqında Qanun” qəbul edilmiş, Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi yaradılmış, Azərbaycan Respublikasında Bədən Tərbiyəsi və İdmanin İnkişafi Üzrə Milli Strategiya (2013-2020-ci illər) müəyyən edilmişdir.

Milli Olimpiya Komitəsinin Prezidenti, Heydər Əliyev irsinin layiqli davamçısı İlham Əliyev 2003-cü ildən Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçildikdən sonra Heydər Əliyevin idman siyasətinin layiqincə davam etdirilməsinin nəticəsində ölkəmizdə idman daha da sürətlə inkişaf edərək dünya miqyasında ölkəmizi tanıtmaqda davam edir.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

## ƏDƏBİYYAT

1. 14.08.1996-cı il XXVI Yay Olimpiya Oyunlarında iştirak etmiş Azərbaycan idmançıları ilə görüşdə Prezident Heydər Əliyevin çıxışı
2. 28.05.2000-ci ildə XXVII Yay Olimpiya Oyunlarında iştirak edəcək Azərbaycan idmançılarının yolasalma mərasimində Prezident Heydər Əliyevin nitqi
3. 15.06.2002-ci ildə Naxçıvan şəhərində Olimpiya İdman Kompleksinin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi
4. Quliyev D. Azərbaycanın idman tarixində Heydər Əliyev mərhələləri (1969- 1982,1993-2003). Monoqrafiya. Bakı: Təknur, 2013, 240 s.
5. Abiyev A., Quliyev D. Helsinkidən başlayan yol. Bakı: 2002, 93 s.

**ÇAPAY QULİYEV**
*capayquliyev@ndu.edu.az*
*Naxçıvan Dövlət Universiteti*

## XALQIN ÜMUMMİLLİ LİDERƏ İNAMININ TARİXİ PSİXOLOJİ ƏSASLARI

*Məqalədə xalqımızın Ümummilli lider Heydər Əliyevə inamının tarixi psixoloji əsaslarını şərtləndirən həm birinci hakimiyyəti, həm də qayıdışın Naxçıvan Muxtar Respublikası dövrləri ədəbiyyat araşdırmalarına istinadən təhlil edilmişdir. Bu illərdə iqtisadi inkişaf, sosial rifah, təhsil, hərbi və digər sahələrdəki əməli fəaliyyətin nəticəsi olaraq əldə olunan uğurlar psixoloji inamı şərtləndirən əsas amillər kimi tədqiqata cəlb edilmiş və araşdırılmışdır.*

***Açar sözlər:*** *Heydər Əliyev, Ümummilli lider, psixologiya, təhsil*

Xalqın Ümummilli liderə inamını bir sıra amillər şərtləndirdi. Xalqımız Ümummilli liderin Azərbaycana birinci rəhbərliyi dövründə ölkəmizin hərtərəfli inkişafını təmin edən siyasətinin yaşayıcısı idi və onu çox yaxşı dərk edirdi.

Hələ 1960-cı illərdə respublikamız haqqında SSRİ-nin perspektivsiz bir əyalət təsəvvürü formalaşmışdı. Neftə hesablanmış iqtisadiyyatın rəzilliklə sürüklənməyə məhkum olduğu düşünülür, heç bir çıxış yolu axtarılmırdı (1, s.9). Bu səbəblə 1969-cu ilə kimi Azərbaycanda ciddi iqtisadi problemlər yaşanırdı və əhalinin sosial durumu günü-gündən ağırlaşırdı. Yalnız Ümummilli lider Heydər Əliyevin 1969-cu ildə avqust plenumundakı çıxışından sonra hamıya aydın oldu ki, əsaslı dəyişikliklər zamanı gəlib çatıb. O cümlədən kadr siyasətində (1, s.45).

Həmin dövrdə Azərbaycanda rüşfətxorluq baş alıb gedirdi, bütün bunlar

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

dövlət orqanlarının gözü qarşısında baş verirdi. Heydər Əliyev qəti qərarlar qəbul etməli və rüşfətxorluqla ciddi mübarizə tədbirləri görməli idi. Təbii ki, bu bir çoxlarının xoşuna gəlməyəcəkdi. Belə də oldu Leonid İliç Brejnevə Heydər Əliyev Azərbaycanda sovet quruluşunu dağıdır deyə yalan, şər-böhtan xarakterli məlumat verildi. Heydər Əliyevlə Leonid İliç Brejnevin bu haqda telefon danışığı zamanı 40 dəqiqəyə yaxın müzakirəsi oldu. Axır ki, Heydər Əliyev verilən məlumatın düzgün olmadığına, Azərbaycanda rüşfətxorluğun baş alıb getdiyinə, ticarət sektorunda total oğurluq fırıldaqlarının olduğuna, əhalinin sosial narazılığına Brejnevi inandırmağa nail oldu (1, s.56).

Heydər Əliyev yorulmaq bilməyən təşkilati və siyasi fəaliyyəti ilə qısa vaxtda bəzi sovet rəhbər dairələrində hakim olan, Azərbaycanın SSRİ-nin geridə qalan ucqar hissəsi olması fikrini dəyişə bildi. Ən əsası isə sovet rəhbərliyinin diqqətini respublikaya yönəltdi (1, s.59). Bundan sonra Azərbaycanda hərtərəfli inkişafa şərait yaranmağa başlandı. Heydər Əliyev Azərbaycanın bütün sahələrdəki inkişaf perspektivlərini dəyərləndirdi. Qısa, orta və uzaq müddətli iqtisadi inkişaf layihələri təklif etdi.

İlk olaraq xalq təssərüfatı sahəsində olan problemlər araşdırıldı. 1970-ci ilin iyul ayında İKP MK və SSRİ Nazirlər Soveti iki birgə qərar qəbul etdilər: “Azərbaycan SSRİ-nin kənd təsərrüfatnın inkişafı haqqında və “Azərbaycan SSRİ-in xalq təsərrüfatının inkişaf etdirilməsi haqqında” (1, s.61-62).

Heydər Əliyev 2002-ci ilin avqustunda Naxçıvanda Vayxır su anbarının tikintisinə həsr olunmuş yığıncaq keçirilərkən qəbul olunmuş bu iki qərarın o dövrdə Azərbaycan üçün vacibliyinə və qarşıya qoyulmuş hədəflərin 5 il ərzində artıqlaması ilə həyata keçirildiyinə toxunmuşdur.

Heydər Əliyev 1971-ci ilin əvvəlinə qədər Azərbaycanda ciddi kadr siyasəti həyata keçirdi (1, s.68). Yeni komanda ciddi islahatlara hazır və qarşıya qoyulmuş çətin tapşırıqların öhdəsindən gəlməyə qadir olmalı idi. Bütün bunlar yeni komandanın formalaşdırılmasını tələb edirdi. Həmin dövrdə Heydər Əliyev kadrları toplayır, onları ixtisas və potensialına uyğun işlərə təyin edirdi. Bu zaman əsas prinsip 70-ci illərə qədər hökm sürən yerlibazlıqdan və qohumbazlıqdan uzaq olmaq, xalqın və dövlətin inkişafı düşüncəsində olan insanları vəzifə başına gətirmək idi.

Lakin SSRİ-nin Azərbaycanda kadr siyasəti sahəsində uzunmüddətli məkrli siyasəti bu sahədə də çatışmazlıqların və problemlərin təməlini qoymuşdu. İndi Ümummilli lideri hərtərəfli inkişafı təmin edəcək strategiya ilə yanaşı, bu strategiyanı uğurla icra edəcək kadr potensialının formalaşdırılması qayğıları da düşündürürdü.

70-80-ci illərdə respublikamızın iqtisadi və sosial sahələrindəki güclü inkişafı ilə yanaşı, ali təhsil sistemi də yüksək səviyyəyə çatdı. Respublikanın ali təhsil müəssisələrindəki inkişafı çox-çox uzaqlara yayıldı (1, s.615).

Bununla yanaşı, qısa zaman ərzində Ümummilli lider azərbaycanlı gənclərin respublikadan kənarda SSRİ-nin başqa respublikalarına ixtisas hazırlığı həyata keçirən ali təhsil ocaqlarında oxumağa göndərilməsini təmin etdi. Rəsmi statistik məlumatlara görə, 1970-1980-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə keçmiş ittifaqın 50 iri şəhərindəki 170 ən tanınmış ali məktəbində 15 min gənc azərbaycanlı respublikada tələbat duyulan 250 ixtisas

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

üzrə təhsil almışdı (1, s.615).

70-ci illərdən başlayaraq hərbi təhsil sahəsində də ciddi inkişaf mərhələsi başladı. O zamana qədər hərbi xidmətə cəlb edilən Azərbaycan gəncləri yalnız inşaat batalyonlarında xidmətə cəlb edilir, onlara hərbi xidmətin əsasları olan taktiki və texniki hazırlıq öyrədilmirdi. Heydər Əliyevinin bu məsələlərə diqqət çəkməsi və olanlara etiraz etməsi nəticəsində gənclərimizin xidmət keçməsinə münasibət dəyişdi (1, s.597-598).

Heydər Əliyevin təkidi ilə Bakıdan uzaqda yerləşən yalnız rus dilində tədris aparılan hərbi təmayüllü məktəblərdə əsaslı dəyişikliklər edilərək yenidən qurulması təmin edildi. Azərbaycan Maarif Nazirliyi və respublika hərbi komissarlığı Azərbaycan KP MK bürosunun 1971-ci il 29 aprel tarixli qərarını əsas götürərək, hərbi təmayüllü internat məktəbinin açılması üçün 1971-ci il iyunun 16-da müraciət hazırladı. Bu müraciət dərhal müzakirə olundu və 20 iyul 1971-ci ildə "İxtisaslaşdırılmış internat məktəbinin yaradılması haqqında" Azərbaycan KP MK bürosu qərar qəbul etdi. 1971-ci ilin noyabr ayında məktəbin açılışı oldu. Azərbaycan Kommunist Partiyasının birinci katibi Heydər Əliyev bu təntənəli mərasimdə iştirak etdi və bildirdi ki, yeni məktəbə diviziya komandiri general Cəmşid Naxçıvanskinin adı verilir. Bu zamandan başlayaraq Azərbaycanda hərbi sahədə ixtisaslı kadrların hazırlanması prosesi sürətləndi.

Bütün bunlar Azərbaycan xalqının gözü qarşısında baş verdi və əməli fəaliyyətin nəticəsi kimi xalqın Heydər Əliyevə inamının ilk və əsas psixoloji amilləri oldu.

Əməli fəaliyyət Heydər Əliyev şəxsiyyətində əsas xarakter xüsusiyyətlərin inam, əməksevərlik, məsuliyyət, vicdan, xalqa sədaqət, etibarlılıq, dürüstlük, yaradıcılıq, innovativ yanaşma, həll yollu düşünmə, qətiyyət, cəsarət olduğunu sübut etdi. Bütün bunlar xalqın öz liderinə inamı və arxalanmasının əsas sosial-psixoloji səbəbi idi.

Elə bu səbəbdən də 1990-cı illərdə ağır və blokada şəraiti yaşayan naxçıvanlılar öz tarixi yaddaşlarını yeniləyərək Heydər Əliyev dühasına inamlarını göstərdi və yanılmadı. Bu qayıdış o dövrün bəzi qəzetlərində yazıldığı kimi, əyalət mərkəzinə yox, Vətənə QAYIDIŞ idi; böyük siyasətə yenidən və fəal şəkildə, birmənalı, ardıcıl, qətiyyətli QAYIDIŞ idi (2, s.8).

Qayıdışdan sonra Azərbaycanın və Naxçıvan Muxtar Respublikasının xalq deputatı kimi fəaliyyət göstərən Heydər Əliyev Naxçıvan parlamentində təkcə Naxçıvan üçün yox bütövlükdə Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən, siyasi həyatın demokratikləşməsi prosesinə güclü təkan verən qərarların qəbul edilməsinə nail oldu (2, s.9). Qısa zamanda Ümummilli lider xalqının ikinci dəfə xilaskarı oldu. O, Naxçıvanı ağır vəziyyətdən qurtarmaq üçün ciddi əməli addımlar atdı.

Ölkədə ciddi narazılıqlar, sabitliyin olmaması hökm sürdüyü bir vaxtda Naxçıvan Muxtar Respublikası Ali Məclisində taleyüklü məsələlər həll olundu. Naxçıvanın blokadadan çıxması və özünümüdafiə etməsi üçün qərarlar qəbul edildi və siyasi sabitlik bərpa olundu.

Ümummilli liderin rəhbərliyi ilə keçirilən sessiyalarda Azərbaycanın gələcək inkişafını, müstəqilliyinin qorunmasına xidmət edəcək qərarların qəbulu zərurət halında vaxt itirilmədən qəbul edilir və bütün Azərbaycan ictimaiyyətinə

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

çatdırılırdı (2).

Qardaş Türkiyə Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında "Ümid" körpüsü açıldı. Körpü qısa zamanda Naxçıvanın blokada şəraitindən çıxmasına zəmanət verən və gələcək inkişafını təmin edəcək əsas hadisə kimi tarixə düşdü.

İran İslam Respublikası ilə dostluq münasibətləri quruldu. Yaranan siyasi sabitlik və qonşuluq əlaqələrinin güclənməsi Naxçıvan əhalisinin sosial-rifahının yaxşılaşmasına səbəb oldu.

Azərbaycan xalqı yaxşı dərk edirdi ki, xalqımızı düşdüyü bu çətinlikdən yalnız bir dahi şəxsiyyət Heydər Əliyev qurtara bilər. Elə bu səbəbdən də onun rəhbərliyi altında yeni bir siyasi təşkilatın yaradılması ən dolğun və alternativsiz bir misiya kimi qarşıya məqsəd qoyuldu. 16 oktyabr 1992-ci ildə ölkənin tanınmış 91 nəfər ziyalısı Ümummilli liderə müraciət ünvanladı (2, s.502-507). Müraciətdə Azərbaycanda hazırda hökm sürən böhran vəziyyəti, Heydər Əliyevin Naxçıvana rəhbərliyi dövründə muxtar respublikanı düşdüyü həm siyasi, həm iqtisadi, həm də işaldan qurtaracaq uğurlu əməli fəaliyyəti ziyalılar tərəfindən qeyd edilirdi və Azərbaycan xalqının onun dövlətçilik təcrübəsinə ehtiyacı olduğu əsaslandırılırdı. Vurğulanırdı ki, Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir.

Bu çətin dövrdə yaranan yeni siyasi təşkilat -Yeni Azərbaycan Partiyası xalqın itirilmiş ümid və inamının bərpası, ölkəni düşdüyü bu çətinlikdən qurtarmaq kimi ciddi missiyanı üzərinə götürdü. Hər bir xalqın gələcək taleyini onun veridyi qərarlar şərtləndirir. Bu mənada xalq verdiyi düzgün qərarla öz gələcək tarixi taleyinin əsasını qoydu.

Xalqın öz Ümummilli liderinə inanması və ümid bəsləməsi Heydər Əliyevi Azərbaycanın paytaxtına– Bakıya səslədi. Tezliklə dövlət idarəetməsini nəzarətinə alan Ümummilli lider sistemli dövlət quruculuğunu həyata keçirməyə başladı. Bu sistem içərisində başlıca yerlərdən birini xalqın gələcəyə inam hissinin əsasını təmin edən ordu quruculuğunun həyata keçirilməsi tuturdu.

1991-ci il sentyabrın 5-də Müdafiə Nazirliyinin yaradılması barədə qərar və həmin il oktyabrın 9-da Azərbaycan Respublikasının Ali Soveti tərəfindən Silahlı Qüvvələrin yaradılması haqqında Qanunun qəbul edilməsinə baxmayaraq, həmin dövrdə ölkəyə rəhbərlik edənlər bu qərarların həyata keçirilməsi üçün heç bir səy göstərmirdi. Yalnız Ümummilli lider Heydər Əliyev Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi hərbi sahədə dirçəlişə nail ola bildi. O, yerli özünümüdafiə və könüllü batalyonlar kimi fəaliyyət göstərən silahlı birləşmələri ləğv edərək vahid komandanlıq altında nizami ordu yaratdı. Ali Baş Komandanın cəbhə xəttində döyüşçülərimizlə səngərdə görüşləri, onları döyüşə ruhlandırması öz bəhrəsini verdi. Çox keçmədi ki, 1994-cü ilin əvvəllərində Füzuli rayonunun Horadiz qəsəbəsi istiqamətində düşmənə qarşı uğurlu hərbi əməliyyat həyata keçirildi. Bütün bu proseslər xalqda ümid və inam hissini gücləndirən əsas sosial-psixoloji hadisələrdən biri idi. Xalq öz milli ordusuna inanmağa başlamışdı. Bu inam isə xalqı gələcəyə ruhlandırırdı. Bunun nəticəsidir ki, indi Azərbaycanın dünya dövlətləri içərisində seçilən gülcü ordusu var və Ali Baş Komandanın rəhbərliyi altında 44 günlük Vətən müharibəsi bunu sübut etdi.

"Təhsil millətin gələcəyidir", "Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

elmi ilə tanınır", deyən Ümummilli lider xalqın işıqlı gələcəyə olan inamını onun təhsilinin səviyyəsi ilə əlaqələndirirdi. Faktiki dağılmış təhsil sisteminin yenidən qurulması, bu istiqamətdə əsaslı qərarların qəbul edilməsi qarşıda duran ən vacib məsələlərdən birini təşkil edirdi. "Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı, artist – bunlar fitri istedada malik olan nadir adamlardır", fikrini rəhbər tutan Ümummilli lider təhsilə, ziyalılara, alimlərə olan yüksək münasibəti ilə xalqda elmə, incəsənətə, mədəniyyətə olan sevgini yenidən yüksək səviyyəyə qaldırdı. Dövlət qayğısı və nəzarəti əsasında təhsil sahəsindəki irəliləyişlər, elm sahəsində əldə olunan uğurlar xalqda gələcəyə inam hissinin güclənməsinə, yeni-yeni nailiyyətlərin əldə olunması uğrunda mübarizləşməsinə zəmin yaratdı. Bu gün ölkəmizdə Ümummilli liderin təhsil siyasəti cənab prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Yeni-yeni təhsil ocaqları açılır, təhsil işçilərinin sosial rifahının yaxşılaşdırılması istiqamətində sərəncamlar verilir, dövlət proqramları icra olunur.

Ümummilli lider bütün çıxışlarında milli oyanışın, milli mənafeyin, vətənpərvərliyin ən vacib məsələ olduğunu vurğulayaraq qeyd edirdi ki, "Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır", "Gərək nəbzin Vətənin nəbzi ilə vursun". Hər bir xalq yalnız o zaman güclü ola bilər ki, harada yaşamasından asılı olmayaraq, öz xalqını və dövlətinin mənafeyini üstün tutsun, azərbaycançılıq məfkurəsi ətrafında birləşsin. Ulu öndər Heydər Əliyev hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olduğu zaman, 1991-ci ilin dekabrın 16-da dünya azərbaycanlılarının birliyini təmin etmək üçün dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etmişdi. Bu barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisində 6 bənddən ibarət qərar qəbul edilmişdi (2).

İndi dünyanın harasında yaşamasından asılı olmayaraq bütün azərbaycanlılar bu günü böyük təntənə ilə qeyd edərək, Ümummilli liderin tövsiyə etdiyi kimi, azərbaycançılıq ideologiyası ətrafında birləşirlər. Bu birlik xalqda inam hissini gücləndirdi, Ali Baş Komandan İlham Əliyevin siyasi liderliyi ətrafında böyük qüvvənin yaranması torpaqlarımızın azadlığını, ümidlərin gələcəyə yönəlməsini təmin etdi.

Ümummilli lider xalqın hüquq və azdlığının bərpasının vacibliyi istiqamətində əsaslı fərman və sərəncamlar imzalayaraq deyirdi: "Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar". Hər bir dövlətin gələcəyi xalq-dövlət birliyinin gücündən, xalqın öz dövlətinə inamından asılıdır. Ulu öndərimizin dediyi kimi, "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır".

Ümummilli lider Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində həyata keçirdiyi planlar artıq Azərbaycanın gerçəkliyinə çevrilmişdir. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Başqa sözlə, hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi var.

İndi inamlı prinsiplər əsasında Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə bu siyasi kurs uğurla davam etdirilir. Azərbaycan xalqı öz prezidentinə inanır və hər zaman onun ətrafında sıx birlik nümayiş etdirərək onun yürütdüyü siyasəti dəstəkləyir.

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

**ƏDƏBİYYAT**

1. Axundova E. Şəxsiyyət və zaman. 1969-1982. Bakı: Ozan, 2007, 784 s.
2. "Qayıdış 1990-1993" ikinci nəşr. Bakı: "Azərbaycan" nəşriyyatı, 2008, 840 s.

# SƏNƏTŞÜNASLIQ

**GÜLXARƏ ƏHMƏDOVA**
***gulxareehmedova1966@gmail.com***
***Naxçıvan Dövlət Universiteti***

## HEYDƏR ƏLİYEV VƏ MƏDƏNİYYƏT SİYASƏTİ

Bu gün Azərbaycandakı bütün mədəniyyət sahələrinin inkişaf tarixinə nəzər saldıqda onun ümummmilli liderin adı ilə bağlı olduğunu görürük. Ulu öndərin yaşadığı dövrdə ədəbiyyata yüksək qayğı və etiram mövcud idi, mədəniyyəti, ədəbiyyatı inkişaf etdirən insanların əməyini yüksək qiymətləndirir, onların daim qayğısını çəkirdi. O deyirdi: "Azərbaycanda yazıçı daim böyük hörmətə layiq olmuşdur. Bu, bizim tarixi ənənəmizdir, əcdadlarımızdan bizə gəlib çatmış gözəl bir xüsusiyyətdir" - deyən Heydər Əliyev ümumən intellektə, ağıl və zəkaya böyük qiymət verirdi. Çünki o özü XX əsr Azərbaycan tarixinin yetişdirdiyi böyük zəka, intellekt sahibi idi.

Hələ sovetlər dönəmində Heydər Əliyev Azərbaycanda mədəniyyətin maddi-texniki bazasının möhkəmlənməsinə xüsusi diqqət yetirirdi, bu amal ölkəmiz müstəqillik əldə etdikdən sonra daha nəhən layihələr, sərəncam, qərar və müqavilələr, əlaqələrlə möhkəmləndirilidi.

Onun ciddi səyi ilə kinoteatr binaları, muzeylər inşa olundu. Ədəbiyyat-mədəniyyət adamlarının, şair və yazıçıların adına muzeylər, ev muzeyləri yaradıldı. Mədəniyyətimizin kadr potensialını inkişaf etdirib gücləndirmək üçün SSRİ-nin ən nüfuzlu incəsənət yönlü ali məktəblərində Azərbaycan gənclərinin təhsil almasına şərait yaradıldı. Sankt-Peterburqun, Moskvanın teatr, rəssamlıq, musiqi üzrə

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

ali təhsil ocaqlarını bitirmiş gənclər dövlət hesabına maliyyələşdirildi. Ulu öndər yaxşı bilirdi ki, milli dövlətçilik dəyərlərinin əsasını mədəniyyət təşkil edir.

Mənbələrdən oxuyuruq: "2003 cü ildə isə respublikamızın mədəniyyət müəssisələrinin sayı xeyli dərəcədə artmışdır. Həmin dövrdəki məlumatlara görə, ölkəmizdə 27 peşəkar teatr, 13 konsert müəssisəsi, 4124 kitabxana, 3066 klub müəssisəsi, 210 mədəniyyət və istirahət parkı, 159 muzey, 30-dan çox dövlət rəsm qalereyası və bədii sərgi salonu, 232 uşaq musiqi və incəsənət məktəbi fəaliyyət göstərirdi. Ümummilli liderimiz Azərbaycan xalqının milli mədəniyyətinə, onun tarixi qaynaqlarına həmişə böyük diqqətlə yanaşmış, millətin qan yaddaşına hopmuş tarixi şəxsiyyətlərimizin zaman-zaman yaşaması üçün öz qayğısını əsirgəməmişdir" (2, s. 5).

Bülbülün, Qara Qarayevin, Niyazinin, Fikrət Əmirovun, Səməd Vurğunun, Mirzə İbrahimovun ayrı-ayrı yubiley tarixlərinin təkcə Bakıda deyil, digər yerlərdə də keçirildi. Üzeyir Hacıbəylinin, Cəfər Cabbarlının ev-muzeylərinin, Nəriman Nərimanovun, Bülbülün xatirə muzeylərinin, Natəvanın abidəsinin, Şuşada Molla Pənah Vaqifin məqbərəsinin inşası kimi bu işlərin uğurla başa çatdırılmasına bilavasitə rəhbərlik etmişdi. Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Süleyman Rüstəm, Süleyman Rəhimov, Rəsul Rza kimi ədəbiyyat və mədəniyyət xadimlərinin SSRİ-nin ən yüksək fəxri adına - Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmələri məhz Ulu öndərin təqdimatı ilə reallaşmışdı. İmadəddin Nəsiminin, Nəriman Nərimanovun, Cəfər Cabbarlının heykəllərinin ucaldılması, digər monumental sənət əsərlərinin yaradılması, "Gülüstan" sarayı, Opera studiyası, Xoreoqrafiya məktəbi kimi memarlıq abidələri mədəniyyətimizə diqqət və qayğının mühüm təzahürləri idi.

Qeyd edək ki, Ulu öndərin rəhbərliyi ilə mədəniyyət sahəsinin inkişafına xidmət göstərən 10-dan çox qanun qəbul edilmişdir. "Mədəniyyət haqqında" (1996-cı il), "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" (1998-ci il), "Kinematoqrafiya haqqında" (1998-ci il), "Memarlıq fəaliyyəti haqqında" (1998-ci il), "Kitabxana işi haqqında (1998-ci il), "Milli Arxiv Fondu haqqında" (1999-cu il), "Muzeylər haqqında" (2000-ci il), "Nəşriyyat işi haqqında" (2000-ci il) və s. qanunlar bu sahənin kompleks inkişafında böyük rol oynadı.

Bu getdikcə mədəniyyət sektorunda yeni əhvali-ruhiyyə yaratdı. Azərbaycan mədəni həyatında hərəkətlənmə başladı. Həvəslə bu sektorda çalışanlar yeni-yeni ideyaları ortaya qoydular. Azərbaycanın mədəni sektoru xaricə inteqrasiya olundu, ölkəmizlə yanaşı, beynəlxalq aləmdə Mədəni irsimizin, görkəmli ədiblərin, mədəniyyət xadimlərinin yubileylərinin xarici ölkələrdə nüfuzlu təşkilatlarda qeyd olunması bu sahəyə göstərilən diqqət və qayğıdan xəbər verirdi.

Fəlsəfə elmləri doktoru, professor Nigar Ələkbərova Heydər Əliyevin mədəniyyətə qayğısını təhlil edərək onun əhəmiyyətini qeyd edir: "Azərbaycan xalqı bəşər tarixinə qüdrətli şəxsiyyətlər bəxş edib. Belə nadir tarixi simalar sırasında böyük əzəməti, tükənməz qətiyyəti, dərin fəlsəfi-analitik təfəkkürü, ensiklopedik nəzəri və praktiki biliyi, fitri istedadı, dahi müdrikliyi və əyilməz, polad siyasi iradəsi ilə seçilən, müstəqil Azərbaycanın qurucusu olan Heydər Əliyevin xüsusi yeri var. İllər keçdikcə Azərbaycan xalqının bu ölməz oğlu, ümumbəşər tarixinin dahi şəxsiyyəti, onun siyasi və mənəvi örnəyə çevrilmiş ləyaqətli həyat yolu, tarixi əhəmiyyət kəsb edən böyük

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

xidmətləri, zamanın sınağından çıxmış strateji xətti daha aydın görünərək insanları, bütün bəşəriyyəti daim heyrətdə qoymaqda davam edir".

UNESKO ilə əməkdaşlıq bu baxımdan xüsusi önəm kəsb edir. Ümummilli liderin rəhbərliyi ilə 1990-cı illərin ortalarından təşəkkül tapan Azərbaycan-UNESKO əlaqələri ötən müddətdə mühüm inkişaf yolu keçərək mədəni irsimizin dünyada tanıdılması və təbliğinə də geniş zəmin yaratmışdır.

Mədəniyyət, ədəbiyyat, sənət o zaman gücünü qoruyur ki, ona dayaq olan, hamilik edən şəxsiyyətlər olsun.

Heydər Əliyev teatra da xüsusi qayğı və diqqət göstərirdi. Teatrı hər zaman xalqın inkişafında əsas meyar kimi görürdü, o, yeni tamaşalara baxır, hər zaman tamaşa sonunda səhnə arxasında sənətçilərlə görüşürdü.

Ulu öndər deyirdi: "Mən həmişə teatra bağlı və yaxın olmuşam. Bu ötəri hiss deyil, içimdən gələn bir məhəbbətdir. Teatrı çox sevirəm. Teatra məhəbbət mənim içimdədir. İncəsənətin, o cümlədən kino və teatrın təsiri və tərbiyə qüvvəsi çox böyükdür. Bu qüvvədən bacarıqla istifadə etmək həmişə vacibdir. Teatr və incəsənət sahəsində çalışanlar çox fədakar insanlardır. Səhnədə onlara baxdıqda çox vaxt hər biri qayğısız, xoşbəxt insan kimi görünür, həmişə şəndirlər. Ancaq onların həyatının səhnə arxasında necə olmasını çoxları bilmir, heç təsəvvürlərinə də gətirmir. Mən bunları bilirəm. Ona görə də incəsənət adamlarını cəmiyyətdə çox yüksək tuturam" (4, s.11).

Mənbələrdən oxuyuruq ki, Heydər Əliyev İlyas Əfəndiyevin "Hökmdar və qızı" tamaşasında o vaxt respublikamızda qonaq olan görkəmli alim İhsan Doğramacı ilə birgə iştirak edir.

Tamaşadan sonra Heydər Əliyev qonaqla birgə səhnə arxasına gəlib yaradıcı heyəti təbrik etdi. Həmin görüşdə Heydər Əliyev İlyas Əfəndiyev haqqında belə dedi: "İlyas Əfəndiyev Azərbaycan teatrına çox böyük töhfələr veribdir, böyük xidmətlər göstəribdir. Çox dəyərli əsərlər yaradıbdır. İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı, bir də ona görə əhəmiyyətlidir ki, o, öz əsərlərində həm Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəsilə bugünki nəsillərə çatdırıbdır, həm də öz əsərlərində müasir həyatımızın müsbət və mənfi cəhətlərini çox gözəl təsvir edibdir" (1).

"Mədəniyyət siyasəti xalqın intellektual potensialının, mənəvi sağlamlığı və rifahını yüksəltməyə xidmət edən siyasətdir. O, həm də millətin mənəvi, sosial-iqtisadi inkişafının möhkəmlənməsini təmin edir. Mədəniyyət siyasətinin vəzifəsi maddi və mənəvi sərvətlərin istehsalı, qorunması və inkişaf etdirilməsi, eyni zamanda gələcək nəsillərə ötürülməsi üçün şəraitin yaradılmasıdır. Cəmiyyətdə insanların qeyri-bərabər mədəni inkişafını və mədəni deletantlığı aradan qaldırmaq üçün inkişaf etmiş ölkələrdə mədəniyyət siyasəti koordinasiya və tənzimlənmə yolu ilə elmi surətdə təşkil edilir və idarəetmə əsasında həyata keçirilir. Belə olan halda cəmiyyətin müxtəlif sosial qruplarının və xalqın marağını əks etdirən balanslı mədəni inkişafa nail olmaq olar".

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 29 sentyabr 2022-ci il tarixdə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi haqqında Sərəncam imzalayıb.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

"1970-2000-ci illərdə Azərbaycan bədii mədəniyyətinin bütün sahələrinin inkişafı, bu prosesdə Heydər Əliyevin bilavasitə iştirakı Azərbaycan sənətşünaslıq elminin inkişafı üçün də əlverişli şərait yaratmışdır. Məhz bu dövrdə şəhərsalma, memarlıq, təsviri və dekorativ-tətbiqi sənətlər, musiqi, teatr və kino sənətlərini əhatə edən qiymətli sənətşünaslıq əsərləri nəşr edilmişdi. 1973-cü ildə sənətşünaslığımızın tarixində ilk dəfə olaraq "Azərbaycan incəsənəti tarixi" adlı üçcildlik fundamental əsər üzərində iş başlamış, 1980-ci illərin ortalarında Azərbaycan incəsənətinin bütün inkişaf mərhələlərini əhatə edən ilk tarixi əsər yaradılmışdır"(5).

Bu gün Azərbaycanda fəaliyyət göstərən ziyalılar, mədəniyyət sektorunda çalışanların hər biri Azərbaycanın mədəni həyatında Ulu öndərin danılmaz rolunu bilir və bunu hər daim işıqlandırır.

## ƏDƏBİYYAT

1. Əlizadə M. Heydər Əliyev və Azərbaycan teatrı. 525-ci qəzet - Heydər Əliyev və Azərbaycan teatrı.
2. Əliyev Y, Şabanov R. Heydər Əliyev fenomeni milli mədəniyyətimizi daim zənginləşdirir. Mədəniyyət, 2010, 7 may, s. 5.
3. Əfəndiyev T. Heydər Əliyev fenomeni və milli mədəniyyətimiz. 525-ci qəzet - Heydər Əliyev fenomeni və milli mədəniyyətimiz: 525-ci qəzet - Heydər Əliyev fenomeni və milli mədəniyyətimiz
4. Sarıyeva İ. Azərbaycan mədəniyyətinin hamisi - Heydər Əliyev. Bakı xəbər, 2014, 12-14 dekabr, s.11.
5. Heydər Əliyevin dövlətçilik idealları və müasir dövr. https://science.gov.az/az/news/open/23500
6. Mədəniyyət siyasəti və mənəvi dəyərlər: Medeniyyet_siyaseti_ve_menevi_deyerler.pdf

**AYPARA BEHBUDOVA**
*aypara behbudova555@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

# AZƏRBAYCANDA KİTABXANA İŞİNİN İNKİŞAFINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU

Müasir Azərbaycan tarixinin 30 ildən artıq bir dövrünü əhatə edən mərhələ böyük şəxsiyyət, vətəni, xalqı qarşısında misilsiz xidmətlər göstərən Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Keşməkeşlərlə dolu olan bu dövr artıq Azərbaycan tarixinə Heydər Əliyev dövrü kimi əbədi olaraq həkk olunmuşdur. Bu illərdə Heydər Əliyevin müdrikliyi, zəngin dövlətçilik təcrübəsi ilə Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr yazılmışdır. "Azərbaycanda dövlətçilik ənənələrinin XX əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, dövlət müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyevin misilsiz fəaliyyəti sayəsində mümkün olmuşdur (2, s.321).

Onun birbaşa müəllifi olduğu ideyalar sırasında milli mədəniyyətimizin ayrılmaz tərkib hissəsi olan kitab və kitabxanaların inkişafı müstəsna əhəmiyyətə malikdir. Mənəviyyat, bilik, zəka mənbəyi olan kitabxanalara xüsusi qayğı göstərən Ulu öndərin fikrincə, "Kitab nəşri hər ölkənin, hər bir xalqın mədəniyyətində, ümumiyyətlə, mənəvi, ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil almış, elmlərə yiyələnmiş, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb-

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

yaratmaq, onları qoruyub saxlamaq, həm də nəşr etmək əsas vəzifələrimizdən biridir. Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik. Mən respublikanın prezidenti kimi bunu əsas vəzifələrimizdən biri sayıram" ( 3, s. 215).

Məlum olduğu kimi, elmin, mədəniyyətin, təhsilin inkişafında Heydər Əliyev mərhələsi ötən əsrin 70-ci illərindən başlayaraq bu günə qədər davam etmişdir. XX əsrin 70-ci illərində geniş mədəniyyət müəssisələrinin yaranıb formalaşması, çoxlu sayda elm, təhsil mərkəzlərinin tikilməsi ənənəsi də Ümmumilli lider Heydər Əliyevə məxsusdur.

Məhz müasir kitabxana quruculuğunun əsası da Ulu öndər ilk dəfə Azərbaycana rəhbər təyin olunduqdan sonra qoyulmuşdur. Keçən əsrin 70-ci illərində respublika kitabxana şəbəkələrinin sürətli inkişafı, yeni kitabxana binalarının tikilməsi, ixtisaslı kitabxanaçı kadrların hazırlanması sahəsində səmərəli tədbirlərin həyata keçirilməsi, kitabxanaların yeni avadanlıqlarla təmin edilməsi istiqamətində bir sıra vacib işlərin görülməsi buna əyani sübutdur.

Hazırda Azərbaycanda fəaliyyət göstərən AMEA-nın Həmkarlar İttifaqları təşkilatlarının, Mədəniyyət və Turizm Nazirliyinin kitabxana şəbəkələri həmin dövrdə yaradılmış mədəniyyət mərkəzlərindəndir. Həmçinin bu gün Azərbaycan xalqına kitab xidmətində böyük rol oynayan şəhər və rayonlarda yaradılmış MKS-lər də məhz o illərdə təşkil olunmuşdur. "Ulu öndər Heydər Əliyevin 1974-cü ildə imzaladığı "Zəhmətkeşlərin tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunu artırmaq haqqında" qərara əsasən yaradılan mərkəzləşdirilmiş kitabxana sistemləri həmin dövr üçün çox əhəmiyyətli idi və bu gün də onlar əhalinin maariflənməsində əhəmiyyətli rol oynayır" ( 6, s.178).

Xalqımız müstəqillik əldə edənə qədər Azərbaycanda kitabxanalar 1984-cü ildə SSRİ Ali Soveti Rəyasət Heyəti tərəfindən qəbul edilmiş "SSRİ-də kitabxana işi" haqqında Əsasnaməyə uyğun olaraq, fəaliyyət göstərirdi. Əsasən, totalitar rejimin ideyalarını təbliğ edən bu əsasnamədə kitabxanalar kütləvi, ideoloji və elmi informasiya müəsissələri kimi dəyərləndirilir, marksizm-leninizm klassiklərinin, sovet dövlətinin siyasətini, elmini, tarixini, həyat tərzinin üstünlüklərini təbliğ edirdi.

Bildiyimiz kimi, 1990-cı illərdən başlayaraq Azərbaycanda yaranan çox mürəkkəb tarixi şərait, özbaşınalıq bütün sahələrdə olduğu kimi, kitabxana sahəsinə də öz təsirini göstərmişdir. Demək olar ki, bu dövrdə kitabxanalar tamamilə məhv edilmək təhlükəsi ilə üzləşmişdir. Məhz belə bir vəziyyətdə xalqın xilaskarı kimi tarixdə əbədi iz qoyan Ulu öndərin yenidən hakimiyyətə gəlməsi bütövlükdə elmimimizi, iqtisadiyatımızı xilas etdiyi kimi, kitabxana şəbəkələrinin də məhvinin qarşısını almışdır.

"1995-1998-ci illər dövlət mülkiyyətinin özəlləşdirilməsində dövlət proqramının təsdiq edilməsi haqqında" (1995) Ulu öndər çox əhəmiyyətli bir fərman imzaladı. Bu fərmanın imzalanması kitabxanaların qorunub saxlanmasına şərait yaratdı. Fərmanda kitabxanalarda saxlanılan milli-mənəvi sərvətlərin, kitabxana binalarının və onlara ayrılan sahələrin özəlləşdirilməsi qadağan edildi. Beləliklə, kitabxanalar Azərbaycan dövlətinin əsas atributlarından biri kimi dövlət müəssisəsi statusuna malik oldu.

1996-ci ildə Ulu öndər kitabxana sahəsində mühüm əhəmiyyətə malik olan daha bir uğurlu addım ataraq

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

Azərbaycanda kitabxana işinin inkişafını hərtərəfli şəkildə təhlil etməyi Nazirlər Kabinetinə tapşırdı. Bu tapşırığa əsasən Nazirlər Kabineti 1996-cı ildə kitabxana işçilərinin respublika müşavirəsini keçirdi və bu müşavirədə kitabxanaların yeni inkişaf strategiyası və vəzifələri müəyyənləşdirildi.

Milli-mənəvi sərvətimizin qoruyucusu olan Heydər Əliyev hakimiyyətdə olduğu müddətdə bir neçə dövlət əhəmiyyətli qanun, fərman və sərəncamlar imzaladı. Bunlardan "Azərbaycan Respublikasında kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" 1996-cı il 27 iyul tarixli qərarı, Milli Məclis "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununu qəbul etmiş, həmin qanunun icrası ilə bağlı Azərbaycan Respublikası prezidenti Heydər Əliyev 12 mart 2000-ci il tarixli fərman imzalamışdır. Bu qanun dövlət kitabxana şəbəkələrinin formalaşdırılması, kitabxana sahəsinə dair normativ hüquqi bazanın yaradılmasında, kitabxanaçı kadrların sosial müdafiəsinin yaxşılaşdırılmasında mühüm rol oynamışdır.

6 fəsil və 34 maddədən ibarət olan "Kitabxana işi haqqında" Qanunun bütöv bir fəslinin Milli Kitabxanaya həsr olunması xüsusi ilə diqqətəlayiqdir. "Burada Milli Kitabxananın fəaliyyətinin bütün sahələri tam şəkildə əhatə olunmuş, onun inkişafının prioritetləri müəyyənləşdirilmişdir. Məhz bu qanunun müddəalarına müvafiq olaraq 2000-ci ilin mayında Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Milli Kitabxanasının Əsasnaməsinin təsdiq olunması barədə" qərar qəbul etmişdir. Nəhayət, 2005-ci ildə bu qanunvericiliyin tələbləri əsasında M.F.Axundov adına Dövlət Kitabxanasına "Milli Kitabxana" statusu verilmişdir"(7, s. 213).

Hazırda Azərbaycanda ən müasir tipli zəngin kitabxanalardan biri olan M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının yeni inkişaf konsepsiyasının əsası da 90-ci illərin ortalarında Ulu öndər tərəfindən qoyulmuşdur. Ümummilli lider Heydər Əliyev tərəfindən imzalanan bu qanun və sərəncamların hamısı demək olar ki, Azərbaycanda kitabxana işinin təkmilləşdirilməsinə, nəşriyyatların, kitab nəşrinin və yeni tipli kitabxanaların yaradılmasına ciddi təkan vermişdir. "Kitabxana işi haqqında" qanunda kitab və kitabxanaların xalqın milli sərvəti olduğu, onların qorunaraq gələcək nəsillərə zədəsiz və itkisiz halda çatdırılması, kitabxanaların elektronlaşdırılması, qiymətli nəşrlərin elektron daşıyıcılarına köçürülməsi ön plana çəkilmişdir" (5).

Verilən bu qanunda ən qədim dövrlərdən bu günə qədər uzun bir inkişaf yolu keçmiş, xalqa səmərəli xidmət göstərmiş kitabxanaların inkişafına ciddi bir nəzər salınmış, tipindən və növündən asılı olmayaraq, kitabxanaların tutduğu mühüm yer müəyyənləşdirilmiş, Azərbaycan kitabxanalarının dünya standartlarına çatdırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə müvafiq təşkilatlara konkret tapşırıqlar verilmiş və bu sahədə tədbirlər planı hazırlanmışdır. Bunlardan "Dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi qaydalarının təsdiq edilməsi haqqında" (6 mart 2000-ci il), "Azərbaycan Milli Kitabxanasının və Azərbaycan Respublikası Elmi-Sahəvi Kitabxanasının nümunəvi əsasnamələrinin təsdiq olunması barədə" (6 mart 2000-ci il), "Ümumtəhsil məktəb kitabxanası haqqında Əsasnamə" (8 fevral 2000-ci il) və başqa sənədlər böyük əhəmiyyətə malikdir.

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

Danılmaz bir həqiqətdir ki, Azərbaycan kitabxanalarının dünya kitabxanaları səviyyəsində inkişaf etdirilməsində kadr potensialı əsas rol oynayır. Məhz bu səbəbdən də 1993-2003-cü illərdə respublikamızda ali və orta ixtisas təhsilli kitabxanaçı kadrların hazırlanmasına xüsusi diqqət yetrilmişdir. Bu illərdə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsində, Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsində ali ixtisas təhsilli, Bakı Mədəni-Maarif Texnikomunun kitabxanaçılıq bölməsində orta ixtisas təhsilli kitabxanaçı kadrların hazırlanması müvəffəqiyyətlə həyata keçirilmişdir. Eyni zamanda, çoxpilləli təhsil sisteminə keçməklə, bakalavrlarla yanaşı, magistr tələbələrinin hazırlanması kadr potensialını gücləndirməklə kitabxanaları yüksək peşəkar və ixtisaslı kadrlarla təmin etmək imkanı yaratmışdır.

Ulu öndərin böyük diqqət və qayğısı sayəsində 1998-2000-ci illər əsasən kitabxanalar üçün ənənəvi texnologiyalardan yeni kompüter texnologiyalarına keçid dövrü olmuşdur. Bu illərdə kitabxanaların beynəlxalq əlaqələri genişlənərək xarici ölkələrin elm adamları, elmi-tədqiqat institutları, kitabxana-informasiya sahəsində fəaliyyət göstərən cəmiyyət və assosiasiyalarla əlaqələr qurulmuşdur. Heydər Əliyevin birbaşa tapşırığı sayəsində Azərbaycanın şəhər, rayon və kəndlərində yeni kitabxanalar tikilib istifadəyə verilmiş və fondları yeni ədəbiyyatlarla zənginləşdirilmişdir. Bütün bunlar göstərir ki, heç bir ölkədə xalqın milli sərvəti olan kitaba, kitabxanaya bizdə olduğu qədər diqqət göstərilməmişdir. Fikrimi dəqiqləşdirmək üçün o illərin kitabxanalar haqqındakı statistik məlumatını diqqətə çatdırmağı vacib hesab edirəm.

"1990-cı illərin əvvəllərində 685 ümumtəhsil məktəblərində (əsasən kənd məktəblərində) kitabxana olmamış, bu illərdə 80 milyon nüsxə kitab fonduna malik olan 7900 kitabxana olduğu halda, hazırda ölkəmizdə geniş kitabxana-informasiya şəbəkələrinə malik 12 mindən artıq müxtəlif tipli kitabxana fəaliyyət göstərir və bu gün elə rayon, kənd yoxdur ki, orada müasirtipli kitabxana olmasın" (1, s. 167) Həqiqətən də, Ulu öndərin xalqın istəyi ilə ikinci dəfə hakimiyyətə gəlişindən sonra Azərbaycanın milli-mənəvi sərvəti olan kitabxanaların qorunub inkişaf etdirilməsi üçün yeni bir mərhələ başlamışdır.

Müstəqillik dövrü ölkəmizdə ali təhsilin inkişafı, təkmilləşməsi və yeni standartlara uyğun qurulması üçün hər cür şərait yaranmışdır. Bu dövrdə 30 ali məktəb kitabxanası yaranmışdır ki, bunlardan 5-i dövlət, 25-i isə özəl ali məktəb kitabxanası idi. Əlbəttə ki, Sovet dövrü ilə müqayisə etdikdə bu illərdə ali məktəb kitabxanalarının sayının təxminən 3 dəfəyə qədər artması müstəqilliyimizin nailiyyətidir.

Ədəbi-bədii irsimizə xüsusi diqqət göstərən Ulu öndər Azərbaycan respublikasının kitabxanalarında olmuş, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni informasiya texnologiyaları ilə təhciz olunması, elektron kataloq və elektron kitabxanaların yaranması haqqında dəyərli tövsiyyələr vermişdir. Heydər Əliyevin dəfələrlə AMEA Mərkəzi Kitabxanasına, M.F.Axundov adına Respublika Dövlət Kitabxanasına, Bakı Dövlət Universiteti Kitabxanasına, F.Köçərli adına Respublika Uşaq Kitabxanasına gəlişi və kitabxana işçiləri ilə görüşü ölkə başçısının milli mədəniyyətimizə qayğısının bariz nümunəsidir. Elm, təhsil, mədəniyyət mərkəzi olan kitabxanalara xüsusi qayğı göstərən Ümummilli lider 1999-cu ildə Naxçıvan

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

Dövlət Universiteti Elmi Kitabxanasında da olmuş və kitabxanaya qiymətli kitablar hədiyyə etmişdir. Akademik İsa Həbibbəylinin də qeyd etdiyi kimi, "Ulu öndər "Azərbaycanın ən dəyərli, qabaqcıl ali məktəbi" adlandırdığı Naxçıvan Dövlət Universitetini də unutmamış, həmişə bu ali təhsil müəssisəsinin üzləşdiyi problemlərin həllini diqqətdə saxlamışdır. Dövlət başçısının ayrı-ayrı illərdə dörd dəfə (1974, 1992 (2 dəfə), 1999) universitetə gəlişi bu böyük təhsil müəssisəsinə sanki yeni həyat vermiş, çətinliklərə baxmayaraq onu yeni dövrün tələbləri səviyyəsində kadr hazırlığına sövq etmişdir. Naxçıvan Dövlət Universiteti daim dünyaşöhrətli liderin qayğısını hiss etmiş, onun qarşıya qoyduğu ali ideyalar universitetin tələbə və müəllim heyətinin əsas fəaliyyət stimulvericisinə çevrilmişdir. Ümummilli lider iki dəfə Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında olmuş, dəyərli tövsiyələr vermişdir"(4, s.57).

Görülən bütün bu işlər xalqını ürəkdən sevən, onun elminə, mədəniyyətinə, milli sərvətinə diqqət və qayğını bir növ həyat amalına çevirən böyük şəxsiyyətin nəcib əməllərinin bəhrəsidir. Çox sevindirici haldır ki, dahi şəxsiyyət Heydər Əliyevin həyata keçirdiyi siyasət bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən çox uğurla davam etdirilir. Siyasi kursun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də müxtəlif illərdə milli-mənəvi sərvətimiz olan kitabxanalar və onların zənginləşdirilməsi haqqında çox dəyərli qərar və sərəncamlar vermişdir.

Bütün bunlar, bir daha əmin olmağa əsas verir ki, xalqın bilik xəzinəsi olan kitabxanalarımız Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş zəngin mütərəqqi ənənələrə, beynəlxalq kitabxana təcrübəsinə əsaslanaraq bundan sonra da inkişaf edəcək.

## ƏDƏBİYYAT

1. Azərbaycan mədəniyyəti və incəsənəti. I kitab, Bakı: Azərnəşr, 2005
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. XV cild, Bakı: Azərnəşr, 2006
3. Heydər Əliyev. Müstəqillik yollarında. Bakı: Azərbaycan, 1997
4. Həbibbəyli İ. Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti. NDU, Qeyrət, 2000
5. Xələfov A. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin formalaşmasında Heydər Əliyev irsinin rolu. "Azərbaycan" qəzeti, 2001 10 oktyabr
6. Xələfov A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. Bakı: Azərbaycan, 2006
7. İsmayılov X. Kitabxana menecmentinin əsasları. Bakı: Elm və təhsil, 2007

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

**SEVİNC BABAYEVA**
*sevincb1992@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN VƏTƏNİNƏ, İNCƏSƏNƏT VƏ MƏDƏNİYYƏTİNƏ OLAN SEVGİSİNİN SONSUZLUĞU

Mədəniyyət cəmiyyətlərin formalaşdığı bir gündən müasir zamanadək yaradılan yazılı və şifahi ədəbiyyat nümunələri, siyasi, bədii nəzəriyyələr, texniki kəşflər, dini, əxlaqi, etik formalar, incəsənət əsərləri, maddi-mənəvi və çox sayda başqa dəyərlər toplusudur. Dar mənada mədəniyyət mənəvi dəyərlərin yarandığı, paylandığı və istehlak edildiyi aktiv yaradıcı fəaliyyət prosesidir. Geniş mənada isə insanların fəal yaradıcılıq fəaliyyətinin ictimai həyatın bütün sahələrində daim yenilənən forma, prinsip, metod və nəticələrinin tarixən şərtləndirilmiş dinamik kompleksidir. Yüksək mədəni keyfiyyətlər fərdin mənəvi zənginliyi, inkişafı ilə müşayiət olunan, onun cəmiyyətdə yerini, rolunu müəyyən edən ən böyük dəyərdir. Mədəniyyət bəşəriyyətin təşəkkülü, formalaşması prosesində böyük rol oynayaraq müasir cəmiyyətlərin mahiyyətinin başa düşülməsində ən mühüm vasitədir. Buna görə də mədəniyyəti inkişaf etdirmək, ona milli mentalitet kontekstindən yanaşmaq, fərdlərin mənəvi, etik-estetik baxışları və dəyərləri əsasında zəngin irs formalaşdırmaq yalnız bu yüksək dəyərləri həqiqi mənası ilə dərk edərək, onları həyat amalına çevirən toplumlara xas fəaliyyət formasıdır.

Azərbaycan əsrlərin sınaqlarından keçən yüksək əxlaqi, maddi-mənəvi dəyərləri, dahi filosofları, şairləri, müxtəlif sahələrdə elmi fəaliyyət göstərən alimləri, dünya incəsənətinə böyük töhfələr bəxş edən nəzəriyyəçiləri, incəsənət əsərləri və abidələri ilə bəşər sivilizasiyasının ən parlaq mədəni nailiyyətlərinə sahib bir xalqın yurd yeridir. Əlverişli coğrafi şərait, Qərb ilə Şərq mədəniyyətinin qovuşduğu zəngin ictimai-siyasi, tarixi mühit xalq tərəfindən əzəmətli mədəni nailiyyətlərin qazanılmasına imkan yaratmış və Azərbaycan incəsənəti dünya mədəniyyətinin əsas tərkib hissəsi kimi ən proqressiv dəyərlər toplusu olaraq formalaşmışdır. Təsadüfi deyil ki, özünün çiçəklənməsi ilə Azərbaycan mədəni mühiti X əsrdən etibarən bəşəriyyətə Əbül-Üla Gəncəvi, Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Əfzələddin Xəqani, Fələki Şirvani, Mücir Beyləqani, Qivami Mütərrizi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli və başqa şairlər, memar Əcəmi Naxçıvani, Əbulhəsən Bəhmənyar, Əbühəvs Sühvərədi, Siracəddin Urməvi kimi bir çox filosoflar, Səfiəddin Urməvi, Əbdülqadir Marağai, M.M.Nəvvab kimi musiqişünas alimlər, M.F.Axundzadə, Abbasqulu Ağa Bakıxanov, Nəcəf bəy Vəzirov, Əbdülrəhimbəy Haqverdiyev və daha yüzlərlə dahi şəxsiyyət bəxş edib. XX əsrin ilk onilliklərindən etibarən zəngin ictimai-siyasi, mədəni mühit özündə yeni eranın nailiyyətlərini birləşdirərək Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Asəf Zeynallı kimi dahi bəstəkarların, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Yusif Vəzir Çəmənzəminli kimi qələm sahiblərinin, Əzim Əzimzadə kimi rəssamların, Hüseynqulu Sarabski, Hüseyn Ərəblinski, Abbas Mirzə Şərifzadə, Qurban Pirimov, Cabbar Qaryağdıoğlu, Xan Şuşinski və onlara başqa dahi sənətkarların yaradıcılıq məkanına çevrilib. Bütün bu şəxsiyyətlərin yaratdığı incəsənət əsərləri isə ümumilikdə milli mədəni irsin ən zəngin

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

nümunələridir.

XX əsrin başlarından etibarən maarifpərvər Azərbaycan ziyalılarının böyük zəhmətinin nəticəsi idi ki, həmin əsrdə Azərbaycan dünya mədəniyyətinə Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Cahangir Cahangirov, Arif Məlikov, Aqşin Əlizadə və başqa görkəmli bəstəkarlar, Səməd Vurğun, Mirzə İbrahimov, İlyas Əfəndiyev, Mehdi Hüseyn, Bəxtiyar Vahabzadə, Hüseyn Arif, İsa Hüseynov və onlarla publisist, şair, yazıçı, dramaturq, Əziz Şərif kimi filoloq, Zərifə Əliyeva kimi oftalmoloq, Yusif Məmmədəliyev kimi kimyaçı alimlər bəxş etmişdir. Və Azərbaycan XX əsrin sonunda doğma xalqına milli müstəqillik, azadlıq sevdasını yenidən yaşadan, tarixin ağır sınaqlarına məruz qalaraq, vüqarını qoruyub saxlayan yurd yerini dahi dühası ilə işıqlandıran alovlu vətənpərvər, ictimai-siyasi xadim, Ulu öndər Heydər Əliyevi yetişdirib. Heydər Əliyev əsrlər boyu digər dahi vətən övladlarının formalaşdırdığı əzəmətli mədəni irsin böyük himayədarı, onu gələcək nəsillərə özünün əzəməti ilə ərmağan edə biləcək gücə malik tarixi missiyası ilə bütün fəaliyyətlərin fövqündə duran yüksək amallı böyük vətən oğludur.

Bütün həyatını vətənə həsr edən, onun inkişafı, dünya sivilizasiyasında layiqli yerini ala bilməsi üçün fədakarlıqla çalışan Heydər Əliyevin həyatı öz başlanğıcını 1923-cü ilin ılıq yaz günlərindən götürüb. Azərbaycanın qədim yurd yeri Naxçıvan torpağında dünyaya göz açan bu dahi şəxsiyyət elə bu torpaqda öz vətəninə, doğma elinə qulluq etməyi, onun incəsənətini, mədəniyyətini qoruyaraq daha da inkişaf etdirməyi, Azərbaycanı bir dövlət olaraq siyasi-ictimai, tarixi, mədəni nailiyyətlər məskəninə çevirmək, ona əsrlərin digər tərəfindən boylanan əzəmətli keçmişini, böyük dövlətçiliyini yenidən yaşatmağı öz fəaliyyətinin hədəfinə çevirmişdir. Məhz bu amal, bu əqidə Heydər Əliyev simasında bütün digər sahələr kimi Azərbaycan mədəniyyətinin qoruyucusu, himayədarını bütün dünyaya tanıtdırmışdır.

Heydər Əliyevin 1969-cu ildə Azərbaycana siyasi hakimiyyətə gəldiyi vaxt bir çox mənada təlatümlü illər idi. Həmin illərdə keçmiş SSRİ erməni havadarların fitvası ilə Azərbaycan xalqına, onun dahi övladlarına qarşı repressiya siyasəti yürüdən şəxsiyyətəpə-rəst rəhbərlikdən 10 ildən bir az çox idi ki, qurtulmuşdur. Lakin Azərbaycan və onun xalqına qarşı ədalətsiz iddialar, vətən övladlarının müqəddəs and yeri olan torpağa göz digən erməni şovinistləri və onların himayədarlarının təxribatları səngimək bilmirdi. Belə çətin şəraitdə siyasi fəaliyyətə başlamaq və ağır keçən mübarizələrdə qələbə qazanaraq xalqın tarixini, dilini, mədəniyyətini qorumaq və onu milli mentalitetə uyğun siması ilə gələcək nəsillərə irs olaraq ötürmək yalnız böyük ürək və dühaya sahib insanlara xas məziyyət idi. Heydər Əliyevin iti zəkası, fitri qabiliyyəti bütün bu çətinliklərin öhdəsindən məharətlə gəlir. O, hakimiy-yətə gəldiyi ilk günlərdən etibarən atdığı addımlar, verdiyi qərarlar, imzaladığı fərman və sərəncamlarla Azərbaycanın tarixi, siyasi bütövlüyünü, mədəniyyəti, dili, incəsənətinin qorunması sahəsində ilk ən əhəmiyyətli işləri görmüş olur.

Azərbaycan ədəbiyyatı, klassik Azərbaycan şairlərini böyük məhəbbətlə sevən, onların əsərlərini fəlsəfi mahiyyəti ilə dərk edib, təbliği ilə məşğul olan və bunu keçmiş SSRİ-nin ən yüksək kürsülərində deməkdən çəkinməyən Heydər Əliyevin filosof şair İmadəddin Nəsiminin irsinə dərin sevgisinin nəticəsi idi ki, o, 70-

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

ci illərdə Suriyaya etdiyi səfərlərin birində Hələb şəhərində Nəsiminin məzarını ziyarət edir. Bu ziyarət Nəsimi və onun kimi dahi Azərbaycan şairlərinin yaradıcılıq irsinin qorunub saxlanması, öyrənilməsi, təbliği sahəsində görüləcək işlərə dair veriləcək tapşırıqların başlanğıcını gətirən tarixi əhəmiyyətli ziyarət idi. Heç də təsadüfi deyil ki, Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi ilk dövrdə 1973-cü ildə yazıçı İsa Hüseynovun "Məşhər" romanı əsasında rejissoru Həsən Seyidbəyli olan filosof şair Nəsiminin həyatı və fəaliyyəti haqqında "Nəsimi" bədii filmi çəkilir. İmadəddin Nəsiminin 600 illik yubileyi ilə əlaqədar bu filmin çəkilməsinin təşəbbüskarının Heydər Əliyev olduğu şübhəsizdir. Yubiley ərəfəsində şairin əsərlərinin 29 ölkədə ingilis və fransız dilinə tərcümə edilməsi də Heydər Əliyevin Nəsimi dühasına verdiyi qiymətin nəticəsi idi.

İctimai-siyasi, ən başlıcası isə tarixi missiyanın məsuliyyəti fonunda Heydər Əliyev Azərbaycan mədəni irsinin öyrənilməsi və təbliği sahəsində fəaliyyətinə bir an belə olsun ara verməmişdir. O, bununla əlaqədar görəcəyi işləri layihələndirir, cəsarətli addımlar atırdı. Azərbaycan Yazıçılar İttifaqının VII qurultayında M.Füzulinin İraqın Kərbala şəhərindəki məzarının qorunması və qəbirüstü abidəsinin tikilməsinə toxunan Heydər Əliyevin çıxışı tapşırıq xarakterli çıxış idi.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk dövrdə əldə etdiyi ən böyük uğurlardan biri 1978-ci ildə qəbul olunan Azərbaycan SSRİ-nin növbəti Konstitusiyasında ilk dəfə olaraq rus dili ilə yanaşı, Azərbaycan dilinə də dövlət dili kimi rəsmi status verilməsinə nail olmaq idi. Çünki doğma dil mədəni nailiyyətlərin şərhi, izah olunması, inkişafı və gələcək nəsillərə ötürülməsi üçün bir xalqın istifadə edə biləcəyi ən böyük silahdır. Azərbaycan dilinə dövlət dili statusu verilməsi əsrlərlə toplanmış incəsənət əsərlərinin öyrənilməsi, tədqiq olunması, klassik Azərbaycan şairlərinin bədii sənət nümunələrinin araşdırılmasına daha geniş imkanlar yaradaraq, bu prosesin sürətlənməsinə səbəb olurdu. Bu vasitə ilə Azərbaycanın dahi övladlarını, qələm sahiblərini özününküləşdirməyə və özgələşdirməyə çalışan bədxah düşmənlərə tutarlı cavab vermək, milli mədəniyyət toplusunu qorumaq mümkün idi.

1981-ci ildə Heydər Əliyev bütün qarşıdurmalara baxmayaraq dahi Azərbaycan şairi Nizami Gəncəvinin 840-illik yubileyinin təntənəli şəkildə keçirilməsinə nail olur. Yubileydə dünyanın 20-dən artıq ölkəsindən çox sayda nümayəndənin iştirak etməsi Nizami irsinin dünya miqyasında tanınması, öyrənilməsi, təbliğ olunması demək idi ki, uzaqgörən siyasəti nəticəsində bunu bacarmaq Heydər Əliyev dühasının əsəri idi.

1966-cı ildə Şuşada olarkən Molla Pənah Vaqifin məzarını ziyarət etmək istəyən Heydər Əliyev onu tapa bilmir və qəbirüstü abidə ucaltmaq barədə qərar verir. 1980-81-ci illərdə tikilişi gedən M.P.Vaqif türbəsinın 1982-ci ilin soyuq qış günlərinin birində-14 yanvarda açılışı təşkil olunur. M.P.Vaqifin məqbərəsinin açılışı ilə əlaqədar Ulu öndər illər sonra deyir: "Bizim böyük şairimiz Vaqifin məqbərəsini açarkən Şuşaya mənim səfərimi- bunu mən heç vaxt unutmayacağam. 250 il bundan öncə yaşamış, yaratmış Molla Pənah Vaqifin məzarını mən qurdum, yaratdım və onun üzərində bir böyük məqbərə ucaltdım, abidə ucaltdım. Bu mənim böyük iftixar edə biləcəyim bir hadisədir". Heydər Əliyev həqiqətən də vətən övladlarının xatirəsi önündə gerçəkləşdirdiyi hər bir tarixi

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

missiyanı böyük iftixar hissi ilə xatırlayırdı. Elə həmin ildən etibarən qədim Şuşada "Vaqif poeziya günləri" keçirilməyə başlanılır. Heydər Əliyevin Azərbaycan poeziyasına verdiyi yüksək dəyərin nişanələrini daşıyan həmin tədbir Şuşa ermənilər tərəfindən işğal olunana qədər keçirilməyə davam edir. 2020-ci il 44 günlük "Vətən" müharibəsində əldə edilən tarixi qələbədən sonra bu ənənə yenidən bərpa olunur. Prezident İlham Əliyevin sərancamı ilə təmir edilən "Vaqif türbəsi" və onun ətrafı həmin tədbirə ev sahibliyi edir. Bu tarixi nailiyyət ilk növbədə Ulu öndərin vəsiyyətinin yerinə yetirilməsi, arzusunun gerçəkləşdirilməsi baxımından əhəmiyyətlidir.

1982-ci ildə Şuşaya səfər edən Heydər Əliyev şairə Xurşid Banu Natəvanın qəbirüstü abidəsinin açılışında iştirak etmiş, Ü.Hacıbəylinin ev muzeyini ziyarət edərək, onun xatirə kompleksinin yaradılmağı, bu xatirə kompleksinin dahi bəstəkarın yaşayıb-yaratdığı şəraiti dəqiq əks etdirməklə yanaşı, onun yaradıcılığını, musiqi mədəniyyətini təbliğ edən mərkəzlərdən birinə çevrilməsi vacibliyini vurğulamışdır. Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşaya xüsusi münasibət bəsləyən Ulu öndər şəhərin qədim mənzərələrinin saxlanılmasının, tariximizin qorunmasının zəruriliyini qətiyyətlə qeyd etmişdir. Bütün bunlar Heydər Əliyevin mədəni irsə, incəsənətə verdiyi yüksək qiymətin təzahürü idi.

Klassik ədəbiyyatla yanaşı, müasir yazıçı şairlərin, bəstəkarların, ümumiyyətlə, sənət adamlarının fəaliyyəti ilə daim maraqlanan, onların yaradıcılığı və əsərlərinin mahiyyəti və cəmiyyətin formalaşmasında rolunu düzgün qiymətləndirən Heydər Əliyev 1976-cı ildə Süleyman Rüstəmə, 1978-ci ildə bəstəkar Qara Qarayevə, 1980-ci ildə çətinliklərlə keçən 10 ilin mübarizəsi nəticəsi olaraq görkəmli yazıçı Süleyman Rəhimova, Rəsul Rzaya, 1981-ci ildə Mirzə İbrahimova, 1982-ci ildə Fikrət Əmirova, dirijor Niyaziyə, Sosialist Əməyi Qəhrəmanı kimi SSRİ-nin ən yüksək mükafatının verilməsinə nail olur.

Görkəmli mədəniyyət xadimlərinin, bəstəkar, yazıçı, şairlərin yaradıcılıq fəaliyyəti ilə daim maraqlanan, onların əməyinə dəyər verən Heydər Əliyev 04 fevral 1978-ci il tarixində Bakıda, 15 fevralda isə Moskvada Q.Qarayevin 60 illik yubileyi ilə əlaqədar keçirilən tədbirdə iştirak və çıxış etmişdir. Q.Qarayevin yaradıcılıq fəaliyyətinə nəzər salan Ulu öndər çıxışında demişdir: "Öz yaradıcılıq fəaliyyətinin qırx ili ərzində böyük qabiliyyətə və parlaq istedada malik olan Qara Qarayev tükənməz əzmkarlığı, fədakarlığı, əməksevərliyi sayəsində böyük və şanlı yol keçmişdir. Onun yaradıcılığı respublikamızın hüdudlarından çox-çox kənara çıxmışdır. Qara Qarayev özünəməxsus bəstəkarlıq məktəbi, təkcə Azərbaycan musiqi mədəniyyətinin deyil, həm də bütün sovet musiqi mədəniyyətinin inciləri sayılan gözəl əsərlər yaratmışdır. Onun yaradıcılığı fəlsəfi dərinliyi, bədii gözəlliyi, xüsusi koloriti ilə fərqlənir. Musiqi yaradıcılığını elmi tədqiqat işi ilə əlaqələndirən Qara Qarayev musiqişünaslığın nəzəri problemlərinin işlənməsinə böyük xidmət göstərmişdir"(3).

Heydər Əliyev həmin ilin 30 aprel tarixində italyan bəstəkarı Coakimo Rossininin Bakıda nümayiş olunan "Sevilya bərbəri" operasının təqdimatında iştirak edərək, yaradıcı heyətlə görüşmüş, onların fədakar əməyini qiymətləndirən fikirlər söyləmişdir.

Heydər Əliyevin Azərbaycana

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

rəhbərlik etdiyi illərdə səmərəli fəaliyyətlərinə görə mədəniyyət, incəsənət sahəsində çalışan çox sayda sənətkar mükafatlara layiq görülür. 1970-ci ildə şair S.Rüstəm, bəstəkar S.Hacıbəyov, rəssam T.Salahov, rejissor Ş.Mahmudbəyov, ssenarist A.Axundova, 1972-ci ildə yazıçı İ.Əfəndiyev, rejissor Ə.Ələkbərov, rəssam N.Fətullayev, aktyrolardan İ.Dağıstanlı, L.Bədirbəyli, H.Turabov, A.Pənahova, rəssam S.Bəhlulzadə, 1974-cü ildə bəstəkar F.Əmirov, baletmeyster N.Nəzirova, dirijor N.Rzayev, rəssam T.Nərimanbəyov, aktrisa N.Zeynalova, rəssam M.Abdullayev, publisist alim M.Arif, 1976-cı ildə şairlərdən B.Vahabzadə, Qabil, yazıçı M.İbrahimbəyov, heykəltəraş İ.Zeynalov, arxitektorlar H.Ələsgərov, Ə.Hüseynov, bəstəkar X.Mirzəzadə, 1978-ci ildə bəstəkar A.Əlizadə müğənni R.Behbudov, şair H.Arif, heykəltəraşlar T.Zeynalov, E.Zeynalov, Ə.Novruzu, rejissor E.Quliyev, operator R.İsmayılov, aktyor Ə.Qədirov, ədəbiyyatşünas B.Nəbiyev, 1980-ci ildə yazıçılardan R.İbrahimbəyov, Anar, İ.Qasımov, rejissorlardan R.Ocaqov, M.Dadaşov, şairlərdən Ə.Kürçaylı, M.Əliyev, ölümündən sonra Ə.Cəmil, aktyorlardan S.Rzayev, Ş.Məməmdova, H.İsmayılov, bəstəkar T.Quliyev, ikinci dəfə tənqidçi B.Nəbiyev Heydər Əliyev tərəfindən Azərbaycan SSRİ-nin Dövlət mükafatı ilə təltif olunurlar. Bu, böyük şəxsiyyətin milli mədəniyyətinin inkişafı naminə fədakarlıqla işləyən sənət adamlarına verdiyi qiymət və göstərdiyi qayğının növbəti dəfə təzahürü idi.

Azərbaycanda mədəniyyət sahəsində baş verən bütün yenilikləri daim diqqət mərkəzində saxlayan Heydər Əliyev bu istiqamətdən keçirilən bir çox tədbirin təşəbbüskarı olmuşdur. 1970-ci illərdə Bakıda Dövlət Filarmoniyasında Niyazinin dirijorluğu ilə cümə günləri təşkil olunan simfonik musiqi axşamları onun təşəbbüsü ilə keçirilən tədbirlərdən biri idi. Bu vasitə ilə Heydər Əliyev Azərbaycanda həm yüksək səviyyəli mədəni inkişafa nail olmağı, həm də dünya bəstəkarlarının əsərləri ilə Azərbaycan dinləyicisinin yaxından tanış olmağını təmin etməyi hədəfləyirdi. Həmin konsertlərdə Ulu öndərin iştirakı haqqında bəstəkar F.Əlizadə deyir: “Heydər Əliyev zəngin ensiklopedik biliyə malik dahi şəxsiyyət idi. Bu mənada incəsənətin bir qolu olan musiqi də onun diqqətindən kənarda deyildi. O, musiqini çox sevir, bu sənətin sirlərini dərindən bilirdi. Görkəmli musiqiçilərlə yaxın ünsiyyəti vardı və münasibətlər musiqi sənətinin inkişafına xidmət edirdi. Məsələn, onun maestro Niyazi ilə dostluğu bir çox layihələrin həyata keçməsində mühüm rol oynamışdı. 1970-ci illərin əvvəllərindən başlayaraq Heydər Əliyevin təşəbbüsü ilə maestro Niyazi hər ayın cümə günləri Dövlət Filarmoniyasında simfonik musiqi axşamları təşkil edirdi. Bu konsertlərin ən böyük əhəmiyyəti təbliğat xarakteri daşıması, yəni insanların klassik musiqi ilə maariflənməsi idi. Həmin musiqi axşamlarında o vaxt Mərkəzi Komitənin bütün üzvləri, bəstəkarlar, musiqişünaslar və digər peşə, elm sahibləri iştirak edirdilər. Heydər Əliyev həyat yoldaşı Zərifə xanımla bu konsertlərdə müntəzəm iştirak edir, hər dəfə də musiqiçilərlə görüşüb, onlarla öz fikirlərini bölüşürdü”(8). Bütün bu cümlələr Heydər Əliyevin mədəniyyətə, incəsənətə olan sevgisindən əlavə onun bu sahəni dərindən bilərək, şəxsi bədii və elmi mülahizələrə malik olmaq qabiliyyətindən xəbər verirdi. 1979-cu ildə keçirilən Azərbaycan Bəstəkarlarının V qurultayındakı çıxışında Heydər Əliyevin müxtəlif musiqi janrlarından bəhs edərək, xüsusilə iri həcmli əsərlərin yaradılması vacibliyini

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

vurğulaması və bəstəkarlara bu istiqamətdən verdiyi tövsiyələr bu baxımdan əhəmiyyətlidir.

Azərbaycançılıq ideyasının ən böyük təbliğatçısı olan Heydər Əliyev onun mədəniyyətinin qan yaddaşı olan yazılı, şifahi bədii yaradıcılıq nümunələrinə daim qayğı göstərmişdir. Təsadüfi deyil ki, yazılı ədəbiyyatın ilk nümunələrindən olan "Kitabı-Dədə Qorqud" dastanlarındakı milli təfəkkürü yüksək qiymətləndirən Heydər Əliyevin tapşırığı ilə dastan elmi cəhətdən tədqiq edilir. Onun motivləri əsasında 1975-ci ildə "Dədə Qorqud" filmi çəkilir.

XX əsrin 60-70-ci illərinin yaradıcı mühitində formalaşan, yaradıcılıq fəaliyyəti ilə məşğul olan sənət adamları-yazıçı, şair, bəstəkarlarla səmimi dostluq münasibəti saxlayan Heydər Əliyev əldə olunan hər nailiyyət və müvəffəqiyyəti onlarla birlikdə qeyd edirdi. 80-ci illərdə SSRİ Nazirlər Sovetinin sədrinin I müavini işlədiyi dövrdə Moskvada Kreml sarayında səhnələşən F.Əmirovun "Min bir gecə" baletinin nümayişində həyat yoldaşı Z.Əliyeva ilə birlikdə iştirak etməsi, F.Əmirov, Q. Qarayev, T.Quliyevlə səmimi dostluq münasibətləri Heydər Əliyevin alicənab mənəviyyatının zənginlikləri idi.

Heydər Əliyev Azərbaycan poeziyasının böyük şairi, ölməz yaradıcılıq təfəkkürü ilə fəlsəfi mahiyyəti dərin əsərlərin müəllifi H.Cavid irsinin qorunması, təbliği sahəsində gördüyü işlərlə vətənin dahi övladları simasında onun mədəniyyətinə, incəsənətinə olan dərin ehtiramını bir daha ifadə etmişdir.

21 iyul 1981-ci ildə H.Cavidin anadan olmasının 100 illiyinin təntənəli şəkildə qeyd olunması haqqında qərara əsasən Naxçıvan və Bakı şəhərlərində H. Cavidin ev muzeyləri açılmalı, heykəli ucaldılmalı, H.Cavid poeziya teatrı yaradılmalı idi. Bütün bunlar 02 oktyabr1982-ci ildə Naxçıvana səfər edən Heydər Əliyev üçün prioritet təşkil edən məsələlər idi. Bu səfər zamanı H. Cavidin nəşinin Sibirdən gətirilərək doğma vətəndə torpağa verilməsi haqqında qərar qəbul edilir. Bunun üçün təhkim olunan H.Cavidin həmyerliləri Həmid Cəfərov, Telman Əliyev və Zakir Nəsirov işin öhdəsindən bacarıqla gələrək dahi şairin nəşinin doğma vətənə gətirilməsinə nail olurlar. Bu səfərin uğurlu olmağının ən böyük səbəbkarı isə Heydər Əliyev idi. O, keçmiş SSRİ rəhbərliyini H.Cavidin nəşinin vətənə gətirməyə razı salmaq üçün o dövrdə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin sədri olan L.İ.Brejnevlə tam 30 dəqiqə söhbət aparmalı olur. Bəzi bədxahların, ən başlıcası isə ermənilərin "Azərbaycan, daha doğrusu Heydər Əliyev pantürkist şairin meyitinin qalıqlarını vətənə gətirir"-ittihamlarından çəkinməyərək belə bir addım atan Heydər Əliyev ilk başda vətənə, daha sonra isə onun mədəniyyəti, incəsənəti, ədəbiyyatına olan sevgisini hərəkətləri ilə etiraf edirdi. Heydər Əliyevin bu addımının əhəmiyyətini vurğulayan H.Cəfərov deyir: "Cavidin evində də ziyarət bitəndən sonra noyabrın 2-si isə xüsusi təyyarə ilə Naxçıvana yola salındıq, noyabrın 3-də də Cavid doğulduğu Naxçıvanda vətən torpağına tapşırıldı. Nəhayət, mən də Heydər Əliyevin bu vacib tapşırığını layiqincə yerinə yetirdiyim üçün qürur duydum" (7). Cavid poeziyasına olan məhəbbət, bunun timsalında isə Azərbaycan ədəbiyyatına olan sevginin növbəti təzahürü Heydər Əliyev Azərbaycanda ikinci dəfə hakimiyyətə gəldikdən sonra özünü büruzə verir. Ağır "blokada" şəraitində olan Naxçıvanda dahi şairin 110 illik yubiley tədbirlərində çıxış edən Heydər Əliyev deyir: "Bu gün

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

bayram günüdür, bu gün bütün Azərbaycan xalqı üçün, o cümlədən naxçıvanlılar üçün böyük bir bayramdır. Biz Azərbaycanın böyük yazıçısı, şairi, dramaturqu, mütəfəkkiri, filosofu Hüseyn Cavidin anadan olmasının 110 illiyini qeyd edirik. Bu dünya heç kim üçün, heç kəs üçün əbədi deyil. Hüseyn Cavid öz həyatı dövründə yaratdığı mənəvi, mədəni sərvətlərlə özünü əbədiləşdiribdir. Ona görə də bugünkü toplantı, bu mərasim, bu yubiley gecəsi deyil, bayram gecəsidir. Biz Hüseyn Cavidin əsərlərinin uzun illərdən sonra qalibiyyətini qeyd edirik və bayram edirik" (1).

XX əsrin 90-cı illəri Azərbaycan xalqı üçün həqiqətən də ağır dövr idi. Həmin illərin ağır ictimai-siyasi şəraitində yenidən vətənə qayıdan Heydər Əliyev H.Cavidin qəbirüstü məqbərəsinin olma-dığından narahatlığını ifadə edərək qısa zaman içərisində bu barədə əhəmiyyətli qərarlar verir. Onun tapşırığı əsasında H.Cavidin məzarı üzərində məqbərə ucaldılır. Şairin tək yadigarı Turan Cavidin ailə üzvlərinin bir yerdə dəfn etmək barədə xahişinə Heydər Əliyevin müsbət cavabı nəticəsində 13 sentyabr 1996-cı ildə Müşkünaz xanımın nəşi Bakıdan, Ə.Cavidin nəşi isə Naxçıvan qəbiristanlığından götürülərək, H.Cavid məqbərəsində dəfn edilir. Oktyabr ayının 29-da baş tutan Cavidlər türbəsinin açılış tədbirində Ulu öndər çıxış edərək H.Cavidə olan dərin ehtiramını dilə gətirir. Bütün bunlar isə Heydər Əliyev şəxsiyyətinin böyüklüyünün, onun vətən, xalqın mədəniyyəti, incəsənətə verdiyi böyük dəyər idi.

Mədəniyyət özünün tarixi nailiyyətləri ilə bir xalqın ən böyük dəyəri, onun mənəvi keyfiyyətlərinin ən gözəl göstəricisidir. İncəsənətin bütün sahələri mədəniyyətin tərkib hissəsi kimi onun kompleks şəkildə inkişafı və tərəqqisini təmin edir. Ədəbiyyata isə incəsənətin ən vacib sahələrindən olduğu üçün yüksək qiymət verən Heydər Əliyev xalqa milli ruh aşılamaqda onun əhəmiyyətini xüsusi vurğulayaraq deyirdi: "Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir". Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk dövrdə milli ədəbiyyatın dahi nümayəndələrinin Bakıda abidələri ucaldılır, memarlıq kompleksləri yaradılır. Bu eyni zamanda incəsənətin tərkib hissəsi olan heykəltəraşlıq, memarlıq sənətinin də yüksək səviyyədə inkişafını təmin edən taleyüklü, strateji əhəmiyyətli fəaliyyət idi. Heydər Əliyev Azərbaycanda ikinci dəfə hakimiyyətə gəldikdən sonra bu fəaliyyətini şaxələndirərək davam etdirmiş, onun sərəncamları ilə mədəniyyət sahəsində çalışan incəsənət xadimləri müxtəlif mükafatlar, fəxri adlarla təltif edilmiş, Azərbaycanın maddi-mənəvi dəyərlərinin qorunması haqqında əhəmiyyətli qərarlar qəbul edilmiş və icra olunmuşdur. Cövdət Hacıyev, Süleyman Ələsgərov, Hacı Xanməmmədov, Xəyyam Mirzəzadə, Vasif Adıgözəlov, Azər Rzayev, Ramiz Mustafayev, Tofiq Bakıxanov, Musa Mirzəyev, Aqşin Əlizadə, Ramiz Mirişli "Şöhrət" ordeni, Arif Məlikov, Tofiq Quliyev, Müslüm Maqomayev, Habil Əliyev, Zeynəb Xanlarova, Arif Babayev, Məmməd Araz, Bəxtiyar Vahabzadə və Xəlil Rza Ulutürkün "İstiqlal" ordeni ilə təltif olunması, Şəfiqə Axundova, Oqtay Zülfüqarov, Emin Sabitoğlunun Azərbaycan Respublikasının xalq artisti, Həsənağa Qurbanov, Siyavuş Kəriminin

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

əməkdar incəsənət xadimi fəxri adlara layiq görülməsi, 1996-ci ildə Füzuli adına beynəlxalq mükafatın təsis edilməsi, 1997-ci ildə "Azərbaycan Yazıçılarına dövlət qayğısını artırmaq haqqında" fərmanın imzalanması, 1995-ci ildə qəbul olunan fərmanla 18 sentyabr tarixinin "Milli Musiqi Günü" kimi qeyd olunması və başqa bu kimi onlarla əhəmiyyətli işlər Heydər Əliyevin Azərbaycan mədəniyyəti qarşısında xidmətlərinin yalnız bir neçəsidir.

Ümumiyyətlə, Azərbaycan incəsənəti, mədəniyyətinin inkişafı ilə bağlı, bu sahədə fəaliyyət göstərmiş böyük şəxsiyyətlərin yaradıcılıq irsinin öyrənilməsi, təbliği sahəsində Heydər Əliyevin qəbul etdiyi qərarlar, verdiyi sərəncamlar, onun tapşırığı ilə Azərbaycanın mədəniyyət mərkəzi hesab olunan bölgələrində, ümumiyyətlə, respublikanın hər bir güşəsində aparılan quruculuq işləri, görkəmli sənətkarların yaradıcılıq irsinin keçmiş SSRİ və onun hüdudlarından uzaqlarda təbliği sahəsində gördüyü işlər əzmkarlıq, fədakarlıq nümunəsidir. Ulu öndərin bu tarixi missiyası hal-hazırda onun timsalında "Heydər Əliyev Fondu" tərəfindən uğurla davam etdirilir. Bu, Ümummilli liderin vətənə, onun ədəbiyyatı, musiqisi, rəssamlığı-kompleks şəkildə incəsənəti, mədəniyyətinə olan sevgisinin, ehtiramının sonsuzluğu fəth edən ifadəsidir.

## ƏDƏBİYYAT

1. Babaxanlı G. Heydər Əliyevin Cavid sevgisi. https://modern.az/heyder-eliyevin-huseyn-cavid-sevgisi/200152 08.05.2019
2. Əhmədova S. Heydər Əliyev və Cavid taleyi. "Xalq qəzeti" 10 mart 2013-cü il, s.7
3. Xalqa bağışlanmış ömürdən anlar: 1978-ci il. 31.10.2022 https://azertag.az/xeber/Xalqa_bagislanmis_omurden_anlar_1978_ci_il-2356280
4. Heydər Əliyevə həsr edilən musiqi əsərləri zamanın bədii həqiqətləridir. https://medeniyyet.az/page/news/55197/Heyder-Eliyeve-hesr-edilen-musiqi-eserleri-zamanin-bedii-heqiqetleridir.html
5. Hacıyev G. Heydər Əliyev- Azərbaycan mədəniyyətinin ən böyük himayədarı və qayğıkeşi. 09 may 2021 http://www.goranboy-ih.gov.az/az/news/1711.html
6. Qasımov R. Ədəbiyyatımızın böyük hamisi. "İki sahil" https://ikisahil.az/post/414584-edebiyyatimizin-boyuk-hamisi
7. Məmmədova Ş. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı məsələləri. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı: 2014
8. Polkovnik: Heydər Əliyev təhlükəsizliyə görə Hüseyn Cavidin cənazəsinin İrəvandan Naxçıvana aparılmasına icazə vermədi. -Müsahibə https://apa.az/az/edebiyyat
9. Təhmirazqızı S. Musiqidə əbədiləşən ömür. "Mədəniyyət" qəzeti 14 iyul 2010-cu il, s.1-4
10. Ümummilli lider Heydər Əliyev Molla Pənah Vaqif muzey-məqbərəsi və poeziya günləri barədə. https://www.youtube.com/watch?v=YyA6spCZ-H4

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

# TƏBİƏT ELMLƏRİ

**DAŞQIN QƏNBƏROV**
*qenberov71@mail.ru*
*Naxçıvan Dövlət Universiteti*

## HEYDƏR ƏLİYEV VƏ NAXÇIVAN TƏBİƏTİ

*Təbiətin ölkəmizə bəxş etdiyi zəngin sərvətlərə xüsusi qayğı ilə yanaşmaq, belə misilsiz xəzinələri bəşəriyyətin gələcəyi naminə qorumaq üzərimizə düşən başlıca vəzifələrdəndir.*

Heydər Əliyev
*Azərbaycan xalqının Ümummilli lideri*

Prezident İlham Əliyev 2022-ci ilin sentyabrın 29-da "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" sərəncam imzalayıb. Dövlət başçısının 2022-ci ilin noyabrın 28-də imzaladığı digər sərəncamı ilə "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı" təsdiqlənib.

Ulu öndər ana yurdumuzu qarış-qarış gəzərkən, onun inkişafının təməl planlarını qurarkən heç vaxt ekologiyanı, təbəti yaddan çıxarmamışdır. Çünki Tanrı bizə bənzərsiz bir təbiət gözəlliyi bəxş etmişdir. Dünyanın ən böyük alimləri, ekoloqları ölkəmizdə olmuş, nadir təbiətimizin füsunkarlığından vəcdə gəlmişlər. Bütün dünya həm tarix, həm təbiət baxımından Azərbaycanımızı ən nümunəvi coğrafiya sayır. Elə buna görə də Heydər Əliyev Azərbaycan təbiətinə xüsusi önəm vermiş, onun daim təbii və ilkin toxunulmazlığını qorumağın vacibliyini zəruri saymışdır (3, s.4).

Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş ekoloji qərarlar, qanunlar, sərəncamlar ölkəmizin təbiətinin sağlamlığına yönəlmişdir. Bu iş ardıcıl, müntəzəm və sistem halında görüldüyü üçün böyük səmərə vermişdir. Təbiətə yönəlik hər hansı qəsd Ulu öndəri çox hiddətləndirərdi: "Mən 1993-cü ildə Bakıya gələrkən bizim əkdiyimiz, becərdiyimiz bəzi ağacların kəsilməsini görərkən elə bildim ki, məni yaralayıblar. Mən dəfələrlə demişəm, bir də deyirəm, kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir İnsan qurmalıdır, yaratmalıdır hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir. Ona görə də siz hər bir ağacı qorumalısınız, hər bir ağacın qorunması uğrunda mübarizə aparmalısınız" (1, s.2). Bu sözlərdə görkəmli dövlət xadiminin böyüklüyü qədər sadəliyi, dərinliyi qədər şəffaflığı öz əksini tapır. Biz burada qəbul etdiyi qərarların arxasında duran saf qəlbli qüdrətli bir insanın durduğunu görürük.

Bütün məqamlarda olduğu kimi, bu sahədə də bəşərin dahi müəllimi, Azərbaycan xalqının Ulu öndəri Heydər Əliyevdən öyrənmək, onun tövsiyələrindən bəhrələnmək faydalı olardı. Bu tövsiyələrdə ağacın, yaşıllığın, saf və təmiz ekologiyanın insana xidmət etdiyi, onun özü qədər qiymətli olduğu nəzərə çarpır.

Ulu öndər Heydər Əliyevin fəaliyyətində ekoloji vəziyyətin daha da yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə edilməsi məsələləri həmişə xüsusi diqqət mərkəzində olmuşdur. Təsadüfi deyil ki, məhz Ümummilli liderimizin 1969-1982 və 1993-2003-cü illərdə respublikamıza rəhbərlik etdiyi dövrlərdə ekologiya və ətraf mühitin mühafizəsi sahəsində

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

mühüm qanunlar və qərarlar qəbul edilmiş, bu sahədə çox böyük dəyişikliklər həyata keçirilmişdir. Qeyd edək ki, Heydər Əliyevin rəhbərliyi dövründə, 1969-1982-ci illərdə ətraf mühit sahəsində 8 qanun qəbul olunub, hökumət səviyyəsində 30-dan artıq qərar təsdiq edilib (5).

1993-cü ildə yenidən hakimiyyətə gəlmiş Ulu öndərimiz ekoloji məsələləri bir daha ön cərgəyə çəkdi və meşə, torpaq, su və s. haqqında bir sıra yeni qanunlar qəbul edildi. 1998-ci ildə ekoloji prioritetləri müəyyən edən "Ətraf mühitin mühafizəsi üzrə Milli Fəaliyyət Planı" hazırlandı. Bu Proqramda nəzərdə tutulmuş layihələrin həyata keçirilməsi nəticəsində Azərbaycanda müasir Təhlükəli Tullantılar poliqonu, Xallı Nərə Balıqartırma zavodu inşa edildi.

2003-cü ildə Heydər Əliyev tərəfindən ekoloji siyasətin müasir strategiya sənədi olan "Ekoloji cəhətdən davamlı sosial-iqtisadi inkişafa dair" Milli Proqram təsdiq edildi. Bu strateji proqram əsasında ətraf mühitin müxtəlif sahələri üzrə 4 milli və dövlət proqramları, Kompleks Tədbirlər Planı təsdiq edilib və həyata keçirilir.

Müstəqillik əldə ediləndən sonra respublikada bir sıra struktur islahatları aparılmış, ətraf mühitin qorunması, təbii ehtiyatlardan istifadənin ayrı-ayrı aspektləri ilə məşğul olan və fəaliyyətlərində qismən bir-birini təkrarlayan bir sıra komitə və birliklər ləğv edilərək onların bazasında Prezidentin 23 may 2001-ci il tarixli 485 saylı Fərmanı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmışdır.

Təbiətin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi bəşəriyyətin, eləcə də ölkəmizin ən vacib problemlərindən biridir. Unudulmaz lider Heydər Əliyevin ekoloji siyasətinə uyğun olaraq, ölkədə bitkilərin, heyvanların və mikroorqanizmlərin məhv olması təhlükəsinin qarşısının alınması üçün mühüm tədbirlər həyata keçirilmiş, bir sıra qoruqlar və milli parklar yaradılmışdır.

11 avqust 2002-ci il tarixdə Ulu öndər Heydər Əliyev Şahbuz rayonunun Biçənək kəndində olmuş və kənd zəhmətkeşləri ilə görüşmüşdür: "- Əziz Biçənəklilər, bacılar, qardaşlar, uşaqlar, gənclər! Mən sizin hamınızı salamlayıram. Bu gün, həqiqətən, təbiətin füsunkar guşəsi olan Biçənək kəndində olmağımdan, bütün bu dağ-daşı, yenilməz qayaları görməyimdən həddindən artıq sevinirəm. Siz qəhrəman insanlarsınız ki, burada, bu dağların başında yaşayırsınız. Sizin ətrafınız qayalardır, daşlardır. Bilirəm, burada təbii fəlakətlər olur. Belə şeylər siz yaşadığınız yerlərdə daha çox olur, nəinki şəhərlərdə, yaxud aran yerlərində olan kəndlərdə. Amma sizin xüsusiyyətiniz odur ki, dağ adamısınız. Dağ adamı həmişə öz sağlamlığı ilə fərqlənir. Həm fiziki sağlamlığı, həm də zehni sağlamlığı ilə, yüksək mənəviyyatı ilə fərqlənir. Dağ adamı zəhmətkeşliyi ilə fərqlənir. Bilirəm, bu dağların arasında, qayaların arasında yaşamaq və yaşamaq üçün şərait yaratmaq asan məsələ deyildir. Amma siz fədakar insanlarsınız, eyni zamanda, qəhrəman insanlarsınız ki, burada yaşayırsınız. Buranın xüsusiyyəti odur ki, gözəl iqlimi var, gözəl havası, yamacları, çəmənləri, qayaları var. Bəzi qayalara baxanda elə bil dünyanı görürsən. Amma çətinlik də odur ki, burada yaşayış şəraiti başqa yerlərə nisbətən çətindir. Yəni o tərəfi də var, bu tərəfi də var. Ancaq sizin taleyiniz bura ilə bağlıdır. Ata-babalarınız burada yaşayıblar, özünüz də burada yaşayırsınız. Amma görün burada, dağın başında, bu qayaların içində nə qədər gözəl uşaqlarınız var. Baxıram, hər biri gedib gözəllik müsabiqəsindən keçsə, ən yüksək qiymət alacaqdır. Həm qızlar, həm də oğlanlar nə qədər

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

gözəldirlər. Çünki təbiətlə yaşayırlar. Təbiətlə yaşayan insanlar, yenə də deyirəm, həm güclü olur, həm ağıllı olur, həm də gözəl-göyçək olur. Bax, sizi görürəm, sevinirəm" (6). 2003-cü ildə Naxçıvanda qoruq və mili parkın yaradılması haqqında sərəncam imzalandı.

Azərbaycan Respublikası Şahbuz Dövlət Təbiət Qoruğunun və

Ordubad Milli Parkının yaradılması haqqında

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Ətraf mühitin mühafızəsi, ondan səmərəli istifadə edilməsi, nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin qorunub saxlanılması, respublikanın xüsusi mühafızə olunan təbiət əraziləri şəbəkəsinin inkişaf etdirilməsi məqsədilə "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası qanunun 8-ci, 17-ci və 21-ci maddələrini rəhbər tutaraq qərara alıram:

Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun inzibati ərazisinin əlavə olunan xəritədə göstərilmiş 3139 hektarlıq sahəsində Azərbaycan Respublikasımn Şahbuz Dövlət Təbiət Qoruğu yaradılsın.

Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun inzibati ərazisinin əlavə olunan xəritədə göstərilmiş 12131 hektarlıq sahəsində Azərbaycan Respublikasının Ordubad Milli Parkı yaradılsın.

Azərbaycan Respublikasının Ordubad Milli Parkına akademik Həsən Əliyevin adı verilsin.

Heydər Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 iyun 2003-cü il.

12 avqust 2002-ci il tarixdə unudulmaz rəhbərimiz Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirədəki giriş nitqində söyləmişdir: "Hörmətli dostlar! Hörmətli xanımlar və cənablar! Siz bilirsiniz ki, avqust ayının 7-də mən Azərbaycan Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması haqqında sərəncam imzalamışam. Bu sərəncamda da bu bölmənin qarşısında duran vəzifələr haqqında qısa fikirlərimi bildirmişəm. Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda, Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də düz olardı deyim ki, heç öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var. 0na görə ki, Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsi olaraq, Azərbaycan xalqının tarixində, ümumiyyətlə, Azərbaycan anlayışında çox böyük yer tutur. Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə, bir çox işlər görülübsə, Naxçıvanın tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi - həm təbiətinin, həm adət-ənənələrinin, etnoqrafiyasının öyrənilməsi barədə çox az iş görülübdür. Bunları nəzərə alaraq, mən bu sərəncamı vermişəm. Ancaq Naxçıvan Bölməsinin fəaliyyəti təkcə bunlarla məhdudlaşmayacaqdır. Azərbaycanın təbii sərvətləri - həm yeraltı, həm də yerüstü sərvətləri çox zəngindir. Mən indi bu barədə xırdalıqlara varmaq istəmirəm. Bunların hamısı məni

məcbur etdi ki, nəhayət, qərar qəbul etdim, sərəncam verdim. Mən 300 nəfər ştat ayırmağa hazıram. Bu barədə də artıq sərəncam vermişəm. Bu işi təşkil etmək lazımdır. Amma belə böyük bir işi təşkil etmək üçün onun səviyyəsinə qalxmaq lazımdır. Mən çox narahatam ki, ola bilər, ştat da verək, bölmə də yaradaq, başqa işləri də görək, amma bütün işlər köhnə qayda ilə getsin. Köhnə qayda ilə gedəndə də, - necə ki, on illərlə həmin qayda ilə gedib, lazımi nəticə əldə etməmişik, - sabah da nəticə olmayacaqdır. Mən bununla razılaşa bilmərəm" (7).

Beləliklə, Naxçıvan Muxtar Respublikasının flora və faunasının öyrənilməsinə, biomüxtəlifliyinin qorunmasına dair tarixi sərəncam imzalanmışdır.

Bu gün Ümummilli liderimizin arzuları möhtərəm Prezidentimiz İlham Əliyevin diqqət və qayğısı ilə həyata keçirilir. Uzun illərdir blokada şəraitində yaşamasına baxmayaraq, muxtar respublikada sabitlik və inkişafa nail olunub, etibarlı müdafiə sistemi yaradılıb. Daxili imkanlardan səmərəli istifadə və həyata keçirilən iqtisadi islahatlar nəticəsində ərzaq və enerji təhlükəsizliyi təmin edilib. Şəhər və rayon mərkəzlərindən ən ucqar dağ və sərhəd kəndlərinə qədər, bütün yaşayış məntəqələri qazlaşdırılıb, mənzillərə fasiləsiz elektrik enerjisi verilir, əhaliyə dayanıqlı rabitə və sürətli internet xidməti göstərilir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında ekologiyaya dair milli proqramların təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı: 18 fevral 2003-cü il, № 1152.
2. Cabbarlı Ə. Heydər Əliyev və Naxçıvan tarixi məsələləri: monoqrafiya / Ə. Cabbarlı; elmi red. E. Cəfərli. - Naxçıvan: Əcəmi NPB, 2015. - 232 s.
3. Həbibbəyli İ. Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr / İ. Həbibbəyli.- Naxçıvan: Əcəmi NPB, 2013.- 272 s.
4. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, 472 s.
5. Qasımov Ə.Q. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi. (1969-2003-cü illər. Bakı: "Turxan" NPB, 2013, 264 s.
6. Seyidov M.M., İbadullayeva S.C., Qasımov H.Z., Salayeva Z.K. Şahbuz Dövlət Təbiət Qoruğunun flora və bitkiliyi. Elmi metodiki vəsait. Naxçıvan: Əcəmi, 2014, 523 s.
7. Səfərli F. Heydər Əliyev irsi - əbədiyaşar təlim. Naxçıvan: Əcəmi NPB, 2014, 200 s.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

# TİBB ELMLƏRİ

**İLHAMƏ MUSTAFAYEVA**
*Naxçıvan Dövlət Universiteti*

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN SƏHİYYƏSİ

Azərbaycanda digər sahələr kimi, səhiyyənin inkişafı da məhz Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin Azərbaycana rəhbərliyi dövründən başlayaraq ölkəmizdə səhiyyənin inkişafı sürətlənməyə başlamış, bir sıra mühüm islahatlar həyata keçirilmiş, müstəqillik illərində müasir xəstəxana binaları tikilərək istifadəyə verilmiş, bu sahənin qanunvericilik bazası təkmilləşdirilmiş, müasir səhiyyə infrastrukturu yaradılmışdır.

Tibbi xidmətin keyfiyyətcə müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı məsələləri dövlətin üzərinə götürdüyü sosial öhdəliklər sırasında mühüm yer tutur. Ulu öndərin müəyyənləşdirdiyi strateji siyasət kursunu bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev səhiyyə sistemində də layiqincə davam etdirir. Ötən müddətdə bu vacib sahənin inkişafı, onun maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsi, infrastrukturun yeniləşdirilməsi daim diqqət mərkəzində saxlanılmışdır. Dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitlərin ildən-ilə artırılması tibb müəssisələrinin fəaliyyətinin, ümumilikdə, tibb xidmətinin çağdaş tələblər səviyyəsinə qaldırılmasına yeni imkanlar açmışdır. Ölkə başçısının da dediyi kimi: "Səhiyyə xidməti ən yüksək səviyyədə olmalıdır. Bu bizim sosial siyasətimizin əsas istiqamətidir. Çünki insanların sağlamlığı üçün bütün işlər görülməlidir. Azərbaycanda güclü iqtisadi və sosial siyasət aparılır. Hər bir yaşayış məntəqəsində, hər bir rayonda tibbi xidmət yüksək dünya səviyyəsində olmalıdır".

Ümummilli liderin siyasətini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev səhiyyənin inkişafına xüsusi diqqət yetirir. Çünki əhalinin sağlamlığının qorunması dövlətin əsas prioritet sahələrindən biridir. Məhz bu səbəbdən bu gün səhiyyənin inkişafı diqqətdə saxlanılır, bu sahə dövlət qayğısı ilə yüksək səviyyədə təmin olunur. Səhiyyə sisteminin yenidən qurulması, infrastrukturunun yenilənməsi, səhiyyə müəssisələrinin müasir avadanlıqlarla təchiz olunması, kadr hazırlığı, yoluxucu xəstəliklərin profilaktikası və əks-epidemik tədbirlərin aparılması daim diqqət mərkəzində saxlanılır, insanların sağlamlığının qorunması üçün tədbirlər görülür. Hazırda səhiyyə müəssisələrində dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıqlarla müayinə və müalicə işləri aparılır, müxtəlif kabinələr fəaliyyət göstərir.

Muxtar respublikanın səhiyyə müəssisələrində hər ay minlərlə insan ambulator və stasionar müalicə edilir. Yerli kadrlar tərəfindən müstəqil şəkildə bir çox mürəkkəb cərrahiyyə əməliyyatlarının aparılmasına nail olunub. Mövcud kadrların ixtisaslarını artırmaq üçün müxtəlif həkim briqadaları Naxçıvana dəvət edilmiş və yerli kadrlarla birgə müayinə və müalicələrin aparılmasında iştirakı ardıcıl təmin olunmuşdur. Səhiyyə müəssisələri tərəfindən Dövlət proqramları ilə əhatə edilmiş xəstələrə müayinə, müalicə və dərman təchizatı sahəsində keyfiyyətli xidmət göstərilməsi işi də daim nəzarətdə saxlanılır.

Son illər Azərbaycanda bütün sahələrin dinamik inkişafını hər birimiz öz

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

həyatımızda görürük. Bu inkişafın təməlində dayanan başlıca amillərdən biri də səhiyyə ilə bağlı qəbul olunmuş mühüm Dövlət proqramlarıdır. Həmin proqramlar əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə əhatə olunması, icbari tibbi sığortanın tətbiqi sözügedən istiqamətdə gerçəkləşən siyasətin əsas prioritetlərini təşkil edir.

Səhiyyədə qazanılan uğurları bu gün muxtar respublikamızda da görmək olar. Bəhs edilən sahənin yeni dövrün tələblərinə uyğunlaşdırılması, əhalinin sağlamlığının etibarlı təminatına imkan verən müasir tibb infrastrukturunun yaradılması Naxçıvanda dinamik xarakter alan genişmiqyaslı quruculuq işlərinin mühüm tərkib hissəsinə çevrilmişdir. Səhiyyə sahəsində həyata keçirilən mühüm islahatlar öz bəhrəsini göstərməkdədir. Diyarımızda dövlət başçısının qayğısı ilə yüzlərlə səhiyyə obyektinin tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilməsi ölkəmizin iqtisadi potensialının sosial siyasətin icrasına, əhalinin sağlamlığına yönəldiyinin parlaq göstəricisidir.

Sağlam cəmiyyətin formalaşmasında səhiyyənin mühüm rolu vardır. Ona görədir ki, tarixən tibb elminə, həkimlik sənətinə qayğı insanlığa qayğı kimi dəyərləndirilmişdir. Müasir dövrdə də ölkələrin inkişafında əhalinin sağlamlıq səviyyəsi və tibbi xidmətlə təminat əsas göstərici hesab olunur. Muxtar respublikanın bütün bölgələrində inşa olunan, hər cür tibbi avadanlıqlarla təchiz edilən səhiyyə obyektləri bir gerçəkliyi vurğulayır: dövlətimizin əsas amalı insan sağlamlığıdır. Bu gün nəinki Naxçıvan şəhərində, eləcə də ən ucqar dağ və sərhəd yaşayış məntəqələrində yüksək tibbi şərait yaradılıb, günün bütün saatlarında xəstələri abad yollarla, müasir tibbi avadanlıqlarla təchiz edilmiş təcili yardım maşınları ilə lazımi səhiyyə ocağına çatdırmaq imkanına nail olunub. Əgər bu gün xəstələr pulsuz dərmanlarla təmin olunursa, sağlam gələcəyimiz naminə təhsil müəssisələrində profilaktik tədbirlər həyata keçirilirsə, ana və körpələrin vaxtlı-vaxtında müayinəsi aparılırsa, müxtəlif ixtisaslı həkim briqadaları bütün yaşayış məntəqələrində insanları tibbi yoxlamaya cəlb edirsə, bu, sağlamlığa göstərilən qayğının ən böyük nümunəsidir.

Son zamanlarda muxtar respublika səhiyyəsində aparılan islahatlar əhalinin xüsusi məmnunluqla qarşıladığı yeniliklərlə diqqət çəkir. Məlumdur ki, 2023-cü il Azərbaycan Respublikasında Ümummilli lider Heydər Əliyevin yüz illiyi münasibətilə "Heydər Əliyev İli" elan olunub. Ulu öndərin 100 illik yubileyi ilə bağlı muxtar respublikada aparılan genişmiqyaslı islahatlar göstərir ki, səhiyyə sistemi də sürətlə inkişaf edir, müasirləşir. Tikilən, qurulan nə varsa, əhalinin sağlamlığının qorunmasına, orta ömür müddətinin uzanmasına xidmət edir.

Ümummilli liderin 1993-cü ildə ölkə rəhbərliyinə qayıdışından sonra həyata keçirməyə başladığı islahatların içərisində Naxçıvan Dövlət Universitetində Tibb fakültəsinin yaradılması da yurd sevgisinin böyük ifadəsidir. "Səhiyyə xalqımızın sağlamlığı və gələcəyidir", – deyən Ulu öndər Heydər Əliyev hər zaman bu sahəyə diqqətlə yanaşıb, xüsusi qayğı göstərib. Bu gün Naxçıvanda səhiyyə sektorunda aparılan kompleks islahatlar Ulu öndərin layiqli davamçıları tərəfindən ardıcıllıqla həyata keçirilir. Naxçıvan Dövlət Universitetində Tibb fakültəsinin yaradılması, Naxçıvan Tibb Kollecinin müasir tələblər səviyyəsində yenidən qurulması, ixtisasların sayının artırılması səhiyyə

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

müəssisələrinin ixtisaslı tibbi kadrlarla təminatına imkan verir. Həmçinin həkimlər və orta tibb işçiləri ixtisasartırma kurslarına göndərilir, onların bilik səviyyəsi və peşəkarlığı artırılır.

Səhiyyə sahəsində görülən tədbirlər çərçivəsində kadr təminatının təkmilləşdirilməsi də vacib məsələ kimi daim diqqət mərkəzində saxlanılır. Ölkəmizin ali təhsil müəssisələri sırasında qabaqcıl yerlərdən birində qərar tutan Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi Naxçıvanın blokada şəraitində olması nəzərə alınaraq tibbi kadrlara tələbatın ödənilməsi məqsədilə 1999-cu ildə Ümummilli liderimiz Heydər Əliyevin himayəsi ilə yaradılmışdır. O dövrdə bir ixtisasla fəaliyyətə başlayan fakültə ötən müddətdə inkişaf edərək hazırda həm bakalavr, həm də rezidentura təhsili üzrə həkim hazırlığı həyata keçirir. Tibb sahəsi üzrə yüksəkixtisaslı kadrlar hazırlamaq və dünya tibb elminə daha sıx inteqrasiya etmək üçün universitet xarici ölkə universitetləri ilə sıx əlaqələr qurmuşdur. 25 tələbə ilə fəaliyyətə başlayan fakültədə hazırda rezidentura təhsili ilə birlikdə 2000 nəfər tələbə təhsil alır ki, onların arasında xarici ölkə vətəndaşları da çoxluq təşkil edir.

Təhsilin keyfiyyətini yüksəltmək məqsədilə universitetdə üçmərtəbəli kliniki xəstəxana da istifadəyə verilmişdir. Bu səhiyyə müəssisəsi müxtəlif xəstəliklərin müayinə və müalicəsi üçün ixtisaslaşmaqla yanaşı, tələbələrə universitet ərazisində praktik dərslərin keçilməsi üçün də əlverişli imkanlar yaratmışdır. Fakültənin müasir tədris korpusu yenilikçi standartlara cavab verən avadanlıqlarla, kabinə və laboratoriyalarla təchiz edilmişdir. Tələbələr ixtisaslarının profillərinə uyğun olaraq, Naxçıvan Muxtar Respublikasının müvafiq xəstəxanalarından baza xəstəxanası kimi istifadə edir. Kliniki dərslərin əksəriyyətini xəstəxanalarda, bilavasitə xəstələr üzərində keçilməsi üçün lazımi şərait yaradılmışdır. Eyni zamanda Naxçıvan Muxtar Respublika Xəstəxanasında əməliyyatları auditoriyalarda canlı izləmək üçün müvafiq qurğular qurulmuşdur.

Universitetdə yüksək səviyyədə qurulan beynəlxalq əlaqələr xarici ölkələrin ali məktəbləri ilə əməkdaşlıq müqavilələrinin bağlanılmasına, ikili diplom layihələrinin həyata keçirilməsinə, ortaq elmi araşdırmaların aparılmasına da şərait yaradıb. Bu əməkdaşlıqlar çərçivəsində universitetin professor-müəllim heyəti il ərzində bir sıra nüfuzlu konqreslərə, sammitlərə dəvət olunurlar. Müasir dövrümüzdə, qloballaşan dünyada milli mədəniyyət, tarixi və etnik kökləri ilə bir-birinə bağlı olan Azərbaycan Respublikası və Türkiyə Respublikası bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də əməkdaşlıq və bərabərlik nümayiş etdirir. Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələrində də Türkiyənin özünəməxsus yeri vardır. Bu tədbirlər içərisində tibb ixtisası üzrə təhsil alan tələbələrin qardaş Türkiyə Cümhuriyyətinin nüfuzlu universitetlərində keçdiyi ənənəvi yay istehsalat təcrübələrinin də xüsusi yeri vardır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı müvafiq Sərəncamla təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası nəticəsində muxtar respublikada genişmiqyaslı infrastruktur quruculuğu layihələri reallaşdırılacaq, elm və təhsil müəssisələri tikilib istifadəyə veriləcək. Çünki bu gün dövlətimiz təhsilin inkişafını birbaşa sosial öhdəlik kimi qarşıya məqsəd qoyub. Qeyd edək ki, Dövlət Proqramı əsasında yeni təhsil infrastrukturları reallaşdırılacaq ki, tibb fakültəsinə aid olacaq yeni kampus da

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

şəhərin ən gözəl guşələrindən birində inşa olunmaqla tibbə dair bütün müasir təchizatla təmin olunacaq.

Universitetin son illərdəki uğurlu əməkdaşlıq əlaqələri, eləcə də qabaqcıl universitetlərlə ikili diplom layihələrinin reallaşdırılması da uğurlu addımlardır. Dünya universitetləri və digər beynəlxalq qurumlarla bu cür faydalı əməkdaşlıqlar qısa müddətdə Naxçıvan Dövlət Universitetini dünyanın qabaqcıl ali təhsil ocaqlarından birinə çevirib. Bu əlaqələrin qurulmasında tələbələrin xarici dil biliklərinə yiyələnməsi müasir dövrün tələbinə uyğun olaraq, mütləq xarakter daşıyır. Buna görə də bu ildən ingilisdilli tibb ixtisasının fəaliyyətə başlaması, eləcə də Universitetin Beynəlxalq Məktəbinin istifadəyə verilməsi də yeni tədris ilinin mühüm yeniliklərindən biridir. Qeyd edək ki, ingilis dilində "Tibb" ixtisasında təhsil alan tələbələrin ixtisasları üzrə tibbi biliklər əldə etmələri, bu ixtisas üzrə Avropanın müxtəlif universitetləri ilə ikili diplom layihələrini həyata keçirməyə, müxtəlif mübadilə proqramları əsasında müəyyən təhsil dövrlərində xarici ölkələrdə təhsil almalarına geniş imkanlar yaradacaq, eyni zamanda ingilis dilində tibb təhsili sonrakı təhsil səviyyələrində yüksəkixtisaslı kadr kimi formalaşmaqda Avropa universitetlərində rezidentura və ya uzmanlıq təhsili üçün geniş imkanlar yaradacaq.

Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Hande Harmancının rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvanda səfərdə olarkən Naxçıvan Dövlət Universitetində tibb fakültəsinin fəaliyyəti ilə də yaxından tanış olmuşdur. Görüş zamanı ali təhsil müəssisəsinin tibb fakültəsi ilə tanışlıq qonaqlarda böyük təəssürat yaratmışdır.

Müasir Azərbaycan səhiyyəsinin dinamik inkişafının memarı olan Ulu öndər Heydər Əliyevin siyasi kursunun ölkəmizdə, eləcə də muxtar respublikamızda davam etdirilməsi digər sahələr kimi, səhiyyə sistemində də yeni uğurlara vüsət verib. Əminliklə demək olar ki, görkəmli dövlət xadiminin uzun illərə hesablanmış strategiyasının uğurla tətbiqi nəticəsində səhiyyə sistemini qarşıda daha böyük tərəqqi, nailiyyətlər gözləyir. Bu da bir həqiqətdir ki, insanların baş tacı onların sağlamlığıdır. Amma xəstəliklərdən də heç zaman sığortalanmamışıq. Xoşbəxtik ki, artıq səhiyyənin acınacaqlı illəri arxada qalmışdır. İndi səhiyyə infrastrukturunda aparılan islahatlar nəticəsində gündən-günə yeni nailiyyətlər əldə olunur. Düşünülmüş, planlı şəkildə gələcəyə yol almış bu inkişaf tablosunda səhiyyənin xüsusi yeri var. Çünki bu günümüz kimi, gələcəyimiz də yalnız sağlam insanların sağlam düşüncələri üzərində qurulacaqdır.

Bu gün Azərbaycan artıq 44 günlük Vətən Müharibəsində öz ərazi bütövlüyünü təmin etmiş, işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq işləri aparan dövlət olaraq gücünü həm dosta, həm də düşmənə göstərməkdədir. Bir çox dünya ölkələri tərəfindən də maraqla izlənilən bu tədbirlər Azərbaycan dövlətinin iqtisadi gücünü, nüfuzunu göstərir. Çox şükürlər olsun ki, Azərbaycan Prezidentinin müdrik siyasəti, ordumuzun qətiyyəti sayəsində bizim bayrağımız yenə də Qarabağın bütün ərazisində dalğalanır. Son hadisələr də göstərir ki, Azərbaycan Ordusu ərazi bütövlüyümüzün bərpa olunması yolunda bütün təxribatların qarşısını qətiyyətlə almağa qadirdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: "İndi Azərbaycan xalqı görür ki, biz nəyə qadirik. Görür ki, biz müharibədə də qələbə qazanırıq, həyatda da

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

qələbə qazanırıq və bizi güclü edən xalqın iradəsidir, xalqın birliyidir. Müharibədə də Zəfərimiz xalqın birliyi nəticəsində olmuşdur. Bu gün quruculuq-abadlıq işlərini apararkən bizi gücləndirən xalqın iradəsi, dəstəyidir".

Qələbə Zəfərini yaşadığımız və onun hər anını unudulmaz bir xatirə kimi qəlbimizdə əzizlədiyimiz bu günlərdə Prezidentimizlə, ordumuzla öyünməyə, fəxr etməyə haqqımız vardır. Əminəm ki, bundan sonra da Azərbaycan dövləti tərəfindən daha böyük qələbələrə imza atılacaq, Azərbaycan xalqı Prezident cənab İlham Əliyevin rəhbərliyi altında özünün ən xoşbəxt günlərini yaşayacaqdır.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası 30 aprel 2010-cu il tarixli (protokol №10-R) qərarı ilə Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər" jurnalının aşağıdakı seriyalarını müstəqil jurnallar kimi tanımışdır:

1. Elmi əsərlər. *Humanitar elmlər seriyası*
2. Elmi əsərlər. *İctimai elmlər seriyası*
3. Elmi əsərlər. *Təbiət elmləri və tibb seriyası*
4. Elmi əsərlər. *Fizika-riyaziyyat və texnika elmləri seriyası*

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası sədrinin 20 dekabr 2010-cu il tarixli 48-01-947/16 saylı məktubuna əsasən "Elmi əsərlər" jurnalına çap üçün təqdim edilən məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:

1. Məqalənin mətni – 17 sm x 25 sm formatında, sətirlərarası – 1 intervalla, Times New Roman-12 (Azərbaycan dilində - latın, rus dilində - kiril, ingilis dilində - ingilis əlifbası ilə) şrifti ilə yığılmalıdır.
2. Müəllifin (müəlliflərin) adı və soyadı, elmi dərəcəsi tam şəkildə yazılmalı, elektron poçt ünvanı, çalışdığı müəssisənin (təşkilatın) adı göstərilməlidir.
3. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər verilməlidir (açar sözlər məqalənin və xülasələrin yazıldığı dildə olmalıdır).

Məqalələr və xülasələr (üç dildə) kompyuterdə çap olunmuş şəkildə CD-lə (disklə) birlikdə təqdim edilməlidir, CD-lər geri qaytarılmır.

4. Ədəbiyyat siyahısı AAK-ın "Dissertasiyaların tərtibi qaydaları" barədə qüvvədə olan Təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin 10.2-10.4.6 tələblərinə uyğun tərtib olunmalıdır.
5. Məqalənin xülasəsi və açar sözləri rus və ingilis dillərində olmalıdır (150-200 söz)

**Kitabların (monoqrafiyaların, dərsliklərin və s.) biblioqrafik təsviri kitabın adı ilə tərtib edilir.** *Məs.: Həbibbəyli İ.Ə. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı, Nurlan, 2007, 696 s.*

**Müəllifi göstərilməyən və ya dörddən çox müəllifi olan kitablar (kollektiv monoqrafiyalar və ya dərsliklər) kitabın adı ilə verilir.** *Məs.: Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan. Naxçıvan: Əcəmi, 2010, 300 s.*

**Çoxcildli nəşrə aşağıdakı kimi istinad edilir.** *Məs.: Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə, I cild, Bakı, Lider nəşriyyat, 2004, 440 s.*

**Məqalələrin təsviri aşağıdakı şəkildə olmalıdır:** *Məs.: Hacıyev İ.M. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ermənilərin Azərbaycana qarşı ərazi iddiaları, bunun qarşısının alınması. // NDU-nun Elmi əsərləri. İctimai elmlər seriyası, 2011, №1, s.13-18*

**Məqalələr toplusundakı və konfrans materiallarındakı mənbələr belə göstərilir:** *Məs.: Həbibbəyli İ.Ə. Naxçıvan şəhərinin yaşı-beş min il./ "Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik" mövzusunda elmi-praktik konfransın materialları. Bakı: Nurlan, 2007, s.20-27*

**Dissertasiyaya aşağıdakı kimi istinad olmalıdır:** *Məs.: Həsənli O.Q. Şagird şəxsiyyətinin formalaşdırılmasında diyarşünaslıq materiallarından istifadənin sistemi: Pedaqoji elm.dok. ... . dis. Naxçıvan, 2005, 240 s.*

**Dissertasiyanın avtoreferatına da eyni qaydalarla istinad edilir, yalnız "avtoreferat" sözü əlavə olunur.**

**Qəzet materiallarına istinad belə olmalıdır:** *Məs.: Şeremetyevski P.A. Naxçıvanın duz yataqları. "525-ci qəzet" qəz., Bakı, 28 iyul 2012*

**Arxiv materiallarına aşağıdakı kimi istinad edilir.** *Məs.: Naxçıvan MDTA: f.19, siy.3, iş 56 v.7-9*

İstifadə edilmiş ədəbiyyat siyahısında son 5-10 ilin ədəbiyyatına üstünlük verilməlidir.

**Elmi əsərlər jurnalında çap olunan məqalələrin elektron variantı ilə
**www. ndu.edu.az.** saytında tanış olmaq olar.

***P.S: Kənar müəssisələrdən NDU-nun "Elmi əsərlər"inə məqalə göndərən müəlliflər NDU rektorunun adına, təmsil olunduğu müəssisə rəhbərinin məktubunu da təqdim etməlidir. Növbəti saylarda bu tələblərin hər hansı birinə cavab verməyən məqalələr nəşriyyat tərəfindən qəbul edilməyəcəkdir.***

*REDAKSİYA HEYƏTİ*

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

**TO THE AUTHORS!**

By its 30 April, 2010 (minutes J\b 10-R) decision of the Higher Attestation Commission attached to the President of the Azerbaijan Republic has admitted the following series of the journal **"Scientific works" of Nakhchivan State University as independent journals:**

**1. Scientific works. Humanitarian sciences series**

**2. Scientific works. Social sciences series**

**3. Scientific works. Nature sciences and medicine series**

**4. Scientific works. Physics-mathematics and technical sciences series**

By the letter Ns 48-01947/16, 20 December, 2010 of the Chairman of the Higher Attestation Commission attached to the President of the Azerbaijan Republic the articles submitted for publication in the journal **"Scientific works"** of NSU should follow the following the rules**:**

**1. Papers should be typed in single space ,{4 size (17sm x 25sm) format, in l2pt Times New Roman (in Azerbaijani -in Latin alphabet, in Russian - in Cyrillic, in English –in the English alphabet).**

**2. Name(s) and surname(s) of the author(s) and affiliation(s), their scientific degree should be given in full, their e-mail address and complete address (university, organization) should be shown.**

**3. Each article should include UOT indexes or codes of PACS type and keywords (keywords should be in the language in which the article and abstracts have been written).**

The articles and abstracts (in three languages) should be submitted in computer typed form and electronic form (in CD disk); CDs ate not given back.

**4. List of literature (References) should meet the 10.2 -10.4. 6. requirements of the section "Used Literature" of the Instruction of the HAC "Rules for Dissertations" which is in power.**

**5.The abstract and key words of the article should be in Russian and English language (150-200 words) Sources in "References" are shown as follows:**

Books (monographies, text-books, etc.) Habibbayli I.A. Literary-historioal memory and modernism**. Baki, Nurlan, 2007,696 p.**

Multi-authored books (collective monographies and text-books) Noah prophet, world's gale and Nakhchivan: **Adjami, 2010, 300 p.**

Multi-volume publications Encyclopedia of the Azerbaijan People's Republic. In 2 volumes, I volume, **Baki, Lider Publishing house, 2004,440 p.**

**Articles/ Papers Hajiyev LM. Tenitorial claims of the Atmenians against Azerbaijan during the Azerbaijan People's Republic and its prevention. //** Scientific works of NSU. Social sciences series, 2011, Nr 1, pp. 13-18.

Series of articles and conference materials Habibbayli I.A. Age of the city Nakhchivan- five thousand years. **/ Materials of the scientificpractical conference "Establishment of Nakhchivan Autonomous Republic: history and modernism". Baki, Nurlan, 2007, pp.20-27**

**Thesis /Dissertation Hassanli O.G.** Use system of regional ethnographic materials in the formation of student personality: Doctor of pedagogical sciences ... Disselt, Nakhchivan, 2005, 240 p.

**The same is applied to the Synopsis of thesis, only the word "synopsis of thesis" is added.** Newspaper materials Sheremetyevski P. A. Salt deposits of Nakhchivan. Newspaper "Newspaper 525", Baki, 28 July,20l2.

**Archive materials Nakhchivan MDTA:** f. 19, list 3, work 56 v.7-9

The literature ofthe last 5-10 years in the references is specially prefened.

**P.S: The authors from other enterprises should also submit the letter by his/her head to the rector of NSU for publication of their papers. the papers which do not meet these requirements will not be admitted.**

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

## К СВЕДЕНИЮ АВТОРОВ!

Высшая Аттестационная Комиссия при Президенте Азербайджанской Республики по решению (протокол № 10-Р) от 30 апреля 2010 года признал как самостоятельные журналы нижеследующие серии журнала **«Научные труды» Нахчыванского Государственного Университета:**

1. **Научные труды.** ***Серия гуманитарных наук***
2. **Научные труды.** ***Серия общественных наук***
3. **Научные труды.** ***Серия естественных и медицинских наук***
4. **Научные труды.** ***Серия физико-математических и технических наук***

На основани письма № 48-01-947/16 от 20 декабря 2010 года председателя Высшей Аттестационной Комисси при Президенте Азербайджанской Республики статьи, представленные для публикации в журнале **«Научные труды»**, должны составляться на основе нижеследующих требований:

1. Текст статьи должен быть набран в формате 17 см х 25 см, межстрочный интервал 1 на компьютере в программе Times New Roman-12 (на азербайджанском языке латинским, на русском – на кирили, на английском – на английском алфавите).

2. Имя и фамилию автора (авторов), ученую степень следует написать полностью, указать адрес электронной почты, название предприятия (организации), где работает.

3. В каждой статье следует дать индексы УДК или коды типа PACS (ключевые слова должны быть написаны на языке статьи и резюме).

4. Ключевые слова статьи должны быть на русском и английском языках.(150-200 слов)

Статьи и резюме должны быть набраны на компьютере (на трех языках) и представлены в электронной версии на диске СД (СД не возвращаются).

5.Список литературы должен составляться в соответствии с требованиями раздела 10.2-10.4.6 «Использованная литература» существующей Инструкции ВАК «О порядках составления Диссертаций».

**Библиографическое описание книг (монографий, учебников и т.д.) составляется названием книги.** *Напр.: Габиббейли И.А. Литературно-историческая память и современность. Баку, Нурлан, 2007, 696 с.*

**Книги, в которых не указан автор, и которые имеют более четырех авторов (коллективные монографии или учебники), даются по названию книги.** *Напр.: Пророк Ной, всемирный потап и Нахчыван: Аджеми, 2010, 300 с.*

**На многотомное издание ссылка дается в нижеследующем порядке:** *Напр.: Энциклопедия Азербайджанской Народной Республики. В 2-х томах, том I, Баку, издательство Лидер, 2004, 440 с.*

**Ссылка на статьи должна быть в нижеследующем порядке:** *Напр.: Гаджиев И.М. Территори-альные притязания армян к Азербайджану в период Азербайджанской Народной Республики и их предотвращение. // Научные труды НГУ. Серия общественных наук, 2011, № 1, с. 13-18.*

**На источники по сборникам статей и материалам конференций следует указать так:** *Напр.: Габиббейли И.А. Городу Нахчыван – пять тысяч лет. / Материалы научно-практической конференции на тему: «Создание Нахчыванской Автономной Республики: история и современность». Баку: Нурлан, 2007, с. 20-27.*

**На диссертацию следует ссылаться так:** *Напр.: Гасанлы О.Г. Система использования краеведческих материалов в формировании личности ученика: Дис… доктора педагогических наук. Нахчыван, 2005, 240 с.*

**На автореферат диссертации ссылка дается также, но следует добавить слово «автореферат».**

**Ссылка на газетные материалы производится так:** *Напр.: Шереметевски Р.А. Сольные скважины Нахчывана. Газ. «525-я газета», Баку, 28 июля 2012*

**Ссылка на архивные материалы дается так**: *Напр.: НГИА Нахчывана: ф.19, оп.3, д. 56, лл.7-9.*

В списке использованной литературы следует предпочитать литературу последних 5-10 лет.

**П.С.: Присылающие в «Научные труды» НГУ статьи из других организаций авторы, должны представить на имя ректора НГУ письмо руководителя организацию, которую они представляют. Статьи, не отвечающие на эти требования, не будут в последующем приняты издательством.**

**РЕДКОЛЛЕГИЯ**

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)**

# DÜZƏLİŞLƏR ÜÇÜN SƏHİFƏ

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, (Xüsusi buraxılış)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, (Special edition)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, (Специальное издание)

## PAGE FOR CORRECTION

## СТРАНИЦА ДЛЯ КОРРЕКЦИЙ

Nəşriyyat direktoru: Məhəmmədəli Məmmədli
Mətbəə müdiri: Vidadi Kazımov
Qrafik dizayner: Sahilə Abbasova
Redaktor: Zəhra Rəhimova
Aparıcı korrektor: Sitarə Əlizadə

Yığılmağa verilib: 12.02.2024
Çapa imzalanıb: 08.08.2024
Formatı: 60/90, 32/1, həcmi 10.06 ç/v
Sifariş №229, sayı 60 nüsxə

NDU-nun nəşriyyatının mətbəəsində çap olunmuşdur

**REDAKSİYANIN ÜNVANI:** *7012. Naxçıvan şəhəri,*
*Universitet şəhərciyi,*
*Naxçıvan Dövlət Universiteti,*
*Əsas bina, I mərtəbə,*
*Naxçıvan Dövlət Universiteti nəşriyyatı.*

**TELEFON**: (00994 036) 545-45-59
(00994 036) 544-08-61

**E-mail:** *elmi.hisse@mail.ru*